İSSN 2224-5529

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR
## HUMANİTAR ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS
## THE SERIES OF THE HUMANITARIAN

# НАУЧНЫЕ ТРУДЫ
## СЕРИЯ ГУМАНИТАРНЫХ НАУК

№ 1 (90)
II CİLD

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2018

# PEDAQOGİKA

**MEHRİBAN CƏFƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*ceferova.m@box.az*

**UOT: 372.8:78**

## MUSİQİ MƏŞĞƏLƏLƏRİNDƏ MUĞAMLARIN ÖYRƏDİLMƏSİ ZAMANI MƏKTƏBLİLƏRƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN AŞILANMASI İŞİNİN PSİXOLOJİ ƏSASLARI

**Açar sözlər:** *musiqi dərslərində muğamların tədrisi, muğamların mənəvi keyfiyyətlər aşılanması, muğamların öyrədilməsinin psixoloji əsasları, muğam qabiliyyətləri, istedadlı ifaçı, talantlı ifaçı*

**Key words:** *teaching mugams in music classes; agitation of moral qualities in mugams; psycological bases in teaching mugams; mugam; capabilities; gifted performer, talanted performer*

**Ключевые слова:** *обучение мугамам на уроках музыки, выявление духовных качеств во время обучения мугамам, психологическая основа в обучении мугамов, склонность к мугаму, способный исполнитель, талантливый исполнитель*

Azərbaycan Dövlətinin və Heydər Əliyev Fondunun köməkliyi və qayğısı sayəsində unudulmaqda olan muğam sənətinə böyük önəm verildi. Bu qayğıya cavab olaraq ölkəmizin bütün mədəniyyət-incəsənət və təlim-tərbiyə müəssisələrində yetişən nəslin nümayəndələrinin muğamlarla tanış edilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində olduğu kimi Naxçıvan MR-in təlim-tərbiyə müəssisələrində də muğam ifaçılığı sahəsində ciddi işlər görülür. Unutmaq olmaz ki, Azərbaycan muğamları məktəblilərin bədii zövqlərilə yanaşı onların mənəvi keyfiyyətlərinin də formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan musiqi məşğələlərində musiqi müəllimi muğamların bədii zövq oxşayan tərəflərilə yanaşı onların mənəvi tərbiyə baxımından imkanları üzərində iş aparmalıdır. Müəllim elə etməlidir ki, həmin muğam qabiliyyəti olan uşaqlar əvvəlcə muğam ladlarının xüsusiyyətlərini, muğam ifaçılığının sirlərini, muğamın söz tərəfinin düzgün tələffüzünü, ən ümdəsi isə muğamın tərbiyəvi cəhətləri ilə bağlı bəzi nüansları mütəmadi olaraq qavraya bilsinlər. Məlum olduğu kimi V-IX sinif şagirdləri içərisində musiqi məktəblərinin muğam şöbəsində oxuyanlar olur. Belə şagirdləri sinifdəki digər şagirdlərə təhkim etmək lazımdır. Psixoloqlar sübut etmişlər ki, hər hansı fəaliyyətdə qabiliyyətin olması vacibdir. Ona görə ki, nümunəvi fəaliyyətdə bilik, bacarıq və vərdişlər sistemi yaranır ki, bu sistem qabiliyyətlərin inkişafını təmin edir.

Psixologiya elmi qabiliyyətlər ilə fəaliyyətin mühüm komponentləri olan bilik, bacarıq və vərdişlərin eyniyyətini inkar etməklə yanaşı, onların vəhdətini də xüsusi olaraq göstərir. Qabiliyyətlər yalnız fəaliyyətdə, özü də həmin qabiliyyətlər olmadan icrası qeyri-mümkün olan fəaliyyətdə aşkar olunur. Əgər bir şəxsə muğam öyrətmək üçün cəhd göstərilməmişsə, əgər o, muğam fəaliyyəti üçün zəruri olan heç bir vərdiş əldə etməmişdirsə, onun musiqi qabiliyyətindən danışmaq yersiz olar. Yalnız xüsusi musiqi təlimi prosesində insanda musiqi qabiliyyətinin olub-olmadığını aşkara çıxarmaq mümkündür. Bu da özünü iş üsullarının, lad-məqam elementlərinin nə dərəcədə və asanlıqla mənimsənilməsində büruzə verir (1, səh. 460).

Deməli sinifdə muğama meyl edən şagirdlərlə fərdi yanaşma yolu ilə iş aparmaq mümkündür. Bu zaman muğam qabiliyyəti olan səriştəli şagirdlərin köməyilə digər şagirdlərdə də muğama olan marağın artmasına şərait yaratmaq olar. Psixoloqların rəyinə görə pedaqoji prosesdə fərdi fərqlərin üzə çıxarılması sinfin səviyyəsini müəyyənləşdirməyə kömək edir. Muğam qabiliyyəti olanların digərlərindən fərqləndirilməsi onların digərlərinə təhkim edilməsi bütün şagirdlərin muğama olan marağını artırmış olur. Muğam ifaçılığında da fərdi-psixoloji fərqlər özünü büruzə verir. Fərdi fərqlər psixi proseslər, psixi hallar

və psixi xassələr baxımndan insanların bir-birilərindən fərqləndirilməsidir. Fərdi fərqlər anadangəlmə, beyin, sinir sisteminin xüssuiyyətləri ilə bağlı olsa da, həyatı boyu, fəaliyyət və ünsiyyət, təlim-tərbiyənin təsiri altında, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsi prosesində yaranır və inkişaf edir. Fərdi fərqlərin öyrənilməsi differensial psixologiyanın predmetidir (3, səh. 230).

Deməli şagirdlərin sinif mühitində, yəni uşaqların qrup halında musiqi, nəğmə, melodiya öyrəndikləri ictimai mühitdə onların qarşılıqlı əlaqələri prosesində mənəvi cəhətdən zənginləşmələrinə xüsusi şərait yaranmış olur. Bütün bunlar deməyə əsas verir ki, muğam qabiliyyətləri hər hansı bir fəaliyyətin müvəffəqiyyətli icrası zamanı muğama dair bilik-bacarıqların və mənəvi keyfiyyətlərin üzə çıxarılmasına şərait yaratmış olur.

Beləliklə, qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub, müəyyən fəaliyyətin müvəffəqiyyətlə icrasına imkan yaradır və həmin fəaliyyət üçün zəruri sayılan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqləri meydana çıxarır. Əgər şəxsiyyətə xas olan keyfiyyətlərin müəyyən məcmuyu mənimsənilən fəaliyyətin tələblərinə cavab verirsə və həmin fəaliyyəti şəxsiyyət pedaqoji cəhətdən əsaslandırılmış müddət ərzində mənimsəyirsə, onda bu, həmin adamda mövcud fəaliyyətə qabiliyyətin olması barədə fikir söyləməyə əsas verir. Əgər başqa bir adam eyni şəraitdə fəaliyyətin onun qarşısına qoyduğu tələblərin öhdəsindən gələ bilmirsə, bu, bizə onda müvafiq psixoloji keyfiyyətlərin, başqa sözlə, qabiliyyətin olmamasını güman etməyə əsas verir (1, səh. 461).

Təcrübə və müşahidələr göstərir ki, orta ümumtəhsil məktəblərində uşaqların muğam qabiliyyətlərinin üzə çıxarılmasına ibtidai sinifdən başlamaq lazım olsa da, muğamların dərindən öyrədilməsinə V sinifdən başlamaq, VI-VIII siniflərdə muğamlara, onların mənəvi keyfiyyətlər aşılayan tərəflərinə bələdliyi artırmaq lazımdır. Bunun üçün uşaqlarda ümumi və xüsusi qabiliyyətlərin üzə çıxarılmasına nail olmaq gərəkdir.

Ümumi və xüsusi qabiliyyətlər deyəndə nə başa düşülür? Müxtəlif qabiliyyətlərin konkret psixoloji xüsusiyyətlərini öyrənərək biz bir yox, bir neçə fəaliyyətin tələblərinə cavab verən daha ümumi keyfiyyətləri və yalnız bir fəaliyyətin məhdud tələblərinə cavab verən xüsusi keyfiyyətləri ayıra bilərik. Bəzi fərdlərin qabiliyyətinin quruluşunda bu ümumi keyfiyyətlər çox qabarıq şəkildə təzahür edə bilər ki, bu da insanlarda hərtərəfli qabiliyyətin, müxtəlif fəaliyyət, ixtisas və məşğuliyyətlərə ümumi qabiliyyətin olması haqda danışmağa imkan verir. Yalnız zehni istedad testlərinin tətbiqi nəticəsində aşkara çıxarılan ... bu ümumi qabiliyyət və ya keyfiyyətlər ümumiyyətlə istedadlılıq kimi xüsusi qabiliyyət və keyfiyyətlərə qarşı qoyulmamalıdır (1, səh. 468).

Sadəcə olaraq musiqi məşğələlərində, yaxud bədii yaradıcılıq dərnəklərində, eləcə də maraq kurslarında V-VIII sinif şagirdlərinin musiqi qabiliyyətlərini yoxladıqdan sonra onların muğamlara olan maraq və meyllərinin səviyyəsini düzgün müəyyənləşdirmək olar. Məhz belə bir təqdirdə bir sıra qabiliyyətli şagirdlərdəki talantı üzə çıxarmaq mümkündür. Bu zaman musiqi müəllimi talantın ictimai-tarixi təbiəti barədə nəzəri məlumatlara malik olmalıdır.

Talantın ictimai-tarixi təbiəti deyəndə nə başa düşülür? Qabiliyyətin ən yüksək mərhələsi talant adlanır. Talant insana hər hansı mürəkkəb əmək fəaliyyətini müstəqil, müvəffəqiyyətlə və orijinal surətdə icra etməyə imkan verən qabiliyyətlər kompleksidir.

Talant da qabiliyyətlər kimi yalnız yaradıcılıqda böyük müvəffəqiyyət və yüksək ustalıq əldə etmək üçün imkandır. Yaradıcılıq nailiyyətləri isə son nəticədə insanların varlığının ictimai-tarixi şəraitindən asılıdır. Əgər cəmiyyət talantlı (istedadlı) adamlara ehtiyac hiss edirsə və onların inkişafı üçün şərait yaranmışsa, o zaman belə adamların meydana çıxması da mümkün olur (1, səh. 470).

Ona görə də şagirdləri muğam ifaçılığı ilə əlaqədar olan bədii yaradıcılıq dərnəklərinə və ya maraq kurslarına cəlb edərkən məqsədyönlü, planlı və mütəşəkkil iş aparmaq lazımdır. Belə olan təqdirdə muğam qabiliyyəti və muğam ifaçılığı sahəsində talantı olan şagirdlərin üzə çıxarılmasına şərait yaranacaqdır. Çünki məhz planlı və məqsədyönlü iş sahəsində muğam qabiliyyəti olan uşaqlarda talantın oyanması hadisəsi baş verəcəkdir.

Talantın oyanması ictimai cəhətdən şərtlənmiş olur. Özünün tam dəyərli inkişafı üçün hansı istedadın daha əlverişli şərait əldə etməsi dövrün tələbatından və dövlət qarşısında duran konkret məsələlərin xüsusiyyətlərindən asılıdır (1, səh. 471).

Məsələn, Heydər Əliyev Fondunun rəhbəri YUNESKO-nun və İSESKO-nun xoşməralı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təşkil olunan televiziya muğam müsabiqələrinin

başlanmasına start verildiyi andan muğam ifaçılığı üçün çox əlverişli bir şərait yarandı. Hətta məktəblilərin muğama axını başladı. Təsadüfi deyil ki, televiziya-muğam müsabiqəsinin iki qalibi yeniyetmə Elməddinlə Mirpaşa qeyd olunan şəraitin seçimində liderə çevrildilər. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, talant qabiliyyətlər kompleksidir.

Talantın strukturu çox zəngindir. Talant qabiliyyətlər kompleksinin məcmuyudur. Ayrıca götürülmüş, təcrid olunmuş qabiliyyət nə qədər yüksək inkişaf səviyyəsinə çatmış olsa da, nə qədər parlaq təzahür etsə də talantın bənzəri (analoqu) ola bilməz. Bunu fenomenal, qeyri-adi hafizəsi olan şəxslərin müayinəsi bir daha sübut edir. Halbüki bir çoxları talantın ekvivalentini məhz hafizədə, onun möhkəmliyində və həcmində görürlər. (1, səh. 471). Muğam ifaçılığının psixoloji mexanizmi daha mürəkkəb struktura malik olduğu üçün bəzən psixoloq alimlər muğam ifaçısının fenomen yaddaşını, bənzərsiz hafizəsini önə çəkir. Lakin onun səs imkanlarının dinamikasını, səsin artikulyasiya imkanlarını nəzərə almırlar. Əgər bu amillər nəzərə alınarsa muğamın vokal məkanında muğam ifaçısının məharəti ilə bağlı da şərhlər aparmaq lazım gələr.

Unutmaq olmaz ki, talant və məharət biri-birilərindən fərqlənir. Deyildiyi kimi, ümumi və xüsusi keyfiyyətlərin məcmuyu olan talant yaradıcılıqda müvəffəqiyyət qazanmaq üçün imkandan başqa bir şey deyil, bu, məharətin özü yox, onun yalnız ilkin şərtidir. Məharət əldə etmək üçün (yəni konkret fəaliyyəti muğam, sənəti: müəllim, həkim, quraşdırıcı, təyyarəçi, yazıçı, gimnast, şahmatçı və s. sənətini mükəmməl icra etmək üçün) çox əmək çəkmək tələb olunur. Talant insanı əməkdən azad etmir. O, böyük, gərgin yaradıcı əmək tələb edir. Öz talantı ilə bütün insanlığı heyran etmiş şəxsiyyətlər həmişə istisnasız olaraq əmək, zəhmət qəhrəmanı olmuşlar. Yalnız əmək sayəsində onlar kamil ustad səviyyəsinə yüksəlmiş və ümumdünya şöhrəti qazanmışlar. (1, səh. 474).

Əgər musiqi dərslərində, yaxud muğam ifaçılığı ilə bağlı olan bədii yaradıcılıq dərnəklərində, eləcə də maraq kurslarında müəllimin, yaxud muğam-musiqi rəhbərinin məqsədyönlü, planlı mütəşəkkil iş sistemi olmasa şagirdləri bu iş sisteminə, pedaqoji prinsiplərə, üsullara, pedaqoji qaydalara uyğun bir şəkildə işlətməsə, onlara verdiyi muğam terminləri üzərində xüsusi metodikalar əsasında iş aparmasa, müvəffəqiyyət qazana bilməz. Məhz belə tələblər muğam ifaçılığında talantın strukturunu düzgün müəyyənləşdirir.

Talantın strukturu nəticə etibarilə fəaliyyətin (siyasi, elmi, bədii, istehsal, idman, hərbi və s.) şəxsiyyətə verdiyi tələblərin xarakteri ilə müəyyənləşir. Ona görə də əgər talantlı bəstəkarı talantlı təyyarə konstruktoru ilə müqayisə etmiş olsaq, onların talantını təşkil edən qabiliyyətlərin eyni olmadığını görəcəyik. Məlum olduğu kimi, psixoloji təhlil qabiliyyətlərdə daha ümumi və daha xüsusi keyfiyyətləri ayırd edir. Talantın psixoloji təhlili isə, öz növbəsində, qabiliyyətlərin ümumi strukturlarını ayırd etməyə imkan verir. Bu ümumi strukturlar bir çox fəaliyyət növlərini ən yüksək səviyyədə icra etməyə imkan verən daha səciyyəvi psixi keyfiyyət özünü göstərir (1, səh. 472). Belə olmasa muğam ifaçısı talantın yüksək pilləsi olan istedad səviyyəsinə qalxması mümkün deyil. Məhz ifaçı şagirdin muğam mühitinə salınması, ona muğam ifaçılığı şəraitinin yaradılması onun muğam qabiliyyətinin talantlılıq səviyyəsinə, talantlıq səviyyəsindən isə istedadlılıq səviyyəsinə yüksəlmiş olur.

Bir sıra istedadlı uşaqların öyrənilməsi nəticəsində bütövlükdə istedadın strukturunu təşkil edən bəzi çox mühüm qabiliyyətləri üzə çıxarmaq mümkün olmuşdur. Şəxsiyyətin bu yolda müəyyən edilə bilən birinci xüsusiyyəti – diqqətlilik, topluluq, gərgin işə həmişə hazır olmaqdır. Dərsdə şagirdin diqqəti yayınmır, o heç bir şeyi buraxmır, həmişə cavaba hazırdır. O özünü bütünlüklə maraqlandığı şeyə həsr edir. Yüksək istedadlı uşağın birinci xüsusiyyəti ilə ayrılmaz surətdə bağlı olan ikinci xüsusiyyəti ondan ibarətdir ki, əməyə hazırlıq bu cür uşaqda əməyə meylə, işgüzarlığa, yorulmadan işləmək tələbatına keçir. Qabiliyyətlərin üçüncü qrupu bilavasitə zehni fəaliyyətlə bağlıdır. Buraya təfəkkürün xüsusiyyətləri, fikri proseslərin sürəti, əqlin sistemliliyi, daha yüksək təhlil etmək və ümumiləşdirmək imkanları, zehni fəaliyyətin yüksək məhsuldarlığı aiddir (1, səh. 473).

Muğam ifaçılığında təfəkkür itiliyinin, təxəyyül zənginliyinin olması çox mühüm şərtlərdəndir. Çünki muğamın ikinci tərəfində olan poeziya amili ifaçıdan iti təfəkkürün və təxəyyülün olmasını tələb edir. Əgər muğam ifaçısı olan şagirddə təfəkkür və təxəyyül tərzi zəif olarsa, o, muğamın ikinci tərəfində oxuması tələb olunan qəzəllərin, mürəbbelərin, rübailərin, hətta bayatıların təqdimatında ciddi səhvlərə yol verəcəkdir. Ona görə də muğam ifaçılarının zehni istedadının da olması vacibdir.

İstedadlı uşaqlar üzərində aparılan çoxlu müşahidələr göstərir ki, zehni istedadın tərkibinə daxil olan və yalnız hər birinin təzahür dərəcəsi ilə fərqlənir. İstedadda olan spesifik fərqlərə gəldikdə isə onlar əsasən maraqların istiqaməti ilə bağlıdır. Müəyyən axtarış dövründən sonra bir uşaq riyyaziyyatı, o biri biologiyanı seçir, üçüncü uşaq ədəbi-bədii yaradıcılığa, dördüncü tarixə və yaxud arxeologiyaya və s. həvəs göstərir. Bu uşaqlardan hər birinin qabiliyyətlərinin sonrakı inkişafı konkret fəaliyyətdə baş verir; həmin fəaliyyət bu qabiliyyətlər olmadan həyata keçirilə bilməz. (1, səh. 473).

Bütün bunlar deməyə əsas verir ki, musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin üzə çıxarılması, inkişaf etdirilməsi və formalaşdırılması işində pedaqoji-psixoloji əsaslara istinad edilməsi çox vacibdir.

## ƏDƏBİYYAT


1. Ümumi pedaqogika (prof. A.V.Petrovskinin redaktəsilə). Bakı, Maarif, 1982
2. Əliyev R.İ. Psixologiya tarixi. Bakı, Nurlan, 2006
3. Əliyev R.İ. Psixologiya (dərs vəsaiti). Bakı, Nurlan, 2008
4. Nemov R.S. Psixologiya (dərslik, rus dilində). Moskva, 2007


## ABSTRACT


**Mehriban Jafarova**


**PSYCHOLOGICAL BASIS OF MORAL QUALITIES AGITATION TO THE PUPILS DURING TEACHING MUGAMS AT MUSIC CLASSES**


The article studies the psychological basis of moral qualities agitation mather in the process of teaching mugams at music lessons in the secondary schools. The author explains the scientific basis of the psychological approaches to form students moral qualities in teaching mugams in music lessons, inartistic and creativity classes and in optional courses. The article gives necessary recommendations dealing with the consideration of individual-psychological differences in the proces of teaching mugams. To find out talented pupils, as well as the psychogolical basis of teaching mugams to talented pupils are theinvolved in scientific analyisis. The structure of talent, the sceientific-psychological gist of capabilities takes place in the article. Some recommendations dealing with the levels of imagination of the pupils, to define the thinking manners are also refected in the article.


## РЕЗЮМЕ


**Мехрибан Яфарова**


**ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЫЯВЛЕНИЯ ДУХОВНЫХ КАЧЕСТВ У ШКОЛЬНИКОВ ВО ВРЕМЯ ОБУЧЕНИЯ МУГАМАМ НА ЗАНЯТИЯХ ПО МУЗЫКЕ**


В статье затрагиваются вопросы касательно психологических особенностей по выявлению вуховных качеств на занятиях по музыке у учащихся общеобразовательных школ. Основывалсь на психологический подход по выявленного духовных качеств у школьников в процессе обучения мугамам на уроках музыки, кружках и курсах художественного творчества, автор в своей статье дает этим вопросам обьяснение с научной точки зрения.

В статье даются необходимые рекомендации во время обучения мугамам индивидульно- психологических качеств каждого школьника. Автор также привлекает к анализу научно- психологического мастерства.

В статье особы место занимают стрктура таланта и значение научно- психологического мастерства.В статье также представимой ценность рекомендации по работе с учениками, проявляющим интерес в мугаму и определение у них форм сознания.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**LALƏ ALLAHVERDİYEVA**
**GÜNAY ŞİRƏLİYEVA**
*lale232@box.az*
*Naxçıvan Dövlət Universiteti*

**UOT:37**

# AZUŞAQLI VƏ ÇOXUŞAQLI AİLƏLƏRİN TƏRBİYƏ İMKANLARI

**Açar sözlər:** *azuşaqlı ailə, çoxuşaqlı ailə, uşaqların tərbiyəsi, psixoloji mühit, mənəvi tərbiyə, valideyn, əhalinin artımı, ailə problemləri, sosial vəziyyət, uşaq hüquqları*

**Key words:** *family having few children, family having many children, breeding of children, psychological atmosphere, moral upbringing, parent, population growth, family problems, social status, children's rights*

**Ключевые слова:** *малодетная семья, многодетная семья, воспитание детей, психологическая среда, духовное воспитание, родитель, рост численности населения, семейные проблемы, социальное положение, права детей*

Məlum olduğu kimi sosial-iqtisadi vəziyyət, çox uşağın dünyaya gətirilməsində maraqların olmaması, Avropaya meyl Azərbaycan ailəsini azuşaqlı ailəyə çevirib. Əvvəllər Azərbaycan ailələrinin əksəriyyəti çox uşaqlılardan ibarət idi. Çoxuşaqlı ailələrin sayı zaman keçdikcə azalmağa başladı. Valideynlər çox uşaq arzusunda olsalar da, sosial-iqtisadi vəziyyət bu istəyin həyata keçməsinə əngəl yaradır. İndi əksər ailələrdə 2, ən çoxu 3 uşaq böyüdülür. Hazırda nəsilvermə qabiliyyətinə malik qadınların hər birinə 2 uşaq düşür.

Sosioloqların fikrincə, ailələrdə az uşağın olması təkcə sosial-iqtisadi vəziyyətlə əlaqəli deyil. Burada Avropa meyllərinin də böyük rol oynadığı müşahidə edilir.

Təkuşaqlı ailələrin sayı günü-gündən artmaqdadır. Tək uşaqla kifayətlənən ailələr ümumiyyətlə, uşaq sahibi olmağa çox dəyər verən və uşaq yetişdirmə mövzusunda qayğıları olan ailələrdir. Bu ailələr uşaqlarının inkişaf impulslarına mane törətməməyə, zehni və psixoloji inkişaflarını dəstəkləməyə əhəmiyyət verirlər. Bəzi ailələr çoxuşaqlı ailələrin övladlarına lazımi zaman ayrılmaması qənaətindədirlər. Yəni, az uşaq sahibi olan valideynlər elə hesab edirlər ki, ailəsində 7-8 uşaq olan valideyn övladına yetərli zaman ayıra bilmir və bu da uşağın gələcək həyata hazırlanmasına (təhsil, iş, karyera) əsaslı dərəcədə təsir edir.

Müşahidələr göstərir ki, bəzi təkuşaqlı ailələr uşaqla böyük kimi davranırlar. Bu düzgün deyil. Tək uşaqla əvvəlcə tək uşaq olaraq deyil, uşaq olaraq davranmaq lazımdır. Standart intizam üsullarını tətbiq etməklə yaşına uyğun qaydalar qoymaq, bu qaydaları mütəmadi olaraq tətbiq etmək gərəkdir. Görkəmli müəllim-pedaqoq, istedadlı bəstəkar Üzeyir Hacıbəyov söyləmişdir: "Uşağı bütə döndərmək olmaz, böyüdükdən sonra o qurbanlar tələb edir". Uşağa gözləmək, səbr etmək öyrədilməlidir. Hər istədiyini anında qarşılamaq doğru davranış hesab edilmir. Uyğun hesab olunan, lazımlı olduğunu düşündüyünüz istəklərini qarşılamaq daha münasibdir. İstəklərinin də yaşına və ailənin yaşayış səviyyəsinə uyğun olmasına diqqət yetirilməlidir.

Dünyada baş verən demoqrafik proseslər, xüsusilə də, əhalinin sayının azalması artıq bəzi ölkələr üçün daha ciddi problem olaraq özünü göstərməkdədir. Əhalinin artım tempinə görə Azərbaycanda demoqrafiya sahəsində hələ ki, hər hansı ciddi problemlər yoxdur.

Bir neçə il öncəyə qədər daha çox şəhər yerlərində azuşaqlı ailələr mövcud idi. Belə ailələrdə bir, maksimum iki dünyaya gəlir. Hazırda kənd yerlərindəki ailələrdə də daha az uşaq dünyaya gətirmək halları çoxalıb. Səbəb kimi maddi vəziyyət, uşaqların sonrakı həyatını lazımi səviyyədə qura bilməmək, anaların sağlamlıq problemi, fiziki görünüşünün qorunub saxlanması

istəyi və s. faktorlar göstərilir. Müşahidələr göstərir ki, bəzi ailələr yalnız oğlan uşağı dünyaya gətirmək istəyindədirlər. Müasir tibbin imkanlarından yararlanan ailələr hələ ana bətnində ikinci övladın cinsini müəyyən edərkən seçim edirlər. Bu da təbii ki, ailələrdə uşaqların sayına təsir göstərir.

Demoqrafların fikrincə, Azərbaycanda demoqrafik artım normaldır. Valideynlərlə aparılan söhbətlərdən aydın olur ki, onlar kəmiyyətə deyil, keyfiyyətə üstünlük verirlər. Azərbaycan ailələrində bu məsələ ilə əlaqədar Avropasayağı yanaşma müşahidə edilir.

Ümumiyyətlə, ailədə uşağın olması ailəni möhkəmləndiridiyi kimi, həm də onların sayı ahəngdarlığa da müsbət təsir göstərir. Təcrübələr göstərir ki, ailədə işaqlar nə qədər çoxdursa, ailə bir o, qədər möhkəmdir. Uşaqların ailəni möhkəmləndirən, kişini və qadını bir-birinə bağlayan əsas amillərdən biri olduğu unudulmamalıdır.

Uşaqların tərbiyəsi ər-arvad qarşısında ümumi problemlər qoyur ki, bu da ər və arvadın ailə həyatında birgə fəaliyyət göstərməsinə, möhkəm əlaqə yaratmasına və izdivacın möhkəmlənməsinə səbəb olur. Ailədə müxtəlif yaşlı uşaqların olması bu məsələni daha da dərinləşdirir, onlara qarşı qayğının da çox və müxtəlif olması tələblərini (məktəb, uşaq bağçası, körpələr evi) yaradır. Ailə problemlərinin çox hissəsi uşaqlarla əlaqədar olur. Bütün bunlar isə ər-arvadın istək və arzularını birləşdirib xoşbəxt ailə formalaşdırır.

Tək uşaqlı ailələrdən fərqli olaraq çoxuşaqlı ailələrin bir çox müsbət cəhətləri var. Belə ailələrdə optimizm, xeyirxahlıq, fərasətlilik, şən həyat tərzi və birlik hökm sürür, cansıxıcılıq əhval-ruhiyyəsi nisbətən az olur. Əgər başqa heç bir arqument olmasa da, yuxarıda qeyd olunanlar çoxuşaqlı ailənin var olması üçün kifayətdir. Çoxuşaqlı ailədə yaranan atmosfer sağlamlığa müsbət təsir göstərib, sinir sistemini möhkəmləndirir, stres hormonlarını neytrallaşdırıb orqanizmə zərər verə biləcək şəraitin qarşısını alır. Uşaqlarda valideynlərin əsas gərginliyini aradan qaldırmaq, stres vəziyyətini yüngülləşdirə bilmək qabiliyyəti vardır.

Azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı və səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz, ailədən gəlir. Çoxuşaqlı ailə əhalinin geniş təkrar istehsalında cəmiyyətin tələblərinə cavab verir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər.

Sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım gələndə güzəştə getməyi bacarması və s. uzunömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir.

Bu gün xüsusilə böyük şəhərlərdə ananın işləməsi, ya da maddi şərtlərə görə tək uşaq sahibi olmağı seçən ailələrin sayı xeyli çoxdur. Bəzən ailədə tək övladın olması bu uşaqda mənfi davranışların – paxıllıq, ərköyünlük, qaradinməzlik kimi mənfi göstəricilərin olması təəssuratını yaradır. Halbuki əhəmiyyətli olan uşağın necə yetişdirilməsi, ona necə tərbiyə verilməsidir.

Cəmiyyətimizdə tək uşaq üçün edilən araşdırmalarda ərköyünlük öndə dayanır. Tək uşaq ilə əlaqədar ön mühakimələrdən biri də budur ki, maraq mərkəzi olmağa alışır və həmişə tələb edir. Bir başqa göstərici də budur ki, tək uşaq yaşından böyük, yaşına uyğun olmayan hərəkətlər edir. Doğrudur, bəzi uşaqlar yaşıdlarından daha yetkin və daha çox məsuliyyət sahibi ola bilərlər. Bu heç də tək uşaq olmaqla əlaqəli deyil.

Çoxuşaqlı ailə böyük ailə kolletivi deməkdir. Burada uşaqlarda erkən yaşlardan kollektivçilik və dostluq, yoldaşlıq hissləri tərbiyələndirmək üçün imkanlar açılır. Uşaqlar bir-birinə qarşılıqlı kömək və qayğı göstərməyə, səmimi davranmağa alışır, yeri gələndə onlara doğma olan şəxsin – bacının, qardaşın xatirinə öz mənafelərindən və maraqlarından əl çəkib sevinc və kədərlərini bir yerdə bölüşürlər.

Çoxuşaqlı ailələrdə valideynlər bütün uşaqlara eyni dərəcədə qayğı göstərməlidirlər. Bu, evdə sağlam psixoloji və mənəvi mühitin bərqərar olmasına, uşaqların ahəngdar inkişafına kömək edir. Görkəmli rus pedaqoqu A.S.Makarenko ailənin strukturu ilə bağlı çoxuşaqlı və azuşaqlı ailələrdə tərbiyənin xüsusiyyətləri məsələsinə də yanaşmışdır. Onun fikrincə, tək uşağı tərbiyə etmək çox uşağı tərbiyə etməkdən çətindir; belə uşaq ailənin diqqət mərkəzində olur, əzizlənir, tələb görmür, ərköyün böyüyür və s. Çoxuşaqlı ailədə isə səs-küy, nadinclik, “qanqaralığı” olsa da, ancaq

buna baxmayaraq uşaqlar yaxşı böyüyürlər, çünki burada həm dostluq, həm də sevinc var, - ən başlıcası isə kollektiv var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, ailədə neçə uşağın olması onun tərbiyə işinin təşkilinə təsir edir. İstər tək övladı, istərsə də bir neçə övlad böyüdüb yetişdirərkən onlara əxlaq normaları çərçivəsində tərbiyə verilir. Bu əxlaq normaları ilə yanaşı həmçinin hüquqi norma və tələblərə riayət edilməli, tərbiyə işində uşağın ləyaqətinə toxunulmamalıdır. Ailədə tərbiyə işini həyata keçirən valideynlər mütləq bu məsələlərə də diqqət yetirməlidirlər. Hüquqi sənədlərdə *uşaq hüquqları* xüsusi yer tutur. "Uşaq hüquqları haqqında" BMT Konvensiyasında uşaq hüquqları aşağıdakı kimi müəyyən edilmişdir:

- dövlət, inzibati, məhkəmə və xüsusi təşkilatlar uşaqların müdafiəsi və maraqlarını əsas tutur;
- mənşəyi, irqi, milliyyəti, fəaliyyət növü və valideynlərinin əqidəsindən asılı olmayaraq uşaqların bərabərliyi təmin edilir;
- uşaqların müxtəlif zorakılıqdan, təhqir və istismardan, mənəvi və cinsi təzyiqlərdən müdafiəsi təmin edilir;
- təhsilə, tibbi xidmətə, əməyə, peşə hazırlığına, istirahətə və qabiliyyətlərinin inkişafına diqqət yetirilir, ictimai hüquqları təmin edilir;
- uşağın şəxsi hüquqlarına: şəxsi həyatına təzyiq və müdaxilə hallarına yol verilməməsinə, onun şəxsiyyətinə və dini azadlığına, məlumatlar almasına və həyat şəraitinə təminat verilir.

Uşaq hüquqları, eləcə də onların tərbiyəsi ilə bağlı hüquqi norma və tələblər, onların pozulmasına görə məsuliyyətlər hüquqi sənədlərdə öz əksini tapmışdır. İnzibati qanunpozmalar haqqında məcəllədə uşaqların tərbiyəsi və təlimi üzrə öz vəzifələrini yerinə yetirməyən valideynlər və onları əvəz edən şəxslər üçün məsuliyyət nəzərdə tutulmuşdur: uşaqların təlim-tərbiyəsi üzrə öz vəzifələrini qərəzli şəkildə yerinə yetirmədikdə: uşaq (lar) narkotik maddələr qəbul etdikdə və digər qanunpozmalara yol verdikdə, 14-16 yaşlı yeniyetmələr xuliqanlıq törətdikdə valideynlər (və ya qanuni nümayəndələr) müvafiq qaydada cərimə olunurlar. Cinayət məcəlləsində isə uşaqlarla kobud davranış, onların yeməyinin məhdudlaşdırılması, uzun müddət tənha saxlanması, uşağın döyülməsi, təhqir olunması və şəxsi ləyaqətinin alçaldılmasına görə valideynlər, müəllim və tərbiyəçilər üçün cinayət məsuliyyəti nəzərdə tutulur. Ailə qanunvericiliyində də uşağın maraqlarına toxunan bütün hallarda onun öz rəyini bildirməsi, eləcə də hər cür məhkəmə və inzibati araşdırmaların gedişində onun fikirlərinin dinlənilməsi və rəyinin nəzərə alınması hüququ öz əksini tapmışdır.

Təhlillərdən bu qənaətə gəlmək olar ki, ailə institutunun formalaşmasında uşaqların olması əsas məqsədlərdən biridir. Ailənin və valideynlərin həyatında uşaqların olmasının bir neçə funksiyası var. Bunlar aşağıdakılardır:

1. Uşaqlar ona görə lazımdır ki, ailə möhkəm, şən və mükəmməl olsun. Başqa sözlə, uşaqlar ailə həyatına ahəngdarlıq verirlər;
2. Uşaqlar valideynlərin tərbiyəçi kimi atalıq və analıq imkanlarının meydana çıxmasına səbəb olurlar;
3. Uşaqlı ailədə valideynlər qocalıq dövründə tək-tənha qalmaqdan qorxmurlar;
4. Bir neçə uşağı olan ailələrdə nəslin düzgün tərbiyəsi daha yaxşı həyata keçirilir.

Bu fikirlərdən belə bir nəticəyə gəlmək olar ki, evlilik, ailə həyatı, uşaqlar insanın sağlam, xoşbəxt həyatı üçün ən əlverişli amillərdir.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı, Mütərcim, 2013, 324 səh.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Ped.elm. dokt….dis., Bakı, 1996, 297 s.
3. Hüseynzadə R., Allahverdiyeva L. Ailə pedaqogikası. Dərslik. Bakı, ADPU-nun mətbəsi, 2016, 340 səh.
4. Makarenko A.S. Valideynlər üçün kitab. Bakı, Dövlət tədris pedaqoji ədəbiyyatı nəşriyyatı, 1964
5. Mirzəyev İ.Ə. Ailənin praktik psixologiyası. Bakı, Adiloğlu, 2005, 312 s.

**ABSTRACT**

**L.Z.Allahverdiyeva**
**G.A.Shiraliyeva**

**UPBRINGING POSSIBILITIES OF FAMILIES HAVING FEW AND MANY CHILDREN**

In the article the issue of having few and many children in family, is analysed. In the process of searching upbringing possibilities of families having few children it becomes clear that, single child gets accus tomed to be in the center of interest and always demonds. Other inducator is that, single child acts not corresponding to his age. Majority of children helpharmonius development of children, formation of healthy psychological and spiritual atmosphere in family.

**РЕЗЮМЕ**

**Л.З.Аллахвердийева**
**Г.А.Ширалиева**

**ВОСПИТАТЕЛЬНЫЕ ВОЗМОЖНОСТИ МАЛО-И МНОГОДЕТНЫХ СЕМЕЙ**

В статье анализируется вопрос мало и многодетности в семье. Изучением воспитательных возможностей малодетных семей установлено, что единственный ребенок в семье привыкает находиться в центре внимания, чего требует он от окружающих в дальнейшем. Кроме того, ребенок ведет себя как взрослый что не соответстувует его возрасту. В многодетных семьях действует здоровая психологическая и духовная среда, что способствует гармоническому развитию детей.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**ŞƏRƏBANI MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*sherebani@gmail.com*

**UOT:373**

# UŞAQ VƏ GƏNCLƏRİN MÜTALİƏSİNDƏ KİTABXANA RƏHBƏRLİYİNİN VƏZİFƏLƏRİ

**Açar sözlər**: *mütaliə prosesi, mütaliə marağı, mütaliə tələbatı, mütaliənin ictimai məzmunu, informasiya sorğusu*

**Key words:** *the process of reading, the interest in the report, the reading, the social content of the report, the information inquiry*

**Ключевые слова:** *процесс чтения, интерес к чтение, социальный контент чтение, информационный запрос*

Aqillər çox gözəl söz deyib: "Kitab bilik mənbəyidir". Bəşər övladı kitabın yaranması, çapı ilə bir inqilab yaratmış, elmi və mədəni sahədə mühüm irəliləyişlər əldə etmişdir. Kitab və mütaliə vasitəsilə bəşəriyyət onu marqlandıran hər suala cavab tapa bilir. Yaşadığımız XXI əsri informasiya əsri hesab edənlər yanılmırlar. Bu əsr elm-texnika əsri olduğu kimi, həm də mütaliə əsridir. Bu gün mütaliə məsələsi, xüsusən uşaq və gənclərin "nəyi və necə mütaliə etməsi" bütün dünyada qlobal problem kimi qiymətləndirilir. Bəşəri problem olan uşaq və gənclərin mütaliəsinə rəhbərlik mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Ümummilli liderimiz, ulu öndərimiz Heydər Əliyev deyirdi: "Bizim gələcəyimiz gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır" (1, 360).

Mütaliə insan təfəkkürünü tam qidalandırmaq, istənilən məlumatı dərk etmək baxımından əvəzsizdir. Radio, televiziya, kino, teatr və s. tamaşaçıların və dinləyicilərin iradəsindən və istəyindən asılı olmayaraq fəaliyyət göstərir. Mütaliə isə öz istəyimizdən, iradəmizdən asılıdır. Onun vasitəsilə hər hansı məsələ haqqında istədiyimiz vaxt, istənilən şəraitdə məlumatlanmaq imkanına malikik.

Mütaliə prosesi fərdi-psixoloji prosesdir. Onun nəzəriyyəsini formalaşdırarkən insan şəxsiyyətini, onun şüur və fəaliyyətini, eyni zamanda tələbat və maraqlarını kitabla vəhdətdə nəzərdən keçirmək lazımdır. Gələcəyin intellekt daşıyıcıları olan uşaqların və gənclərin təhsilinə və tərbiyəsinə, xüsusilə mütaliələrinə rəhbərlik etməyin nəzəri əsaslarını araşdırmaq xüsusi aktuallıq kəsb edir.

Mütaliə nəzəriyyəsi geniş oxucu kütləsi arasında kitab təbliğini və oxucu mütaliəsini istiqamətləndirməyin elmi əsaslarını təhlil edir. Müasir kitabxanaşünaslıq mütaliənin sosial-psixoloji və pedaqoji problemlərinin, eyni zamanda onun ictimai həyata təsirinin tədqiqi sahəsində geniş nailiyyətlər qazanmışdır. Bir cəhəti qeyd edək ki, mütaliə mahiyyətcə fərdi psixoloji proses olsa da, cəmiyyətin sosial həyatına, ictimai marağın istiqamətlərinə, mövcud maraqların məhsulu olan yeni ideyaların yayılmasına, bütövlüklə hamının malına çevrilməsinə imkan yaradır. İnsanların maraqları və tələbatları müxtəlif olur. Hər bir kəsin özünə məxsus marağı və tələbatı mütaliə tələbatının və mütaliə marağının yaranmasına təsir göstərə bilir.

Maraq nədir? Tələbat nədir? Bunu izah edək. Marağın və tələbatın bir-birinə mahiyyətcə oxşar və fərqli cəhətləri vardır. Maraq – obyektin emosional cazibədarlığına və həyati əhəmiyyətinə görə insanın ona olan seçimə müsbət münasibətidir.

Tələbat isə – insanın konkter həyat şəraitindən asılılığını ifadə edən və onun bu şəraitdə aktivliyini şərtləndirən özünəməxsus psixi halətidir. Bu mənada insanın maraqları və tələbatları onun gündəlik mütaliəsinin əsas səbəbidir. Müasir insanın həm tələbatları, həm də maraq

obyektləri çoxcəhətli və rəngarəngdir. Bu çoxcəhətlilik və rəngarənglik nəticəsində mütaliə çevrəsi genişlənir və kütləvi xarakter alır.

Müasir insanın mütaliə tələbatının artması elmi-texniki nailiyyətlərlə bağlıdır. Müasir dünyada mütaliə obyektiv sosial zərurət hesab olunur. Buna səbəb dünyada yeni elmi kəşflərin, böyük elmi nailiyyətlərin meydana gəlməsi, bilik sahələrinin yaranması, eləcə də dünyada gedən ictimai-siyasi proseslərdir. İndiki dövrdə dünya xalqları öz ölkələrində sosial xarakter daşıyan və ictimai məzmun kəsb edən mühüm problemlərin həllində fəal iştirak etməyə xüsusi səy göstərirlər. Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş lider ölkələrində XXI əsrlə əlaqədar uşaqların və gənclərin yüksək səviyyədə təhsil almaları, milli mədəniyyət və ənənələrə sadiq vətəndaş kimi yetişmələri, eləcə də dünya sivilizasiyasının gələcək istiqamətini müəyyən edə bilən şəxsiyyət kimi formalaşmaları üçün xüsusi dövlət sənədləri – doktrinalar hazırlanmışdır. Məsələn, Rusiyada “Rusiya Federasiyasında milli təhsil doktrinası” – (2000-ci il), Amerika Birləşmiş Ştatlarında “Amerika 2000-ci il” “Ailəvi savadlanma və kitabxanalar” proqramı hazırlanmışdır. Proqramda “hər bir ailə öz uşaqları ilə birlikdə nə oxumalı və necə oxumalı” məsələsi qoyulmuşdur. Yaponiyada XX əsrin 90-cı illərində “Mütaliə edən analar” kampaniyası başlanmış və bu kampaniyanın əsas şüarı “öz uşaqlarınız ilə birlikdə mütaliə edin” çağırışına yönəlmişdir. Danimarkanın paytaxtı Kopenhagen şəhərində 1997-ci ildə İFLA-nın təşkil etdiyi və 143 ölkədən 3000 nümayəndənin iştirakı ilə keçirilən Baş konfransda “XXI əsrin astanasında – kitabxanalar və informasiya bəşəriyyətin inkişafı üçün” problem mövzusunu müzakirə etmişdir. Müzakirələrdə “Uşaqların intellektual tələbatı və onların mütaliəsinin təşkili” mövzusu xeyli qabardılmış, bununla əlaqədar konkret maddələr təsdiq edilmişdir ( 2 ).

Bu baxımdan respublikamızda XXI əsrə tələblərini özündə etiva edən kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması və təhsilin təkmilləşdirilməsi ilə əlaqədar konkret qanunlar yaradılmışdır. Bu qanunlar əhalinin, xüsusilə uşaqların və gənclərin təhsilinin və mütaliəsinin təkmilləşdirilməsi, onların hər birinin intellektual səviyyəsinin formalaşması üçün cəmiyyətin qarşısında mühüm vəzifələr qoyur. Bütün bunlara nail olmaq üçün mütaliəyə ehtiyac yaranır. Həyatda insanın məqsədyönlü inkişafı üçün müvafiq biliklər sisteminə yiyələnməsi vacibdir. Bu məqsədlə respublikamızda ümumtəhsil məktəbləri fəaliyyət göstərir. Uşaq və gənclərin əksəriyyətinin rəsmi təhsillə yanaşı şəxsi təhsil mütaliəsi də mövcuddur. Bu baxımdan mütaliə mühüm elmi-nəzəri problemdir.

Müasir kitabxanaşünaslıq mütaliənin sosial, psixoloji və pedaqoji problemlərinin, eyni zamanda onun ictimai həyata təsirinin tədqiqi sahəsində geniş nailiyyətlər qazanmışdır. Mütaliənin ictimai məzmunu özünü əsasən üç istiqamətdə göstərir:

1. Mütaliə üçün materialın seçilməsi və oxunmuş ədəbiyyatın qiymətləndirilməsi meyarı insana ictimai təsir amili və mexanizmi ilə şərtlənir;
2. Mütaliə üçün material və qiymətləndirmə motivləri şəxsiyyətlər arasında əlaqə predmetidir və ictimai mütaliə atmosferi yaradır;
3. Mütaliənin nəticələri insanın ictimai və istehsalat fəaliyyətində əks olunur, onun dünyagörüşünün, əməyinin səmərəliliyini müəyyən edir.

Bütün bunlar mütaliənin sosial xarakterini açan faktlardır. Mütaliə prosesində oxucu kitabla sosial psixoloji münasibətlərə girir. Məhz bu münasibətlərin mexanizmini və onun sosial nəticələrini aşkar etmək mütaliə haqqında elmin mühüm vəzifələrindəndir (3).

Elmi ədəbiyyatda mütaliənin səbəb və məqsədlərinin növləri təxmini olaraq aşağıdakı kimi müəyyənləşdirilmişdir.

1. Həyat təcrübəsi qazanmaq və özünütəkmilləşdirmə;
2. İdraki ehtiyac;
3. Şəxsi təhsil və təcrübi faydalanmaq;
4. Emosional və estetik tələbat;
5. Əylənmək. ( 3 )

Şəxsiyyətin mütaliə vasitəsilə tərbiyə olunması prosesi birinci növbədə ailədən başlanır. Sonra orta ümumtəhsil məktəblərində davam etdirilir, sonrakı ali və orta ixtisas təhsili zamanı davam edərək geniş məzmun kəsb edir. Mütaliənin təhsillə birgə həyata keçirdiyi pedaqoji

funksiyalar özünü ümumtəhsil məktəblərində daha aydın göstərir. Belə ki, siniflərdə, uşaq və məktəb kitabxanalarında keçirilən ifadəli oxular, sinifdənxaric oxu tədbirləri, müxtəlif dərnək məşğələləri, uşaqları ardıcıl və sistemli mütaliəyə cəlb etməklə bərabər, onlarda vacib olan mənəvi keyfiyyətlər formalaşdırır. Sistemli və ardıcıl mütaliə üçün kitabların seçilməsi və toplanması sistemli və ardıcıl mütaliədə mühüm şərtdir. Sistemli mütaliə nəticəsində oxucu öz bilik və məlumatını, dünyagörüşünü daha dərindən formalaşdıra bilir. Sistemli mütaliə oxucunun müstəqil mühakimə yürütmək qabiliyyətini inkişaf etdirir, onun zəkasını və hissini zənginləşdirir.

Mütaliənin pedaqoji funksiyası daha çox kitabxanalar vasitəsilə həyata keçirilir. Bu da ona mənəvi mövqe qazandırır. Yaşadığımız dünyanın informasiya mübadiləsini göz önündə canlandırsaq kitabxanaların rolunu daha düzgün qiymətləndirmiş olarıq. YUNESKO-nun informasiya cəmiyyətində kitabxanaların yeri haqqında bəyanatında “Kitabxana informasiya cəmiyyətinin ürəyidir” fikrini irəli sürülmüşdür. Müasir dövrdə kitabxanalar bəşəriyyətin elmi sərvətini toplayıb, qoruyub onları insanların istifadəsinə verməklə, elmin, mədəniyyətin və yeniyetmələrin dünyagörüşünün formalaşması, elmin və texnikanın yeni nailiyyətlərini, ətraf aləmdə baş verən təbiət və cəmiyyət hadisələrinin mahiyyətinin dərk edilməsinə uyğun iş aparmaq, respublikamızın həyatında baş verən əlamətdar hadisələrin təbliğinin günün tələbləri səviyyəsində qurmaq kimi mühüm vəzifələri yerinə yetirirlər. Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində, vətənə məhəbbət, düşmənə nifrət hissinin aşılanmasında, onların mütaliə mədəniyyətinin formalaşdırılmasında, yeniyetmələrin elmə, biliyə marağın, həvəsin artırılmasında, gələcək peşə marağının tərbiyə edilməsində kitabxanalrın fəaliyyəti danılmazdır. Uşaq və gənclər kitabxanaları tərbiyə prosesində milliliyə geniş yer verir, gələcəyin qurucularını əsl azərbaycanlı kimi yetişdirməyə çalışır, onlara milli şüur, tərbiyə verməyin qayğısına daha çox qalırlar. Bu gün kitabxanalarımız bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir. Bu isə müasir dövrün tələbidir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, “Təhsil”, 2002, 580 s.
2. Rzayev, S.M. Uşaqların və gənclərin mütaliə təminatı bəşəri problemdir /Sahib Rzayev //Kitabxanaşünaslıq və informasiya: Elminəzəri və təcrübi jurnal.- 2010.- № 1.- S.63-
3. https://az.wikipedia.org/wiki/M%C3%BCtali%C9%99
4. Əhmədov E. Qlobal informasiya məkanı və müasir kitabxanaşünaslıqda mütaliənin yeni təzahürləri // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2007. - №2. – S.3-14. Kitabxana və cəmiyyət // Kitabxana.az jurnalı, B.: 2009.-№2


## ABSTRACT


**Sharabani Mammedova**



The article deals with the development of children's and young readers' knowledge and new knowledge in order to meet the intellectual needs of children and young people, expanding their interest in the essay. Here the emphasis was placed on the importance of the supplementary reading, along with the pedagogical, psychological approach to the reading process, along with the curriculum of general, higher and secondary special schools. The author notes that the essay is such a process that its results are reflected in human and social activities, and evaluate the effectiveness of its outlook and work. However, the review should start with the family, first of all, with educational institutions and libraries. The author, who said he had been negligent in the world, came up with a number of examples and justified his ideas. Finally, the author concludes that providing children and young people with a readiness is a common problem.

## РЕЗЮМЕ

**Шарабани Маммедова**

В статье рассматривается развитие знаний и новых знаний детей и молодых читателей с целью удовлетворения интеллектуальных потребностей детей и молодежи, расширения их интереса к эссе. Здесь основное внимание уделялось важности дополнительного чтения наряду с педагогическим, психологическим подходом к процессу чтения, а также учебной программой общих, высших и средних специальных школ. Автор отмечает, что эссе является таким процессом, что его результаты отражаются в человеческой и социальной деятельности, а также оценивают эффективность его взглядов и работы. Однако обзор должен начинаться с семьи, в первую очередь, с учебных заведений и библиотек. Автор, который сказал, что он был небрежным в мире, придумал ряд примеров и оправдал его идеи. Наконец, автор приходит к выводу, что обеспечение детей и молодых людей с готовностью является общей проблемой.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**MEHDİ SƏMA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 372.8:81**

# XARİCİ DİLLƏRİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜTƏHSİL HAZIRLIĞI

**Açar sözlər:** *xarici dil, özünəməxsus fəaliyyət, problemli vəziyyət, öz-özünü təhsil*
**Key words:** *foreign language, self-activity, problemsituation, self-education*
**Ключевые слова:** *иностранный язык, самостоятельная работа, проблемная ситуация, самообразование*

Müasir təhsil prosesi öyrənənlərin hər hansı bir ixtisas üzrə dar, məhdud şəkildə bilik və təcrübə qazanmasını deyil, əksinə müəyyən ixtisas sahəsi üzrə sosiallaşmasını vacib şərt kimi qarşıya qoyur. Bunun üçün ilk növbədə təlim prosesində, necə deyərlər "gərginliyi" aradan götürmək və uğur qazanmaq, yeni nailiyyətlər üçün atmosferi yaxşılaşdırmaq, proses üçün münbit şərait yaratmaq lazımdır. Bu zaman təlimin elə bir sistemi yaradılmalıdır ki, öyrənənlər özünütəşkil etmə prosesinə qoşulsun, şəxsi idraki fəallığı dominantlıq qazana bilsin. Yəni bugünkü təhsil prosesi yalnız müəllimin səylərini deyil, öyrənənlərdə təlim fəaliyyətinə mötivlərin yaranmasına diqqət yetirilməsini vacib sayır. Təhsilin belə bir sistem əsasında qurulması humanist konsepsiyaya tam olaraq uyğun gəlir.

Tələbələrin təliminin təşkilin - materialın öyrənilmə ardıcıllığına, mümkün və davamlı mənimsəməyə səfərbər edilməsi vacib tələblərdir. Bu tələblər təlimin problemli qurulmasını, tədrisin həyati təcrübəyə uyğunluğunu, məntiqi və əyani təfəkkürə istinad edilməsini, fərdi və qrup halında tələbələrin yaradıcılığının təşkilini vacib sayır, həmçinin təlimdə süni, qeyri - təbii olanların aradan qaldırılması və səmərəli olanların ayırd edilməsini diktə edir.

Tədqiqatlarda da göstərildiyi kimi, xarici dillərin tədrisi prosesinə ənənəvi yanaşmada daha çox məşqləndirici priyomlar, tərzlər, vasitələr başlıca prinsiplər kimi əldə rəhbər tutulurdu. Bu prosesə (xarici dillərin tədrisinə) müasir tendensiya - yanaşma isə layihələr üsuluna əsaslanır. Layihələr üsulunun başlıca xüsusiyyəti ondan ibarətdir ki, bu zaman problem qoyulur və onun həllinə səy göstərirlir. Bir qayda olaraq problemin həlli yollları öyrənənlər tərəfindən araşdırılır. Bu onu göstərir ki, öyrənənlərin özləri, yaxud müəllimin nəzarəti, həmçinin monoloji yaxud dialoji şəkildə yaradılmış dərsliklərin köməkliyi ilə qoyulan problem müstəqil şəkildə mənimsənilir. Bu isə biliyi yalnız əldə etmək deyil, eyni zamanda onu "yarada bimək", formalaşdırmaqdır.

Xarici dili öyrənmək uzun müddətli prosesdir. Öyrənmənin nəticələri tezliklə hiss olunmur. Tədris prosesinin səmərəliliyi elə stimullardan asılı olur ki, onlar fəaliyyətin motivləşməsini gücləndirir, maraqların artmasına səbəb olur. Motivlər təlimə "rəhbərlik" edir, zehni fəaliyyəti fəallaşdırır. Stimullar (hərəkətverici qüvvələr) tədris ili müddətində eyni cür ola bilər. Lakin onlar bir şəkildən başqa bir şəklə düşə bilir, öyrənənlərin yaşına, səviyyəsinə, onların qrupunun maraqlarına, tədris materialına uyğun gələrsə səmərəliliyi yüksək olur. Burada söhbət kompleks motivlərdən gedir ki, onlar təlimin bütün sahələri üzrə tələbələrin idrak fəallığını, dilin öyrənilməsində qabiliyyət və bacarıqlarının üzə çıxmasına kömək edir.

Son dövrlərin tədqiqatlarına əsaslanaraq hesab edirik ki, xarici dilin öyrənilməsi prosesində bu növ motivlərlə yanaşı, tələbələrin idraki, intellektual, müəyyən nailiyyətə çatmaq tələbatı və ünsiyyət qurmaq mədəniyyətinə yiyələnmək səyləri də xeyli artmışdır.

Qeyd edək ki, ümumən idrak tələbatları ixtisas motivləri ilə birbaşa əlaqədardır. Çünki tələbələr məhz xarici dillərin köməyi ilə ixtisas biliklərini genişləndirir və dünyagörüşünü zənginləşdirirlər. Müəyyən ixtisas sahəsi üzrə tələbələrin yeni biliklər alması tədris olunan xarici dil vasitəsi ilə də mümkündür. Tədris olunan dil sahəsində ədəbiyyatların öyrənilməsi ixtisas üzrə informasiyaları əldə

etməyin başlıca yolu, əsas mənbəyidir. Bu növ motivlər tələbələrdə idraki, fikri müstəqilliyə kömək etməklə bərabər, özünütəhsil vərdişlərinin yaranması və inkişafına da təsir göstərir.

İntellektual tələbatlar ümumən tələbələrin motivləri sferasında xüsusi yer tutduğu kimi, xarici dillərin öyrənilməsi işində, bu prosesin reallaşdırılmasında da mühüm vasitədir. Tələbələrin nitq fəaliyyətinin müvəffəqiyyətlə nəticələnməsi üçün onları müstəqil düşünməyə alışdırmaq, öriyentri müəyyənləşdirmək, yəni nitq fəaliyyətinin qaydalarına əməl etmək lazımdır. İntellektual qabiliyyətləri məhz bu cür reallaşdırmaq olar. Xarici dillərin tədrisi zamanı şüurluluq və fəallılıq prisipi müstəqilliyin başlıca tələbi kimi meydana çıxır, tələbənin zehni inkişafının stimullaşdırılmasına, onun güclü müşahidəçilik qabiliyyətinə, hazırcavab, fərasətli, bacarıqlı, yüksək fəhmə malik olmasına təsir göstərir. Xarici dillərin praktik öyrənilməsi isə belə bir cəhətlə bağlıdır ki, tələbə öyrəndiyi dili mənimsəyərkən öz ixtisası üzrə əlavə informasiya mənbəyi qazanmış olur. Tələbə xarici nəşrlərin materialları əsasında xülasələr, referativ işlər hazırlayır ki, bu zaman tələbə yalnız xarici dili mənimsəmir, həm də ixtisas ədəbiyyatları üzərində işləmək imkanı əldə edir, öyrəndiyi dilin terminologiyası ilə tanış olur, qazandığı ixtisas üzrə xarici təcrübədə ifadə olunmuş anlayışlar sistemi haqqında biliklər əldə edir.

Bu gün xarici dillərin tədrisində müstəqil işlərin xüsusi çəkisi artır. Tələbə bu cəhəti özü üçün aydınlaşdırmalıdır ki, bir xarici dili bilmək, bu dildə danışmaq üçün tək bir yol var - öyrənmək. Dili mənimsəmək, deməli tələbənin səmərəli tədris fəaliyyətinin şərtləri daxilində öyrənmə prosesinə - nitqin avtomatlaşmış (vərdişlər halına keçmiş) mərhələsinə daxil olması başlanmışdır. Məhz "avtomatlaşdırma" tələbənin təlim fəallığının, öyrənmə fəaliyyətinin əsasını təşkil edir. Tədqiqatçı İ. M. Berman bu məsələyə münasibət bildirərək yazır ki, tələbələrin səmərəli müstəqil işləri zamanı əsas və xüsusi sahə kimi çalışmalar, məşqlər və təmrinlərdən bacarıqla istifadə etmək üçün yardımçı təlim vasitələrindən (labarator işlərdən, proqramlaşdırılmış vasitələrdən, yeni informasiya texnologiyalarından ) maksimum səviyyədə faydalanmaq lazımdır. Bu halda müəllimin səyləri ağlabatan, məntiqi, səmərəli izahlar üzərində qurulmalı, işin nəticələrini təhsis etmək, tələbələrə biliyin yollarını göstərməkdən ibarət olmalıdır (1, 230).

Müstəqil işlərinin təkmilləşdirilməsi məqsədilə tələbələrə metodikiköməklik göstərməli və onlara fərdi qaydada müəllim tərəfindən nəzarət təmin edilməlidir. Tələbələrin biliyinə münasibət müəllimin tədris fəaliyyətinə həmişəlik daxil olmuş funksiyasıdır. Bununla yanaşı, indiki şəraitdə müəllimin funksiyasına belə bir keyfiyyət də aid edilir: tələbələrin mənimsəmə prosesinin idarə olunması. Bu günkü təlim təcrübəsi göstərir ki, tələbələrin biliyinin keyfiyyəti nisbətən yüksəlmiş və həcmi xeyli artmışdır. Ona görə də öyrənənlərin fasiləsiz təhsilə hazırlanması tələbi onların təlim əməyinin, bilikləri mənimsəmə prosesininin idarə edilməsini yüksək səviyyədə təşkil etmək zəruriyyəti yaradır. Ali məktəbdə təcrübi işlər və xüsusi təşkil olunmuş eksperimentlərin göstərdiyi kimi, tələbələr heç də həmişə səmərəli təlim əməyinə qoşula bilmir, yaxud bunu etmək istəmir. Ona görə də tələbələrin müstəqil olaraq biliklərinin artırılması, onların məqsədyönlü inkişafı üçün müəllimlərin metodiki köməyinə, nəzarətinə həmişə ehtiyac vardır.

Tələbələrin xarici dilləri mənimsəməsi üzrə müstəqil təlim fəaliyyətinin ( özünütəhsilinin ) mahiyyəti bizim fikrimizcə, tədqiqatçı V. M. Verqasovun izahında daha dəqiq və düzgün səslənir. Tədqiqatçı yazır ki, inkişaf və təhsil heç bir kəsə hazır şəkildə verilmir. Hər kim buna yaxınlaşmaq istəyirsə, öz gücü, imkanları və qabiliyyəti, gərgin əməyi, zəhməti sayəsində bu xüsusi fəaliyyət sahəsinə çata bilər. Kənardan ancaq təhriklər ola bilər. Əgər belə demək mümkünsə, bütün tərbiyə və təhsil incəsənəti çox və az dərəcədə təhriketmə incəsənətidir. Nə vaxt ki, insan öz gücü-qüvvəsi ilə onu ram etmirsə, onun deyil (2, 195).

Öyrənənlər fəal təlim fəaliyyətinin həm obyekti, həm də subyektidir. Müəllim tərəfindən göstərilən bütün təsirlər bu əsasda həyata keçirilir. Yalnız obyektin fəaliyyətinin idarə olunması prosesində ola bilər ki, müəyyən keyfiyyət dəyişiklikləri baş versin. Bu keyfiyyət dəyişiklikləri biliyin mənimsənilməsində öz gücünü, iş qabiliyyətlərini yüksəltmək, müstəqil hərəkət etmək bacarığına malik olmaqla bilavasitə əlaqədardır.

Müasir şəraitdə fasiləsiz təhsil anlayışının iki mühüm tərəfindən biri kimi özünütəhsilin miqyası, xüsusi çəkisi xeyli artmışdır. Yaxşı düşünülmüş, yaxşı idarə olunan tədris prosesi tələbələrin əqli qabiliyyətini nizama salır, onları elm və təcrübəyə bağlayır və beləliklə, öyrənən-

lərin biliyə doğru imkanlarını reallaşdırır. Həmçinin yaxşı idarə olunan tədris zamanı tələbələrdə intellektual işə meyl və həvəs yaranır, intellektual axtarışlara maraq oyanır, gərginliyə tab gətirə bilir, əzaba, zəhmətə qatlaşır ki, bununla da onlarda müstəqil iş bacarığı formalaşır. Bütün bu keyfiyyətlər tələbənin ali məktəbdən kənarda da öz təhsilini davam etdirməyə, daha da zənginləşdirməyə kömək edir. Tələbənin müstəqil işlərinin idarə edilməsi ali məktəbdə özünütəhsil bacarıqlarının inkişaf etdirilməsində yeganə yol, vasitədir.

Qeyd edək ki, tələbələrin tədris fəaliyyətinin idarə edilməsi və ona nəzarətlə bağlı elmi-pedaqoji ədəbiyyatda maraq doğuran fikirlər var. Tanınmış rus alimi N. F. Talizinaya görə, idarəetmənin mövcudluğu üçün aşağıdakı şərtlərin təmin olunması zəruridir:

- idarə etmənin məqsədini müəyyənləşdirmək;
- idarə olunan prosesin ilk, əsas vəziyyətini müəyyənləşdirmək;
- təsirlərin proqramını müəyyənləşdirmək, prosesin əsas təsir amillərinə nəzər yetirmək;
- idarə olunan prosesin vəziyyəti haqqında informasiyanın alınmasını təmin etməklə sistemli əks-əlaqəyə təminat yaratmaq;
- informasiyaların işlənib hazırlanmasını, təhsis edilmiş, nizamlaşdırılmış təsirlərin tərtibi və reallaşdırılmasını əmin etmək (3, 11).

Digər rus alimləri ( C, L. Rubinşteyn, A. Y. Luk, V. Q. İoffe və başqaları) tədqiqatlarında özünüidarə anlayışından bəhs edərək təsdiq edirlər ki, özünüidarə bilavasitə insanın qabiliyyəti ilə bağlıdır və onu refleks -özünümüşahidə, özünütəhlil də adlandırmaq olar.

Xarici dillərin tədrisi zamanı diqqəti çəkən anlayışlardan biri də (tdridə, nitqdə) situasiya anlayışıdır. Tədris situasiyası əməkdaşlıq çərçivəsində və yaxud münaqişələrlə müşayət oluna bilər. Bu səbədən də həmin anlayışların məzmununda birtərəflilik və problemlilik xüsusiyyət kimi üzə çıxır. Problem situasiyası anlayışı isə özünün problemlilik səviyyəsi ilə, problemin qoyuluşu ilə digər anlayışlardan fərqlənir.Tələbə əvvəllər əldə etdiyi, qazandığı biliklər əsasında özü problem farmalaşdırır və onun həllinə girişir, yalnız özü həll edir və nəhayət doğru-düzgünlüyünə özü nəzarət edir, yoxlayır.

Tədqiqatların öyrənilib ümumiləşdirilməsi nəticəsində belə bir qənaətə gəlmək olur ki, xarici dillərin təlimində tədris situasiyaları nitqin məzmunundan və formasından asılı olaraq bir sıra çətinliklərin yaranması ilə müşayiət olunur. Bu cür çətinliklərin aşağıdakı səviyyələrini göstərmək olar:

Birinci səviyyə - problem situasiyanın yaradılması məlum predmet sahəsində tələbənin özü üçün məlum olmayan vasitələri, faktları ( məsələn dil birliyini ) üzə çıxarmasıdır.

İkinci səviyyə - bu səviyyə öyrənənlərin əvvəlki biliklərinə əsaslanmaqla özü üçün məlum olmayan dil vasitələrininin məzmununu üzə çıxarmaqdır. Bu zaman problem situasiyası öyrənilən xarici dil üzrə mürəkkəb üsulların və fikirlərin formalaşdılmasını tələb edir.

Üçüncü səviyyə - bu səviyyə ədəbiyyatda öz həllini tapmış və xüsusi predmet sahəsi yaradılmış idraki məsələlərin yaranması ilə bağlıdır. Bu prosesdə tələbə - öyrənən xüsusi idrak məsələləri və düşündürücü suallar qarşısında qalır və deməli, yeni problem situasiysına, çətinliyə düşür. Məsələn, “ Nə üçün müəllif məhz bu seçimi etmişdir?” kimi sual üzərində düşünən tələbə özü üçün çox əhəmiyyətli olan xüsusi bir problemlə qarşılaşmışdır.

Xarici dil ixtisas sahəsi olmayan ali məktəblərdə öyrənilən əcnəbi dil üzrə nitq fəaliyyətinin əsas növü oxu materialıdır. Burada bütün proses, yəni tələbənin müstəqil işi oxu materialının öyrənilməsi ilə tamamlanır. Ona görə də tələbələrin bu sahədə təlim əməyinin səmərəliyinin qayğısına qalmaq lazımdır. Əgər öyrənənlərin müstəqil təlim fəaliyyətinin intenfikasiyası (səmərəliliyi), dəqiqləşdirsək, tələbələrin müstəqil işlərinin məzmunu oxu materialının öyrənilməsi ilə bağlıdırsa, onda qeyri-xarici dil ixtisaslarında oxu təliminin məzmununun hansı şərtlərə bağlı olduğunu müəyyənləşdirmək də xüsusi vaciblik qazanır.

Müşahidə və təhlillərimiz göstərir ki, burada oxu təliminin məzmunu aşağıdakı şərtlərlə bilavasitə əlaqədardır:

- fəaliyyətin həyata keçirilmə vasitələrini (leksik və qramatik) mənimsəmək və dil ( oxu) materialının başa düşülməsi ilə bağlı olan bacarıq və qabiliyyətlərə yiyələnmək;
- fəaliyyətin həyata keçirilmə üsullarını - mətnin başa düşülməsi ilə bağlı olan bacarıqları mənimsəmək;

- bir çox psixoloji mexanizmləri (daha çox operativ yaddaş və həqiqətə uyğun olan proqnozlaşdırmanı) inkişaf etdirmək;

- oxu prosesinin əsas növlərini (tanışlıq, öyrənmə, nəzərdən keçirmə, axtarıcılıq) aşkar etmək.

Oxu üzrə təlim prosesinin aktivləşməsi bir neçə konkret idrak fəaliyyətindən keçir. Mətndə müəyyən idrakı məsələlər irəli sürülməli və bu məsələlər mətnin oxusu prosesində öz həllini tapmalıdır. Mətn öyrənənin idrak maraqlarına cavab verməli, yüksək səviyyədə informasiya- bilik ehtiyatına malik olmalıdır. Bu zaman nitq fəaliyyəti sahəsində özünənəzarətin inkişaf etdirilməsi xüsusilə vacib faktordur. Özünənəzarət mətnin başa düşülməsi, informasiyanın dəqiq şəkildə ifadə edilməsi, bu prosesdə öz səhvlərini təhsis etmək, çatışmazlıqları aradan qaldırmaq imkanıdır. Özünənəzarət tələbələrin müstəqilliyinin psixoloji əsası kimi, özününizamlamanın ayrılmaz komponentidir. ( 4, 78 ).

Beləliklə, göstərməliyik ki, müasir dövrdə xarici dil üzrə tələbələrin maraqlarını müdafiə etmək, bu istiqamətdə onlara kömək etmək məqsədilə ixtisas yönlü təlimin məzmununun reallaşdırılması, tədris prosesinin optimallaşdırılması, onun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi üçün sistemli təhsillə yanaşı, tələbələrin özünütəhsil fəaliyyətinə qoşulması da xüsusi əhəmiyyətə malikdir. Özünütəhsilin çox mühüm komponenti kimi tələbənin müstəqil işləri onların biliyini artırmaq, şəxsi keyfiyyətlərini, ümummədəni səviyyəsini yüksəltmək məqsədinə xidmət edir. Zamanın tələbi kimi özünütəkmilləşdirmək ali məktəbdə xarici dillərin tədrisi prosesində də geniş imkanlara malikdir və bu istiqamətdə uğurların əldə edilməsi məqsədilə yeni-yeni tədqiqatların aparılmasına ehtiyac vardır.

### ƏDƏBİYYAT


1. Берман И. М. Методика обучения ангилийскому языку в неязыковых вузах, Москва, Высшая школа, 1970
2. Вергасов В. М. Активизация познавательной самостоятельности студентов при обучении иностранному языку в неязыковом вузе. Киров. 2000.
3. Талызина Н.Ф. Деятельностный подход к построению модели специалиста / /Вестник высшей школы. 1986. №3. С. 10-13.
4. Вахрушева С.Н. Развитие познавательной самостоятельности студентов при обучении иностранному языку в неязыковом вузе. Киров. 2000.


### ABSTRACT


**Mehdi Sama**


### PROCESS OF STUDENTS` PREPARATION FOR SELF-EDUCATION IN LEARNING FOREIGN LANGUAGES


This article is devoted to the problem of developingprofessional self-education through professionalinterests and self-activity in learning foreignlanguages. The modern education process puts the learners into a qualification on a particular specialty rather than a narrow, limited knowledge and experience of any specialty. For this, first of all, in the learning process, it is necessary to eliminate "tension" and to succeed, improve the atmosphere for new achievements, and create favorable conditions for the process.


### РЕЗЮМЕ


**Мехти Сяма**


### ПРОЦЕСС ПОДГОТОВКИ СТУДЕНТОВ К САМООБРАЗОВАНИЮ ПРИИЗУЧЕНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ


В статье рассматриваются вопросы развития самообразования студентов через профессиональный интерес и самостоятельную работу при изучении иностранных языков. Современный образовательный процесс ставит учащихся в квалификацию по определенной специальности, а не узкие, ограниченные знания и опыт любой специальности. Для этого, в первую очередь, в процессе обучения необходимо устранить «напряжение» и добиться успеха, улучшить атмосферу для новых достижений и создать благоприятные условия для этого процесса.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**FUADA ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*fuada999@gmail.com*

**UOT: 316.614**

# İNFORMASİYA CƏMİYYƏTİNDƏ SOSİALLAŞMA PROSESİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

**Açar sözlər:** *sosiallaşma, informasiya, sosial şəbəkə, informasion sosiallaşma, internet–kommunikasiya*

**Keywords:** *socialization, information, social networking, informational socialization, internet-communication*

**Ключевые слова:** *социализацйя, информация, социальная сеть, информациаонная, интернет-коммуникация.*

Sosio-humanitar tədqiqatlarda “fərd-fərdiyyət–şəxsiyyət” problemi xüsusi əhəmiyyət kəsb edir. Bu problem fəlsəfə, sosiologiya ilə yanaşı psixologiya və sosial psixologiya elminin də diqqət mərkəzindədir. Problemin elmi–nəzəri həlli əsas etibarilə bu suala müncər edilir: şəxsiyyətin inkişafında ilkin təbii şərtlərin və ictimai şəraitin rolu nədən ibarətdir? Bu sualın cavabı isə bilavasitə sosiallaşma anlayışının izahı ilə bağlıdır.

“Sosiallaşma” anlayışının və bilavasitə bu tədqiqat üçün xüsusi əhəmiyyət kəsb edən “informasion sosiallaşma” anlayışının məzmununun aydınlaşdırılmasma keçməmişdən öncə zəruri terminoloji dəqiqləşdirməyə ehtiyac var. Belə ki, bu sahədə aparılan tədqiqatlarda daha çox “şəxsiyyətin sosiallaşması” terminindən istifadə edilir. Lakin fıkrimizcə bu konsepti birmənalı şəkildə qəbul etmək olmaz. Çünki söhbət şəxsiyyətdən gedirsə, onun artıq sosiallaşması bu anlayışın məzmununda ehtiva edilmişdir. Burada iki variant təklif etmək olar: a) şəxsiyyətin inkişafı; b) fərdin sosiallaşması. Fikrimizcə, sonuncu variant: fərdin sosiallaşması, yaxud ümumiyyətlə sosiallaşma termini daha məqbuldur. Çünki sosiallaşma termini daha əhatəli anlayışı olub həm fərdin şəxsiyyətə çevrilməsini, həm də şəxsiyyətin bütövlükdə inkişafını ehtiva edir.

Psixologiya elmində şəxsiyyətin inkişafında iki amil xüsusi qeyd edilir: endogen və ekzogen.

“Endogen” (yun. daxili mənşə) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir. Ekzogen (yun. xarici mənşə) nəzəriyyələrdə isə insan bir növ tabula rasa-ya (ağ lövhəyə) bənzədilir, şəxsiyyət ancaq sosial amillərin: mühit və tərbiyənin təsiri ilə izah olunur. (1, 134)

İndi isə “sosiallaşma”' anlayışının məzmununa diqqət yetirək. İlk növbədə qeyd edək ki, psixoloqlar arasında bu anlayışın məzmununun müəyyənləşdirilməsində yekdil, birmənalı rəy mövcud deyil. Fikrimizcə, rus tədqiqatçısı Q.M.Andreyevanın təklifetdiyi tərif daha məqbul hesab edilə bilər: “Sosiallaşma – iki tərəfli proses olub özündə iki cəhəti ehtiva edir: bir tərəfdən bu fərdin sosial mühitə, sosial əlaqələr sisteminə daxil olmaq yolu ilə sosial təcrübəni mənimsəməsidir; digər tərəfdən isə fərdin aktiv fəaliyyəti, sosial mühitə aktiv qoşulması hesabına sosial əlaqələr sistemini aktiv təkrar istehsalıdır.” (2, 269). Sosiallaşmanın bu tərifinə ona çoxsaylı müəlliflər tərəfindən verilmiş təriflərin ümumiləşdirilməsi kimi də baxmaq olar.

İnformasiya cəmiyyətinə keçidin zəruri şərtlərindən biri olan yeni informasiya texnologiyaları dünyanın iqtisadi, siyasi və sosial inkişafının mühüm amili olmaqla yanaşı fərdlərin sosiallaşması prosesinə də öz təsirini göstərməkdədir. Məhz yeni müasir insanın bütün informasiya məkanını transformasiya edir, sosiallaşma agentləri kimi götürülən kütləvi kommunikasiya vasitələrinin rolunu kökündən dəyişir. Bununla əlaqədar olaraq müasir elmi diskursda “informasion sosiallaşma” termini özünün qanunauyğun yerini tutmaqdadır.

Son dövrlərdə aparılan tədqiqatlarda informasion sosiallaşma problemi təkcə elm üçün deyil, bütövlükdə cəmiyyət üçün aktual mövzuya çevrilmişdir. Gənc nəsil artıq “informasiya mədəniyyətinin” mücərrəd termin deyil, əyani gerçəklik olduğu prinsipial yeni informasion və sosial məkanda inkişaf edir. Lakin informasion sosiallaşma və informasiya məkanı anlayışları psixoloji deyil, daha çox sosioloji və kulturoloji tədqiqatların mərkəzi mövzusu olmuşdur. Bu sahədə aparılan araşdırmalarda psixologiyanın tədqiqat sahəsi daha çox internet–kommunikasiya, internet–asılılıq problemləri ilə məhdudlaşmışdır. Ancaq kifayət qədər aydındır ki, informasiya məkanı anlayışı internet–kommunikasiya məkanından daha geniş anlayışdır. Eyni zamanda informasiyaya, müxtəlif informasiya sahələrinə, o cümlədən internetə münasibət çoxobrazlı psixoloji problemlərlə əlaqədardır. Belə problemlərə nümunə olaraq ünsiyyət və qarşılıqlı təsirin müxtəlif formalarında təzahür edən mümkün identiklik problemini, qruplararası və nəsillərarası transmissiya zamanı ideal, norma və dəyərlərin yeni transmissiya variantlarına aid problemləri göstərmək olar.

İnformasion sosiallaşma haqqında danışarkən onun texniki-texnoloji aspektinə xüsusi diqqət yetirmək lazımdır. Bu aspekt özünü M.Maklüenin təklif etdiyi informasiya cəmiyyəti konsepsiyasında özünü xüsusilə qabarıq şəkildə göstərir. O öz əsərlərində göstərir ki, cəmiyyətin inkişaf dövrləri kommunikasiyanın dominant kanallarının dəyişməsi ilə sıx surətdə bağlıdır. Belə ki, yazının əmələ gəlməsi ilə bağlı olan ilkin akustik kommunikasiya tədricən çap kommunikasiyası ilə əvəzlənir. M.Maklüenin nöqteyi–nəzərincə informasiya mədəniyyəti, insanları vahid informasiya sistemində birləşdirən kommunikasiyanın elektron dili ilə səciyyələnir. Ona görə müasir dövr məhz audiovizual dövr adlandırılmalıdır. Belə ki, burada informasiyanın əldə olunmasının vizual və verbal kanalları harmonik şəkildə qovuşur və bir–birini tamamlayır. Başqa sözlə desək, hər bir şəxs sərbəst şəkildə, informasiyanın əldə olunması və ötürülməsi üçün özünə adekvat “dil” seçə bilər. (3)

Gənc və tələbələrin informasion sosiallaşmasının öyrənilməsi iki istiqamətdə təhlil aparılmasını özündə ehtiva edir. Bu ilk növbədə informasiya mühitinin sosial inkişafın tam yeni resursu kimi öyrənilməsidir. Yəni, yeni informasiya texnologiyalarının bütövlükdə sosiallaşma prosesinin tədqiq edilməsidir. Özlüyündə daha maraqlı görsənən ikinci xətt isə sosiallaşma prosesinin virtual mühitdə baş verməsi şəraitində əsas sosiallaşma proseslərinin transformasiyasının öyrənilməsini nəzərdə tutur. Hər iki xəttin birləşdirilməsi onu ehtiva edir ki, yeni informasiya texnologiyaları müasir gənclərin inkişafının həm vasitəsi, həm də bu inkişafın gerçəkləşdiyi mühit rolunu oynayır.

Belə fərz edirik ki, yeni informasiya məkanının formalaşması gənclərin sosiallaşmasında özünəməxsus səciyyəyə malik olmaqla yanaşı, sosiallaşmanın məzmununda əhəmiyyətli dəyişikliklərlə səciyyələnir. Onları aşağıdakı kimi göstərmək olar.

Əvvəla, bu sosial informasiyanın qavranılma və kateqoriyalaşdırılması prosesində baş verən dəyişikliklərdir: internetdən fəal istifadə zamanı audiovizual kanal və “klip təfəkkürü” təcrübəsinin qanunauyğun üstünlüyü refleksivliyin azalmasına səbəb olur ki, bunun da nəticəsində sosial dünya haqqında təsəvvürlərin əsas tərkib hissəsi obrazlar olur. Maraqlıdır ki, nəzəri baxımdan bu qədər aşkar olan bu prinsip (yəni, təcrübə əldə etməyin müxtəlif üsulları dərk etmə proseslərinin səciyyəsinə təsir göstərir) hələ ki, ətraflı empirik sübut bazasını tapmamışdır. Artıq qeyd edildiyi kimi, informasiya epoxasında gənclərin “perseptiv-intellektual” xüsusiyyətləri haqqında tezisin kütləvi informasiya vasitələrində tirajlandığı və ictimai şüura yeridildiyinə baxmayaraq aktiv internet–kommunikasiya şəraitində koqnitiv proseslərin transformasiyasının tədqiqi ziddiyyətli nəticələr verir. Oxşar tədqiqatların ümumi icmalı Q.V.Şukova tərəfindən ətraflı şərh olunmuşdur. Bu sahədə aparılan çoxsaylı tədqiqatlara diqqət şəkən Q.V.Şukova qeyd edir ki, müasir gənclərin informasiyanı qavrama və mənimsəməsində əvvəlki nəsillərlə müqayisədə nəzərəçarpacaq dəyişikliklərin mövcud olmasına baxmayaraq onların ümumilik və radikallıq dərəcəsi empirik olaraq təsdiqlənmir. (4)

İkinci (və öncədən qeyd edək ki, daha çox öyrənilmiş), informasiya səciyyəsinin tədqiqi artıq ənənəvi olaraq psixoloji tədqiqatlarda üstünlük təşkil etməklə yanaşı “İnternetin psixologiyasının” əsas hissəsini də təşkil edir.(5)

Son on ildəki tədqiqatlarda virtual ünsiyyətin əsas səciyyəvi parametrləri müəyyənləşdirilmiş, onun aktiv iştirakçılarının psixoloji xüsusiyyətləri və kommunikasiya üzrə tərəfdaşlarının obrazlarının formalaşması qaydaları öyrənilmiş, müxtəlif xidmətlərin göstərilməsi zamanı qarşılıqlı təsirlərin özünəməxsusluğu göstərilmişdir.

Qeyd edək ki, birinci halda olduğu kimi, empirik məlumatlar kifayət qədər ziddiyyətlidir. Məsələn, bir nöqteyi–nəzərə görə, şəbəkə kommunikasiyası zamanı insanlar sosial normalara riayət olunmasına az diqqət yetirilir (tərəfdaşın anonimliyi və onun fiziki təqdimolunmazlığı səbəbindən) və bu belə ünsiyyəti daha az formal olur.(6) Digər bir mövqeyə görə isə, şəbəkə kommunikasiyasmm qeyri-müəyyənliyini azaltmağa cəhd edən istifadəçilər sosial normalara riayət olunmasına tərəfdardırlar və öz davranışlarını nəinki daha normativ qururlar, hətta onlar bu zaman daha çox öz sosial identikliyinə əsaslanırlar. (7)

Analoji ziddiyyət şəbəkə kommunikasiyası normalarının məzmun cəhətlərinə aid olan tədqiqatlarda da müşahidə olunur. Belə ki, qeyd olunan qarşılıqlı kömək norması (kooperasiyanın üstünlük təşkil etməsi, razılıq nümayiş etdirilməsi, dostsevərlik və oxşar kommunikativ davranış hesabına istifadəçinin öz şəbəkə statusunu yüksəltmək imkanı) kommunikasiyada aqressiya təzahürləri ilə asanlıqla qovuşur.(8) Qeyd edək ki, həm birinci, həm də ikinci nəticə üçün interpretasiya çərçivəsi praktiki olaraq eynidir. Hər iki halda onlar intemet-kommunikasiyanın qeyri–müəyyənlik dərəcəsi və bunun da nəticəsi olaraq hər bir istifadəçinin “Mən”inin sərhədlərinin qeyri-müəyyənliyi ilə izah oluna bilərlər. Lakin, onu da qeyd etmək lazımdır ki, empirikliyin qeyri-birqiymətliliyinə baxmayaraq, bu gün fəal istifadəçinin yeni kommunikativ təcrübəsinin olmasına heç kim şübhə ilə yanaşmır. İnternet–kommunikasiyanın aşkar xüsusiyyətləri isə ona gətirir ki, “kompüter dili” yeni kommunikasiya normalarının yaranması və istifadə olunmasını törədən diskursiv praktikanın xüsusi növü kimi qəbul edilir və tədqiq olunur.

Gənclərin informasion sosiallaşmasının məzmun əhəmiyyətinə malik olan üçüncü mümkün vektoru mənlik şüuru sferasının dinamikasıdır. İnternet psixologiyasının yarandığı ilk günlərdən insanın virtual ünsiyyət və qarşılıqlı təsirlər kontekstində özü haqqında təsəvvürləri başlıca tədqiqat suallarından biri olmuşdur. Birinci halda olduğu kimi, mövzunun populyarlığının əsasında kifayət qədər qanunauyğun nəzəri fərziyyə dayanır. Bu fərziyyəni belə ifadə etmək olar: rol eksperimentləşdirilməsinin genişləndirmiş imkanları (məsələn, kompüter şəbəkə oyunları vasitəsilə) və maksimal idarə olunan özününümayiş etdirmənin miqdarının artırılması (bloq və sosial şəbəkələrdə şəxsi profil və səhifələrin yaradılması vasitəsilə) istifadəçiyə həm özünün dəqiq müəyyənləşdirmə üçün yeni əsaslar, həm də “Mən” dəyişikliyi üçün yeni səbəblər verə bilər. Lakin, bununla belə, bu gün üçün mövcud olan empirik mənzərə o qədər də birqiymətli deyil. Belə görsənir ki, informasion sosiallaşmanın mümkün psixoloji və sosial–psixoloji nəticələrinə münasibətdə məlumatların əhəmiyyətli dərəcədə ziddiyyətliyi tədqiqat mövqeyinin formulirovkasındakı çıxış dixotomiyası ilə müəyyənləşir. Fikrimizcə, onların bütün müasir spektri iki tip mümkün fərziyyəyə gətirilir. Onu da qeyd edək ki, bu bölgünün əsasında reallıq və virtuallığın prinsipcə aksioloji anlaşılması dayanır. Yəni, müəyyən şərtiliklə onları defisitarlıq fərziyyəsi və komplemetarlıq fərziyyəsi kimi işarələmək olar.

Birinci tip fərziyyənin əsasında belə bir ümumi fərziyyə dayanır ki, özünün obyektiv və texnoloji xüsusiyyətləri sayəsində internet-kommunikasiyanın reallığı müasir insanın bəzi “defisitlərini” aradan qaldırır və bir sıra tələbatlarını ödəməyə imkan verir. Bu tələbatları üç qrupa bölmək olar: l) stimulyasiyaya olan tələbat; 2) yeni duyğulara olan tələbat; 3) təhlükəsizliyə olan tələbat. Bununla belə, tələbatların internet-kommunikasiyada belə ödənilməsi kompensasiya edici kimi qiymətləndirilir. Uyğun olaraq belə qiymətləndirmə aktiv istifadənin digər mümkün psixoloji və sosial–psixoloji aspektlərinə də şamil edilir.

İkinci tip hipotezin -komplemetarlıq hipotezinin əsasında isə belə bir müddəa dayanır ki, internet-kommunikasiya nəinki insanın sosial gerçəkliyinin müxtəlif “defisitlərini” kompensasiya etmir, sadəcə müəyyən şəxsi atributları yenidən qurmağa prinsipial yeni imkanlar verir. Belə fərziyyələr o qədər də çoxsaylı deyil və tədqiqatlarda o qədər də əksini tapmayıb. Ümumiyyətlə belə fərziyyələr iki tipdə olur: şəxsiyyətin tələbat–motivasiya sferasına müraciət edən və mənlik sferasına müraciət edən fərziyyələr. Birinci fərziyyə nöqteyi–nəzərincə internet-kommunikasiya insana tələbat-motivasiya sferasının dinamikası kontekstində yeni imkanlar vermir, sadəcə idrak fəaliyyəti üçün yeni motivasiya verir. İkinci traktovka isə internet–kommunikasiyanın identiklik nəzəriyyəsinə əsaslanmaqla təhlili ilə əlaqədardır.

Beləliklə, informasion sosiallaşma ilə bağlı yuxarıda deyilənləri nəzərə alaraq müəyyən nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar.

- müasir gənclərin informasiya məkanına, ilk növbədə İnternet sosial şəbəkələrində kommunikasiya proseslərinə aktiv qoşulması onlarda bu yaş üçün, cins, yaşayış məskəni və sosiallaşma institutlarının dəyişməsi ilə bağlı olan ənənəvi sosiallaşma xüsusiyyətlərini aradan qaldırır;

- bu yaşda olan əksər istifadəçilər üçün sosial şəbəkələrdə kommunikasiyanın səciyyəsi real ünsiyyətin analoji səciyyəsi ilə üst-üstə düşür ki, bu uyğun yaşda virtual və real kommunikasiyanın getdikcə güclənən qarşılıqlı əlaqəsi haqqında danışmağa imkan verir;

- gənclərin psixoloji sağlamlığının tədqiq edilmiş parametrlərinin böyük əksəriyyəti sosial şəbəkələrdə kommunikasiyanın xüsusiyyətləri ilə əlaqəli deyil; burada yalnız tənhalıq yaşantısı və dostcasına ünsiyyətin harmonik tezliyi istisna təşkil edir.

## ƏDƏBİYYAT


1. Bünyadov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, Çinar–çap, 2006, 620 s. (s. 134)
2. Андреева Г.М. Социальная психология. М: Аспект Пресс, 2004, 365 с. (с.269)
3. Маклюен М. Галактика Гутенберия. Становление человека пегатоюшего. М.: Акоден. прескт, 2005
4. Шукова Г.В. Интенсивность цифрового опыта и возрастные особенности когнитивных процессов. Психологические исследования, 2013, 6 (27), 6. http:/psystudy.ru
5. Войскунский А.Е. Психология и Интернет. М.: Акрополь, 2010.
6. Bimie S.A. Psychological predictors of Internet social communication. Journal of Computer-Mediated Communication, 2002, 7(4)
7. Postmes T. Social influence in computer-mediated communication: the effects of anonymity on group behavior. Personality and Social Psychology Bulletin, 2001, 27( 10), 1243-1254.
8. Кузнецова Ю.М., Чудова Н.В. Психология жителей Интернета. М.: Издательствао ЛКИ, 2008.


## ABSTRACT


**FuadaAllahverdiyeva**


**PSYCHOLOGICAL ASPECTS OF THE PROCESS OF SOCIALIZATION IN INFORMATION SOCIETY**


The article analyzes the psychological problems of the socialization of young people in the information space. For this purpose, first of all, the content of the concept of socialization has been clarified. Information psychological problems that can be created by young people in the socialization have been identified, these problems have been categorized according to different parameters. Most of the investigated parameters of the psychological health of young people are not related to the features of communication in social networks. here only the loneliness and the harmonious frequency of friendly communication are exception.


## РЕЗЮМЕ


**Фуада Аллахвердиева**


**ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПРОЦЕССА СОЦИАЛИЗАЦИИ В ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ**


В статье анализируются психологические проблемы молодежной социализации в информационном пространстве молодежи. Для этого, в первую очередь, было разъяснено содержание концепции социализации. Выявлены психологические проблемы информационного общения у молодежи, эти проблемы классифицированы по различным параметрам. Подавляющее большинство экспериментальных параметров психологического здоровья молодежи не связано с характеристиками общения в социальных сетях. Здесь показано, что исключительно одиночество и гармоничная частота дружеской коммуникации являются исключительно образцовыми.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**ÇAPAY QULİYEV**
*Naxçıvan Müəllimlər İnstitutu*
chapay@yahoo.com

**UOT:37**

# YENİYETMƏLƏRİN MİLLİ MƏNLİK ŞÜURUNUN FORMALAŞMASINDA TƏLABAT VƏ MARAQLARIN NƏZƏRƏ ALINMASI İMKANLARI

**Açar sözlər**: *şüur, mənlik şüuru, milli mənlik şüuru, təlabat, maraqlar*
**Key words:** *consciousness, self-consciousness, demond, interest*
**Ключевые слова:** *сознание, самосознание, попребность, интересы*

Ölkəmizdə həyata keçirilən Təhsil İslahatına dair direktiv sənədlərdən biri olan “Azərbaycanda təhsilin inkişafı üzrə dövlət strategiyası”nda (2013) şəxsiyyətyönümlü təhsilin yeni modelinin yaradılması tövsiyyə olunur. Bu modelin yaradılmasına verilən tələblərə əsasən hər bir məktəbli şəxsiyyətinin hərtərəfli inkişafının təmin edilməsi vacib hesab olunur. Məktəbli şəxsiyyətinin hərtərəfli inkişafının kompleks imkanlarının üzə çıxarılması üçün isə həmin şəxsiyyətin milli mənlik şüurunun formalaşdırılması lazım gəlir.

Milli mənlik şüurunun formalaşması Vətənə, doğma torpağa, doğma yurda, millətə, xalqa, xalqın yaratdığı adət-ənənələrə məhəbbət yaradır. Torpaq insanın yaşayış və əbədiyyat məskənidir. Məktəblilərin öyrəndiyi fənlər, iştirak etdikləri kütləvi tədbirlər, bədən tərbiyəsi və idman, müxtəlif yarışlar onlarda belə bir əqidəni inkişaf etdirir ki, torpaq Vətən müqəddəsdir. Məktəblilər düzgün dərk edirlər ki, dünyada Azərbaycan xalqı var, yaşayır və özünün çox hiyləgər düşməninə - ermənilərə qarşı mübarizə aparır (2, s.11-12). Onlar şüurlu surətdə dərk etməlidilər ki, Azərbaycan xalqının qatı düşməni ermənilərə qarşı mübarizəyə hər zaman hazır olmalıdırlar. Onlar bu mübarizəyə hazır olmaları barədə daim düşünməlidirlər. Bu düşüncə tərzini isə onlarda onların mənlik şüuru yarada bilər. Hansı ki, bu mənlik şüuru millətinə məhəbbət ruhunda yaranmalıdır. Milli mənəvi keyfiyyətləri daşıyan məktəbli gənclərin hər biri möhtərəm prizidentimiz İlham Əliyev demişkən erməni faşızmının işğal etdiyi torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparmalıdırlar. Onlar bu mübarizəyə hazır olmalarından qürur duymalı, iftixar hissi keçirməli, işğal altında olan torpaqların azad edilməsi işində özünəməxsus şəkildə mübarizəyə qoşulmalıdırlar. Bunun üçün isə nəslin nümayəndələrinə, xüsusilə yeniyetmə gənclərə psixoloji yanaşmalar əsasında təsir etmək faydalıdır. Belə psixoloji təsirin isə yeni modeli milli mənlik şüurunu formalaşdırmaqla mümkündür.

Bir sıra pedaqoji-psixoloji ədəbiyyatda göstərilir ki, şüur tədricən mənlik şüurunun formalaşmasının əsasına çevrilir. Əgər ontogenezdə mənlik şüurunun yaranması və səviyyəsinin ardıcıllığına nəzər salsaq, onun iki mərhələsinin olduğu aydınlaşar. Birinci mərhələdə öz bədəninin topoqnostik sxemi yaranır və “Mən hissi” formalaşır. Təbii ki, bu prosesdə ətrafda baş verənlərin inikası da vacib şərtlərdəndir.

Sonrakı mərhələdə intellektual inkişafın təkmilləşməsi, təfəkkürün təşəkkülü nəticəsində şüur refleksiv səviyyəyə yüksəlir və subyektin özünü obyektdən fərqləndirə bilməsi sadəcə olaraq duyğu səviyyəsi ilə məhdudlaşmır, həm də bu fərqi anlamaq səviyyəsinə çatır. Buna görə də mənlik şüurunun refleksiv səviyyəsi bu və ya digər dərəcədə daxili affektiv hissetmədən geridə qalır. Affektiv və koqnitivin genetik baxımdan qarşılıqlı təsirinin konkret detalları hələ kifayyət qədər öyrənilməmişdir. Son illər özünəmünasibətin affektiv kompleksi yalnız özünü inikası yaratmır, həm də ona beyinin müxtəlif yarımkürələri vasitəsilə nəzarət edir (1, s.283). Bəzən milli azadlıqla, milli suverenliklə bağlı şüarlar səsləndirən traturetlər hazırlayanlar vətənpərvərliklə bağlı hazırladıqları həmin sözləri milli mənlik şüurunun formalaşmasının məhsulu hesab edirlər. Onlar unudurlar ki, milli mənlik şüuru tərbiyə olunaraq formalaşmış yeniyetmə -gənclərdə aqidə bütövlüyü ilə yanaşı milli özünütənqid, sözlə işin,

əməlin tam şəkildə vəhdəti özünü onların mənliyində aydın şəkildə təzahür etdirməlidir. Milli qeyrəti, milli əqidə saflığı olmayanlarda isə milli mənlik hissləri də baş qaldıra bilməz.

Bu mənada məktəbli gənclərlə iş apararkən onlara psixoloji cəhətdən düzgün yanaşılmalıdır. Düzgün psixoloji yanaşma sayəsində milli mənliyin ən mühüm tərkib hissələrindən olan milli qeyrət hissləri aşılamaq, milli əqidə saflığı yaratmaq üçün zəmin yaranmış olur.

Təcrübə və müşahidələr göstərir ki, kiçik məktəb yaşı dövründən başlayaraq uşaqlara qeyrətlilik (əsasən oğlanlara), ismətlilik (əsasən qızlara), əqidə saflığı ilə bağlı məlumatların verilməsi, bu sahədə uşaqlarla psixoloji testlərin aparılması çox faydalıdır. Ona görə ki, belə psixoloji yanaşmalar onlarda milli mənlik haqqında ilk təsəvvürləri yaradır. Belə təsəvvürlərdən qidalanan şüurlu özünüdərk isə milli mənlik şüurunun yaranmasını situmullaşdırır. Yeniyetməlik dövrünə qədəm qoyan uşaqların ailəyə, kollektivə olan şüurlu münasibəti yaxşılaşır.

Yeniyetməlik dövründə şəxsiyyətin kollektivdəki mövqeyi, eyni zamanda ictimai münasibətlər sistemində tutduğu vəziyyət, əsaslı dəyişikliklərə uğrayır. Belə ki, bu yaşda onlar "kiçik" uşaqdan "böyük" uşağa çevrilir. Yeniyetməlik dövründə uşaqların davranış və rəftarında əvvəlki yaş dövrlərində müşahidə edilməyən xüsusiyyətlər özünü göstərməyə başlayır. Bütün bunlar yeniyetmənin şəxsiyyətini kiçik məktəblinin şəxsiyyətindən fərqləndirir. Hələ yeniyetməliyin əvvəlində o qədər də fərqlənməyən uşaq sanki birdən birə dəyişir, yaşlılaşır. Bu cür dəyişmə çox vaxt böyüklər üçün gözlənilməz olur, yeniyetmənin böyüklər üçün o qədərdə rəğbətlə qarşılanmayan davranışında təzahür edir (3, s.308)

Psixoloq Ə.Qədirova məxsus olan bu fikirlərdə böyük həqiqət vardır. Ona görə ki, həqiqətən yeniyetməlik yaş dövrünə qədəm qoyan uşaqların bir qismində yaşlılıq hissinin formalaşması özünü daha çox biruzə verir. Belə uşaqlarda özünüdərkin, özünüqiymətləndirmənin, özünəhörmətin ilkin elementləri baş qaldırır. Onlar özlərindən başqa ailə, kollektiv, yaşadıqları region, daha çox Vətən, xalq, torpaq uğrunda gərəkli olmaq haqqında düşünməyə başlayırlar. Psixoloq Ə.Qədirov göstərir ki, "Yeniyetmə yaşında şəxsiyyətin inkişafı, bu sahədə özünü göstərən dəyişikliklər onda yaşlılıq hissinin formalaşması, yeni tip qarşılıqlı münasibətlərin meydana gəlməsi, sərvət meyllərinin təşəkkülü, özünüqiymətləndimənin formalaşması, mənlik şüurunun inkişafa başlaması və s. cəhətlər təzahür edir" (3, s.308).

Göründüyü kimi yeniyetmələrdə bir sıra mütərəqqi meyllərin təşəkkülü onlarda özünüdərkin, özünüqiymətləndirmənin formalaşmasına səbəb olur. Özü də məhz bu səbəbdən milli mənlik şüurunun inkişafa doğru dinamik surət almağa başlaması kimi cəhətlər təzahür edir. Əslində həmin cəhətlər primitiv formada təzahür etməyə başlayır. İstər ailədə, istər ümumtəhsil məktəblərində istərsə də sosiallaşma prosesində yeniyetmələrdə özünü göstərən bu cəhətlərin mənəvi keyfiyyətlər halına gətirilməsi üçün ilkin olaraq yeniyetmələrin psixikasına təsir etmək lazım gəlir. Yeniyetmələrin psixikasına göstərilən təsirin sambalından, təsir gücündən asılı olaraq onların şüurlu olaraq psixi dərketməsi baş verir. Müasir psixologiya elmi sübut etmişdir ki, şüur psixikanın insana məxsus olan elə ali səviyyəsidir ki, onun əmələ gəlməsi bir sıra zəruri amillərdən asılıdır. Hansı ki, bu amillərin əsasında nümunəvi həyat şəraiti, örnək ünsiyyət və işgüzar istehsal fəaliyyəti dayanır. Burada işlətdiyimiz "nümunəvi", "örnək" və "işgüzar" fəaliyyət mənəvi keyfiyyətləri yaradan milli dəyərlər kimi başa düşülməlidir. Çünki "qeyri-nümunəvi", "örnək olmayan", "tənbəl" uşaqlarda mənəvi keyfiyyətlərin özünü göstərməsi və onların şüurlu olaraq dərk edilməsi prosesi özünü gec göstərə bilər və ən təhlükəlisi odur ki, heç göstərməyə bilər. Unutmaq olmaz ki, şüur bütün psixi hadisələrin həm inkişafının, həm sabit qalmanın, həm də qeyri-münasib inkişafının yekunudur. Əgər ailədə valideynlər insanlarda əqidə saflığını inkişaf etdirən onların əxlaqını saflaşdıran əməllərlə məşğul olurlarsa deməli ailə üzvlərinin ilk növbədə uşaqların psixikasına müsbət enerjilər daxil olmasına şərait yaratmış olur. Uşaqlar psixikanın onlara məxsus olan ən ali səviyyəsi sayılan şüurun duymaq, qavramaq və qiymətləndirmək mərhələsində fəallaşırlar. Bu fəallığın fonunda onlara aşılanan mənəvi keyfiyyətləri onlar şüurlu surətdə dərk etməyə başlayırlar. Tutaq ki, ailədə valideyinlər mərhəmətlilik, şəfqətlilik, həyalılıq kimi keyfiyyətləri nümaiş etdirillər şübhəsiz yeniyetməlik yaş dövründə olan övladları da belə mütərəqqi mənəvi keyfiyyətləri nümayiş etdirməyə meyl edəcəklər. Müasir dövrdə isə iqtisadi, fiziki, ruhi baxımdan ehtiyyac içərisində yaşayanlara, mənəvi çətinlik çəkənlərə mərhəmət göstərmək, şəfa

vermək, həyalı insanlara ehtiram göstərmək yeniyetmələr üçün mənəvi borca çevrilir. Bu borcu isə onlar şüurlu olaraq yerinə yetirirlər. Belə bir təqdirdə yeniyetmələrin mənlik şüuru üçün milli mənəvi keyfiyyətlər sistemi yaranmış olur.

Yeri gəlmişkən demək lazımdır ki, bu mütərəqqi meyllərin içərisində əqidə saflığının təşəkkülü ilə bağlı psixoloqların irəli sürdükləri elmi ideyalar da diqqəti cəlb edir.

Türkiyəli psixoloq Həyati Hökelekli (6) yazır ki, insanı mənəvi cəhətdən sövqə gətirən, mütərəqqi yöndə davranışa sövq edən bir sıra amillər vardır. Bu amillər içərisində diqqət, istək, ehtiyac, arzu, dilək, əməl, məqsəd, cəhd, ideal uğrunda mübarizə əsas amillərdən hesab olunur. Həyati Hökelekliyə görə uşaqlara, yeniyetmələrə idealları uğrunda mübarizə aparmağı öyrətmək üçün əvvəlcə onların milli-mənəvi ehtiyaclarını öyrənmək lazımdır. Sonra bu sahədə onların istəklərinə, arzu və diləklərinə uyğun olan bir tərzdə onlara psixoloji cəhətdən yanaşmaq gərəkdir.

Əslində bütün bunlar müasir psixologiyanın konseptual ideyalar sisteminin bir həlqəsidir. Ona görə ki, müasir psixologiya şəxsiyyətin milli mənlik şüurunun onun fəallığı ilə bağlı olaraq meydana gəlməsini iddia edir. Şəxsiyyətin fəallığının mənbəyini isə müxtəlif təlabatlar bolluğu təşkil edir. Həmin müxtəlif təlabatlar isə özünü ən fəal tərəf kimi göstərən motivlər sistemi halında üzə çıxır. Şəxsiyyətin fəaliyyət motivlərini isə psixologiya elmi müvafiq tələbatların ödənilməsinə istiqamətləndirən təhriklər hesab edir. Psixoloq Q.Ə.Quliyev təlim tərbiyə prosesində yaranan qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji təhlilinə həsr etdiyi tədqiqatlarında yeniyetmələrin bu prosesdəki tələbatlarına da toxunaraq yazır ki, indiyə qədər yazılan ədəbiyyatlarda oxuyuruq ki, yeniyetmələr yaşlılarla birlikdə əməkdə iştirak etdikdə məhsuliyyət və müstəqillik hissi, həssaslıq və qayğıkeşlik, başqa adamlar haqqında düşünmək və onlara diqqətlə yanaşmaq bacarığı inkişaf edir...Təcrübə göstərir ki, bir qisim yeniyetmə-gənclər ərköyünlük edərək özlərindən yaşlıların hətta valideyinlərinin öyüdlərini, tövsiyyələrini qulaq ardına vururlar... Onalar həm məktəbdən yayınır, həm də onlarda nəcib hisslər, mənəvi keyfiyyətlər əvəzinə əxlaqa zidd digər tələbatlar özünü biruzə verir (4, s.114).

Alimin fikrinə görə yeniyetmə və gənclərdə baş qaldıran bütün tələbatlara həssaslıqla yanaşmaq lazımdır. Başqa sözlə desək hər bir tələbatın motivini araşdırmadan yeniyetmə-gənclərin milli mənlik şüurunu inkişaf etdirərkən yuxarıdakı əngəllərlə qarşılaşmaq mümkündür. Yeniyetmələrin davranışına nəzarət edən valideyinlər, tərbiyəçilər, pedaqoqlar, psixoloqlar ilk növbədə nümunəvi davranışlarla onların davranış və fəaliyyətlərinin motivlərini düzgün müəyyənləşdirməlidirlər. Əks təqdirdə onların maraq dairəsinin motivlərini də düzgün müəyyənləşdirmək mümkün olmayacaqdır. Çünki yeniyetmələrin əksəriyyətində maraqların davamlılığı bir-birindən fərqlənir. Bəzən ötəri maraqlar müşahidə olunur. Ötəri maraqlar idrak təlabatlarının tənzimlənməsinə əngəl törədir. Bu da mənlik şüurunun yaranmasına mane olan amillər kimi özünü göstərir.

Maraqlar məzmununa, məqsədinə, genişliyinə və davamlılığına görə təsnif oluna bilər.

Məzmununa görə maraqlar fərdi idrak tələbatlarının obyektlərini və müəyyən fəaliyyət məqsədləri üçün, geniş mənada isə şəxsiyyətin mənsub olduğu cəmiyyət üçün onların real əhəmiyyətini aşkara çıxarır (5, s.117). Ona görə də milli mənlik şüurunun inkişafında mühüm rol oynayan maraqların idrak təlabatlarının əsas obyekti olaraq öyrənilməsinə diqqətin yetirilməsi çox faydalıdır. Çünki yeniyetmə şəxsiyyətinin əsas fəaliyyətinin düzgün motivləşdirilməsi hesabına mənlik şüuru inkişaf edir. Onların davranışının əsas motivi əqidə saflığını yaratdığı üçün əqidə formasında meydana çıxan tələbatlar yeniyetmə şəxsiyyətinin idrak fəallığının təkanverici qüvvəsi kimi meydana çıxır. Beləliklə yeniyetmə şəxsiyyətinin əqidə saflığı milli mənlik şüurunu yaradan amilə çevrilir. Bu zaman yeniyetmələr Vətən, xalq, xalqın bütüvlüyü barədə düşünməyə başlayırlar.

İnsanların birliyi xalqı, milləti yaradır və bu birlik xalqın, millətin diriliyinə çevrilir. Xalqı, milləti kütlə, izdiham halında saxlamaq onu məhv etmək deməkdir. Belə olduğu bir şəraitdə millət, xalq öz soy-kökündən, tarixindən, ədəbiyyatından ayrı düşür. Müasir dövr hər bir müəllimdən, tərbiyəçıdən, ailə başçısından xalqın sıx birliyini təmin etməyi tələb edir. Milli mənlik şüuru və əqidəsinin formalaşdırılması və tərbiyə olunması Azərbaycanı XVIII əsrin xanlıqlarına parçalamaq deyil, xalqın mütəşəkkil və monolit birliyini tələb edir. Axı, belə bir möhtəşəm birlik üçün qüdrətli zəmin var və yaranmışdır (2, s.12).

Açığını etiraf etmək lazımdır ki, bu gün yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşdırılmasına daha ciddi ehtiyac var. Torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında inlədiyi indiki şəraitdə yetişən nəslin milli mənlik şüurunun formalaşdırılmasına nail olmadan işğal olunmuş torpaqlarımızın azad olunması işini yubada bilərik. Çünki yetişən nəslin mənlik şüurunda milli əqidə, milli birlik hissləri kök salmasa onlarda mübarizə əhvalı-ruhiyyəsi, qələbə əzmi, torpağı işğaldan xilas etmək kimi hissləri oyatmaq olmaz. Məhz ona görə də yetişən nəslin nümayəndələrinə milli mənlik şüurunu aşılamaq üçün şərtləndirən əsas cəhətlərin istək, monolit bir psixoloji modelin müəyyənləşdirilməsinə və bu modelin psixoloji mexanizminin yaradılmasına ehtiyac duyulur.

Fikrimizcə bu proses inkişafın yaş, fiziki və psixoloji cəhətdən əlaqəsinin tələbatların dinamik inkişafından asılılığını və ya tələbatların inkişaf dinamikasının yaşla, fiziki və psixi inkişafla bağlı olmasını bir daha sübut edir. Bu dövrdə insanın yaşaması üçün əsas olan onun qorunub saxlanmasına xidmət göstərən maddi tələbatları mənəvi və ya sosial-psixoloji tələbatlarla əvəz edilir. Bu o demək deyil ki, insanlar yemək, içmək, geymək və mənzil kimi əsas əhəmiyyətə malik tələbatlarını ödəmir və ya bunu qeyd etmirlər. Bu heçdə düşündüyümüz kimi deyildir. İnkişafın yüksək mərhələsinə qalxan yeniyetmə və gənclərdə mənəvi və sosial-psixoloji tələbatlar maddi tələbatlar kimi çıxış edir. Yəni onlar yeməyə, içməyə, geyimə və mənzilə nə cür tələbat duyurlarsa, eyni ilə mənəvi və sosial-psixoloji amillərə də o cür tələbat duyurlar. Bir sözlə bio-psixo-sosial varlıq olan yeniyetmə və gənclər yalnız maddi bioloji tələbatlarını ödəməklə kifayətlənə bilməzlər. Çünki onların mənəvi və sosial-psixoloji inkişafını tamamlayan tələbatlarını da ödəməyə ehtiyyacları vardır (4, s.109).

Məqalədə qeyd olunanları ümumiləşdirərək son qənaətimizi aşağıdakı şəkildə ifadə edə bilərik:

- milli mənlik şüuru bir anlayış olaraq "milli", "mənlik" və "şüur" sözlərinin cəmindən yaranan və bir fərdin, yeniyetmə-gənclərin, bütövlükdə götürüldükdə insanın özünüdərketmə prosesini özündə ifadə edən anlayışdır;
- milli mənlik şüurunun bünövrəsini təşkil edən idrak tələbatlarının obyekti olan maraqların əsasında yaranması onun inkişafının təməlini təşkil edir;
- milli mənlik şüurunun məsullarından olan milli-mənəvi keyfiyyətlər yetişən nəslin milli mənlik şüurunun formalaşmasında bənzərsiz rola malik olur;
- yeniyetmə-gənclərin hərtərəfli inkişaf etmiş şəxsiyyətlər kimi yetişməsində əsas rol oynayan maraqların motivlərinə uyğun olaraq milli mənlik şüuru formalaşmış olur;
- yeniyetmə-gənclərin bir şəxsiyyət kimi inkişafında, yəni şəxsiyyətyönümlülük;
- səviyyəsinin yüksəlməsində əsas rol oynayan səmərəli fəaliyyətinin, əqidə saflığının, milli dəyərlərə saf məhəbbətinin, düzgün motivləşdirilməsi hesabına milli mənlik şüuru inkişaf edir.

## ƏDƏBİYYAT


1. Əliyev R.İ Psixologiya ( Dərs vəsaiti ). Bakı: Nurlan, 2008, 352 s.
2. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyyəsi. Bakı, ABU-Təhsil, 2006, 264 s.
3. Qədirov Ə.Ə yaş psixologiyası, Bakı, Maarif, 2008, 386s.
4. Quliyev Q.Ə Təlim tərbiyə prosesində tələbatların inkişaf dinamikası və münasibətlər sisteminin formalaşması. Bakı, AİMU-nin t.h. mətbəəsi, 1998, 198s.
5. Ümumi psixologiya (prof V.İ.Petrovskinin redaksiyası ilə), Bakı, Maarif, 1982. 494 s.
6. Hökelekli Həyati. Din psikolojisi. Türkiye: Diyanet Vakfi yayımları 7-ci baskı: kasım, 2008, 368 səh.

**ABSTRACT**

**Ch.Guliyev**

**CONSIDERATION OF THE NEEDS AND INTEREST IN THE NATIONAL CONSCIOUSNESS FORMATION OF THE YOUNGER GENERATION**

The article reports about the necessity to take into account the needs and interests as the primary conditions for national consciousness formation. The objects, that comprise the needs, are based on the interests and are underlying and important in the national consciousness formation.According to the theory, comprehensive development of the personality of the youth is contributed by the national self-consciousness formation, which is based on the incentives and interests.

**РЕЗЮМЕ**

**Ч.Гулиев**

**УЧЁТ ПОТРЕБНОСТЕЙ И ИНТЕРЕСОВ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ У МОЛОДОГО ПОКОЛЕНИЯ**

В статье говорится о необходимости принятия во внимание потребностей и интересов в качестве первоочередных условий для формирования национального самосознания. Указывается на составляющие объекты потребностей, основанные на интересах и являющиеся основополагающими в формировании национального самосознания. На основании данной теории, для всестороннего развития личности подрастающего поколения ключевую роль играет формирование национального самосознания на основе мотивов и интересов.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**GÜLMİRA HACIYEVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:37**

# ƏLİQULU QƏMKÜSARIN YARADICILIĞINDA İDEYA-SİYASİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ VƏ PEDAQOJİ FİKİR TARİXİ ÜÇÜN ONLARIN ƏHƏMİYYƏTİ

**Açar sözlər**: *Əliqulu Qəmküsar, ideya-siyasi tərbiyə, cəmiyyət*
**Key words:** *Aligulu Gamkusar ideological-political upbringing society*
**Ключевые слова:** *Алигули Гамкусар, Азербайджан, идейно политическое, воспитание, общество*

Əliqulu Qəmküsarın yaradıcılığında ideya-siyasi tərbiyə ilə bağlı nümunələr də vardır. Yəni onun poeziyasında ideyalılıq yüksək səviyyədə olduğu kimi, siyasi yanaşmalar, siyasi gəzişmələr də yüksək səviyyədədir.

Ümumiyyətlə desək, ideya-siyasi tərbiyə tərbiyənin tərkib hissələrindən biridir. Tərbiyənin digər tərkib hissələri kimi ideya-siyasi tərbiyə yetişən nəslin həm ideyalılıq səviyyəsini, həm də siyasi motivlərə uyğun keyfiyyətlərini öyrənir və ölkənin milli ideyologiyasına uyğun onları tənzimləyir. Yeri gəlmişkən demək lazımdır ki, ideya-siyasi tərbiyənin mahiyyətini düzgün şərh etmək üçün bu anlayışın etimoloji məna çalarlarına da diqqət yetirmək lazım gəlir. «Идейа-сийаси» ифадясинин биринси тяряфиндя «идейа» сюзц, икинси тяряфиндя car «сийаси» сюзц дайаныр. Илк юнся онлары айры-айрылыгда изащ етмяйя чалышаг. «Идейа» сюзц бир анлайыш кими, щяля антик дюврдян мювсуддур. Идейа анлайышы антик дюврдя «мяна», мащиййят билдирян сюз кими ишлядилмиш, щямчинин фялсяфянин шцур вя тяфяккцрцн категорийалары иля сых баьлы олан мявщум кими иряли сцрцлмцшдцр. Философларын фикриня истинад етсяк демялийик ки, даими вя дяйишмяз идейа йохдур. Инсанларын идейасы тябии олараг онларын щяйат тярзиня, мадди рифащына, сямиййятдяки мювгеляриня уйьун олараг даима дяйишир, пцхтяляшир вя беляликля инсан юзц дя шяхсиййят кими формалашмаьа башлайыр. Шяхсиййят ися сямиййятя рянэарянэ теллярля баьлы олан бир истимаи варлыгдыр. О, сямиййятин тяряггиси иля ялагядар олараг инкишаф едир вя дяйишир. Дащи философларымыздан Ябцлщясян Бящмянйар ял Азярбайсани юзцнцн «Ят-Тящсил» ясяриндя эюстярир ки, истимаи мцнасибятлярин йарадысысы вя иштиракчысы олан инсан эерчяклийи дцзэцн дярк етдийи тягдирдя эцслц шяхсиййятя чеврилир. Щеэеля эюря, шяхсиййят инсан рущунун даща дярин принсипинин-азад фяалиййят принсипинин дярк едилмясинин вя идракын цмумилийинин вя мядяниййятинин мящсулудур. (151, səh 328)

İdeya siyasi tərbiyənin məzmununa görə ideyalılıq və siyasi bütövlük anlayışları bir-birini tamamlayır. Professor Nürəddin Kazımov göstərir ki, ideya-siyasi tərbiyədə ideya və siyasi anlayışlar bir-birini tamamlayır.

İdeya yunan (idea) sözüdür, xarici aləmin cisim və hadisələrinin təsəvvür və anlayış formasında inikasını bildirir.

İdeya tarixən müxtəlif alimlər tərəfindən müxtəlif cür başa düşülmüşdür. Məsələn, vaxtilə Demokrik görünməyən atomları, Platon görünən cisim və hadisələrin kölgələrini ideya adlandırmışdır.

Cəmiyyətdə əhəmiyyətinə görə ideyaları iki qrupa ayırmaq olar: mütərəqqi və qeyri-mütərəqqi ideyalar. Birincilər – cəmiyyətin irəliləməsinə, ikincilər isə - geriləməsinə təsir göstərir. (90, səh. 332). Siyasi motivlər isə daim yetişən nəslin nümayəndələrinin marağına səbəb olur. Ona görə təlim prosesində həmin siyasi hadisələrlə bağlı şagirdlərin dünyagörüşlərinin formalaşmasına təsir edən informasiyalardan, məlumatlardan istifadə etmək lazım gəlir.

Hər dövrün özünə məxsus ideya-siyasi informasiyalar sistemi olduğu üçün yetişən nəslin nümayəndələrinin həmin informasiyalar sistemi ilə tanış edilməsi faydalı hesab olunur. Bu mənada Əliqulu Qəmküsarın yaradıcıllığında öz dövrünə məxsus ideya-siyasi tərbiyə ilə bağlı motivlər daha çoxdur. Bunları pedaqoji fikir tarixi üçün işləmək bir tərəfdən pedaqoji fikir tariximizi zənginləşdirirsə, digər tərəfdən yetişən nəslin ideya-siyasi tərbiyəsinin formalaşdırılmasını təmin etmiş olur. Həmin faktların, yəni həmin ideya-siyasi tərbiyə ilə bağlı informasiyaların bu günkü məktəblilərə çatdırılması onların ideya-siyasi dünya görüşlərinin formalaşmasını təmin etmiş olur. Bu baxımdan böyük ədib Əliqulu Qəmküsarın yaradıcılığındakı ideya-siyasi tərbiyə ilə bağlı fikirlərin təhlilinə zəruri ehtiyac duyulur. Ona görə ki, Əliqulu Qəmküsarın ideya-siyasi tərbiyə ilə bağlı fikirləri, mülahizələri, mühakimələri, yanaşmaları onun milli şüurunun məhsuludur. Milli şüura malik olan ədiblərimizin böyük əksəriyyəti, milli mənliyə yiyələndikləri üçün bütün dövrlərdə cərəyan edən hadisələrə milli mənlik şüuru səviyyəsində yanaşmışlar. Çünki onlar öz ölkələri üçün zəruri olan mütərəqqi ideyaları Azərbaycançılıq ideyalogiyası zəminində təqdir və təlqin etmişlər.

Professor Nurəddin Kazımov göstərir ki, Azərbaycan üçün mütərəqqi ideyalar olduqca əhəmiyyətlidir. Belə ideyalardan biri milli mənlik, şüurdur. Milli mənlik şüuru tələb edir ki, özünü azərbaycanlı adlandıran şəxs Azərbaycan xalqının sevincinə sevinsin, kədərinə şərik olsun, xalqı ilə qaynayıb qarışsın. "Mən azərbaycanlıyam" demək azdır. Azərbaycana məxsus olduğunu işdə, davranışda isbat etmək lazım gəlir. İdeya-siyasi tərbiyənin əlamətlərindən, vəzifələrindən biri məhz milli mənlik şüurunun gənc nəsildə formalaşmasına xidmət etməkdən ibarətdir. (90, səh. 332-333). XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının məhz belə çıxış etməsi çox mühüm çətinliklər yaradırdı. Belə çətinliklər Əliqulu Qəmküsarın yaradıcılığında daha çox sezilir. Çünki çar Rusiyasının işğal etdiyi azərbaycan siyasi məngənədə sıxıldığı həmin zamanlarda Cənubi Azərbaycandakı şah rejimi soydaşlarımızı daha çox incidirdi. Belə ziddiyətli məqamları qulaq ardına vura bilməyən, istər çar Rusiyasının, istər Şah rejiminin Azərbaycana və azərbaycanlılara qarşı törəddikləri nifaqlar Əliqulu Qəmküsarı çox narahat edirdi. Ona görə o, bu məsələləri öz əsərlərində, əgər belə demək mümkünsə ideya-siyasi tərbiyə fonunda göstərməyə çalışırdı. Onun "İranlılar" şeirinə diqqət etsək, şeirdəki ideya-siyasi tərbiyə motivlərini diqqətə çəksək, dediklərimizi daha aydın şərh etmiş olarıq. Həmin şeir belə başlayır:

*Barəkallah, çox nəcib insandılar iranlılar,*
*Hər kim eşşəksə ona palandılar iranlılar.*

*Gəlməmişdən Məmdəli uymuşdular məşrutəyə,*
*Etiraz etmişdilər hər bimürqüvvət lutiyə,*
*Nitqidə natiqləri bənzərdi sanki tutiyə,*
*Zənn edərdi cümlə, şəksiz, qandılar iranlılar.* (52, səh. 32)

Bu misralardakı, ideya-siyasi motivləri anlamaq üçün Əliqulu Qəmküsarın nəzərdə tutduğu konkret siyasi olayları bilmək lazımdır. Yəni Əliqulu Qəmküsarın nəzərdə tutduğu əsil ideya-siyasi mətləblərin məzmununu dərk etmək üçün İran müstəbidi Məmmədəli şaha qədər olan siyasi olayları yada salmaq lazımdır. Yəni Səfəvilərin sonuncu şahı Təhmasibin müəmmalı ölümündən sonra siyasi hakimiyyəti ələ keçirən Nadir şah (əsil adı Nədirquludur) özünü İran şahı elan etdi. Vəzirləri tərəfindən öldürüldükdən sonra Səfəvilər dövləti və bütün şahlıq strukturu tamamilə dağıldı. Azərbaycan bir çox xanlıqlara bölündü. Həmin xanlıqlardan birini şahlıq kimi formalaşdıran Ağa Məhəmməd şah 18-ci əsrin sonlarından etibarən Azərbaycanı və bütün İranı idarə etməyə başladı. Onun əziz xələfləri hesab olunan Fətəli şah (1797-1834), Məhəmməd şah (1834-1848), Nəsrəddin şah (1848-1896), Müzəffərəddin şah (1896-1907), Məhəmmədəli şah (1907-1909) kimi hökümdarlar dövründə Azərbaycanlılar hər zaman ehtiyac içərisində yaşamışlar. İranı vətən, xalq, dövlət naminə yox, öz şəxsi mənafeləri naminə idarə edən adı çəkilən şahlar içərisində Məhəmmədəli şahı (Əliqulu Qəmküsar onu Məmdəli şah kimi ifadə edir) tənqid atəşinə tutan Əliqulu Qəmküsar xalqın halına yandığını bu şeirdə daha açıq ifadə edə bilmişdir. Əliqulu Qəmqüsarın "Gəlməmişdən Məmdəli uymuşdular məşrutəyə" fikri yuxarıda adları çəkilən

Məhəmmədəli şahın sələflərinin də xalqı istismar etməsi, incitməsi, inqilaba təhrik etməsi anlamına gəlir. Ayrı-ayrı bəndlərdə hökümət nümayəndələrinin xalqı necə incitməsini görmüş olarıq:

*Hər nə məclis qurdular, hər yerdə şura etdilər,*
*Bir ətin, bir əkməgin taksində dəva etdilər,*
*Hər yerin hakimlərin bir bicərrupa etdilər,*
*Onların hər məkrinə tovlandılar iranlılar.* (52, səh. 33)

Bu misralarda  xalqı bir tikə çörəyə, bir parça ətə möhtac edən şah rejiminin iç üzünü açan Əliqulu Qəmküsar İranlılar deməklə, İrandakı Azərbaycanlıların qarşılaşdığı çətinliklərlə oxucunu tanış edir. Növbəti misralarda İrandakı soydaşlarımızın istər mülkədar qismində, istər rəncbər qismində (rənbər qapı, pəncərə düzəldən ustaya deyirdilər. G.H)  çalışdıqları məqamda siyasi məngənəyə düçar olduqları açıq-aşkar göstərilir. Məhəmmədəli şahın dövründə bütün sənətkarların, hətta əkinçilərin zülmə düçar olduqları göstərilirsə, onların bu zülmə qarşı mübarizə apara bilmədikləri də tənqid atəşinə tutulur. Bu xüsusda Əliqulu Qəmküsar yazır:

*Aldı qanuni-əsası çünki duzdan-maliyat*
*Mülkədarə, rəncbərə bəxş etdi bir tərzi-həyat,*
*Zülmdən istərdi tapsın məmləkət bir az nəcat,*
*Ol səbəbdən məhvinə davrandılar iranlılar.* (52, səh. 33)

Bu misralarda 1909-cu ilin iyulunda fədailərin (vətən uğrunda canını qurban verənlərin, ) mücahidlərin (yəni azadlıq uğrunda mücadilə edənlərin) dəstələri Tehranı ələ keçirdikdən sonra Məhəmmədəli şah özünü məğlub hesab edir. Tax-tacdan uzaqlaşdırılan Məhəmmədəli şah İrandan sürgün edilir. Bu hadisəni dilə gətirən Əliqulu Qəmküsar bu xüsusda yazır:

*Afərin məşrutəyə  bədxah olan oğlanlara,*
*Gündə istefa verən, eraz edən əyanlara,*
*Şükr kim şimdi baxan yox nahaq axmış qanlara,*
*İrticayə qəlbdən xahandılar iranlılar.* (52, səh. 33)

Bu misralardan açıq, aydın məlum olur ki, Məhəmmədəli şah taxtı-tacdan uzaqlaşdırıldıqdan sonra şah rejiminin tərəfdarları olan vəzifə sahibləri də vəzifələrindən əl çəkib qaçıb gedirlər. Ölkədə xaus yaranır. Lakin bu xausun ağır zərbəsi günahsız insanlara, xüsusilə İranın əhalisinin əsasını təşkil edən soydaşlarımıza dəyir. Belə tarixi faktların ideya-siyasi tərbiyə fonunda məktəblilərin öyrənmələri əgər bir tərəfdən onların ideya-siyasi görüşlərini zənginləşdirirsə, digər tərəfdən pedaqoji-fikir tariximizi ziynətləndirmiş olur.

## ƏDƏBİYYAT


1. Sadıqov F.B. Pedaqogika, dərs vəsaiti. Bakı, Adiloğlu, 2012, 328s.
2. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, Çaşıoğlu, 2002, 332, səh
3. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, Çaşıoğlu, 2002, 333, səh
4. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1959, 32səh.
5. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1959, 33 səh.
6. Hüseynzadə L.T. Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı (dissertasiya). Bakı, 1949.

**ABSTRACT**

**G.Hajiyeva**

**IDEOLOGICAL-POLITICAL UPBRINGING ISSUES IN ALIGULU GAMKUSAR CREATIVITY AND THEIR IMPORTANCE FOR PEDAGOGICAL THOUGHT HISTORY**

The article deals with samples connected with ideological- political upbringing in Aligulu Gamkusar creativity. Motives connected with ideological-political upbringing in Aligulu Gamkusar creativity belonging to his time are too many.

From one hand if to search them for pedagogical thought history enriches our pedagogical thought history, from the other hand it ensures the formation of idelogical-political upbringing of the growing generation.

In the iken article moral upbringing samples given in Aligulu Gamkusar creativity serves not only to give education to illiterate mass, but also to purify their moral in that period. In the article it is stated that, majority of aur writers approached the happened events from national selfconsciousness point of view in all periods because of possessing national consciousness.

Study of such historical facts from ideological- political upbringing point of view bu school children enriches not only their ideological-political thoughts, but enriches aur pedagogical thought history.

**РЕЗЮМЕ**

**Г. Гаджиева**

**В ТВОРЧЕСТВЕ АЛИКГУЛИ ГАМКУСАРА ЗАДАЧИ ИДЕЙНО-ПОЛИЧЕСКОГО ВОСПИТАТИЯ И ИСТОРИЯ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ ДЛЯ ИХ ЗНАЧЕНИЯ**

В статье Алигули Гамкусара в творчестве обуждается связанно идейно-политического воспитания образцами. В творчесте Алигули Гамкусара отпоящеся своей этохе мотивы много. Это обеспечивает для педагогической мысли подрастоношего поколетия и формироватие идейно-политеского воспитания.

В статье большое количества литераторов отладающи национальному достоинству человека подходили этому направлению на уровне собственное я, во всех временах.

Такие исторические факты украшают на фонеидейно- политического воспитания обучение учеников, если с одной стороны обочашают встреч идейно-политического воспитания, с другой стороны нарядит историю педагогнческой мысли.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**TÜKƏZBAN RÜSTƏMOVA**
*Gəncə Dövlət Universiteti*

**UOT 159.923.31**

# İMTAHAN STRESİNİN TƏSİRİ ALTINDA TƏLƏBƏLƏRDƏ PSİXOLOJİ GÖSTƏRİCİLƏRİN TƏDQİQİ

**Açar sözlər**: *Gərginlik, amil, qıcıqlandırıcı, özünütənzimləmə, yüklənmə*
**Keywords:** *stress factor, a stimulus, self-regulation, overload*
**Ключевые слова:** *напряженность, фактор, раздраженность, загруженность*

Təkamül prosesində möhkəmlənmiş məqsədyönlü reaksiya kimi, emosional gərginlik neyrofizioloji prosesləri aktivləşdirərək adaptiv davranışın formalaşmasına və dərketmə proseslərin güclənməsinə səbəb olur. Emosional gərginliyə həsr olunan son illərin ədəbiyyatında əsas fikir fərdin stres zamanı davranışı, aktivlik və adaptasiya olma göstəricisi, müdafiə olunma qabiliyyəti kimi proseslərin öyrənilməsi olmuşdur. Elmi məqalələrdə psixi tənzimləmə və fərdin aktivliyinin özünütənzimləməsinə böyük diqqət ayrılmasına baxmayaraq, yenə də emosional gərginliyin sinir sisteminin funksiyalarına təsir mexanizmləri hələ də ətraflı öyrənilməmiş qalır.

Ali təhsil müəssisələrində oxumaq özü də bir sıra əhəmiyyətli xüsusiyyətlərə malikdir ki, bu da tələbələrin seçdiyi ixtisaslarından, yaşayış mühitindən, yaşından, qidalanma və zərərli vərdiş və s. çox asılıdır. Qeyd etdiyimiz faktorlar tələbələrin orqanizminə çoxparametrli təsir edərək, bir sıra psixofizioloji funksiyaların, xüsusilə sinir sisteminin ətraf mühitdən gələn stres təsirlərə qarşı reaksiyalarının dəyişməsilə nəticələnir. Tələbələrdə psixi gərginlik yaradan ən əsas səbəblərdən biri imtahan stresidir ki, çox vaxt axır nəticə imtahan prosesi psixitravma yarada bilən faktor kimi göstərilir.

İmtahan stresi-klassik stress modeli sayılır və orqanizmdə çoxsaylı kompleks psixofizioloji dəyişikliklərin yaranması ilə müşaiyət olunaraq, insanın həyat fəaliyyətinə (təhsil, əmək, idman və s.) təsir edir. İnsanın həyat fəaliyyətində psixi gərginlik yaradaraq imtahan stresinə bənzər çoxsaylı vəziyyətlər mövcuddur (məsələn, attestasiya, testləşdirmə, yarışlar, ekspertiza, işə qəbul üçün müsabiqə, dissertasiya və ya diplom işi müdafiəsi, cəmiyyətdə çıxışlar və s.) (1). Bütün hallarda insan qarşıya qoyduğu məqsədə çatmaq üçün çalışır və psixoloji gərginliyin yaranması ilə nəticələnir.

Son illərin ədəbiyyatında imtahan stresinin tələbələrin sinir, ürək-damar və immun sisteminə, hətta genetik aparata mənfi təsir etdiyini, onkoloji xəstəliklərin yaranma ehtimalının artmasına şərait yaratdığını sübut edən kifayət qədər məlumatlara rast gəlinir. İmtahan stresi beyin qabığından başlayan, hüceyrə səviyyəsində yekunlaşan zəncirvari disfunksiyalara səbəb olur. Emosional stresə qarşı insanların müxtəlif davamiyyətini nəzərə alaraq, ədəbiyyat mənbələrində vegetativ sinir sisteminin simpatik və parasimpatik şöbələrinin aktivləşməsinə, vegetativ homeostazın pozulmasına, ürək-damar sisteminin reaksiyalarının yüksəlməsi faktları göstərilib. Zehni və psixo-emosional gərginlik neyroendokrin sistemin funksiyalarına da təsir göstərərək, maddələr mübadiləsinin pozulmasına gətirib çıxarır. İmtahanın ağırlıq dərəcəsindən əlavə, imtahan zamanı müxtəlif yaş qruplarında olan tələbələrdə emosional gərginliyə qarşı reaksiyalar müxtəlif şəkilli olması ilə diqqəti çəkir.(3) Qeyd olunan faktları nəzərə alaraq, üç müxtəlif yaş qrupuna daxil tələbələrdə eyni tədqiqatlar aparmaqla, beyin fəaliyyətinin dəyişikliklərinin mexanizmlərinə aydınlıq gətirmək mümkün ola bilər.

Material və metodlar:

Dissertasiyanın nəzərdə tutulmuş tədqiqatlarını həyata keçirmək üçün Gəncə Dövlət Universitetinin tələbə və magistrları tədqiqatlara cəlb ediləcək. Belə ki, I kursda oxuyan 17-18 yaşlı, IV kursda oxuyan 21-22 yaşlı tələbələr, magistra-turanın son kursunda oxuyan 24-25 yaşlı magistrlar üzərində psixofizioloji və elektrofizioloji tədqiqatların aparılması nəzərdə tutulub. Tədqiqatlarda iştirak edənlərin praktiki sağlam olması və könüllü olaraq tədqiqatlarda iştirakı vacib şərtlərdəndir. Hər qrupda minimum 30-40 nəfər tədqiq olunacaq.

Tədqiqatlar əsasən 4 mərhələdə aparılması nəzərdə tutulub:

I mərhələ: İmatahandan 2 ay əvvəl - psixoloji və elektrofizioloji fon göstəricilərinin təyini məqsədilə aparılacaq. Bu zaman əsasən, imtahan dövründə tədqiq olunacaq tələbə və magistrların psixofizioloji göstəriciləri adi gündə təyin olunmaqla, emosional gərginliyin təsiri altında yaranan dəyişiklikləri müqayisə edərək aşkar etmək üçün vacib əhəmiyyətə malikdir;

II mərhələ: İmatahandan 30 dəqiqə əvvəl- tədqiqatlarda iştirak edənlər imtahan başlanmazdan 30 dəqiqə əvvəl psixoloji və elektrofizioloji müayinələrdən keçiriləcək;

III mərhələ: İmtahandan 10 dəqiqə sonra- tədqiqatlarda iştirak edənlər imtahan qurtardıqdan 10 dəqiqə sonra psixofizioloji tədqiqatlara cəlb olunaraq, emosional gərginliyin yaratdığı dəyişikliklər aşkar ediləcək;

IV mərhələ: İmtahandan 2 saat sonra- imtahan qurtardıqdan 2 saat sonra tələbə və magistrlarda emosional gərginliyin aradan götürülməsindən sonra qalan iz reaksiyalarının müəyyənləşdirilməsi gözlənilir.

İmtahan prosesinin özü də iki mərhələdən ibarətdir və burada imtahan prosesinin ağırlıq dərəcəsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, imtahan prosesinin ağırlıq dərəcəsi deyiləndə I kurs tələbələri üçün hümanitar ( məsələn, tarix) və dəqiq elmlərdən (məsələn, fizika), IV kurs tələbələri buraxılış imtahanı və dövlət imtahanı (diplom işi müdafiəsi prosesi də ola bilər), magistrlar isə buraxılış imtahanı və magistr dissertasiyasının müdafiəsi prosesi ərəfəsində tədqiq olunacaqlar. Əsas məqsəd, imtahanın ağırlıq dərəcəsindən asılı olaraq yaranan emosional gərginliyin (həyəcanın) səviyyəsinin təhsildə uğurun əldə edilməsindəki rolunu aşkar etməkdir.

Tədqiqatlar zamanı həm psixoloji-həyəcan göstəriciləri tədqiq olunacaq, həm də elektrofizioloji tədqiqatlar aparılacaq. Psixoloji-həyəcan göstəricilərinin müayinəsi zamanı aşağıdakı testlərdən istifadə ediləcək:

- Teylor testi -ümumi həyəcanın səviyyəsini təyin etmək üçün;
- Spilberger-Xanin testi - situativ və fərdi həyəcanın səviyyəsini təyin etmək üçün;
- Ayzenko testi- İntellektual vəziyyəti müəyyənləşdirmək üçün;
- A.A. Rean testi- uğur qazanılmasının motivasiyası və uğursuzluqdan qorxmanın təyini testi;
- SAN testi- özünühissetmə, aktivlik və əhvalın təyini.

Göstərilən testlərin köməyi ilə, həyəcan, intellekt, dərketmə və s. psixofizioloji göstəricilərin emosional stresin təsirindən hansı dəyişikliyə uğraması müəyyənləşdiriləcək. Eyni zamanda, yalnız imtahandan 2 ay əvvəl bir neçə testlərin köməyi ilə müxtəlif yaş qruplarında temperament və psixofizioloji xarakter xüsusiyyətlərin təyini nəzərdə tutulub. Bu zaman temperament təyini testi və Lyuşer testinin işlədilməsi planlaşdırılıb.

Tədqiqatın nəticələri:

Təcrübələrdə imtahan stresi modelindən istifadə edərək sağlam gənclərdə emosional göstəriciləri tədqiq olunmuşdur. Tədqiqatlar 17-22 yaşlarında biologiya -kimya fakültəsinin 60 praktiki sağlam gənclər üzərində aparılmışdır.

Psixoloji göstəricilərin tədqiqatı zamanı psixotestlərdən istifadə olunub: Spilberger-Xanin testi vasitəsilə fərdi və situativ həyəcan, Teylor testi ilə ümumi həyəcan, göstəricisi yoxlanılıb. Eksperimentlər üç mərhələdə aparılıb: adi dərs günlərindən birində; imtahan önü dövr; imthandan 2 saat sonra. Hal-hazırda isə müşahidə olunan psixoemosional dəyişikliklər orqanizmin yaranmış şəraitə qarşı uyğunlaşma reaksiyası kimi qiymətləndirilir. Məlumdur ki, emosional gərginlik təkamül prosesində möhkəmlənmiş məqsədyönlü reaksiya kimi adaptiv davranışın yaranmasına imkan verir və informasiyanın qəbul olmasını gücləndirir, neyrofizioloji proseslərin gedişini sürətləndirir (12). Orqanizmin psixofizioloji mexanizmlərinin inteqrasiyası emosional hal üçün həlledici amil olub, orqanizmin müxtəlif ekstremal şəraitə uyğunlaşmasına, adekvat reaksiyanın yaranmasına imkan verir və bununlada mövcud şəraiti bütövlükdə ümumi bir psixoloji səviyyəyə gətirib çıxarır (11).

Yeniyetmələrdə emosinal gərginlik şəraitinin təsiri nəticəsində yaranmış psixofizioloji dəyişikliklər onların inkişaf prosesində öz mənfi təsirini edərək, gələcəkdə rastlaşma ehtimalı olan sinir-psixi və somatik xəstəliklərin əsasını qoya bilər. Xüsusən, yeniyetməlik dövrlərində emosinal gərginliyin təsiri daha ciddi fəsadlara və adaptasiya pozğunluqlarına səbəb olaraq, davranışın, psixoloji vəziyyətin, xasiyyətin dəyişməsi və sağlamlığın itirilməsilə nəticələnə bilər (11).

Ədəbiyyat məlumatlarından məlumdur ki, emosional gərginliyin təsiri altında ilk növbədə intellektual proseslərin normal gedişində dəyişiklik yaranır (8, 9).Yaranmış stres şəraitlərində insanın normal fəaliyyəti məhz adaptasiya proses-lərinin gedişindən asılıdır. Eksperimentlər zamanı psixoloji testləşdirmə üsulları ilə yanaşı, imtahan dövründə gənclərin davranışı müşahidə olunub. Praktik sağlam məktəblilərin əksəriyyətində gözlə müşahidə oluna biləcək dərəcədə həyəcan hissi müşahidə olunmuş-dur. Belə ki, imtahan prosesi zamanı psixoloji parametrlərin dəyişilməsi, vegetativ göstəricilərin dəyişi-lməsi bir daha bu dövrdə orqanizmin tənzimləmə sistemlərinin gərginliyini sübut edir. Məlumdur ki, orqanizmin xarici mühitlə sıx əlaqəsi homeostazın özünü tənzimləmə sistemləri ilə həyata keçir, bu za-man müxtəlif funksional proseslərə nəzarət etmək və həmin prosesləri birləş-dirmək qabiliyyəti üzə çıxır. Ətraf mühitin dəyişməsi homeostazın gərginliyinə səbəb olur. Hansı ki, ən yaxşı halda bütün para-metrlərə və ya şəraitə müvafiq yeni funksional vəziyyət yaranır. Nəticədə, yaranmış emosional gərginlik aradan götürülür. Beləliklə, stres prosesinə emosional gərgin vəziyyətlərdə homeostazın kompensasiya-sına yönəldilən normal fizioloji adaptasiya reaksiyası kimi baxmaq olar (3). Şəxsi tədqiqat işlərinin nəti-cələrindən məlum oldu ki, imtahan dövründə emosional gərginliyin təsiri altında psixofizioloji reaksiya-lar yaranır. Bu zaman emosional oyanıqlığın dərəcəsi və davamiyyəti obyektiv təsir edən faktorun qav-ranılma dərəcəsindən və şəxsiyyətin psixofizioloji xüsusiyyətlərindən asılıdır. Ədəbiyyatdan məlumdur ki, stres bütün orqanizmə təsir edir və bu zaman canlıların reaksiyası da müxtəlifşəkilli olur (8). Stres zamanı ən çox müşahidə edilən cavab - qorxu, həyəcan və s.-dir (6). Şəxsi təcrübələrimizin nəticələrin-də sağlam yeniyetmələrdə adi dərs günündə psixoloji testləşdimə zamanı orta həyəcan səviyyəsinin olması müəyyən edildiyi halda, imtahan prosesindən əvvəl həyəcanın yüksək səviyyəsi müşahidə edilib.

İmtahandan sonra isə həyəcanın orta səviyyəyə enməsi aydınlaşdırılıb. Alınmış faktlar bir daha sübut edir ki, həyəcan səviyyəsinin dəyişməsi yaranmış vəziyyətin emosional qiymətləndirilməsindən asılıdır. Həyəcan səviyyəsinin artması özünü davranışın dəyişilməsi, narahatlıq hissi və aydın təzahür edən nevrotik hallarla əks etdirmişdir. Qeyd edildiyi kimi, stres özündə ətraf mühit faktorlarına qarşı orqanizmin müdafiə sistemlərinin kompleks inteqrasiyasını əks etdirir. Ətraf mühit faktorlarına qarşı orqanizm adaptasiyanın fizioloji və psixoloji mexanizmləri vasitəsilə reaksiya verir (7). Yəni, stres zamanı orqanizm həm qeyri-psixi cavabla, həm də şəxsi psixi reaksiyalarla – mənfi emosiyalarla (hansı ki, cavab çox vaxt məhdudlaşa bilir) reaksiya verir və müvafiq davranış aktı reallaşır. İmtahandan əvvəl həyəcan səviyyəsinin artması məhz orqanizmi düşdüyü gərgin vəziyyətdən çıxarmağa xidmət edir. Amma maraqlı fakt kimi qeyd etmək lazımdır ki, yeniyetmələrdə bütün eksperimentlər zamanı depres-siv hal müşahidə edilməmişdir. Alınmış nəticə MSS-nin psixi funksiyalarının şəraitə adaptasiya olaraq vəziyyətdən çıxa bilməsini sübut etmişdir. Adaptasiya proseslərinin, MSS-nin funksiyalarının tam formalaşmaması nəticəsində psixi göstəricilərin gərginləşməsi və həyəcan göstəricilərinin yüksəlməsi müşahidə edilir. (8). İmtahan zamanı bütün yaş qruplarında qeyd edilən göstəricinin adi dərs günü ilə müqayisədə təxminən 18% enməsi müşahidə edilmişdir.

Bunu emosional gərginliyin təsiri nəticəsində MSS-də ləngimə proseslərinin sürətlənməsi və orqanizmin müdafiə reaksiyaların inkişafı ilə əlaqələndirmək olar (2). İmtahandan sonra isə stres təsir edən faktorların tam aradan götürüldüyünü dərk edən yuxarı son kurslarda göstəricinin giriş səviyyəsinə yüksəlməsi müşahidə edildiyi halda, 17 yaşlılarda adi dərs günündən 17% aşağı olması qeyd olunub. İmtahandan sonra bu proseslərin ləngiməsi stres yaradan faktorlardan birinin aradan götürülməsi kimi rol oynaya bilər ki, bu da orqanizmin adaptik imkanları hesabına daimi vəziyyətinə qayıtmasına imkan verə bilər. Aşağı kurslarda adaptasiya proseslərinin tam formalaşmaması səbəbindən tədqiq edilən göstəricinin adi dərs günündə olduğu səviyyəyə qayıtması prosesinin ləngiməsi qeyd olunub. Belə ki, adi dərs günündə qeyd edilən göstərici 3, 45±0, 72 bal olmuşdur, yəni normal səviyyədən 48, 8% aşağı.

Tələbələrdə imtahan zamanı yüksək nəaliyyət əldə etmək qarşıya məqsəd qoyulduğu üçün onlarda emosional gərginliyin səviyyəsi də yüksək olmuşdur. Bir sıra tədqiqatçılar təhlükənin təbiətindən asılı olaraq, nəinki həyəcan və narahatçılıq təhlükənin risk kimi qavranılması və onun qiymətləndirilməsi prosesinin baş verdiyini qeyd etmişdir. Tədqiqatçıların fikrilə razılaşsaq, insanda stres faktora qarşı bir-birindən asılı olmayan iki reaksiya ayırd edilir: emosional (həyəcan və s.) və intellektual (riskin qiymətləndirilməsi, mövcüd təhlükənin koqnitiv səviyyədə təhlili) (9). Məlumdur ki, stres faktor təsiri altında həm fizioloji, həm də psixoloji proseslər eyni vaxtda aktivləşir və birgə kombinə olmuş işləyir.

Alınmış nəticələrdə şəxsiyyətin fərdi inkişaf səviyyəsindən asılı olaraq emosional gərginliyin gənclərin psixofizioloji proseslərinə təsirinin xüsusiyyətləri təqdim olunmuşdur.

## ƏDƏBİYYAT


1. Белопольская Н.Л. Психологическая диагностика личности детей с задержкой психического развития. М.: Изд-во УРАО, 1999, 148 с.
2. Бодров В.А. Психологический стресс: развитие учения и современное состояние проблемы. - М.: Ин-т психологии РАН, 1995. - 128 с.
3. Дмитриева Е.С., Гельман В.Я., Зайцева К.А., Орлов А.М., Ланько С.В. Связь возрастных изменений психофизиологических механизмов восприятия эмоциональной интонации речи с адаптацией к среде обучения. Тезисы 13-го Международного совещания по эволюционной физиологии. СПб.: ИЭФБ им. И.М.Сеченова, 2006.с.74
4. Переслени Л.И., Рожкова Л.А.Нейрофизиологические механизмы нарушений прогностической деятельности у детей с трудностями в обучении //Дефектология, 1996, №5, с.15
5. Петров В.П.Психология умственно отсталых школьников / Красноярск, 1995. - 106 с.
6. Щербатых Ю.В. Экзамен и здоровье // Высшее образование в России. 2000, №3, С.53-56
7. Canon A.V. Reaktion to "anxiety and motor behavior". "Journal of Motor Behavior", 1981.2.p 181-188.
8. Cohen S, Kamarck T, Mermelstein R. A global measure of perceived stress. J. Health. Soc. Behav. 1983; 24: 385–396
9. Lazarius R.S. Progress on a cognitive motivational- relational theory of emotion // American Psychology, 1991, Vol.46.P.819-837
10. Molen Van Der G. M., Hoit Van Den M. A. Cognitive determinants of lactate induced anxiety // J. of behavioral research and therapy.1986, 24, 6, 677-680
11. Vedhara K, Nott K. The assessment of the emotional and immunological consequences of examination stress. J. Behav. Med. 1996; 19: 467–478
12. Wolf TM, Heller SS, Camp CJ, et al. The process of coping with a gross anatomy examination during the first year of medical school. Br. J. Med. Psychol. 1995; 68: 85–87.


## ABSTRACT


**Tukezban Rustamova**


**STUDYING THE PSYCHOLOGICAL INDICATORS OF STUDENTS UNDER THE INFLUENCE OF EXAMINING STRESS**


In order to increase self-confidence among adolescents in the pre-examination period, creating conditions similar to the exam can be adapted to the process of this exam. During this period, you need to conduct psychological conversations in order to reduce the level of emotional stress.


## РЕЗЮМЕ


**Тукезбан Рустамова**


**ИССЛЕДОВАНИЕ ПСИХОЛОГИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ СТУДЕНТОВ ПОД ВЛИЯНИЕМ ЭКЗАМЕННОЦЕННОГО СТРЕССА**


С целью повышения самоуверенности у подростков в пред-экзаменационный период, создавая условия похожие на экзамен возможно адаптировать к процессу настоящего экзамена. В этот период нужно проводить психологические беседы, чтобы уменьшить уровень эмоциональной нагрузки.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**NİGAR ZEYNALOVA**
*Azərbaycan Dillər Universiteti*
*nigarzeynalova777@gmail.com*

**UOT:37**

# TƏLƏBƏLƏRDƏ KREATİVLİYİN İNKİŞAFININ ƏSAS ŞƏRTLƏRİ

**Açar sözlər:** *kreativlik, təxəyyül, layihə, inkişaf, tələbəyönümlülük, eksperiment*
**Key words:** *creativity, imagination, project, development, student-centered, eksperiment*
**Ключевые слова:** *креативность, воображение, проект, развитие, студенто-ориентированность, эксперимент*

Kreativlik bütün insanlarda mövcuddur. Bu, anadangəlmə xüsusiyyət hesab olunur. Uşaqlar lap kiçik yaşlarından oyuna böyük maraq göstərirlər, çünki həmin fəaliyyət növü təxəyyül imkanlarını işə salaraq, müxtəlif situasiyaları canlandırmağa, arzuolunan vəziyyətləri reallaşdırmağa şərait yaradır: kibrit qutusu - yük avtomobili, gəlincik - qızcığaz, taxta parçası - avtomat və s. Uşaqlar böyüdükcə, onların kreativliyi ya inkişaf edir, ya da qeyri-ixtiyari təzyiq nəticəsində boğulur. Yaradıcılıq potensialı üzə çıxmayan tələbələr, adətən, öz fikirlərini söyləməkdən çəkinir, müəllimin gözlədiyi cavabları səsləndirməyə üstünlük verir, yeni, fərqli təşəbbüslər və orijinal ideyalar irəli sürməyə ehtiyat edir, qorxurlar. Tədqiqatlar sübut etmişdir ki, müəllimlər əksər hallarda şagirdlərin "çərçivə"dən kənara çıxmalarını, "riskli" cavablar vermələrini dəstəkləmirlər. Ənənəvi təhsil prosesində formalaşmış stereotiplər tələbələrin nəinki səhvə yol vermək, hətta fikir söyləmək, mühakimə yürütmək kimi fəaliyyətlərinin qarşısını almışdır. Ənənəvi təhsil sistemində təhsil alan müəllimlər daha çox müəllimyönümlü yanaşmaya üstünlük verirlər. Bu yanaşma hazır "reseptlər" əsasında təlim prosesinin təşkilini nəzərdə tutur. Müəllim dərslikdəki məlumatı tələbəyə ötürür və həmin məlumatı da geri tələb edirdi. Belə olan halda müəllimin fəaliyyəti təhsil alanların kreativliyinə imkan yaratmırdı və onlar verilmiş şablon çərçivəsində hərəkət etmək, fəaliyyət göstərmək məcburiyyətində qalırdılar. Təlimin bu şəkildə təşkili müəllimi artıq problemlərdən azad edirdi.

Təlim prosesinin problem üzərində təşkili, təhsil alanın həmin məsələnin həllinə cəlb olunması bir tərəfdən öyrənənlərin məsuliyyətini artırır, tələbələrdə problem həlli, qərar qəbulu kimi bacarıqların formalaşdırılmasına zəmin yaradır, digər tərəfdən də müəllimin yaradıcılığı üçün geniş üfüqlər açır. Beləliklə, kreativliyin bu və ya digər səviyyədə inkişafı labüdləşir.

Məqalənin giriş hissəsində qeyd edidiyi kimi, kreativliyi həm keyfiyyətcə yüksəltmək, həm də məhdudlaşdırmaq mümkündür. Potensialın kəşfi üçün müəllim tələbəsini kreativliyə həvəsləndirən təlim mühiti yaratmalıdır. Kreativ təlim mühiti aşağıdakı amillərə əsaslanır:

- Tələbələrin kreativ və innovativ töhfələrini dəyərləndirilmək;
- Təlim proqramını, sillabusu həddindən artıq yükləməkdən yayınmaq;
- Vaxtdan səmərəli istifadə etmək;
- Araşdırmaq, tədqiqat aparmaq üçün öyrənənlərə şərait yaratmaq;
- Diskussiya, ətraflı refleksiya, təhlil üçün ayrıca vaxt müəyyənləşdirmək;
- Tələbələrə materialı dərindən analiz etmək, fənlərarası və fəndaxili əlaqələri müəyyənləşdirmək imkanı vermək;
- Tədris planında müxtəlif bacarıqların formalaşmasını və fəaliyyətlərin reallaşmasını təmin etmək;
- Fənlərarası tarazlığı, balansı tənzimləmək;
- Kreativliyin inkişafını tədris fənlərinin hər birinin məzmununda nəzərə almaq, onun inkişafı üçün zəmin yaratmaq;
- Tələbələrdə kreativliyi inkişaf etdirmək məqsədilə qrupdaxili davranış qaydaları müəyyənləşdirmək;

- Yeniliklərin tətbiqində baş verə biləcək maneələri və riskləri əvvəlcədən nəzərə almaq;
- Öyrənənlərə risklərə hazır olmağı təlqin etmək.




Təlim prosesində kreativliyin formalaşdırılmasını təmin edən tapşırıqların yerinə yetirilməsi öyrənənləri əməkdaşlığa səsləyir. Müəllim təhsil alanlara qabaqcadan hazırladığı tapşırıqları verir, onları məzmun üzərində fəaliyyətə cəlb edir və yüksək səviyyəli kreativ təfəkkürün inkişafını təmin edən növbəti mərhələyə keçidi planlaşdırır. Mövzunu və fənni daha dərin mənimsətmək üçün müəllim fəndaxili və fənlərarası inteqrasiyadan da yararlana bilər. Belə ki, fənn üzrə mövzular ayrı-ayrı deyil, proqramda yer alan digər mövzularla əlaqəli şəkildə tədris edilməli, onlar arasında inteqrativlik nəzərə alınmalı, yeni biliklər keçmiş biliklər üzərində qurulmalı və növbəti mərhələyə keçid təmin olunmalıdır. Universitet və auditoriyada innovasiya və yaradıcılığı dəstəkləyən mühitin yaradılması özü də kreativliyin inkişafına təkan verən vacib amillərdəndir. Nümunə kimi verilən keysi nəzərdən keçirək. Təhsil alanlarda kreativliyin inkişaf etdirilməsi məqsədilə Argentinanın Buenos-Ayres şəhərinin St.Endrüs Skots Skulu tərəfindən maraqlı bir yanaşma irəli sürülmüşdür. Onlar kreativ, tənqidi təfəkkürün inkişafında məkanın, mühitin dizayn və tərtibatının böyük təsirə malik olması qənaətinə gəlmişlər. İlk növbədə mühit ənənəvi müəllimyönümlü yanaşmadan tələbəyönümlüyə transformasiya olunmalıdır, təhsil müəssisəsinin hər bir məkanı təhsilin yeni paradiqmini təcəssüm etdirməlidir. Onların fikrincə, ənənəvi sinif, partaların düzülüşü mühiti təhsil alanların müstəqilliyini məhdudlaşdırır, yaradıcı prosesi boğur və kreativliyin inkişafının qarşısını alır. Hətta ənənəvi kitabxana mühiti də öyrənənlərə təlim materialından tam şəkildə bəhrələnməyə imkan vermir. Təlimin davamlı, çərçivəyə sığmayan proses olduğunu nəzərə alaraq, onlar kitabların yalnız kitabxanada mərkəzləşməsinin əleyhinə çıxmış və təhsil ocağının dəhliz və departamentlərə köçürülməsini təklif etmişlər. İdeyanın tərəfdarları təhsil alanlara istənilən məkanda nəzarətsiz və sərbəstliklə kitab seçmək, dəyişdirmək imkanı verməyi məsləhət görmüşlər. Bununla cəmiyyətə təlimin məhdudiyyət və məcburiyyət sevməyən ən üstün dəyər olması haqqında mesaj ötürülür.

Kitabxana mühiti maraqlı təlimə münbit şərait yaratmalıdır. Bu məqsədlə üç məkan yaradılmışdır:

1. Transformer tipli yüngül masalarla təchiz olunmuş böyük zal;
2. Mağara tipli, meşə, təbiət mühitini xatırladan sakit otaq;
3. İki proyektorla təchiz olunmuş, qrup və əməkdaşlıq şəraitində işləmək imkanı yaradan, təhsil alanlara divarlarda fikirlərini təbaşirlə yazaraq ifadə etmək imkanı verən otaq. Divarların tünd rəngdə boyanması prosesin daha keyfiyyətlə reallaşdırılması üçün əvəzolunmaz şərait yaradır.

Təcrübə nəticəsində öyrənənlərin təəssürat və reaksiyaları bütün gözləntiləri aşmışdır. Bəziləri üçün boş vaxt keçirmək, dərslərarası fasilədə sığınacaq yeri olan kitabxana artıq məktəbin ən maraqlı məkanına çevrilmişdir. Prosesin bu cür tənzimlənməsi müəllimlərə təlim strategiyalarında çevik dəyişikliklər aparmağa, tədrisi təhsil alanların fərdi xüsusiyyətlərinə görə diferensiallaşdırmağa imkan verir. Öyrənənlər üçün ən optimal mühit, məkan aşağıda sadalanan əlamətləri özündə cəmləşdirir:

– Təlim prosesi müzakirələrlə müşayiət olunur, öyrənənlər kollaborativ (əməkdaşlıq) mühitdə fikirlərini divarlara yazaraq metakoqnitiv refleksiya prosesinə cəlb edilirlər;

– Təlim müəllimyönümlüdən şagirdyönümlüyə istiqamətlənir;

– Məkanda fəal fəaliyyət göstərmək, özlərini ifadə etmək imkanı kreativliyin formalaşdırılması və inkişafına zəmin yaradır;

– Kreativ layihələrin üzərində fəaliyyət daha səmərəli olur;

– Yeni auditoriyadankənar layihələrin yaradılmasına imkan yaranır.

Belə məkanların mövcudluğu seminar, konfrans, görüşlərin təşkilinə, müxtəlif ideyaların müzakirəsinə və həyata keçirilməsinə də şərait yaradır.

Açıq təlim məkanının əhəmiyyəti hər kəs tərəfindən lazımi qədər qiymətləndirilmir. Məkanın, yeni təlim modelinin, təlim mühitinin, çoxseçimliyin informasiya bolluğu dünyasında kreativliyə müsbət təsirini anlamaqda bəzi insanlar çətinlik çəkirlər. Təhsil ocaqları məkan və interyerdə mühüm dəyişikliklər etməyə ya çəkinir, ya da bu yolla uğur əldə olunacağına inanmır. Lakin yuxarıda qeyd etdiyimiz məktəbin nümunəsi belə eksperimentlərin kreativliyin inkişafına müsbət təsirinin müvəffəqiyətini əyani şəkildə nümayiş etdirir.

Runkonun fikrincə, insanların əksəriyyətində şüuraltı belə fikir formalaşmışdır ki, kreativlik anadangəlmə xüsusiyyətdir, təlim prosesində inkişaf etdirilə bilməz və bu istiqamətdə istənilən fəaliyyət zərərlidir. (5) Lakin bu fikirlərin əksini göstərən tədqiqatlar sübut etmişdir ki, müəllimin düzgün yanaşması öyrənənlərdə kreativ düşüncə tərzini inkişaf etdirə bilər.

Danılmaz faktdır ki, təlim prosesində istənilən fəaliyyət bilavasitə müəllimlə əlaqəlidir. Müəllim kreativliyin inkişafı üçün nə etməli, tələbələrə necə kömək göstərməlidir, bu məsələləri təlim prosesinin hansı mərhələsində və necə nəzərə almalıdır? İlk növbədə, müəllim yeni ideyaları öz təcrübəsində tətbiq etməli, daim araşdırmalar aparmalı, tədqiqatçı, yeni fikirlərə açıq, canlı təxəyyülə malik və istənilən vəziyyətdə çevik qərar verən, hər zaman öyrənməyə, yeni bacarıq və texnologiyaların tətbiqinə hazır, bir sözlə, kreativ olmalı, fənnini dərindən və hərtərəfli bilməli, tələbələrin dərsi, materialı necə qavradıqlarını, mənimsədiklərini anlamalı, müəyyənləşdirməli, aydın düşünməli, öyrənənlərə səhvlərini, anlaşılmayan məqamları üzə çıxarmağa və təlim prosesini idarə etməyə yardım göstərməlidir. Ali məktəbdə kreativlik bütün fənlərin tədrisinin bazisi rolunu oynadığından müəllim fəaliyyətinin aspekti hesab olunur. Digər vacib məsələ kreativliyin formalaşdırılması üçün müvafiq mühitin yaradılması, müəllimlərin kreativ peşəkarlığının dəstəklənməsidir. Şübhəsiz, müəllimin kreativliyi üçün müvafiq şərait də mütləqdir. Belə ki, auditoriyaların darısqallığı, aşağı səviyyəli texniki təchizat yaradıcılığa əngəl törədən faktorlara aiddir. Kreativlik, ilk növbədə, müəllimin sillabusunda nəzərdə alınmalı, dərslik və dərs vəsaitlərində öz əksini tapmalıdır. Təlim resurslarının məzmunu kreativ yönümlü olmadığı halda müəllimin yaradıcı fəaliyyəti çətinləşir. Kreativ təlim mühitinin tənzimlənməsində tələbələrin peşə xüsusiyyətlərinin formalaşdırılmasına xidmət edən məlumat xarakterli və idraki inkişafa zəmin yaradan tapşırılqardan istifadə mütləqdir.

Edvard de Bono lateral düşüncə konsepsiyasını irəli sürmüş və “altı düşüncə şlyapası” texnikasını işləyib hazırlamışdır. (3) Bu strategiya öyrənənlərə müxtəlif istiqamətlərdə problemi fərqli aspektlərdən araşdırmağa şərait yaradır.

Kreativ düşüncəni sual-cavab vasitəsilə işə salan Sokrat inanırdı ki, ardıcıl, düşünülmüş şəkildə verilən suallar ideya və fikirlərin dərin araşdırılmasına, mövzunun daha yaxşı mənimsənilməsinə xidmət edir. Bu texnika “Sokrat sual-cavabı”, “Sokrat tərzi” adını almışdır. Müəllim və ya tələbə tərəfindən verilən yaxşı sual öyrənənin düşüncə tərzinə güclü təsir göstərir, müxtəlif məqamlara aydınlıq gətirir, pedaqoji prosesin hər iki tərəfi arasında təbii əks əlaqə yaradır, dərsi, təlimat prosesini düzgün istiqamətləndirir. Müəllim gün ərzində orta hesabla 300-400 sual

verir. (8) Tədqiqatlar sübuta yetirmişdir ki, müəllim həmin sualların tipini, ifadə tərzini, ardıcıllığını diqqətlə planlaşdırarsa, öyrənənlərin həm düşüncə tərzi, həm də cavabları tədricən yaxşılaşar. (2) Qəliz, kompleks mental proseslər tələb edən sualların cavablandırılması kreativliyi stimullaşdırır. Əgər....nə baş verərdi? Niyə....? səbəb-nəticə tipli suallar tənqidi və kreativ təfəkkürü inkişaf etdirir, tələbələri araşdırmağa, tədqiqat aparmağa həvəsləndirir. (7)

Öyrənənlərə verilən suallar ətrafında düşünməyi təklif etmək də dəyərli fəaliyyətdir. Qay Klakston (Skeildən sitat gətirilmişdir) bildirmişdir: “Yaxşı sual vermək uğurlu tələbə olmağın əsasıdır. (4) Sual verməyi bacarmayan şəxs qaşıqdan yedizdirilməlidir”. Sual formalaşdırmağı bacaran tələbə düşüncə tərzini aydınlaşdırır, müəllimin təlimat verməsinə, təlimin istiqamətlənməsinə kömək edir və müstəqil kreativ fəaliyyətlə məşğul olur.

Tələbələri sual verməyə həvəsləndirməyin aşağıda sadalanan üstünlükləri mövcuddur:

- Fənni daha dərindən öyrənməyə maraq oyadır;
- Mövzunu daha dərindən mənimsəməyə zəmin yaradır;
- Təlimi stimullaşdırır;
- Məzmunun möhkəmləndirilməsini təmin edir;
- Mövzuya müxtəlif aspektlərdən baxış imkanı yaradır;
- Araşdırmalar üçün plan və məqsədləri dəqiqləşdirir;
- Tələbələri cavabın tapılmasına həvəsləndirir.

Təlim prosesində kreativliyi stimullaşdıran digər bir yanaşma “imkanların düşünülməsi” adlanır. Bu üsul öyrənənlərdən müxtəlif ideyaların araşdırılmasını və təxəyyüllərindən istifadə edərək fərqli imkanlar yaratmağı tələb edir. Müəllim dərsdə bir neçə cavablı suallar verirsə, bu, tələbələrdə özünəinam hissini yüksəldir, yaradıcılıq xüsusiyyətlərini inkişaf etdirir. Öyrənənlərdə kreativliyi yüksəltməyin vacib şərtlərindən biri də təlim prosesinin problemli tapşırılqlar üzərində təşkilidir. Problem həlli və tədqiqatların aparılması müasir təhsilin əsas tələblərindəndir. Təlimin tədqiqat və araşdırmalar üzərində qurulması tələbələri sual və ya problem ətrafında mövcud biliklərindən istifadə edərək çözüm yolu tapmağa, dərin və hərtərəfli düşünməyə yönəldir. Peşəkar müəllim tədqiqat sualını, problemi düzgün müəyyənləşdirməklə, tələbələrə lazımi dəstək verməklə onların düşüncə tərzini inkişaf etdirir. Sualın təqdimat forması tədris olunan fəndən, təhsil alanların maraq, meyil və tələbatlarından asılıdır. Müəllim müsbət motivasiyanın yaradılması prinsipinə fəal şəkildə riayət etməli, şəxsiyyətin maraq dairəsini nəzərə almalıdır. Bəzən bir qrup üçün əhəmiyyətli sayılan problem digərində aktuallıq kəsb etmir. Bu gün təqdim olunan problem müəyyən vaxtdan sonra aktuallığını itirmək təhlükəsi ilə üzləşə bilir. Bu səbəbdən müəllim təlim vəziyyətlərinin işlənilib hazırlanmasına, problemin müəyyənləşdirilməsinə xüsusi diqqət göstərməlidir. Problemin araşdırılması müxtəlif formalarda həyata keçirilə bilər. Belə ki, situasiyadan asılı olaraq kollektiv, kiçik qruplarla, cütlərlə və fərdi iş formalarına müraciət etmək mümkündür. Seçim təlim məqsədlərindən asılıdır. Bəzi müəlliflər kreativliyin yalnız qrup işində inkişaf etdirilməsi ilə əlaqədar fikirlər yürütsələr də, reallıq fərqlidir. Əslində, təhsil alanların diqqətinin sual və problem ətrafında cəmləşdiyi dəstəkləyici mühitdə auditoriyaya ünvanlanan birbaşa və dəqiq təlimat kreativliyin formalaşdırılmasına zəmin yaradır. Con Hattl bütün kollektivlə işin əhəmiyyətini yüksək dəyərləndirmiş və onu təlim prosesində yüksək effektivliyə malik yanaşma kimi qiymətləndirmişdir. (6) Bütün kollektivlə iş vasitəsilə müəllim auditoriyadakıları düşünməyə həvəsləndirir, tədris prosesinə cəlb edir, maraqlandırır, yaranan sualları dərhal cavablandırır və beləliklə, yüksək səviyyəli fəal təlimə şərait yaradır. Müzakirələr tələbələrin suallarından irəli gələn yeni fikir və konsepsiyalar üzərində qurulur. Müəllim müzakirələri stimullaşdırır, yeni ideya, düşüncə tərzlərini dəstəkləyir və həvəsləndirir. Pedaqoji prosesin hər iki tərəfi tədricən mövcud səhvləri də eyni vaxtda üzə çıxarmaq imkanı qazanır.

Tələbələrə problemi düzgün müəyyənləşdirməyi, mövcud bilik və bacarıqları yeni və fərqli vəziyyətlərdə tətbiq etməyi, məlum faktlarda, hadisələrdə yeni çalarlar üzə çıxarmağı, sintez aparmağı öyrətmək lazımdır. Təlimdə qeyd olunan əməliyyatların yerinə yetirilməsi əsas anlayış və qaydaları hazır şəkildə deyil, müstəqil araşdırma nəticəsində təhlil etmək imkanı verir. Tələbələr problemin müəyyənləşdirilməsində və həlli yollarının axtarılmasında müəllimlə yanaşı fəal iştirak etməlidirlər. Problem açıq sual şəklində, həmçinin kompleks və bir neçə həll yolundan ibarət ola

bilər. Sadalananlar qərar qəbulu bacarığının inkişafına müsbət təsir göstərməklə divergent düşüncə tərzini formalaşdırmağa istiqamətlənmişdir. Təlim problemləri kifayət qədər ciddi, bütün qrupu maraqlandıracaq səviyyədə hazırlanmalıdır. V.V. Safonova qeyd etmişdir ki, həlli hər kəs üçün maraqlı olan, quruluşca anlaşıqlı təlim məsələləri ən vacib problemlər sayılır. (1) Prosesin yekunları, layihənin nəticələri Power Point slaydları, bloq, website, sərgi, jurnal və ya poster şəklində təqdim oluna bilər. Problem əsaslı təlim öyrənənləri əməkdaşlıq prosesinə cəlb edərək, onlarda refleksiv, tənqidi və kreativ təfəkkürün inkişafını labüdləşdirir. Prosesin müvəffəqiyyətlə başa çatması üçün məqsədlər aydın şəkildə ifadə olunmalı, sillabus düzgün yazılmalı, təlim proqramında yalnız aktual məsələlər öz əksini tapmalıdır. Bununla yanaşı, müəllim tələbələrə müstəqillik verməli, onları eksperiment aparmağa, araşdırmağa, problem ətrafında düşünməyə həvəsləndirməli, obyektiv nəticələrin çıxarılmasına istiqamətləndirməlidir.

Tədqiqat əsaslı təlim, adətən, tələbəyönümlü layihələrlə əlaqələndirilir, tədris prosesi müəllim və tələbələrin konkret problem, sual ətrafında müzakirəsini, həlli yolunda iştirakını təmin edir. Tədqiqat bir və ya bir neçə mövzunu birləşdirə bilər. Tədqiqat əsaslı təlimin ən üstün cəhəti problem və ya sualın müxtəlif aspektlərdən araşdırılmasına, əməkdaşlığa, şaxəli və xətti düşüncənin formalaşmasına zəmin yaratmasıdır.

Həqiqətən layihə, problem və tədqiqat əsaslı təlim metodlarından istifadə tədris prosesində didaktik məqsədlərə nail olmağın əsaslı və yoxlanılmış, sınaqdan keçmiş yolu sayılır. Layihənin həyata keçirilməsi zamanı tələbələr müstəqil şəkildə biliklərə yiyələnir, müxtəlif məlumat mənbələri ilə işləyir, ünsiyyət və tədqiqat metodlarından istifadə bacarıqlarını formalaşdırır, problemi dərindən araşdırır, yekunda fərdi və ya qrup şəklində analitik, tədqiqat, yaradıcı fəaliyyətin məhsulu kimi praktik nəticə əldə edirlər. Belə fəaliyyət nəticəsində müxtəlif vəziyyətlərin həlli, tez-tez dəyişən şəraitlərə uyğunlaşma, fərqli qruplarda iş bacarığı daha da təkmilləşir. Bu gün tələbələrdə tədqiqat aparmaq, müstəqil işləmək, kreativ düşüncələrini zənginləşdirmək ən zəruri bacarıqlar kimi dəyərləndirilir. Peşəkar müəllim kreativlik üçün müvafiq yaradıcı mühit yaratmalı, hər bir tələbədə yaradıcılıq qığılcımlarını üzə çıxarıb dəyərləndirməlidir.

Kreativliyin formalaşdırılmasını təmin etmək üçün müəllim aşağıdakı aspektlərə xüsusi diqqət yetirməlidir:

1. Kreativ vərdişlərin modelləşdirilməsi - istənilən vərdiş, davranış, düşüncə tərzini öyrənənlərdə formalaşdırmağın ən təsirli yolu müəllimin özünün həmin vərdişlərə, düşüncə tərzinə malik olmasıdır;

2. Təlimdə özünün və şagirdlərin verdiyi sualların tənqidi əhəmiyyətini dəyərləndirmək;

3. Səhvləri təlim imkanları kimi nəzərdən keçirmək, öyrənənlərə riskə hazır olmağı, onlardan çəkinməməyi, ağlabatan risklərə getməyi öyrətmək. Tələbələrə risklərə hazır olmağı öyrətmək onlarda kreativ özünəinamı inkişaf etdirməkdə mühüm rol oynayır. Tələbələrin təlim prosesində tapşırılqarın yerinə yetirilməsində, təlim fəaliyyətində risklərlə üzləşməsi, risklərə getməsi mütləq dəstəkləyici mühitdə həyata keçirilməlidir. Belə mühit müəllim-tələbə əməkdaşlığı şəraitində qurulmalı, hər kəsin üzərinə düşən vəzifə əvvəlcədən müəyyənləşdirilməli, müzakirə olunmalı və prosesin səmərəli həyata keçirilməsi üçün müvafiq qaydalar hazırlanmalıdır.

4. Düzgün vaxt bölgüsü. Tələbələrə tapşırığın icrası üçün kifayət qədər vaxt verilməlidir, çünki bəzən tələsik verilmiş qərarlar uğursuz, səmərəsiz nəticələrə gətirib çıxara bilər, faydasız olar. Vaxtın düzgün bölgüsü həm müəllimlər, həm də tələbələr üçün heç də asan deyil. Tələbələrə düşünmək, müstəqil işləmək üçün vaxt verilməlidir. Müəllim öyrənənlərin fikirləri çeşidləməsi, nəticələr çıxarması, ümumi yekun rəyə gəlməsinə zəmin yaratmaq üçün auditoriya, auditoriyadankənar və asudə vaxtlarının rejimli bölgüsündə tələbələrə yardım göstərməyi, onları yönləndirməyi bacarmalıdır.

5. Tapşırıqların müəyyən çətinlik dərəcəsinə kimi dəstəklənməsi (scaffolding). Müəllim skaffoldinqin tətbiqini tapşırığın tərtibatında nəzərə almalıdır. Düzgün skaffoldinq-dəstək tapşırığın ilkin mərhələlərindən sonunadək müəllimin köməyini "çoxdan aza doğru" prinsipi əsasında nəzərdə tutur. Tələbələr tapşırığın həllinə başlayandan müəllim onları dəstəkləyir, istiqamətləndirir, tələbələr tədricən tapşırığın yerinə yetirilməsində daha sərbəst olurlar. Onların müstəqilliyi artdıqca, müəllimin köməyi azalır və tələbələr fəaliyyətlərini müstəqil şəkildə bitirirlər.

Kreativliyin formalaşdırılması müəllimdən xüsusi diqqət və bacarıq tələb edir. Dərsin gedişatında müəllimin etdiyi cüzi dəyişiklik də öyrənənlərdə kreativliyin inkişafına təsir göstərə bilər. Tələbələr təlimdə və real həyatda bir sualın müxtəlif cavablarının olduğunu anladıqca, onların kreativ özünəinamı da artacaqdır.

Qeyd olunanlara əsasən kreativlik peşəkar inkişaf və gələcək mütəxəssisin formalaşması prosesini müşayiət edən əsas amillərdəndir. Məhz bu səbəbdən ali məktəblərdə ona xüsusi yer verilməlidir. Sadalanan amillər tələbələrin şəxsi kreativlik imkanlarının əsasını təşkil etdikdə onları ömür boyu müşayiət edəcək.

## ƏDƏBİYYAT


1. Сафонова В.В. Проблемные задания на уроках английского языка в общеобразовательной школе. Воронеж, 1987. 174 с.
2. Budd Rowe M. Slowing down may be a way of speeding up! Journal of Teacher Education, 37, p. 43, 1986
3. De Bono E. Serious Creativity: Using the Power of Lateral Thinking to Create New Ideas. USA: Harper Business, 1993
4. Claxton G. Thinking at the edge: developing soft creativity. Cambridge Journal of Education, 36(3), pp. 351–362, 2006
5. Ferrari A., Cachia C. Punie Y. Innovation and creativity in education and training in the EU member states: Fostering creative learning and supporting innovative teaching. European Commission Joint Research Centre, 2009
6. Hattie J. Visible learning: A synthesis of over 800 Meta-Analyses Relating to Achievement. London: New York Routledge, 2009
7. Kazemi E. Discourse that promotes conceptual understanding. Teaching Children Mathematics, 4, pp. 410–414, 1998
8. Leven T., Long R. Effective Instruction. Washington, DC. Association of Supervision and Curriculum Development, 1981.


## ABSTRACT


**Nigar Zeynalova**


### THE MAIN PRINCIPLES OF LEARNERS' CREATIVITY DEVELOPMENT


In the article the author subsequently discloses the content of the creativity concept; explains the term from pedagogical points of view and presents the stages of the lateral thinking process. Moreover, in the research special attention is paid to the factors of environment and space, which are the basis of creativity, and worldwide experiences and results in the given sphere are analyzed. Also, the author's viewpoints about the impact of teaching creativity on education quality are reflected in the paper.


## РЕЗЮМЕ


**Нигар Зейналова**


### ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ КРЕАТИВНОСТИ СТУДЕНТОВ


В статье рассматриваются факторы, влияющие на развитие креативности студентов. Была выявлена значимость влияния среды, пространства, его оформления на развитие креативности, дан конкретный пример. Наряду с этим, проанализированы различные аспекты, создающие условия для формирования и развития креативности. Особенно подчёркнуто, что студенто-ориентированный подход в образовании оказывает благоприятное воздействие на повышение качества образования и развитие креативности.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**AYDIN ŞİRİYEV**
*Bakı Avrasiya Universiteti*
**SƏYAVUŞ GÖZƏLOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

**UOT: 159**

# SÜLH VƏ HƏRBİ MÜNAQİŞƏ DÖVRÜNDƏ YARANAN FÖVQƏLADƏ HALLAR ZAMANI PSİXOLOJİ DAVAMLILIĞIN FORMALAŞMASI

**Açar sözlər:** *daxili və xarici hazırlıq, psixoloji komponentlər, psixoloji möhkəmlik, təhlükə, məsuliyyətlilik, hərbi hazırlıq*

**Key words:** *internal and external preliminary, psychological components, psychological strength, danger, responsibility, battle training.*

**Ключевые слова:** *Внутренние и внешние компоненты, психологическая подготовка, психологическая выдержка, угроза, ответственность, военная подготовка.*

Sülh və hərbi münaqişə dövründə fövqəladə halların zədələyici amilləri insanların həyat fəaliyyətinə, sağlamlığına ziyan vurur və maddi sərvətlərin itkilərinə gətirib çıxarır. Bu ziyan və itkilərin qarşısının alınması və yaxud onların azaldılması, mühafizənin planlaşdırılması, təşkili və həyata keçirilməsi birbaşa "insan faktoru" ilə əlaqəlidir. Məsələn, "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş vermiş qəza nəticəsində üç hasilat quyusunun dərin dəniz özülündə yüksək atmosfer təzyiqi ilə işləyən sualtı qaz xəttinin dayaq borusu qırılması, boru kəmərinin zədələnməsi və yanğının baş verməsi nəticəsində 63 nəfər zərər çəkmişdir [1]. Rusiyanın Komi Respublikasındakı neft yatağında 600 kvadrat metr sahədə "Lukoyl" şirkətinə məxsus neft quyusunun yanması ilə əlaqədar yanğınla mübarizəyə 185 yanğınsöndürən şəxs və 84 texnikanın cəlb edilməsi nəticəsində yanğın söndürülmüşdür [2].

Hərbi xarakterli fövqəladə halların (HXFH) qarşısının alınması və onun nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədilə əhalinin və müxtəlif qoşun növləri bölmələri şəxsi heyətinin iştirakına birgə nail olunması, onların döyüş və psixoloji hazırlığının daim yüksək səviyyədə saxlanılması, mənəvi-döyüş potensialının müasir tələblərə uyğunluğu çox vacibdir [3].

Göstərilən misallardan aydın olur ki, sülh və hərbi dövründəki fövqəladə hallarda həyat fəaliyyətinin təmin edilməsi insan psixi fəaliyyətinin təmin edilməsi, onlarda yaranan psixi vəziyyətlərinin fövqəladə halların yaratdığı ekstremal situasiyalar tələblərinə cavab verməsi istiqamətində formalaşdırılması aktuallıq kəsb edir.

Müxtəlif xarakterli fövqəladə halların (MXFH) ayrı-ayrılıqda və ya birinin digərinə təsirindən digər halların meydana çıxması ilə əlaqədar olaraq şəxsi heyətinin mühafizəyə daimi hazırlığının – psixoloji davamlılığın təmin edilməsi çox vacibdir.

Müxtəlif qoşun (SQ və FHN) növlərində daimi yüksək hazırlığın təmin edilməsi üçün yanğınsöndürmə bölmələrinin, hərbi hissələrin və gəmilərin döyüş postu və onların növbəsi üzrə növbətçilər və ya vaxta üzrə (gəmilərdə) cədvəllər hazırlanmışdır. Bununla əlaqədar olaraq, müxtəlif qoşun növləri üzrə hərbçilərdə yüksək ixtisasçılıq və peşəkarlıq keyfiyyətlərini özündə əks etdirən daxili döyüş hazırlığı əlamətlərinin formalaşdırılması xüsusi psixoloji məşğələlərin tədris prosesində istifadəsini tələb edir [4].

Hərbçilərin daxili döyüş hazırlığının əsas komponentlərini şərti olaraq aşağıdakı qruplara ayırırlar:

- mahiyyət komponentləri;
- ali və ya spesifik komponentlər;
- döyüş əməliyyatlarının başlanması ilə bilavasitə əlaqədar komponentlər.

Daxili döyüş hazırlığının mahiyyət komponentini şərti olaraq bir-birilə qarşılıqlı əlaqədə olan iki qrupa ayırmaq məqsədəuyğundur.

Birinci qrup – daxili hazırlığın əsas komponenti. Bu, şəxsi imkanlardır və onların köməyi ilə müxtəlif qoşun növlərində olan hərbçilər istənilən tapşırığı yerinə yetirirlər və döyüş hazırlığı üzrə məşğələlərin gedişində istifadə edirlər. Bu komponentlər hərbçilərdə (xilasedicilərdə) Azərbaycan Respublikası Prezidentinin apardığı daxili, xarici və iqtisadi siyasətin dərk edilməsini, öz dövlətçiliyinə və müstəqilliyinə inamı, elmi dünyagörüşü, baxışları, ideyaları, cəmiyyətin inkişafı naminə maraq və tələbatları, ideologiyamızın tələblərinə cavab verən əxlaq və hərbi nizamnamələri dərindən bilməyi ifadə edir. Borc hissləri və məsuliyyətlilik, şüurlu nizam–intizamlılıq, xidmət etdiyi qoşun növünün özünəməxsus gözəlliyini dərk edərək xidmət etmə və döyüş ustalığına yiyələnmə bacarığı aiddir. Bu komponentlərin məcmusu hər bir hərbçinin, eləcə də bütün şəxsi heyətin daimi döyüş hazırlığının əsasını təşkil edir [5]. Bununla birlikdə hər bir ixtisas, vəzifə, şərait və tapşırıqlar insanlarda xüsusi keyfiyyət, bilik, bacarıq, vərdiş, adət və qabiliyyətlər tələb edir.

Döyüş hazırlığının təminatının şəraiti və tədbirləri, sülh dövründən atəşkəs və oradan müharibə şəraitində fəaliyyətin çətinlikləri, xüsusən də qəfil hücum şəraitində baş verən hadisələr müxtəlif qoşun növlərində xidmət edən hərbçilərin daxili döyüş hazırlığı məcmuəsinə xüsusi tələblər verməklə ikinci komponentlərini- ali və ya spesifik komponentlər qrupunu əmələ gətirir. Bunlara aiddir: tələblərə münasibət, döyüş hazırlığına nail olmağın metod və kriteriyaları, yüksək sayıqlıq, düşmən qüvvələrinin hərbi hazırlığına diqqət, eyni zamanda onların niyyət və məqsədlərinin vaxtında və düzgün duymaq (anlamaq), düşmənin müharibəni başlama formalarını və onların öz fikirlərini maskalama üsullarını bilmək, hərbi-siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq müharibənin olma ehtimalını və başlanma müddətini düzgün qiymətləndirmə, düşmənin həqiqətən hücuma hazırlaşma əlamətlərinin vaxtında aydınlaşdırmağı və qiymətləndirməyi bacarmaq və s.

Müxtəlif qoşun növlərində hərbçilərin daimi döyüş hazırlığının spesifik tərkib hissəsi aşağıdakılardan ibarətdir: ekstremal və mürəkkəb şəraitli, uzun müddətli çöl çıxışlarının, dəniz yürüşlərinin, qəza-xilas etmə işlərinin təşkili, hava uçuşlarının xüsusi psixoloji hazırlığı, xidmətin monoton və uzun müddətliliyin meydana çıxmasına yüksək sayıqlılıq və hazırlığa davamlılığı, tədbirlərin uzun müddətliliyə psixoloji davamlılığı. Bununla yanaşı, həm də şəxsi hazırlıq səviyyəsinin sərbəst nizamlanması və özünə nəzarət etmə bacarığı, öz imkanlarını tam səfərbər etmə qabiliyyəti, müvəqqəti uğursuzluğa, qeyri-müəyyənliyə, gözlənilməz hadisələrə, yeniliklərə, ekstremal və həddindən artıq gərginliyə davamlılıq, risqə, təhlükəyə, məsuliyyətə hazırlıq, yüksək sürətli iş üçün xüsusi keyfiyyətlər, şərait üzrə çevik hərəkət etmə qabiliyyəti tələb edilir [5].

HXFH nəticələrinin aradan qaldırılmasında hədəflərin vaxtında müəyyən edilməsi, hücum anı haqqında düzgün məruzə, xəbərdarlıq, həyəcan siqnalı ilə hərəkət, müxtəlif silahlardan atəşin açılması, böyük əməliyyat kəsb etsə də, bununla əlaqədar meydana çıxan döyüş hazırlığı psixoloji davamlılıqdan da xeyli asılıdır. Psixoloji davamlılıq döyüş əməliyyatlarının aparılmasında ordunun sərəncamında olan silahlardan, döyüş texnikasından istifadə etmək bacarığında özünü göstərir. Başqa sözlə desək, şəxsi heyətin yüksək psixoloji davamlılığı düşmənin vaxtında darmadağın edilməsi üçün tapşırıqlarının yerinə yetirilməsini, şəxsi heyətin psixikasının və bütün fəaliyyətinin döyüş qaydalarına uyğun qurulmasını təmin edir [5].

Müxtəlif qoşun növlərində hərbçilərin psixoloji davamlılığı özünəməxsusluğu və psixoloji komponentləri mövcudluq formasına görə də fərqlənir. Bir qrup komponentlər özündə hər bir insana məxsus davamlı psixoloji komponentləri (xasiyyət, keyfiyyət, inam, bilik, bacarıq, vərdiş, adətləri və s.) birləşdirir.Hərbi birləşmə qarşısında duran döyüş tapşırığının yerinə yetirilməsi müxtəlif olduğu səbəbindən psixoloji davamlılıq komponentləridə müxtəlif ola bilər (kollektiv rəy, maraq, səy göstərmə, qarşılıqlı münasibətlər, təşkil olunma, nizam-intizamlılıq, döyüş təcrübəsi, mütəşəkkillik və s.). Bu qrupa daxil olan komponentlər zəruri funksiyaların yerinə yetirilməsi imkanlarını ifadə edir və buna görə də ilkin, uzun müddətli və qabaqcadan olan hazırlıq adlanır. Bu isə hər bir xilasedicinin və hərbi kollektivin döyüş qabiliyyətini ifadə edir.

Hərbçilərin (xilasedicilərin) psixoloji davamlılığı - döyüş əhval-ruhiyyəsi, psixi vəziyyəti onun verilmiş anda psixi proseslər (yuxarıda baxılan bütün komponentlərin - imkanların səfərbərbər

və optimallaşdırılması ilə ifadə edilir) toplusunun meydana çıxmasından asılı olub, döyüş tələblərinə uyğun gəlir.

Bu proseslərə aiddir:

- motivasiya: Vətənin müdafiəsinə qalxmağa, düşməni məhv etməyə, istənilən əmri yerinə yetirməyə və ən yaxşı formada fəaliyyət göstərməyə şiddətli arzu;

- idraki (dərk etmə): şəraiti sayıq müşahidə etmə, eyni zamanda onun dəyişməsi imkanlarını qabaqcadan görmək və bu dəyişməyə uyğun fəaliyyət üsulunu seçmək, hücum təhlükəsinin əlamətləri haqqında biliklər, vaxtında onları aydınlaşdırmaq və düzgün qiymətləndirmə;

- iradi: qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsini bacarmaq, özünü tam ələ alma, daxili dözümlülük və səfərbərlik, istənilən çətinliyin dəf edilməsində məqsədyönlülük, aktiv, həlledici və təşəbbüskar fəaliyyət;

- emosional: ruh yüksəkliyin daxili optimallığı, inam, vətənpərvərlik hisslərinin yüksək olması, dostluq, xeyirxaqlıq, borc və məsuliyyətlilik hisslərinin üstünlüyü;

- psixomotor: iş qabiliyyətinin bütövlüyü, iş hərəkətlərinin mükəmməl yerinə yetirilməsi, qarşıda duran hərəkətləri, fəndləri və fəaliyyət növünü əyani olaraq aktiv və dəqiq yerinə yetirmək.

Yuxarıda qeyd edilənlər insanların müxtəlif şəraitlərdə psixoloji davamlığının səviyyəsini ifadə edir.

Fizioloqlar və psixoloqlar tərəfindən müəyyən edilmişdir ki, daxili imkanların aktivləşdirilməsi bir çox hallarda fəaliyyətə hazırlıq zamanı başlayır. İnsanın müəyyən bir mürəkkəb işi iradəsindən asılı olmadan yerinə yetirilməsinə fikir yaranırsa, onda ətraf şərait onun başlanğıcı haqqında əsas verir. Bu hərəkətə başlamadan qabaq orqanizmdə bioloji məqsəd yaranır: sanki bu halda orqanizim öz inertliyini «gizli bilikləri» vasitəsilə nəzərə alaraq qabaqcadan özünü işçi vəziyyətinə gətirir. Orqanizmdə psixofizioloji dəyişiliklər meydana çıxmağa başlayır. Ancaq dəyişikliklər orqanizimdə işi başlayana qədər tələb olunan səviyyədə olmur, psixikada eyni hal müşahidə edilir. Təsadüfi deyildir ki, idmançılar startdan əvvəl xüsusi əl-qol hərəkətləri edirlər [6, 192]. Yanğın söndürənlərdə qabaqcadan hazırlıq zamanı yanğının spesifik xüsusiyyətləri haqqında, hansı sənaye sahəsində hansı təsir və nəticələrin gözlənilməsini aydın təsəvvür etmək lazımdır.

Hərbi qulluqçularda da qarşıda duran işdən əvvəl xüsusi fəndlər və üsulların köməyi ilə əhval-ruhiyyə yaratmaq lazımdır. İnsanların şəxsi imkanlarının aktuallaşdırılmasına işəöyrəşmə (vərdiş etmə) xidmət edir [6]. Ancaq müxtəlif xarakterli fövqəladə halların, xüsusəndə hərbi və texnogen qəzalar, hərbi və təbii fəlakətlər, eləcə də, birinin təsirindən digərləri meydana çıxarsa, onda, meydana çıxan ekstremal şəraitdə fəaliyyət göstərmək «həyəcanın» meydana çıxması nəticəsində çətinləşir. Həyacanın medana çıxması insan əzələlərində gərginlik yaratdığına görə öyrənilmiş vərdişlər dəyişir [7, 45-53]. Bununla əlaqədar olaraq, müxtəlif qoşun növlərində xidməti və döyüş fəaliyyətinin məhsuldarlığının artırılmasında hərbçilərin baza və ixtisas üzrə təhsil səviyyələri, bilik, bacarıq, vərdişləri, təcrübə qazanmaq qabiliyyətlərini və peşəkarlıq keyfiyyətlərinin nəzəri və praktik olaraq tətbiq etmə bacarıqlarnı diqqətə alınaraq vəzifələrə təyin edilməsi zəruridir.

MXFH şəxsi heyətin yüksək döyüş hazırlığının təminatı – psixoloji davamlılığın formalaşdırılmasına xüsusi tapşırıqları aşağıdakıları təklif etmək olar:

- qabaqcadan hazırlığın davamlı xarakteristikasının aktivləşməsi və ən yaxşı mənəvi-döyüş keyfiyyətlərin meydana çıxmasına nail olmaq və bilavasitə döyüş hazırlığının formalaşdırılması;

- döyüş tapşırıqlarının müvəffəqiyyətli həlli üçün fasiləsiz olaraq daxili hazırlığı uzun müddət saxlanılması;

- döyüş əməliyyatlarının aparılmasına, döyüş hazırlığı vəziyyətinə etibarlı keçidin psixoloji təminatı.

## ƏDƏBİYYAT


1. http://m.apa.az/az/xeber-az/ 15.12.2015
2. https://missiya.az/ 2015.
3. Əliyev N.A., Gözəlov S. S. Taktiki hazırlığın mükəmməlləşdirilməsinin pedaqoji-psixoloji aspektləri. Bakı, AAHDM, 2008, 216 s.

4. Eyyubov V.Ə., Gözəlov S.S., Səfərov S.R. Silahların və döyüş texnikasının öyrənilməsinin psixoloji şərtləri. Hərbi bilik jurnalı, 2004, №2, s.49-55.
5. Əliyev N.A., Gözəlov S.S. Təlim-tərbiyə prosesində zabitin əsas keyfiyyətləri. Hərbi bilik jurnalı, 2008, №4, s. 70-78
6. Гинсен Л.Д. Время стрессов. Обоснование и практические результаты психопрофилактической работу спортивных командах. Москва, Физкультура и спорт, 1990, 192 с
7. Əliyev N.A., Gözəlov S.S. Şəxsi heyətin aktiv döyüş fəaliyyətinə psixoloji hazırlıq. Hərbi bilik jurnalı, 2000. №2, s.45-53

**ABSTRACT**

**A.A. Shiriev**
**S.S. Gezalov**

**DURİNG THE PERIOD OF THE FORMATION OF THE PSYCHOLOGICAL SUSTAINABILITY OF PEACE AND CONFLICT DURING EMERGENCIES**

In the article in the times of emergency situations and elimination of consequences involved in various training of the personnel of internal military and moral-psychological training and mental activity and domestic ties with emerging mental strength to the method was based in part on his ability with his malicious factors for peace and war.

The combat readiness of the parties, the formation process of the quality of combat operations and results of psychological sustainability of development of knowledge, skills, experience and skills into account the possibility of rescue and other modern requirements determined not to postpone the execution of the work, part of the successful start to address moral-battle domestic and foreign.

**РЕЗЮМЕ**

**А.А. Шириев**
**С.С.Гезалов**

**ФОРМИРОВАНИЯ ПСИХОЛОГИЧЕСКОЙ УСТОЙЧИВОСТИ, ВОЗНИКАЮЩИЕВО ВРЕМЯ ЧРЕЗВЫЧАЙНЫХ СИТУАЦИЙ В МИРНОЕ И ВОЕННОЕ ВРЕМЯ**

В статье основное внимание уделяется методологии формирования психологической устойчивости, возникающие во время чрезвычайных ситуаций в мирное и военное время.

При формировании внутренней и внешней сторон боеготовности, для успешного решения итогов начало, в ходе и завершении боевых операций учтены такие составляющие части психологической устойчивости, как знание, навыки, опыт и приобретение навыков. А также определены выполнении задач во время аварийно-спасательных и других неотложных задач .

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

**SEVDA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*sevda_kerimova_70@mail.ru*

**UOT: 373**

# PEDAQOJİ PROSESİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Açar sözlər:** *metod, interaktivlik, kefiyyət, qiymətləndirmə*
**Key words:** *method, interactive, quality, evaluation*
**Ключевые слова:** *метод, интерактивность, качество, оценка*

Konseptual sənədlər toplusunu özündə cəmləşdirən kurikulumda pedaqoji prosesin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Burada bir çox istiqamətdə (müəllimlərin, məktəb rəhbərliyinin, sinif rəhbərlərinin) iştirakçılarını fəaliyyətinin qiymətləndirilməsi reallaşdırılmalıdır. Qiymətləndirmə dedikdə, təkcə təlimin əsas təşkilat forması olan dərsdə şagirdlərin diaqnostik, formativ və summativ dəyərləndirmə ilə qazandığı nəticəni müəyyənləşdirmək mümkünsüzdür.

Müasir təhsil sisteminin qarşısında duran başlıca məqsəd hərtərəfli inkişaf etmiş və humanist keyfiyyətlərə sahib olan şəxsiyyət yetişdirməkdir. Buna nail olmaq üçün müəllimdən hər bir şagirdə onun fərdi xüsusiyyətlərini və inkişaf səviyyəsini nəzərə alaraq yanaşmaq tələb olunur. Metodik araşdırmalar zamanı məlum olur ki, müəllimin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı müvafiq diaqnostikanın aparılmasına ehtiyac vardır.

Müəllim üçün müəyyən olunan peşəkarlıq səviyyəsinin qiymətləndirmə göstəriciləri üzrə açıq dərslərin təhlili məqsədəuyğun sayılır. Təəssüflər olsun ki, müəllimlər özünü təhlil aparmağa, metodik cəhətdən səbəb və nəticəni öyrənməyə lazımınca diqqət göstərmirlər. Çox vaxt tədris etdiyi fənnin nəzəri əsaslarını mükəmməl bilməyi ilə kifayətlənən müəllimləri peşəkarlıq səviyyəsinin qiymətləndirmə göstəricilərindən məlumatı olmadıqları üçün uğur qazana bilmirlər. Pedaqoji prosesdə iştirak edən tərəflərdən biri kimi müəllimin fəaliyyətini qısaca xarakterizə etdik. Aydın oldu ki, kurikulumun tətbiq olunduğu vaxtdan keçən müddət ərzində müəllim özünüqiymətləndirmə aparmaqla peşəkarlığını inkişaf etdirə bilər. Eyni qaydada pedaqoji prosesin digər iştirakçılarının funksiyaları onlara aydın olmalıdır. Bu baxımdan məktəb rəhbərliyinin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi xüsusi maraq doğurur.

Məktəb rəhbərliyinin fəaliyyətinin qiymətləndirilməsində əlavə olaraq onun təhsil qanunvericiliyinə və müasir təlim texnologiyalarına yiyələnmə səviyyəsi, bunları öz işində tətbiq etmə bacarığı, şəxsi keyfiyyətləri mütləq başlıca dəyərlər olaraq nəzərə alınmalıdır. Son illər məktəbdə pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində sinif rəhbərinin fəaliyyətinin yüksəlməsinə diqqət artırılır.

Təlim prosesində sagirdlərin qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. İnteraktiv təlim metodlarının tətbiqi ilə keçirilən dərslərdə ənənəvi qiymətləndirmədən fərqli olaraq, burada yeni qiymətləndirmə sistemi nəzərdə tutulur. Dərslərin qiymətləndirilməsi zamanı yalnız informasiyanın mənimsənilməsi deyil, həm də cəmiyyətin həyatında fəal vətəndaş mövqeyi və iştirakı üçün zəruri olan qabiliyyətlərin əldə edilməsi, habelə şagirdlərin faydalı bacarıqlara, əxlaqi keyfiyyətlərə yiyələnməsi nəzərə alınır.

Müəllimlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim çox müəllim üçün cox faydalıdır; özünüqiymətləndirmə prosesi, məsələn, sorgu vərəqləri və anketlərinin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir, belə ki, bu onları öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağa sövq edir, onlara öz münasibətini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir. Təhsildə qiymətləndirmə siyasəti: islahatlar müsbət nəticələr vəd edir. Azərbaycanın ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün dəqiq qiymətləndirmə standartlarının olması, şagird nəticələrinin obyektiv

qiymətləndirilməsi, müasir qiymətləndirmə metodlarından istifadəyə geniş yer verilməsi, qiymətləndirmə nəticələrinin təhlilinin, müvafiq hesabatların aparılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycanın təhsil sistemində son illər həyata keçirilməyə başlanmış islahatlar sayəsində müəyyən uğurlu nəticələr əldə edilib. Təhsil sahəsində həyata keçirilən qiymətləndirmə siyasətinin əsas istiqamətləri ölkənin ümumtəhsil sistemində beynəlxalq, milli və məktəbdaxili qiymətləndirmə sisteminin hazırlanması və həyata keçirilməsini təmin etməkdən ibarətdir. Məhz şagirdin orta təhsil üzrə nəticələri, eyni zamanda, onlara dərs deyən müəllimlərin, məktəb rəhbərlərinin, yerli təhsili idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsində indikator rolunu oynayır. Qiymətləndirmə təlim prosesini tamamlayan pillədir. O, təlimin səmərə və keyfiyyətini yüksəltməyə, əks əlaqəni təmin etməyə, müəllim və şagirdlərdə məsuliyyət hissini artırmağa, təlimi stimullaşdırmağa imkan verir. Hamı öz işinə verilən qiymətə qarşı böyük maraq və həssaslıq göstərir. Şagirdlərdə isə bu maraq daha güclü olur.

Qiymət çox incə bir pedaqoji vasitədir: o, şagirdləri həvəsləndirə də bilər, ruhdan sala da bilər. Hər şey qiymətin necə verilməsindən, onun ədalətli olub-olmamasından asılıdır. Müəllim qiymət verərkən bəzi şərtləri gözləməlidir:

a) qiymət obyektiv, ədalətli olmalı, şagirdin faktiki bilik və bacarıq səviyyəsini düzgün əks etdirməlidir. Qiyməti şişirtmək və ya "kəsmək", bu zaman əliaçıqlıq və xəsislik etmək eyni dərəcədə zərərlidir: birinci halda uşaqlarda arxayınçılıq, ikinci halda isə inamsızlıq baş verir;

b) verilən qiymət şagirdlər tərəfindən dərk olunmalıdır: müəllim qiyməti (rəqəmi) sadəcə elan etməklə kifayətlənməməli, onu əsaslandırmalıdır. Yəni şagirdə nə üçün "2" və ya "3" ("4", "5") aldığını sözlə xarakterizə etməlidir. Bu halda şagird öz nöqsanlarını başa düşər, müəllimi ədalətsizlikdə təqsirləndirməz;

c) qiymətləndirmə zamanı şagirdin təkcə nəyi öyrənməsini deyil, həm də necə öyrənməsini - şüurlu, yoxsa mexaniki öyrəndiyini, materialı dərk etdiyini, yoxsa əzbərlədiyini nəzərə almaq lazımdır. Bu, əzbərçiliklə mübarizədə, şagirdlərin təlimə şüurlu yanaşmalarında mühüm rol oynayır;

ç) qiymətləndirmədə şagirdin təlimdə, dərs boyu fəaliyyəti nəzərə alınmalıdır. Təkcə keçmiş mövzuya görə qiymət verdikdə şagird arxayınlaşır və dərs boyu fəallıq göstərmir. Bunu nəzərə alıb bir çox müəllimlər qiyməti dərsin sonunda (şagirdin dərsdəki fəaliyyəti əsasında) elan edirlər.

Qiymətləndirmənin əsas məqsədi təlim və tədris prosesini istiqamətləndirməkdir. Qiymətləndirmənin nəticələrindən təhsilin səviyyəsini yüksəltmək, əldə olunmuş nailiyyətlər haqqında məlumat toplamaq, müəllimin, şagirdin, kurrikulum uğurlarını müəyyən etmək, şagird nailiyyətlərini müqayisə etmək üçün istifadə olunur.Ənənəvi olaraq şagirdlərin qiymətləndirilməsində onların əldə etdikləri bilik, bacarıq və vərdişlər götürürlür. Bunların qiymətləndirilməsi üçün istifadə olunan əsas formalar yoxlama yazı işləri və şifahi cavablardır. Ənənəvi təhsildə iki qiymət növü var: cari və yekun qiymət. Cari (gündəlik) qiymət ayrı-ayrı mövzu və bölmələrin şagird tərəfindən mənimsənilməsini yoxlayır. Yekun qiymət isə tədrisin nəticələrini ümumiləşdirir. qiymətləndirmə daha çox kəmiyyətcə aparılır. Yeni qiymətləndirmə sistemi şagirdin yalnız biliyinin qiymətləndirilməsini nəzərdə tutmur. Yeni sistemdə şagird nailiyyətlərinin qiymətləndirilməsi, biliklərə yiyələnmə qabiliyyəti, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarığı haqqında məlumatların toplanması və təhlili prosesidir. Şagird nailiyyətlərinin qiymətləndirilməsində məqsəd şagirdin irəliləyişlərinin (eləcə də geriləmələrinin) izlənilməsi və nəticələrinə əsasən təlim prosesində qərarların qəbul edilməsi və bu nəticələr barədə valideynlərə informasiya verilməsidir.

Yeni qiymətləndirmə sistemində yalnız şagird nailiyyətləri (onlar nəyi bilir, bacarır və ya nəyə qadirdir) deyil, həmçinin bu nailiyyətlərə çatmaq üçün şagirdin fəaliyyəti (şagird necə öyrənir, düşünür, davranır) qiymətləndirilir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi çox geniş və əhatəli prosesdir. Bu proses sadəcə şagirdin nail olduğu təlim nəticələrinin səviyyəsini müəyyənləşdirməyə deyil, bütövlükdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Başqa sözlə, qiymətləndirmə keyfiyyəti idarə edən mühüm bir amil kimi meydana çıxır Qiymətləndirmə ilk növbədə uşaqda müsbət emosiyalar

yaratmalıdır. Fəal (interaktiv) təlimdə müəllim ən çox şagirdin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə arxalanmalıdır. Qiymətləndirmə səhv

cavablar olmur, sadəcə, onlar müxtəlif olur" prinsipi əsasında qurulur. Çox vacibdir ki, müəllim səhv cavaba "Sən düz demirsən" əvəzinə "Bir daha fikirləş", "Bu maraqlı fikirdir, lakin sualımız başqadır" kimi əks-əlaqə yaratsın. Cəzalandırmağa gəldikdə isə, müəllim çalışmalıdır ki, aqressiv cəzanın əvəzinə şagirdə həm özünün, həm də sinfin münasibətini çatdırsın və bununla onda müsbət münasibət qazanmaq ehtiyacını cəzalandırsın.

Təlimdə şagirdlərin nailiyyətlərinin qiymətləndirmə obyektləri sırasına şagirdin şəxsi keyfiyyətləri əlavə olunur. Ənənəvi olaraq şagirdlərin təlim nəticələrini müəyyən edən şəxsi keyfiyyətlərin qiymətləndirilməsi sistemi mövcud deyildir. Təlimin məqsədlərini əks etdirən ənənəvi sənədlərin hamısında şəxsiyyətin təlim və tərbiyə prosesində formalaşmalı olan müxtəlif keyfiyyətləri haqqında danışılır. Ola bilsin bu onunla əlaqədardır ki, şəxsi keyfiyyətlərin kəmiyyətcə qiymətləndirilməsi praktiki olaraq həyata keçirilməsi çətin olan bir məsələdir. Buna baxmayaraq bilik, bacarıq və vərdişlərlə yanaşı, şəxsi keyfiyyətlərin qiymətləndirilməsinin nəticələrinin də nəzərə alınması təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər.

Qiymətləndirmə və refleksiya dərsin müxtəlif mərhələlərinə daxil edilə bilər, bunun özü də təlim prosesinin daha uğurlu keçməsinə kömək edir. Birinci sinifdə qiymətləndirmənin şagirdlərin tədqiqat işinin başa çatdıqdan dərhal sonra keçirilməsi daha məqsədəuyğundur. Şagirdlərin işinin effektivlik dərəcəsi kimi kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər və müxtəlif metodlarla müxtəlif formalarda həyata keçirilə bilər.Şagird nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri bilik, bacarıq və dəyərlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Lakin şagirdlərin təlimin nəticələrini müəyyən edən şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi sistemi mövcud deyildir. Daha təəccüblüsü budur ki, təlimin məqsədlərini əks etdirən sənədlərin hamısında təlim-tərbiyə prosesində formalaşmalı olan müxtəlif şəxsi keyfiyyətlərdən bəhs olunur. Ola bilsin bu onunla əlaqədardır ki, şəxsi keyfiyyətlərin kəmiyyətcə qiymətləndirilməsi praktiki olaraq həyata keçirilməsi çətin olan bir məsələdir. Buna baxmayaraq, ancaq şəxsi keyfiyyətlərin qiymətləndirilməsi təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər. Bu sahədə məktəbdə psixoloji xidmətin üzərinə mühüm vəzifələr düşür.

Bununla əlaqədar olaraq şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesinə aid məsələlərindən ən başlıcasını onun şəxsi keyfiyyətlərinin diaqnostik yolları və metodlarının işlənib hazırlanması təşkil edir.

Nəticəyönümlü təlimdə isə vəziyyət başqa cürdür. Belə ki, burada şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdlərin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

-şagirdin irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi);

-təlim prosesində qərarların qəbulu;

-şagirdin təlim nəticələrinin qiymətləndirilməsi.

Qiymətləndirmə və təlim prosesləri təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi götürülməlidir. Sistemli proses olan qiymətləndirmə-təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur.

Ənənəvi təlimdə şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün istifadə olunan əsas formalar yoxlama yazı işləri ( və ya testlər) və şifahi cavablardır. İki qiymət növü mövcuddur: cari və yekun qiymət. Cari qiymət ayrı-ayrı mövzu və bölmələrin şagird tərəfindən mənimsənilməsini yoxlayır, yekun qiymət isə tədrisin nəticələrini ümumiləşdirir.

## ƏDƏBİYYAT


1. Ağayev Ə.Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, Adiloğlu, 2006.
2. Hüseynzadə R.L. Müasir məktəb və yeni pedaqoji düşüncələr. Bakı, 1998.
3. Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı. II cild, B, 2008. 445 səh.
4. Cəfərov N, Yusifoğlu R, Soltanqızı R, Əliyev E, Veysova Z, Məcidova A, Adıgözəlova S. "Ana dili" I sinif üçün dərslik, B, 2008. 150 səh.

5. Əfəndiyev A. “Müdriklik səlahiyyəti”. Bakı, Gənclik, 1976. 191 səh.
6. Əliyeva T.M. “Fənlərarası əlaqənin reallaşması prosesinin tələbələrin ümumi inkişafına təsiri”. ADPU-nun xəbərləri. №1, 1997-ci il.

**ABSTRACT**

**Sevda Karimova**

**EVALUATION OF PEDAGOGİCAL PROCESS**

Quality of education in the creative potential of teachers, professional level, the introduction of new pedagogical technologies in the educational process and depends on many important factors. The main purpose of the comprehensive development of the modern education system is facing and humane qualities of the person to train with.

**РЕЗЮМЕ**

**Севда Каримова**

**ОЧЕНКА ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА**

Качество образования новых педагогических технологий в учебном процессе внедрения и многих важных факторов зависит, в основном творческий потенциал, уровнем профессионализма учителя. Главной целью всесторонне развитая личность, обладающая качествами и гуманизма заключается в воспитании современной системы образования.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, professor E.Maqsudov

# METODİKA

**İBRAHİM RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*
*ibrahimrüstemov47@gmail.com*

**UOT: 372.8:51**

## İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN ƏDƏD ANLAYIŞI VƏ HESAB ƏMƏLLƏRİ İLƏ TANIŞ EDİLMƏSİ METODİKASINDA ƏSAS İSTİQAMƏTLƏR

**Açar sözlər:** *sinif, şagird, ədəd, anlayış, təfəkkür, hesab əməli, öyrənmə metodu, obyekt, say*

**Key words:** *class, pupil, number, concept, thinking, calculating operation, learning method, object, quantity*

**Ключевые слова:** *класс, ученик, число, понятие, мышление, операция вычисления, метод обучения, объект, цифра*

Riyaziyyat fənni digər fənlərlə müqayisədə daha mücərrəd və ciddi olduğundan şagirdlər tərəfindən çətin mənimsənilir. Digər tərəfdən, bu elmin ciddiliyi və məntiqi olması riyaziyyat fənnində də həmin xüsusiyyətlərin saxlanmasını tələb edir. Məlum didaktik prinsip: elmilik və müyəssərlik buna görə riyaziyyat təlimi prosesində mühüm əhəmiyyət kəsb edir. Riyazi anlayışların formalaşdırılması prosesində bu iki prinsipi əsas tutaraq, kifayət qədər əyani-illüstrativ materialın tətbiqi zərurəti yaranır. Məqsəd ondan ibarətdir ki, ədəd və hesab əməlləri anlayışlarını formalaşdırarkən

1. əyanilikdən istifadə;
2. konkretlikdən mücərrədliyə keçdikdə ciddiliyə və tədriciliyə riayət etməklə yüksək mənimsəməyə nail olunsun.

Bu prinsiplər ibtidai siniflərdə ədəd, say və hesab əməlləri anlayışlarının formalaşmasında metodik yanaşmaları müəyyən edir. F.Kleyn yazır: "Əgər biz ibtidai siniflərdə ədəd anlayışını aksiomatik yanaşma ilə, yəni heç bir məzmunu olmayan obyektlər kimi daxil etsək və onlar üzərində formal qaydalar əsasında əməlləri yerinə yetirsək, şagird heç nə başa düşməz. Əksinə əgər ədəd anlayışı şagirdə həyatda tanış olan əşyalarla əlaqəli şəkildə öyrədilərsə, onda, o, royazi bilik əldə edə bilər." [20] Bu əsasda I sinif şagirdlərinin ədəd anlayışı ilə ilkin tanışlığı əşya çoxluqları əsasında aparılmalıdır. Bu təbii yoldur. Şagirdin ətraf aləmdəki gördüyü obyekt və hadisələrə çox oxşar olan bir prosesdir. Bu riyaziyyatın genetik metodla təliminə çox yaxındır.

XIX əsrin sonu XX əsrin əvvəlində bir sıra avropa ölkələrində və Rusiyada "Ədədlərin öyrənmə metodu", "hesab əməllərinin öyrənmə metodu" deyilən metodik sistemlər dəbdə olmuşdur. Birinci metodun mahiyyəti - ədədləri öyrətməkdən ibarət idi. Ədədlərin tərkibi toplama və vurma əməlləri əsasında öyrədilirdi: ədədin bütün mümkün toplananları və vuruqları (4=1+3, 4=2+2, 4= $1\cdot 4$, $4=2\cdot 2$) öyrədildikdən sonra əməllərin icrasına keçilirdi. Əslində uşaqlar şifahi şəkildə "verilən cəmə əsasən toplananları" və "verilən hasilə əsasən vuruqları" tapırdılar.

Bu tipli çalışmalar müxtəlif əyani və didaktik vasitələr əsasında yerinə yetirilirdi.

Həmin vasitələr (fiqurlar, çöplər və s.) ədədin tərkibini "görməyə" şagirdə kömək edirdi. "Ədədləri öyrənmə metodunu" müəllifi XIX əsrin alman pedaqoqu A.B.Qrube (Pestalotsinin davamçısı) və Rusiyada onun ideyasını təbliğ edən riyaziyyatçı – metodist V.A.Yevtuşenski olmuşdur.

Uşaqlarda ədəd anlayışının formalaşdırılması məhdud xarakter daşıyırdı: ədəd – təkcə miqdari xarakteristika kimi dərk olunurdu. Natural sıranın qurulması, şifahi və yazılı nömrələmə, hesab əməlləri xassələri, hesablama priyomlarının əsasları kölgədə qalırdı. Natural sıra ədədləri

xassələrindən hansı nəticələrin alınması, onların hesab əməllərində tətbiqləri şagird üçün qaranlıq qalırdı.

Şagirdlərin onluq say sistemi prinsipləri ilə tanış edilməsi, ədədlər dairəsinin genişləndirilməsini ləngidirdi.

Ədəd haqqında təsəvvürlərin əyani vasitələr əsasında formalaşdırılması şagirdlərin mücərrəd və məntiqi təfəkkürünün inkişafını ləngidirdi. Buna görə də "Ədədləri öyrənmə metodu", "Hesab əməllərini öyrənmə metodu" ilə əvəz edildi. Bu, irəliyə doğru inkişaf idi. Riyaziyyat təlimində şagirdlərin nəzəri bilikləri diqqət mərkəzində idi. Lakin burada da birtərəfli yanaşma mane olmağa başladı.

Ədədlərin tərkibini kifayət qədər öyrənmədikləri üçün şagirdlər hesab əməlləri icrasında çətinlik çəkdilər.

Məlumdur ki, hesab əməllərinin icrası prosesində şifahi hesablamalarda mücərrəd riyazi qanunauyğunluqlara aid şagirdlərdə bir baza kimi hissi təxəyyül olmalıdır. Bu da olmadıqda riyazi əməliyyatlar şagird tərəfindən dərk olunmur. Xüsusən, I sinifdə 10 dairəsində toplama əməlini yerinə yetirərkən şagird cəmin yerdəyişmə xassəsini şüurlu surətdə tətbiq etməlidir. Məsələn, 3+2 cəmini tapmaq üçün 3+1+1 kimi yazılışdan istifadə etməlidir.

Çünki 1-i üstə gəlmə əməlini bilir. Lakin 2+3 halında isə çətinlik çəkir.

Bu zaman hər iki halı əyani surətdə şagirdlərə icra etdirdikdə nəticənin eyni olduğu aşkar görünür.

Digər tərəfdən, ədədin tərkibini öyrətməklə şagirdin miqdar haqqında təsəvvürü formalaşır və həmin miqdarı ifadə edən ədədi onun strukturu cəhətindən mənimsəyir. Bu da şifahi hesablama bacarıqlarının yaranmasına müsbət təsir edir. Əslində, ədədlərin tərkibcə öyrənilməsi toplama əməli ilə bağlıdır.

Deməli, ədədlərin tərkibi və hesab əməllərini bir-biri ilə qarşılıqlı əlaqədə öyrənmək lazımdır. Hesab əməllərinin öyrənilməsi prosesində ədədin məlum funksiyalarından əlverişli şəkildə istifadə etmək mümkün olur.

Müasir metodikada hesab əməllərinin öyrədilməsi:

1. şagirdlərin ədədlərə dair zəruri biliklərinə,

2. hesab əməllərinin tərifləri isə ədədlərin tərkibi haqqında uşaqların əldə etdiyi təsəvvürlərə istinad edir.

Bu işdə sadə məsələlər həlli mühüm rol oynayır. Hazırda ədəd və hesab əməli anlayışlarının formalaşdırılması aşağıdakı mərhələlər üzrə aparılır:

1) bağça təlimində ədəd və toplama, çıxma əməlləri haqqında ilkin təsəvvürlərin formalaşdırılması;

2) I-II siniflərdə ədəd və hesab əməlləri anlayışlarının formalaşdırılması;

3) III-IV siniflərdə ədəd və hesab əməlləri anlayışlarının formalaşdırılması və genişləndirilməsi.

İbtidai siniflərin riyaziyyat kursunun məzmununu müəyyən edərkən aşağıdakı faktorlar nəzərə alınmalıdır:

1) riyaziyyat təliminin məqsədləri;

2) həyatın məktəb qarşısında qoyduğu tələblər;

3) şagirdlərin fiziki, psixoloji imkanları;

4) riyaziyyatın müasir həyatda rolu və mövqeyi.

Bu faktorların təlim prosesində nəzərə alınması və onlardan düzgün istifadə edilməsi ibtidai siniflərdə şagirdlərin idraki imkanlarının artırılmasını və dünyagörüşlərinin genişləndirilməsini təmin edir. Şagirdlərin intellektual inkişafı tədris fənninin məzmunundan və onun tədrisi metodlarından daha çox asılıdır.

Ümumtəhsil məktəblərində riyaziyyat təlimi təşkili formasına və məzmununa görə XXI əsrin perspektivlərinə cavab verməlidir. XX əsrin 70-80-ci illərində riyazi təhsil sahəsində aparılan eksperimental yoxlamalar, yeniləşdirmələrin heç də hamısı XXI əsrin perspektiv planlarına cavab vermir.

Kompyuter texnukasının inkişafı ilə əlaqədar yeni təlin texnologiyalarının yaradılması günün zəruri probleminə çevrilir.

Şagirdlərdə riyazi təfəkkürün formalaşdırılması və inkişaf etdirilməsi daha çox aktuallıq kəsb edir.

Riyazi biliklərin tətbiqini reallaşdırmaq üçün sinifdaxili tədbirlərdən ən birincisi – məsələ həllidir. Ədədlərin və hesab əməllərinin öyrənilməsi məsələ həlli ilə paralel aparılır.

Məsələ həlli prosesində şagirdlər:

- ədəd anlayışının mahiyyətini dərk edir və tətbiqini reallaşdırır;
- kəmiyyətlər arasındakı funksional asılılıqları öyrənir və həmin asılılıqların mənasını ədəd anlayışı əsasında aşkar edirlər;
- analiz və sintez kini təfəkkür əməliyyatlarının obyektini ədədlərin təşkil etdiyi nəticəsinə gəlirlər;
- şifahi hesablama bacarıqlarını inkişaf etdirirlər (burada da başlıca obyekt və vasitə ədədlərdir);
- kəmiyyətlərin ölçülməsi və nəticələrin nəzərə alınmasının bilavasitə ədəd anlayışı ilə bağlılığını dərk edirlər.

Ədəd və ədədi sistemlər riyaziyyat elminin ən mühüm bölməsi olan ədədlər nəzəriyyəsinin predmetini təşkil edir.

Bu nəzəriyyənin əsasını təşkil edən hesab əməlləri, şifahi və yazılı hesablama üsulları I-IV siniflərdə öyrədilir və qazanılan biliklər V-VI siniflərdə riyaziyyatın inteqrativ kursunda və VII-XI siniflərdə cəbr, həndəsə və analiz kurslarında tətbiqini və inkişafını tapır.

Riyaziyyatın ibtidai kursu məzmununu və onun tədrisini yeniləşdirmək cəhdlərini reallaşdırmağa çalışan psixoloq, pedaqoq – metodistlər iki ideyanı irəli sürürlər:

1. Ədəd anlayışını obyektlərin miqdar xarakteristikası anlayışı ilə eyniləşdirmək olmaz.
2. Ədəd miqdari münasibətlərin başlanğıc ifadə norması deyil.

Bu iki ideyanı belə əsaslandırırlar: müasir cəbr elmi ədədi forması olmayan miqdar münasibətlərini öyrənir.

Çünki elə miqdar münasibətləri var ki, onlar ədədsiz ifadə olunur. Məsələn, məsələ məzmununu əyaniləşdirmək üçün parçalardan, düzbucaqlı zolaqlardan, həcmlərdən istifadə olunur və kəmiyyətlər arasındakı asılılıqlar obyektlərlə ifadə olunur.

Psixoloq və pedaqoqların apardığı çoxsaylı yoxlamalar, müşahidələr bir daha təsdiq edir ki, uşaqlarda əvvəlcə miqdar təsəvvürləri, sonra isə ədəd və ədədlər üzərində əməllər yaranır.

Deməli, deduktiv öyrənmə baş verir.

Ənənəvi metodikada obyektin miqdari xarakteristikası ədədlə eyniləşdirilir. Burada XX əsrin görkəmli riyaziyyatçısı A.N.Kolmoqorovun fikrini qeyd etmək yerinə düşər: "Çöxlu sayda riyazi kəşflərin əsasında əyani həndəsi qurmalar, elementar bərabərsizliklər və s. Kimi sadə ideyalar durur. İlk baxışdan çətin görünən məsələlərin həllinə həmin ideyaları tətbiq etmək kifayətdir" .

Müasir mərhələdə ibtidai siniflərdə riyaziyyat təlimi qarşısında duran vəzifələr:

1) şagirdlərə riyaziyyatdan elmi biliklərin verilməsi;
2) şagirdlərin riyazi təfəkkürlərinin inkişaf etdirilməsi;
3) riyazi biliklərin bir qismini müstəqil mənimsənilməsi və praktikaya tətbiq edilməsi ilə müəyyən edilir.

Hazırda I-IV siniflərin riyaziyyat kursu məzmunu, strukturu və onun qurulması üsullarını yeniləşdirmək üçün aşağıdakı tələbləri irəli sürürlər:

1. İbtidai siniflərin riyaziyyat kursu məzmunu ilə orta məktəbin riyaziyyat kursu məzmunu arasındakı varisliyin, kəsilməzliyin təmin edilməsi;
2. Real aləmin miqdar münasibətlərinin əsas qanunauyğunluqlarına dair biliklər sisteminin verilməsi; ədədlərin xassələr – miqdarın ifadə forması kimi – proqramın xüsusi bir bölməsini təşkil etməlidir;
3. Şagirdlərə riyazi təfəkkür əməliyyatlarını öyrətmək lazımdır. Təkcə hesablama vərdişlərini yaratmaqla kifayətlənmək olmaz. Riyaziyyatın tətbiqi ilə əlaqədar fənlərarası əlaqəni gücləndirmək lazımdır.
4. Hesablama texnikasına aid işlərdə cədvəllərə, məlumat kitablarına, hesablama vasitələrinə üstünlük vermək lazımdır.

Qeyd edək ki, irəli sürülən 4 tələbin heç də hamısını reallaşdırmaq mümkün deyil, çünki mücərrədliyin və hərfi simvolikanın miqdarının artırılması ibtidai sinif şagirdlərinin səviyyəsinə tam uyğun gəlmir.

İbtidai sinif şagirdlərində ədəd anlayışının yaradılması üçün müxtəlif mərhələlərdən istifadə olunur.

Bunlardan birincisi – müşahidə, əyani - induktiv mərhələdir. Bu zaman istifadə olunan əşyalar bu və ya digər dərəcədə kəmiyyətlərlə bağlıdır. Məsələn, obyektlərin miqdar və forma etibarilə müqayisəsi "böyükdür", "kiçikdir", "bərabərdir" və ya "çoxdur, "azdır", "o qədərdir" kimi münasibətlərə gətirir.

Onu da qeyd edək ki, müasir mərhələdə və gələcəkdə (perspektivdə) I-IV siniflərin məzmununda, təlim metodlarında islahatların aparılması, əsaslı dəyişikliklərin edilməsi tərəfdarlarına V.V.Davıdovu, L.V.Zankovu, L.Q.Petersonu və b. aid etmək olar.

Ənənvi istiqamətin tərəfdarlarına isə M.İ.Moro başçılıq edir. Bunların əsas məqsədi – I-IV siniflərin riyaziyyat kursu məzmununda qismən dəyişiklik etmək və müasir təlim metodlarından da istifadə edilməsi ideyasına üstünlük verməkdən ibarətdir.

Riyaziyyat elminin əsaslarını, həqiqət və anlayıçlarını mahiyyətcə eyni olub müxtəlif formalarda, müxtəlif ardıcıllıqla və ya müxtəlif prinsiplərə istinad edərək tədris etmək olar.

Təlim prosesi daha sadə, daha səmərəli forma və məzmun ifadə edir. Tətbiq olunan metodlar şagird təfəkkürünün imkanlarına, inkişaf səviyyəsinə uyğun olmalıdır.

İbtidai siniflərdə miqdar münasibətlərinin öyrədilməsi müşahidə və müqayisəyə istinad etməklə, ilk növbədə sayma prosesinə və qazanılan ilkin təsəvvürlərə əsaslanmalıdır:

Ədəd anlayışı – inkişafına uyğun olaraq

1) sayma nəticəsi kimi;

2) hesablama nəticəsi (əməl nəticəsi kimi);

3) kəmiyyətin ölçülməsi nəticəsi kimi ibtidai siniflərdə öyrədilir və bu mərhələlərin hər birinsə əyani – konkret, əyani – induktiv yanaşmalar tətbiq edilərək müəyyən nəticələr çıxarılır. İbtidai siniflərdə riyaziyyat təliminin bir neçə əsrlik təcrübəsi göstərir ki, hazırda riyaziyyatın ibtidai kursunun məzmunu, onun tədrisinə dair mövcud metodiki sistem kiçikyaşlı məktəblilər üçün məqbuldur və zəruri olan hallarda kursun məzmununda və onun tədrisi metodikasında təkmilləşdirmələr aparmaq olar.

## ƏDƏBİYYAT


1. İbtidai sinif riyaziyyat proqramları və dərslikləri
2. Həmidov S.S. I-IV siniflərdə riyziyyatın tədrisi metodokası (Xüsusi metodika), Bakı, ADPU, 2001
3. Клейн Ф. Элементарная математика с точки зрения высшей, т. I., Арифметика, алгебра, анализ / под ред. В.Ф.Когана, М.: Просвещение, 2009, 120 с.
4. Артемов А.К., Истомина Н.Б. Теоретические основы методики обучения математике в начальных классах, М., «Воронеж», 1986
5. Истомина Н.Б. Методика обучения математике в начальных классах, Учебное пособие, М., Академия, 1998, 288 с.


## ABSTRACT


**Ibrahim Rustamov**


### THE BASIC TRENDS IN THE METHODS OF *FAMILIARIZING STUDENTS* WITH THE CONCEPT OF NUMBERS AND CALCULATING OPERATIONS IN ELEMENTARY CLASSES


The article outlines the main trends in the methods of familiarizing students with the concept of numbers and calculating operations. In the process of formulating mathematical concepts, the two principles mentioned in the article are of particular importance. These principles define methodical approaches to the formation of concepts of number, quantity and calculating operations

in elementary classes. At the present stage, the objectives of mathematics training in elementary classes and the requirements for updating the content, structure and its building methods of math course of elementary classes are also widely covered in the article. Formation and development of mathematical thinking in students is more urgent. There are quite a few ideas in the article to accomplish the application of mathematical knowledge.

**РЕЗЮМЕ**

**Ибрагим Рустамов**

**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ В ОЗНАКОМЛЕНИЯ УЧЕНИКОВ НАЧАЛЬНЫХ КЛАССОВ С ПОНЯТИЕМ ЧИСЛО И ОПЕРАЦИЯМИ ВЫЧИСЛЕНИЯ**

В статье излагаются основные направления в методике ознакомления учеников начальных классов с понятием число и операциями вычисления. В процессе формирования математических понятий особое значение имеют два принципа, упомянутые в статье.

Эти принципы определяют методологические подходы к формированию понятий число, цифра и операции вычисления в начальных классах. Также на современном этапе широко освещаются цели математического обучения в начальных классах и требования к обновлению содержания, структуры и методов создания математических курсов начальных классов.

Формирование и развитие математического мышления учеников имеет широкую актуальность. В статье отражены немало идей об использования математических знаний.

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**SHAHLA SHIRALIYEVA**
*Nakhchivan State University*
*shshahla36@gmail.com*

**UOT:37.091**

# INNOVATIVE METHODS OF STUDENTS TRAINING

**Açar sözlər:** *təhsil; innovativ tədris metodları, interaktiv tədris metodları, multimedia texnologiyaları, tələbə, mütəxəssis, informasiya texnologiyaları*

**Keywords:** *innovative teaching methods, interactive teaching methods, multimedia technology, student, specialist, information technologies.*

**Ключевые слова:** *инновационные методы обучения, интерактивные методы обучения, мультимедийные технологии обучение, студент; специалист, информационные технологии.*

Education is a strategic foundation for the development of the individual, society, nation, state and the guarantee of a successful future. The transformation of a post-industrial society into a global information system, based not only on knowledge, but also on the competence of specialists, significantly actualized the problem of innovative approaches to the organization of educational processes. As a result, very high requirements are put forward for the education system under modern conditions: it must prepare specialists for life and activity in a broad, dynamic, rapidly changing world, where the person constantly faces non-standard tasks, the solution of which presupposes the availability of skills and skills to build and analyze their own actions. The leading place in this system is occupied by innovative methods of training students in the higher education system, which in the future will be directly involved in the formation and implementation of investment and innovation policies.

In the modern scientific literature devoted to the problems of management of innovative processes in the sphere of educational activity, the complexity and multidimensionality of this process is noted. Particular attention is focused on the fact that an innovative approach to the teaching of students should be systematic and cover all aspects of teaching and educational work in the training of future specialists, while the theoretical and practical approaches to the content of education, vocational and teacher training of teachers, the development of new technologies and teaching methods.

As is known, the basis of innovative educational technologies used in the educational process should be a social order, professional interests of future specialists, consideration of individual, personal characteristics of students [2]. Therefore, when training specialists in higher education, the use of innovative forms and methods must be organically combined with a pragmatic understanding of the goals and objectives of education and training. In modern psychological and pedagogical literature it is noted that innovative methods are reflected in many teaching technologies aimed at developing and improving the teaching and upbringing process and training specialists for professional activities in various spheres of life of modern society [3]. They create conditions for the formation and consolidation of professional knowledge, skills and abilities of students, contribute to the development of professional qualities of the future specialist. The use of innovative methods by teachers in the teaching process helps to overcome stereotypes in teaching various disciplines, developing new approaches to professional situations, developing creative and creative abilities of students.

Effective forms of educational work on the introduction of innovative processes in the educational process and the formation of key professional competencies of future specialists is the use of various active forms and methods of teaching: the creation of projects, the preparation of public speeches, the discussion of professionally important problems, training in cooperation, creating problem situations, training professionally directed video films and presentations, etc. The

transition from information-explanatory education to and novation-efficient associated with the application in the educational process of new computer and various information technologies, electronic textbooks, video, provide a free search activity, and involves the development and individual orientation. On this basis, today we can note various innovative methods of teaching students, in particular, problem and gaming technology, collective and group activity technologies, simulation methods of active learning, methods for analyzing specific situations, project method, training in cooperation, creative teaching, innovative educational project activity, lecture-press conference, lecture-conversation, lecture-visualization, lecture-discussion, etc.

Let's consider some of the methods presented in more detail.

In the game simulation, various games are widely represented: business, attestation, organizational and activity, innovative, reflexive games to relieve stress and create innovative thinking, search and approbation, etc. [4]. When using business games, the productive and transformational activity of students prevails. In particular, for educational games are characterized by the multivariate and alternative solutions, from which it is necessary to make the choice of the most rational. Business games for educational purposes have now become quite widespread in higher education institutions and are applied mainly at senior courses in the study of special disciplines, especially those related to economics, organization and management, accounting, law, and new forms of management in market conditions.

Innovative educational project activity is an effective form of organization of the educational process aimed at the individual development of cognitive interests and creative abilities of students. This method involves mastering the technology of presentation of various creative works (reports, reviews, abstracts, reports on professionally oriented topics). The meaning and goal of pedagogical innovations is to implement a new vision of the methodology of teaching, the attraction of new methods, technologies, multimedia teaching tools in the interests of developing the personality of the future specialist.

The project method refers to research. It is based on the development of cognitive skills of students, the ability to independently design their knowledge, navigate the information space, the development of critical thinking and creative abilities [3]. The project method is focused on the independent activity of trainees - individual, pair or group, which students perform for a certain period of time. This approach is organically combined with a group approach to learning. The method of projects always involves solving a certain problem that involves, on the one hand, the use of various methods and means of training, and on the other, the integration of knowledge and skills from various fields of science, technology, technology, and creative industries.

Creative learning implies free access of each student to Internet resources and is based on the following principles:

- the basis of creative learning is the supposed educational product that will be created by the student;
- compliance of the student's external educational product with its internal needs;
- Individual educational trajectory of the student in the educational space;
- interactivity of classes conducted with the help of telecommunications;
- open communication in relation to the educational product created by the student.

Thus, summing up, it can be noted that innovative methods of teaching students are based on active methods that help to create a creative, innovative approach to understanding professional activity, develop independent thinking, the ability to make optimal decisions in a given situation. As practice shows, the use of innovative methods in professionally oriented education is a necessary condition for the training of highly qualified specialists. The use of various methods and techniques of active learning arouses students' interest in the educational and cognitive activities themselves, which allows creating an atmosphere of motivated, creative learning and at the same time solving a whole complex of educational, educational, developmental tasks.

The general direction of innovation should be the individualization of educational trajectories of students, the activation of their work, increasing the level of motivation and responsibility for the quality of the development of educational programs. The main innovations in the education of students are largely connected today with the use of interactive teaching methods:

at least 20% of the undergraduate baccalaureate classes and 40% of the master's degree in each discipline should be conducted in an interactive manner.

The concept of "interactive" comes from English. The term "interactive learning" is understood in many ways. One of the most promising and popular information technologies is multimedia, which allow creating entire collections of images, texts and data accompanied by sound, video, animation and other visual effects. Currently, there are many different ways to provide information using multimedia tools. The most common for today is a set of equipment - a multimedia projector and a computer. Interactive whiteboard, computer, projector, specialized software allow you to configure and use the entire multimedia package as a whole. The principles of the interactive whiteboard with a direct projection (on reflection) are quite simple. In fact, this is a large graphic tablet. Its white surface plays the role of a conventional screen, but unlike it, it is sensitive to pressing (touchpad). "Draw" on the board can be any solid object or even a finger. The computer program perceives these actions as the movement of a mouse on a conventional PC. Touching the surface of the board or navigating through it, you can also press the on-screen buttons, drag objects, scale and rotate them, work with the elements of the dialog boxes displayed on the board. In the same way print the text, touching the keys of the virtual keyboard on the screen-board.

The electronic educational and methodical complex is a comprehensive software teaching system that ensures the continuity and completeness of the didactic cycle of the learning process. It provides theoretical material, provides training training and information retrieval activities. The Electronic educational and methodical complex (EEMC) can be placed on a website on the Internet and recorded on a CD ROM. EEMC has a lot of advantages: it can be easily republished, i.e. correct as necessary; allows to represent phenomena and processes in dynamics (use elements of animation); use video insets. In addition, the electronic educational and methodical complex is personal-oriented - each student chooses an individual trajectory of learning in the course of training.

The teacher's electronic portfolio is designed to organize a productive interaction between the teacher and students in the learning process. It is a means of forming a model of individual pedagogical experience, since it allows each teacher to develop his own individual teaching strategy, his pedagogical system. The electronic portfolio includes materials for conducting classes (presentations, supporting abstracts, etc.); materials for the organization of independent work of students (descriptions of practical and laboratory works, task cards, handouts, topics of abstracts, etc.); materials for monitoring the results of training (tests, control practical tasks, means of rating evaluation of knowledge); articles for journals, reports at educational-methodical conferences; materials that represent the experience of colleagues.

The software of the electronic portfolio is:

• Power Point program - creating presentations for lectures and practical assignments;

• Word program - development of reference notes, task cards and other materials, including texts;

• Excel program - development of tests and rating systems of knowledge;

• tool systems for creating sites (for example, Front Page, Dream Weaver) -developing materials that have a hypertext structure;

• tools for creating computer tests-development of tests;

• graphic packages (for example, Photoshop, Corel Draw, etc.) - preparation of illustrative materials: generalizing diagrams, drawings.

In the process of teaching, the student uses materials from the teacher's portfolio, and the teacher uses the best work of the students. As a result, a unified educational environment is created that ensures effective interaction between teachers and students.

The use of multimedia technologies in the process of teaching makes it possible to present educational material not only in a traditional, but also in a more accessible form for students' perception visually. Having access to the Internet during the classroom, a student can immediately find a textbook recommended by the teacher and, if necessary, clarify the information; in the on-line mode to pass a test for personal characteristics. Preparation of creative assignments in the form of computer presentations (for example, reports at student conferences) develops students' creative imagination, forming imaginative thinking. The presented video contains not only analytical

information (in the form of graphs, diagrams, definitions), but also drawings and photographs illustrating the main points of the report. Using the interactive whiteboard allows the teacher to reproduce formulas, create charts, draw tables using the computer and the projector on-line, without using the traditional whiteboard and chalk, and also fully use the Internet during the session.

However, do not limit the understanding of interactive teaching methods using information and computer technology. It is quite permissible and a broader interpretation of interactive learning as the ability to interact or be in a dialogue mode not only with the computer, but also with the person.

The educational process, based on the use of interactive teaching methods (working in small groups (team), project technology, case studies, problem training, role-playing and business games), is organized taking into account the inclusion in the learning process of all students of the group. Joint activity means that each contributes its own individual contribution, in the course of work there is an exchange of knowledge, ideas, methods of activity. Organized individual, pair and group work, using project work, role games, work with documents and various sources of information. Interactive methods are based on the principles of interaction, activity of trainees, reliance on group experience, mandatory feedback. An environment of educational communication is created that is characterized by openness, interaction of participants, equality of their arguments, accumulation of joint knowledge, the possibility of mutual evaluation and control

## BIBLIOGRAPHY


1. Bazilevich SV, Brylova TB, Glukhikh VR, Levkin GG The use of innovative and interactive teaching methods in conducting lecture and seminar classes // Science of Krasnoyarsk. 2012. No.4. P. 103-113.
2. Osmolovskaya I.M. Innovations and pedagogical practice // Public education. 2010. No.6. P. 182-188.
3. Simonenko N.N. Management of educational services using innovative teaching methods // Bulletin of the Pacific State University. 2012. No.2. P. 201-206.
4. Skripko L.E. Introduction of innovative teaching methods: prospective opportunities or insurmountable problems // Quality management. 2012. No.1. P. 76-84.


## XÜLASƏ

**Şəhla Şirəliyeva**

### TƏLƏBƏ TƏLİMİNİN İNNOVATİV METODLARI

Məqalədə tələbələrin təhsil prosesində innovativ metod və metodların tətbiqi, inkişafı və istifadəsinin aktual problemləri müzakirə edilmişdir. Universitet müəllimləri tərəfindən istifadə olunan qabaqcıl və müasir innovativ vasitələrin təhlili aparılmış, yenilikçi yanaşmanın üstünlükləri tələbələrin ənənəvi formaları ilə müqayisədə sübuta yetirilmişdir. İnteraktiv tədris metodlarına - motivasiyanın təşkili və bilik fəaliyyətinin idarə edilməsinə xüsusi diqqət yetirilmişdir.

## РЕЗЮМЕ

**Шахла Ширалиева**

### ИННОВАЦИОННЫЕ МЕТОДЫ ОБУЧЕНИЯ СТУДЕНТОВ

В статье рассматриваются актуальные проблемы внедрения, развития и использования инновационных приемов и методов в процессе обучения студентов. Проведен анализ передового и современного инновационного инструментария, который используется преподавателями вузов. Обоснованы преимущества инновационного подхода по сравнению с традиционными формами подготовки студентов. Особое внимание уделяется интерактивным методам обучения.

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**ELZA AŞUROVA**
*Naxçıvan Dövlət Universtiteti*

**UOT: 372.8:81**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ GƏNC KADRLARIN PEŞƏKARLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ

**Açar sözlər:** *müstəqillik, mədəni əlaqə, xarici dilin tədrisi, elmi tədqiqatlar, tədrisin məqsədi, müasir üsullar*

**Key words:** *independence, cultural relation, teaching foreign language, scientific researches, the aim of the teaching, modern methods*

**Ключевые слова:** *независимость, культурные связи, преподавание иностранного языка, научные исследования, цель преподавания, инновационные методы*

Müasir dövrdə ingilis dili dünyanın ən aparıcı dillərindən birinə çevrilmiş, bu dil dövlətlər arası ünsiyyət vasitəsi kimi böyük şöhrət tapmış, eləcə də Azərbaycanın ictimai-siyasi və mədəni həyatına dərindən nüfuz etmişdir. Ona görə də ingilis dilini öyrənmək üçün sanballı əsərlər yazılmış, bir çox dərslik, dərs vəsaitləri, lüğətlər, danışıq kitabçaları hazırlanmış, bu sahəyə dair metodik vəsaitlər çap olunmuşdur.

Son dövrlərdə Azərbaycanın müasir həyatı, daxili və xarici siyasəti, Qarabağ hadisələri, köçkün və qaçqın həyatı kecirən bir milyondan artıq həmvətənlərimizin həyatı və s. ilə bağlı fikirləri vurğulayan biz müəllimlər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün ingilis dilin öyrənənlərə səy göstərilməliyik.

Respublikamızın müstəqilliyi başqa sahələrdə olduğu kimi, xarici dilin tədrisi sahəsində də müəllimlər qarşısında mühüm vəzifələr qoyur. Gənclərin bütün sahələrdə peşəkarlığını inkişaf etdirmək, ali məktəblərdə onlara müəyyən biliklər vermək və onun təcrübəyə tətbiqini öyrətmək günün vacib məsələsidir.

Xarici ölkələrdə gündən günə artan siyasi, iqtisadi, mədəni əlaqələr, respublikamıza artan maraq, dünyada böyük dövlətlərin buradakı firma və şirkətləri ölkəmizdəki səfirliklərin təşkili və xarici ölkələrdə müstəqil respublikamızın təmsil olunması kimi faktlar xarici dilin bütün sahələrdə ixtisasından asılı olmayaraq əməlli şəkildə öyrədilməsini tələb edir.

Azərbaycanın Avropaya inteqrasiyasından sonra Azərbaycanda da ingilis dilinə tələbat artdı. Hazırda istənilən sahədə çalışan şəxslər, tələbələr bu dili öyrənməyə can atır.Gəlin görək bu dilin ali məktəblərdə səviyyəsi necədir? Tələbələr bu dili necə mənimsəyir və müəllimlər onu necə tədris edir?

İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni dil tədrisidir. İngilis dilini aşağıdakı 3 qrupun birgə səyi nəticəsində asanlıqla öyrənmək və öyrətmək mümkündür:

1) öyrənmək istəyən tələbə;
2) təcrübəli müəllim;
3) müasir təlim metodu –İKT.

İngilis dilini öyrənməyin uzun müddətli və çətin olduğunu bilərək onu öyrənməyə can atan tələbə əzmlə çalışmalıdır. Təcrübəli müəllim elə ilk növbədə tələbəsinə müsbət təsir etməyə müvəffəq olmalıdır. Tələbə yalnız sevdiyi bir müəllimin dərsini usanmadan öyrənir. Tələbəsinə fənni sevdirməyə cəhd etmədən dili tədris edən müəllim dəmiri qızdırmadan döyən dəmirçi kimi eyni müvəffəqiyyətsizliyə uğrayacaq.

Müasir dünyada ingilis dilinin rolu istər işgüzar aləmdə istər ünsiyyət vasitəsi kimi danılmazdır. Lakin günümüzdə ingilis dilində mükəmməl danışmaq heç kimi təcrübələndirmir. Çünki bu artıq zəruridir. Azərbaycanda inkişaf və tərəqqi göz qabağındadır. Ölkəmiz xarici

dövlətlərlə müxtəlif sahələrdə əməkdaşlıq edir, dünya səviyyəli yarış və müsabiqələrin ev sahibidir. Bütün bunlar ölkəmizdə xarici dillərin tədrisinin əhəmiyyətini göstərir. Hər bir müəllim ingilis dilinin tədrisində tələbələrin maraqlarına uyğun olaraq aşağıdakılara diqqət etməlidir:

1. Mövzular müzakirə üçün əsas təşkil edilməlidir;
2. Janr müxtəlifliyi olmalıdır;
3. Mövzular tələbələrin səviyyəsinə uyğun olmalıdır;
4. Həqiqi mənbələrə əsaslanmalıdır.

Bugünki müasir və qloballaşan dünyamızda beynəlmiləl dillərin rolu danılmazdır. Bu dillərdən biri də dünyanın əksər ölkələrində tədris olunan, istifadə edilən ingilis dilidir. Heç də təsadüfü deyil ki, Azərbaycanda da ingilis dilinin tədrisi geniş vüsət almışdır. Orta məktəblərdə, ali məktəblərdə ingilis dilinin tədrisinə geniş yer ayrılır, üniversitetlərdə ixtisasından asılı olmayaraq bakalavr səviyyəsində hüquq üzrə ingilis dili, turizm üzrə ingilis dili, bələdiyyə üzrə ingilis dili, sosial iş üzrə ingilis dili və s. tədris olunur. Unutmamalıyıq ki, maşinist qatarı "təlim" edən kimi biz müəllimlərdə beyinləri təlim edirik. Müasir dövrdə xarici dili tədris edən müəllim ilk növbədə tələbələrin ingilis dilində kommunikativ səriştəsinin formalaşdırılması üçün səmərəli şəraitin yaradılmasını təmin edə bilən və bu istiqamətdə tələbələrinə yardım edən bir şəxs olmalıdır. Biz müəllimlər bilməliyik ki, tələbələrə hər tərəfli yardım edərək, onlara dil sahəsində ən yüksək nailiyyətləri əldə etməyə kömək etməliyik. Müəllim-tələbə münasibətləri xarici dilin tədrisi prosesinin əsas amillərdən biridir. Xarici dil tədrisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədinə nail olmaq üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır:

1) qarşıya qoyulan məqsədlər real olmalıdır;
2) innovativ metod və üsullar tədris prosesinə səmərəli tətbiq edilməlidir;
3) müəllimin dil öyrənən tələbələrin arzu, maraq və təlabatları haqqında məlumatı olmalıdır;
4) müəllim tədris etdiyi fənnə həvəslə yanaşması bu tədris prosesinin uğurlu olmasını təmin edən əsas şərtlərdəndir;
5) müəllimin də tələbələrin nəyi və necə hansı məqsədlə öyrənməsini, yeni tədrisin məqsədləri, metod və üsulları, haqqında məlumatı olmalıdır

Müstəqil Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, beynəlxalq münasibətlərin genişlənib möhkəmlənməsi, informasıya axını xarici dillərə olan tələbatı zərurətə çevirmişdir.Bu da öz növbəsində təhsil işçiləri qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Respublikamızda tədris proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin dəyişdirilməsi və ya yeniləşdirilərək təkmilləşdirilməsi, yenilənmiş proqramlar əsasında tərtib edilmiş dərsliklər və dərs vəsaitləri ilə işləyəcək ingilis dili ixtisası üzrə müəllim kadrları hazırlayan ali təhsil müəssisələrin öz tədris proqramlarını çağdaş meyarlara uyğun dünya təhsil sisteminə cavab verəcək səviyyədə hazırlamağı tələb edir. Bu baxımdan, ingilis dilinin tədris edəcək müəllimlər üçün beynəlxalq tələblərə uyğun yeni elmi-metodiki proqramın nəşr olunmasına ehtiyac vardır.

"Ali İxtisas Təhsilinin Dövlət Standartları"nda nəzərdə tutulan tələblərə uyğun ingilis dilini tədris edən biz müəllimlər kursun məqsədini, əsas məzmununu, aspektlərini və metodik istiqamətini tədrisdə əks etdirməlidir.İngilis dilinin tədrisi zamanı aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

1. Tələbələrin beynəlxalq standartlara cavab verən peşəkarlıq fəaliyyətləri üçün nəzəri baza yaratmaq;
2. Tələbələrə müasir təlim üsulları, təlim texnologiyalarına yiyələnmələri məqsədi ilə onlara lazımi bilik, bacarıq və vərdişlər aşılamaq;
3. Tələbələri yenilənmiş dərsliklərlə tanış etmək və müasir təlim texnologiyalarına yiyələnmələri təmin etmək;
4. Tələbələrəmilli və ümumbəşəri dəyərlər -demokratiklik, dünyəvilik, sistemlilik, biliyi təcrübəyə tətbiq etmək, tədqiqat aparmaq, cəmiyyətin aparıcı üzvünə çevrilə bilmək kimi keyfiyyətlər aşılamaq və onların hərtərəfli inkişafını təmin etmək;
5. Tələbələrə dərsi müasir texnologiya İKT, Power point ilə tədris etmək.

Tədrisin belə strukturu nəzəri məsələləri konkret praktiki yolla həyata keçirməyə imkan verir. İngilis dilinin tədrisi zamanı prosesinin təşkili, sillabusların tərtibi, dərslərin İKT, Power Point ilə keçirilməsinə, onun mərhələlərinə diqqət verilməlidir. Ali məktəbin bütün pillələri üzrə, eləcə də ingilis dilinin öyrədilməsinin özəllikləri, tələbələrin bilik, bacarıq, vərdişlərinin yoxlanması və qiymətləndirilməsi qaydaları düzgün aparılmalıdır

Тясадцфи дейилдир ки, эцнцмцздя няинки дювлят органларында вя бейнялхалг гурумларда тямсил олунанлар, елясə дя мцхтялиф гейри-щюкумят тяшкилатларында чалышан kadrlar хариси юлкялярин iqtisadiyyatının inkişafını qanun вя щцгуг ян азы цмуми принсиплярини юйряниb арашдырmaq üçün ingilis dilini bilmələri çox vacibdir. Юлкямиз юзцнцн дювлят мцстягиллийини бярпа етдикдяn сонра милли кадрларын щазырланмасына верилян тялябляр дя артмышдыр. Бу тялябляр ичярисиндя йцксяк нязяри сявиййяйя, милли ruha вя азярбайсанчылыг идеолоэийасына дяриндян йийялянмяк, bütün елмlərин ян мцхтялиф сащяляриня бялядчилик etmək мцщцм ящямиййят кясб едир.

Мцстягил дювлятчилик тарихимизин кечян тягрибян 25 иллик заман кясийиндя газанылан тясрцбя эюстярди ки, али тящсили алан кадрлар юлкя конститусийасы вя ганунчулуьу иля йанашы хариси юлкялярин qanun və щцгугуну да лазымы сявиййядя юйрянмяли, бу сащядя мцгайися вя гаршылашдырмалар апармаьы басармалыдырлар. Бу истяр юлкя дахилиндя мцвафиг сащялярдя чалышан kadrlar цчцн, истярся дя мцхтялиф гейри-щюкумят тяшкилатлары вя бейнялхалг гурумларда ишляйянляр цчцн ейни дярясядя эяряклидир.

Диэяр тяряфдян глобаллашан дцнйайа интеграсийа олунан Азярбайсан Республикасы мцхтялиф юлкялярля мцхтялиф мязмунлу мцгавиляляр баьлайыр, сазишляр имзалайыр, бейnялхалг гурумлара, тяшкилатлара вя бирликляря цзв олур. Бу ишлярин сямяряли вя ишляк олмасı эюзлянилян нятисяляри вермяси цчцн ilk нювбядя щямин юлкялярин dilini билмяк лазым эялир.

Бу бахымдан ingilis dili фяннинин tədrisi эялясяк kadrларын дювлятчилик щаггында биликляринин эенишлянмясиндя, нязяри бахышларынын вя тясрцби вярдишляринин тякмилляшмясиндя хцсуси ящямиййят кясб едир.

## ƏDƏBİYYAT


Azərbaycan dilində:

1. Məmmədova C. A, Soltanova H. B, “Beynəlxalq Turizm” Bakı, Maarif 2004 20- 212 səh.
2. Verdiyeva Z.H, Axundov Ç.M, “Learn English”, Maarif, 1993, 310 səh.
3. Rehimova S. H.” Dünya Turizmi’’ Bakı, Azərnəşr, 2009, 32- 144 səh.
4. Zülfügarov Z. English. Bakı, 2000, 56 səh.
5. Məmmədov C. Turizm Sektoru, Bakı, Maarif, 1988, 383 səh .
6. Musayev O, İngilis dilinin qrammatikası, Maarif, 1979, 359 səh.
7. Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram. Pedaqogika nəzəriyyəsi və tarixi, Bakı, 2008, 52 səh.
8. Ofelya Qafarova. Məktəblərdə ingilis dilinin metodikası. 2014
9. İnternet materialları – 2016
10. Eyyubova Mehriban. İngilis dili birinci xarici dildir. 2015

İngilis dilində

11. James Arnold. Commond English, Longman 1999.
12. Charles Goelgner.Tourism London, 2007
13. Education İn Britain. London, 1989
14. Keep up Your English. Moscow, 1975
15. Kozlovskaya M. Everyday English for Beginners. Moscow
16. Oxford University Press, 1989.
17. Diane Larsen-Freeman. Techniques and Principles in Language Teaching.Oxford University Press, 2000, 191 p.
18. The TKT Course. Modu les 1, 2 and 3.Cambridge University Press 2001, 265 p.

**ABSTRACT**

**Elza Ashurova**

In the article it is dealt with the teaching of foreign language at the secondary and higher universities, the ways and methods of teaching, the importance of learning English language, how to use modern technology in auditorium. In the article it is shown that how the teachers use IST at the lesson, where the young teachers help their students for speaking English language.

It is necessary to print a new programs, text-books and visual aids for the future students according to the international demands, the teachers must use innovative methods and ways in teaching English language.


**РЕЗЮМЕ**

**Эльза Ашурова**

Проблемы развития профессионализма молодых кадров в высшей школе в области английского языка.

В статье рассматривается проблема развития профессионализма кадров английского языка в средних и высших школах. С этой целью применяются инновационные методы и способы при преподавании английского языка.

Автор обосновывает мысль, что преподаватели на занятиях должны широко примеять ИКТ, интернетные ресурсы по изучению иностранного, в том числе английского языка. В статье автор демонстрирует применение эффективных методов, использование которых способствует наилучшему овладеванию студентами английского языка.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**FARİZ ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*Fariz6254111@gmail.com*

**UOT:026**

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ DİSTANT TƏHSİLİN PERSPEKTİVLƏRİ VƏ ELEKTRON KİTABXANANIN BU TƏHSİL SISTEMİNƏ İNTEQRASİYASI

***Təhsil hər bir millətin gələcəyidir.***
**Heydər Əliyev**
*Azərbaycan xalqının ümummilli lideri*

**Açar sözlər:** *ənənəvi, distant, İnformasiya Kommunikasiya Texnologiyaları, portal, elektron daşıyıcılar, Naxçıvan Dövlət Universiteti, elektron kitabxana*

**Keywords:** *traditional, remote, Information Communication Technology, portal, electronic carriers, Nakhchivan State University, electronic library*

**Ключевые:** *традиционное, дистанционное, Информационн-Коммуникационные Технологии, портал, электронные носители, Нахчыванский Государственный Университет, электронная библиотека*

Distant təhsil məsafəli təhsil olub öyrədən ilə öyrənənin fərqli məkanlarda olma imkanını təşkil edən İnformasiya Kommunikasiya Texnologiyaları vasitəsidir. Günbəgün müasirləşən dünyada insanlar şəxsi işi, biznesi, ailə öhdəlikləri, maddi çətinlikləri və digər səbəblərdən dolayı beynəlxalq təhsil üçün başqa ölkələrə getməsi mümkün olmur. Distan təhsil bütün bu çatışmamazlıqların üzərindən xətt çəkərək tələbə ilə müəllim arasında poçt, e-poçt, faks və s elektron daşıyıcılarından istifadə edərək təhsili reallaşdıran sistemdir. Distant təhsildə internet resursları, müəllimlərlə tələbələr arasında ikitərəfli əlaqəni təmin edən bütün zəruri tədris-metodik və təhsil-inzibati informasiyanı əks etdirən özünəməxsus Web sayt olamlıdır. Tələbənin Distant təhsil alması üçün o, kömpüter, tablet, telefon və internet vasitələrindən istifadə etmək imkanına malik olmalıdır. Distant təhsil 2 rejimdə fəaliyyət göstərə bilər. Həm poçt email protokollarına (POP3 və İMAP4) əsaslanan off-line rejimində, həm də interaktiv öyrədici texnologiyalarından istifadə etməyə imkan verən http, ftp, gopher və digər protokollara əsaslanan in-line rejimində. Distant təhsil texnologiyaları işlənib hazırlanarkən bu göstəricilər mütləq əsas götürülməlidir: ev tapşırığının yerinə yetirilməsi, virtual dərsliklə iş, öyrənilən materialın elmi icmalı, mühazirə, videofilmə baxış, kompüter siniflərində iş, diskussiyalar, işgüzar formada interaktiv seminarlar, şifahi və yazılı kurs işlərinin yerinə yetirilməsi, elektron kitabxana fondları ilə iş, carı modul testləşdirmə və ya buraxılış imtahanları və qiymətləndirmə. Bunuda qeyd etmək lazımdır ki, Off-layn təlim texnologiyasından istifadə etməklə tələbə internetə daxil olmadan e-mail vasitəsi ilə bütün tədris materiallarını əldə edə bilər.

Distant təhsil sistemi ənənəvi təhsil sistemi ilə müqayisədə təhsil alanın asudə vaxtını səmərəli istifadə etməsini, müstəqilliyini, aktivliyini, qısa zamanda daha çox elmi məlumatlar əldə etməsini və s imkanlarını genişləndirir. Artıq demək olarki Avropanın bir çox ölkələrində Distant təhsil formasından geniş istifadə edirlər. Əhalinin bütün təbəqələri üçün münasib və baha olmayan bu təhsil formasının əsas məqsədi müasir İnformasiya Kommunikasiya Texnologiyalarından istifadə etməklə təhsil alanın ixtisasının artırılmasıdır. Distant təhsilin yaradılmasına ilk cəhd 1840-ci ildə İsaak Pitman tərəfindən Poçt məktubları vasitəsi ilə Birləşmiş Krallıqda tələbələrə stenoqrafiyanı öyrətməklə başlamışdır.

Azərbaycanda Distant təhsilin rəsmi yaranması 19 iyun 2009-cu il hesab olunur. "Təsil haqqında" Qanunun 13-cü maddəsinə əsasən Azərbaycanda təhsil almanın 4 forması mövcuddur. Bunlar əyani, qiyabi, distant (məsafəli) və eksternat (sərbəst) təhsil formalarıdır.

Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında Ali Məclisinin Sədri Cənab Vasif Talıbovun təşəbbüsü ilə 17 yanvar 2018-ci il tarixdə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzinin açılışı olmuşdur. Ali Məclisin sədri Vasif Talıbov demişdir: Naxçıvan Dövlət Universiteti yüksək ixtisaslı kadrların yetişdirilməsində müstəsna xidməti olan bir ali təhsil ocağıdır. Qeyd etmək yerinə düşərdi ki, ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsilin əsasının qoyulması Naxçıvan Dövlət Universitetinin dünya təhsil siteminə inteqrasiyasını daha da sürətləndirəcəyinə əyani sübutdur.

Təhsil hər bir millətin gələcəyidir deyən Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək: Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır. Zəngin maarifçılık ənənələrinin layiqli davamçısı olan bu universitet muxtar respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzidir. Fərəhli haldır ki, bu təhsil ocağının yetirmələri həm Naxçıvanın müxtəlif guşələrində, həm də onun hüdudlarından kənarda uğurla çalışırlar.

Ali təhsilli kadr yetişdirmək şübhəsiz ki, böyük təhsil, eyni zamanda böyük əmək tələb edir. Ali təhsil sahəsində çalışan hər bir şəxs fədakar insandır və onların əməyini həmişə xalq qiymətləndirir və ali təhsil ocaqlarında çalışan adamlara həmişə xalq arasında böyük hörmət və ehtiram var. Hələ 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə fəaliyyət göstərən 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tədbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə laiq görülmüşdür.

Hazırda Naxçıvan Dövlət Universiteti 58 ixtisas üzrə bakalavr təhsili 4 ixtisas üzrə (İngilis, Rus, Fransız, Alman dili) isə Distant Təhsil həyata keçirir. Naxçıvan Dövlət Universitetində Distant Təhsil almaq istəyən əcnəbi vətəndaşlar Universitetin ndu.edu.az portalına müraciət edərək "Distant təhsil" bölməsinə daxil olmalıdırlar. Vətəndaşlar burada distant təhsil haqqında məlumatlar və qəbul qaydaları ilə tanış olduqdan sonra tələb olunan sənədləri elektron formada Universitetə göndərilir və qeydiyyatdan keçən hər bir tələbəyə proqram tərəfindən fərdi identifikasiya nömrəsi verilir və ona şəxsi kabinet ayrılır. Bu da onu göstərir ki, tələbə məzun olduqdan sonra da öz istifadəçi adı və şifrəsi ilə sistemə daxil olmasına və təhsil sənədlərini əldə etməsinə imkan verir.

Çoxfunksiyalı təhsil sistemində dərslər offlayn və onlayn rejimdə tədrsi olunur. Tədris planları, ixtisaslar və müəllimlər haqqında məlumatlar sistemə yüklənmiş, müəllimlərin mühazirələrinin elektron variantı və video-dərslər hazırlanmışdır. Tələbəbələr əvvəlcədən dərs proqramları, müəllimlərin verdiyi tapşırıqlar və mühazirələrlə tanış olaraq həm offlayn həmdə onlayn rejimdə sual cavab apara bilərlər. Bununla yanaşı tələbələr arasında diskussiyalar təşkil etmək, onlayn sorğu və müzakirələr aparmaq mümkündür. Həmçinin tələbələr video və yazılı formada təqdim edilən dərsləri öz kompüterlərinə yükləmək və istənilən vaxt yararlanmaq imkanına da malikdirlər. Tələbələr bu təhsil sistemində istənilən ölkədən kompüter, mobil telefon və planşetlər vasitəsi ilə proqrama qoşulma imkanına malikdirlər. Distant təhsil üzrə məzunlara Azərbaycan və İngilis dillərində təhsili bitirmək haqqında elektron sertifikatlar təqdim olunur.

Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzində keçirilən dərslərin yaxşı mənimsənilməsi üçün Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının portalı da bu sistemə inteqrasiya olunmuşdur. Elektron kitabxanaya müraciət internet üzərindən həyata keçirilir.Kitabxana istifadəçilərinin əksəriyyəti kitabxanaya müraciət etmədən virtual kitabxana vasitəsilə kitabxana resurslarından daha çox və səmərəli istifadə edəcəkdir.Bu da onu göstərir ki, gələcəkdə tələbələrin böyük əksəriyyəti Distant təhsilə daha çox önəm verəcək və fiziki olaraq elektron kitabxanada olan çap materiallarının asan və surətli əldə edə biləcəklər.Elektron kitabxanalar öz istifadəçilərini zəruri olan informasiya ilə təmin etməli, İnformasiya Kommunika-siya Texnologiyalarının yeniliklərini kitabxanaya tətbiq etməli, təhsildə fürsət bərabərliyini yaratmalı, təhsil və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün kitabxana xidmətlərinin göstərilməsini və müasir İKT vasitələrinin tətbiqini həyata keçirilməlidir. Universitet Kitabxanasında da ənənəvi texnologiyalardan yeni İKT texnologiyalarına keçid dövrü hələ 1999-2000-ci illərdə başladı. İlk

olaraq kitabxanaçı kadrların hazırlanması sahəsində ilk addımlar atıldı. Buna görə də NDU kitabxanaçıları üçün xüsusi kompüter kursları təşkil edildi. ABŞ-da kitabxanaçılar üçün təşkil olunmuş beynəlxalq konfransda kitabxananın nümayəndəsi Zülfiyyə Məmmədova iştirak etmişdir. Həmçinin kitabxana əməkdaşları kitabxana proseslərinin avtomatlaşdırılması və digər mövzularda müxtəlif illərdə ABŞ, Rusiya, Türkiyə və Bakıda keçirilmiş bir sıra beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak etmişdir. Bugün heç şübhə etmirik ki, Distant təhsilin elektron çap materialları ilə təmin olunmasını qarşılayan, həm həcmcə, həm də Muxtar Respublikada ən böyük kitabxana olan  Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası təmin etmə imkanına malikdir. Kitabxana xidmətlərini web portala daşıyaraq elektron kitabxananın yaranması həm Naxçıvan Dövlət Universitetinə gələrək təhsil alan tələbələrin, həm portal üzərindən istifadə edən oxucuların, həm də Distant təhsil alan tələbələrin kitabxanadan istifadə imkanını təmin edir.Bu gün ənənəvi və ya Distant təhsil alan oxucular istədikləri hər hansı bir yerdən internet vasitəsilə kitabxana portalına daxil ola bilər, kitabxana hüquqları çərçivəsində istədikləri çap materialından istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1.Salamlı.S. Elektron məlumat bazasının yaradılması və virtual xidmətlər. Metodik tövsiyə. B., M.F.Axundzadə adına Milli Kitabxana, 2012, 46 s

2. Rzayev S.M. Kitabxana Xidməti.-B., “Baki Universiteti” nəşriyyatı, 2008, 333 s

3. http://referat.ilkaddimlar.com

4. az.wikipedia.org


## ABSTRACT


**PERSPECTIVES OF DISTANCE EDUCATION AND INTEGRATION OF ELECTRONIC LIBRARY INTO THIS EDUCATIONAL SYSTEM AT NAKHCHIVAN STATE UNIVERSITY**

The article deals with the distance leaming system, comparison of remote education with the traditional education system, the history of distant education, as well as, the opening of the Distant Leaming Center at Nakhchivan State University for the first time in Azerbaijan. It also explains the use of this educational system by students and integration of electronic library of Nakhchivan State University into this educational system. The article explains how students of both distance education and traditional education systems are provided with the opportunity to access any of the printed materials included in the library portal


## РЕЗЮМЕ


**ПЕРСПЕКТИВЫ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В НАХЧЫВАНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ И ИНТЕГРАЦИЯ ЭЛЕКТРОННОЙ БИБЛИОТЕКИ В ЭТУ СИСТЕМУ**

В статье рассматриваются такие проблемы, как проблема системы дистанционного образования, сравнения дистанционного образования с традиционным образованием, истории образования дистанционного образования. Автор статьи ведет речь о впервые в Азербайджане открытом Центре Дистанционного образования в Нахчыванском Государственном Университете, об использовании студентов этой системой образования, интеграции данной системе образования электронной библиотеки Нахчыванского Государственного Университета, а также о возможностях использования студентами традиционного и дистанционного образования, которые будут входить в данный портал библиотеки с целью изучения необходимых литератур по их специальности.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**VİDADİ SALMANOV**
**KÖNÜL SALMANOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:13**

# EKOLOGİYA VƏ MƏNƏVİYYAT

**Açar sözlər:** *ətraf mühit, cəmiyyət, təbiət, müharibə, vandalism, şüur, mədəniyyət*
**Keys word:** *environment, society, nature, vandalism, consciousness, culture*
**Ключевые слова:** *окружающая среда, общество, природа, война, вандализм, сознание, культура*

Yer kürəsinin maddi aləminin əsas tərkib hissələri insan və təbiətdir. Təbiət insan şüurundan asılı olmayaraq zaman və məkan daxilində mövcud olan sonsuz bir varlıqdır. Təbiət həm insanın yaşamasını təmin edən vasitə, həm də onun fəaliyyəti, eləcə də mövcud olması üçün əsas şəraitdir, mühitdir. İnsan öz növbəsində yalnız bioloji növ olmayıb, cəmiyyətin inkişaf qanunları əsasında mövcud olan sosioloji varlıqdır. İnsanın bütün varlığı, yaşayışı, məişəti və həyat tərzi ətraf mühit, onun tərkib hissələri və amilləri (torpaq, su, hava, mikro və makrofauna və flora, kosmik və Günəş şüaları, biosfer və onun bütün amilləri) ilə əlaqədar olmaqla, bilavasitə onlardan asılıdır.

Ətraf mühit dedikdə insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusundan ibarətdir və onun mühafizəsi bəşəriyyətin ən əhəmiyyətli problemidir. Təbii ətraf mühit amilləri insanı həmişə özündən asılı vəziyyətə salmış və onunla dialektik vəhdət təşkil etmişdir. Bu amillər insanın yaşamasında, uzun ömür sürməsində, sağlamlığında, bir bioloji varlıq kimi fomalaşmasında və ümumi inkişafında çox böyük rol oynayır. Ətraf mühit amilləri həm də insanın əsas bioloji və sosial iqtisadi tələblərinin ödənilməsini təmin edən ən başlıca mənbələr sayılır. Hələ qədim dövrlərdə insanlar zərərli və təhlükəli ünsürlərdən özlərini mühafizə etmək məqsədilə təbii ətraf mühit amillərindən geniş istifadə etmişlər. Bu amillər həm də insanları sığınacaq, yaşayış vasitəsi, yeyinti məhsulları, dərman maddələri, geyim və əmək alətləri ilə təmin edən xammal mənbələri hesab olunur. Həmin xammal mənbələri müharibə və münaqişələrin yaranmasının əsas səbəbi olmuşdur.

Deyilənlərlə yanaşı dünya ekoloji mühitinin korlanması bəşər insanını dərindən düşünməyə vadar edir. Vaxt keçdikcə insanlar dərk edirlər ki, təbii ehtiyatlara qeyri-elmi münasibət, havanın, suyun, torpağın çirkləndirilməsi insanın özünün sağlamlığı və yaşayışı əleyhinə yönəlmiş bir fəaliyyətdir. Bildiyimiz kimi, ölkəmiz gözəl təbii şəraitə, zəngin təbii sərvətlərə, inkişafda olan sənaye sahələrinə malik olan bir dövlətdir. Ətraf mühitin tərkib hissələri bəşəriyyətin inkişaf tarixinin bütün mərhələlərində insanın antropogen təsirlərinə məruz qaldığı üçün get-gedə özünün təbii mövcudluğunu itirmiş və ekoloji disbalans hökmranlıq etmişdir. Həmin ekoloji disbalansın yaranmasında, təbiətin normal ahənginin pozulmasında və ətraf mühitin çirklənməsində müharibələr və milli etnik münaqişələr müstəsna rol oynamışdır.

İnsan yer üzərində yarandıqdan sonra müxtəlif silah növlərilə saysız- hesabsız müharibələr etmişlər. Bu müharibələr əsas etibarilə torpaq tutmaq, təbii sərvətlərə yiyələnmək, ərazi genişləndirmək, din və ərazi ayrı-seçkilikləri əldə etmək və s. səbəblərdən baş vermişdir. Təkcə XX əsri götürsək həmin əsrin I yarısında iki dünya müharibəsi tarixdə misli görünməmiş təbii, ekoloji, siyasi və iqtisadi nəticələrilə tarixə düşmüşdür. II Dünya müharibəsində bəşəriyyətin bu vaxta kimi görmədiyi silah və sursatdan istifadə edilmişdir. Görünür elə bu aramsız müharibələr, kütləvi xəstəliklər, irili-xırdalı müxtəlif dağıdıcı təbii hadisələr (vulkan püskürmələri, zəlzələlər, sellər, okeanlarda sunami dalğaları, fırtınalar, qasırğalar, tornado, səhralaşma kimi problemlər) hər bir ictimai formasiyada özünəməxsusluğu ilə seçilmiş və öz təsirini göstərmişdir.

Həm dünya müharibələri, həm də milli etnik münaqişələr zamanı təbiətə, onun sərvətlərinə ağır zərbələr vurulmuş və neqativ ekoloji təsir göstərmişdir. Ümumiyyətlə, müharibələr və etnik münaqişələr təbiətə çox böyük dağıdıcı təsir göstərməklə, torpağın, suyun və havanın tozlarla, tüstü və kimyəvi zəhərli maddələrlə çirklənməsilə insan sağlamlığına çox güclü neqativ təsir göstərmiş və cəmiyyətin ümumi inkişafına ciddi maneçilik törətmişdir. Müharibələr zamanı xeyli insan tələfatı olmuş, insanların sağlamlığına güclü neqativ zərbə endirilmiş, xəstəliklərin sayı, uşaq ölümü və ölü uşaqların doğulması artmış, anomaliya halları çoxalmış və bəşəriyyətin ümumi inkişafının ləngiməsinə, normal ahənginin pozulmasına zəmin yaradılmışdır.

Lokal ekoloji müharibələr həmişə daha güclü dağıdıcı, bərpa olunmayan, yaxud çox, çətinliklə bərpa olunan aşağıdakı ekoloji təzadlara səbəb olur: tükənən və bərpa olunmayan enerjiresurslarının - neft, onun məhsulları, təbii qaz, oduncaq, kömürün normadan çox istismarı və istifadə olunması nəticəsində ətraf mühit güclü çirklənməyə məruz qalır; bombaların partlaması nəticəsində torpaqda dərin çatlar, yarğanlar əmələ gəlir, ərazinin təbii relyefi və coğrafi mövqeyi pozulur, torpaqlar eroziyalaşır, təsərrüfat əhəmiyyətinin itirir; müharibə gedən və ona qonşu olan ərazilərdə ətraf mühit güclü təsirə malik olan kimyəvi zəhərləyici maddələrlə çirklənir; müharibə zamanı ekosistemlərə çox ciddi zərər vurulur; quruda və dənizdə minalar, kimyəvi zəhərli maddələrlə dolu olan partlamamış mərmilər ərazidə məskunlaşan insanların kütləvi ölümünə səbəb olur və s.

Müharibələrin və etnik münaqişələrin təbiətə, ətraf mühit amillərinə və təbii sərvətlərə vurduğu ağır ekoloji zərbələrin neqativ nəticələri dünya alimlərini «ekoloji müharibə», «ekoloji terrorizm», «meteoroloji müharibə», «geofiziki müharibə», «biosid» - bioloji varlıqların, flora və faunanın nəslinin kəsilməsi və s. kimi beynəlxalq terminləri etiraf və şərh etməyə məcbur etmişdir. «Ekoloji müharibə» termini əsasən Vyetnamda gedən müharibənin ölkə ərazisində və qonşu ərazilərdə ətraf mühitə göstərilən çox güclü ekoloji zərbədən sonra dünya ekoloqları tərəfindən işlənməyə başlamış və hazırda ekoloji aləmdə ilkin yerlərdən birini tutur. Ekoloji müharibələr, bir qayda olaraq, ərazinin səhralaşması və xarabalığa çevrilməsi ilə nəticələnir. Bakterioloji və kimyəvi qırğın silahlarından istifadə edilməsi, onların sınaqdan keçirilməsi və heyvanlar üzərində ekspermentlərin aparılması ətraf mühiti, xüsusilə torpaqları, su mənbələrini və havanı patogen mikroorqanizmlər və zərərli kimyəvi maddələrlə çirkləndirir, dəhşətli epidemiya və epizootiyalar başlayır.

Müharibələr bəşəriyyətə ölüm, fəlakət və dağıntı gətirdiyi üçün onun qarşısının alınması həmişə çox mühüm dünyagörüşü və fəlsəfi- qlobal problem olmuşdur. Qədim Yunan filosofu Heraklit ədalətsiz müharibələrə qarşı çıxaraq demişdir: “Müharibə, hər şeyin allahı və hər şeyin şahidir... O, birini qul, digərini isə ağa, azad insan edir”.

Müharibələr zamanı atom (nüvə) bombalarından istifadə olunması cəmiyyətin inkişafının normal ahəngini pozan və bəşəriyyətin tarixi yaddaşına qara hərflərlə həkk olunan, heç zaman yaddaşlardan silinməyən, unudulmayan fəlakət kimi dəyərləndirilməlidir. Atom (nüvə) silahı zəncirvari nüvə reaksiyaları zamanı qapalı mühitdə kütləvi miqdarda ayrılan nüvədaxili enerjinin hesabına yaranan partlayış törədən silahlar olmaqla, bu zaman maddənin kütlə vahidindən ayrılan enerji adi partlayıcı maddənin yaratdığı enerjidən 20-80 mln dəfə çox olur. Atom partlayışı radiasiya, işıqlanma, zərbə dalğası, elektromaqnit dalğası və zəhərləyici təsirinə görə digər bombalardan çox böyük gücə malikdir. Bu növ silahlardan kütləvi qırğın məqsədilə, xüsusilə əsas hərbi hissələrin və silahların kütləvi surətdə toplandığı əraziləri, raket bazalarını, inzibati mərkəzləri, sənaye obyektlərini dağıtmaq, ətraf mühiti zəhərlənmək, çox güclü yanğınlar törətmək və s. məqsədilə istifadə olunur. Bu zaman insanlar olduqca güclü neqativ psixoloji və mənəvi təsirlərə məruz qalır, ağır stresslər keçirir.

Bəşəriyyət tarixində qara səhifə kimi həkk olunan ən dəhşətli hadisələrdən biri, həm də insanlığa xas olmayanı, vəhşi, qəddar, dağıdıcı olması ilə səciyyələnən və heç vaxt unudulmayan vandalizmdir. «Vandalizm» almanca «vandal», «barbar» sözündən götürülməklə vəhşilik, mədəniyyətsizlik, talançılıq mənasını daşıyaraq tarixi, çox qiymətli təbiət və mədəniyyət abidələrini uçurub-dağıdan, məhv edən, vəhşi və qəddarlıq deməkdir. Özünün vəhşilik dərəcəsinə görə Ermənistanın və erməni daşnaklarının Azərbaycana qarşı dəfələrlə həyata keçirdiyi vandalizm

aksiyaları bütün bu kimi hadisələri kölgədə qoyur. Mənfur erməni vandalları dəfələrlə Azərbaycana qarşı məkrli, ədalətsiz, düşmənçilik və vandalizm siyasətini həyata keçirmişdir. Belə ki, məkrli ermənilər xarici havadarlarının köməyi ilə 1991-1993-cü illərdə işğal etdikləri Azərbaycanın ərazilərində vandalizm törətmişlər. Ermənilər işğal olunmuş ərazilərdəki bütün tarixi abidələri, mədəniyyət mərkəzlərini və qəbiristanlıqları tamamilə dağıtmış, oradakı qiymətli materialları, hətta məzarların mərmər daşlarını, tikinti materiallarını qarət və talan etmişlər. Bununla kifayətlənməyən düşmən işğal olunmuş ərazilərdəki meşələri, qiymətli ağacları həm talan etmiş, həm də vəhşicəsinə yandıraraq Azərbaycanın təbiətinə, maddi sərvətlərinə və ekoloji durumuna böyük zərbə vurmuşdur. Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş ərazilərində onların ekoloji duruma və maddi sərvətlərə vurduqları analoqu olmayan zərbələri yalnız ekoloji terrorizm, soyqırım, ekosid və vandalizm kimi qiymətləndirmək olar. Ermənilərin 26 fevral 1992-ci ildə Xocalı şəhərinin dinc sakinlərinə və şəhərə tutduğu divan bütün beynəlxalq arenada analoqu olmayan vandalizm kimi qiymətləndirilir. Onlar qışın çox soyuq, qarlı-şaxtalı gecəsinin zülmət qaranlığında öz havadarlarının hərbi köməyi ilə Xocalını xarabalığa çevirərək dinc, günahsız əhaliyə qarşı vandal-barbar siyasəti yeritmiş, qadınlara, qocalara, körpə uşaqlara bəşər tarixində görünməmiş işgəncələr vermiş və onları güllə-borana tutmuşlar. Bu tarixi faciəni unutmağa bizim heç birimizin, bütövlükdə isə bütün türk dünyasının mənəvi haqqı yoxdur. Erməni vandalizminə məruz qalan təkcə tarixi və mədəni abidələrimiz deyil, həm də işğal olunmuş ərazinin ekoloji durumu və təbii ətraf mühit abidələridir. Təbiətə, onun yeraltı və yerüstü sərvətlərinə, biosferə, ekosistemlərə göstərilən vandalizmin fəsadları isə daha ağır olur. Çünki ekoloji vandalizm təbiətin, ətraf mühitin və onun amillərinin-toıpaq, su, hava, flora, fauna və s. normal ahənginin pozulması, onların dayanıqlığının itməsi, davamlı inkişafı üçün yararlığını itirməsi, bir sözlə, xarabalığa çevrilməsi, dağıdılması ilə səciyyələnir.

Hazırda işğal olunmuş ərazilərdə məskunlaşmış ermənilər böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyətini talan, məhv etmiş və xarabalığa çevirmişlər. Kəlbəcər rayonunda «Qırmızı kitab»a daxil edilmiş ağacları da kütləvi şəkildə qıraraq xaricə satırlar. İşğal olunmuş ərazidə 4 mindən artıq müxtəlif növ bitki vardır ki, bunlardan 200-ə qədəri dərman bitkiləri olmaqla, onlar da xarici şirkətlər tərəfindən kütləvi şəkildə talan olunaraq xarici ölkələrə daşınır. Bu isə bitkilərin həmin ərazilərdə kökünün kəsilməsinə səbəb olur. Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1365 m hündürlükdə yerləşən, Titon yaşlı əhəng daşlarından ibarət uzunluğu 114 metr olan «Xan Mağarası» mühafizə olunurdu. Ayrı-ayrı mənbələrdən alınan məlumatlara görə, həmin abidələr amansızlıqla məhv edilir və digər məqsədlər üçün istifadə olunur.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 1,7 milyon hektar ərazisi işğal olunmuşdur. Məlum olduğu kimi işğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən; 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 misar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum- çınqıl, 5 tikinti qumu, 9 gips, 14 əlvan və bəzək daşları, 11 şirin yeraltı su və 10 mineral su yataqları və s. yerləşir ki, bu da ölkəmizin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edirdi. İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən həddindən artıq çirklənməyə məruz qalmaqdadır. Ermənilər tərəfindən işğal olunmuş Azərbaycan rayonlarının ərazilərindəki meşəliklər, təbii kolluqlar, otlaq və biçənək sahələri hər il mütəmadi olaraq düşünülmüş şəkildə od vurularaq yandırılmış, təsərrüfat əhəmiyyətini itirmiş və yararsız vəziyyətə salınmışdır.

Yuxarıda deyilənlərə baxmayaraq çox acınacaqlı haldır ki, meşələrin qırılması, yaş odunun daşınması regionlarımızda da baş verir. Meşələr və yaşıllıqları qıran hər bir kəs kimliyindən asılı olmayaraq, cinayət məsuliyyətinə cəlb edilməli, cəzalandırılmalıdır.

Müasir dövrdə Azərbaycanın ekologiyasının tənzimlənməsində bir sıra mühüm problemlər mövcuddur və bu problemləri vaxtında aradan qaldırılmaq gərəkdir. Azərbaycanın füsunkar təbiəti vardır və bu təbiətin qorunması, insanların sağlam olması ekoloji biliklərdən asılıdır. İnsan ekologiyası insan– təbiət– cəmiyyət münasibətlərində təbiətin insana təsirlərinin metodoloji cəhətlərini öyrənir. Ekoloji biliklər sistemi məntiqli şəkildə təxirə salınmadan inkişaf etdirilməlidir. Ekoloji mədəniyyətin bərqərar olunması yüksək sivilizasiyalı cəmiyyətin formalaşması deməkdir.

Təbiətə əxlaqi münasibət cəmiyyət hadisələrindən kənar tərbiyələndirilə bilməz. Buna görə də ekoloji biliklərin təbliği sistemli şəkildə gətirilməlidir. Müasir dövrdə təbiətdən iqtisadi prinsiplərlə istifadə ehtiyacının artması insandan bütün şüurlu ömrü boyu çox vacib ekoloji tərbiyə məsələlərini həll etməyi tələb edir. İnsanda qənaətçilik və şəxsi məsuliyyət hissinin artması təbiətə exlaqi münasibəti qüvvətləndirən keyfiyyətlərdir. Təbiətə əxlaqi münasibət ondan istifadə ilə düz mütənasibdir.

Həyatın mənasını dərk etmək cəhdi elə mədəniyyətdir. Ekoloji mədəniyyət insanın təbiətlə konkret qarşılıqlı münasibətini qurmaq üçün həyata keçirdiyi müəyyən proqramdır. Ekoloji mədəniyyət probleminin həll olunması bir çox səbəblər üzündən əsaslı real həqiqətdir. Onun həllini çətinləşdirən ən mühüm səbəb kimi ekoloji savadsızlığın mövcudluğu fakt kimi qarşımızda durur

Artıq ana təbiət fəryad qoparıb həyəcan təbili çaldığı bir dövrdə ekoloji savadsızlığın ləğvi vacib bir məsələdir. Böyükdən kiçiyə qədər hamının bu işə cəlb olunması lazımdır. Orta məktəblərdə «Meşə -mənim dostumdur», «Təbiəti sevək və qoruyaq», « Təbiət hamımızın ümumi evidir» və s. mövzularda tədbirlər, aksiyalar keçirməklə şagirdlərdə təbiətə, onun sərvətlərinə, ətraf mühitin qorunmasına humanist münasibət yaratmaqdır. Və bu tədbirlərin məktəb vaxtında keçirilməsi belə özü də artıq gecikmiş haldır. Ekoloji tərbiyə, onun mədəniyyətinin formalaşmasına lap erkən, uşaq ətraf mühiti duyub anladığı vaxtdan başlamaq daha düzgün olardı.

Ekoloji biliklərin təbliği ümumi əxlaq və mədəniyyəti zənginləşdirmək məqsədi güdməli, ailə– bağça– ibtidai məktəb– orta məktəb– ali məktəb bütün sonrakı şüurlu həyat boyu prinsipi ilə qurulmalıdır. Ekoloji mədəniyyət təbiəti, insanın özünü mühafizə etməsi üçün zəruri şərt kimi təbii surətdə meydana gələn həyatı təmin etmə mexanizmi kimi eks etdirir.

Təbiətin mühafizəsi sahəsində gənc nəslin mənəvi məsuliyyəti bütövlükdə həyatın qorunmasına aid olan mənəvi məsuliyyətdir. Ona görə də gənc nəsli təbiətə məhəbbət ruhunda tərbiyə etmək qarşımızda duran ən mühüm vəzifədir. Təbiətə insani münasibətləri, əxlaqi cəhətləri gənc nəsildə formalaşdırmaq üçün bu müsbət əxlaqi cəhətləri vərdiş halına salmaq, tərbiyə etmək vacibdir. Və eləcə də ailə hər zaman gənc nəslin ekoloji baxışlarının möhkəmlənməsinə yaxından iştirak etməlidir. Məktəb şagirdlərinin ekoloji təsəvvürlərinin və əməllərinin inkişafına geniş şərait yaradılmalı, onun yalnız müşahidəçisi yox, hökmən iştirakçısı olmağını da təmin etməlidirlər. Elmi–texniki tərəqqi əsrində yaşayan və işləyən hər bir adama təbiətin qorunması, onun sərvətlərindən qənaətçiliklə istifadə edilməsi və s. anlayışların dərk etdirilməsinə lap erkən yaşlardan başlanmalıdır.

Məşhur ingilis ekoloqu Marston «Meşə və dəniz» kitabında yazır ki, mən heç cür təsəvvürümə gətirə bilmirəm ki, təbiəti korlayıb, cılız xudbin ve süni mühitlə əhatə olunan insan özünü nə dərəcədə azad və təhlükəsiz hiss edəcək. İnsan zəkası, onun imkanı hüdudsuzdur. Təbiətin ayrılmaz hissəsi insanlar tərəfindən sağ qalmaq üçün bütün canlı aləmi qorumalıdır ki, özləri də məhv olmasınlar.

Bildiyimiz kimi, 1993-cü il aprelin 2-də ümummilli liderimiz Heydər Əliyevin qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirləri bu gün bütün ölkə ərazisində davam etdirilir. Bu gün Naxçıvan Muxtar Respublikasında da təbiətə qayğı ilə yanaşılır. Hər il baharın gəlişi xalqımızın min illər ərzində formalaşmış adət-ənənələrinə uyğun olaraq ağaclar əkilir, abadlıq işləri aparılır, səliqə-sahman yaratmaqla qarşılanır. Təbiətin oyandığı ilk günlərdən iməciliklər keçirilir, yeni meyvə bağları salınır, mövsümə uyğun tədbirlər görülür. Doğma diyarımızda keçirilən iməciliklər, təbiətin qorunması və yaşıllıqların genişləndirilməsi sahəsində görülən işlərin özü də sağlam ekoloji mühitin yaradılmasına xidmət edir. Belə ki, bu ilin yaz əkini mövsümündə muxtar respublikamızda 170 hektardan artıq sahədə meyvə bağı və yaşıllıq zolaqları salınmışdır. Sevindirici və qürürverici haldır ki, cənab Vasif Talıbov da həmin iməciliklərdə iştirak etmiş və ekoloji vəziyyətimizin yaxşılaşmasına dair müxtəlif tapşırıqlar vermişdir.

Biz hamımız Yer kürəsinin sakinləri olub bu torpaqda yaşayırıq və bizim müqəddəs borcumuz yaşadığımız planeti qorumaqdır. Yalnız belə şəraitdə ana təbiətin gözəlliklərinə sahib olmaq olar. Əks halda normal insan həyatı haqqında belə düşünmək olmaz. Bu gün hər birimizin zibil səbəti üçün istifadə etdiyimiz kiçik sahə sabahkı adam üçün həyat ərazisi hesab oluna bilər. (Y.Odum)

## ƏDƏBİYYAT


1. Şərq qapısı qəzeti, 03 may 2018
2. Salmanov M.Э. Ekologiya və biz. B.: 1989, s.180.
3. Abbasova E.M. - İnsan ekologiyası; biloji və sosioloji aspektlər, Monoqrafiya, Bakı, Elm-Təhsil, 2005 Dərslik, Bakı, BDU, 2006
4. Mustafayev S. İnsan. Sosial həyat. Sağlamlıq. B.: Elm, 1998
5. Quliyev B.Ş. Müharibə və ekologiya. Bakı – 2004, 106 s.
6. Философия и современная биология / Под ред. И.Т.Фролова. М.: 1973. с. 137
7. Məmmədov Q.Ş.,Xəlilov M.Y. -Ekologiya, ətraf mühit və insan. Dərslik, Bakı, "Elm,2006
8. http://www.virtualkarabakh.az/



## ABSTRACT

## ECOLOGY AND MORALITY

The arnicle tells interesting edeas about man and nature, which are the main ingredient of the material world. The degradation of the world's ecological environment forces people to think deeply. People should realize that non-scientific attitudes toward natural resources, air pollution, water pollution, and soil pollution are the activities directed against human health and life. During both world wars and ethnic conflicts, nature and its wealth have been heavily damaged and have a negative environmental impact. In general,wars and ethnic conflicts have a profound impact on nature, and pollution of soil, water and air with pollutants, smoke, and toxic substances has a very strong negative effect on human health and has been reported to have seriously impeded the overall development of society.



## РЕЗЮМЕ

## ЕКОЛОГИЯ И НРАВСТВЕННОСТЬ

В статье рассказывается интересные идеи о человеке и природе, которые являются основным ингредиентом материального мира. Деградация экологической среды в мире заставляет людей глубоко задуматься. Люди должны понимать, что ненаучные отношения к природным ресурсам, загрязнение воздуха, загрязнение воды и загрязнение почвы - это мероприятия, направленные против здоровья и жизни человека. Во время мировых войн и этнических конфликтов природа и богатство были сильно повреждены и имеют негативное воздействие на окружающую среду. В целом войны и этнические конфликты оказывают глубокое негативное воздействие на природу загрязнения почвы, воды и воздуха пылью, дымом и химическими токсичными веществами и, как сообщается, серьезно затрудняют общее развитие общества.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**ƏLİ HƏSƏNOV**
**ÜLVİYYƏ İSGƏNDƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
**HƏSƏN HƏSƏNOV**
**RÖYA MƏMMƏDOVA**
*Heydər Əliyev adına məktəb*

**UOT:37**

# KURİKULUM İSLAHATINDA MOTİVASİYANIN APARILMASININ METODİKASI

**Açar sözlər**:*Təhsil islahatı, motivasiya, tədqiqat sualı, yönəldici suallar*
**Key words:** *Education reform, motivation, research question, directing questions*
**Ключевые слова**: *реформа образования, мотивация, исследовательский вопрос, вспомогательные вопросы*

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikasında təhsil islahatlarının keçirilməsinə böyük ehtiyac yarandı. Müstəqillik dövründə artıq ənənəvi metodika ilə işləmək bir sıra sahələrdə çətinliklər yaradırdı. Ona görə də təhsil islahatlarının keçirilməsi zərurəti yaranırdı. Azərbaycan Respublikası prezidenti H. Əliyevin 1998-ci ilin 30 mart tarixli Sərəncamı ilə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradılmışdır. Komissiyanın hazırladığı “Azərbaycan Respublikasının təhsil sahəsində İslahatlar Proqramı” 15 iyun 1999 – ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bu proqram Azərbaycan Respublikasında təhsil islahatının əsasını qoydu. İslahatın həyata keçirilməsi üçün 1999 – cu ilin 29 iyununda Dünya Bankının Beynəlxalq İnkişaf Assosasiyası arasında “İnkişaf üçün kredit haqqında saziş” imzalanmış və bu sənəd dövlət başçısının Sərəncamı ilə təsdiq edilmişdir (2, səh. 22).Təhsil islahatlarının həyata keçirilməsi 3 mərhələdə: 2001-2003, 2004-2008 və 2009-2013-cü illərdə nəzərdə tutulmuşdur. İslahatların proqramına uyğun olaraq 2007- ci ildən kurikulum islahatları tətbiq edilməyə başlanıldı (7, səh. 59)

Qeyd etmək lazımdır ki, təhsil islahatları dövrün tələbindən irəli gəlirdi. İslahatlara qədər olan metodika, yəni ənənəvi metodika sosialist sisteminin tələblərinə uyğun yaradılmışdır və onun məqsədinə xidmət edirdi. Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, bazar iqtisadiyyatı yolunu seçməsi, həyata keçirilən islahatlar və s. amillər artıq ənənəvi metodika ilə işləməyə uyğun gəlmirdi. Zəruriyyət yaranırdı ki, bazisə uyğun olaraq üstqurum dəyişilsin. Ona görə də respublikamızda geniş miqyaslı təhsil islahatlarına başlanıldı. İslahatın tətbiqi üçün ilk növbədə ibtidai sinif müəllimlərinə 5 günlük seminarlar keçirildi. Sonrakı illərdə bir həftəlik müəllim hazırlığı kursları təşkil edildi ki, bununla da islahatın həyata keçirilməsi üçün yerlərdə kadrlar hazırlanıldı (7, səh. 58).

Qeyd etmək istəyirəm ki, belə bir böyük islahatı həyata keçirəcək kadrlar bir həftəyə bu sistemi öyrənməli oldular. Ona görə də bu sistem haqqında müəllimlərdə bir o qədər də geniş məlumatlar olmadı. İstər təhsil işçiləri, istərsə də bu islahatları həyata keçirən müəllimlər çətinlik qarşısında qaldılar. Bir növü kurikulum islahatı məsələsi çox problemli məsələ kimi onların qarşısında dururdu. İndinin özündə də bir çox müəllim kurikulum islahatının ləğv olunacağı haqqında ideyalar irəli sürürlər. Nəzərə almaq lazımdır ki, bu islahatlar ləğv olunmayacaq, əksinə inkişaf fasiləsiz olduğundan bu islahatlar daha da dərinləşəcək və biz dünya metodikasındakı yeniliklərdən bəhrələnərək onları öz işimizdə tətbiq edəcəyik. Ona görə də kurikulum islahatları dərindən öyrənilməli və ondan səmərəli istifadə yolları tapılmalıdır.

Bir şeyi qeyd etmək istəyirəm ki, son vaxtlar dilimizin təmizliyi haqqında bəzi çıxışlar olur. Mən qeyd etmək istəyirəm ki, kurikulum islahatları ilə əlaqədar olaraq dilimizə çoxlu kənar sözlər daxil olmuşdur. Tədricən bu sözlərin qarşılığı tapılıb dəyişilməli – dilimiz saflaşmalıdır. Məs. motivasiya sözü

sübutlar, dəlillər, səbəblər deməkdir (8, səh.102). İcmallarda motivasiya sözünün əvəzinə sadəcə olaraq dərsin gedişi yazılması kifayətdir. Bunun kimi digər alınma sözlər də əvəzlənməlidir.

Müəllimlərimizin çətinlik çəkdiyi məsələ Motivasiya- yəni problemin qoyuluşudur (10). Motivasiya elə dərsin gedişidir. Kurikulum islahatlarına aid ədəbiyyatlarda Motivasiyaya 10 dəqiqəyədək vaxt verilir. Qeyd etmək lazımdır ki, bir qrup metodistlər, bu sahə ilə məşğul olanlar qeyd edirlər ki, kurikulum islahatında müəllim passivdir-istiqamətvericidir. Şagird isə aktivdir. Bəs motivasiya üçün ayrılmış vaxt ərzində proses nə cür getməlidir. Kurikuluma aid ədəbiyyatlarda qeyd edilir ki, motivasiyanın gedişində müəllim ilk növbədə problemin qoyuluşunu qeyd etməlidir. Problem nədir. Nəzərə alsaq ki, bizim dərsimiz hansı mövzu üzərində qurulacaq elə bu bizim qarşıya qoyacağımız problemdir. Yəni alt standartda qeyd edilən mövzunun adını müəllim lövhədə yazır və şagirdlərə izah edir ki, bizim öyrənəcəyimiz, üzərində tədqiqat aparacağımız mövzu budur.

Metodistlər, didaktiklər qeyd edirlər ki, müəllim yeni mövzunu izah edərkən şagirdlərin keçmiş biliklərinə əsaslanmalıdırlar. Keçmiş biliklərin müəyyən edilməsi üçün şagirdlər sual-cavab edilməlidir. Müəllim sinfin keçmiş biliklərinin səviyyəsini müəyyən etdikdən sonra yeni materialı hansı səviyyədə izah edəcəyini müəyyənləşdirir.

Ənənəvi metodikada bu sinfin fəallaşdırılması kimi qəbul edilmişdir. Tədris işində çalışanlar bu prosesi əks-əlaqə adlandırırlar və geniş istifadə edirlər. Əks-əlaqə yaradıldıqdan sonra müəllim yeni dərsə maraq yaratmaq, şagirdlərin diqqətini izahata cəlb etmək üçün problem-situsiya üsulundan istifadə edirdi.Yəni qarşıya elə suallar qoyulurdu ki, şagirdlərin diqqəti dərsə cəlb edilsin. Kurikulum islahatlarında isə bu vəziyyət yönəldici suallar kimi qeyd edilir (10). Yəni problemli sualın həll edilməsi üçün bir neçə istiqamətverici sual yazılır. Pedaqoji baxımdan motivasiya psixoloji amil olub şagirdin təlim fəaliyyəti mexanizmasını hərəkətə gətirən qüvvədir. Problem şagirdin idrak fəaliyyətini artırır, yəni şagirdin düşünmə aparatını işə salır. Motivasiya fəal dərsin başlanğıc mərhələsidir. Müəllim motivasiyanı düz qurubsa dərsin əsas hissəsini yerinə yetirmiş olur. Motivasiya iki prinsip əsasında qurulur (10).

Problemlilik (10). Problem qoyularkən burada müəllimin dərsdə şagirlərə nə öyrədəcəyini qarşısına qoyduğu məqsədləri nəzərə almalıdır. Ona görə ilk istiqamət problemlilikdir. Ənənəvi metodikada problemli vəziyyət yaradılırdı ki, şagird dərsə yaxşı qulaq assın, izahatı diqqətlə dinləsin. Kurikulum islahatlarında isə problemli şərait yaradılır ki, şagirdin diqqəti ancaq problemli məsələnin araşdırılmasına yönəldilsin. Ona görədə tədqiqat sualı elə seçilməlidir ki, şagirdin idrak fəaliyyəti problemin həllinə yönəlsin. Müəllim çalışmalıdır ki, şagirdin fəallaşdırılmış idrak fəaliyyətinə rəhbərlik etsin. Əks təqdirdə müəllim məqsədinə nail ola bilməz

İkincisi məqsədyönümlülükdür (10). Tədqiqat sualı qoyularkən müəllimin məqsədinə uyğunlaşdırılmalıdır. Çünki müəllimin məqsədi bu tədqiqat sualı vasitəsi ilə həyata keçiriləcəkdir Ona görə də tədqiqat sualı müəllimin məqsədinə xidmət etməlidir.

Yönəldici suallar isə tədqiqat sualının reallaşmasına kömək edici olmalıdır. Tədqiqat sualı problemlilik prinsipini reallaşdırır. Biz tədqiqat sualının və yönəldici sualların qoyuluşuna misallarla baxaq. Fərz edək ki, bizim alt standartımız " Günəş sistemi planetləri " mövzusudur. Bu mövzuya tədqiqat sualının aşağıdakı kimi qoyulması məqsədə uyğun olardı:

1. Günəş sistemi planetləri və onların əsas xüsusiyyətləri

Yönəldici suallar:

1. Günəş sisteminin planetləri hansılardır ?
2. Günəş sistemi planetləri hansı qruplara bölünür ?
3. Bu qrupların oxşar və fərqli xüsusiyyətləri hansılardır.

Tədqiqat sualı haqqında izahat verərkən müəllim dərsin tipini, induktiv və yaxud da deduktiv dərs tipindən istifadə etdiyini yaddan çıxarmamalıdır.

Müəllim dərs müddətindən səmərəli istifadə etməsi üçün daha yaxşı olar ki, bu suallar videomaterial halında ekrana salınsın və müəllim tədqiqat sualını yazarkən izahat versin. Məs: Müəllim belə bir izahatla dərsə başlaya bilər.Uşaqlar biz bu günkü dərsimizdə sizinlə səma cisimləri içərisində bizim üçün ən maraqlısı olan "Günəş sistemi planetləri" mövzusunu öyrənəcəyik. Gəlin görək günəş sistemi nədir, bu sistemə hansı göy cisimləri daxildir, bu planetlər hansı xüsusiyyətlərə malikdir, onların oxşar və fərqli xüsusiyyətləri hansılardır". Bu giriş sözündən sonra yaxşı olar ki,

müəllim hazırladığı videomaterialı və yaxudda hazırladığı slaydda günəş sisteminin şəklini ekrana salsın. Müəllim bu slayd üzərində müəyyən məlumatlar verməlidir. Hansı ki, təlimin məqsədində nəzərdə tutulubdur. Planetlərin adlarını saymalı, daxili və xarici planetlər haqqında, onların oxşar və fərqli xüsusiyyətlərini qeyd etməlidir. Müəllim imkan daxilində internetdən ayrı-ayrı planetləri ekranda göstərməli onlar haqqında dərslikdə olan mətni ucadan oxutmalı, mətndə olmayan əlavə məlumatlar verməlidir. Günəş sisteminə daxil olan 8 planetin hamısı haqqında qısa da olsa məlumat verməlidir. Müəllim materialı izah edib qurtaranda şagirdlər hiss etmədən qısa nəticə verməli və nəticədən hiss olunmadan dərsin yekunu üçün sual-cavaba keçməlidir. İzah edilən yeni material bir neçə sualla sual-cavab edilməlidir. Bu sual-cavabla müəllim materialı yekunlaşdırır. Yeni materialdan şagirdlərin nə səviyyədə bilik əldə etdiyini və bu biliklər əsasında hansı bacarıqlar əldə etdiyini yoxlamaq üçün müəllim şagirdləri iş vərəqləri üzərində işlədə bilər və yaxud da fəal təlimin müxtəlif metodlarından istifadə etməklə onların bacarıqlarını yoxlaya bilər və yaxudda əldə etdikləri bilikləri bacarıqlara çevirə bilər. Bunun üçün keçdiyi mövzu üzrə şagirdlərin müstəqil işini təşkil etməlidir. Ona görə də müəllim dərsə hazırlaşarkən sinifdə tədqiqat işinin aparılması formasını müəyyən etməlidir.Yəni cütlərlə, kiçik qruplarla, kollektivlə və yaxud da fərdi iş aparacağını əvvəlcədən müəyyən edir. İş formasına uyğun olaraq əvvəlcədən iş vərəqəsi hazırlayır.

Tədqiqatın aparılması (15 dəq) (10). Sinifdə olan şagirdlər 4-5 nəfərdən ibarət bir neçə qrupa bölünür. Qeyd etmək lazımdır ki, sinfin qruplara bölünməsi hələ sentyabr ayında, bizcə sinif rəhbəri tərəfindən aparılması daha məqsədə uyğundur. Bizim məqsədimiz neçə bənddən ibarətdirsə biz bir o qədər də qrup ayıra bilərik. Məqsədlərdə yazdığımız hər cümləni bir vərəqədə (iş vərəqi) evdə yazırıq və bu vərəqələrin hər birini ayrı-ayrı qruplara paylayırıq. Yaxud da məqsədimizdə olan bəndlərin hər birinə uyğun bir neçə suallar yazaraq iş vərəqi şəklində tapşırıq kimi veririk.

Şagirdlərin əldə etdiyi bilikləri yoxlamaq və bacarıqları üzə çıxartmaq üçün onların tədqiqat işini təşkil edirik. Şagirdlərə verilən iş vərəqlərindəki tapşırıqlar məqsədlərə uyğun olmalıdır.

Tapşırığın çətinlik dərəcəsindən asılı olaraq müəllim tapşırığın yerinə yetirilməsinə vaxt təyin edir.

İnformasiya mübadiləsi (10 dəq) (10). Bu bölmədə şagirdlər onlara təqdim olunmuş suallar üzərində çalışırlar və işi müəyyən edilmiş vaxt ərzində hazırlayıb müəllimə təqdim edirlər.Yerinə yetirilmiş tapşırıqlar müəllim tərəfindən toplanılaraq lövhədən asılır.

İnformasiyanın müzakirəsi (10). Hər qrupdan bir nümayəndə durub yerinə yetirilən tapşırıq haqqında məlumat verilir. Bu zaman müəllim çalışmalıdır ki, şagirdlər vərəqədə yazılanlardan əlavə heç nə deməsinlər. Şagirdlərin təqdimatı qurtardıqdan sonra qruplar bir-birinin işini qiymətləndirirlər.

Qiymətlədirmədə çalışmaq lazımdır ki, şagirdlər ədalətli olsunlar. Bu qiymətləndirmədən sonra müəllim özü qrupların qiymətləndirməsini aparmalıdır və ədalətli qiymətlər verməlidir. Verilən qiymətlər meyar qiymət cədvəlində öz əksini tapmalıdır (7 dəq).

Nəticə və ümumiləşdirmə (3 dəq) (10). Müəllim şagirdlərin cavablarını dinləyir, yoxlayır, təhlil edir və qiymətlədirmə aparır. Qiymətləndirmə zamanı təlim nəticələrini əsas qəbul edir. Şagirdlərin qiymətləndirilməsi meyar cədvəlinə uyğun olaraq aparır. Qiymətlər gündəliklərdə və rubrik jurnalında qeyd edilməlidir.

Qeyd etmək lazımdır ki, meyar qiymətləndirmə cədvəlində qiymətləndirmə qruplar üzrə aparılır. Fərdi qaydada şagird öz qiymətini bilmir. Ona görə də məktəblərdə rubrik jurnallar yaradılmalı və fərdi qiymətlər verilməlidir. Bu qiymətləndirmənin aparılması üçün metodik göstərişlərdə qiymətləndirmə meyarları verilir. Məs: bizim mövzu üzrə qiymətləndirmə meyarı kimi: şərhetmə və müqayisə kriteriyaları nəzərdə tutulubdur. Qiymətləndirmədən sonra müəllim evə tapşırıq verir.

Ev tapşırığı. Bunun üçün müəllim dərslikdə olan fəaliyyətləri və ya özü tərtib etdiyi tapşırıqları verə bilər.

Bununla bizim dərsimiz başa çatır. Deməli motivasiya elə dərsin əsas gediş mərhələsidir. Bu prosesin düzgün təşkil olunması dərsin səmərəliliyini artırar və yüksək nəticələr əldə etmiş olarıq.

Qeyd etmək lazımdır ki, müəllim evdə dərsə hazırlaşarkən dərsdə şagirdlərin müstəqil tədqiqat işi aparmasına da vaxt ayıra bilər və ayırmalıdır. Şagirdlərə verilən biliklərin nə səviyyədə bacarıqlara çevrildiyini yoxlamaq üçün iş vərəqləri tərtib etməlidir. İş vərəqlərinə məqsədlərdə qeyd edilən başlıqlar və yaxud da onlara yaxın məsələlər salınmalıdır. Motivasiyanın şagirdləri iş vərəqləri

üzərində işlətməklə onların təqdimatını, özünü qiymətləndirmə ilə həyata keçirilməsi dərsin daha da effektli olmasına, biliklərin bacarıqlara, bacarıqlarınsa vərdişlərə çevrilməsinə zəmin yaradır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tədris planları, 2010, 2011, 2012, 2013-cü illər
2. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi.Təhsil Problemləri İnstitutu. Metodik tövsiyyə. Kövsər. Bakı, 2008
3. Azərbaycan Respublikasında Ümumu Təhsilin Konsepsiyası (Milli Kurikulumu). Bakı, 2006.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Həyat bilgisi" fənni kurikulumu. Bakı, 2008.
5. Süleymanoğlu F. İbtidai təhsil pilləsi üçün "Həyat bilgisi"fənni kurikulumu ilə bağlı bəzi qeydlər.İbtidai məktəb və məktəbəqədər tərbiyə jurnalı. 2007, № 4
6. Orucəliyev N. B. Pedaqoju ustalığın əsasları. Bakı.2005. Nurlan
7. Ə.Həsənov. Pedaqoji ustalığa aparan yol. Bakı, 2014, 96 səh.
8. Rusca-Azərbaycanca lüğət, 2-ci hissə (L-P) 1983-cü il
9. Kurikulum islahatları ilə əlaqədar seminar kursları üçün treyninq materialları, 2013
10. Əli Həsənov, İsmət Həsənov .Kurikulum islahatı ilə əlaqədar coğrafiyadan icmalların tərtib edilməsi. NDU. Elmi əsərlər № 1 (82), Naxçıvan, NDU, Qeyrət, 2017, səh. 209-212.


## ABSTRACT


**Ali Hassanov, Ulvuya Isgandarova**
**Hassan Hassanov, Roya Mammadova**


### MOTIVATION IN CURRICULUM REFORM METHOD OF CONDUCTING


The article gives a brief overview of the education reforms in the Republic of Azerbaijan. The textbook explains the methodology of the course's motivation and its implementation. It is noted that the core of the curriculum reform is its motivation. If the teacher builds motivation correctly, the lesson will be more effective and will be used properly.

It should be noted that the teacher should provide background information on research questions as well as supporting questions when writing on the board. Explaining his explanation and completing question-answer. In the remaining period, students should organize their independent work to form skills. At the end of the lesson, an assessment should be made, the students should give homework assignments prepared by the textbook or the textbook.


## РЕЗЮМЕ


**Али Гасанов, Ульвия Искандарова**
**Гасан Гасанов, Роя Маммадова**


### МЕТОДИКА ПРОВЕДЕНИЯ МОТИВАЦИИ В РЕФОРМЕ КУРИКУЛЮМОВ


В статье дается краткий обзор образовательных реформ, осуществляемых в Азербайджанской Республике. В связи с реформой образования глава объясняет мотивационную часть и методологию ее реализации. Отмечается, что в реформе курикулюма основу урока составляет мотивация. Если учитель правильно строит мотивацию урока то урок будет более полезным и будет правильно использовано время. Следует отметить, что учитель должен предоставлять справочную информацию по вопросам исследований, а также поддерживать вопросы при написании на доске.

Объяснение подитаживается заключением и ответами на вопросы.

В оставшийся промежуток времени должен организовать самостоятельную работу по сформлению умений у учеников. В конце урока проводится оценка успеваемости, даётся учащимся домашнее задание из учебников или подготовленных учителем заданий


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**MƏMMƏDƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*r.memmedeli @ yahoo.com*
**HEYRAT QULAMOV**
*Naxçıvan MR. Gənclər və idman nazirliyi*

**UOT:796**

# ZORXANALARDAN GÜLƏŞ ARENALARINA

**Açar sözlər:** *zorxana, xalq oyunları, mürşüd, miyandar, pəhləvan, güləş*
**Key words:** *zorxana, folk games, mürşüd, miyandar, wrestler, wrestling*
**Ключевые слова:** *зорхана, народные игры, муршуд, миядар, рехлеван, борьба*

Azərbaycanın xalq oyunları cəmiyyətimizdə qürur, cəsarət, mərdlik, vətənpərvərlik kimi keyfiyyətlərin aşılanmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Xalq oyunları sırasında çövkən oyunu, (9.səh.4) zorxana, (14.səh.55) papaq aldı qaç, kəndirbazlıq (8.səh.4) kimi milli oyunlarımızı misal gətirmək olar. Çox maraqlıdır ki, bu gün dünyada “ Polo” adı ilə məhşurlaşan idman yarışlarının elementləri tamamilə Çövkən oyununda olan qaydalar əsasında yaradılmışdır.

Qədim tarixə malik olan xalq oyunlarından biri də zorxanadır. Qeyd etməliyik ki, zorxana da qədim Azərbaycan şəhərlərində, Təbrizdə, Ərdəbildə, Bakıda, Naxçıvanda, Ordubadda və s. şəhərlərdə mövcud olmuşdur. Burada çox rəngarəng və məzmunlu hərəkətlər həyata keçirilir (1.səh.27). Pəhləvanlar meydana mil oynada-oynada çıxar, rəcəz oxuyardılar. Bu qaydada onlar özlərinə rəqib axtarardılar. Kənd yerlərində əsasən zorxana meydanlarını çöl-çəmənliklər əvəz edirdi. Bayram və el şənliklərində “Cəngi” sədaları altında yaxın kəndlərin gəncləri toplaşaraq güştu tuturdular. Xalq tamaşalarının, meydan tamaşalarının tərkib hisssəsi kimi bu gün də öz formasını qoruyub saxlayan, güc sınamaq, güşt tutmaq, daş oynatmaq, qulunc sındırmaq, buğa boynu əymək, kəndirbazlıq etmək yalnız oğuz-türk xalqlarının deyil, həm də bütün dünya xalqlarının xüsusi oyunlarına çevrilib. Xalqın ruhunda pəhləvan obrazı yenilməz, məğlubedilməz şəkildə təqdim edilməsi boş yerə yaranmamışdır. Zorxanada böyük ad-san qazanmış pəhləvanlar xalqın dar günlərində də öz şücaətləri ilə yaddelli işğalçılara qarşı mübarizədə həmişə fərqlənmişlər. Orta əsrlərdə zorxanalarda möhkəm cüssəli pəhləvanların hazırlanması böyük əhəmiyyət kəsb etmişdir. (6.səh. 27) Zorxana sözü-zor göstərmək, zor yeri deməkdir. Zorxanalarda bir neçə idman oyunu həyata keçrilirdi. Qeyd edilməlidir ki, bu oyunlar zorxanadan kənarda ayrıca bir idman oyunu kimi tanınmamışdır. Bu oyunlar pəhləvanların fiziki, psixoloji və iradi cəhətdən hazırlanmasına xidmət etmişdir. O zamanlar zorxanalarda əsas məqsəd pəhləvanlar yetişdirilməsi xalqın dar günlərində, vətənin təhlükə qarşısında olduğu vaxtlarda onun müdafiəsində pəhləvanların gücündən, bacarığından faydalanmaqdan ibarət olmuşdur. Pəhləvanlıq hələ çox qədimlərdən məlumdur. Pəhləvanlığı Sasanilər dövründə Cahan pəhləvanı (paytaxt pəhləvanı) orduda bir mənsəb kimi qəbul edilmiş, bu mənsəblərə şücaətli şəxslər təyin edilmişdir.(11. Səh. 80)

Səfəvilər dövründə dövlətin xüsusi vəzifələrindən biri də pəhləvanbaşı hesab edilirdi. O dövrdə dövlət xidmətçiləri olan həkimbaşı, mollabaşı, xəzinədarbaşı kimi vəzifələrlə yanaşı pəhləvanbaşı xüsusi statusa malik idi.

Əsasən zorxanaların meydana gəldiyi dövr rəsmi olaraq Səfəvilərin hakimiyyəti dövrünə təsadüf edir. Məhz ilk zorxanaların yarandığı yerlərdən Təbriz, Naxçıvan, Ordubad, Ərdəbil, Bakı şəhərlərini göstərmək olar.(6.səh.27)

Orta əsrlərdə Naxçıvan, Ərdəbil, Təbriz pəhlivanları böyük şöhrətə malik olmuşlar.

Zorxanalarda işlədilən güləş fəndlərinin bir çoxu dövrümüzə qədər gəlib çatmışdır. O dövrdə ordunun təlim-tərbiyəsinə xüsusi fikir verilməsi məqsədi ilə bir çox şəhərlərdə “zorxanalar” açılmışdır. Bu zorxanalar ta qədimdən XIV əsrin əvvəllərinə qədər ibtidai formada göy otun

üzərində olmuşdur. Naxçıvan MR-da əsl zorxana statusu almış üstü tağla örtülmüş iki zorxana mövcud olmuşdur. (2.səh.9) Bu zorxanalardan biri Naxçıvan şəhərində digəri isə Ordubad rayon mərkəzində fəaliyyət göstərmişdir. Təəssüflər olsun ki, Naxçıvan şəhərində fəaliyyət göstərən zorxana evləri bu günə qədər gəlib çatmamışdır. Ordubad şəhərində yerləşən zorxana (hal-hazırda Qeysəriyyə-Zorxana) adlanan bu abidə Tarixdiyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, "Torpaq qala" haqqında əfsanə Tarixdiyarşünaslıq abidəsi ilə bağlıdır. (3.səh. 3)

Çox da uzaq olmayan tariximizdə XIV əsrin ortalarına yaxın Əmir Teymur (Topal Teymur) İran və Azərbaycanı işğal edən vaxtlarda oğlu Miranşahın ilk dəstələri Cənubi Azərbaycanın ərazisində yerləşən "Kəmköl" dağının ətəklərinə yenərkən Araz çayının o tayında başı qarlı uca dağlar qoynunda yaşıl bağlar salınmış, sanki əqrəbə oxşar diyarı görən və bərk təəccüblənən sərkərdə soruşur: - Bura haradır? Ona o vaxt belə cavab verirlər ki, bura yaxşı pambıq sahələri, üzüm talavarları və gözəl meyvə bağları olan cənnətə bənzər "Ürdübehiştdir", "Odubehiştdir." (2.səh 3)

Buranın gözəl, incə belli qızları, igid oğlanları və zəhmətkeş insanları vardır.

Miranşahın sərkərdəsi sevinib deyir: - lap yaxşı, onda xəbər verin mənə igid oğlanlar versinlər qoşunumda xidmət etməyə və qırx incəbelli qızlar versinlər kənizliyimə...

Bu xəbəri Ürdübehiştin xanı Yaqub xana çatdırırlar, lakin xan razı olmur və hazırlaşır düşmən qoşunu ilə vuruşmağa. Təcili sürətdə 48 km qərb tərəfdəki kəndin xanına xəbər göndərir ki, mənə min nəfər igid cavan göndər. Min nəfər igid cavan köməyə gəlir. (Min cavan gələn yerin adı qalır Mincivan). Ürdübehiştin şərqində yerləşən kənddən gələn min nəfər cavan dəstə və dəstəbaşlara bölünür ( onların bölündüyü bu yerlərin adı qalır Dəstə kəndi, Dəstə başı). Həmin dəstələr Vənənd və Əylis kəndlərindən keçərək ətrafına topladığı igidlərlə Yaqub xana iki torpaq bəndi birləşdirən Dübəndi çayının kənarında ucaldılmış qalaya köməyə gəlirlər (3.səh.3)

Vuruşma başlamazdan əvvəl Yaqub xan Ürdübehiştin gözəl qız gəlinlərini toplayıb, yığır indiki "Qeysəriyyə" binasına və axşamdan səhərə qədər həmin binanın üstünə torpaq tökdürür. (Adı qalır "Torpaq qala". Sonralar bu bina "zərbxana", "zorxana" adı ilə məşhur olmuşdur. İndi həmin Qeysəriyyə-zorxana abidəsində "Tarixdiyarşunaslıq" muzeyi fəaliyyət göstərir).

Bütün bunlara əsaslanaraq belə qənaətə gəlmək olar ki, Ordubad rayonunda fəaliyyət göstərmiş zorxana binasının təməli X-XII əsrlərə gedib çıxır. "Torpaq Qala" haqqındakı əfsanədə bu abidənin o vaxtdan mövcud olması özünü açıq-aydın biruzə verir. Çünki bu gün Tarixdiyarşunaslıq muzeyi kimi fəaliyyət göstərən bu abidə çox qədimlərdə "Torpaq qala" sonralar Qeysəriyyə-zorxana kimi fəaliyyət göstərmiş və nəhayət muzey kimi fəaliyyət göstəri. (3.səh. 3)

Ta qədimdən müasir dövrümüzə qədər müxtəlifliyi və çoxcəhətliliyini daha ətraflı öyrənmək məqsədi ilə güləşmə tariximizi üç dövrə bölmək zərurəti yaranır.

Ən qədim zamanlardan XIX əsrin ortalarına qədər olan müddəti birinci dövr hesab etmək olar. Birinci dövrün güləşi, digər milli oyunlarla qarşılıqlı sürətdə inkişaf etmiş və əsasən xalq qəhrəmanlarının simasında təzahür etmişdir. Əsasən qədim dövrün pəhləvanları təkcə güləşmək deyil eyni zamanda at çapmaq, əmud oynatmaq ( əmud oynatmaq sonralar zorxanaçılıqda mil oynatmaqla əvəz olunmuşdur) kimi mübarizə üsullarını bilməlidir. İkinci dövr müntəzəm güləş məşqlərinin keçrilməyə başladığı zorxanaçılıq dövrü. Zorxanalarda icra olunan oyunların hamısı nəhayətdə pəhləvanların hazırlanmasına xidmət etmişdir. Üçüncü dövr isə beynəlxalq güləş növlərinin müxtəlif idman cəmiyyətlərində tətbiq olunmağa başlandığı dövr.

Bir çox görkəmli dünya şöhrətli yazıçılarımızın əsərlərində qadınların da kişilərlə yanaşı döyüş səhnələrində çox cəsarətlə vuruşmalarından və güləşmələrindən söz açılır. Kitabi Dədə Qorqud dastanında Qazan Xanın mərd igid döyüşçüsü Beyrəyin nişanlısı Banu Çiçəklə at çapması və güləş səhnələri bunun bariz nümunəsidir. Onu qeyd etməliyik ki, hal-hazırda qadın güləşi Yay Olimpiya Oyunları proqramına daxil edilmişdir.

Milli güləşdə zorxanaçılıq təkcə idman yarışları kimi deyil, həm də çox əyləncəli və maraqlı bir tamaşa xarakterli olurdu. Azərbaycanda həm Atabəylər həm də Səfəvilər hakimiyyəti dövründə əsas məqsəd dini inkişaf etdirməklə yanaşı birlik və dostluqları inkişaf etdirmək üçün idmana xüsusi yer verilmişdir. Döyüşçülərin fiziki hazırlığında at çapmaq, qılınc oynatmaq, ox atmaqla yanaşı zorxanalara xüsusi əhəmiyyət verilirdi.

Şah İsmayıl Xətainin hakimiyyəti illərində zorxanalar Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Ordubadda çox inkişaf etmişdir. O dövrlərdə zorxanalarda Peyğəmbər Hz. Məhəmməd və İmamların adları ucadan tez-tez səslənirdi. Ona görə də əhali zorxananı müqəddəs və insanların birlik və dostluq yeri hesab edirdi. Hətta idmançılar və tamaşaçılar zorxanalara daxil olduqda dəstəmaz alırmışlar. Zorxanalar o qədər müqəddəs hesab edilirdi ki, oraya gələnlər şam yandırmağı özlərinə borc bilirlərmiş. Belə ritualların yerinə yetirilməsi zorxanalara maraqları daha da artırırdı. Hətta idmançılar sübh namazını zorxanada qılıb sonra idman hərəkətlərinə başlayardı. Müəyyən yaşa qədər uşaqlar zorxanalara buraxılmırdı. Eyni zamanda zorxanalarda xoş əhval-ruhiyyə hökm sürməli və pis sözlər danışılmamalı idi. Zorxanada güləş zamanı əgər güləşçilər qayda pozub hörmətsizlik göstərsə idi bu zaman nüfuzlu, hörmətli şəxslərdən biri yerə dəsmal atıb etirazını bildirirdi. Həmin anda dəsmala hörmət əlaməti olaraq döyüş dayandırılıb günahkar tənbeh olunur, döyüş yenidən başlanırdı. (10.səh. 72)

Zorxanaların özünə məxsus qaydaları mövcud idi. Zorxanaya daxil olanda əyilib torpağı öpmək məcburi idi. Bu adət məşhur, sayılıb seçilən pəhləvanların zorxanaya qədəm qoymasına və bu müqəddəs qədəmlərin öpülməyinə bir işarə idi. Zorxanada pəhləvanlıq dərəcəsinə nail olmaq hər pəhləvana nəsib olmurdu. Qeyd edilməlidir ki, onlar bütün zorxana fəndlərini mükəmməl bilməklə yanaşı xalqın da çox böyük ehtimadını qazanmış pəhləvanlar olurdular.

Həm Səfəvi həm də Qacar hakimiyyəti dövründə pəhləvanbaşları mövcud idi. Pəhləvanbaşıları digər pəhləvanlardan yaşca böyük olarmış və onlara başçılıq edərmiş.

Sonralar zorxanalar təkmilləşdirildi. Əsas zorxanalarda təlimçilər olurdu. Zorxana binası adətən yer səthindən bir qədər aşağıda yerləşirdi. Binanın tavanı xüsusi tağlarla örtülürdü. Binanın ortasında eni və uzunu 10 m və dərinliyi 1 m olan Süfrə adlanan yer düzəldilirdi. Xüsusilə idmançıların məşğələ keçdikləri və süfrə adlanan yer bir qədər qazılardı. Qazılmış yerə quru ot və üstündən bir qədər kül, onun da üstündən torpaq tökülərdi. İldə bir dəfə süfrə yeri təzələnirdi.Yarışdan qabaq süfrəyə bir qədər su çilənərdi. Belə süfrələrdə 20-25 nəfər məşq edə bilirdilər. Süfrənin ətrafında tamaşaçılar üçün oturmaq yeri düzəldilirdi.

Süfrənin yuxarı başında təlimçi-mürşüd üçün səkidən bir 1 m hündürdə kiçik bir yer ondan azca yuxarıda işıqlanmaq üçün pəncərə qoyulurdu. Zorxananın qapısı 1, 5 metrdən hündür olmurdu. Bura girənlər əyilib keçərdilər. Bu qayda zorxanaya gələnlərdə xüsusi ehtiramla bağlı idi.

Süfrənin kənarındakı səkidə ən hündür yerdə təlimçi mürşüd oturardı. Təlimçi mürşüdün başı üstə kiçik bir zəng asılardı. Bu zəngdən oyunun başlanması, qurtarması bildirilir, həmçinin qaydaları pozan oyunçulara xəbərdarlıq edilirdi. Zorxana oyunları musiqi sədaları altında keçirildiyi üçün mürşüdün yanında zərb vuran da otururdu. Oyunlarda əsasən zərb alətlərindən istifadə olunurdu.

Zərb vuranın yanında manqalda od saxlanılırdı. Odda dümbəy adlanan bu zərb aləti qızdırılardı.

Miyandarlar ortada dayanaraq zərbin çalınmasına və oyunların başlanmasına işarə verir. Zorxanalarda tətbiq olunan oyunlar demək olar ki, həm pəhlavanların fiziki hazırlığının artırılmasına və həm də güləşmədən qabaq bədənlərinin isidilməsinə xidmət edirdi. Zorxanada pəhləvanların məşqi demək olar ki, müasir güləş məşqlərinin o dövrə aid olan forması idi.

**Zorxana oyunları**

Zorxana oyunları aşağıdakılardan ibarətdir:

1. Sino oyunu və ya Quluncsındırma oyunu;
2. Yekba və ya Ayaq döymə oyunu;
3. Mil oynatmaq;
4. Yekbagir yaxud Səngi-daş qaldırma oyunu;
5. Kəbbadə və ya Kamanə;
6. Çərxi və ya Təndövrə-oyunu;
7. Güləş (7.səh.2-3).

Bu oyunların demək olar ki, hamısı güləşlərdə müəyyən fiziki keyfiyyətlərin inkişaf etməsinə xidmət edir. Eyni zamanda real döyüş zamanı lazım olan fəndlər öyrədilirdi.

Sino və ya quluncsındırma oyunu adından bəlli olur ki, əsasən buradakı hərəkətlər isinmə hərəkətlərindən ibarətdir. Bildiyimiz kimi bədəni qızışdırma hərəkətləri çox sadə elementlərdən ibarət olur. Sino oyunundan əlavə əsasən isinmə hərəkəti kimi quluncsındırma hərəkətləri özünə məxsusluğu ilə bərabər sadədən mürəkkəbə doğru prinsipindən bəhrələnmişdir. Bu günə qədər gəlib çatan mənbələrdən belə məlum olur ki, idmançılar isinmə hərəkətləri zamanı xüsusi masajlardan istifadə edirlərmiş. Belə hərəkətlərdən əsasən rəqibi uzandığı yerdə ayaqlama həmçinin elastikliyi artırmaq məqsədi ilə başı geriyə doğru əyərək ayaqla başı birləşdirənə qədər əyilərdilər, bu hərəkətləri tərəf müqabilinin köməkliyi ilə də edərdilər.(7.səh11) Sino oyunu güləşdə xüsusilə böyük əhəmiyyəti olan elastikliyin inkişaf etdirilməsinə xidmət edir.

Sino oyunu və ya quluncsındırma oyunu;-Sino oyunu üçün xüsusi alət sino taxtasıdır. 1 metrə qədər uzunluğu, 3 sm qalınlığı və 5 sm eni olan bu taxta əsasən taxtadan ( və yaxud qara ağacdan) hazırlanır. Yerə qoyarkən əl yeri olsun deyə onun hər iki qurtaracağına təqribən 6 sm uzunluğunda kvadrat qalın taxta vurulurdu. Zərb alətinə dümbəyçi toxunan an mürşüdün xoş nəğməsi yüksəlməklə ilk dəfə süfrənin ortasında dayanan miyandar oyuna başlardı. Sonra oyunda iştirak edənlər cərgə ilə süfrənin ortasında üzüquylu uzanıb, ayaqlarını divara söykəyər, əllərinin üstə döşəmədən 1 qarış qalxar əvvəl sağa sonra sola axırda isə aşağı enər, yerə çatmazdan təkrar qalxardılar. Amma təmrini yerinə yetirənlərin sinələri döşəməyə dəyməməli idi. Bu təmrinlər 120 dəfə yerinə yetirilərdi. Bu rəqəmi yerinə yetirən oyunçular fiziki cəhətdən tam hazır hesab olunardı. (13.səh.1)

Miyandar- zorxana idman oyununda iştirak edənlər içərisində ən təcrübəlisi və oyunları digərlərindən yaxşı bilən hörmətli bir idmançı olurdu.

Yekba və ya ayaqdöymə oyunu;- Sino oyunundan sonra yekba və ya ayaqdöymə oyunu başlardı. (12.səh56) Bir ayağını götürüb digər ayağı yerə qoymaqla süfrənin ortasında dayanan miyandar oyuna başlardı. Miyandarın ayaqlarının hərəkətlərinə uyğun olaraq mürşüd də xüsusi hava çalardı.(12.səh.157) 8-10 dəqiqə oyun davam edərdi, bu oyundan sonra mil oyunu başlardı. Bu oyun bir növ sino oyunundan sonra bədəni boşaldıcı hərəkətlərdən ibarət olurdu.

Mil oyunu- Zorxanalarda mil oynatmaq xüsusi bir tamaşaya çevrilərdi.

Bu oyunun adı həmin oyunda işlədilən alətin adı ilə bağlıdır.

Zorxana mili şümsaddan və yaxud da palıd ağacından hazırlanırdı. Zorxanada işlədilən millərin ağırlığı müxtəlif olurdu. Millərin ikisinin orta ümumi çəkisi 12 kq-dan 30 kq-a qədər olurdu. Mil oyunu zorxanada güləşçinin yuxarı ətraf əzələlərinin inkişaf etdirilməsində güc dözümlülüyünün artırılmasında xüsusi əhəmiyyətə malikdir. (12.səh 52)

Xalqımızın milli bayramı olan Novruzda gücünə inamı olan gənclər ayrı-ayrılıqda mil götürüb başı üzərində fırladardı. Zorxanada olduğu kimi Novruzda da zərb vuranlar idmançılara qatılırdı. Əsasən o zaman dumbul çalınardı. Dumbul əvvəlcə lap ahəstə sonra getdikcə yuxarı qalxıb yenə də enərdi. Mil oynadanlar da tempə uyğun olaraq mili başının üstündə hərlədərdi.

Mil oyununda püxtələşmiş oyunçular tək əli ilə mili yuxarı atıb asanlıqla dəstəsindən tutardılar. Azərbaycanın tarix müzeyində "XV-XVII əsrlərdə Azərbaycanda feodal dövlətləri" başlığı altında verilən ekspoziyasının X salonunda Səfəvilər dövlətinə həsr edilmiş bölmədə zorxanalarda işlədilən millərdən 1 cütü nümayiş etdirilir.

Bu millər orta çəkili və kiçik boylu mildir. Əsasən bu cür millər zorxanalarda yüngül oyunlar üçün nəzərdə tutulurdu. Xüsusilə də bu millərlə bu oyunlara yenicə başlayan gənclərin zorxanaçılıq sənətini öyrənmələrində istifadə olunurdu. Ümumiyyətlə istər ağır istərsə yüngül millərlə zorxanada 30 formada mil oynadılırdı. (12.səh53) Süfrədə olan idmançılar miyandardan sonra bir-birinin ardınca mil oynatmaqda öz məharətlərini göstərirdilər. Zorxana qaydalarına əsasən axırıncı çıxış edənlər zorxanaya təzə gəlmiş idmançı olurdu. (13.səh.74)

Yekbagir oyunu-Yekbagir və yaxud səngi daş qaldırma oyunu kəmanədən sonra zorxana idmançlarının məşğul olduqları oyun idi. (12.səh56)

Yekbagir və ya səng adlanan bu alət 0, 5 m eni, 3 sm qalınlığında, qapıya oxşar ortası dəstəli taxta olub ümumi ağırlığı 60-200 kq-a qədər olan iki parçadan ibarət idi. Bu alətə səngi-zur (güc daşı) da deyilirdi. (5.səh71)

Hüseynqulu Sarabski yekbagir oyununu belə təsvir etmişdir. "Yekbagir oynayanlar hovuzun (yəni süfrədə) içində arxası üstə uzanıb yekbagirlərin hərəsini bir əlinə alıb bütün bədəni ilə sağa və

ya sola hərəkət edərdilər. Hərəkət zamanı sağ qolu yuxarı hərəkət etdikdə sol qol aşağı enməlidir. Soldan sağa hərəkət edən zaman həmin iş təkrar edilməli idi". Bu oyun da dumbul çalınması ilə davam edərdi. Dumbul əvvəl ağır sonra sürətli templə çalınardı. Qeyd edilməlidir ki, hər hansı bir idmançı hərəkəti iyirmi dəfə təkrar etsəydi, o böyük pəhləvan sayılırdı. (5.səh 174) Alətlərin çəkisindən və hərəkətlərin icra formasından göründüyü kimi bu oyun güləşçilərin yuxarı ətraf və gövdə əzələlərinin möhkəmlənməsinə xidmət edir. Bu oyunun xüsusi bir mahnısı da var idi. Dumbulçu həmin mahnının tempi ilə dumbulu çalar, iştirakçılar da aşağıdakı mahnını oxuyardılar.

Əlif Allah, adın elədim əzbər
Bey buyurdu lütf siyan çağıdır.
Tey tarallah, söz sünbəsəy,
Cim camalın görcək ağlım dağıdır...(5.səh174)

Kəbbadə və ya kamanə

Kəbbadə oyunu- Bu oyuna kəmanə oyunu da deyilir. Kəbbadə oyunu və yaxud bəzi müəlliflərin işlətdiyi kimi - kəmanə oyunu zorxanaların yaradılmasından əvvəldir. (13.səh2)

Kaman və ox çox qədim tarixə malikdir. Ta qədimlərdən ox atmaq uşaqikən bir peşə kimi qəbul edilmişdir. Uşaqlar kiçik yaşlarından bu peşəyə yiyələnmək üçün təlimlər keçərmişlər.

İlk təlimlərdə kamanı əldə saxlamaq və ondan düzgün istifadə etmək öyrənilirdi. Məşqlər əvvəlcə dəmirdən düzəldilmiş kaman üzərində həyata keçirilirdi. Bu kamanın əl yeri saf dəmirdən, zehi isə ona yapışdırılmış zəncirlərdən ibarət idi. Nisbətən ağır olan bu alətdə təlim keçənlər sonra kamandan sərbəst istifadə edə bilirdilər. Kəbbadə sözü də təlim kamanlarında məşq keçirmək demək idi. Kəbbadə sözünə zorxanaların yaranması tarixindən əvvəli dövrlərdə yaşamış şairlərin əsərlərində də rast gəlinir. ( 14.səh55)

Kəbbadə üç santimetr yarım (3, 5 sm) qalınlığında, 1 metr uzunluğunda girdə, ucları 1 metr uzunluğunda zəncirlə birləşdirilmiş dəmir alətdir. Bu aləti bir əllə dəmirin ortasından digər əllə zəncirin ortasından yapışıb dik başlarının üstünə qaldırılır. Əvvəlcə sağa sonra sola aparılır sonda başa keçirilir. Hərəkət dumbulun tempilə əvvəlcə ağır sonra bir qədər sürətlə həyata keçirilərdi. 14-15 kq ağırlığı olan bu alətin kaman hissəsini idmançı sol əlinə və zəncir hissəsini isə sağ əlinə alıb başı üzərində hərəkət etdirərdi.( 14.səh55)

O dövrün yaxşı idmançıları kəbbadəni boyunlarından aşağı endirib əllərini buraxaraq bellərində hərlədərdilər. Hazırda kəbbadənin bu hərəkətləri tamamilə başqa formada əsasən aliminium və ya plasmas həlqələrlə əvəz edilmişdir.

Kəbbadə oyunu da güləşçilərin ümumi fiziki hazırlığının artırılması məqsədi ilə tətbiq olunurdu.

Çərxi və ya təndövrə:- Meydanın ortasında dayanan miyandarın çərx vurmağa başlaması ilə onu dövrəyə alan idmançıların çərx vurmaqları bir anda başlayırdı. Çərxvurmanın bir neçə növü var. " Çərx cəngəli" adlanan çərxvurma oyunu geniş yayılmışdır. İdmançı yerindən sıçrayıb havada bir və ya bir neçə dəfə çərx vurur. Bu oyundan sonra idmançılar musiqi sədaları altında süfrənin ətrafında sürətlə hərəkət edirlər. Bu oyunda isə güləşçidə çəldlik və sürət keyfiyyətinin inkişaf etdirilməsi nəzərdə tutulur.(13. Səh. 2)

Güləşin yaranması və inkişaf tarixi ilə əlaqədar aparılan tədqiqatlarda bütün sahələrdə olduğu kimi Avropa mənbələrində güləşi də Avropalaşdırmışlar.

Güləş idman növü iki yerə bölünmüş, milli və beynəlxalq növlərə ayrılmışdır.

Azərbaycan milli güləşinin tarixi bizim eramızdan əvvəllərə gedib çatır. Tam əminliklə deyə bilərik ki, bizim milli güləşimizdə işlədilən fəndləri beynəlxalq sərbəst güləş fəndləri ilə eynidir və zorxanalarda icra olunan hərəkətlər müasir güləş məşqlərində güləşçilərin həm fiziki, həm də texniki və taktiki cəhətcə hazırlanmasında tətbiq olunan metodların ilkin formasıdır. (14.səh59)

Bütün dünyanın sərbəst güləş mütəxəssisləri Azərbaycan milli güləşi ilə beynəlxalq sərbəst güləşin fəndlərinin üst-üstə düşdüyünü təsdiqləyirlər. Bu gün Azərbaycan güləşinin dünya liderlərdən biri kimi özünü təsdiq etməsi güləşmənin qədimliyindən milli adət-ənənələrimizdən açıq aydın xəbər verir. Bildiyimiz kimi rəsmi olaraq qadın güləşi son illər Yay Olimpiya Oyunlarında oyunların proqramına daxil edilmişdir.

Əlbəttə Azərbaycanda qadın güləşi də sürətli inkişaf etməkdədir. Bu inkişafın təməli çox qədimlərə istinad edir.

VII əsrin yazılı abidəsi xalq eposu "Kitabi Dədə Qorqud da Bamsi Beyrəyin gözəl Banu Çiçəyə elçilik səhnəsini xatırlasaq Azərbaycanda qadın güləşinin nə qədər qədim olduğunu görərik. Banu Çiçək Beyrəyin evlənmə təklifinə cavab olaraq deyir: "Əgər sən mənə yayla ox atmaqda və güləşdə qalib gəlsən sənin arvadın olaram"

Milli adət-ənənələrimizə çevrilən güləş toy məclislərində, el bayramlarında gənclərin bayramsayağı güc sınamaları Azərbaycan xalqının sevimli tamaşalarından biri olmuşdur.

Bütün yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək mümkündür ki, Azərbaycanda və bir çox şərq ölkələrində fəaliyyət göstərən zorxanalar müasir güləş məşqlərinin ilkin forması olmaqla Azərbaycanda, o cümlədən dünya miqyasında güləşin bir idman növü kimi formalaşmasında müstəsna rol oynamışdır. Güləşçilərimizin beynəlxalq miqyaslı yarışlarda qazandığı uğurlar məhz güləşin Azğrbaycanda qədim tarixə maıik olmasından xəbər verir.

Zorxanalarda tətbiq olunan hərəkətlərin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, burada tətbiq olunan ümumi fiziki hazırlıq hərəkətləri oyun-yarış formasında verilirdi. Bu isə idmançıların həmin hərəkətləri daha həvəslə yerinə yetirməsi ilə nəticələnirdi.

## ƏDƏBİYYAT


1. Паяизад Абдинова. Доктоя философии по искуствоведении. Зорхана. Из истории спорта в Азербайджане.Международный Азербайджанский журнал İRS №2 (74) 2015
2. Məmməd Məmmədov. Ordubadın memarlıq inciləri // Azərbaycan, 2011.20 mart,
3. Ordubad. Zorxana. http://www.discoverazerbaijan.az/ordubad
4. "Mərdomşünasi" jurnalı №3 h.ş. 1335
5. Hüseynqulu Sarabski. Köhnə Бakı, səh 174
6. Zorxana oyunu. Bakı. 2006
7. Zorxana. İRS jurnalı 2015 N2 səh 12-16
8. Azərbaycan qazeti 2009-cu il 01 sentyabr (kəndirbaz)
9. Mədəniyyət qazeti 2011-ci il 14 dekabr (atüstü oyunlar)
10. Azərbaycan folkloru antologiyası Birinci kitab Bakı, 1968
11. Qobustan jurnalı 2013-cü il №1 səh 80-84
12. Pərto Kaşani. Tarixie vərzeşe bastane İran. 1337 h.ş.
13. C.Bağırbəyov. "Zorxana".Əlyazması.səh.1 (respublika əlyazmalar fondu. C.Bağırbəyovun arxivindən)
14. Dilqəm Quliyev. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. Bakı, 2004.


## ABSTRACT


**Mammadali Rahimov**
**Heyrat Qulamov**


**FROM "ZORXANA" TO WRESTLING ARENAS**


Azerbaijan folk games are formed in the evolution of society and play an important role in the progress of qualities as pride, bravery, nobility, patriotism in the youth. One of these games is "Zorxana" games. "Zorxanalar" played an important role in the growing of wrestlers and preparing of strong, agile, patriotic heroics. "Zorxanalar" existed in the Tabriz, Ardabil, Baku, Nakhchivan, Ordubad and other cities of Azerbaijan. The following games were played in "Zorxana"

1. "Sino" or "Quluncsındırma" plays;
2. "Yepka" or "Ayaq döymə" plays;
3. "Mil oynatma";
4. "Yekbağır" or "Səngi-daş qaldırma" play;
5. "Kəbbadə" or "Kəmanə" play;

6. “Çərxi” or “Təndövrə-cəng” play;
7. “Güləş”.

Zorxana games were played on the leadership of “mürşüd” and “miyandar” under the musical accompaniment.


## РЕЗЮМЕ

**Мамедали Рагимов**
**Гейрат Гуламов**

## ОТ “ЗОРХАНЫ” К АРЕНАМ БОРЬБЫ

Азербайджанские народные игры возникли в процессе развития общество и продолжают играть важуню роль в развитии у молодежи таких важных качеств, как гордость, мужество, храбрость, великодушие и патриотизм .Одним из таких игр является “Зорхана” которая сыграла важную роль в формировании пехливанев, в подготовке силених ловких и патриотических игидов. “Зорханы” существовали в городах Тебриз, Ардебил, Баку, Нахчыван, Ордубад и других городах Азербайджана. В “Зорханах” исполнялисъ нижеследующие игры:

1. “Сино” или игра “Гулунджсындырма”;
2. “Епка или игра “Аягдойме”;
3. Игра с “Милом”;
4. “Екбагир” или игра “Сенги-даш галдырма”;
5. “Кеббадэ” или игра “Кеманэ”;
6. “Церхи” или игра “Тендовра-ченг”;
7. “Борьба”.

Игры “Зорхана” продились под ахкомпономент музыки под руководством “муршид” и “мияидаров”.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**VALEH ƏLİXANOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT:796**

# İNSANIN ARTIQ ÇƏKİSİNİN ARADAN QALDIRILMASININ VASİTƏ VƏ METODLARI

**Açar sözlər:** *Bədən çəkisi, təlim, məşq, idmançı, inkişaf, vasitələri, metodları*

**Key words:** *Body Weight, Training, Exercise, Training, Athlete, Training, Development, Means, Methods*

**Ключевые слова:** *вес тела, воспитание, задание, упражнение, спортсмен, тренировка, развитие, средства, методы.*

Sağlam, olduqca səmərəli məşq edən və qidalanmada israfçılığa yol verməyən insanda, piylənmə və artıq piyin ləğv edilmə təhlükəsi yoxdur, lakin hərdən bədənin çəkisi ilə bağlı məsələləri təcrübədə həll etmək tələb olunur. Fəal hərəkətlərin ümumi çatışmamazlığı gündəlik məşğələlərin yükünün azaldılması və ya tam saxlanması (müxtəlif səbəblərdən, xəstəliklər və zədələnmə bəhanəsindən) tarazlanmamış qidalanmada (idmançının nisbi qüvvə qabiliyyətinin göstəricilərini artırmaq üçün bir çəki dərəcəsindən başqasına keçəndə) və başqa hallarda ortaya çıxır.

Aydındır ki, belə hallarda təsir etmənin ən yaxşı üsulu (xüsusən həkimin müdaxiləsini tələb etməyən potoloji hallar istisna olunmaqla) bədənin çəkisində olan mənfi halları törədən bəhanələri bədən tərbiyəsinin köməyi ilə aradan qaldırılması və qidalanmasının müəyyən dərəcədə korreksiya edilməsidir.

“Piy əridən” müxtəlif növ fiziki tapşırıqların səmərəliliyinin amili kimi qiymətləndirmədə adətən ilk növbədə onların daşıyıcısı və ya kalori ölçüləri ilə qiymətləndirilir (onların yerinə yetirilməsində enerjinin sərf olunması kalori ilə ifadə olunur). Bizə yaxşı məlumdur ki, qısa müddətdə böyük ölçüdə enerjinin sərf edilməsi intensivliklə fərqlənən tapşırqlar səciyyələnirlər, lakin onların yerinə yetirilməsində miqdarca enerjinin sərfinin ölçüləri nisbi böyük deyildir (məsələn 100 m spirint qaçışı zamanı idmançı 20 kkalori enerji sərf etmir) bu da bədənin piy kütləsinin azaldlmasına gətirib çıxarır. Metobolik proseslərə təsiri məhdudlaşdırır. Tapşırıqların yerinə yetirilmə zamanı enerji həcminin miqdarı həcm müddəti uzun olduqca böyük olur.

Cədvəl: 1

| Tapşırıqların intensivliyi işin fizioloji gücünün meyarı | Nisbi intensivliyin (güçün)zonası | | | |
|---|---|---|---|---|
| | Maksimal | Submaksimal | Böyük | Mötədil |
| Tapşırığın müddəti (fasiləsiz yerinə yetirəndə) | Verilən inytensivlikdə tapşırıqların yerinə yetirilməsinin son dərəcəli müddəti | | | |
| | 20san-yə qədər | 20san-dən 5 dəq qədər | 5 dəq-dən 30 dəq qədər | 30 dəq-dən artıq |
| Tapşırqların yerinə yetirilməsi zamanı enerji sərfi | 1 saniyə ərzində enerjinin sərfi | | | |
| | 2 kk-dən artıq | 1.9-0, 5 kk | 0, 5-0, 4 kk | 0, 3 kk artıq |
| | Tapşırıqların yerinə yetirilməsi zamanı enerji sərfi | | | |
| | 25 kk qədər | 25 kk-200 kk | 200 dək-600kk qədər | 700 kk-dək artıq |

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, bədənin piy toxunması (piy kütləsi) ilə mübarizə aparmaq üçün əsasən gəzinti, qaçış üzgüçülük, velosiped sürmək, avar çəkmə və s. kimi mötədil intensivliklə tapşırıqlardan istifadə etmək məsləhət görülür. Müəyyən bir fasilədən sonra gündəlik bədən tərbiyəsi məşqlərini bərpa edəndə, fiziki yüklə və ya onların bəzilərinə bədənin uyğunlaşması vacibdir. Bununla yanaşı məşqliliyin ümumi inkişafla yüksək intensivliklə və ağırlıqla yerinə yetirilən tapşırıqlar bədənin artıq çəkisinin aradan qaldırma vasitələridir.

Bədənin piy kütələsinin azaldılması üçün tapşırıqları istifadə olunmasının bəzi səmərəli rejimləri bunlardır: Aydındır ki, bu və ya digər tapşırıqların yerinə yetirilməsi zamanı enerjinin sərfi nə qədər böyük olmasa da, onların bədən çəkisinin azadılmasının səmərəliliyi çox vaxt onların istifadə edilməsinin rejimindən asılıdır.

Xeyli piy ayrılmasından azad olmaq üçün intensivliyin ardıcıllıqların istifadə edilməsi ilə əldə etmək olar. Bunun üçün tələb olunan vaxt müəyyən mənada atılan çəkinin müəyyən ölçüləri ilə orqanizmin funksional imkanları ilə profesional olmalıdır. Sayılır ki, bir ay ərzində atılan çəkinin miqdarı gənclərdə 3-4 yaşılılarda isə 2-3 kq-dan artıq olmamalıdır.

Artıq çəkinin və piy kütləsinin azadılması üçün istifadə olunan bədən tərbiyəsi tapşırıqlarının ən səmərəlisi gündəlik yükün enerji sərfiyatı müəyyən dərəcədə elə olmalıdr ki, bəlli bir vaxtda qidalanmanın hesabına enerji hasilatını ötüb keçməsin. Birinci mərhələdə əsasən, əgər uzun müddətli fasilədən sonra məşqlər bərpa olunursa məşq yükünün deyildiyi kimi, ardıcıllıqla artırmaq nisbi intensivliklə, lakin uzun müddətli hətta gündə bir neçə dəfəyə qədər məqsədə uyğundur.

İntensivliyi nisbi yüksək olmayan uzun müddətli tapşırıqların yerinə yetirilməsində ümumi yükün artırılması bədənin piy kütləsinin minimallaşdırma faktoru əzələ kütləsinin azadılmasına gətirib çıxarda bilər və bir çox hallarda arzu edilən olmaya bilər.Təcrübədə ən çox yayılmış tapşırıqların istifadə edilməsinin metodikası aşağıda göstərilib.

Tapşırqlarda istifadə olunan ağırlıqlar elə səviyyədə olmalıdır ki, yükün sıxlığı 15-20 % lokal tapşırıqlarda isə 30 % və ondan da artıq olsun. Bu şəkildə təminlər aralarında ciddi və eyni fasilə ilə (məsələn 1-2 dəq) və bir neçə seriya ilə (3-4 saya) yerinə yetirirlər;

Məşlilik səviyyəsinin artımı ilə orqanizmin mübadilə proseslərini müəyyən dərəcədə artırmaq üçün seriyaların sayını artırırlar ki, məşqlərdə yüklənmənin müddəti 30 dəq olsun.

Bədənin əzələ və piy kütləsinin mütənasibliyini normallaşdırmaq üçün bu rejimdə ağırlıqla həm ümum, həm də nisbi lokal təsirlə tapşırıqlardan səmərəli istifadə etmək olar, bu da daha çox piylənməyə məruz qalan bədənin hissələrinə çox planlı təsir etməyə imkan verir. Mübadilə prosesinin fəallaşdırmağa, bədənin piy kütləsinin azadılmasına müsbət təsir edən bu təmrinləri məşqin sıxlığını artırmaq üçün ümumi təsirli təminlər kompleksinində də istifadə etmək olar. Qeyd etməliyik ki, bədənin çəkisinin və tərkibinin optimallaşdırılması ayrı-ayrı faktorları başqa faktorlarla birlikdə və tam qurulmuş olduqca təsirlidir.

Fiziki tərbiyənin prinsiplərinə uyğun keçirilən daimi fiziki təmrinlərlə məşqlərin təbii nəticələrindən biri əzələlərin həcmi, əzələ və piyin çəkisinin münasibəti və bədənin ümumi çəkisi kimi orqanizmin fiziki keyfiyyətlərinin inkişafıdır. Burada əsas hərəki-qüvvə və dözümlülük qabiliyyətlərinin tərbiyə edilməsi əhəmiyyətli rol oynayır. Əgər onların harmonik inkişafı təmin edilirsə və heç bir ciddi səhvə yol verilmirsə, onda əzələ həcminin və bədənin ümumi çəkisinin dəyişdirilməsi və piylənmə ilə mübarizə aparmaq ehtimalını aradan qaldırır.

Bədən tərbiyəsinin orqanizmə təsiri prosesində bədənin ağırlığını nisbi sərbəst idarə etmə məsələlərinə aşağıdakılar aiddir.

-Ayrı-ayrı əzələlər qrupunun və tam mənada əzələ kütləsinin ölçülü hipertrafiyyasının fəallaşdırılması qüvvə qabiliyyətinin inkişafına bazu əzələlərinin hormonik formalaşmasına qamətin normallaşdırılmasına tələb olunan səviyyədə lazımdır.

-Bədənin çəkisinin normallaşdırılmasına istiqamətli təsirinə və onun saxlanılmasına bədənin başqa komponetlərinin sağlamlaşması və uyğunlaşması sayəsində imkan verir.

- Normanın konkret ölçüləri, burada bir mənalı deyidir. Məlum olduğu kimi quruluşu adətən irsə şərtləndirilmişdir və bu bəhanəyə görə hər çəki dərəcəsi üçün bədənin quruluşu və formalarının və başqa əlamətlərini müəyyən etmək mümkün deyildir. Bununla bağlı norma haqqında qanuna

uyğun samopatik, yaş çinsi və başqa versiyaları nəzərə alaraq təkcə şərti demək olar ki, onlar idman ixtisasının xüsusiyyətləri ilə əlaqədardır. Bədənin çəkisinin normalara uyğun gəlməsini müəyyən etmək üçün vaxt olduqca sadə kifayət qədər təstiih edilməmiş ölçülərdir, bunun əsasındada bədənin uzunluğu (boyu) ilə müqayisə edilməsi durur. Belə ki, ”Brok indeksinə” görə bədənin çəkisi o vaxt normaya uyğundur ki, 100 ədədinin çıxmaqla (sm-lə) bağlı eynidir.

-Əgər bədən çəkisinin ölçüləri (qramla) boya (sm-lə) bölmək alınan nisbəti 350-450 q/sm qədərində olmalıdır. Bu və bunlara oxşar indeklərlə çəkinin normaları haqqında fikirlərdən təxminən istifadə etmək lazımdır, ona görə ki, o yaşdan, cinsindən somotopik xüsusiyyətlərdən və başqa faktorlardan asılıdır. Bədən çəkisinin boya uyğunluğun normada olmasını daha dəqiq müəyyən etmək üçün ona təsir edən bütün faktorları nəzərə almaqla yaradılmış normoqraflar köməklik göstərir.

Müxtəlif yaş dövrlərində müasir dövrdə bədən çəkisinin artması 12-13 yaşdan 15 yaşa qədər olur (qız uşaqlarında bir il tez). Az hərəkət edən yeniyetmələrdə piylənmə artır, tənbəl uşaqlar vaxtında hərəki fəallığı artırmaqla bunun qarşısını almasalar olduqca mənfi nəticəyə gətirib çıxara bilər. Bədən çəkisinin nisbi sakitləşməsi təxminən 25 yaşdan 40 yaşa kimi müşahidə etmək olar.

Bədən çəkisinin dəyişməsi ancaq sistemli təmrinlər vasitəsilə mümkün ola bilər.

Çox illik səmərəli bədən tərbiyəsi gigiyenik normalara uyğun olan qidalanma şəraitində orqanizmin çəkisinin dəyişmə ehtimalı yoxdur. Onun mötədil dəyişməsi təkcə o səviyyədə olur ki, o əzələlərin normal harmonik inkişafı, qamətin normallaşması, qüvvə və başqa hərəki qabiliyyətlərin inkişafında olan qüsurları aradan qaldırmaq üçün nəzərdə tutulur. Burada məqsədlərdən biri də, bədənin çəkisinin idman növündə (boks, güləş, karate, ağırlıq qaldırma, taekvando atletika) tələb olunan çəki dərəcəsinə çatdırmaq ola bilər. Lakin çəkini saxlamaq o hallarda ağılabatan olur ki, o zaman idmançının təbii fiziki qabiliyyətinin inkişafı məhdudlaşmır və vəziyyət çəkini salınmasını tələb etmir.

## ƏDƏBİYYAT


1. Aşmarin B.A.Teoriya i metodika fiziçeskoya vospitaniya. Moskva, 1979
2. M.nəsrullayev, E.Hüseynov, İ.Əliyev, Y.Nuriyev”Bədən tərbiyəsi və Metodikası”, 2012
3. Matveev L.P. Teoriya i metodika fiziçeskoya kulturı. Moskva, 1991
4. Vasilkov A.A. Teoriya i metodika fiziçeskoya vospitani”. Moskva, 2008
5. Blaquş P.K.K ”Teorii tesirovani” dviqatelnik sposobnostiki.Moskva, 1982


## ABSTRACT


**Valeh Alikhanov**


## MEANS AND METHODS OF OVERCOMING THE EXCESS WEIGHT OF PEOPLE


The article deals with means and methods of overcoming the excess weight in the body with the effects of exercise in exercise training in physical activity classes.

It should be noted generally that there is no risk of obesity and overdose in human nutrition without causing wasting, but sometimes related to the weight of the body it is required to solve issues in practice. The overall shortcomings of active movements occur when the daily workload reductions or full maintenance occur in unbalanced foods and other situations. Obviously, the best way of influencing such cases is the elimination of nonsmoking advances in body weight with the help of physical training and correction of nutrition.

As a factor in the effectiveness of different types of pyrolysis, it is generally considered normal to keep their carriers and calories, in which case the development of the athlete's natural-physical abilities is not limited and the situation does not require the maintenance of weight.

## РЕЗЮМЕ

**Валех Алиханов**

## ПУТИ И СРЕДСТВА УСТРАНЕНИЯ ЛИШНЕГО ВЕСА ЧЕЛОВЕКА

В статье рассматриваются средства и методы устранения в организме лишнего веса влиянием тренировочных упражнений на занятиях физического воспитания и спортивных тренировок.

Обосновывается мысль, что не допустив излишество в питании, человек не сталкивается с проблемой ожирения и устранением излишнего жира, однако иногда требуется на практике решить вопросы, связанные с весом тела. Лишний вес человека обнаруживается при нехватке общих активных движений, уменьшении нагрузки повседневных упражнений или их полном приостановлении, неругилированном питании (при переходе от одной весевой степени к другой с целью повышения относительно силовой способности спортсмена) и в других случаях.

Понятно, что при таких случаях самым лучшим средством (исключая патологических случаев, требующих специального врачебного вмешательства) являются устранение с помощью физического воспитания причин, порождающих отрицательных факторов в весе тела, и коррекция в определенной степени питания.

Как фактор эффективности упражнений, «растворяющих жир», как правило, в первую очередь в том случае считается нормальным, если их ношение и сохранение калория не ограничивают развитие естественно-физической способности спортсмена и его состояние не требует сохранения веса.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**ƏVƏZ TAĞIYEV**
*Naxçıvan Dövlət Universiteti*
*eveztağıyev@gmail com.*

**UOT: 372.8:796**

# MƏKTƏBDƏ BƏDƏN TƏRBİYƏSİ DƏRSİ FİZİKİ TƏRBİYƏ SİSTEMİNİN ƏSASIDIR

**Açar sözlər:** *Bədən tərbiyəsi, sağlamlıq, fiziki hərəkət, şagird, müəllim, dərs*
**Key words:** *physical education, health, physical activity, student, teacher, lesson*
**Ключевые слова:** *физическое воспитание, здоровье, физическая активность, учащийся, преподаватель, урок*

Məktəbli gənclərin hərtərəfli inkişaf etməsi üçün fiziki tərbiyə çox mühüm vasitədir.

Gənclərin tərbiyəsinin və eləcədə fiziki tərbiyəsinin ilk mənbəyi məktəbdir. Şagirdlər məhz burada əqli və əxlaqi cəhətdən tərbiyələnib bədəncə möhkəmlənir, əməyə və ölkənin müdafiəsinə hazırlanırlar gənc nəslin tərbiyə olunmasında bədən tərbiyəsi hərəkətlərinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası bədən tərbiyəsi və idmanı daha da inkişaf etdirmək tədbirləri haqqında çox mühüm qərarlar qəbul edib məktəblərdə Bədən tərbiyəsi və idman işlərinin daha yüksək pilləyə qalxması üçün böyük şərait yaradır.

Bədən tərbiyəsi dərsinin tədrisi fiziki tərbiyə işləri üzrə təlimin başqa formalarından bir neçə xüsusiyyətlərə görə fərqlənir: a) dərs möhkəm cədvəl əsasında aparılır; b) dərsə bilavasitə müəllim rəhbərlik edir; v) dərs müəyyən və dərsdə məşğul olanlar yaş xüsusiyyətlərinə və fiziki hazırlığına görə eyni səviyyəni təşkil edirlər.

Dərsin qarşısında duran mühüm tələblərdən biri təlim və tərbiyə işlərinin bütün dərs boyu davam etməsi, məşğul olanlardan ciddi nizam-intizam yaratmaq, şagirdləri bu və ya başqa iş fəaliyyətinə eyni bərabərdə və müxtəlif üsullardan istifadə edərək hazırlamaqdır.

Fiziki hərəkətlər üzrə məşğələnin dərs forması məşğul olanlardan təlim-tərbiyə işlərinin, hərəkətlərini texniki və taktikasının, eləcə də şagirdlərdə iradi-mənəvi keyfiyyətlərin yüksək mərhələyə qalxması üçün birinci şərt hesab edilir. Burada müəllim və ya məşqçi əsas sima olub, düzgün rəhbərliyi nəticəsində pedoqoji proses həyata keçirilir.

Bədən tərbiyəsi dərsinin düzgün təşkili və səmərli keçirilməsi məktəbdə fiziki tərbiyə üzrə iş formasının elə bir təməli hesab edilir ki, şagirdlərin hərtəfli ahəngdar inkişafı, eləcə də idman növlərinin gələcəkdə daha da təkmillədşdiriləsinin bütün sistem və formaları onun üzərində qurulur.

Qaçış, tullanmaq, tullanma və s. hərəkət növlərinin müxtəlif siniflərdə təlim edilməsi ilə əlaqədar olaraq bədən tərbiyəsi dərsinin qarşısında qoyulan məqsədlər mühüm əhəmiyyətə malikdir.

Dərsin qarşısında qoyulan şagirdlərin tərbiyəsi təhsili və sağlamlığına xidmət etməlidir. Fiziki hərəkətləri təlim edilən bütün dərslərdə şagirdlərin təhsilini yüksəltmək, onlara proqram materiallarının ayrı-ayır bölmələrini öyrətmək və təkmilləşdirmək lazımdır. Həmçinin dərsin ayrı-ayrı mərhələləri şagirdlərin sağlamlığını möhkəmlətməklə yanaşı eyni zamanda tərbiyəvi xüsusiyyət daşımalıdır. Məhz belə olduqda müəllim dərsin qarşısında qoyulan təlimin yüksəldilməsi məqsədinə asanlıqla nail ola bilər. Şagirdlərin fiziki cəhətdən möhkəmlənməsi və şüurlu intizamın təkmilləşdirilməsi bütün dərs müddətində yerinə yetirilərsə, bu onlarda müxtəlif bacarıq və vərdilərin aşılanmasına yardım edər. Buna baxmayaraq, dərsin qarşısında xüsusi olaraq sağlamlıq və tərbiyəvi məqsəd qoyulmaya da bilər. Dərsin qarşısında dügün qoyulan məqsəd şagirdlərə verilən fiziki hərəkətlərin təlimini təbiyə ilə üzvi surətdə birləşdirir, onların biliyini və fiziki hazırlığını artırır, sağlamlığını qoruyur.

Dərsin qarşısında bir neçə məqsəd qoyula bilər. Bu məqsədlə bilavasitə dərsin əsas hisəsində yeriən yetirilir.

Lakin bunlara birlikdə qamətin dügün tərbiyəsi, sıra təlimi vərdişləri qamətin düzgün tərbiyəsi, sıra təlimi vərdişləri bu və ya digər hərəkətin icrasına başlamaq üçün sıravi addımla getmək, icradan sonra öz yerinə həmin addımlarla geri qayıtma vərdişləri, diqətli və səliqəli olmaq, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətlər bütün dərs müddətində həyata keçirilməsidir.

Dərsin qarşısında qoyulan məqsədləri öz xüsusiyyətlərinə görə bir neçə yerə bölmək olar.

1. Ümumi fiziki inkişafın təkmilləşməsi öz üsusiyyətlərinə görə bir neçə yerə bölmək olar.
2. Xüsusi fiziki hazılığın təkmilləşməsi; zamanı sürət, güc, əldlik və davamlılığa xas olan hərəkətlər nəzərdə tutulur.
3. Fiziki hərəkətlər sahəsində xüsusi bilik, bacarıq və vərdişlərin təkmilləşməsi; burada proqram materialının mənimsənilməsi nəzərdə tutulur. Məsələn, kəndirə dırmaşmaq, qısa məsafəyə qaçışın texnikasının təkmilləşdirmək, topun aşağıdan düzünə oyuna daxil edilməsi, yadronun sıçrayışa itələnməsini öyrətmək və s. yerinə yetirilir.
4. Münsiflik (hakimlik) üzrə bilik və bacarıqların öyrədilməi və təkmilləşdirilməsi; burada münsif köməkçisi, katib və başqa münsiflik vəzifələrin icra edilməsinə xas olan tədbirlər nəzərdə tutulur.
5. Pedoqoji vərdiş və biliklərin öyrənilməsi; bu zaman şagirdlər müəllim müxtəlif taşırıqlarını yerinə yetirirlər. Məsələn, alət də hərəkəti icra edənin mühafizə olunması, dərsin hazırlıq hissəsində bədəni qızışdırmaq üçün kompleks hərəkət keçmək, mühərrik oyun öyrətmək və s.
6. İradi-mənəvi keyfiyyətlərini təbiyə edilməsi burada şagirdlər dərsə və hərəkətlərin icra olunmasına düzgün və şüurlu yanaşırlar, bədən tərbiyəsi əlamətlərinə, əxlaq tərbiyəsinə daha dərindən riayət etməklə birlikdə alətdə bəzi hərəkətlərin (paralel qollarda, turnikdə, halqalarda, tirdə) icrasını başqasının köməyi ilə və kompleksiz yerinə yetirirlər.

Bununla şagirdlərdə özünə inam, sürətlilik, möhkəmlilik və nizam-intizam təkmiləşir.

Müəllim dərs gedişi zamanı hərəkətləri tədris edərkən şagirdlərin dərsə cəlb edilməsində aşağıdakı üsullarından istifadə edir.

1. Frontal üsul zamanı hərəkəti bütün sinif şagirləri bilikdə icra edirlər. Dərsin əsas hissəsində hairlıq və tamamlayıcı hissələrə nisbətən həmin üsulun təbiq edilməsi müəllimindən böyük ustalıq tələb edir. Frontal üsulun tətbii zamanı şagirdlərin gərginliyi artır. Dərsin sıxlığı yüksəlir, eyni zamanda növbə gözləyən şaird olmur, dərs isə səmərəli keçir.

Dərsin məqsədinə nail olmaq, hərəkətləri şagirdlərə mükəmməl mənimsətmək üçünmüəllim, şagirdlərin fiziki hairlıq səviyyəsini, yaşını və cinsini nəzərə alaraq dərs prosesində tətbiq etdiyi təlim üsullarını düzgün müəyyənləşdirməli və onlardan məharətlə istifadə etməyə bacarmalıdır. Təlim üsullar proqram materialının şagirdlərə yüksək səviyyədə mənimsənilməsini mühüm amilərindən biri olmaqla, onların hər tərəfli, fəal və müstəqillik bacarıqlarının inkişafını təmin etməlidir.

Bədən tərbiyəsi dərslərində əsasən üç təlim üsulundan istifadə edilir; 1) şifahi üsul; 2) əyani üsul; 3) təcrübə üsul.

1. Şifahi üsul izah, nəql, söhbət daxildir. Həmin üsulun tətbiqinə müəllim müəyyən bir hərəkəti qısa: aydın və ardıcıl olaraq şagirdlərə söyləyir.

İzah etmə. Şagirdlər hər hansı bir hərəkəti icra etmək üçün ilk dəfə həmin hərəkət haqqında müəyyən təsəvvürə malik olmalıdır. Bu məqsədlə müəllim həmin hərəkəti qısa aydın ardıcıl və mövcud terminlərlə izah edərək şairdlərə dəqiq anlayış verməlidir. Lakin, bu zaman şagirdlərin biliyi və fiziki hazırlığı nəzərə alınmalıdır. İzah etmə hərəkətin icrasından qabaq yerinə yetirilir. Buna baxmayaraq bəzi hallarda həmin hərəkəti icra edə-edə izah etməyə ehtiyaca tələb olunur.

Nəql. Şifahi üsulun bir növü də nəql hesab olunur. Nəql izaha nisbətən geniş şərh edilir. Eyni zamanda proqramın yeni materialı (yeni idman növü) öyrətdiyə başladıqda tətbiq edilir. Məsələn, IX sinifdən başlayaraq bütün məktəblər üçün ümumi ədris proqram materialının (gimnastika, yüngül atletika, voleybol və əl topu) birinin qurtarıb o birinə başladıqda müəllim, həmin idman növünün qısa məzmununun fəndlərini və idmançılarının nailiyyətlərini nəql edir. Bu

üsul şairdlərin həmin idman növünə qarşı maraının artmasına səbəb olur. Nəql qısa, aydın və təsirli olmalıdır.

Söhbət. Proqram materialının necə mənimsənilməsini müəyyən etmək üçün müəllim, sual-cavab yolu ilə söhbət təşkil edir. Söhbət zamanı oyunun qaydaları, texniki fəndlər və s. Hərəkətlərin icra edilməsinin necə dərk olunmasını müəllim müəyyənləşdirir. Söhbət nəticəsində şagirdlərin əzəri bilik səviyyəsi daha da aydınlaşır lakin söhbət üçün artıq vaxt sərf etmək düzgün olmaz.

II Əyani üsul. Müəllim hərəkəti nümunə olaraq göstərir və ya həmin hərəkətin şəklini əl hərəkəti ilə göz qabağına gətirmək yolu ilə şagirdlərdə anlayış yaradır. Əyani üsulda belə bir anlayış hərəkətin öyrənilməsi üçün qabaqcıl əhəmiyyətə malikdir.

Göstərmə. Hərəkətin öyrədilməsi möhkəm yadda qalmaq üçün onu göstərmək çox vacib şərt hesab edilir. Hərəkət ilk dəfə tam göstərilmişdir. Əgər onun yerinə yetirilməsi şagirdlər üçün çətinlik törədə zaman, həmin hərəkət hissə-hissə göstərilməlidir. Müəllim hərəkətin ən çətin hissəsinin yerinə yetirilməsi üçün son ərəcə asan yollar toplamalıdır, həmin yollar hərəkətin göstərilməsində xüsusilə fərqlənməsidir. Hərəkət düzgün və səlis göstərildikə onun ayrı-ayrı elementlərini şagirdlər daha tez qovrayır. Buna görə icra olunun hərəkəti şagirdlər yandan, irəlidən və əlaqələndirmək məqsədi ilə hərəkətin göstərilməsinə bacarıqlı şagirdlər əyin edilir. Bu zaman hərəkət haqqında daha düzgün əsəvür əldə etməyə şərait yaranır. Yeni şagird, müəllimin köməyi ilə hərəktin yavaş icra edir. Müəllim isə ona kömək etməklə nöqsan buraxıla biləcək yerləri göstərir. Məsələn IX sinifdə oğlanlar paralel qollarda qıçlar aralı olmaqla irəliyə mayallaq aşmaq hərəkətini icra edərkən dirsəkləri gövdəyə birləşdirilir. Qüsuru aradan qaldırmaq üçün müəllim hərəkət edən şagirdin irəli aşma zamanı dirsəkləri çiyin bərabərinə qaldırılmasına nail olur və həmin vəziyyətdə bir qədər saxlayıb şagirdlərə göstərdikdən sonra hərəkətin yerinə yetirilməsi davam edir.

## ƏDƏBİYYAT


1. İ.Aslanov, S.Əmirov, İ.Qasımov . Orta məktəbdə bədən tərbiyəsi jurnalı-Bakı-1984
2. Məktəbdə bədən tərbiyəsi jurnalı. 1988. №3
3. Məktəbdə bədən tərbiyəsi jurnalı. 1988. №5
4. Məktəbdə bədən tərbiyəsi jurnalı. 1988. №8


## ABSTRACT


**Evez Tagiyev**



It focuses on the fact that schoolchildren are considered to be one of the most important means of physical education for the comprehensive development of young people, as well as mentally and morally upbringing of young people, strengthening their body.

The physical activity course focuses on engaging in education and training, technical and tactical exercises, as well as the essential conditions for achieving a high level of irrational and spiritual qualities in students.


## РЕЗЮМЕ


**Аваз Тагиев**



Он фокусируется на том, что школьники считаются одним из важнейших средств физического воспитания для всестороннего развития молодежи, а также умственного и нравственного воспитания молодежи, укрепления их тела.

Курс физической активности фокусируется на учебе и подготовке, технических и тактических упражнениях, а также на необходимых условиях для достижения высокого уровня иррациональных и духовных качеств у студентов.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**OKTAY RZAYEV**
**NƏRMİNƏ HƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti*
*oktay-rzayev@ mail.ru*

**UOT:355.13**

# FÖVQƏLADƏ VƏZİYYƏT ZAMANI ƏHALİNİN XƏBƏRDAR EDİLMƏSİ

**Açar sözlər:** *Fövqəladə vəziyyət, xəbərdarlıq siqnalları, hamının diqqətinə, diqqət, hava həyacanı qurtardı, radiasiya təhlükəsi, kimya həyacanı, yoluxucu xəstəliklər və kimyəvi zəhərlənmə ocağı*

**Key vords:** *Emerqency, Warninq siqnals, Attention, for all, Attention, Air strike stopped, Radiation hazard, Chemistry excitement, infections diseases, Chemical poisoninq furnace, Population awareness*

**Ключевые слова:** *Чрезвычайные положение, предупредительные сигналы, внимание!, воздущная тревога, радиоционная опасность, химическая тревога, инфекционные волезни, очаг химического зарожение*

Gözlənilən, yaxud baş verən fəlakət barədə əhalini vaxtında xəbərdar etmək mülki müdafiənin ən əsas vəzifələrindən biridir. Qəza haqqında xəbər verməyin qaydası onun miqyası və yayılma sürəti nəzərə alınmaqla müəyyən edilir. Lakin bütün hallarda təhlükə haqqında xəbərdarlığın əsas vasitəsi radio və televiziya şəbəkəsidir. Adamların diqqətini tez cəlb etmək, həmçinin onların dərhal radio və televizorların ətrafına toplaşmasına nail olmaq üçün fövqəladə hallarda sirenlərdən, nəqliyyat vasitələrinin fit səslərindən istifadə etməklə səs siqnalları verilir. Belə siqnal "hamının diqqətinə" siqnalı adlanır.

Bu həyəcan siqnallarını eşidən kimi hamı dərhal radio və televizorlar qoşaraq hökümət orqanlarının, mülki müdafiə qərargahının fövqəladə hadisə barədə verdiyi xəbər və məlumatları diqqətlə dinləməlidir. Təhlükə haqqında xəbərlə birlikdə əhalinin davranış qaydaları barədə qısa və aydın məsləhətlər, göstərişlər də verilir.

Xəbərdarlıq siqnalları barədə qabaqcadan tam təsəvvür yaradılmalıdır. Hamı bilməlidir ki, xəbərdarlıq siqnalları sülh və müharibə dövründəki fəlakətlər zamanı verilir. Ancaq bunların biri digərindən fərqlənir və bunu əhalinin bilməsi vacibdir.

Öncə qeyd edek ki, bir sıra təbii fəlakətlər barədə qabaqcadan xəbər vermək mümkündür. Məsələn yaz daşqınlarının ehtimalı bir ay qabaqcadan bəlli olur və bu barədə müvafiq tədbirlər görülür. Yaxud sel təhlükəsi barədə 10-20 dəqiqə, bəzən 1-2 saat qabaq xəbər çatdırmaq olar. Bu zaman yerli mülki müdafiə qərargahı belə bir məlumat verə bilər:

"Diqqət! Danışır rayon mülki müdafiə qərargahı. Vətəndaşlar! Çayda suyun səviyyəsinin qalxması müşahidə olunur. Çayın sağ sahilindəki məhəllələri su basacağı gözlənilir. Həmin məhəllələrdə yaşayanlar ən vacib və zəruri şeyləri götürüb mərkəzi meydana tələssinlər. Evdən çıxarkən sobanı, qazı, işığı söndürməyi unutmayın. Bu barədə qonşularınıza da xəbər verin. Radio şəbəkəsi ilə verilən xəbərləri diqqətlə dinləyin, göstərişlərə dəqiq riayət edin".

Belə bir vacib cəhəti də qeyd edək ki, müharibə zamanı adamlar hər cür ekstremal hallara qarşı ayıq olur, mülki müdafiə siqnalları və məlumatları üzrə çevik hərəkət edilər.

Başqa sözlə, mülki müdafiə qərargahının göstərişlərini yerinə yetirməyə müəyyən dərəcədə hazır olular. Halbuki təbii fəlakətlər zamanı əhalinin belə çevik və dəqiq hərəkət etməsi heç də az əhəmiyyətli deyil. Bir sıra hallarda, tutalım, güclü qəzalar zamanı itirilən hər dəqiqə fəlakətin miqyasını genişləndirə bilər. Buna görə də mülki müdafiə orqanları ehtimal olunan belə qəzalara qarşı adamlar arasında qabaqcadan geniş izahat işləri aparılmalı, təhlükəli ərazilərdə işləyənləri və

yaşayanları buna hazırlamalıdır. Həmin ərazinin hər bir sakini bilməlidir ki, həyəcan siqnalı verildikdə necə hərəkət etməlidir.

Bilmək lazımdir ki, təbii fəlakətlərin, habelə qəzaların növündən və bu zaman yaranan konkret vəziyyətindən asılı olaraq "hamının diqqətinə!" siqnalından sonra mülki müdafiə qərargahı tərəfindən elan edilən məlumat və göstərişlərin məzmunu müxtəlif ola bilər. Buna görə də hər bir adam onları diqqətlə dinləməli, təmkinli olmalı, cəld və mütəşəkkil davranmalıdır.

Müharibə dövründə isə vəziyyət dəyişir. Düşmən hücumu barədə xəbəri əhaliyə hakimiyyət orqanları verirlər. Bu xəbər radio və televiziya, mətbuat orqanları vasitəsilə əhaliyə çatdırılır. Düşmən hücumu təhlükəsi yaranan dövürdə vəziyyət çox müxtəlif, bəzən isə xeyli mürəkkəb olur.

Müharibə zamanı düşmənin nüvə, kimyəvi, bakterioloji silahlar və başqa silahlar işlətmək qorxusu yarandıqda dərhal mülki müdafiənin xəbərdarlıq siqnalları verilir, bu məqsədlə radiodan, televiziyyadan, bütün rabitə vasitələrindən, səs və işıq siqnallarından istifadə olunur. Belə hallarda "hamının diqqətinə!" siqnaldan sonra yaranmış vəziyyətdən aslı olaraq mülki müdafiənin "Hava həyəcanı", "Hava həyəcanı qurtardı". "Radiasiya təhlükəsi", "Kimya həyəcanı" siqnalları verilə bilər. Bütün əhalinin bu siqnalları bilməsi və onun tələblərinə əməl etməsi vacibdir. Bu tələfatı xeyli azalda bilər.

Bu siqnalların hər birisini konkret şəraitdə nəzərdən keçirək: - "**Hava həyacanı**" siqnalı xəbərdarlıq edir ki, düşmənin hava basqını gözlənilir. Öncə sirenlər bunu "**Hamının diqqətinə**" çatdırır.Sonra isə radio-televiziya ilə belə bir elan verilir." Diqqət! Diqqət! Diqqət! Danişir Mülki Müdafiə Qərargahı ! Vətəndaşlar, hava həyəcanıdır! Hava həyəcanı! " bu elan bir neçə dəfə təkrar olunur. Əhalinin daldalanması barədə göstəriş verilir.

Bu zaman evlərdə olanlara yubanmadan pəncərələri örtməli, qızdırıcı cihazları, işığı söndürməli və əvvəlcədən tədarük etdikləri ərzağı, suyu, mühafizə və təbii yardım vasitələrini götürüb ən yaxındakı sığınacağa getməlidirlər. İstehsalatda olan bütün aqreqatları dayandırmalı, cərəyanı kəsməli və qabaqcadan müəyyən edilmiş qaydada hər bir birqada və növbə onlar üçün nəzərdə tutulmuş sığınacağa gətirməlidir. Əgər istehsalat rejiminə görə hər hansı aqreqatı, turbini, peçi, texnoloji xətti dayandırmaq mümkün deyilsə, onlar nisbətən təhlükəsiz iş rejiminə keçirilir, əvvəlcədən təyin edilmiş müəyyən adamların nəzarəti altında saxlanılır və həmin adamların qorunması üçün müvafiq yerlər düzəldirlər.

**"Hava həyacanı"** zamanı bütün tədris müəssisələrində məşğələlər dayandırılır, hamı mühafizə qurğularına gedir. İctimai yerlərdə (kinoteatrlarda, bazarda, mağazada və s.), nəqliyyat vasitələrindən olanlar yaxındakı daldanacağa getməlidirlər. Əgər belə sığınacaq yerləri yoxdursa daldalanmaq üçün yeraltı keçidlərindən, tunellərdən və s. istifadə etmək lazımdır.

**"Hava həyacanı"** zamanı kəndlərdə əhali ailə daldanacaqlarına yığılmalıdır. Malqaranı tövlə şəraitində saxlamaq məsləhətdir. Hava həyəcanı vaxtı örüşlərdə olan naxır və sürüləri yaxşı olar ki, meşələrə sürsünlər. Çöl şəraitində maiqaranın qorumaq üçün yarğanlardan, xəndəklərdən, mağaralardan və s.istifadə etmək məsləhətdir. Ümumiyyətlə, çalışmaq lazımdır ki, malqara düzdə, açıq sahələrdə qalmasın. Bütün hallarda yalnız "hava həyəcanı qurtardı" siqnalı verildikdən sonra daldanacaqları tərk etmək olar. Bu zaman yerli radio şəbəkəsi və səs ucaldan qurğular vasitəsi ilə elan edilir: "Diqqət! Danışır Mülki Müdafiə Qərargahı! Havadan basqın təhlükəsi sovuşdu. Hava həyəcanı qurtardı!"

Düşmənin zərbə endirdiyi və zədələnmə ocağı yaranan yerlərdə "Hava həyəcanı qurtardı!" siqnal verilir. Belə hallarda sığınacaqlarda qorunanlara vəziyyətlə əlaqədar olaraq məlumat və davranış qaydaları barədə tövsiyyələr verilir. Xatırladaq ki, bu zaman yerli mülki müdafiə orqanını göstərişləri dəqiq yerinə yetirmək son dərəcədə zəruridir. Əks təqdirdə adamlar radioaktiv və ya kimyəvi zəhərlənməyə məruz qalırlar.

**"Kimya həyəcanı"** siqnalı kimyəvi və ya bakterioloji zəhərlənmə təhlükəsi olduqda, yaxud belə zəhərlənmələr bilavasitə aşkar edildikdə verilir. **"Hammının diqqətinə!"** xəbərdarlıq siqnallarından sonra yerli mülki müdafiə qərərgahının belə bir məlumatı əhaliyə çatdırılır: Diqqət! Danışır Mülki Müdafiə Qərargahı! Vətəndaşlar ! Kimya həyəcanı! Bu, yerlərdə səs və işıq siqnalları vasitəsilə təkrar olunur. Ardınca aşkar olunmuş zəhərləyici maddənin və ya yoluxucu xəstəlik törədicisinin növü nəzərə alınmaqla adamların davranış qaydaları haqqında məsləhətlər verilir.

Kimyəvi zəhərlənmə ocaqlarında adamlar mümkün qədər tez çıxmalıdırlar. Onların hansı istiqamətdə getmələrini mülki müdafiə və ya polis postu işçiləri göstərirlər. Onlar olmadıqda adamlar zəhərlənmə zonasından küləyin səmtinə perpendikuliyar istiqamətində çıxmalıdırlar. Bundan sonra adamlar sanitariya təmizlənməsindən keçməlidirlər. Bakterioloji yoluxma oçağından əhalinin öz başına çıxmasına yol verilmir. Çünki belə sahələrdə karantin və ya observasiya rejimi qoyulacaq, adamları sonrakı davranış qaydaları müəyyən ediləcək. Qeyd etdiyimiz kimi kəndlərdə daldalanmaq üçün nəzərdə tutulan ailə sığınacaqları qabaqcadan möhkəmləndirilməli, hermetikliyi təmin olunmalıdır. İçəridə ailənin rahatcılığı üçün hər çür şərait yaradılmalı, radio və televiziya qurğularının işlədilməsi təmin edilməlidir. Çünki hadisələrin gedişi habelə kimyəvi və ya bakterioloji zəhərlənmə təhlükəsini sovuşması barədə məlumat və ya ondan sonrakı davranış qaydaları haqqında göstərişlər həmin vasitələrlə veriləcək.

**"Kimya təhlükəsi"** siqnal verilərkən malqaranın da qayğısına qalmaq vacibdir. Ərzaq və yem ehtiyatlarının, su mənbələrinin qorunması üçün müvafiq tədbirlər görülməlidir.

**"Radiasiya təhlükəsi"** siqnalı bu və ya digər ərazidə radioaktiv zəhərlənmə aşkar olunduqda və ya belə zəhərlənmə ən kecid bir saat ərzində gözlənildikdə verilir. "Hava həyacanı" və "Kimya həyəcanı"siqnallar zamanı olduğu kimi "radioasiya təhlükəsi gözlənildikdə də öncə "hamının diqqətinə! "siqnal, sonra isə "Radiasiya təhlükəsi" məlumat verilir. Bu zanan bütün rabitə və xəbərdarlıq vasitələrindən istifadə edilir, yerlərdə isə bu səs və işıq siqnalları ilə təkrar edilir. Sonra belə qərar verir: "Diqqət! Danışır Mülki müdafiə qərərgahı! Vətəndaşlar! Radioasiya təhlükəsi!" Radioasiya təhlükəsi!". Bunun ardınca görülən mühafizə tədbirləri barədə, habelə əhalinin davranış qaydaları haqqında mülki müdafiə qərərgahının tövsiyyələri və göstərişləri əhaliyə çatdırılır.

Adamlar dərhal respirator, radioaktiv tozdan qoruyan parça maska pambıqlı tənzif sarğı, əgər bunlar yoxsa əleyhqaz geyib sığınacağa və ya radiasiya daldanacağına getməlidirlər. Sonrakı davranış qaydaları əsasən "Hava həyəcanı" və "Kimya həyəcanı" zamanı olduğu kimidir vəhər bir konkret halda mülki müdafiə qərargahı tərəfindən dəqiqləşdirilib əhaliyə çatdırılır.

Radioaktiv maddələrlə zəhərlənmiş ərazidə əhalinin mühafizə və davranışı rejimləri radiasiyanın səviyyəsindən asılı olaraq mülki müdafiə tərəfindən müəyyən edilib elan olunur. Məqsəd adamların təhlükəsiz dozadan artıq şüalanmaya məruz qalmasının qarşısını almaqdır. Radiasiya mühafizə rejimi-zəhərli sahələrdə adamların ardıcıl olaraq əvvəlcə radiasiya daldanacağından, bundan sonra isə adi binalarda qalması və mühafizə vasitələri işlətməsi müddətini təyin edir.

Zəhərlənmiş sahələrdə qalmağa məcbur olan hallarda adamlar hökmən fərdi mühafizə vasitələri işlətməli, 2 saylı radiasiyadan mühafizə dərmanını (Aİ-2 aptekcəkisindən) içməli və təhlükəsiz davranış qaydalarına riayət etməlidirlər. Fərdi mühafizə vasitələri çıxarmaq, açıq əllə ətrafdakı əşyalara toxunmaq, yerdə oturmaq və ya uzanmaq, hərəkət və ya iş vaxtı toz qaldırmaq, açıq yerlərdə xörək yemək, su içmək, papiros çəkmək, paltarı, ayaqqabıları, çöldə təmizləmədə yaşayış binalarına girmək, ehtiyac olmadan binalardan kənarda qalmaq olmaz.

Kimyəvi zəhərlənmə ocağında davranış qaydaları belədir: mülki müdafiə qərərgahının xüsusi göstərişi olmadan sığınacaqdan çıxmamaq:sığınacağın kipliyi pozula və ya radasiya daldanacaqlarda qalan hallarda fərdi aptekçidən antidot dərman edəndən sonra əlehiqaz geymək, dərini qoruyan paltar geyinmək və ancaq mülki müdafiə işçilərinin göstərişi üzrə mühafizə qurğusunu tərk etmək; açıq yerlərdə (qurğudan kənarda) qalan hallarda dərhal əlehiqaz geymək, qoruyucu paltarları geyinmək və zəhərlənmə ocağından çıxmaq; xüsusi qoruyucu paltarlar olmadıqda dərhal köynəyin və pencəyin ətəklərini şavların içinə salmaq, şavların balaqlarını topuqda, köynəyin qollarını biləkdə qaytanla bağlayıb bərkitmək, əllərə əlcək, ayaqlara rezin ayaqqabı geymək, başı başlıq və ya yaylıqla kip örtmək, üstdən sintetik və ya rezin parçadan olan (boloniya tipli) plaş geymək, yaxalığı qaldırıb üstdən şarf bağlamaq, kimyəvi zəhərlənmə ocağından çıxmayınca fərdi mühafizə vasitələrini əyindən çıxarmamaq, bədənin dərisi üzərinə və ya paltara zəhərləyici maddə damcıları düşən hallarda bu damcıları fərdi kimyəvi paketdəki məhlulda və ya naşatır spirtində isladılmış tamponla təmizləmək lazımdır; zəhərli sahələrdə çıxandan sonra tibbi müayinədən və tam sanitariya təmizlənməsindən keçmək lazımdır.

Yoluxucu xəstəlik ocağında bütün əhali müəyyən olunmuş davranış rejiminə riayət etməyə borcludur.

Yoluxucu (infeksion) xəstəliklər aşkar edilərkən: pəncərə və qapı yerlərini yaxşı kipləşdirmək, məişətdə az işlədilən ev əşyalarını yığışdırıb əl-ayağa dolaşmayan yerlərdə saxlamaq lazımdır. Ərzaq malları və içməli su ağzı kip bağlanan qablarda saxlanılmamalıdır. İstifadə etməzdən əvvəl ərzaq məsulların qaynatmamaq və ya qorumaq vacibdir; çörəyi xırda tikələrə doğrayaraq alovun üzərində (pecdə, duxovkada) qızdırmaq, meyvə-tərəvəzi yaxşıca yumaq və ya üzərinə qaynar su tökmək lazımdır. Su və ya süd ən azı 30 dəqiqə qaynadılmalıdır. Qab-qaçaq təmiz yuyulandan sonra qaynadılmalıdır.Yeməkdən əvvəl adamlarla təmasda olduqdan sonra əlləri hökmən sabunla yumaq, paltar, ayaqqabıları tez-tez təmizləmək, müntəzəm surətdə çimmək və alt paltarlarını təmiz saxlamaq, mənzilin, həyətin, iş yerinin, ümumi ümumi istifadə yerlərinin çirkli olmasına yol verməmək lazımdır.Hər bir şəxsin ayrıca qab qacaqdan, məişət və tualet əşyalarından istifadə etməsi məsləhət görülür. Yolxucu xəstəliyin əlamətləri aşkara çıxan kimi (hərarətin yüksəlməsi, başağrısı, iştahsızlıq, urək bulanması, qusma, mədə pozğunluğu) bu barədə dərhal tibb məntəqəsinə xəbər verilməli, xəstəni ayrıca otaqda və ya otağın müəyyən hissəsində yerləşdirməli, şəxsi əşyalarını, paltarlarını, yataq ləvazimatını, qab-qacağı, mebeli və mənzili dezinfeksiyadan keçirmək lazımdır.

Xəstə ilə təmasda olan bütün şəxslər tam sanitariya təmizlənməsindən keçməlidir.


## ABSTRACT

**Oktay Rzayev**
**Narmina Hasanova**

### DECLARATION TO THE PEOPLE DURING AN IMMEDIATE TIME

The artıclı is expected to warn population in time abut acidents that uill occur and to determine its scale and propagation speed.

To attract public attention saınd signals are given using sirens and horn of transportation in emergencis. Full imagination abaıt kerning signals is needed that the people should beready for it.



## РЕЗЮМЕ

**Октай Рзаев**
**Нармина Гасанова**

### ОРОВЕЩЕНИЯ НАСЕЛЕНИЯ ПРИ ЧРЕЗВЫЧАЙНОМ ПОЛОЖЕНИИ

В статье расматриваются случаи о намечающихся или произошедших катастрофах при которых вовремя предупреждается население.

Для вовлечения внимание население в экстренных случаях используются сирены и сигналы автомовилей.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

**AYGÜN RÜSTƏMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*aygun-rustemova@inbox.ru*

**UOT:373**

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ ADAPTASİYASINDA HAFİZƏNİN ROLU

**Açar sözlər:** *təlim, adaptasiya, hafizə, kiçik məktəbyaşlı, şagird, uşaq*
**Key words:** *training, adaptation, memory, little schoolchildren, pupil, child*
**Ключевые слова:** *обучение, адаптация, память, младший школьник, ученик, ребенок*

Təlim fəaliyyəti kiçik məktəblinin bacarıq və vərdişlər qazanmasına yardım edən mürəkkəb proses olmaqla, uşaqdan psixoloji xüsusiyyətlərin inkişafını tələb edərək, onun qarşılıqlı münasibətlər sisteminə daxil olmasını təmin edir. Uşaqlar üçün təlim fəaliyyəti onların həyatının ən önəmli anlarından biridir. Bu dövr uşağın həyatında yeni əlaqələr, yeni məsuliyyətlər üçün başlanğıcdır.

Kiçik məktəbyaşı dövrünün əsas istiqaməti öyrənmə fəaliyyətidir. 6-7 yaşlı uşaq üçün məktəb onun böyüməsi və stressli dövrə keçməsi deməkdir, məhz buna görə də təlimə başlayarkən uşaqların müəyyən səviyyədə intellektual, nitqi və şəxsi inkişafı vacibdir. Təlim fəaliyyətinin ilk günlərində kiçik məktəbli məktəbdə kifayyət qədər əziyyət çəkir: Çünki o artıq çantasına oyuncaqları deyil, kitabları və dəftərləri yığaraq müəllimin verdiyi tapşırıqları yerinə yetirməlidir. Artıq onun üçün məktəbəqədər dövrdən fərqli olaraq təlim fəaliyyəti, tədris tapşırıqları cizgi filmlərindən daha vacibdir. Belə ki, kiçikyaşlı məktəbli uzun müddət diqqətini yüksək səviyyədə mərkəzləşdirməli, müəllimin dediyi hər şeyi yaxşı başa düşməli və yadda saxlamalıdır[3, 1]. Hər şeydən əvvəl uşağın təlim fəaliyyətinə psixoloji hazırlığı vacibdir. Yəni kiçik məktəblinin təlim fəaliyyətini mənimsəməsi üçün onun zehni inkişafı təmin edilməlidir.

Öyrənmə prosesi kiçikyaşlı məktəblinin bilik, bacarıq və vərdişlər qazanması ilə onun psixoloji inkişafını təmin edir. Təlim fəaliyyətinin təsiri altında şagirdin bütün idrak proseslərində ixtiyarilik, sabitlik, səmərəlilik və məhsuldarlıq inkişaf edərək yeni bacarıq və qabiliyyətlərin formalaşmasına şərait yaratmaqla onun öyrənməyə adaptasiyasını sürətləndirir.

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyasında hafizənin böyük rolu vardır. Yaşanan hadisələrin, qazanılan təcrübənin və öyrənilənlərin düzgün və güvənilən şəkildə zehində qorunub saxlanılması və lazım olduqda xatırlanması hafizə adlanır(Aral 2000, Köknel 2003, Munger 2004)[8, 1].

Hafizə bizim zehnimizin, şüurumuzun, zəkamızın təməlidir. Bəzi alimlər hafizəni sehirli qutu adlandırırlar. Çünki məhz hafizə sayəsində gələcəyimiz üçün keçmişimizi qoruyub saxlayırıq. Hafizə insanların aldığı məlumatları saxlayan, xatırlayan və təkrarlayan mürəkkəb idrak prosesidir. Psixoloq Strenberq (2000) qeyd edirdi ki, hamı hafizənin nə olduğunu açıqlaya bilər, amma digər tərəfdən heç kim onun nə olduğun anlaya bilməz[6, 13].

Ətraf mühitdə baş verən hadisələrin duyqu orqanlarının köməyi ilə beynin xüsusi bölməsində hifz olunması və lazım olduqda yenidən işlənib xatırlanması hafizə adlanır[8, 1].

Kiçikyaşlı məktəblilər üçün hafizənin inkişafı uşaqlarda düşünməyi, başa düşməyi, öyrənməyi öyrədən və nəticədə təlim fəaliyyətinə adaptasiyasını təmin edən idrak prosesidir.

Öyrənmə fəaliyyətində müvəffəqiyyət və adaptasiya əsasən uşaqların hafizələrinin inkişaf səviyyəsindən asılıdır. Kiçikyaşlı məktəblilərin hafizə prosesinin formalaşma və inkişaf məsələlərinin nəzəri və tətbiqi aspektlərini bir çox xarici ölkə psixoloqları araşdırmışlar (Qalperin, P.Y.Kolominskiy, Y.P.Nemov, R.S.Panko, E.A.Smirnov)[4, 1].

Tədqiqatçılar A.A.Smirnova və P, İ.Zinçenko hafizənin inkişafını yeni və mövcud tələblərin yerinə yetirilməsində uşağın əsas fəaliyyəti kimi qəbul edirdilər. Hafizə uşağın intellektual qabiliyyətlərinin inkişafını təmin edən zəruri idrak proseslərdən biridir.

Kiçik məktəb yaşı dövründə digər idrak prosesləri kimi hafizə də dəyişikliyə məruz qalır. Belə ki, məktəbəqədər yaşlı uşaqlarla müqayisədə kiçik məktəblilərin hafizəsi daha mütəşəkkil xarakter daşımaqla yaddaşlarında tədricən müstəqillik, şüurlu tənzimlənmə yaranır. Onlarda əyani obrazlı hafizə inkişaf edir. Kiçikyaşlı məktəbli konkret obyektləri üzü, rəngi, faktları daha yaxşı yadlarında saxlayırlar. Ona görə də uzun-uzadı izahatları yadda saxlamaqda çətinlik çəkən 6-7 yaşlı uşaq əyani olaraq qavradığı materialı asanlıqla yadda saxlaya bilir. Bu həmin dövrdə uşaqlarda birinci siqnal sisteminin, o cümlədən obrazlı hafizənin hələ üstünlük təşkil etməsi ilə əlaqədardır[5, 139].

Uşaqların hafizəsi məktəbdə müntəzəm təlim-tərbiyə sayəsində sürətlə inkişaf etdiyinə görə məktəbyaşı dövrü uşağın yaddaşının, hafizəsinin inkişafı üçün ən məhsuldar dövrdür.

Hafizənin aşağıdakı növləri vardır:

- Sözlü məntiqi hafizə;
- Əyani obrazlı hafizə;
- Emosional hafizə;
- Hərəki hafizə.

Kiçik məktəb yaşı dövründə, xüsusilə 7 yaşda uşaqda bu hafizə növlərinin demək olar ki, hamısı inkişaf etməyə başlayır. Buda onu sübut edir ki, kiçik məktəblidə hafizə bütün duyqu orqanları sayəsində -görmə, eşitmə, iybilmə, toxunma duyquları sayəsində mümkün olur. Bununla bərabər qeyd etmək lazımdır ki, uşaqda bütün hafizə növlərinin hamısı eyni intensivliklə inkişaf edə bilməz. Nəzərə almaq lazımdır ki, hər bir uşağın individual xüsusiyyətlərindən asılı olaraq hafizənin də xarakterik xüsusiyyətləri dəyişir. Yəni uşaqların bəziləri məlumatları eşidərək, bəziləri görərək, bir digərləri isə toxunaraq, hiss edərək yadlarında saxlayırlar.

Təlim fəaliyyətində uşağın hafizəsinin ixtiyari və qeyri-ixtiyari kimi növləri də özünü göstərir. Qeyri-ixtiyari yaddasaxlama zamanı obyektlər uşağın hər hansı bir səy göstərmədən yadında qalmasıdır. Uşaqlar onlar üçün maraqlı, həyəcanverici materialları, məlumatları, obyektləri qeyri-ixtiyari olaraq yadlarında saxlayırlar. İxtiyari yaddasaxlama üçün isə kiçik məktəbyaşlı şagird xüsusi iradi səy göstərir. Uşağın hafizəsindəki ixtiyarilik hələ bağça yaşı dövründə formalaşmağa başlasa da məktəbə başladığı zaman yenə də çətinlik yaşayır. Nəzərə almaq lazımdır ki, kiçikyaşlı məktəblinin hafizəsinin inkişafı onda ixtiyari diqqətin yaranması və güclənməsinə səbəb olur. Ümumiyyətlə uşaqların hafizəsinin inkişafı üçün onların nitqinin inkişafının böyük rolu vardır. Çünki məhz bu dövrdə uşaqların söz ehtiyyatı az olduğuna görə öyrəndiyi materialları öz sözləri ilə əvəz edə bilmirlər ki, nəticədə hafizələrində passivlik yaranır. Şagirddə ixtiyari hafizənin formalaşmasında hər şeydən əvvəl yazılı nitq və rəsmin əlamət və simvolik vasitələrinin rolu böyükdür. Yazılı nitqin inkişafı ilə bağlı, xüsusilə III sinifdə kiçikyaşlı məktəbli simvolik vasitə olan hərfləri və rəqəmləri hafizəsinin köməyi ilə xatırlaya və yavaş-yavaş uzun müddət hafizəsində tuta bilir. Ümumiyyətlə kiçikyaşlı məktəblinin hafizəsinin inkişafı və onun təlim fəaliyyətinə adaptasiyasını təşkil etmək üçün ilk öncə öyrənilən materialın təkrarı vacibdir. Hafizə ixtiyari və qeyri-ixtiyari olduğu kimi qısamüddətli və uzunmüddətli də ola bilər. Uzunmüddətli yaddaş olmadan təlim fəaliyyətində müvəffəqiyyət qazanmaq mümkün deyil.Çünki məhz uzunmüddətli hafizə sayəsində məktəbli öyrəndiyi materialı miqdar və məlumatın saxlanılması baxımından məhdudiyyətlər yaşamır. Uzunmüddətli hafizənin inkişafı təfəkkür və güclü iradi səylərdən asılıdır. Əgər hafizə yaxşı inkişaf edibsə, demək ki, təfəkkür düzgün və sürətli fəaliyyət göstərir. Təlim fəaliyyəti kiçik məktəblidən hafizəsini şüurlu şəkildə inkişaf etdirməyi qarşısına məqsəd olaraq qoyur.

Kiçik məktəblilərin təlim fəaliyyətinə adaptasiyası üçün onların məntiqi hafizələrinin inkişafı vacibdir. Məktəbəqədər dövrdə mexaniki yaddaş üstünlük təşkil etsədə, məktəb təliminə başlamaqla məntiqi hafizə güclənməyə başlayır. Buna baxmayaraq kiçikyaşlı məktəbli üçün öyrənilmiş materialı əzbərləmək xarakterik haldır. Çünki onda hələ də tam ixtiyari yaddasaxlama və yadasalma formalaşmamışdır. Kiçikyaşlı məktəblidə semantik hafizə inkişaf etmədiyi üçün məntiqi hafizə kifayyət qədər formalaşmır. Belə ki, onlar öyrəndikləri materialları mənanı dərk etmədən əzbərləyərək yadlarında saxlayırlar. Təbiiki mexaniki hafizə sayəsində kiçik məktəbli əlifba sırası,

vurma cədvəli kimi əzbərləməli olduğu materialları ilk vaxtlarda mahiyyəti anlamadan yadında saxlayır. Amma bu uzun müddət davam edərsə uşaq təlim fəaliyyətində uğur qazana bilməməklə yanaşı, eyni zamanda öyrənməyə adaptasiyasına da mənfi təsir göstərəcək. Artıq 3- cü sinifdən başlayaraq məntiqi hafizə, xüsusislə ümumiləşdirmə və sistemləşdirməyə əsaslanan hafizə inkişaf etməyə başlayır. Belə ki, kiçik məktəbli artıq öyrəndiyini öz sözləri ilə əvəz etməyə başlayır. Buda inkaredilməz faktdır ki, kiçik məktəblilərin hafizəsinin inkişafı üçün öyrəndiyi materiala maraq formalaşması öyrənmə fəaliyyətinə qarşı müsbət münasibətin yaranması, bir sözlə hər şeydən əvvəl təlim fəaliyyətinə adaptasiya təşkil olunmalıdır[9, 52].

Bəzi xarici ölkə psixoloqlarının fikrincə 12-13 yaşa kimi uşaqda ancaq mexaniki hafizə, 13-14 yaşa kimi isə məntiqi hafizə təzahür edir.. Hafizənin inkişafı kiçik məktəblidə özünənəzarət və özünəinamı tənzimləyir. Belə ki, kiçik məktəblinin ilk vaxtlarda hafizəsi mexaniki olduğu üçün quru əzbərçilik güclü olur, buda uşaqda özünəinamı azaldır, çünki kiçik məktəbli bəzən nəyi niyə öyrənəcəyini bilmir. Uşağın məktəb fəaliyyətinə olan marağı, aktiv mövqeyi, motivasiya və.s yaddaşın inkişafı üçün lazımı şərait yaradır. Kiçik yaşlı məktəblilərin yaşı artdıqca onların tanıma, xatırlama, yadasalma və yaddasaxlama hafizələri də inkişaf edir. Hafizənin inkişafı hər şeydən əvvəl uşağın öyrəndiklərini anlaması və nəticə çıxara bilməsi ilə əlaqədardır.

Kiçik məktəblinini hafizəsinin inkişafında əsas rol oynayanlardan biri də planlı və sistemli təlim fəaliyyətidir. Çünki məktəbəqədər dövrdə təlim oyun formasında qurulur və uşağın şıltaqlığı, aqressivliyi qəbul olunurdu. Zamanla kiçik məktəblidə hafizə inkişaf edərək öyrəndiyi materialı müstəqil şəkildə yadına salır, materialı mənimsəyir, öyrəndiyi tədris tapşırıqları arasında müqayisə aparma, eyni zamanda ümumiləşdirmə kimi qabiliyyətlərə də yiyələnir. Buda hafizənin məhsuldarlığını artırır. Hafizənin məhsuldarlığı nəticəsində kiçik məktəblidə təlim fəaliyyəti zamanı özünə nəzarəti və öyrənmə zamanı özünə olan tələbkarlığı artır. Nəzərə almaq lazımdır ki, sistemsiz və plansız keçirilən təlim fəaliyyəti kiçik məktəblinin təlim fəaliyyətinə dezadaptasiyasına şərait yaratmaqla, eyni zamanda uşağın öyrəndiyi materialın 9-10 gündən sonra təxminən yarısının yaddan çıxmasına səbəb olur. Hər bir şagird üçün xatırlama və yadasalma fərqli səviyyələrdə təşkil olunur Materialın bir neçə dəfə təkrarlanması, xatırlanması yolu ilə təlim yükünün öhdəsindən gəlməyə imkan verir. Kiçikyaşlı məktəblinin hafizəsinin inkişafı ilə öyrənilmiş materialı xəyalən göz önünə gətirir, ona uyğun fərziyələr irəli sürür, bir sözlə müvəffəqiyyətli adaptasiyanı təmin edir. Nəticədə şagirddə öyrəndiyi tədris tapşırıqlarını şüurlu olaraq analiz, sintez etmək qabiliyyəti yaranır.

Nəzərə almaq lazımdır ki, hafizənin inkişafı nəticəsində kiçik məktəblidə problemləri həll etmək, çətinliyin öhdəsindən gələ bilmək kimi müsbət keyfiyyətlər yaranır. Hafizə müstəqil funksiya olmayıb, uşağın daxili dünyasından, maraqlarından və istəklərindən asılıdır.

## ƏDƏBİYYAT


1. Андреева Д.А. О понятии адаптация. //Человек и общество: ЛГУ, 1973.-300 с.
2. Александровская Э. М. Социально-психологические критерии адаптации детей к школе // Школа и психическое здоровье. -М.: Медицина, 1997.-123 с.
3. Коростелева. Е. Особенности развития памяти у младших школьников в процессе обучения
4. Гамезо, М.В М.В. Матюхина Возрастная и педагогическая психология.–М.:Просвещение, 1984
5. Qədirov Ə.Ə.Yaş psixologiyası.B.2008.
6. Leana M.Z. Üstün zekalı ve normal çocuklarda yönetsel fonksiyonlar Londra kulesi testi) istanbul 2005.
7. Мухина В.С Возрастная психология. – М., 2004
8. Özyürek. A.Altı Yaşında Bellek Eğitimi Verilen Çocukların İki Yıl Sonraki Bellek Gelişimlerinin izlenmesi. Karabük Üniversitesi, Edebiyat Fakültesi, Karabük-Sosyal Bilimler Enstetüsü Dergisi-2003 cilt 3 sayı.
9. Roebers. B. E, & Schneider, C. M. (2005). Children's Memory for Educational Television Programs, Psychologıe in Erzıehung Und Unterrıcht, 52(1):51-65.
10. Смирнов А.А. Психология запоминания. – М., 1948

## ABSTRACT

**Aygun Rustamova**

## THE ROLE OF THE MEMORY IN THE TRAINING ACTIVITY OF THE PRIMARY SCHOOL-AGED STUDENTS

“Adaptation” is a system in ever changing conditions, allowing the existence of a control mechanism. Noted that the During the training learning to adapt, all parameters to correct the unpleasant consequences that lead to sharp changes in the couplicated process. Adaptation is a complex process that in terms of the training of a younger pupils to constantly adapt psyche. This process is usually depend the child`s integrations consent and depends on the long –term effect of the event compliance reseptor by changes in its activities. Adapted in the training is occurs to the child as a result of the processes taking place in the department of the control analyzer. During this process analyzer viritant to adapt learning activities the small pupils preconditions of success in training activities is an important conditions.

Adaptation is a complex process which is providing. The active adaptation small school pupil`s mentality to the condition of school teaching/ This process, usually, is depends a the adaptation of the pupil to the circumstances, the level of consensens and dissasificasion in his life. All these mental process are interrelated. Memory play an important role in the mental process. No mental activity can play a role within memory the framework of psychological concepts. the article reveals the peculiarities of development of memory in children of primary school age, revealed the specifics of memory in the aged. The purpose of the study is to determine the specific development of memory in adaptation to learning activities in the early school years



## РЕЗЮМЕ

**Айгюн Рустамова**

## РОЛЬ ПАМЯТА ПРИ АДАПТАЦИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИЙ ШКОЛЬНОЙ ВОЗРАСТИ

Адаптация –механизм борьбы, позволяющий существованию системы в постаянно меняющичся условиях. Отметим, что Адаптация или соответствие состоит из изменений чувствительности раздражителей.Адаптация обучению – сложный процесс, вызывающий во всех параметрах резкие изменения для исправления нежелаемых результатов. Адаптация- сложный процесс, обеспечивающий активной соответствие психики младшего щкольника неуклонным условиям школьного обучения. Этот процесс обычно зависит от соответствии ребенка условию, от уровня согласий и недовольствий его жизни. Событие соответствия можно обьяснить изменениями, присходящими в его действии во время длительного воздействия раздражателя рецептору. Адаптация- сложный процесс, обеспечивающий активной соответствие психики младшего щкольника неуклонным условиям школьного обучения. Этот процесс обычно зависит от соответствии ребенка условию, от уровня согласий и недовольствий его жизни. Все психические процессы протекают во взаимосвязи. Никакой другой психический процесс не упоминается так часто в повседневной жизни и не находит себе с таким трудом место в рамках психологических концепций, как память. В статье раскрываются особенности развития памяти у детей младшего школьного возраста, выявлена специфика памяти в данном возрасте. Цель исследования - определить конкретное развитие памяти в адаптации к учебной деятельностив младшем школьном возрасте


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Məqaləni çapa təqdim etdi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent V.Rzayev

# SƏNƏTŞÜNASLIQ

**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:39**

## XX ƏSRİN BİRİNCİ YARISINDA NAXÇIVAN BÖLMƏSİNDƏ BƏZİ ƏNƏNƏVİ SƏNƏT VƏ PEŞƏ NÖVLƏRİ HAQQINDA ETNOQRAFİK ARAŞDIRMALAR

**Açar sözlər**: *sənətkarlıq, dulusçuluq, papaqçılıq, çəkməçilik, xalçaçılıq, qalayçı*
**Key Words:** *craftsmanship, pottery, hat making, shoe-maging, carpet weaving, tinker*
**Ключевые слова:** *Профессионализм, гончарное дело, шапочное дело, сапожничество,*
*ковроткачество, мастерская*

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində qədim zamanlaradan əhalinin məşğuliyyət sahələrindən biri də sənətkarlıq olmuşdur və zaman-zaman inkişaf edərək nəsildən-nəsilə ötürülmüşdür.

Naxçıvan bölgəsində sənətkarlığın inkişafı əvvəllərdə olduğu kimi, XX əsrin birinci yarısında da onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ölkə daxili, ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Ona görə də sənətkarlıq və onun ayrı-ayrı sahələri, bir tərəfdən cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, digər tərəfdən, ölkənin xarici iqtisadi əlaqələrinin göstəricisi kimi çıxış edirdi.

Qeyd etmək lazımdır ki, sənətkarlıq nə qədər önəmli sahə olsa da Naxçıvan bölgəsinin əsas sahələrindən olan istər Naxçıvan, istərsə də Ordubad şəhərlərində XX əsrin birinci rübbübdə o qədər də yüksək səviyyədə olmamışdır.

Bir məsələni də xüsusi ilə qeyd etmək lazımdır ki, sənətkarlığı Naxçıvan bölgəsində təkcə şəhərlərə aid etmək düz olmaz, çünki kənd yerlərində ilkin tələbatı, kənd sənətkarları, xüsusilə əkinçilik təsərrüfatının əmək alətləri ilə təmin edilməsində dəmirçilər, minik atlarının və ulaxların nallanmasında xidməti olan nalbəndlər, gön-dəri ləvazimatlarını hazırlayan dabançılar, saxsı qabla əhalini məişətinin təmin olunmasında rolu olan duluzçular və sairə kimi sənətkarların rolu getdikcə artırdı və onlara ehtiyac hiss olunurdu.

Kənd yerlərində sənətkrlığın inkişafında aztorpaqlı kəndlilərin rolu da böyük idi.Çünki az olan məhsulu yığandan və əllərində olan kiçik pay torpaq sahələrinin əkdikdən sonra vaxtları boş keçməsin deyə istər-istəməz xüsusən qış dövründə ev şəraitində kəndlilər sənətkarlarla o cümlədən müxtəlif sənət sahələri ilə məşğul olurdular. Naxçıvanda qışın sərt keçməsi ilə əlaqədar olaraq bu iş daha qabarıq şəkildə özünü göstərirdi.

Çox sahəli təsərrüfatla məşğul olan kəndlilər ilk növbədə öz ailələrini öz təsərrüfatlarının ehtiyatlarını nəzərə alaraq çörək bişirir, yun darıyır, əyirir, rəngləyir, geyim paltarları tikir, dəridənsə rezidən tələbatı ödəmək üçün çarıq tikir, xalça toxumaqla məşğul olur əl kirkirəsində yarma çəkir, un üyüdür, yaşayış evi inşa edir dülgərlik edir və sairə kimi sənətlə məşğul olurdular.

Bütün bu yuxarıda sadalananlar kəndlinin öz təlabatının ödənilməsi və həm də başqalarına iş görməklə o özü də olsa əmək haqqı almasına imkan yaradırdı.Qeyd etmək lazımdır ki, Naxçıvan bölgə elə bir kəndi yox idi ki, orada sənətkarlıqla məşğul olmayan olsun. Lakin kəndlərdəsənətkarlıq müəyyən qədər inkişaf etsə də, sənətkarlıq əsasən şəhərlərdə, o cümlədən Naxçıvan, Noraşen (Şərur), Ordubad, Şahbuz və Culfa şəhərlərində mərkəzləşdirilmişdir.

XX əsrin birinci yarısında Naxçıvan bölgəsində bir çox sənət və peşə növü var idi ki, onlardan Naxçıvan və Ordubad şəhərlərində daha geniş yayılan dərziçilik, papaqçı, zərgərlik,

çəkməçi (başmaqçı), qəssab, çörəkçi, bənna, xarrat, dülgər, şüşəsaz, keçəçi, palançı, kababçı və başqalarının adlarını çəkmək olar.

Bu sənət növlərinin çoxu Naxçıvanda köhnə bazarın içərisində dükanlarda yerləşər və fəaliyyət göstərirdilər, bəzi sənət növləri isə dəmirçilik, nalbəndçilik, dülgəelik paıançılıq Karvansara yaxınlığında, yada ki, mməhələlərdə fəaliyyət göstərirdilər.

Ordubad şəhərində isə dükanlar əsasən mərkəzi küçə boyu yerləşdirilmişdi.

Qeyd etmək lazımdır ki, sənətkarlarda primitiv texnikadan istifadə edildiyindən hər bir sənətkar ustadan yüksək ustalıq tələb olunurdu.

Papaqçılar yaxşı papaq tikmək üçün quzu dərisinə üstünlük verirdilər, ən yaxşı dəri isə orta Asiyadan, Buxara şəhərindən gətirilirdi və onlar baha qiymətə satılırdı.Ona görə də Buxaradan gətirilib tikilən papaqlar, "Buxzara papaq" adlanırdı.Çəkməçi ustaların tikdikləri çəkmələrin ən yaxşısı isə xrom çəkmələr hesab olunurdu və onun alıcısı da çox olurdu.

Yuxarıda adlarını çəkdiyimiz sənət növlərindən başqaNaxçıvan bölgəsində ən çox nəzərə çarpan sənət növlərinən toxuculuq, xüsusən pambıq parça toxumaq sənəti dahha geniş yayılmışdır.Bu sənət növü şahbuz rayonunun Biçənək, Yuxarı Qışlaq Kolanı, Nurşu, Kükü, Badamlı və digər kəndlərdə daha geniş yayılmışdır. Xüsusən qış fəslində iş olmadığından həm də gecələr üzün olduğundan, əksəriyyət evlərdə bu həyata keçirildi.Bununla da kənd əhalisi həm öz tələbatlarını ödəyirdilər həm də toxuduqları malları bazara çıxarıb sataraq maddi ehtiyaclarını ödəyirdilər.Toxuculuqla məşğul olan hər bir ailədə demək olar ki, primitiv də olsa əyirici və toxucu dəzgahları var idi. Bu dərgahları vasitəsilə ilə qadınlar iplərdən biz toxuyur və pambıq hazırlayırdılar. İmfamatorlardan Babək rayonunun Nehrəm kənd sakinlərindən 1935-ci il təvəllüdlü Atikə xanım və Sona xanım, Cəhri kənd sakini 75 yaşlı Xanım arvadın Şahbuz kənd sakini 75 yaşlı Sona xanımın, Keçili kəndindən Qızxanımın, Nursu kəndindən Sura xanım Ordubad şəhərindən Səadər xanımın verdikləri məlumatlardan demək olar ki, təkcə Naxçıvan şəhərində 40 ailədə, Şahbuzda 14, Ordubadda 22 ailədə bez-parça toxunurdu.

Toxuculuq məhsulları əsasən ilk növbədə hər bir ailənin öz təsərrüfat məişət tələbatını ödəyirdi.Toxuculuqla bağlı olaraq, Naxçıvanda boyaqçılığın inkişafına da xüsusi diqqət yetirilirdi.Yunun və müxtəlif ev əşyalarının boyanmasında əsasən təbii bitkilərdən daha çox istifadə edilirdi.

Aparılan etnoqrafiq araşdırmalardan araşdırmalardan aydın olur ki, Naxçıvan bölgəsində toxuculuqla bağlı olaraq boyaqxanaların sayı çoxlu təşkil edirdi.

Görkəmli alim, Sahibə Budaqova "Naxçıvan diyarının tarixi Coğrafiyası" əsərinə Naxçıvan şüşəsazlıq sənətinin olması haqqında xəbər verir.O, əsər göstəriri ki, əvvəllər elə başa düşülürdü ki, Azərbaycanda al-əlvan şəbəkə şüşələri yalnız təkcə şəkidə istehsal olunmuşdu.Amma onun əldə etdiyi materiallara və infarmatorlardan əldə etdiyimiz məlumatlara əsasən, (məlumatı Naxçıvan şəhərində yaşamış Çərçi Abbasın Bibisi qızı Şərəbanı xanım vermişdir) belə qənaətə gəlmək olar ki, Naxçıvanın şüşə istehsal edən sənətkarları azlıq təşkil etsədə, onlar bu sənət çətin də olsa, yüksək iş qabiliyyəti göstərərək, istehsal etdikləri məhsullarını XX əsrin əvvəllərində də xaricə göndərməklə yanaşı qonşu dövlətlərin də sifarişlərini qəbul edirdilər. Lakin şüşəsazlıq sənəti I dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq bölgədə fəalliyəti əsasən dayanmış olur. Bunun isə bir sıra səbəbləri olmuşdur. Bu səbəblərdən birincisi xammalın çatışmamazlığı idisə, digər səbəblər müharibənin törətdiyi səbəblərdən idi.

Qeyd etmək lazımdır ki, sənətkar emalatxanaları, dükanlar əsasən bazar meydanlarında cəmləşirdi.

İnformatorlardan məhrum filologiya üzrə elmlər doktoru Yavuz Axundlu qeyd edirdi ki, Naxçıvan, novaşen, Ordubad şəhərlərinin bazar meydanlarında dükanların sayı çox idi.

Demək olar ki, şüşəsazlıq emalatxanasını çıxmaq şərti ilə ( o emalatxana keçmiş avtoparkın yanında, vağzala yenən yerdə yerləşirdi) Naxçıvan bazarında irili-xırdalı 150-yə qədər dükan var idi.

Onlardan təqribi 10-u papaqçı, 13-ü çəkməçi, 3-ü zərgar, 5-6-sı at beli üçün minik yəhəri hazırlayan, 3 qalayçı, ( onlar əsasən pas basmış qabları qalaylamaq və deşiklərini düzəltmək, qırıxları yapışdırmaq işi ilə məşğul olanlar idi), 6-sı dərzi və digər sənətkarlara məxsus olan dükanlar idi.

Naxçıvan bazarına dükanı olmayan peşə sahilləri də yığışırdılar ki, onları burada peşə üzrə evlərə dəvət etməklə aparıb işlədirdilər. Belə peşə sahiblərindən daşyonan, bənna, dülgər, suvaqçı, rəngsaz və başqa sənətkarlarıda göstərmək olar.

XX əsrinbirinci yarısında Naxçıvan bölgəsində maldarlıq təsərrüfatının inkişafı ilə əlaqədar olaraq gön və dəri işləmə üzrə də sənətkarlığın inkişafı üçün əlverişli şərait yaranmışdır.

Etnoqrafik araşdırmalardan aydın olur ki, məhəllə emalatxanaların nəzərə alsaq Naxçıvan şəhərində gön-dəri işləmə üzrə 13 emalatxana fəaliyyət göstərirdi və bu emalatxanaların müəyyən səbəblər üzündən bir qismi öz fəaliyyətlərini dayandırsalar da, onlardan 1930-cu illərin ortalarına qədər, 6-sı öz fəaliyyətini davam etdirirdilər.

Naxçıvanda qoyunçuluğun inkişafı ilə də əlaqədar olaraq xalçaçılıq sənətinin inkişafına çox ciddi təsir göstərmişdir. Çünki qoyunçuluğun inkişafı sayəsində əldə edilən yun, xalça toxunmasını lazimi qədər yunla təmin eliyə bilirdi.

Qeyd etmək lazımdır ki, mütəxəssislərin fikrincə, xalçaçılığın ilk vətəni qədim Misir olmuş, sonralar buradan o, kiçik Asiya, İran və Hindistana keçmişdir.

Azərbaycanda xalçaçılığın təşəkkülü və yayılması qonşu İran və Kiçik Asiya ilə eyni vaxta düşür.

Azərbaycanda xalça istehsalı eramızdan xeyli əvvəllər meydana gəlsə də, xalçaçılığın müstəqil sənət sahəsi kimi inkişafı ilk orta əsrlər dövrünə təsadüf edir.

Bu dövrdə sujetli xalçaların toxunması da daha yüksək inkişaf səviyyəsinə çatmışdır.bu sənət zaman-zaman öz inkişaf istiqamətini tapmaqla, nəsildən-nəsilə ötürülərək XX-əsrin birinci yarısında daha yüksək inkişaf səviyyəsinə gəlib çatmışdır. Ev məişətinin zəruri ünsürünə çevrilmiş xalça-palaz məmulatı təkcə yaşayış binalarının daxili səhmanında deyil, habelə xan və bəy saraylarını, məscid, mədrəsə, ibadətgah, karvansara və digər ictimai binaların döşəmə və divarlarının bədii tərtibatında geniş şəkildə işlədilirdi. Yüksək dəyərə malik sənət məhsulu olmaq etibarı ilə evdə isə xalça məmulatının çoxluğu ailənin maddi vəziyyətini əks etdirən mühüm sosial-iqtisadi göstəricilərdən biri sayılırdı.

Əməli məişət əhəmiyyətini və istehlak dəyərini uzun müddət saxlayan xalça məmulatı ailə-kəbin münasibətləri(cehiz), sərgi ödəncləri, hədiyyə və digər sosial məsələlərin həllində də mühüm rol oynamışdır.

Azərbaycan xalçaları təkcə ölkə daxilində deyil, həm də beynəlxalq ticarətdə ən gözəl sənət məhsulu kimi yüksək qiymətləndirilirdi.

Məhz bu səbəbdən də Azərbaycanın bütün bölgələrində olduğu kimi, onun naxçıvan bölgəsində də xalçaçılıq sənəti inkişaf etmiş və öz laiqli yerini tutmuşdur.

Qeyd etmək lazımdır ki, aparılan araşdırmalardan aydın olur ki, XX-əsrin birinci yarısında, Naxçıvanda xalça toxunmayan nəinki kənd və ya şəhər, hətta belə ailə tapmaq çətin idi. Məhz bu mənada Naxçıvan əhalisi üçün xalça-palaz toxumaq ən adi məşğuliyyət növünə çevrilmişdir.Naxçıvan xalçaçılarının hazırladıqları gəbə, palaz, xalça, garbıt, cecim, məfrac evin otaqlarını bəzəmək üçün, amma xurcun, qaçara(yəhərüstü), gil, (şan şöhrətli şəsxlərin minik atı üçün toxunmuş, qabaq hissəsi qoşa qanadla tamamlanan xalça növü), xurcun və çuval yola çıxanlar üçün istifadə olunurdu.

Naxçıvan böigəsində xalçaçılıq ev şəraitində də geniş yayılmışdır.

Etnoqrafik araşdırmalardan deməyə əsas verir ki, ev şəraitində xalçaçılıqla məşğul olma, ən çox kəndlərində yəni qoyunçuluqla məşğul olan kəndlərdə geniş şəkildə nəzərə çarpır.

Belə kəndlərdən Şahbuz rayonunun Çömür, Biçənək, Kolanı, Yuxarı Qışlaq, Kükü, Nursu, Keçili, Külüs, kənd Şahbuz, Babək rayonunun Sirab, Qanab, Vayxır və başqa kəndlərinin adlarını çəkmək olar. Kənd camaatı toxunmuş xalçanı bazara çıxarıb satır və təlabatlarını ödəyirdilər.

Aran kəndlərinin bir çoxunda isə, Nehrəm, Sirab, Kültəpə və başqalarında xalça toxumağı bacaran ailəcək, sifariş yolu ilə dövlətdən və ya sifarişçıdən yun alıb xalça toxuyaraq, danışıq əsnasında əmək haqqı alaraq, ailə dolanışıqlarını təmin edirdilər.

Naxçıvan bölgəsinin Ordubad şəhərində də sənətkarlıq inkişaf etmişdir. Lakin Naxçıvan şəhəri ilə müqayisədə müəyyən qədər zəif olduğu özünü göstərirdi.

Ordubad şəhərində əsasən boyaqçılıq, dəri aşılamaq, dulusçuluq sənət sahələri daha geniş yayılmışdır. Burada da 15-ə yaxın müxtəlif sənət emalatxanaları var idi. 30-dan çox isə sənətkar dükanı fəaliyyət göstərirdi ki, onlardan çayçı, dərzi, çəkməçi, dəmirçi, dəllək və baqqalların adlarını çəkmək olar.

Bütün bunlarla yanaşı naxçıvan bölgəsində ipək, pambıq, bez parçalarla toxunurdu ki, bu parçaları yerli tacirlərqonşu ölkələrə aparıb satmaqla çoxlu gəlir əldə edirdilər.

Ümumiyyətlə deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Nxaçıvan bölgəsində sənətkarlığın cografiyası əsasən ölkənin iqlim şəraiti və təbii sərvətlərinədn asılı olaraq inkişaf etmiş, əsasən kustar üsula əsaslansa da zaman-zaman nəsildən-nəsilə ötürülərək XX əsrin birinci yarısında da əhalinin məişət tələbatının ödənilməsində xüsusi rolu olmuşdur. lakin elmi-texniki tərəqqinin inkişafı ilə bağlı olaraq kustar üsul aradan qaldırılmış və təkmilləşdirilmiş, mexanikləşdirilmiş və XX əsrin ikinci yarısında sürət artımı gücləndirilmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası. I cild, Bakı, 2007
2. Həsənov Şövq: Naxçıvan tarixi-etnoqrafik fenomendir (tarixi-etnoqrafik tədqiqat). Bakı, 2009
3. Bünyadov T.Ə.: Azərbaycanda maldarlığın inkişaf tarixindən. Bakı, 1969
4. Əfəndiyev R.: Azərbaycanın bədii sənətkarlığı. Bakı, 1966
5. Sahibə Budaqova: Naxçıvan diyarının tarixi coğrafiyası. Bakı, Elm, 1995.


## ABSTRACT


**Ismayil Zeynalov**


### ETNOGRAPHIC STUDIES ON SOME TRADITIONAL TYPES OF ART AND PROFESSION IN NAKHCHIVAN REGION IN THE FIRST HALF OF THE TWENTIETH CENTURY


It should be noted that during the transition of the Iron Age the developmental lovel of farming and livestock has excessively increased the reserve of raw material. From this point of view, we can say that new occupation areas have accelerated the development of pottery and weaving arts? Which have emerged in the Neolithic era and have contributed a lot to the emergence of new types of art.

We must note the creation and development of new types of art have always had a positive effect on the well-being of the population.

The article generalized the ethnographic studies on some types of art and profession, like hat making, shoe making, pottery, horse shoe marking, weaving glass marking, carpet weaving carried out by the population wherher in workshops or hoursehold in yhe villages and cities of Nakhchivan region in the first half of the twentieth century.


## РЕЗЮМЕ


**Исмаил Зейналов**


### НЕКОТОРЫЕ ЭТНОГРАФИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ О НЕКОТОРЫХ СПЕЦИАЛЬНОСТЯХ И ТРАДИЦИОННЫХ РПОФЕССИЙ ПЕРВОЙ ПОЛОВИНЫ XX ВЕКА НА ТЕРРИТОРИИ НАХЧЫВАНА


Следует отметить, что вовремя перехода металлический период развитие животиоводства и растительности, дали значительные запаси сырья дме профессионализма.

Можно прийти к такаму выводу, что новые сферы деятельности еще в эпоху неолита гончариа дело и ткачества дали возможности начало развитию некоторых професий и улучшения жизнидеятельности населения.

Втом числе можно отметить, что с возникновением и развитием новых професий, временами оказывало положительное влияние на быт и жизнедеятельности населения.

На основа зтнографических исследований в статье дан вывод о некоторых сферах профессий, как например, шапочное дело, сапожничество, гончарное дела кожночество, ткачество, стекольное дело, ковроткачество и другие разновидности профессий в городских и селских мастерских, а также в домдомашних условиех в первой половине XX века.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**QADİR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*kadiraliyev@ yahoo. kom. tr*

**UOT:72**

# ORDUBAD RAYONU KÖHNƏ KOTAM KƏNDİNİN MEMARLIQNÜMUNƏLƏRİNİN TƏDQİQİ

**Açar sözlər:** *palçıq divar gil, kərpic, süs, nisbət sistemi, həndəsi naxış*
**Key words:** *mud wall clay, brick, ornament, proportion system, geometrical pattern*
**Ключевые слова:** *глины стены грязи, кирпич, орнамент, система пропорций, геометрический узор*

Naxçıvan Muxtar Respublikasının ərazisi xarabalıqları müasir dövrə qədər gəlib çatan qədim yaşayış məskənləri ilə zəngindir. Belə yaşayış məskənlərindən biri də Ordubad rayonu ərazisində yerləşən Köhnə Kotam yaşayış məskənidir.

Tarixi orta əsrlərə aid olan Köhnə Kotam kəndinin xarabalıqları Ordubad rayonunun şimali-şərqində Kotam çayı boyunca dağın yamacında yerləşir (şəkil 1).



*Şəkil 1. Ordubad rayonu, Köhnə Kotam kəndi. Yaşayış yerinin xarabalıqları*

Dağılmış memarlıq formalarının inşaat materialları möhrə, çiy kərpic və təbii daş materiallarından ibarətdir (şəkil 1; 2; 3). Bir-birinə yaxın olan evlərin xarabalıqları burada orta əsrlərə aid iri bir yaşayış məskəninin olmasından xəbər verir. Yaşayış yerininin memarlıq formalarını inşaat materiallarına görə aşağıdakı kimi quruplaşdırmaq olar:

1. *Möhrədən olan divar qalıqları*

Bu divarların inşaat materialı gildən ibarətdir. Məlumdur ki, Azərbaycan inşaat matrerialları içərisində gil və ondan hazırlanmış materiallar geniş yer tutur. “Gildən döyməgil tikintilər üçün öz təbii şəklində, ya da qabaqcadan hazırlanan və qurudulan iri piltələr, yaxud da xırda hissələr şəklində istifadə olunur” [1.s .12]. Köhnə Kotam kəndində gildən hazırlanan divarların qalınlığı 1m.-dən artıq olan iri bloklardan ibarətdir. Bəzi hallarda möhrə hörgüsü ilə daş hörgülər birlikdə inşa edilmişdir (şəkil 2).



*Şəkil 2. Ordubad rayonu, Köhnə Kotam kəndi. Yaşayış yerinin möhrə divarının qalıqları*

*2. Təbii daş materiallarından ibarət olan divar qalıqları.*

Daş Azərbaycanda geniş yayılan tikinti materiallarından biridir. Daş hörgüsünün işlənməsi və inkişafı müxtəlif mərhələlər keçirmişdir. "Daşa yastı forma vermək üçün parçalanırdı. Tikinti prosesində bu yastı tərəflər bir-birinə sıx birləşdirilir və uçulmaq qorxusu olmadan hündür divarların hörülməsinə imkan verirdi" [1. s. 15].

Köhnə Kotam kəndinin xarabalığında daş hörgülər üçün yapışdırıcı maddə olaraq gil məhlulundan istifadə edilmişdir. Daş hörgülərində ayrı-ayrı daşlardan ibarət olan iri plitələr (meqalitik) işlənmişdir. Hörgünün üfüqi sıralarının hündürlüyü eyni deyil. Burada daş hörgülər həm də divarın nisbətən yük daşıyan konstruktiv hissələrində istifadə olunmuşdur (şəkil 3).

Ümumiyyətlə, "Daş hörgülərində tətbiq olunan daş növlərinin və onların işlədilməsininn, hörgü texnikasının, daşların düzülməsinin", ayrı-ayrı blokların bərkidilmə izlərinin öyrənilməsi tədqiqatçıya tikinti dövrünü bəzən çox böyük dəqiqliklə təyin etmək üçün bir sıra qiymətli dəlillər verirdi" [3. S. 21]. Bu baxımdan Köhnə Kotam yaşayış məskəninin tarixini XV-XIX əsrlərə aid etmək olar.



*Şəkil 3. Ordubad rayonu, Köhnə Kotam kəndi. Yaşayış yerinin daş divarının qalıqları*

*3. Çiy kərpicdən ibarət olan divar qalıqları.*

Məlumdur ki, çiy kərpicin hazırlanmasında əsasən gildən, qumdan, samandan və sudan istifadə olunur**.** Çiy kərpicdən tikilmiş evlər ekoloji cəhətdən tamamilə əlverişlidir. Kərpicin istilikkeçirmə qabliyyəti aşağı olduğu üçün, ilin bütün fəsillərində otaqda normal-komfort temperator olur. Belə evlərin tikintisi ucuz başa gəlsə də böyük zəhmət tələb edir. Köhnə Kotam kəndi coğrafi cəhətdən ucqar dağ kəndi olduğu üçün kərpic bir tikinti materialı kimi bu cəhətdən əlverişlidir. Divarların qalınlığı 1m–dən artıqdır.



*Şəkil 4. Ordubad rayonu, Köhnə Kotam kəndi. Yaşayış yerinin çiy kərpicdən olan divarlarının qalıqları*

4. *Köhnə Kotam məscidi.*

Köhnə Kotam kəndində yeganə salamat qalmış bina olan Köhnə Kotam məscididir (şəkil 5). Planda dördkünc formalı böyük salondan ibarətdir [şəkil 6]. Salon iki sıra ağac dirəklərlə üç hissəyə bölünmüşdür. Məscidin mehrabı cənub tərəfdə yerləşən tağşəkilli tağçadan ibarətdir (şəkil 7). Məscidin girişi Şərqdəndir və ön tərəfdə şəbəkələrlə naxışlanmış dörd pəncərə var. "Məscidin içərisində mərmər lövhə üzərində bir kitabə aşkar olumuşdur. Kitabənin mətnindən aydın olur ki, Naxçıvan xanı Hacı Kəlbəli xanın oğlu İbrahim xan hicri 1260 (m. 1844) ildə Kotam kəndindəki torpaq sahibliyi mənsəbini Tükəzban xanıma bəxşiş etmişdir. Kalbalı xanın oğlu İbrahim xanın adı elmə bu kitabə vasitəsi ilə bəlli olmuşdur. Daşdan və kvadrat formalı çiy kərpicdən inşa olunan bina bir neçə dəfə bərpa olunmuşdur. Məscidin inşa tarixi XVII-XVIII əsrə aid edilir [2. s.228 ]. Məscidin mehrabı isə çatma tağ şəklimdə olan tağçadan ibarətdir (şək. 7).



*Şəkil 5. Ordubad rayonu, Köhnə Kotam kəndi. Məscidin ümumi görünüşü*




Şəkil 6. Ordubad rayonu, Köhnə Kotam kəndi. Məscidin planı





Şəkil 7. Ordubad rayonu, Köhnə Kotam kəndi. Məscidin mehrabı və pəncərə şəbəkəsi



*Şəkil 8. İran. Kargird mədrəsəsi (1444-cü il). Bəzək fraqmenti*

*5. Məscid pəncərəsində həndəsi ornamentin qrafiki analizi.*

Göstərdik ki, məscidin planda ölçüləri bir-birindən azacıq fərqli olan rəngli şəbəkələrlə örtülmüş dörd ədəd pəncərəsi var (şəkil 7). Şəbəkələrin qoyulma tarixi məscidin özünün inşa tarixindən nisbətən sonrakı dövrlərə aid olsa da məscid şəbəkəsinin həndəsi ornamentin qrafiki analizini bu memarlıq formasının quruluşunun tarixinin daha qədim olmasından xəbər verir. Həndəsi ornamentin qrafiki analizi göstərir ki, bu ornamentin qurulması kvadrat və bu mənbədən yaranan mütənasiblik sisteminə əsaslanır. Həndəsi ornamentin quruluşu inşa tarixi XV əsrin ortalarına aid olan (1144-cü il), indi İran ərazisində olan Kargird mədrəsəsinin həndəsi quruluşu ilə eynidir [4. S.32 və S. 36] (şəkil 9).



*Şəkil 9. Ordubad rayonu, Köhnə Kotam kəndi və İrandakı Kargird mədrəsəsi. Həndəsi ornamentin qrafiki analizi*

Köhnə Kotam kəndinin xarabalıq halında olan tikinti qalıqlarının tədqiqi köstərir ki, burada Orta əsrlərə aid olan inşaat materialların deмək olar ki, hamısından istifadə olunmuşdur. Belə ki, inşaat marerialları, daş, çiy kərpic və möhrə hörgülərindən ibarətdir. İranda Kargird mədrəsəsinin həndəsi bəzək forması ilə eyni olan Köhnə Kotam yaşayış məskənində olan məscid pəncərələrində şəbəkələrin həndəsi ornamentinin quruluşu kvadrat və bu mənbədən yaranan mütənasiblik sisteminə əsaslanır.

**ƏDƏBİYYAT**


1. Məmmədzadə K. M. Azərbaycanda inşaat sənəti. Bakı, 1978. 208 s.
2. Naxçıvan abidələrinin ensiklipediyası. Naxçıvan, 2008, 519 s.
3. Бакланов Н. Б. Изучение строительной техники каки один из способов датировки памятников, ГАИМК №7-8, М., 1932
4. El-Said, Ayşe Parmn. Qeometrik konsepts in İslamik Art. London, 1976. 153 s.


**ABSTRACT**


**Gadir Aliyev**


**RESEARCH ON ARCHITECTURAL PATTERNS OF KOHNA KOTAM VILLAGE OF ORDUBAD DISTRICT**


The architectural patterns of Kohna Kotam village is examined in this article which belongs to medieval ages and located in Ordubad district. Relics of architectural patterns are researched separately which consist of bricks, mohrah, natural stone and etc materials.

Meantime, architectural structure of the mosque is examined which is an only building remained undamaged till the contemporary era. The graphical analyze of the geometrical patterns from the windows of the mosque are explained. It is clarified that geometrical proportion of this ornament belongs to square and proportion system which is emerged from this source. Its geometrical form is similar to Kirgard madrasah which is located in Iran.


**РЕЗЮМЕ**


**Кадир Алиев**


**ИССЛЕДОВАНИЕ АРХИТЕКТУРНЫМ ОБРАЗЦАМ КОХНА (СТАРЫЙ) КОТАМ ОРДУБАДСКОГО РАЙОНА**


В этой статье рассматриваются архитектурные образцы деревни Кохна (старый) Котам, которые относятся к средневековым эпохам и расположены в Ордубадском районе. Изучаются реликвии архитектурных узоров, которые состоят из кирпича, глины стены грязи, природного камня и др. материалов.

Между тем, рассматривается архитектурная структура мечети, которая является единственным зданием, которое осталось неповрежденным до современной эпо- хи. Объясняется графический анализ геометрических узоров из окон мечети. Проясняется, что геометрическая пропорция этого орнамента принадлежит к квадратной и пропорциональной системе, которая возникает из этого источника. Его геометрическая форма похожа на медресе Киргард, которое расположено в Иране.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mamed@mail.ru*
**NAZƏNDƏ MƏCİDLİ**
*Bəhruz Kəngərli Muzeyi*

**UOT:069**

# BƏHRUZ KƏNGƏRLİNİN BƏDİİ İRSİ XALQIMIZIN MİLLİ SƏRVƏTİDİR

**Açar sözlər:** *Muzey, fond, ekspozisiya, eksponat, kolleksiya, sərvət*
**Key words:** *Museum, Fund, Exposition, Exhibits, Collection, Wealth*
**Ключевые слова:** *Музеум, фонды, зкспозиции, зкспанаты, каллекции, богатства*

Zəngin tarixi ənənələrə malik olan klassik Azərbaycan təsviri sənətinin ən görkəmli nümayəndələrindən biri də Bəhruz Kəngərlidir. XX yüzillikdə milli peşəkar rəngkarlıq sənətinin ilk addımları Bəhruz Kəngərlinin adı ilə bağlıdır.

Bəhruz (Şamil) Şirəlibəy oğlu Kəngərli 1892-ci ildə Naxçıvanda anadan olmuşdur. Atası Şirəlibəy gimnaziyada təhsil almış, fars və rus dillərini mükəmməl bilmiş, Şərq və Avropa ədəbiyyatı ilə tanış olmuş açıq fikirli ziyalı idi. Bəhruz kiçik olarkən anası Əziz xanım dünyasını dəyişir, atası Sirin xanımla ailə həyatı qurur. Şirəlibəy oğlunu rus-tatar məktəbinə qoysa da eşitmə qabiliyyətini itirən Bəhruz təhsilini yarımçıq qoymalı olur və o öz səssiz dünyasına qapılaraq şəkillər çəkməyə başlayır. Atasının abunəçisi olduğu "Molla Nəsrəddin" jurnalında dərc olunan karikaturalarla tanış olur, şəkillərin üzünü çıxararaq rəsm sənətinin sirlərini öyrənərdi. Gənc Bəhruzun bu istedadını görən ailənin yaxın dostları Şirəlibəyə məsləhət görürlər ki, oğlunu Tiflisdəki rəssamlıq məktəbinə göndərsin. Beləliklə, Tiflisə gələn Bəhruz 1910-cu ildə o vaxtlar "Qafqaz Zərif Sənətləri Təşfiq Cəmiyyəti" nəzdində fəaliyyət göstərən rəngkarlıq və heykəltaraşlıq məktəbinə müvəfəqiyyətlə imtahan verib həmin məktəbin tələbəsi olur. Onun qəbul olduğu məktəb o zaman bütün Zaqafqaziyada yeganə rəssamlıq məktəbi idi. Bəhruz " İncəsənəti təşfiq cəmiyyəti" nəzdindəki məktəbdə oxuyan ilk azərbaycanlı tələbə idi. Əgər Bəhruz bəyin tələbəlik dövrü işlərini dəyərləndirməli olsaq onda ilk növbədə onun ruhunda gəzdirdiyi yaratmaq istedadını müəllimlərinin faydalı göstərişləri ilə özünəməxsus gerçəkçi-realist görüntülərə çevrildiyini, yaddaqalan bədii tutum aldığını söyləməliyik.

Gənc rəssamın tələbəlik illərində Gürcüstanın mənzərəli guşələrində, Qara dəniz sahillərində eləcə də yay tətili zamanı doğma yurdun gözoxşayan guşələrində olması, onun təbiətlə təmasının onu gözəl mənzərə ustası kimi yetişməsinə təkan verdi desək yanılmarıq[1].

Təhsill illəri Bəhruz Kəngərlinin yaradıcılığına böyük təsir edir. Bəhruz məhz təhsil zamanı peşəkar rəssamlıq təcrübəsi qazanır. Məhşur rus rəssamları Petrov, Makovski, Polenovun və O.Şmerlinqin yaradıcılıq ənənələrindən faydalanan Kəngərli təhsil illərində rəssamlıq sənətini dərindən öyrənir. Tiflis illərində rəssam sənətin sirlərinə tam yiyələnmək məqsədi ilə böyük səy göstərir. Onun məşhur Yunan və Roma mövzusunda çəkdiyi işlər, akademik rəsmlər rəssamın sərbəst rəsm vərdişlərinə tam yiyələndiyinə örnəkdir. Bəhruz Kəngərlinin çəkdiyi bir sıra rəsmlər "Apollonun başı", "Laakon", "Antik fiqur", "Baş əzələləri" kimi rəsmləri buna misal ola bilər.

Bəhruz Kəngərli çox qısa ömrünün Tiflis mərhələsini uğurla başa vuraraq doğma Naxçıvana qayıdır. Təbii ki, ilk növbədə özünü yaradıcı bir rəssam kimi təsdiqləmək, sonralar ölçüyəgəlməz hesab olunacaq vətənpərvərliyini sərgiləmək üçün...Gənc rəssam hələ tələbə ikən Naxçıvanda öz əsərlərindən ibarət sərgi təşkil etmişdi. Sərgilərində o həm xalqı çəkdiyi rəsm əsərləri ilə tanış edir, onların mövzusu haqqında izahlar verir, həm də insanlar arasında incəsənətlə bağlı söhbətlər aparır, yerlilərinin bu yöndə maariflənməsi üçün xüsusi səylər göstərirdi. Akademik M.C.Cəfərovun xatirəsində Bəhruz Kəngərlinin 1919-cu ildə balaca bir otaqda nümayiş etdirdiyi sərgisi haqqında

maraqlı məlumat verilir: *O, bir-bir əsərlərini göstərib həvəslə uşaqlara izahat verirdi və arabir gülümsəyib deyirdi: "Əl vurmaq olmaz, olmaz əl vurmaq". Mən həmişə üzü tutqun, qaşları çatılmış olan rəssamı birinci dəfə gülümsəyən gördüm.* [2]

Uşaqlar, yeniyetmələr rəssamın sərgilərinə tamaşa edər, naturadan şəkil çəkərkən başına toplaşar, məharətinə heyran-heyran baxaraq zövq alardılar. Belə əyani rəsm vərdişləri sənət həvəskarları üçün canlı ibrət və təcrübə məşğələlərinə çevrilirdi. Təsadüfi deyildir ki, Naxçıvanda sonralar rəssam kimi tanınmış Hüseyn Əliyev, Adil Qazıyev, Şamil Qazıyev, Əyyub Hüseynov, Bağır Maratlı kimi gənclər Bəhruz Kəngərlini özlərinin ilk müəllimi sayır, yüksək qiymətləndirirdilər.

Bəhruz Kəngərlinin yaradıcılığı ilə Azərbaycan rəssamlığında orta əsr miniatürü və XVIII-XIX əsrlərin divar təsvirləri üçün səciyyəvi olan şərti dekorativlikdən realist təsvir metoduna keçid başlanmışdır. XIX əsr rəssamlığında meydana çıxan yeni üslub xüsusiyyətləri, realist tendensiyalar öz inkişafını Bəhruz Kəgərlinin yaradıcılığında tapmışdır. M.Nəvvabla sanki Şərqi ülkgüləriylə yaşayan sırf orta əsrlər rəssamlığımız bitir. Kəngərli ilə Şərq-Qərb vəhdətli yeni Azərbaycan rəssamlığı başlanır. Bəhruz Kəngərli yaradıcılığı ilə həmdə vacib tarixi keçidin körpüsünə çevrilmişdi.[3] Bəhruz Kəngərli Azərbaycan boyakarlığında realizmin əsasını qoymuş, onu yeni ictimai məzmun, yeni janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirmişdir.

Ümumiyyətlə, Bəhruz Kəngərlinin yaradıcılığını xronoloji baxımdan iki mərhələyə bölmək olar. Birinci mərhələyə hələ tələbəlik illərində karandaş, kömür, sulu və yağlı boyalarla işlədiyi əsərlər daxildir. Onlar 1911-1913-cü illərdə kağız üzərində karandaşla çəkilmiş müxtəlif ölçülü işlər yaradıcılığının birinci dövrünə aid edilir.

İkinci mərhələdə, yəni rəssam təhsilini başa vurduqdan sonra yaratdığı əsərlərində eyni mövzulara toxunmuş olsa da, onları daha peşəkar səviyyədə dərinləşdirmiş, yaşadığı bütün acılı-şirinli hissləri, doğma torpağına vurğunluğunu, milli ənənəyə bağlılığını yaratdığı obrazların simasında, geyimində, etnoqrafik zənginliyində biruzə vermişdir.

O, bütün günlərini Naxçıvanın ətraf kəndlərin mənzərəli yerlərində keçirərək diqqətini cəlb edən qədim memarlıq abidələrinin, dağ və yaşıl düzənliklərin görünüşünü təsvir edirdi. O, demək olarki əsərlərinin çoxunu öz müşahidələri əsasında çəkirdi. Naxçıvanın özünəməxsus koloriti, qarlı dağları, geniş düzənlikləri rəssamın ustalıqla yaratdığı əsərlərinin əsas mövzusunu təşkil edirdi. Onun “ Dağın zirvəsi”, “İlandağ ay işığında”, “ Naxçıvanda şəlalə”, “Yamxana kəndinə yol” və s. əsərləri Naxçıvan təbiətinin gözəlliklərini özündə əks etdirir. Kəngərli insanın, təbiətin gözəlliyini, boyaların ahəngliyini, hava-işıq effektlərinin təravətini tam və dolğun şəkildə ifadə edən realizm metoduna, xüsusilə impressionizm üslubuna meyl göstərirdi. Rəssamın bir sıra mənzərələrində, o cümlədən günün müxtəlif çağlarında fırçaya alınan "İlanlı dağ" mənzərələrində impressionizm sənət cərəyanının əks-sədası aydın duyulur.

Bəhruz Kəngərlinin mənzərə əsərlərindən danışarkən “ Naxçıvan yadigarı” albomunu qeyd etmək vacibdir. Hamısı eyni ölçülü, karton üzərinə səliqə ilə yapışdırılmış bu albomda Naxçıvanın təbiət mənzərələri, memarlıq abidələrinin təsvirləri, ümumiləşdirilmiş bədii tiplər verilmişdir. Bu albomda “Araz”, “ İlanlı dağ”, “Ədilağa gölü”, “ Şəlalə”, “ Atababa kümbəzi”, “ Nuhun qəbri” kimi əsərləri toplanmışdır. [4]

O zaman maarif, mədəniyyət ocaqlarının təşəkkülü sahəsində ilk addımlar atan Naxçıvanın mədəni həyatına Bəhruz Kəngərlinin məhsuldar fəaliyyəti faydalı təsir göstərirdi. Rəssam rəssamlıq sənətini təbliğ etmək üçün əhəmiyyətli yollar axtarır, "Naxçıvan yadigarı" albomunu yerli əhali arasında yayılmasına səy göstərir, sənətsevərlər arasında maraqlı söhbətlər aparırdı.[5]Naxçıvanın tarixi-etnoqrafık abidələrini, milli tipajları, geyimləri, yerli mühitin əlamətdar atributlarını əks etdirən "Naxçıvan yadigarı" adlı olduqca maraqlı rəsm albomu hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyində mühafizə edilir.

Bəhruz Kəngərli ancaq təbiət mənzərələri çəkməklə kifayətlənmir, çoxlu portret, natürmort və s. əsərlər üzərində də işləyirdi. Rəssamın bədii irsində mənzərədən sonrakı əsas yeri portret janrı tutur. Azərbaycan incəsənətində Kəngərliyə qədər şərtilik və dekorotivlikdən tamamilə azad, müasir formalı, əsl mənada realist xarakter daşıyan portret əsərləri olmamışdır. O, əsərlərini daha çox naturadan çəkirdi.

Bəhruz Kəngərlinin portret əsərləri bədii forması, obrazların həlli yaradıcılıq metodu və ifadə tərzinə görə əsl realist xarakter daşıyır. Realist portret sənətinin əsas xüsusiyyətlərini hərtərəfli öyrənmiş Bəhruz Kəngərli portreti bədii obraz səviyyəsinə qaldırmağa müvəffəq olmuşdur. O, portret əsərlərinin böyük əksəriyyətini 1918-1921-ci illərdə çəkmişdir.[6] Kəngərlinin müasirləri, Naxçıvanın ziyalıları ona özlərinin portretlərini çəkməyə sifariş verərdilər. O, naturadan portret çəkməklə yanaşı bəzən qazanc məqsədilə fotodan portretləri böyütməklə də məşğul olardı. Rəssamın əmisi oğlu Hüseyn ağa Kəngərlinskinin, babası Murtuz ağanın, əmisi Rzanın, müəllimi Mirzə Məhəmməd Zamanbəyovun, Əsədağa Sultanovun portretləri bu qəbildəndir. Kəngərlinin kiçik ölçüdə çəkilmiş portretlərinin əksəriyyəti sulu boya ilə icra olunmuşdur. Canlı müşahidələrin izi ilə fırçaya alınmış həmin rəsmlər sadə və sərbəst kompozisiyasına görə çox vaxt etüd səviyyəsindədir. Hiss olunur ki, sevimli peşəsindən ayrılmaq bilməyən rəssam hər yerdə diqqətini cəlb edən şəxsləri ani və ötəri rəsmlərində canlandırmağı xoşlayırmış. Bunların böyük hissəsi 1911-13-cü illərdə sulu boya, karandaş, kömür və qara tuşla işlənmiş albomda toplanmışdır. "Kişi portreti", "Qadın portreti" adları altında təkrar-təkrar işlənən belə rəsmlər milli tipajın rəngarəngliyini müşahidə etmək niyyəti ilə yaranırdı. Rəssamın portret yaradıcılığında uşaq portretləri əsas yer tutur. Onların ümumi sayı otuza yaxındır. Sulu boya ilə çəkilmiş bir əsər istisna olmaqla, demək olar ki, qalanları zamanında " Yatmış uşaq" təsviri kimi səciyyələndiriliblər. Rəssam bu əsərlərində daha çox bacı və qardaşlarını çəkib.

Portret janrının bir qolu olan avtoportret janrında da ilk dəfə özünü sınayan rəssam da Bəhruz Kəngərli olmuşdur. Bu mövzuya öz yaradıcılıqları boyu demək olar ki, bütün rəssamlar müraciət etmişdilər. Avtoportret janrında çəkilmiş bir neçə əsərində rəssam özünü ömrünün müxtəlif vaxtlarında təsvir etmişdir.

Bəhruz Kəngərlinin əsərlərinin çoxunun kiçik həcmdə olması maraq doğurur. Rəssamın yaşadığı dövrdə kağız və rəsm ləvazimatlarının qıtlığı mövcud idi. Bununla yanaşı bitmiş bir fikiri məhdud sahə üzərində yerləşdirmək xüsusi bacarıq və istedad tələb edirdi.

Yaradıcılığının ilk dövrünə aid bəzi kompozisiyalarda Kəngərli Ə.Əzimzadənin mənsub olduğu tənqidi realizm yolu ilə gedərək, xalq həyatından alınmış ayrı-ayrı səhnələri təsvir edirdi. Sulu boya ilə çəkilmiş "Elçilik" və "Toy" kimi məişət səhnələrini təsvir edən kompozisiyalar bu cəhətdən çox xarakterikdir.[7] "Naxçıvan toyu" əsəri Bəhruz bəy Kəngərlinin yaradıcılığında çoxfüqurlu yeganə kompozisiya olmaqla bərabər həm də sulu boya ilə işlənmiş ən böyük əsəridir. Tabloda yer almış fiqurların əsasən qadın və qızlardan ibarət olması əsərin qız toyuna həsr olunduğunu göstərir. Onlar Şərq üçlüyünün – kaman və qoşa nağaranın müşayiəti ilə qaval çalıb oxuyan müğənninin sehirli səsinə qulaq asır və orada şövqlə rəqs edən qadına əl çalırlar. Eyni zamanda təkcə bədii dəyərlərinə görə deyil, tabloda təsvir olunan qadın, uşaq və kişi fiqurlarının üzərlərindəki milli geyimləri, yerə döşənmiş xalça və kilimləri, taxçalardakı məişət əşyalarının və digər avadanlıqlarının zənginliyi ilə də, tədqiqatçıların diqqətini cəlb edən etnoqrafik əsər kimi xüsusi əhəmiyyətə malikdir. Bəhruz bəyin bu əsərini digərlərindən fərqləndirən əsas cəhətlərdən biri də, burada təsvir olunan insan fiqurlarının digər əsərlərə nisbətən daha çox və dinamik pozalarda olmasıdır.

Rəssam adətən əsərlərində bir və ya iki insan obrazı təsvir etsə də, " Naxçıvan Toyu " əsərində kompazisiya yaratmaq istedadını göstərmişdir.

Rəssamın " Elçilik" əsəri qədim zamanlardan bəri xalqımızın etnoqrafik adətlərinə aid olan " qız istəmə" yə həsr olunmuşdur. Kompozisiyada təsvir olunmuş milli geyimli qadınlar xalça üzərində bardaş qurub çay süfrəsi ətrafında söhbət edirlər. Bəhruz Kəngərli el adətimizə sadiq qalaraq şirin çayın qarışdırılması və qızın "hə" sinin alındığını göstərə bilmişdir. Əsərin əsas obrazlarından olan elçilənən qız üçüncü planda, mətbəxdə evə açılan qapının arasında təsvir edilib. " Elçilik " kompozisiyasında rəssam sünilikdən uzaq səmimi bir mühit canlandıra bilmişdir. [8]

Bəhruz Kəngərlinin ən dəyərli əsərlərindən biri də kətan üzərində yağlı boya ilə işlənmiş "Möminə Xatun türbəsi" əsəridir. Rəssam Atabəy dövlətinin hökmdarı Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə Xatunun şərəfinə tikilmiş bu abidəni dəfələrlə öz əsərlərinin də təsvir etmişdir. Dünyada qadının, ananın şərəfinə tikilmiş ilk abidə olaraq Möminə Xatun Türbəsinin ecazkarlığını qabartmaq üçün rəssam əsəri çox incəliklə işləmişdir. Bu əsər Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin Sədri tərəfindən Bəhruz Kəngərli Muzeyinə hədiyyə olunub. Hal –hazırda muzeyin ekspozisiyasında nümayiş olunur.

Kəngərlinin əsərlərində xətlər və cizgilər deyil, sərbəst və cəsarətlə birbaşa vurulmuş rəng yaxıları həlledici rol oynayır. Formanın plastikliyi, xətti və hava perspektivi, fəza dərinliyi, kölgə-işıq və rəng keçidləri, incə rəng nüansları kimi realist boyakarlığın əsasını təşkil edən ifadə vasitələri Azərbaycan incəsənətinə ilk dəfə Bəhruz Kəngərli tərəfindən gətirilmişdir. Məhz buna görədir ki, Bəhruz Kəngərlinin yaradıcılığı Azərbaycan incəsənəti tarixində yeni bir hadisə, rəssamın özü isə əsl novator rəssam kimi qiymətləndirilir.

Bəhruz Kəngərli öz bilik və bacarığını Naxçıvanın başqa gənclərinə öyrətməyə çalışır və Naxçıvan əhalisində incəsənətə hörmət və həvəs oyatmaq üçün hər vasitədən istifadə etməyə çalışırdı. 1920-ci ildə Kəngərli Naxçıvan şəhər məktəbi yanında rəsm dərnəyi təşkil etmişdi. Bu dərnəyə, məktəbin rəsm məşğələlərinə həvəsi olan tələbələri cəlb etmişdi. [[9]]

Bəhruz Kəngərlinin 2000-ə yaxın mövzu və janr etibarilə müxtəlif və rəngarəng əsərlərindən ibarət bədii irsi geniş ictimaiyyətin nəzər-diqqətini cəlb etmiş, ardıcıl olaraq toplanıb sərgi və muzey ekspozisiyalarının bəzəyinə çevrilmişdir.

Bu orijinal əsərlərin yalnız 450 –si günümüzə qədər gəlib çıxmışdır. Onun əsərlərinin bir hissəsi Azərbaycan Milli İncəsənət Muzeyində, Bəhruz Kəngərli Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır. Bəhruz Kəngərli bu əsərlərində demək olar ki, bütün mövzulara müraciət edib. Onun tarixi abidələr, animalist, mənzərə janrında çəkdiyi əsərlər bu gündə öz rəng seçimi və profisionallıq baxımından çox dəyərlidir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Bəhruz Kəngərli yaradıcılığını yüksək dəyərləndirərək demişdir : "Tiflisdə xüsusi rəssamlıq təhsili alan Bəhruz Kəngərlinin yaradıcılığı rus boyakarlıq məktəbinin ənənələrini davam etdirən mühitdə formalaşsa da, o, tamamilə milli ruhda və üslubda yaratmış, milli rəssamlığın inkişafında özünəməxsus rol oynamışdır. Xəlqilik və insanpərvərlik, realizm və Vətənə sonsuz məhəbbət Kəngərli yaradıcılığının əsasını təşkil edir".

Bəhruz Kəngərli sərbəst yaradıcılıq fəaliyyəti gərgin ictimai-siyasi təzadlı illərə, xüsusilə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi təcavüz və terror əməliyyatlarının baş verdiyi dövrə təsadüf etmişdir. Rəssamın həmin mövzulara həsr etdiyi rəsmləri kəskin sənədli ittihamnamə vüsətinə malikdir. Xüsusilə, "Qaçqınlar" rəsm silsiləsi zamanın ictimai ziddiyyətlərini əks etdirən realist ümumiləşdirmə qüvvəsi ilə səciyyələnir.

Azərbaycan rəssamlığı XX əsrin əvvəllərində Bəhruz bəy Kəngərlinin çəkdiyi "Qaçqınlar" adlı silsilə əsərləri ilə erməni təcavüzünün silinməz izlərini özündə yaşadan ifşaedici sənət nümunələri yaratmağa nail oldu. [[10]] Bu əsərləri sifariş edən də, satın alanda olmamışdır. Amma gənc rəssamımız böyük vətənpərvərlik nümunəsi göstərərək başımıza gələnlərin salnaməsini yaratmışdır. Rəssamın müxtəlif kəndlərdən olan qaçqınların zahiri görkəmini, gözlərindəki ümidsizliyi əbədiləşdirməklə sanki bizə bunları unutmamağı vəsiyyət etmişdir. Bəhruz Kəngərli əsasən qadınları və uşaqları xarabalıqların fonunda çəkməklə hadisələrin faciəvi miqyasını göstərmək istəyirdi. Əslində, 1918-1920-ci illərdə yaşanan acıların canlı salnaməsi olan bu portretlər danılmaz tarixi sənədə çevrilən, erməni təcavüzünə qarşı sənətkar ittihamı kimi səslənən və heç vaxt əhəmiyyətini itirməyəcək bir bədii irsdir. Bəhruz Kəngərli heç bir əsər yaratmasa belə "Qaçqınlar " silsiləsi adı altında çəkdiyi əsərlərlə Azərbaycan rəssamlıq sənətində əbədi yaşayacaqdı. Bu əsərlərin sayı otuza yaxındır. Rəssam "Qaçqın qadın", "Əyləşmiş qaçqın oğlan", "Ayaqyalın qadın", "Qaçqın İmran çanta ilə", "Qaçqınlar arabada" və s. əsərlərində azərbaycanlıların başlarına gətirilmiş müsibətləri günümüzə qədər çatdıra bilmişdir.

Rəssamın erməni vəhşiliyinin əks etdirdiyi əsərlərindən biri də "Minarəsi dağılmış məscid" əsəridir. Əsərdə minarəsi ermənilər tərəfindən dağıdılmış şəhər məscidi və minarə zədələndiyi üçün məscidin üstündən azan verən imam təsvir olunub. Düşmənlərimiz minarəni qarşı tərəfdə yerləşən kilsədən top atəşi ilə zədələyiblər. Nəticədə, minarə bərpa olunsada daşların rəngindəki fərqə görə bu gündə seçilir. Bununla da Bəhruz Kəngərli düşmənlərimizin dini-mədəni abidələrimizə qarşı vandal münasibətini tarixi fakt kimi öz əsərində əbədiləşdirib.

Bəhruz Kəngərlinin Naxçıvandakı xarabalıqları –viranəlikləri əks etdirən "Tərk edilmiş ev", "Naxçıvan viranəlikləri", "Naxçıvanda xarabalıqlar", Eylabat kəndində dağılmış darvaza" əsərləri

mühüm əhəmiyyət kəsb edir. Belə ki, dağıntılar tikililərin zamanın sərt sınağından çıxmamasının yox, daşnak hərbi dəstələrinin vəhşiliklərinin izləridir. Deməк olar ki, Bəhruz Kəngərlinin bütün əsərləri vətənpərvərlik duyğuları ilə bəslənib. Milli ruhlu rəssam hər əsərində doğma yurdunun gözəlliklərini vəsf etməyə, tarixini canlandırmağa çalışıb. Doğma vətənində məşəqqətli və ağır sınaq illərinin baş verməsinə baxmayaraq, Bəhruz Kəngərlinin yaradıcılıq fəallığı, əməksevərliyi daha da genişlənir, sənətkarlığı kamillik mərhələsinə çatır. O, yorulmadan bədii axtarışlar aparır, rəngkarlığın portret, mənzərə, natürmort janrlarında psixoloji cizgiləri, mənəvi hiss və duyğuları ilə aşılanmış, lirik əhval-ruhiyyəsi ilə seçilən rəsmlər, tablolar yaradır. Rəssam əsərlərində real mənzərələri əks etdirsə də yenə də özündən razı qalmayaraq deyirdi: *Mən gördüyüm bu qəribə aləmi rənglərlə təsvir edirəm. Ancaq yenə də o çəkdiyim şeyin eyni ola bilmir. Mən çalışıram elə rəsm çəkim ki, o həmin şeyin eyni ola bilsin.*

Bəhruz Kəngərlinin özündə tarixiliyi yaşadan əsərləri sırasında Naxçıvanın dini abidələrinə, ziyarətkarlarına həsr etdiyi əsərlər xüsusi yer tutur. O, bu əsərlərini müxtəlif rakurslardan işləyərək fərqli və dəyərli əsərlər yarada bilmişdır. Bəhruz bəyin əsərlərinin Naxçıvanın iyirminci yüzilliyin əvvəllərində daşıdığı və bu gün mövcud olmayan görüntülərinin gələcək nəsillərə ötürülməsində mühüm rolu olmuşdur. Təkcə Nuhun məzarına rəssam beş əsər həsr etmişdir. Bundan başqa "Naxçıvanda məscid", "Əshabi Kəhv dağı", "Möminə Xatun türbəsi", "Yusif ibn Küseyr Türbəsi ", "İmamzadə türbəsi" və s. əsərləri onun dini və tarixi abidələr janrında işlədiyi ən dəyərli əsərləri sırasındadır.

Təbiəti sevən Bəhruz özünü animalist janrda da təsdiqləyir. Onun kətan üzərində yağlı boya ilə çəkdiyi " Ov itləri " əsəri rəssamın yaradıcılığında yeni bir səhifədir.

Bu kompazisiyanın ümumi quruluşundakı peşəkar tərtib üslubu yüksək bacarığa və istedada sübutdur. Animalist janrda rəssamın əsərləri az olsa da o bu əsərlərini də çox böyük ustalıqla işləyib.

Bəhruz Kəngərli Naxçıvanda teatr sənətinin inkişafı ilə əlaqədar tədbirlərin həyata keçirilməsində də yaxından iştirak etmişdir. Məlumdur ki, 1883-cü ildən 1912-ci ilə kimi Naxçıvan Teatrında peşəkar rəssam olmadığına görə səhnə tərtibatı həvəskar aktyorlar tərəfindən hazırlanırdı. Ona görə də bu tərtibatlar çox sadə və primitiv xarakter daşıyırdı. Bəhruz Kəngərli 1912-ci ildə Naxçıvan teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının bədii tərtibatını verərək, ilk dəfə teatr rəssamı kimi fəaliyyətə başlayır və burada böyük xidmət göstərərək, tamaşaların ruhunu əks etdirən, forma və məzmun vəhdəti ilə seçilən dekorasiyalar hazırlamışdır. Bələliklə, Bəhruz Kəngərli Naxçıvan teatrının ilk professional rəssamı oldu.

Bəhruz Kəngərli 1912-ci ildən 1918-ci ilədək Naxçıvan teatrının səhnəsində Nəcəf bəy Vəzirovun "Pəhləvanani-zəmanə", "Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" - ümumilikdə 40-dan çox tamaşaya irihəcmli pannolar çəkmiş, səhnə tərtibatı və geyim eskizləri vermişdir. Rəssam milli xalq geyimlərinin misilsiz bilicisi idi. O, bədii tərtibat verdiyi əsərlərin personajlarını səciyyələndirən, tarixi dürüstlüyü, milli koloriti, zəngin boyaları, naxışları, bəzəkləri ilə nəzəri cəlb edən çoxlu əlbisə eskizləri yaratmışdır.

1917-ci ildə Bəhruz Kəngərli Naxçıvan "Xeyriyyə" məktəbinin nəzdindəki "El güzgüsü" adlı teatr cəmiyyəti tərəfindən tamaşaya qoyulmuş Cəlil Məmmədquluzadənin "Ölülər" komediyasının səhnə tərtibatını, dekor və geyim eskizlərini icra etmişdi. O, həmçinin 1918-ci ildə tamaşaya qoyulmuş "Pəri Cadu", "Hacı Qara" kimi əsərlərin səhnə tərtibatım vermiş, bundan əlavə teatrın arxa səhnəsi üçün dağ mənzərəsini təsvir edən irihəcmli panno çəkmişdir ki, ondan müxtəlif tamaşalarda istifadə olunurdu.

Azərbaycan təsviri sənət tarixində yeni cığır açmış Bəhruz Kəngərli ilk təhsilli rəssamlarımızdan olaraq rəsm sənətində bir çox yeniliklərə imza atmışdır. Realist dəzgah boyakarlığının təşəkkülü, mənzərə janrının müstəqil janra çevrilməsi, ilk avtoportret janrında çəkilmiş əsər, ilk sərginin açılması Bəhruz Kəngərlinin adı ilə bağlıdır. Bəhruz Kəngərli başqalarına örnək ola biləcək həyat hekayəsi və yaradıcılıq dövrünün məhsuldarlığı ilə zirvədə yaşamağa layiqdir.

Bəhruz Kəngərli 1922-ci il 7 fevralda cəmi 30 yaşında gözlərini əbədi yumdu. Bu qısa ömrünə bir neçə insan ömrü sığışdırılmış gənc rəssam öz mənalı həyatı ilə əbədiyaşarlıq qazandı. Rəssamın məzarı Naxçıvan şəhərində yerləşir. Məzarüstü abidəsi xalq rəssamı Hüseynqulu Əvliyev tərəfindən hazırlanmışdır.

Ümummilli lider Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığını yüksək qiymətləndirərək demişdir: "Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndır. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur". Bəhruz Kəngərli yaradıcılığı müstəqil dövlətimiz tərəfindən hər zaman diqqət və qayğı ilə əhatə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 13 aprel 2012-ci il tarixdə "Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilmısi haqqında" Sərəncam imzalamışdır. Naxçıvan MR Ali Məclisinin Sədri 15 fevral 2001-ci ildə "Bəhruz Kəngərlinin adınının əbədiləşdirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonu Bəhruz Kəngərli adına Sərgi Salonu adlandırılması, Bəhruz Kəngərli yaradıcılığının öyrənilməsi, muzey fondlarında və şəxsi kolleksiyalarda saxlanan əsərlərin toplanaraq Naxçıvan Muxtar Respublikası Dövlət Rəsm Qalereyasına verilməsi qərara alınmışdır. Naxçıvan MR Ali Məclisinin Sədri 22 may 2001-ci ildə "Bəhruz Kəngərli Muzeyinin yaradılması haqqında" Sərəncam imzalanmışdır. Naxçıvan MR Ali Məclisinin Sədrinin növbəti Sərəncamı "Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilmısi haqqında "dır. Bütün bunlar Bəhruz Kəngərli yaradıcılığına muxtar respublika rəhbərliyi tərəfindən göstərilmiş böyük qayğının bariz nümunəsidir.

Qeyd etdiyimiz kimi, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 22 may 2001 -ci il Sərəncamı ilə yaradılmışdır. Bəhruz Kəngərli Muzeyi Azərbaycanda ilk və yeganə rəssamlıq muzeyidir. Muzeyin binası Naxçıvan şəhərində yerləşən iki mərtəbəli arxitekturalı binada fəliyyət göstərir. İyirminci əsrdə bu binada təhsil müəsissələri yerləşirdi. Burada əvvəlcə Pedoqoji texnikom, daha sonra isə Heyran xanım adına Tibb Məktəbi fəaliyyət göstərib. Muzey doqquz ekspozisiya zalından və bir fond otağından ibarətdir. Bu zallardan birində ümummilli lider Heydər Əliyevin Pedoqoji Texnikomda təhsil aldığı illərə aid xatirə fotoları, sənədlər nümayiş olunur. Muzeydə həmçinin rəssamın əsərlərinin fotosurətləri, eskizləri, şəxsi əşyaları, ailə üzvləri və yaxın qohumlarına aid fotoşəkillər, rəssamın bir neçə büstü və Rahib Qarayevin hazırladığı "Bəhruz Kəngərlinin heykəli" qorunub saxlanılır. Ümumilikdə, ekspozisiya zallarında və muzeyin fondunda 1200-ə yaxın eksponat qorunub saxlanılır. Bu əsərlərin 58-i rəssamın orjinal əsərləridir. Hər il muzeyi respublikamızın müxtəlif bölgələrindən gələn yüzlərlə ziyarətçi və turistlər ziyarət edir və muzeydən xoş təəssüratlarla ayrılırlar. Bəhruz Kəngərli Muzeyinə qayğı daim muxtar respublika rəhbərliyinin diqqət mərkəzindədir. Son illər muzeyin binasının əsaslı təmir olunması, onun müasir avadanlıqlarla təchiz olunması, muzeyin ekspozisiyasının daha da zənginləşdirilməsi məqsədilə Bəhruz Kəngərlinin əsərlərinin böyüdülmüş fotosurətlərinin hazırlanması bu qayğının göztəricisidir.

Ümümmilli lider Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığı haqqında belə demişdir:

"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir". Milli sərvəti qorumaq gələcək nəsillərə çatdırmaq hər birimizin borcudur.

2016-cı ildə mayın 25-də Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib və rəssamın abidəsi ucaldılıb. Bəhruz Kəngərli bir zamanlar bu ərazidə o öz əsərlərini sərgiləyirdi. Akademik Məmmədcəfər Cəfərov öz xatirələrində yazırdı: "Bəhruz bir dəfə 1919-cu ildə Naxçıvanda Puşkin küçəsində yol kənarında balaca bir otaqda əsərlərinin sərgisini düzəltmişdi. O, qapının ağzında dayanıb yoldan ötənləri çağırırdı ki, gəlib onun sərgisinə baxsınlar..."

Azərbaycan incəsənətinin inkişafında müstəsna xidmətləri olan Bəhruz Kəngərli qısa ömür yaşamasına baxmayaraq təkrarsız yaradıcılığı ilə əbədi yaşarlıq qazanmışdır. Görkəmli sənətkarın bir-birindən dəyərli sənətkarlıq nümunələri bu gün də böyük rəğbətlə qarşılanır, Azərbaycanın mədəniyyət xəzinəsində özünə layiqli yer tutur.

## ƏDƏBİYYAT


1. Əliyev Ziyadxan, Alıyev Nizami, Bəhruz bəy Kəngərli taleyi, Əcəmi, 2017, s.63
2. Kəngərli Bəhruz, Bakı, Sərvət, 2013, s.15
3. Hüseynov Rafael, Millətin zərrəsi, Bakı, 2001, s. 62
4. Albom-kataloq, Kəngərli Bəhruz, Əcəmi, 2012, s. 9
5. Kərimov Kərim, Kəngərli Bəhruz, Bakı, 1962, s. 47
6. Nəcəfov Mürsəl, Kəngərli Bəhruz, Bakı, 1957, s. 7

7. Kəngərli İ., Kəngərli elinin soy kitabı, Bakı, 2005, s. 264
8. Kəngərli Bəhruz, Bakı, 2013, s. 29
9. Kəngərli Bəhruz, Bakı, 2005, s. 13.

**ABSTRACT**

**Mammad Aliyev, Nazende Mejidly**

**BAHRUZ KENGERLY"S LITERARY HERITAGE IS THE NATIONAL WEALTH OF PEOPLE**

The Kengerly dynasty played an important role in Azerbaijan history and artist Behruz Kengerly was one of the worthy followers of that dynasty, who achieved to open a new page in the Azerbaijan painting school. Indeed, the first steps of the national professional painting school of the XX century is connected with Behruz Kengerly's name. He is considered to be one of the founders of the modern art of painting. He has made many firsts in the painting art. Formation of the art of painting, transformation of the landscape genre into the independent genre and opening of the first painting exhibition are connected with Behruz Kengerly's name. Of course, Behruz Kengerly's studying in Tibilisy, the important cultural center of the Caucasus and becoming one of the first professional artists, had positive impact on his creative activity.

Behruz Kengerly appealed to all subjects throughout his creative career. His works in landscape portrait animation genres are being kept in the Azerbaijan Museum of Fine Arts, in Behruz Kengerly's Memorial Museum and in private collections. In his short creative period he painted about 2000 works and only 450 out of them have been saved up today. Behruz Kengerly's creativity has always been covered by the attention and care of the state. Celebrating of Behruz Kengerly's 120$^{th}$ anniversary, establishing of his Memorial Museum and publishing of the album-catalogues are obvious examples of this. The founder of the realism in the Azerbaijan Art of Painting Behruz Kengerly is one of the masters that gained eternity by his creativity.

**РЕЗЮМЕ**

**Маммед Алийев, Назенде Межидли**

**ХУДОЖЕСТВЕННОЕ НОСЛЕДИЕ БАХРУЗА КЕНГЕРЛИ ЯВЛЯЕТСЯ НАЦАНАЛЫИЬМ ДОСТАЯНИЕМ НАШЕГО НАРОДА**

Бахруза Кенгерли достойный последователы изветного рода, Б.Кенгерли сыгравший

Важную роль в истории Азербаиджана, открыл новую страницу в живописи Азербаиджана. В XX веке первые достижения в националной живописном искустве связана с именем. Б.Кенгерли Он сцитается основоположником современного живописного искуства. Б.Кенгерли первооткрыватель и автор многих нацинаний в Азербаиджанской живописной школе. Создание станоцного покрашивание, превращения пейзажного жанра как самостоятельного, открытия первой художественной воставки связана с именем Б.Кенгерли.

Безулсловно полицение образевение в Тифлисе, считавшийся в то время важным центром культуры, на ворчестве Кафказе и будучий первым художником получивший образование, положителью повлияло на творчество Ь.Кенгерли

Б.Кенгерли в тичении своего творчество обратился на разные темы.

Его пейзажные портретные, анимолистические и другие пройзведения сохраняются в

Азербаиджанском Государственном Художественном Музее, в музее Б.Кенгерли и в личных коллекциях.Он в тичение короткого времени создал 2000 произведений из которых до нас долши 450. Творчество Б.Кенгерли постоянно в центре внимания нашего государства.

Проведение 120 годовшины, создание музея, выпуска альбомных каталогов подтверждение зтому Б.Кенгерли основополитик Азербаиджанской реалистической живописи и своим творчеством написал своз имя среди бесмертных.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**SƏYYARƏ SADIXOVA**
**GÜNAY HƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti*
*seyyare.sadiqova@mail.ru*

**UOT:7.04**

# AZƏRBAYCANIN MÜXTƏLİF SƏNƏT NÜMUNƏLƏRİNİN DEKOR SİSTEMİNDƏ BƏZİ HƏNDƏSİ ORNAMENTLƏRİN YARADILMA PRİNSİPLƏRİ VƏ MƏNASI

**Açar sözlər:** *ornament, xalça sənəti, dekorativ-tətbiqi sənət, naxış motivi, haşiyə, şəbəkə*
**Key words:** *ornament, carpet art, decorative-apllied art, pattern motif, edge, chain*
**Ключевые слова:** *орнамент, ковровое искусство, декоративно-прикладное искусство, узорный мотив, каёмка, шебеке*

Ornament- uzaq keçmişdə özündə simvolik və sehirli məna, əlamət, semantik funksiya daşımaqla insanın təsviri fəaliyyətinin ən qədim növlərindən biridir. Ornament tarixin mərhələlərini, əsrin simasını əks etdirmək funksiyasını daha qabarıq yerinə yetirdiyinə görə onun daşıdığı əsas informasiya funksiyasını nəzərə alaraq ona "dövrün dəsti-xətti" adı verilmişdir (1, s.5).

Tarixdə ornament təsviri formalarla paralel olaraq inkişaf etmiş və ayrı-ayrı dövrlərdə məna daşıyıcısı rolunu oynamaqla qısa, aydın informasiya sisteminə çevrilərək cəmiyyətin dini, sosial, fəlsəfi dünyagörüşünü əks etdirmişdir. Ornament yarandığı gündən təyinatından asılı olaraq qrafik təsvirli, heykəlvari, həndəsi, nəbati, zoomorf, antropomorf, epiqrafik ornamentlər, stilizə edilmiş motivlər kimi məişətimizə daxil olmuşdur. Qədim insan dünyanın quruluşu haqqında öz təsəvvürlərini müəyyən işarələrlə verirdi. Məsələn dairə-günəş, kvadrat-əkin sahəsi, übucaq-dağlar, svastika-günəşin hərəkəti, yaxud dörd ünsür, spiral-inkişaf, hərəkət və s.

Azərbaycan xalqının tarix boyu yaratdığı maddi-mədəniyyət nümunələrini bəzəyən ornament sənəti özünəməxsus anlamlar ifadə edərək günümüzə qədər gəlib çatmışdır. Bu ornamentlər sırasında həndəsi naxışlar olan üçbucaq və dördbucaqlı naxışlar təsviri və tətbiqi sənətimizdə geniş istifadə olunmuşdur. Bu sahələrdən ən əhəmiyyətlisi olan milli xalçalarımızda da həmin naxışlara tez-tez rast gəlinir.

Xalça sənətimizdə bəzək naxışlarının bir hissəsini "üçbucaq" formalı ornamentlər təşkil edir. Azərbaycan xalçalarında "üçbucaq" motivləri daha çox haşiyələrdə və ya ara sahənin doldurucu, köməkçi naxışları kimi yerləşdirilir.

Üçbucaq- əsasən parça bəzəklərində və mozaik döşəmə bəzəklərində motiv kimi tətbiq olunur. Düzbucaqlı və kvadrat isə əməli olaraq motivlərlə doldurulacaq sahənin sərhəddini göstərmək üçün istifadə edilir.

Üçbucaqlar Azərbaycanda, həmçinin, bütün şərq aləmində daha geniş yayılmış ornamental motivlərdən biridir. Bu naxışlar Azərbaycan dekorativ tətbiqi sənətinin bütün sahələrində olduğu kimi, xalça sənətində də həm aparıcı, həm də doldurucu, köməkçi naxış elementi kimi çıxış edir. Üçbucaq naxışları daha çox xalçaların "mədaxil", "cağ" haşiyə zolaqlarında müşahidə edilir. Bu tipli naxışlar kontrastlı rənglərdə verilərək haşiyə tipli zolaqlarda yan-yana, baş-başa, iç-içə formalı kompozisiyalarda yerləşdirilir.

Dekorativ-tətbiqi sənətdə geniş istifadə olunan "üçbucaq" naxışının yaranması neolit-eneolit dövrünə təsadüf edir. Elə bu dövrdən də üçbucaqların müxtəlif variantları dekorativ-tətbiqi sənətin bir çox növlərində tətbiq olunur. Həmin dövrə aid bir keramik qab diqqəti cəlb edir. Arxeoloji qazıntılar zamanı Cənubi Azərbaycanın İsmayılabad yaşayış məntəqəsi yaxınlığından tapılmış bu qab e.ə. V minilliyə aiddir. Ağız hissəsi geniş və qısa lüləkli camvari formaya malik olan keramik

qabın üzərində baş-başa birləşmiş üçbucaqlar təsvir olunmuşdur. Qırmızı anqobla üzəri örtülmüş bu qabın üzərindəki naxışlar qəhvəyi rəngdədir.

Tunc dövrünün dekorativ-tətbiqi sənətində üçbucaq formalarının özünəməxsus yeri olmuşdur. Bu dövrdə üçbucaqlar dekorativ bəzək kimi təsvir olunmaqla yanaşı onlar həm də həndəsi formalı dəliklər şəklində da çıxış etmişlər. Bu cür dəlikli üçbucaq dekoruna Gədəbəydə Çovdar ərazisindən tapılmış bürüncdən quş fiqurunun üzərində rast gəlinir (3, s.11).

Arxeoloji qazıntılar zamanı Həftəvan-təpədən tapılmış tunc dövrünə aid gildən hazırlanmış bir qab da xüsusi maraq doğurur. Bu rəngli saxsı qabın üzərindəki üçbucaqlar müxtəlif rənglər vasitəsilə iç-içə, kənarları haşiyələnmiş, içərisi rombların şəbəkəvari düzülüşü ilə doldurulmuş və s. variantlarda təsvir olunmuşdur.

Üçbucaq naxışları qədim dövrün tətbiqi sənət nümunələrində də izlənilir. Cənubi Azərbaycanda Həsənli təpəsindən tapılmış dar boğazlı küpəni, Mingəçevirdən tapılmış iki dəstəkli, dar boğazlı küpəni və s. buna gözəl nümunədir. Bu tipli naxışlara arxeoloji qazıntılar zamanı aşkarlanmış dəmir dövrünə aid məişət əşyalarının və müxtəlif quş, heyvan fiqurlarının üzərində də rast gəlinir. Həmin dövrə aid Mingəçevirdən tapılmış nimçə formalı gil qabı, Gəncəçaydan, Xaçınçaydan tapılmış saxsı qabları və s. nümunə göstərmək olar.

Üçbucaq formalı ornamentlərin geniş şəkildə tətbiqi Alban mədəniyyətində, eləcə də, İslam dövrünün dekorativ-tətbiqi sənətində də müşahidə olunur. Buna XII əsrə aid olan bürünc çırağın üzərində (2, s.26), Şah İsmayılın babası Şeyx Cüneydin məzarüstü sənduqəsinin üzərində (XVI əsr Qusar rayonu, Həzrə kəndi) (3, s.97), XVIII-XIX əsrlər abidəsi olan Gəncə şəhərindəki Göy İmam türbəsinin günbəzi üzərində olan üçbucaq naxışlarını nümunə göstərə bilərik.

Üçbucaq formalı motivlər Qazax xalça məktəbinin "Öysüzlü", "Dağkəsəmən", "Borçalı", Bakının "Suraxanı", Şirvanın "Bico" və s. xalçaların ayrılmaz bəzək elementləridir.

Yaranması neolit-eneolit dövrünə təsadüf edən üçbucaq naxışların mənşəyi təbiətlə, daha dəqiq desək dağlarla bağlıdır. Əcdadlarımız zəngin landşaft formalarına malik Azərbaycan dağlarının təbii sərhədlər rolunu oynadığını dərk edərək öz dekorativ kompozisiyalarında da sərhəd funksiyasını yerinə yetirən mədaxil kompozisiyalarını yaratmışlar. Bu ornamenti müxtəlif variantlarda ("üçbucaq"ların içərisində nöqtələr, xətlər, romblar, düzbucaqlar, dairələr, yaxud əksinə, baş-başa, üz-üzə, tünd və açıq rəngli, kənarları haşiyələnmiş və s.) təsvir etməklə isə ona çoxlu semantik mənasına görə dağları, sərhəddi, bədxah ruhlardan qorunmağı, bolluğu, bərəkəti, şumlanmış və toxum səpilmiş torpağı, birliyi, yaranışı-həyatı-ölümü, həyatı-ölümü-yeni həyatı, ata-ana-uşağı, ilahiliyi-bəşəriyyəti, göy qübbəsini-səmaviliyi-dünyəviliyi, mənəviyyatı-cismaniliyi, odu-suyu və s. semantik mənaları ifadə edirlər.

Üçbucağın sərhəd semantikası ilə bərabər sakral mənası müqəddəs üçlük, vəhdət ideyasını da ifadə edir. Ornament sənətində özünəməxsusluğu ilə seçilən naxış motivlərindən biri də dördbucaqlılardır. Dekorativ sənətin bütün sahələrində geniş tətbiq olunan bu naxışa xalça sənətində də tez-tez rast gəlinir. Azərbaycanın xovlu və xovsuz xalçalarında əsas, aparıcı, köməkçi, doldurucu naxış motivi olan bu element həm ara sahədə, həm də haşiyə zolaqlarında yerləşdirilir.

Hazırda dekorativ bəzək formasını və semantikasını saxlayan bu cür naxışların ilk nümunələrinə tunc dövrünün keramikasında təsadüf olunur. Arxeoloji qazıntılar zamanı Həftəvan-təpədən tapılmış tunc dövrünə aid rəngli gil qabların üzərindəki bu naxış rənglərin vasitəsilə təsvir olunmuşdur. Qablar üzərindəki bu cür naxışlar ağ-qara rənglərin şahmat prinsipi ilə yerləşdirilməsi nəticəsində əmələ gəlmişdir.

Təpə-Siyalkdan tapılmış e.ə. IX əsrə aid çaydan formalı gil qabın üzərindəki dördbucaqlı ornament xüsusi prinsiplə iç-içə yerləşdirilmişdir (6, s.16). Xanlarda 1/1 №-li kurqandan tapılmış dəmir dövrünə aid olan ağzı geniş olan saxsı qabın üzərində də bu cür naxış təsvirinə rast gəlinir (5).

Bu tipli ornamentlərə Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığında aşkar olunmuş daş kitabələri də nümunə göstərmək olar. Bu daş kitabələr üzərindəki oyma işləməli dördbucaqlı naxışların içərisində düz xətlər və sıra ilə düzülmüş nöqtələr təsvir olunmuşdur.

Dördbucaqlı naxış elementlərinə Alban mədəniyyəti dövründə də rast gəlinir. Mingəçevirdən aşkar edilmiş şüşə piyalə bu qəbildəndir. Bu piyalə üzərindəki naxışlar şəbəkə formalı, bir-birinə birləşmiş şəkildə təsvir olunur.

İslam dövrünün dekorativ sənətində dördbucaqlı naxışlara memarlıq abidələrində, bədii metal, bədii tikmə və s. məmulatlarda təsadüf olunur. Ərdəbildə XVI-XVII yüzilliklərə aid Şeyx Səfi türbəsi (3, s.96), 1456-cı ildə Təbrizdə tikilmiş Göy Məscidin kaşı bəzəkləri bu naxışlarla tərtib

olunmuşdur. Dördbucaqlı ornamentlərin bəzək elementi olduğu xalçalardan isə Quba məktəbinin "Quba", "Qaraqaşlı", "Qədim minarə", Şirvanın "Qəşəd", Bakı məktəbinin "Fındığan", Gəncə məktəbinin "Samux", "Şadlı", "Qədim Gəncə", Qazax məktəbinin "Qaraçöp", Qarabağın "Muğan", "Qaraqoyunlu", Təbriz məktəbinin "Qaraca" və s. xovlu-xovsuz xalçalarını qeyd etmək olar.

Bu tipli naxışların yaranma dövrünə nəzər saldıqda dördbucaqlı elementlərin əkinçiliyin yarandığı dövrdə (neolit e.ə. VII-VI min.) meydana gəldiyini müşahidə edirik. Kvadrat və dördbucaqlı ornament formaları səpin metodundan əmələ gəlmişdir. Şumlanmış torpağa-şırımlara toxumlar səpilərkən onlar hər biri dörd ədəd toxumdan – yəni dördbucaqlılardan ibarət olan şəbəkə əmələ gətirir. Dördbucaqlı naxış forması da buradan yaranmışdır (4).

Haqqında bəhs etdiyimiz naxış motivinin yaranmasına təsir edən digər amil toxuculuğun meydana gəlməsi ilə əmələ gəlmişdir. Bu xırda dördbucaqlılar şəbəkəsindən əmələ gəlmiş həsirlər, parçalar sonradan, məhz yerlik-fon kimi dərk edilərək üzərinə vurulan naxışlar üçün əsas olur. Beləliklə, burada da əkinçilikdə olduğu kimi dördbucağın yerlik, zəmin, özül kimi qəbul olunmasını müşahidə edirik. Dördbucaqlı ornamentlərinin bədii-semantik mənasına gəldikdə isə onlar dünyanın dördtərəfliliyini, həyatın dörd ünsürünü (su, hava, od, torpaq) və onların vahidliyini bildirir. Bununla yanaşı, dördbucaqlı motiv bir rəmz kimi həmişə torpağı ifadə etmişdir.

## ƏDƏBİYYAT


1. Dünyamalıyeva S. Ornament
2. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənəti 1976
3. Əfəndi R. Azərbaycan incəsənəti 2007
4. Əsədova X. Azərbaycan xalça naxışları, Bakı, 2010
5. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа XIV-IX вв. до н. э. Баку: Элм, 1989, 127 с.
6. Ghirshman R. Iran 1961


## ABSRACT


**Seyyare Sadiqova, Gunay Mammadova**


## CREATION PRINCIPLES AND MEANING OF SOME GEOMETRICAL ORNAMENTS IN DECOR SYSTEM OF DIFFERENT ART SAMPLES OF AZERBAIJAN


Ornament is a pattern consisting of rhythmical elements distinguished with certain features. In the course of history, ornament developed parallel with decriptive form and reflected religious, social, philosophical outlook of the society becoming brief, distinct information system. Ancient human regarded his imaginations about the structure of the world with certain signs. In the article, it is explained how triangle and quadrangle ornaments emerged used in descriptive and decorative-applied arts of Azerbaijan. At the same time it deals with the meaning of those patterns and the place of application. The results of the researches carried out according to this theme was obtained on the basis of following of material-cultural samples created by now.


## РЕЗЮМЕ


**ГюнаМамедова, Сайяра Садыхова**


## ПРИНЦИПЫ И СМЫСЛ НЕКОТОРЫХ ГЕОМЕТРИЧЕСКИХ УКРАШЕНИЙ В ДЕКОРАТИВНОЙ СИСТЕМЕ РАЗЛИЧНЫХ ОБРАЗЦОВ ИСКУССТВА АЗЕРБАЙДЖАНА


Орнамент - это узор, состоящий из ритмических элементов, которые различаются некоторыми признаками. На протяжении всей истории параллельно с изобразительными формами, орнамент развивается и превращается в краткую, понятную информационную систему, отражающую религиозное, социальное и философское мировоззрение общества. Древний человек передавал свои представления о строении мира посредством определенных знаков. В статье поясняется появление треугольных и прямоугольных украшений, используемых в изобразительном и декоративно-прикладном искусстве Азербайджана. Это относится и к художественным особенностям, значениям и местам применения этих узоров. Украшения на наших памятниках позволяют нам изучать как исторические, так и художественные эстетические традиции нашей культуры и искусства. Результаты исследования на эту тему были основаны на изучении многих образцов материальной культуры с древних времен по сей день.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**AMİL ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:78**

# NAXÇIVAN "DƏDƏ QORQUD" QƏHRƏMANLARININ ƏSAS YAŞAYIŞ MƏSKƏNİDİR

**Açar sözlər:** *"Kitabi Dədə Qorqud" dastanları, dastanların tədqiqatçıları (Akademik İ.Həbibbəyli, Professor S.Babayev), dastanın Naxçıvan bölgəsilə bağlılığı, Sədərək və Şərur toponimləri, Qazançı və Əlincə qalası, Qaraca çoban sürəti*

**Key words:** *"Kitabi - Dada Gorgud" epos, researchers of saga (Academician I.Habibbayli, professor S.Babayev), connection of epos with the Nakhchivan region, Sadarak and Sharur toponyms, Kazanchi and Alindje fortress, Garadja shepherd image*

**Ключевые слова:** *Легенды «Китави – Деде Горгуд», исследоватли легенд (Академик И.Габиббейли, профссор С.Бабаев), связъ легенды с Нахчыванским регионом, Садаракские и Шарурские топонимы крепостъ Казанчы и Алинджа, образ Гараджа чобан.*

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir (XI-XII əsrlər). Kökləri mifoloji dünyagörüşünə gedib çıxan Dədə Qorqud dastanları XI yüzillikdə "Kitabi - Dədə Qorqud" ("Oğuz tayfaları dilində Dədə Qorqud kitabı") adı altında yazıya alınmışdır. "Kitabi-Dədə Qorqud"un iki əlyazması (XVI əsrdə üzü köçürülmüş əlyazmaları) məlumdur. Bunlardan biri Drezden nüsxəsi - alman şərqşünası F. fon Dits tərəfindən İstanbuldan Almaniyaya aparılmış və Drezden şəhərinin kitabxanasına bağışlanmış bir müqəddimə və on iki boydan ibarətdir, digəri isə Vatikan nüsxəsi - XX əsrin 50-ci illərində tapılmış bir müqəddimə və altı boydan ibarətdir.

Dastanın Drezden nüxsəsinin surəti Drezdendəki Kral Kitabxanasından alınıb 1972-ci ilin avqustunda Bakıya gətirilib Azərbaycan Elmlər Akademiyasına verilib və Əlyazmalar İnstitutunda daha təfsilatlı tədqiq olunmuşdur. Azərbaycan EA Əlyazmalar İnstitutunda "Dədə Qorqud"un dünyada üçüncü əlyazma nüsxəsi hazırlanmışdır.

Dastanların əsas süjeti on iki boyda əks olunmuşdur. Dədə Qorqud boylarının əsas mahiyyətini yurdun və xalqın qorunması, xeyir qüvvələri təmsil edən qədim oğuzların yadelli işğalçılara - şər qüvvələrə qarşı ölüm-dirim savaşı, öz əhəmiyyətini indi də itirməyən bir çox əxlaqi-didaktik görüşlər təşkil edir. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir.

"Kitabi-Dədə Qorqud" dastanları XI-XII əsrlərdə və daha əvvəllər (islamın yayılmasından qabaq) Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Göyçə gölü, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir.

"Kitabi-Dədə Qorqud"u yazıya köçürən şəxs Dədə Qorqudu bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. Bayat elindən çıxmış bu bilicini oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən belə xəbər verdiyini göstərir. Dastanın müqəddiməsində Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında yaşadığı qeyd edilir. Bəzi məlumatlara görə Dədə Qorqudun məzarı Dərbənddə yerləşir. XIX əsr səyahətçilərinin əsərlərində bu fakta rast gəlmək olar.

Akademik İsa Həbibbəyli dastan haqqında yazır ki, "Dədə Qorqud" dünya miqyasında bədii nəsr təfəkkürünün möhtəşəm abidələrindən biridir. Bu, "Dədə Qorqud" dastanlarını yaradan xalqın epos təfəkkürünün bədii mükəmməlliyinin klassik nümunəsidir. Epos təfəkkürü isə bədii fantaziyadan daha çox xalqın özünüdərkinin, sabit milli düşüncəsinin, torpaq və millət qavrayışının dastan səviyyəsində ifadəsi deməkdir. Bu mənada "Dədə Qorqud" dastanları oğuz türklərinin, Azərbaycan xalqının yurd və topraq andının manifestidir. Bu, ölkəsini, torpağını, millətini dərk edən bir xalqın vətən və torpaq sevgisinin möhtəşəm oğuznaməsidir" [1].

Əlbəttə ki, Azərbaycan oğuzları geniş mənada əsas türk soylarından biri olduğu üçün "Dədə Qorqud"un da ümumtürk oğuznaməsi hesab olunması təbiidir. Bununla yanaşı, türk dünyasının

müxtəlif coğrafiyalarında Dədə Qorqud rəvayətlərinin mövcudluğu dastanın ümumtürk miqyasını sübut edir. İ.Həbibbəyli qeyd edir ki: "Dədə Qorqud indiki Azərbaycan ərazilərindən də geniş coğrafiyada məskunlaşmış oğuz elinin rəmzi olan ümumiləşmiş obrazıdır. Dədə Qorqudun məskəni, Vətəni Azərbaycan, tayfası, milləti isə daha böyük bir məkanda yayılmış oğuzlardır. Altuntaxt - Qorqud elinin paytaxrı, Dərbənd - qapısı, Alınca (Əlincə) qalasıdır. "Dədə Qorqud"da qədim Azərbaycanın fərqli coğrafi ərazilərindəki Bayat eli, Göyçə gölü, Bərdə, Gəncə, Şərur, Qaraçuq, Ağ qaya, Dərəşam, Sürməli, Qazan göl və başqa yer adlarından bəhs edilməsi də dastanın geniş mənada Azərbaycanı əhatə etdiyini göstərir" [1].

Azərbaycan elmində "Kitabi Dədə Qorqud"un tədqiqi sahəsində böyük işlər görülmüşdür. Bu tədqiqatların əksəriyyəti ədəbiyyatşünaslıq, dilçilik, tarix və toponimistikanı, müəyyən qədər isə sənətşünaslıq və musiqişünaslığı əhatə edir. Tədqiqatların bir çoxunda "Kitabi-Dədə Qorqud"un məzmununun Naxçıvanla bağlılığı xüsusi vurğulanır.

"Tarix və araşdırmalar sübut edir ki, Naxçıvan "Dədə Qorqud" qəhrəmanlarının əsas yaşayış məskənlərindəndir. Qədim Oğuz ellərinin mərkəzi hissəsində yerləşən Naxçıvan diyarında "Kitabi-Dədə Qorqud"la əlaqədar olan 50-dən artıq toponim mövcuddur. "Kitabi-Dədə Qorqud"la bu toponimlər Naxçıvan Muxtar Respublikasının əsasən üç zonasında: Arazboyu düzənlik və alçaq dağlıq sahədə - Sədərək, Qaraçoban, Şərur, Böyükdüz düzləri, Qaraçuq kəndi, Dərəşam qədim yaşayış məntəqəsi, Dərəşam suyu, Qara dərədə; Orta dağlıq sahədə- Əlincə qalası, Ağa qaya, Qazançı kəndi, Qazançı qalası, Qaraquç Dərbəndi, Məkkəz Dərbəndi, Sirab Dərbəndi, Günortac (Günorta daşı) Qaradaşda; Yüksək dağlıq sahədə- Ağ qaya, Salxan qayası, Qaraquç (Qaraquş) dağı, Qazan yaylağı, Altuntaxt, Buğaçeşmə, Köksü gözəl, Göy dağ (Göycə dağ), Göy Göl, Qazan göl aşırımı, Qazangöl dağı, Qazanköç yaylağı, Qazan yurdu və bununla bilavasitə əlaqədar olan Nəbi yurdu, Gəmi qaya və s. yerləşir.Tarixi materiallar, coğrafi adlar, xalq arasında yaşayan əfsanələr sübut edir ki, qədim Naxçıvan diyarı Azərbaycan torpağıdır, "Kitabi Dədə Qorqud" qəhrəmanlarının yurdudur, vətənidir"[2].

Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasında (Bakı, Yeni nəşrlər evi, 1999) muxtar respublikanın ərazisində dastandakı yer adları ilə səsləşən 30-dan çox toponim qeydə alınmış, onların haqqında geniş tarixi-coğrafi məlumat verilmişdir. Şamil Cəmşidovun "Kitabi-Dədə Qorqud" monoqrafiyasında (Bakı, Elm, 1999) "Kitabi Dədə Qorqudda təsvir edilən coğrafi mühit" bölməsində 40-dan çox yer adları haqqında məlumat verilmişdir. Qorqudşünaslığa aid digər əsərlərdə də "Dədə Qorqud"dakı yer və şəxs adlarının izahına rast gəlinir.

"Tədqiqatlar sübut edir ki, "Kitabi-Dədə Qorqud"dakı Naxçıvan toponimləri leksik-semantik və etimoloji cəhətdən çox zəngin xüsusiyyətlərə malikdir. Bu toponimlər oğuzların bir aborigen əhali olduğunu dil faktları əsasında təsdiqləyir"[3].

"Kitabi Dədə Qorqud"un boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə və toponimlərə çox rast gəlinir. Qorqudşünaslar dastandakı "Basatın təpəgözü öldürdüyü boy", "Uşun Qoca oğlu Səgrək boyu", "Bəkil oğlu İmran" boylarında cərəyan edən hadisələrin, əsasən, Naxçıvanla bağlı olduğunu göstərmişlər.

Naxçıvan ərazisində Dədə Qorqudun məxsus olduğu Bayat tayfa adı ilə bağlı toponimlər qeydə alınmışdır. 24 oğuz tayfasından biri olan Bayatlar Azərbaycanın hər tərəfinə səpələnmiş, Naxçıvanın ən qədim sakinlərindən biri olmuşlar. Bu tayfaya məxsus Ağgül (Sədərək nahiyəsi), Nəcəf qışlağı, Zülfüqar qışlağı (Şərur nahiyəsi) kimi yaşayış məntəqə adları tarixi toponimlər sırasına daxildir. Hazırda Şərur rayonunun Diyadin kəndində Bayat, Aralıq kəndində Bayatlılar tayfa adları da həmin tayfanın izlərini qoruyub saxlayır.

"Dədə Qorqud" dastanındakı Əlincə qalası, Dərəşam, Dərəşam suyu, Əyrək, Bəkdüz, Qaraçuğ kimi yer adları birbaşa Naxçıvan ərazisi ilə bağlıdır. Tanınmış coğrafiyaşünas alim Səfəralı Babayev "Naxçıvanda "Kitabı-Dədə Qorqud" toponimləri" kitabında ərazidə mövcud olan Şərur, Sədərək, Qazançı, Qazan yurdu, Qazangöldağ, Qara çoban düzü, Qara dərə, Qara dağ, Dərbənd, Salaxan qayası, Buğa çeşmə, Sarı ağıl, Sarı bulaq, Ağ qaya, Altuntaxt və s. kimi toponimlərin mənşəyinin "Kitabi-Dədə Qorqud"la bağlı olduğunu yazmışdır [4].

"Kitabi-Dədə Qorqud" dastanından "Oğuzdaşı", "Oğuzkənd" kimi yer adlarına Naxçıvan ərazisində rast gəlinir. Oğuzdaşı toponimi oğuz və daş tərkib hissələrindən ibarətdir. Oğuzdaşı -

“daş oğuz” (dış oğuz) sözünün dəyişilmiş formasıdır. Toponimin mənası “daş (dış) oğuzlara məxsus kənd” deməkdir. Bu kənd Şərur nahiyəsində olmuşdur, onların adı mənbələrdə bizə gəlib çatmışdır. Oğuzkənd də tarixən oğuzların yurd yeri olmuşdur, qədim oğuz türklərinə məxsus salar, bəydili, xələc, qarxun tayfa birləşmələrinə məxsus ailələr həmin ərazilərdə yaşamışlar.

Dastanın “Uşun Qoca oğlu Səgrək boyu”nda rast gəlinən “Dərəşam” toponimini tədqiqatçılar “dərə” və “şam” tərkibli söz birləşməsi kimi şərh edirlər. “Dərə” - “vadi”, “çay yatağı”, “mahal” mənasında açıqlanır. “Şam” sözü Naxçıvanın dialekt və şivələrində “yer, məskən, yurd, torpaq”, “məzarın şamı” mənalarında işlənir. Bu baxımdan, tədqiqatçılar Dərəşam sözünü “dərədə yerləşən ərazi, sahə, yer, məkan, yurd” mənasında açıqlayırlar.

Dərəşam - Babək rayonu ilə Culfa rayonunun sərhədində, Araz çayının sahilində yerləşən qədim yaşayış məskəni və böyük bir ərazinin adıdır. Dərəşam Əlincə, Azadciran və Qışlağat nahiyələri və Araz çayı ilə sərhəddə yerləşmiş, Başkənd, Dibkənd, Ortakənd və Culha (Culfa) adlı kəndləri əhatə edən nahiyə mərkəzi olmuşdur. Hazırda həmin ərazidə Dərəşam sahəsi, Dərəşam dəmiryol stansiyası, Dərəşam mineral bulağı vardır.

“Uşun Qoca oğlu Səgrək boyu”nda “Əlincəqala” toponiminə rast gəlinir. Əlincə qalası Culfa rayonu ərazisindəki eyni adlı dağın üzərində yerləşir. Tədqiqatçıların fikrincə, dağın adı “əlini çək” sözündən yaranıb. Bəzi mülahizəyə görə isə dağın (həm də qalanın) adı Alançıq (“meydança”, “kiçik meydan”; alan - qədim türk dilində “düzənlik”, “meydan”) sözündəndir. Başqa bir ehtimala görə, Əlincəqalanın adı Nuh peyğəmbərin nəticəsi Alınca xanın adı ilə bağlı yaranmışdır, zaman keçdikcə tədricən Əlincə şəklinə düşmüşdür.

Məlumdur ki, tarixən Əlincəqala neçə-neçə müharibələrin şahidi olmuş, Eldənizlər, Elxanilər, Cəlairilər dövründə möhkəm istehkama çevrilmiş, bir müddət monqolların mühasirəsində qalmış, feodal çəkişmələri nəticəsində dağılmışdır.

“Dədə Qorqud” kitabının “Uşun Qoca oğlu Səyrək boyunu bəyan edər” boyunda Naxçıvanla bağlı olan Əyrək adı da qeyd olunmalıdır. Dastanda bu ad şəxs adı kimi özünü göstərir ki, bunu nümunədə izləyə bilərik: “Tərsuzamışın sözü Əyrəyə təsir elədi. Durdu, Qazan bəydən yürüş üçün icazə istədi. İzn verildi. Çağırdılar, döyüşçülər yığıldı. Üç yüz nizəli seçmə igid Əyrəyin yanına cəmləşdi. Meyxanada beş gün yemək-içmək oldu. Ondan sonra Şiroküz kənarından Göyçə dənizinədək sahəni çapıb taladılar. Böyük qənimət əldə etdilər. Əyrəyin yolu Əlincə qalasına düşdü. Altı yüz qaradonlu kafir bunların üzərinə hücum etdi. İgidləri qırdılar. Əyrəyi tutdular. Əlincə qalasında zindana saldılar” [5].

Dastanın bu boyunun qəhrəmanları Əyrək və Səyrək qardaşlarıdır. Səyrək Əlincə qalasında zindana salınmış qardaşı Əyrəyi xilas etmək üçün qəhrəmanlıq göstərib onu qanlı kafirlərin əlindən xilas edir. Hər iki qardaş “qaradonlu kafirlərin” üstünə at sürüb qılınc çaldı, onları qırıb-çatdılar, qovub qalaya saldılar... Dərəşam suyunu üzüb keçdilər. Gecəni gündüzə qatıb, Oğuz yurdunun sərhədinə yetişdilər” [5].

Dastanın 1939-cu il nəşrində bu şəxs adları Əyrək və Səyrək, 1962 və 1988-ci illər nəşrlərində isə Əgrək, Səgrək fonetik variantlarında yazılmışdır [5].

Naxçıvanda Əyrək şəxs adı əsasında yaranmış Əyrək kəndi olmuşdur. Bu kənd tarixən Dərəşahbuz nahiyəsinə daxil olmuş, indiki Külüs və Keçili kəndləri arasında yerləşmiş, dağıldıqdan sonra kənd ərazisi “Əyrək yeri” adını qoruyub saxlamışdır. Hazırda Şahbuz rayonunun Əyrək yeri adlanan ərazisində yaşayış məntəqəsinin salınması əlamətdardır.

“Dədə Qorqud” dastanında adı çəkilən Naxçıvana aid yer adlarından biri də “Qaraçuq” kənd adıdır. Naxçıvan ərazisində Qaraçuq kəndi, Qaraçuq dağı, Qaraçuq yolu, Qaraçuq məhəlləsi, Qaraçuq gölü adlı tarixi adlar vardır. Bu ada, həmçinin, Türkiyə, İran, Qafqaz, Orta Asiya, Bolqarıstan ərazilərində rast gəlinir.

Qaraçuq kəndinin adı “Kitabi Dədə Qorqud” dastanının müxtəlif nəşrlərində Qara çoq (1939), Qaraçuğ (1962), Qaraçığ (1988), digər mənbələrdə isə Qaraçuq fonetik variantlarında yazılmışdır. Dastandan sonrakı dövrlərə aid sənədlərdə kəndin adı Qaraçuğ kimi qeyd olunmuşdur [5].

Kəndin adı mənbələrdə türk dillərində “qara” - “torpaq” və “çox” sözlərinin birləşməsindən əmələ gəlib, “çox münbitli torpaq” mənasında açıqlanır və kənddə kəngərlilərə məxsus qaraxanbəyli, yurtçu, billici, hacıvar, cığatay, qoman kimi tayfalara məxsus ailələrin yaşadığı qeyd olunur.

Qaraçuq sözü birlikdə “böyük yer”, “iri məkan”, “geniş yer”, “məkan”, “böyük yurd” anlayışları yaradır və “oğuzların yaşadığı yurd, məkan” mənalarında işlənir. Demək, oğuzlar harada yaşayıblarsa, oraya Karaçuk-Qaracuğ-Qaracıq - Qaraçoq-Qaraçaq-Qaraçıq-Qaraçuq adını veriblər. Bu fikri Qaraçuq variantlı toponimlərin coğrafiyasının genişliyi də təsdiqləyir [5].

Dastanda işlənən toponimlərdən biri də “Böyükdüz”dür. Səfəralı Babayev Böyükdüz toponimini “Dədə Qorqud”la əlaqələndirir. Böyükdüz adının mənşəyi oğuzların Büğdüz tayfa adı əsasında yarandığı ehtimal olunur. Hazırda Böyükdüz kəndi Kəngərli rayon inzibati ərazi vahidinə daxildir.

Beləliklə, “Kitabi Dədə-Qorqud” dastanında öz əksini tapmış yer, şəxs və tayfa adlarının araşdırılması dastandakı hadisələrin Naxçıvan ərazisi ilə bağlılığını təsdiq edir. Əlbəttə ki, hər hansı bir ərazidə toponimlərin yaranması və formalaşması həmin ərazidə yaşayan xalqın, tayfa və qəbilənin adı, məskənsalma tarixi, yurdla bağlılığı ilə əlaqədar olur. Naxçıvan ərazisi tarixən qədim oğuz yurdu olmuş, oğuzlar yaşadıqları yerlərə və ətraf ərazilərə özlərinə məxsus adlar vermişlər. Bütün bunlar qədim ədəbi mənbələrdə də öz təsdiqini tapır.

## ƏDƏBİYYAT


1. http://525.az/site/?name=xeberprint&kecid=1&news_id=33151
2. http://www.alimeclis.az/index.php?option=com_content&view=category&id=38&Itemid=89
3. Bağırov A.N. “Kitabi-Dədə Qorqud”da işlənən Naxçıvan toponimləri. Azərbaycan qəzeti, 04 Noyabr 2015. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=82514
4. Babayev S.Y. Naxçıvanda Kitabi-Dədə Qorqud toponimləri (Elmi red. B.Ə.Budaqov; Kitabi-Dədə Qorqud dastanının 1300 illiyi üzrə Dövlət Komissiyası, “Kitabi-Dədə Qorqud” kitabxanası. B.: XXI-YNE, 1999. 224 s.
5. Kitabi Dədə-Qorqud ensiklopediyası. http://dede.musigi-dunya.az


## ABSTRACT


**Amil Əsgərov**


### NAKHCHIVAN IS THE MAIN DWELLING OF THE HEROES OF DADA GORGUD


The article examines the toponyms of the literary - monument of the Azerbaijani people "Kitabi Dada Gorgud" epos associated with the Nakhchivan region. It is indicated here that in the geography of Dede Gorgud stories the toponyms of the Nakhchivan region - Sadarak, Sharur, Gazanchi, Alindja fortress, and also the Garadja shepherd hold a special place. This aspect of the study also has been studied in some ways that the article deals with these issues.


## РЕЗЮМЕ


**Амил Аскаров**


### НАХЧЫВАН ЯВЛЛЕСЯ, МЕСТОМ ИСИТЕЛЪСТВА ГЕРОЕВ «ДЕДЕ ГОРГУД»


В статъе рассмотрены связъ топонимов литературного памятника Азербайджанского народа «Китави – Деде Горгуд» с Нахчыванским регионом. Здесъ указывается на то, что в расказах и преданиях Деде Горгуда осбое значение имеет их связъ с топонимами Нахчыванским региона Садарак, Шарур, Казанчы, Алинджа, а тагже с оврозм Гараджа чобан. И его нашло отражение в исследованиием и в статъе.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**MAHİR XƏLİLOV**
*Naxçıvan Dövlət Üniversiteti*

# ŞAMİL QAZIYEVİN YARADICILIĞINDA MİLLİ MOTİVLƏR

**Açar sözlər:** *rəssam, heykəltəraşlıq, rəsm, tamaşaçı, tərtibat, xadim,milli motivlər, teatr rəssamı*
**Key words:** *painter, sculptor, drawing, performance, design, fugure, national motives, theatre painter*
**Ключевые слова:** *художник, скульптура, картина, зритель, оформление, деятель, национальные мотивы, театральный художник*

Naxçıvan qədim və zəngin tarixə malik bir diyardır. Yer kürəsinin sədəf boyda olan bu ərazisi həmişə təbii sərvətləri, flora və faunası, tarixi abidələri, iqlimi, mətbəxi və əsasən qonaqpərvərliyi ilə tanınmışdır. Bu diyar öz millətinə görkəmli alimlər, siyasətçilər, mütəfəkkirlər, yazıçı və dramaturqlar, şair və publisistlər, aktyor və bəstəkarlar, rəssam və heykəltəraşlar bəxş etmişdir. Öz xeyir duasını Nuh peyğəmbərdən alan qədim və ulu Naxçıvan öz folkloru, etnoqrafiyası, adət-ənənələrinə görə həmişə seçilmişdir. Bu torpağın yetirmələrindən biri də Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, rəssam Şamil Həsən oğlu Qazıyevdir.

1908-ci ildə Azərbaycanın qərb bölgəsində - İrəvan şəhərində dünyaya göz açan Şamil Qazıyevin ailəsi hələ kiçik yaşlarında ikən Naxçıvana köçmüşlər. Uşaqlıqdan rəssamlığa olan böyük həvəsi onu Bəhruz Kəngərlinin yanına gətirmişdir. O zaman Bəhruz bəy Kəngərli öz dövrünün peşəkar rəssamı idi. Şamil Qazıyev də digər yaşıdları ilə bərabər tez-tez rəssamın sərgilərinə tamaşa edər, naturadan şəkil çəkərkən onun başına toplaşar, məharətinə heyran-heyran baxaraq zövq alardı. Belə əyani rəsm vərdişləri gələcəkdə görkəmli rəssam kimi tanınacaq Şamil Qazıyev üçün canlı ibrət və təcrübə məşğələsi idi.

Gənc yaşlarında Naxçıvan Pedaqoji Texnikumunda təhsil alsa da rəssamlığa olan böyük marağı onu Bakıya gətirir. O zamanlar Əzim Əzimzadənin rəhbərlik etdiyi bu mötəbər məktəbin 1929-cu il məzunlarının sırasında Şamil Qazıyev də vardır. Bakıda qalmaq arzusu, tanınmış rəssamlarla çiyin-çiyinə işləmək istəyi olsada Azərbaycan Maarif Komissarlığı əvvəllər təhsil aldığı Naxçıvan Pedaqoji Texnikumuna təsviri sənət müəllimi vəzifəsinə göndərir. Atası Həsən müəllimlə birgə texnikumda işlədiyi müddətdə, eyni zamanda teatr rəssamı kimi də çalışır.

1934-cü ildə xalq artisti Sidqi Ruhulla tərəfindən teatra rəssam kimi dəvət olunan Şamil Qazıyev bir neçə tamaşanın tərtibatını verir. Qeyd etmək lazımdır ki, Naxçıvan teatrında tamaşaya qoyulmuş 120 əsərin bədii tərtibatını məhz Şamil Qazıyev vermişdir. Öz xatirələrində o, Sidqi Ruhulla ilə birlikdə "Hacı Qara" və "Namus" tamaşalarının bədii tərtibatını xüsusi qeyd edir. Çox çəkmir ki, rəssamın yaradıcılığına bələd olan həmkarı, müəllimi Əzim Əzimzadə onu Bakıya "Kommunist" qəzetində rəssam işləməyə dəvət edir. Bir qədər işlədikdən sonar o, yenidən dogma Naxçıvana qayıdır və Naxçıvan Dövlət Dram Teatrında rəssam kimi fəaliyyətə başlayır. Ş.Qazıyev tərtibatçı rəssam kimi fəaliyyət göstərməklə kifayətlənmir. Yeganə arzusu olan Naxçıvanda yeni Bəhruz Kəngərlilərin yetişməsi üçün əlindən gələni əsirgəmir. Məhz onun təşəbbüsü ilə 1940-cı ildə Naxçıvanda rəssamlıq məktəbi açılır.

II Cahan müharibəsinin ağrılı-acılı illərində həmin məktəbin direktoru olan Şamil Qazıyev hərtərəfli yaradıcılığına görə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

1948-ci ildə Şamil Qazıyev yenidən Bakıya dönür və 30 ildən çox "Azərbaycan gəncləri" qəzetində rəssam vəzifəsində çalışır. Şamil Qazıyevin yaradıcılığını nəzərdən keçirdikdə onun əsərlərində Azərbaycan xalqının və boya-başa çatdığı Naxçıvanın tarixi, məişəti, etnoqrafiyası, adət-ənənələri öz əksini tapmışdır.

Bəhruz bəy Kəngərli yaradıcılığından bəhrələnən Şamil Qazıyev sanki öz əsərlərində müəlliminin arzularını həyata keçirmişdir. Həyatının çiçəkləndiyi bir dövrdə dünyadan köçən Bəhruz bəy Kəngərlinin yarımçıq qalan arzularını məhz Şamil Qazıyev işıqlandırmışdır.

Qədim Naxçıvanın tarixi abidələri, köhnə məhəllələri, karvansaraylar, məscidlər, hamamlar, qapalı bazar və digər yerlərin rəsmi onun yaradıcılığında geniş yer alır. Bu isə gələcəkdə şəhərin qədimliyinin bərpa olunmasında böyük rol oynayır.

Məsələn, "Köhnə Qala" əsərində bu daha çox diqqəti cəlb edir. Isti rənglərdən istifadə edən rəssam burada köhnə qalanı, qala bürclərini və İmamzadə kompleksini çox gözəl təsvir etmişdir. Əsərə baxdıqda Naxçıvanın qədim bir diyar olduğunun bir daha şahidi oluruq. Rəssam əsərdə dəvə karvanı verməklə İpək yolunun məhz buradan keçməsini göstərmiş, İmamzadə memarlıq kompleksinin təsvirini verməklə isə Naxçıvan memarlıq məktəbinin mükəmməl olmasını bir daha sübut etmişdir. Əsərdə seyidlər qəbirsanlığını və yolun kənarında Naxçıvanın florasına xas olan nalbənd ağaçının təsvirini çəkməklə o, doğma diyarı tamaşaçılara sevdirməyi bacarmışdir.

Sevindirici haldır ki, 30-cu illərdə Zaqafqaziyada səyyar sərgilər göstərən məşhur Tretyekov qalereyasının əməkdaşları Bakıda keçirilən respublika rəssamlarının sərgisində Şamil Qazıyevin nümayiş etdirilən 12 əsərindən biri olan "Çoban" adlı əsərini bəyənərək qəbul etmişlər. Bu gənc rəssamın ilk müvəffəqiyyəti idi.

Onun yaradıcılığında sadə insanların həyat tərzi, məişəti folkloru, adət-ənənəsi, ümumiyyətlə etnoqrafiya baxımından yüksək səviyyədə işlənmiş əsərlər və təbiət mənzərələri geniş yer tutur. Bu əsərlərin hər biri milli koloritinə görə bir birindən fərqlənir.

"Lavaş yapanlar" əsərində rəssam Azərbaycan xalqına məxsus olan təndir damı (təndir əsər) və onun ətrafında bir ierarxiya təşkil edən milli geyimdə çörək bişirən qadınları təsvir etmişdir. Kompozisiya baxımından buradakı ardıcıllıq diqqəti cəlb edir. Belə ki, sağ tərəfdə əyləşmiş qadın xəmirdən kündələr tutur, yanındakı qadına verir, həmin qadın kündəni yayaraq təndir başında əyləşmiş qadına ötürür və nəhayət, bişmiş hazır çörək dördüncü qadın tərəfindən aparılır. Beləliklə, əsərdə rəssam zəhmətkeş qadınların əməyini milli motivdə real göstərməyə çalışmışdır.

"Qalayçılar" əsərində yığcam bir emalatxanada iki usta və şagirdin təsviri verilmişdir. Bildiyimiz kimi həmin dövrdə məişətdə mis qablardan daha çox istifadə olunurdu. Qazan, sərninc, kasa, kəfkir, səhəng, məcməi, sərpuş, nimçə, satıl, aftafa-ləyən və digər əşyalar xalqımızın məişətində geniş yer tutmuş və bunlar köhnəldikcə yenidən istifadəsi üçün qalayçılara verilmişdir. Adətən Novruz bayramı ərəfəsində həyata keçirilən bu adət bir ənənə halını almışdır. Baharın gəlişi ilə əlaqədar hər yerdə təmizlik işləri aparılmaqla yanaşı köhnəlmiş, qalayı getmiş qabların da yenilənməsi vacib sayılırdı.

"Qapalı bazar" əsəri rəssamın memarlıq baxımından işlədiyi ən maraqlı tablolardan biridir. İstambulun qapalı çarşısını xatırladan bu əsərdə bazarın giriş qapısı milli memarlıq üslubnunda təsvir edilmişdir. Kompozisiya cəhətdən yanaşdıqda perspektivdə görsənən bazarın digər qapısından və bacalardan düşən işıqların köməyilə milli geyimdə olan alıcıların hərəkətdə verilməsi, hambalların yük daşıması və piştaxta arxasında meyvə satan tacirin təsvirinin verilməsi bazarda alış-veriş mədəniyyətindən xəbər verir. Əsərə baxdıqda bazarın şərq üslubunda tikilməsi diqqəti cəlb edir.

Onun "Qaçqınlar" əsərində öz vətənindən didərgin düşən səfil, acınacaqlı bir vəziyyətdə Naxçıvana pənah gətirən insanlar təsvir edilmişdir. Rəssam bu əsərində dədə-baba yurdundan, tarixi torpaqlarımız olan Qərbi Azərbaycan ərazisindən qovulan xalğımızın faciəsini əks etdirmişdir. Tabloda yaşlı qadın, kişi və uşaqlar bədbin vəziyyətdə göstərilmişdir. Rəssam öz mənəvi dünyasına qapılmış, qəmli-kədərli, düşüncəli obrazların tale yolunu tamaşaçıya çatdırmağa çalışmışdır. İsti və soyuq rənglərdən istifadə etməklə insanların psixoloji məqamlarını, daxili iztirablarını əks etdirmişdir.

XX əsrin 70-ci illərində rəssamın işlədiyi tabloların əksəriyyəti yəqin ki, onun gənc yaşlarında çəkdiyi eskizlər əsasında ərsəyə gəlmişdir. Onun "Çörək satan" (1976), "Çarıqçılar" ("Çarıq tikənlər", 1976), "Okүzlərin nallanması" (1976), "İnqilabaqədərki Naxçıvan" (1976), "Qaçqınlar" (1977), "Molla məktəbi" (1977), "Xırmanda" (1977), "Taxılbiçənlər" (1977), "Gəc

dəyirmanı" (1977), "Dəyirman" (1977), "Naxçıvan hamamı" (1977) və digər əsərləri buna bariz nümunədir.

1979-cu ildə Naxçıvan şəhərində Şamil Qazıyevin təşkil olunan fərdi sərgisi haqqında o dövrün mətbuatı belə yazırdı: "Bu təsvirlərdə Azərbaycanın ən qədim guşəsi olan Naxçıvanın keçmiş tarixinə, etnoqrafiyasına, adətlərinə aid təsəvvürlər öz əksini tapmışdır".

Şamil Qazıyevin əsərlərinə baxdıqda onun Naxçıvanı necə ürəkdən sevməsini, bu torpağa bağlılığını, sadə, zəhmətkeş insanlarla sıx təmasda olmasını hiss edirik. Bütün bunlar onun boya-başa çatdığı doğma yurduna olan məhəbbətindən irəli gəlir.

Beləliklə, demək olar ki, rəssamın yaradıcılığı geniş və rəngarəngdir.Onun əsərləri fərdi xüsusiyyətlərinə görə tanınır. Şamil Qazıyevin yaradıcılığında Vətənə, xalqa, doğma torpağa bağlılıq qabarıq şəkildə özünü göstərir.

## ƏDƏBİYYAT


1. Şamil Qazıyev "Albom kataloq", Naxçıvan, 2010
2. "Azərbaycan qadını" jurnalı № 5, Bakı ,1980
3. Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. Naxçıvan şəhəri, 1 fevral 2018-ci il. "Şərq qapısı"qəz., 2018, 3 mart


## ABSTRACT


**Mahir Khalilov**


**NATIONAL MOTIVES IN CREATION OF SAMIL GAZIYEV**


National motives in Shamil Gaziyev creativity of honoured art figure of the Nakhchivan Autonomous Republic, painter Shamil Gaziyev and national motives given in his works. At the same time detailed information about his life in Nakhchivan and flourishing years of his creativity is given.


## РЕЗЮМЕ


**Махир Халилов**


**НАЦИОНАЛЬНЫЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ ШАМИЛЯ ГАЗИЕВА**


В статье говорится о творчестве заслуженного деятеля искусства, художника Шамиля Газиева, на картинах которого особое место занимают национальные мотивы. В ней также представлены подробные сведения о годах жизни в Нахчыване, на которые приходится расцвет его творчества.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**HƏBİBƏ ALLAHVERDİYEVA**
**GÜLBANI ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:7.04**

# AZƏRBAYCANDA VII -XIII ƏSRLƏRDƏ DAŞ ÜZƏRİNDƏ OYMA SƏNƏTİ

**Açar sözlər:** *daş üzərində oyma sənəti, qaya təsvirləri, daş abidələr*
**Key words :** *carveing on the stoneart, rock drowing, rocck monuments*
**Ключевые слова:** *резьба по камню, наскальные рисунки, каменные памятники*

Azərbaycan mədəniyyəti qədim və zəngin tarixə malikdir. Fizuli bölgəsi yaxınlığındakı ilk insan məskəni sayılan Azıx mağarası, Naxçıvandakı Gəmiqaya, Kültəpə, Qazaxdakı Baba-Dərviş abidələri, Bakı şəhəri yaxınlığındakı Qobustan qaya təsvirləri və s. Azərbaycanın ərazisində yurd salmış insanların hələ uzaq keçmişlərdə coşqun həyat və yaradıcılıq prosesini özündə əks etdirir. Azərbaycan incəsənətinin bir sahəsi olan dekorativ-tətbiqi sənətin kökləri qədimdir. Dekorativ-tətbiqi sənətin bir sahəsi olan daş oyma sənəti öz qədim tarixi ilə xalqımızın qədim ən-ənələrini özündə əks etdirməklə bu günümüzə qədər gəlib çıxmışdır. Yuxarıda adlarını çəkdiyimiz bu yerlərdə rast gəlinən qaya təsvirləri, ən əsası Gəmiqaya, Qobustan qayalarında rast gəlinən qədim təsvirlər oyma sənətinin ilkin nümunələri kimi dəyərləndirmək olar. “Gəmiqaya özünün adı, ecazgar gözəlliyi, uzaq qərinələrdən bəri, minillər boyu haqqında söylənilən mifləri, yalçın qayalı yamaclarında qoruyub saxladığı zəngin tarixi abidələri, “yazılı” daş salnamələri ilə bizi Azərbaycan xalqının milli mənəvi dünyasının ulu yaddaş çağlarına aparıb çıxarır ” [2].

İlk orta əsrlərdə əsasən qala divarları və şəhər ətrafında yerləşən sənətkarlıq emalatxanalarında metal, gil, şüşə, yun və s. materiallardan müxtəlif sənətkarlıq məhsulu istehsal edilirdi. Müxtəlif sənətkarlıq sahələrinin şəhərlərdə mərkəzləşməsi və istehsal olunan məmulatın ticarəti ölkənin iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyətə malik idi. Bu əsrlərdə daş üzərində bəzəkləri əsasən, nəbati, həndəsi, quş, heyvan rəsmləri təşkil edirdi.

VII əsrin əvvəllərində yaradılmış daş bəzəkləri arasında biz yerli ənənələrlə bağlı nəbati naxışlara, X-XI əsrlərdə və sonralar, yəni islam dininin əhali arasında dərin köklər saldığı vaxtlar isə həndəsi naxışlara daha çox rast gəlinir. “Ərəb xilafətinin işğalı dövründə də (VII əsrin ortaları) Azərbaycan mədəniyyətinin inkişafı islam dininin təsiri ilə deyil, müxtəlif xalqların iqtisadi-siyasi və mədəni quruluşunun bir-biri ilə böyük miqyasda yaxınlaşması ilə izah olunur” [1, 5].

İlkin orta yüzilliklərdə Azərbaycanda müxtəlif formalarda hazırlanmış və bəzədilmiş daş abidələrə rast gəlinir (şək.1). Onlar qabarıq relyeflər, həcmli (dairəvi) heykəllər səpkisində olmuşdur.

Qarabağda, Mil, Muğan düzlərində köhnə qəbiristanlıq və dağ, təpə üzərində rast gəlinən bu plastik sənət nümunələri azəri xalqının adət-ənənə, dini-əqidə və estetik zövqü haqqında məlumat verən qiymətli amillərdəndir.

Bu günədək məlum olan azəri plastik sənəti nümunələri içərisində tarix etibarilə ən qədimini insan fiqurları təşkil edir. Qazax, Ağdam, Bərdə, Şamaxı və Astara şəhərləri ətrafında tapılmış bu monumental sənət nümunələri dünya alimləri arasında maraq oyatmışdır.

Tovuz şəhərindən bir xeyli aralı Qəribli kəndi yaxınlığından çox da böyük olmayan heykəl tapılmışdır. Ağ qum daşdan yonulmuş bu heykəl baş, bədən və ayaqları ilə birlikdə 83 sm-dir. Fiqurun ağzı, çənəsi, gözləri, qulaqları və burnu çox simmetrik şəkildə yonulmuş, başına isə 28 sm hündürlükdə konusvari papaq qoyulmuşdur.

Bu baxımdan Şamaxının Xınıslı və Dağkolanı kəndi yaxınlığında tapılmış kişi heykəlləri xüsusilə diqqəti cəlb edir. Bunların ən böyüyünün hündürlüyü 2, 26 m, ən kiçiyi isə 1, 35 m ucalığındadır.

Şamaxının Dağkolanı yaxınlığında Allahəkbər deyilən yerdən tapılmış heykəl daha maraqlıdır. Bu heykəlin ümumi hündürlüyü 1, 35m, kürəklərinin eni 60 sm-dir. Fiqurun bir az böyük ölçülü başı, ümumiyyətlə, yaxşı yonulmuşdur. Heykəlin üzü monqol tipini xatırladır. Sol əli ürəyini, sağ əli isə qarnının üstündədir. Bədənində geyim olduğunu bildirın xətlər vardır. Kürəyinin yuxarı hissəsindən başa tərəf uzanan dalğavari xətlər, təsvir olunan şəxsin uzun saç saxladığını göstərir. Heykəlin dairəvi yonulmuş altlığı da var. Arxeloqlar tərəfindən ilk orta əsrlərə aid edilən bu daş fiqurda yuxarıda qeyd etdiyimiz abidə kimi mərkəzi Asiya və cənubi rus çöllərində rast gəlinən heykəltəraşlıq əsərlərini xatırladır.



Şəkil. 1. Daş heykəl. Astana. Hamusam kəndi.

İnsan fiqurunu təsvir edən heykəllər içərisində 1971-ci ildə Ağdamın Boyəhmədli kəndi yaxınlığında Gavur qala adlı yerdən tapılmış abidələr xüsusilə maraqlıdırlar.

Demək olar ki, insan fiqurları təsvir edən bu heykəllər indiyə qədər Azərbaycan ərazisində tapılan ən orijinal plastik sənət örnəklərindəndir. Çox sxematik, proporsiyalarda xeyli kənar bir tərzdə yonulub düzəldilməsinə baxmayaraq, bu plastik sənət nümunələri öz əzəmətli görünüşü ilə insana güclü təsir bağışlayır. Xüsusilə fiqurun göylərə baxan gözü, döşünün üstündə qatlanıb yuxarı asılmış əlləri çox orjinal təsvir edilmişdir.

Bu heykəllərin ən böyüyünün hündürlüyü 3 m-ə yaxındır. Bu heykəllər ilk nəzərdə üslub etibarilə Tovuz və Şamaxıda tapılmış fiqurlardan fərqlənsələr də, onları bir-birinə bənzədən çoxlu şərtlər də vardır. Bunları onların statik duruşunda, əllərinin vəziyyətində, etnik tipində, uzun saçlı olmalarında və s. görmək olur.

Azərbaycan ərazisində tapılmış daş insan fiqurlarının maraqlı xüsusiyyətlərindən biri onların bəzəklərində yazı nümunələrinin aşkar edilməsidir. Məsələn, Bərdənin Şatırlı kəndi yaxınlığındakı insan fiqurlarında alimlərimiz “Tanrı əfv etsin, ay atacan... ”, “Kaqan Şakır” və s. sözləri oxuya bilmişlər.

VII əsrin tarixçisi Musa Kalankatuklu “Ağvan tarixi” əsərində Azərbaycan ərazisində yaşayan tayfaların daşdan heykəllər yonub ona sitayiş etdiyini, onların şərəfinə qurbanlar verdiklərini, bu tayfaların uzun saç saxlayıb mahir ox atan olduqlarını xüsusi qeyd edir. Şübhəsiz, VII əsrin axırlarından başlayaraq, Azərbaycanda ərəb istilası ilə əlaqədar insan fiqurlarının düzəldilməsi dayandırılır.

Həmin heykəlləri bu ərazidə yaşamış əcdadlarımızın hərbi-quldarlıq ideologiyası əsasında yaradıldığını zənn etmək olar. Bu ideologianın başlıca prinsipləri köçəri qəbilə və igidlərinin qəhrəmanlığını təbliğ etmək və əbədiləşdirməkdən ibarət olmuşdur. Belə heykəllər, çox güman ki, vuruşmalarda qəhrəmanlıqla həlak olmuş döyüşçülərin və eləcə də qəbilə başçılarının qəbirləri üstündə qoyularmış. Onların öldürdükləri düşmənlərin sayı qədər yonulmamış daşlar (bal-ballar) isə qəbrin önündə sıra ilə düzülərmiş. Belə daşların hər biri döyüşdə məğlub edilmiş düşməni təmsil

edirmiş. Bu daşların qalib döyüşçünün qəbri üstündə düzülməsi ayinindən sonra, həmin daşların sahibləri, yəni məğlub edilmiş düşmənlər, axirət dünyasında dünyasında əbədi olaraq heykəlin sahibinə–qalib döyüşçüyə qul kimi xidmət etməli imişlər. Belə bir dini ayin daha sonrakı dövrdə, VII-IX əsrlərdə şərqi türklərin yaşadığı Mərkəzi Asiyada geniş miqyasda yayılmışdı.

İlk orta əsrlərə aid edilən daş bəzəklərindən danışarkən 1948-ci ildə Mingəçevirdə aparılan qazıntı işləri zamanı bir dini məbədin qalıqları arasında abidəni xüsusi qeyd etməliyik. Arxeoloqlarımız tərəfindən V-VI əsrlərə aid edilən bu abidə bizim üçün xüsusilə maraqlıdır, çünki onun üzərində olan ornamental kompozisiyaya sonralar el sənətimizin bir çox növlərində rast gəlirik.

Qədim dövrlərdən ata xüsusi mülkiyyət rəmzi kimi baxılır və həm bu dünyada, həm də axirət dünyasında özlərinin sadiq xidmətçisi hesab edilirdi. Bunun nəticəsidir ki, ilk orta əsrlərdə qəbir daşlarında at fiqurlarına rast gəlinir. “Göründüyü kimi Şərqi türk tayfaları VII əsrdə atları da meyidlərlə bir qəbirdə basdırırdılar ki, öz sahiblərinin axirət dünyasına aparsınlar. Oğuz türkləri isə X əsrin əvvəllərində ölüləri “cənnətə” aparsın deyə düzəltmə at fiqurlarını qəbirin üstündə yerləşdirirdilər” [7, 105].

Bundan əlavə daş oyma işlərində qabartma səpkisindən yonulmuş yan üz tərəfində dik uzanan bir bitki ətrafında simmetrik səpkidə qurulmuş iki tovuz quşu fiquru təsvirinə də rast gəlinir. Tovuz quşlarının hər ikisinin boyunlarından elə bil havada yellənən uzun baftalar asılmışdır. Bu detala xüsusi fikir vermək lazımdır, çünki alimlərin fikrincə ilk orta əsrlərdə bu baftalar simvolik məna kəsb edərək, onun daşıyan quş və heyvanın müqəddəs olduğunu bildirirdi. Tovuz quşunun keçmişdə müqəddəs sayılması, onun od və günəş ilahəsinin rəmzi olması haqqında çox maraqlı məlumatlar vardır. Hələ VII-VIII əsrlərdə Mərkəzi Asiyada yaşayan türk xaqanlarının qəbulunda olmuş əcnəbi səyyahlar onların bu quşu müqəddəs sayaraq ona sitayiş etdiklərini bildirmişlər. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin bu mövzuda fikri də maraqlıdır. “Nizami “İsgəndərnamə” poemasında Nüşabənin Bərdədəki sarayını təsvir edərkən bir neçə dəfə ipək parçalar üzərində salınmış tovuz quşları rəsmlərindən danışaraq onların türk xalqları arasında müqəddəs sayıldığını bildirir. Təsvir etdiyimiz abidədəki tovuz quşları arasında uzanan bitki də bu nöqteyi-nəzərdən diqqəti cəlb edir” [4].

Araşdırmalar göstərir ki, insanlar uzaq keçmişdə kainatın varlığını təmsil edən “su, od, torpaq və hava”, kimi dörd təbii ünsürün məhsulu olan bitkiyə sitayiş etmişlər. Zaman dəyişdikcə bu, hər dövrün öz indeoloji və estetik xüsusiyyətlərinə uyğun olaraq müxtəlif forma və şəkillərdə olmuşdur. Məlum olduğu kimi keçmiş zamanlarda “Müqəddəs ağacı” palıd, zeytun, əncir, sərv ağacı, bəzən isə hətta adi çiçək və ya yarpaq da təmsil etmişdir.

Bitki müqəddəs xarakter daşıdığı üçün dekorativ-tətbiqi sənət növləri üzərindəki kompozisiyalarda həmişə diqqət mərkəzində olduğu. Bitki ətrafında simmetrik şəkildə verilən quş, heyvan, insan fiqurları isə adətə görə müxtəlif cinslərdən (erkək, dişi) olmalı idi.

Bundan başqa günəş təsviri də daş üzərində təsvir olunmuş ornamentlərdə geniş yer tutur. “Lənkəran ilə Lerik arasında Babugil adlı köhnə qəbiristanlıqdakı qəbirlərin üstündəki daşlarda çevrə içərisində günəşin təsviri qazılmışdır” [6, 58].

XI-XIII yüzilliklərdə Azərbaycanda daş üzərində oyma sənəti dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələrindən idi. Azərbaycanda daş üzərini bəzəmək, onlarda kəsmə, oyma, cızma üsulu ilə naxışlar açıb, insan, heyvan və başqa təsvirləri həkk etmək bu dövrdə dekorativ-tətbiqi sənətin geniş sahələri kimi diqqəti cəlb edir. Bu əsrlərdə daş bəzəkləinə əsasən memarlıq abidələrində və məzar daşlarında təsadüf olunur. Həmin daş bəzəklərinin bədii xüsusiyyətlərinə diqqət yetirsək, onların həndəsi, nəbati, insan, heyvan, hətta süjet xarakterli mövzularla icra edildiyini görərik. Onu da qeyd etmək lazımdır ki, oyma işlərinin tərtibatında müxtəlif yazılardan, onların bədii xüsusiyyətlərindən və dövrlərindən asılı olaraq istifadə edilirdi. Əgər XI-XII yüzillikdə biz həndəsi və stilzə edilmiş nəbati ornametlərlə bəzədilmiş oyma işlərində bu bəzəklərə bənzər kufi yazılara rast gəliriksə, XIII və sonrakı yüzilliklərdə real səpkidə oyulmuş nəbati ornamentlər arasında gül-çiçək rəsmini andıran bədii nəstəlik xəttini görürük.

Həndəsi bəzək ünsürləri tətbiq edilmiş ən ilkin orijinal abidə Bakıda, İçərişəhərdə yerləşən Sınıqqala minarəsidir. 1078-ci il tarixli bu minarənin üçmərtəbəli stalaktitlər vasitəsilə saxlanılan bu

artırma dördkünc daşlarla hörülmüş, üzəri isə müxtəlif növlü həndəsi naxışlarla oyulmuşdur. Üç, beş, altıkünclü fiqurlar, səkkizguşəli ulduz bu oyma ornament motivlərinin əsas mahiyyətini təşkil edir. Bu abidənin oyma bəzəklərinin maraqlı cəhəti bir də ondan ibarətdir ki, burada onu inşa edən memarın adı –"Əbubəkr oğlu Məhəmməd" yazılmışdır.

"Daş üzərində həkk edilmiş həndəsi bəzəklərə sonralar, yəni XIII yüzilliyin memarlıq abidələrində də təsadüf edilir" [3, 65]. Belə ki, memarlıq abidələrindən ilk sırada Gülüstan türbəsinin adını çəkə bilərik. Sənətkar bu onikisəthli abidədə böyük ustalıqla ardıcıl təkrar olunan üç həndəsi ornamentli orjinal kompazisiya yaratmışdır. Burada tətbiq olunan həndəsi ornamentlərin əsasını çoxuclu ulduz və ondan gedən şualar təşkil edir. Bu abidə beş, altı, səkkiz uclu ulduzlara, altı və səkkizbucaqlı quruluşlara təsadüf edirik. Bu həndəsi oymalar öz bədii xüsusiyyət və məzmununa görə kərpicdən tikilmiş Naxçıvandakı Möminə xatun türbəsinin bəzəklərini yada salır.

Bu əsrlərdə yaradılmış daş üzərində oyma işlərinin ən böyük və maraqlı səhifəsini nəbati ornament və canlıları təsvir edən rəsmlər təşkil edir. Belə oyma işləri sırasına, ilk növbədə, Bakıda, Bayıl tərəfdə dənizdən tapılmış, elm aləmində "Bayıl daşları" adını almış qabartmaları daxil etmək lazımdır (şək.2).



Şəkil. 2. Bakı."Bayıl daşları"

"1939-cu ildə Xəzər dənizinin səviyyəsinin yenidən aşağı düşməsi nəticəsində "Bayıl daşları" quruya çıxmış və əsl mənada öyrənilməsi mümkün olmuşdur. "Bayıl daşları"nın ən maraqlı hissəsi su altından çıxarılmış daşlardır. Arxeloqlarımız tərəfindən son 30 il ərzində Xəzərdən çıxarılmış 700-dən çox bu bədii daş hissələri vaxtıilə quruda yerləşən möhtəşəm bir memarlıq abidəsinin bəzəkləri olmuşdur. Tapıntılar içərisində memarın adını və binanın inşa tarixini göstərən daşlar da vardır" (5, 45).

Dərin oyma üsulu ilə bəzədilmiş "Bayıl daşları"nın maraqlı cəhəti ondan ibarətdir ki, burada yazılarla birlikdə canlılar təsvir edilmiş çoxlu rəsmlər də vardır. Bu qabartmalarda həkk edilən insan və heyvan fiqurlarını yalnız bədii xarakter daşımayıb, eyni zamanda həkk edilmiş hərflərin bir detalı olaraq praktiki mahiyyət daşımışdır. Doğrudan da, əgər biz bu qabartmalara diqqətlə nəzər yetirsək, real səpkidə işlənmiş pələng, dəvə, at, öküz, quş və insan başı təsvirlərinin kitabənin mətni ilə nə qədər bağlı olduğunu görərik. Kitabələrin yazıları arasında oturaq, ayaq üstə, qaçan vəziyyətdə verilmiş bu təsvirlər onun ayrılmaz bir hissəsini təşkil edir. Kitabələr arasında rast gəlinən insan portretləri öz individual xüsusiyyətlərinə görə daha çox diqqəti cəlb edir.

"Bayıl daşları" üzərində çalışan alimlərimiz son illərdə burada anfas şəklində 12-ə qədər insan başı təsvirli qabartmalar aşkar etmişdir. Onların fikrincə, bu təsvirlər o dövrlərdə tanınmış şəxslərin portretləri olmuşdur. Portret təsvirli qabartmaların birinin üzərində Şirvanşah Fəriburzun adının, gürcü tipinə bənzər başqa bir portretdə isə gürcü sözünün oxunması yuxarıdakı fikrin nə qədər inandırıcı olduğunu göstərir.

Təsvirli qabartmalar arasında gürcülərə aid kitabənin olması heç də əbəs deyildir. Məlum olduğuna görə o vaxtlar gürcülərlə Şirvanşahlar arasında qohumluq olmuşdur. Qadın obrazını təsvir edən portret o zaman bəlkə də Şirvanşahların zövcəsi Tamaranı təsvir edirmiş.

“Bayıl daşları” içərisində heyvan təsvirli qabartmalar xüsusilə maraqlıdır. Belə qabartmalara, ilk növbədə, at başı təsvirini aid edə bilərik. Çox həyati və ekspressiv səpkidə oyulmuş bu daş hissəsi onu yaradan sənətkarın dərin müşahidəsi və qabil sənətkar olmasını göstərir. Son illərdə alimlərimiz “Bayıl daşları”arasında bu və ya başqa bir atın ayrı-ayrı hissələrini (ayağı, yüyənli ağzı, üstündə olan qalxanının bir hissəsi və s.) təsvir edən yeni baralyeflər aşkar etmişlər. Beləliklə, axtarışlar nəticəsində natural həcmdə olan bu pannoları, nəhayət, bərpa etmək mümkün olmuşdur. Atların hərəkətləri, yüyənlərinin dartılmış vəziyyətdə verilməsi, döş tərəfdəki qalxanın rəsmi və s. amillər göstərir ki, onların üstündə süvarilər də varmış.

Bu pannoların həcmcə böyüklüyü və məzmunu onların vaxtilə qalanın ən mərkəzi hissəsində olduğunu göstərir. Belə yerdə, çox güman ki, qalanın giriş hissəsi olmuşdur.

“Bayıl daşları” arasında bu əsrlərdə, başqa sənət növlərində olduğu kimi, real məxluq təsvirləri ilə yanaşı, əfsanəvi-mifik obrazlara təsadüf edirik. Bunlara sfinks (aslan-bədənli, qadınbaşlı, qanadlı məxluq), qrifon (qartalbaşlı, aslangövdəli məxluq) və Vaq-vaq adlı təsvirlər (gövdəsi bitki, budaqlarından canlıların baş hissəsi asılmış təsvir) aid etmək olar. “Bayıl daşları”nda təsadüf edilən əfsanəvi mifikobrazlar içərisində ən orjinalı sfinksdir. Sfinks ərəb əlifbası ilə yazılmış daş lövhənin üstündə yerləşdirilmişdir. O elə bil ki, yazılar üzərində ehtirasla sağa tərəf addımlayır. Fiqurun bədəni yanakı işlənmiş, başı isə qeyri-adi halda tamaşaçıya tərəf döndərilmişdir. Sifinksin üzü çox sadə icra olunub, saçları hörülməmiş qadın üzünə bənzəyir.

Memarlıq abidələri üzərində canlıların rəsmini həkk etməyə bu əsrlərdə təkcə Bakıda yox, Azərbaycanın başqa yerlərində tikilmiş abidələrdə də rast gəlinir.

Bütün bunlar qabartma şəklində deyil, xeyli səthi, daha çox cızma üsulunda icra edilirdi. Belə bəzəkli abidələrə Ağdam rayonunun Xaçun türbətli kəndində və Laçın rayonunun Cicimli kəndi yaxınlığındakı Məlikəjdər türbələrinin rəsmlərini aid etmək olar.

Daş üzərini oyma üsulu ilə bəzəmə xüsusiyyətlərindən biri də onların üzərinin naxış və rəsimlə deyil, bədii yazı ilə də həkk etdirilməsidir. Bu yazılar, əsas etibarı ilə əvvəllər ideoloji, sonralar isə get-gedə daha çox dekorativ rolunu oynayaraq hər hansı bir səthin üzərindəki kompozisiyanı naxışla əlaqələndirir.

Daş üzərindəki təsvirli oymaların sıradan çıxmasına təkcə bədii üslubun dəyişməsi yox, memarlıq abidələrimizdə bu əsrdən başlayaraq kaşıların da geniş istifadə edilməsi təsir göstərir.

Ümumiyyətlə, Azərbaycanın dekorativ tətbiqi sənət nümunələrindən olan daş üzərində oyma sənəti öz estetik gözəlliyi, əzəməti ilə yanaşı, qədim dövrdən başlayaraq bəhs etdiyimiz dövrədək xalqımızın tarixini, mədəniyyətini, inanclarını, onların əsas məşğuliyyətini, adət-ənənələrini özündə əks etdirir.

## ƏDƏBİYYAT


1. Əfəndiyev R. Azərbaycanın madii-mədəni nümunələri. Bakı, Azərnəşr, 1960, 22s
2. Əliyev V. Gəmiqaya abidələri Naxçıvanın qədim tarixi mənbələridir. **AMEA Naxçıvan bölməsi, Xəbərlər, Naxçıvan, 2005, №1, səh-63-81**
3. **Kərimov K. C.,** Əfəndiyev R.C., və başqaları Azərbaycan incəsənəti. Bakı, İşıq, 1992, 406 s
4. Rasim Əfəndi. Daşlar danışır. Bakı, 1980
5. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı, Şərq-Qərb, 2007, 272s
6. Rzayev Nəsir. Əsrlərin səsi.Bakı, Azərnəşr, 1974, 79 s
7. Rzayev N. İ.Möcüzəli qərinələr. Bakı, 1984, 120 s.


## ABSTRACT


**Габиба Аллахвердиева**
**Gulbani Aliyeva**


**CARVEING ON THE STONE ART IN VII-XIII CENTURCES IN AZERBAIJAN**


Made in different shapes and decorated monuments are enconntering in Azerbaijan in the frist middle centuries. Stone human figures were found in Gazakh, Aghdam, Barda, Shamakhi, Astara towns, stone with decorate in Mingachevir in the V-VI centuries, monuments with

composition are part of the valnable examples of Azerbayjian middle centuries decorative application of art.

Belonging to the XIII century “Bail stones” exhibited at the palace of Shirvan Shahs, which is very interesting.

Carveing on the stone art part of the examples of Azerbaycans decorative art, of XII-XIII century that are found in the monuments of architecture (In Nakhichevan Gulistan tomb, Momina khatun tomb)

Generally, carveing on the stone art part of the examples of Azerbaycans decorative art, reflects the history, culture, belief, works and traditions of our people with beanty and ancientness.


**РЕЗЮМЕ**

**Габиба Аллахвердиева**
**Гулбани Алиева**

**В АЗЕРБАЙДЖАНЕ ИСКУССТВО РЕЗЬБЫ НА КАМНЕ В VII-XIII ВЕКАХ**

В ранние средневековья в Азербайджане были найдены разработанные и украшенные в различные формы каменные памятники. Найденные каменные человеческие фигуры в Газахе, Агдаме, Барде, Шамахе, Астаре, принадлежащие V-VI векам в Мингачевире, украшенные каменные памятники доказывает ценные образцы декоративно-прикладного искусство в Азербайджане в период средневековья.

Во дворце Ширваншахов представленные, относится к XIII веку “Баиловские камни” очень интересно.

Декоративно-прикладное искусство (искусство резьбы на камне) в Азербайджане впоследствии, то есть XII-XIII века архитектурных памятниках (В Нахчыване Мавзолей гюлистан, Мавзолей Момине-Хатун)

В целом, декоративно-прикладное искусство в Азербайджане отражает красоту и древность истории нашего народа, его культуру, его людей, его род, занятий и традиций.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**BƏSİRƏT ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:39**

# XX-ƏSRİN BİRİNCİ YARISINDA TAXILÇILIQ TƏSƏRRÜFATINDA BİÇİM, DÖYÜM VƏ TAXILIN SAXLANMASI QAYDALARI

**Açar sözlər:** *Əkinçilik mədəniyyəti, taxılçılıq, biçim, döyüm, təsərrüfat, səpin*
**Key Words:** *agricultural culture, grain farming, harvesting, milling, farmig sprouting*
**Ключевые слова:** *землеведческая культура, зерноводство, скашивание, обмолачивание, хоэяйство, посев*

Naxçıvanın istər Babək rayonunda, istərsə Şahbuz rayonunda, istərsə də digər rayonlarda təsərrüfat məişətində taxıl biçimi və döyümü zəngin etnoqrafik xüsusiyyətlərə malik olmuşdur. Bu baxımdan XX əsrin əvvəlləri taxıl biçimində istifadə edeilən əmək alətləri, eləcədə biçim üsulları daha çox diqqəti cəlb edir. Taxıl biçimində istifadə edilən əmək alətləri haqqında danışarkən demək olar ki əsasən əl əməyinə əsaslanmaqla primitive xarakter daşıyırdı.

Babək və Şahbuz rayonlarında taxıl biçimində istifadə edeilən əmək alətləri haqqında infarmator Babək rayonunun Sirab kənd sakini 1948-ci il təvəllüdlü Babayeva Səadət, Şahbuz rayonunun Külüs kənd sakini 83 yaşlı Qızxanım arvadın dediklərinə görə, əsasən oraq, mərəndi, taxta əlcək, dəryaz və başqalarından ibarət idi.

Arxeoloji və etnoqrafik tədqiqatlardan aydın olur ki, Naxçıvanda taxıl biçimində istifadə edilən əmək alətləri, eləcədə biçim üsulları eradan əvvəl VI-I minilliklərdə Naxçıvan ərazisində istifadə etdikləri əmək alətlərindən o qədərdə fərqləri yoxdur. Qeyd etmək olar ki, eradan əvvəl birinci minilliyə qədər Azərbaycanda eləcədə, Naxçıvanda başlıca olaraq biçin aləti kimi istifadə edilən quraşdırma oraqlar olmuşdur.

XX əsrin əvvəllərində isə Naxçıvan biçinçiləri qismən oraqla o cümlədən xüsusən dağlıq rayon olan Şahbuz rayonu ərazisində, düzən ərazidə isə əsasən Babək rayonu ərazisində mərəndidən biçməyə üstünlük verilirdi

Azərbaycanın etnoqrafik bölgələri arasında, ancaq Naxçıvan bölgəsi üçün xarakterik olan mərəndi biçin alətinin sapı ağacdan düzəldilən və uzunluğu dəyirmi olmaqla yetmiş səksən santimetrə bəzən isə bir metrə qədər çatan itiləşdirilmiş tiyədən ibarətdir. Oraqdan fərqli olaraq mərəndinin tiyəsi uzun olduğuna görə əkin sahəsinin taxılını tez biçmək mümkün olduğundan Babək rayonunda ondan daha çox istifadə olunurdu.

Mərəndi ilə taxıl biçərkən biçinçi sol əlinə taxta əlcək geyinirdi. Bu əlcək vasitəsi ilə taxılı dəstələyib biçmək üçün sərfəli olurdu və həm də əlin kəsilməsindən qoruyurdu.

İnfarmator Babək rayonunun Sirab kənd sakini 85 yaşlı Sona Qasımovanın məlumatına görə Naxçıvanda taxılın biçilmə vaxtı gələndə yaşlı və biçini yaxşı bilən bir adamdan məsləhət alınırdı, sonra isə biçin günü müəyyənləşdirilirdi. Adətən biçinə həftənin uğurlu günü hesab olunan cümə axşamı başlanılırdı.

Biçim başlanmazdan əvvəl dərz bağlamaq üçün cavan oğlanlardan ibarət bəndamcı təyin olunurdu. Onlar isə bəndam əvvəlcədən yaş yəni hələ tam yetişməmiş buğda və ya arpa küləsindən hazırlayırdı, əgər yaş deyildisə su ilə isladıb eşirdilər.

Bəndami eşdikdən sonra biçinçilərin biçdikləri taxıl dəstələrini ( bu dəstələr bəzən də bafa da adlanırdı) bəndəmin arasına qoyub bağlayırdılar. Adətən 10 bafadan bir bağ bağlanırdı sonra isə hər 10 bağdan bir "pencə" düzəldilirdi. Həmin pencələrdən xüsusi qayda ilə xırmana daşınıncaya qədər sahədə tayalar düzəldirdilər. Tayalar elə qoyulurduki taxılın sünbülləri içəridə qalırdı ki, yağış xarab eləməsin və çöl quşları, eləcə də külək ziyan vurmasın deyə əkinçilər bir qayda olaraq əkin

sahələrini özləri biçirdilər, muzdla tutulmuş biçinçiyə isə əmək haqqı danışıq əsasında pencələrin sayına görə müəyyən edilirdi.

Məhsuldarlıqdan asılı olaraq bağlanmış hər 20-25 bağdan ikisi, bəzən isə üçü natura şəklində zəhmət haqqı verilirdi. Pencə taylarını xırmana daşınmasında dağlıq ərazidən, xüsusən Şahbuz rayonunda at və ulağa bir və ya iki pencə yükləyib gətirilirdi, düzənlik ərazidən isə (istər Babək, istərsə də Şahbuz rayonlarında) ustalar tərəfindən düzəldilmiş dörd təkərli araba vasitəsi ilə daşınırdı.

Arabalara at, ulaq və ya iki öküz dartı qüvvəsi kimi qoşulurdu. Hər arabaya100-dən çox "dərz" yəni bağ yüklənirdi. Dərzlər əsasən şana ilə qaldırılıb arabaya yüklənirdi. Bağlar arabaya yükləndikdən sonra bağlar arabadan yerə tökülməsin deyə kəndirlə sarıyıb bərkidilirdi. Xırmana göyüm üçün gətirilmiş dərzlər, yəni taxıl bağları burada dairəvi qaydada taylara vurulurdu və tədricən döyülürdü. Taxıl əkinçiliyində başlıca əmək proseslərindən biri də taxıl döyümü hesab olunur. Çünki taxılı biçdikdən sonra "dən" əldə etmək üçün bu üsul əsas şərtdir.

İnsanlar tərəfindən taxılı biçdikdən sonra taxılı döyüb dən əldə etməyin müxtəlif üsulları da mövcud olmuşdur. Belə üsullardan biri hələ qədim zamanlardan əllə ovmaqla, qılçıqdan çıxarılması, palaz üzərinə sərib ağac tokkacla (dəyənəklə) döyülməsi kimi primitiv döyüm üsul ilə həyata keçirilirdi. Bu döyüm üsulundan sonralar da ailənin həm fərdi tələbatının ödənilməsində, həm də gələcəkdə səpin üçün toxum əldə etmək üçün tətbiq olunurdu. Naxçıvanda XX əsrin birinci yarısında ən çox yayılmış döyüm üsulu xırman döyüm üsulu olmuşdur.

İnfarmator Babək rayonunun Nehrəm kənd sakini 1932-ci il təvəllüdlü Həsənov Xaliqin verdiyi məlumatdan aydın olur ki, Naxçıvan bölgəsində döyüm üçün əkinçilər xırman yerinin seçilməsinə böyük əhəmiyyət verirdilər. Çünki xırman yeri əsasən külək tutan və sel tutmayan yer əlverişli ərazi hesab edilirdi. Bundan əlavə xırman yerinin çevrəsi ən azı 80-120 metr arası olması tələb olunur ki, iş prosesi üçün əlverişli olsun.

Xırman yeri düzəldilərkən həmin sahə təmizlənir, sulanır və üzərinə narın saman səpib döyəşlənib bərkidilir ki, taxıl torpağa qarışmasın. Bundan sonra, bəndamlar açılıb, sünbüllü küləş xırmanda dairəvi şəkildə sərilirdi. Etnoqrafik araşdırmalardan aydın olur ki, bu üsula el arasında "heşan salma" da deyilir.

Adətən bu üsul el ağsaqqalı və heşançı tərəfindən həyata keçirilirdi.

Döyüm əsasən taxtadan düzəldilmiş gəm (buna Naxçıvan bölgəsində həm də "vəl" də deyilir), sonra döyüm üsulunu həm də "carcar" vasitəsilə (bunu rus carcarı da adlandırırdılar) həyata keçirilirdi. Bu üsulla dən küləşdən ayrılır. Döyüm zamanı istər "vəl", istərsə də "carcarı" hərəkətə gətirmək üçün ya atdan, ya da ki, qoşqu aləti kimi iki öküzdən istifadə olunurdu. Öküzlər "carcar" və "vəl"ə boyunduruq vasitəsi ilə qoşulurdu. "Carcar" və "vəl"i idarə edən adam əsasən orta yaşlı olurdu, onu (hodak) xödək adlandırırdılar. "”Carcar döyüm aləti Zaqafqaziyada yalnız Naxçıvan bölgəsində geniş yayılan alət olmuşdur. Bu döyüm aləti nisbətən mürəkkəb quruluşa malik olub, iki paralel çərçivə taxtasından, iki ədəd mayallaq adlanan oxdan (topdan) və kürsü adlanan oturacaqdan ibarət olaraq hazırlanırdı. Döyüm prosesi iki ədəd "dal və qabaq" yerləşdirilmiş mayallaq vasitəsi ilə aparılırdı. Mayallaq oduncağı möhkəm ağacdan, əsasən Naxçıvan şəraitində öz möhkəmliyi ilə seçilən qarağac ağacından usta dülgərlər tərəfindən düzəldilirdi. Mayallaq oduncağı girdə şəkildə yonulur, uclarındakı çıxıntılar vasitəsi ilə çərçivə taxtalarında açılmış yuvalara (deşiklərə) geydirilirdi. Carcar mayallaqlarının üstünə adda-budda pazşəkilli dəmir lövhələr çalınırdı. Öküz və ya at-ulax qoşulmuş carcarın üstündə qurulan kürsüdə oturan (hodaq) öküzləri sürür və taxılı döyürdü.

Etnoqrafik araşdırmalardan aydın olur ki, bu döyüm üsulu Naxçıvan bölgəsinin bütün rayonlarında, o cümlədən Babək və Şahbuz rayonlarında XX əsrin 50-ci illərinin ortalarına qədər mövcud olmuşdur.

Carcar heşan salınmış küləşi doğrayıb kozar edirdi, amma dəni küləşdən tam ayıra bilmədiyindən heşançı carcarın arxasınca gəm (vəl) salırdı. Vəl isə dəni sünbüllü kozardan ayıra bilirdi.

Döyüm aləti vəl isə yuxarıda qeyd olunduğu kimi (Naxçıvanda bu döyüm alətinə əsasən gəm deyilirdi) bir və ya iki qoşa enli, qalın taxtadan düzəldilən və çivlər vasitəsi ilə bir-birinə birləşdirilən döyüm aləti idi. Taxtaların altına isə xırdavari dəmir və ya daş pərçim olunurdu ki, küləşi əzə bilsin. Çəmdən sonra isə əzilmiş və saman halına salınmış heşandan taxılı ayırmaq

məqsədi ilə sovuruq üçün yaba və ya taxtadan düzəldilmiş ləmpər, kürək və sairə kimi alətlər vasitəsi ilə tayalanıb hazır vəziyyətə gətirilirdi ki, külək əsən zaman onun vasitəsi ilə sovurub dəni samandan ayırsınlar.

Xırmanda sovruqdan sonra toxumluq dən əldə etmək, taxıl təmizləmək və sairə kimi işlər görmək üçün daşqır, şadara, xəlbir və sairə kimi alətlərdən də istifadə olunurdu. Bütün bu işlərin görülməsində isə əsasən qadın əməyindən istifadə olunurdu.

Təmiz taxıl əldə etmək üçün Naxçıvan əkinçiləri sovuruq işinə xüsusi diqqət verirdilər. Ona görə də bu iş üçün səriştəli adamlara və ya bu işi yaxşı bilən heşançılara (onlara çox yerdə karvanlar da deyilirdi) həvalə olunurdu.

Sovruq zamanı küləyin səmtini müəyyənləşdirmək, tozdan və qılçıqdan qorumaq üçün duruş yerin seçilməsi də əsas şərtlərdən biri sayılırdı.

Aparılmış etnoqrafik tədqiqatlardan aydın olur ki, Naxçıvan bölgəsinin Babək və Şahbuz rayonlarının kəndlərində səriştəli heşançıların sayı çox olmuşdur. Onlardan Babək rayonunun Sirab kəndindən məhrum Şirinov Qüdrət, Səbzalı kişi, Qahab kənd sakini Mamedov Məmov və Qulam kişi, Şahbuz rayonunun Kolanı kəndindən Məşədi Məhəmməd, Kənd Şahbuz kəndindən Həsən kişi, Keçili kəndində Dünyamalıyev İsa kişi və başqalarının adlarını çəkmək olar.

Etnoqrafik araşdırmalardan aydın olur ki, sovruq üçün axşamüstü əsən şimaldan gələn “Ələyəz” və cənubdan gələn qiblə yeli daha sərfəli olur və ona üstünlük verilirdi. Odur ki, bu küləklər əsən zaman dərhal işə başlanılırdı.

Taxıl əsasən kürəklə sovrulurdu. Çünki kürək taxtadan olduğundan həm yüngül idi, həm də ağzı enli olduğundan sovruq üçün əlverişli sayılırdı.

Küləşdən təmizlənmiş taxıl xırmanda təmiz yerdə çəkilib komalanır (buna tığlamaq da deyilirdi), şəriklərin payı bölünür, əlsiz-ayaqsızlara (yəni invalidlərə, qocalara, işləyəni olmayanlara) pay ayrılır, həmdə gələcəkdə səpin üçün toxum seçilirdi. Vergi payının ödənilməsi də xırman üstə həyata keçirilirdi.

Etnoqrafik araşdırmalar göstərir ki, XX- əsrin 20-ci illərindən başlayaraq tədricən sovruq prosesini həyata keçirmək üçün xüsusi sovruq maşınlarıda meydana gəlmişdir ki, bu da sovruq işini xeyli yaxşılaşdırmış oldu.

Sovruq maşını çərçivə sağanaqdan, üzərinə 4 ədəd pər yerləşdirilmiş girdə şəkilli topdan, kiçik və iri diyametrli ağac diyircəklərdən və əlcək vasitəsilə hərəkətə gətirilən sovuruq əlcəkdən ibarət idi. Bu maşının işləmə prinsipi isə, yun əyirən cəhrənin iş prinsipinə uyğun gəlirdi. Sovruq maşınına 3 ələk yerləşdirilirdi, onlardan biri saman ələyi, ikincisi kozar ələyi, üçüncüsü isə taxıl ələyi adlanırdı. Sovruq maşınını 3-4 nəfər işlədirdi. Onlardan birir maşının qol əlcəyini fırladır, biri pərin üstünə dən qarışığı saman tökür. Biri ələyə yığılan ələyə yığılan samanı kənara çəkir, dördüncüsü təmizlənmiş taxılı çuvallara yığır və həm də yorulanlara köməklik edirdi. Sovruq maşını yüngül olduğundan onu 4 nəfər istənilən yerə apara bilirdi.

Qeyd etmək lazımdır ki, əldə edilən taxıl məhsulu çörək ehtiyatı sayıldığından onu gələcək səpin üçün saxlamaq da vacib şərtlərdəndir. Naxçıvan əkinçi xalqı bu sahədə geniş təcrübəyə malik olduqlarından heç bir çətinliklərə rast gəlmirdilər.

Etnoqrafik araşdırmalardan aydın olur ki, hazır taxıl istər Babək rayonu, istərsədə Şahbuz rayonunun kəndlərində zəhmətkeş xalq yundan toxunmuş garbıtdan tikilmiş xarallara, keçi qəzilindən toxunmuş çuvallara və taxtadan hazırlanmış sandıqlara (buna el arasında dənlik və ya unluqda deyilir) doldurularaq saxlanılırdı. Eyni zamanda bəzən də yağış tutmayan yerdə qazılmış quyulara doldurulub saxlanılırdı. Taxıl torpağa qarışmasın deyə, quyunun döşəməsi və qıraqlarına saman suvağı çəkilirdi. Havasını almaq üçün isə kiçik deşikdə qoyulurdu. Bununla yanaşı taxılı həm də böyük küplərə doldurub saxlanılırdı.

Beləliklə, istifadə edilən mövcud ədəbiyyatlar və etnoqrafik araşdırmalardan belə nəticəyə gəlmək olar ki, əkinçilik təsərrüfatının bu sahəsində xalqın uzun əsrlər boyu əldə etdiyi bilik və təcrübəsinə əsaslanan zəngin ənənələri olmuşdur. Bu ənənələr özünü səpin, biçin, döyüm və taxılın saxlanması qaydalarında, eləcədə əmək alaətlərinin çeşidində özünü göstərmiş və həm də Naxçıvan təsərrüfat məişətinin bu sahəsinin ümumazərbaycan əkinçilik mədəniyyətinin tərkib hissəsi olduğunun şahidi oluruq.

**ƏDƏBİYYAT**

1. Şövqi Həsənov. Naxçıvan tarixi etnoqrafik fenomendir. (Tarixi- etnoqrafik tədqiqat), Bakı, 2009-cu il
2. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı, azərb. SSREA nəşriyyatı, 1964-cü il
3. Hüseynov M.M. Naxçıvanın qədim əkinçilik tayfalarının biçim alaətəri haqqında (elmi axtarışlar, VI toplu (filologiya, tarix, incəsənət), Bakı, 2001
4. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959-cu il
5. Kərimov E. Naxçıvan etnoqrafik fenomendir. Azərbaycan qəzeti, Dövlət nəşriyyatı, Bakı, 1999, 2 aprel

**ABSTRACT.**

**Basirat Zeynalov**

**HARVESTING, MILLIONG AND STORAFE MANAGEMENT OF WHEAT IN GRAIN FARMING IN THE FIRS HALF OL THE XX CENTURY**

The article deals with etnographic studies related to the grain farming of the agricultural culture, which is intended to be studied on the basis of materials of Babek and Sahbuz regions of Nakhchivan, covering the first half of the twentieth century.

Also in this area, grain farming has been clarified in reference to the knowledge grained from centuries-old-knowledge and experience of the sprouting, milling and grain starage, based on available literature and research. Besides, the veriety of labor instrumentr used in grain production and the principle of their operation are explained in the article.

At the same time, the analyses of the collected material conclude that this area of Nakhchivan’s economic life is a part of Azerbaijan’s agricultural heritage destage despite the fact that Nakhchivan and its distriicts are distinguished by its unique agricultural culture.

**РЕЗЮМЕ**

**Басрат Зейналов**

**СКАШИВАНИЯ, ОБМОЛОЧИВАНИЕЯ И СОХРАНЕНИЯ ЗЕРНА В ЗЕРНОВОДЧЕСКИХ ХОЗЙСТВАХ В ПЕРВОЙ ЧЧ ВЕКА**

В статъе на основе материалов Бабекского и Шахбузского районов, входящих в Нахчыванский Автономного республику, предусматривается рассмотрение этнографических исследованиu в связи с зерноводческими хозяйствами в первой половене XX века.
В связи с рассмотрением темы боли сделаны ссылки на этнографичесие исследования и существующие литературы отражалощие знания и о пытиы по посеву обмалачиванию и сохранению зерна в течение многих веков Автор статъи откаментирует орудия труда в области зерноводства, дает классидсекскацию и рабочий принцип орудий труда.На основе собранных материалов можно прийти к такому заключению, что хотя Нахчыван и его рнгионы отличаются землеводческой културой, одновременно оно составляст основную частъ общеазербйджанской землеведческой културы.

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

**ZENFİRA SEYİDOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:069**

# "KLASSİK AZƏRBAYCAN QADIN ŞAİRLƏRİ MUZEY EKSPOZİSİYASINDA"

**Açar sözlər:** *Klassik, qadın, şair, ədəbiyyat, portret, eksponat, muzey*
**Key Words:** *Classical, female, poet, literature, portrait, exhibit, museum*
**Ключевые слова:** *Классический, женский, поэт, литература, портрет, выставка, музей*

Azərbaycan klassik ədəbiyyatı yüksək bəşəri ideallar, təmiz, müqəddəs və xeyirxah hisslər xəzinəsidir. Cüng və təzkirələri bəzəyərək dillərdə gəzən, titrək bir qəlbin çırpıntılarını əks etdirən qadın şairlərinin şerləri, rübailəri, qəzəlləri xalqın qəlbinə yol tapmış, dildən-dilə, nəsildən-nəslə keçərək, bu günə qədər gəlib çatmışdır.

XII əsrdə Azərbaycanda başlamış İntibah poeziyasının ən istedadlı nümayəndələrindən olan Məhsəti Gəncəvinin klassik Azərbaycan ədəbiyyatının yüksək zirvələrində duran parlaq ulduzlarından biri sayılmışdır.

Rübai janrının görkəmli sənətkarı kimi tanınan Məhsəti Gəncəvinin rübailərinin əksəriyyəti məhəbbətə həsr olunmuşdur. Onun sevda ilə çırpınan rübailərində sevən bir qəlbin həyəcanlarını, saf və real bir eşqin ifadəsini görürük.

Gəncənin qiymətli incisi sayılan Məhsəti xanımın vüqarla dayanan boy-buxunu ilə insanı heyran edib nur saçan gözəl siması istedadlı rəssam N.Əliyev tərəfindən incə zövqlə rəsmə alınmış, portreti ekspozisiya zalında vüqar və əzəməti ilə nəzər diqqəti cəlb edir.

*Məni kam almağa qoymadı zaman,*
*Gücü çatan qədər eylədi divan.*
*Deyəsən əhd etmiş dolandıqca hey,*
*Məni də özüylə hərlətsin dövran.*

Ədəbi fəaliyyətinin ən gözəl dövrünü Sultan Səncər sarayında keçirən Məhsətinin bəzən Dəbir (Katib) kimi xatırlanması onun yüksək savada malik bir ziyalı olduğunu göstərir. (1-səh. 12).

Xoşbəxtlikdən Məhsətinin irsi itib-batmamış, şeir həvəskarları onun rübailərini əzbərləmiş, haqqında dastan yazmış, rəvayətlər söyləmişlər. "Əmir Əhməd və Məhsəti" adlı dastan şairənin həyatı, yaradıcılığı və şeirləri əsasında yaranmışdır.

Qədim tarixə malik olan şahmat oyununa orta əsrlərdə Şərq ölkələrində qadınların da maraq göstərdiklərini bilirik. Bu müdrik oyunla Məhsəti xanım da maraqlanmışdır.

Məhsəti xanım şahmat oyunu zamanı Əmir Əhməd qarşısında bədahətən dediyi:

*Müdam oynayırıq qəm şahmatını*
*Birdən mat eyləsəm incimə hərgiz*

rübaisində Azərbaycan qadınının yüksək şahmat oynamaq bacarığı olduğunu sübut edir.

Mənbələrdə Məhsəti xanım həm şair, həm musiqişünas, həm xanəndə, həm də gözəl arfa çaldığı göstərilir.

Rəssam T.Əliyev və P.Nuriyevanın Məhsəti Gəncəvinin rübailərinə çəkilmiş illüstrasiyalar və müxtəlif şeirləri ekspozisiyada nümayiş etdirilir.

Klassik qadın sənətkarlarının qəlbinə xitab edə bilmək, onların kədər və sevinclərini, mənəvi aləmlərini dərindən duymaq, hiss etmək, xalqa çatdırmaq ən böyük xoşbəxtlikdir. Bu cəhətdən Nigar Rəfibəylinin uğurlu tərcümələri nəticəsində dillər əzbəri olan Məhsəti rübailəri Azərbaycan ədəbiyyatında mühüm rol oynamışdır.

1940-cı ildə ədəbiyyatşünas, professor Həmid Araslının redaktorluğu ilə ilk dəfə Azərnəşr tərəfindən Məhsətinin Azərbaycan dilində rübailəri nəşr edilmişdir. Müasir ədiblərimiz, şairlərimiz, alimlərimiz Məhsəti Gəncəviyə şeirlər, poemalar həsr etmiş, məqalələr yazmışlar. (2 səh.202)

Məhsəti surətini ilk dəfə ədəbiyyatımıza gətirənlər arasında ən əvvəl Məmməd Səid Ordubadinin adını çəkməliyik. Nizaminin həyatı və dövrünə həsr edilmiş "Qılınc və qələm" romanı M.S.Ordubadi yaradıcılığının mühüm pillələrindən idi. Əsərdə Nizami müasirlərindən biri kimi Məhsətiyə də müəyyən yer verilmişdir (2 səh 201).

Şairə Kəmalə Ağayevanın "Məhsəti" mənzum faciəsi məşhur klassikin bədii obrazının yaranması yolunda daha bir addıma çevrildi. Əsərdə yeri düşdükcə "Məhsəti və Əmir Əhməd" əlyazmasındakı motivlərindən də istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, bu, Məhsətiyə həsr edilmiş ilk səhnə əsəridir.

Kəmalə Ağayevanın "Məhsəti"-si çox keçmədən səhnə üzü görür. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Ermənistan SSR Əməkdar incəsənət xadimi Baxış Qələndərovun rejissorluğu ilə pyes müvəffəqiyyətlə nümayiş etdirilir. Məhsəti surətini Azərbaycanın xalq artisti Zəroş Həmzəyeva ifa edir.

Hazırda bir çox tədqiqatçılar Məhsətiyə "Xanımlar xanımı", "Yüksək zövqlü şairə", "Qocalmayan gözəl" deyərək, onu orta əsr qadın şairlərinin ən qüdrətli nümayəndəsi kimi təqdim edirlər.

Ədəbiyyatşünas alim, tədqiqatçı Rəfael Hüseynov yazır:

"Məhsətinin şeirlərini oxuduqca sezirsən ki, bu səs qadın səsidir. "Mən qadınam və mən də duymağa, sevməyə, nifrət etməyə, öz sözünü deməyə layiqəm və həm də qadirəm". (2 səh.188)

Şer dünyamızda Məhsəti Gəncəvi adlı bir gözəl xanım var – desək səhv etmərik.

Məhsətiyəm, oldum gözəllərə tağ,
Hüsnümü vəsf edir Xorasan, İraq

deyən şairənin ömür yoluna nəzər saldıqda görürük ki, həqiqətən də Məhsəti xanımlar xanımıdır. (7-səh 12)

Ekspozisiya zalında R.Hüseynovun "Məhsəti necə varsa", "Rübailər aləmində" Bakı 1989 kitabı və müxtəlif şeirlər kitabı, rübailərinə çəkilmiş illüstrasiyalar və Kəmalə Ağayevanın "Məhsəti" tamaşasından fotolar özünəməxsus yer tuturlar.

Klassik Azərbaycan ədəbiyyatının nümayəndələrindən biri də XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşayıb-yaratmış şairə Heyran xanımdır.

Azərbaycanda məşhur Dünbili Kəngərli tayfasından olan Heyran xanım XVIII əsrin 90-cı illərində Naxçıvan şəhərində anadan olmuşdur. Gənc yaşından ailəsi ilə birlikdə İrana köçürülmüş Heyran xanımın el-obasından, xüsusən nişanlısından ayrı düşməsi onu həddindən artıq kədərləndirmişdir. Şeirlərində vətən həsrəti, hicran dərdi mühüm yer tutduğundandır ki, vətəndə ölməyi qürbətdə yaşamaqdan üstün sayan şairə şeirlərinin birində "Ey mənim kimi ürəyini məhəbbətə verənlər yarından və diyarından ayrı düşənlər" deyə fəryad edir.

Heyran xanım bir müddət Urmiyada və Xoyda yaşadıqdan sonra Təbrizə gəlir. Təbrizdə o, yaxın adamlarından birinə ərə getsə də, ailədə fərəhli bir gün görmədiyindən, şeirlərinin birində "Cavankən qoca oldum əfsus, öz ömrümdən dilgir oldum əfsus" deyə şikayətlənir. (4 səh 227)

Heyran xanımın əsərlərində dünyəvi hiss və arzular hər şeydən yüksək tutulur. O, gözəl saydığı hər şeyi həyatda görür. Onun ilham mənbəyi gözəllik və həyatdır.

Şeir və sənətin gözəlliklərini onun nikbinliyində görən Heyran xanım bədbin ruhlu şeirlərindən özü narazı qalaraq şövq ilə yazdığı şeirləri "inci danəsi", "qiymətli dürr" adlandırırdı.

*Əgər şeirim şikəst olsa, mənə etmə məlamət kim,*
*Şikəstə söz bəyan etmək, şikəstə təbə qanundur.(3 səh 18)*

deyərək qəzəllərinin nikbin və bədbin olmasının səbəbini özünün əhval-ruhiyyəsi ilə əlaqələndirir.

Tədqiqatçı Qulam Məmmədli haqlı olaraq yazır:

"Şairə istər şəxsi həyatında, istərsə də şeirlərində pak və yüksək bir məhəbbətin müğənnisi olaraq qalır".

Heyran xanım uzun ömür sürərək, 80 il yaşamışdır. O, öz əsərlərində qocalmasına, saçlarının ağarmasına işarə edərək "başıma qocalıq qarı yağır" deyir.

Heyran xanımın səxsiyyəti ilə maraqlanan rəssamlardan Oktay Sadıqzadə yağlı boya ilə çəkdiyi "Heyran xanım"ın oturmuş vəziyyətdə portreti və xalq rəssamı Maral Rəhmanzadə tərəfindən şairənin rübailərinə, qəzəllərinə çəkilmiş illüstrasiyalar muzey ekspozisiyasında şairənin həyat və yaradıcılığına həsr edilmiş guşədə öz əksini tapıbdır.

Azərbaycanın ədəbiyyat və incəsənətinin oylağı olan Qarabağ, Şuşa bir çox şair, bəstəkar, rəssam, xanəndə və s. sənətkarlar yetirmişdir.

Bu sənətkarlardan biri təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada tanınan, ədəbiyyat və mədəniyyət tarixində xüsusi yer tutan Xurşudbanu Natəvandır.

Natəvan 15 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşudbanunun adını vermişdir. Xurşudbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlığının sonuncu vərəsəsi olduğu üçün onu sarayda "Dürrü yekta ("Tək inci")", el arasında isə "Xan qızı" çağırmışlar. (8. səh 3).

Xurşudbanu dövrünün şairlərini öz ətrafına toplayaraq "Məclisi üns" ("Dostluq məclisi") ədəbi-məclisini yaratmış, "Natəvan" (kimsəsiz, köməksiz) təxəllüsü də ona məhz bu məclisin qərarı ilə verilmişdir. (1. 22)

"Məclisi üns"ün təşkli ilə Natəvanın yaradıcılığında yeni bir mərhələ başladı. Onun şeirləri əsl sənət nümunəsi kimi qiymətlənidirildi. Hələ sağlığında bu şeirlər əlyazması şəklində yayılmağa başladı.

*Dövrü dönmüş dövr, dövran etmədi kamımca ah,*
*Düşmənimdir, bilməzəmki, getmişəm dövranə mən.*

deyən Natəvan üsyankar motivli şeirlərində xalqının dərdini, iztirabını yanıqlı, fəryadedici bir dillə ifadə etmişdir.

Akademik B.Nəbiyev Natəvan yaradıcılığına yüksək qiymət verərək yazır:

Natəvan az yazmışdır. Az yazması Natəvanın bir sənətkar kimi parlamasına mane olmamış, bəlkə də əksinə, dağ çeşməsi kimi dərinliklərdən sızıb gələn sənətinin şəffaflığını artırmışdır. (8. səh.17)

*Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,*
*Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.*

deyə oxucusunu təbiəti sevməyə çağıran şairənin təbiətdən aldığı zövq və fərəh hissləri məhəbbət motivləri ilə birləşir.

Şairənin "Qərənfil" şeirinə bəstəkar Ağabacı Rzayeva mahnı bəstələmişdir.

Muzey ekspozisiyasında nümayiş etdirilən eksponatlardan biri də rəssam Oktay Sadıqzadənin çəkdiyi "Natəvan" portretidir. Bu rəsmdə zərif bir çiçək kimi Şuşa dağlarında boya-başa çatmış Azərbaycan şairəsi Natəvanın gənirsiz gözəlliklərini yüksək zəka və fitri istedadını görürük. Onu da qeyd edək ki, xalq yazıçısı İ.Əfəndiyevin "Xurşudbanu Natəvan" pyesi M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

Azərbaycanda Xan qızı adı ilə tanınan X.Natəvan Şuşaya su kəməri çəkdirmişdir.

Ekspozisiyada Natəvanın əsərlərinə çəkilmiş illüstrasiyalar (rəssam N.Mahmudovun "Xurşudbanu Natəvan" portreti), əl işlərinin fotosu və müxtəlif illərdə nəşr olunmuş şeir kitabları və B.Məmmədovun "Xurşudbanu Natəvan" adlı kitabı, Xurşudbanu Natəvanın oğlu Mehdiqulu və qızı Xanbikəyə yazdığı şeirlər kitabı nümayiş olunur.

Azərbaycanın bir sıra görkəmli sənətkarları Natəvanın poeziyasından ilham almış lirik qəzəlləri xanəndələrimiz tərəfindən muğam üstündə sevilə-sevilə oxunmuşdur. Təsadüfi deyildir ki, ölməz bəstəkarımız Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Leylinin ölüm səhnəsindəki oxuduğu "Ölürəm" qəzəli Natəvanındır.

Ülvi məhəbbətdən doğan bu səmimi sözlər, unudulmaz xatirələr Natəvanın bir insan kimi nəcibliyindən, humanizmindən və insanpərvərliyindən soraq verir.

Nizami, Nəsimi, Füzuli kimi dühalar yetirən Azərbaycan ədəbiyyatı dünyaya bir sıra istedadlı şairələr vermişdir. Hələ XII əsrdə yaşamış Məhsəti xanım Gəncəvinin rübailəri dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş Xurşudbanu Natəvan, Heyran xanım, Aşıq Pəri kimi şairlərimizin

şöhrəti vətənimizin sərhədlərindən çox-çox uzaqlara yayılmışdır. Naxçıvanda yaşayıb-yaratmış şairə Qonçabəyim də Azərbaycan xalqının yetirdiyi belə şairlərdən biridir.

Qonçabəyim təxminən 1827-ci ildə Naxçıvanda Ehsan xanın ailəsində doğulub. Ehsan xan o vaxt Naxçıvandakı rus zabitləri ilə yaxın və dost olmuşdur. A.Qriboyedov İrana gedərkən onlarda qonaq qaldığı kimi gürcü şairi N.Barataşvili də dönə-dönə Ehsan xanın sarayına getmiş və burada Qonçabəyimlə tanış omuşdur. N.Barataşvili altı ay idi ki, Naxçıvanda qəza rəisinin müavini işləyirdi. O, yazmaq, yaratmaq vurğunu idi. N.Barataşvili hələ uşaqlıqdan Azərbaycan dili ilə tanış idi və bu dili çox gözəl bilirdi.

"Bəyim" təxəllüsü ilə əsasən nakam məhəbbət, qadın hüquqşünaslığı mövzularında lirik şeirlər yazmışdır. "Şahzadə İbrahim" dastanındakı Bəyimin dilindən söylənilən şeirlərin bir qisminin Qonçabəyimə aidliyi ehtimal olunur. Fransız yazıçısı və tənqidçisi Sent-Böv Qonçabəyim haqqında yazmışdır: "Bu qadın təkcə şairə deyildi, onun bütün varlığı poeziyadır (6. səh. 347). Şeirlərindən nümunələr "Azərbaycanın aşıq və şair qadınları" kitabında (1974) verilmişdir.

Onu da qeyd edək ki, şair Müzəffər Nəsirlinin "Qonçabəyimin nəğməsi" iki hissəli faciəsi C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Əsərin quruluşçu rejissoru xalq artisti Rövşən Hüseynovdur. (5, 2010-cu il)

Ekspozisiyada rəssam N.Əliyevin Qonçabəyimin portreti, şeirlərindən nümunələr, onun haqqında deyilmiş sözlər Budaq Təhməzovun "Qonçabəyim" adlı poeması nümayiş etdirilir.

Beləliklə, deyə bilərik ki, Azərbaycan klassik poeziyamızın üfüqlərində parlayan qadın şairlərimiz yandırdıqları nurlu sənət çırağını əsrlərdən-əsrlərə ləyaqətlə götürərək, onu sönməyə qoymamışlar. Onların yandırdıqları sənət çırağı C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyinin zallarını da işıqlandırmış, muzeyə gələn minlərlə tamaşaçıların həyat yoluna nur saçmışdır.

## ƏDƏBİYYAT


1. İbrahimov Z. "Azərbaycan qadınlarının qəhrəman keçmişindən" Bakı, Azərnəşr, 1949
2. Hüseynov R. "Məhsəti necə varsa" Bakı, Yazıçı, 1989
3. Nağıyeva C. "Heyran xanım (həyat və yaradıcılığı)" Bakı, 1989
4. Naxçıvan Ensiklopediyası 2 cilddə, 1 cild Naxçıvan, 2005
5. Şərq qapısı qəzeti 9 aprel. 2010
6. Naxçıvan Ensiklopediyası 2 cilddə, 1 cild Naxçıvan, 2005
7. "Rübailər aləmində" Bakı, Azərnəşr, 1989
8. Məmmədov B. "Xurşudbanu Natəvan", Bakı, Azərnəşr, 1983, səh, 3



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**SANAM PASHAYEVA**
*Nakhchivan State University*

**UOT:069**

# NAKHCHIVAN STATE FLAG MUSEUM AND STATE FLAG SQUARE

**Açar sözlər:** *Dövlət Bayrağı, Naxçıvan tarixində mühüm rol, dövlət atributları, müxtəlif xəritələr*

**Key words:** *State Flag, Important Role in Nakhchivan History, State Attributes, Various Maps*

**Ключевые слова:** *Государственный флаг, важная роль в истории Нахчывана, государственные атрибуты, разные карты,*

Nakhchivan State Flag Museum and Flag Square were established by the decree of the NAR Supreme Mejlis Chairman Mr. Vasif Talibov, dated August 22, 2014. It was opened to public on November 17, 2014. The state flag indicates the sovereignty of the state. Therefore, throughout the history the attitude to the flag showed itself clearly in Azerbaijan and it was considered as a symbol of national existence of the people and the existence of the state.

State attributes play an important role in the history and they create opportunities to study the history of ancient Azerbaijan states, the Nakhchivan Khanate and the Nakhchivan Autonomous Republic. Nakhchivan State Flag Museum and Flag Square have great importance in this case.

State Flag Museum and Flag Square are located on the highest area of Nakhchivan city. The museum is in the shape of an eight pointed star. The museum dedicated to the national flag has been built at the foot of the flagpole. The width of the flag is 10 meters, the length is 20 meters, the height of the flagpole is 57 meters.

Nakhchivan has the ancient history. Magnificent culture patterns and five thousand years of city culture have been formed here. Great tradition of statehood was founded in this area. In X century “The Kingdom of Nakhchivan” and XII century “Azerbaijan Atabeyler State” were established in Nakhchivan. At the beginning of XX century, the Araz-Turk Republic which had a population of more than one million, played an important role on defending the territory of Nakhchivan and strengthening of the defense capability.

One of the most valuable resources of Nakhchivan is “Nakhchivan’s Autonomy”. Such as there was established the Autonomous Republic in the historical area of Azerbaijan. Nakhchivan AR has got its own state attributes, too.

In 1924, there was adopted the “Status of Soviet Socialist Republic of Nakhchivan”. In 1926, 1937 and 1978 Constitutions of Nakhchivan AR, the State Coat of Arms and the National Flag were reflected in the provisions and were given their descriptions. For the first time in the Constitution of 1998, the Coat of Arms and the national flag of the Nakhchivan AR and also the National Anthem were identified. The status of “Nakhchivan Autonomous Soviet Socialist Republic” and the”Constitution” that was adopted during the autonomy, as well as the “Historical Atlas of Nakhchivan” published in the independence period of our country, the treaties of “Gumru”, “Moscow” and “Kars”, the “History of Nakhchivan”, the “Anniversaries of Nakhchivan AR” books are displayed in the museum and they are very important for studying the history of Nakhchivan’s Autonomy.

All the flags that were adopted as the national flags at various times are displayed in the museum. While adopting the flag of Community Councils by the Republic of Nakhchivan there wasn’t given “Autonomy” status to Nakhchivan.

The decree of the Azerbaijan SSR Central Executive Committee is about the description of the first national flag of the Azerbaijan SSR. The first flag of the Nakhchivan SSR was adopted on

December 30, 1922.

According to the Constitution of Azerbaijan SSR that was adopted in 1927, on the flag of Nakhchivan Soviet Socialist Republic the word “public” has been replaced by the word “socialist”.

The Nakhchivan Autonomous Socialist Republic flag was adopted and described in the Nakhchivan Autonomous SSR Constitution that was adopted on September l8, 1937.

The flag of the Nakhchivan Autonomous SSR was adopted in 1940 as the national flag. On the flag of Nakhchivan Autonomous SSR that was adopted in 1945 the word “Avtonom” was replaced by the word “Mukhtar”.

According to the Presidium of the Supreme Soviet of Nakhchivan ASSR decree dated on June 26, 1956, on the national flag of Nakhchivan ASSR under the pictures of the sickle and hammer, “Nakhchivan ASSR” was decided to be written by golden letters.

On November 9, 1918 the government of Azerbaijan Democratic Republic adopted resolution on national tricolor flag. After the fall of ADR on April 28, 1920 and establishment of Soviet power in Azerbaijan this flag was rejected. On November 17, 1990 the tricolor flag was restored in its rights by the resolution of NAR Supreme Mejlis and accepted as national flag of Autonomous Republic. At the same session of the Supreme Mejlis of Nakhchivan solicited Supreme Soviet of Azerbaijan SSR for recognition of tricolor flag as a national symbol of Azerbaijan.

The tricolor national flag of Azerbaijan Democratic Republic consists of three equal stripes. The upper stripe is blue, the middle stripe is red and the lower stripe is green. In the middle of the red one there is a white colored crescent and an eight pointed star on both sides of the flag. The proportion of the width to the length is 1:2. The pictures of the star and crescent was placed in rectangle that has-ratio of 3:4.

The Kengerly cavalry squad flag (XIX century), also the Eldanizlar State flag (XII century), the Nakhchivan Khanate flag (1747-1828), Honorary flag of Kangarly cavalrymen (1830), the Coat of Arms of Nakhchivan province (1840), coins that were minted and used in currency in Nakhchivan, the flag of Nakhchivan beys’ squads are displayed in the museum.

The photos of national flag of the Republic of Azerbaijan, and the national emblem of the Republic of Azerbaijan, as well as the music and the text of the national anthem of the Republic of Azerbaijan are defined by the Constitution.

The Coat of Arms of Azerbaijan Republic is the symbol of the independence of Azerbaijan.

On May 27, 1992 the Supreme Mejlis adopted the resolution about the ” State Anthem of the Azerbaijan Republic”. The “Azerbaijan March” written by poet Ahmed Javad and composed by great composer Uzeyir Hajibeyov (1919) was approved as the State Anthem of the Azerbaijan Republic.

The most valuable exhibits of the museum are the text of anthem and Coat of Arms carved on wood, have been donated to the museum by the NAR Supreme Mejlis Chairman Mr. Vasif Talibov.

Independent Azerbaijan’s first Constitution was adopted on November 12, 1995. Ever since Azerbaijan celebrates the November 12 as the “Constitution Day”. By the Constitution of the Azerbaijan Republic the “Autonomous Republic” status was given to the Nakhchivan AR.

There are also maps in the museum. The map of Azerbaijan Republic, the map of Eldanizlar State (XII century), the map of Nakhchivan Khanates, the maps of Araz-Turk Republic (November 1918-Marchl919) and Nakhchivan Soviet Socialist Republic (l 920-1922), the map of Nakhchivan are displayed in the museum. Nakhchivan Autonomous Republic’s Honorary titles, medals and emblems are exhibited in the exposition. The NAR Supreme Mejlis Chairman Mr. Vasif Talibov and the students took part at the opening ceremony of the museum. The photos taken while they raised the national flag are the most valuable exhibits of the museum.

## XÜLASƏ

**Sənəm Paşayeva**

## NAXÇIVAN DÖVLƏT BAYRAĞI MUZEYİ VƏ DÖVLƏT BAYRAĞI MEYDANI

Məqalədə Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyi və Dövlət Bayrağı Meydanının yaranma tarixindən danışılır. Dövlət Bayrağının və digər dövlət atributlarının hər hansı bir dövlətin mövcud olmasında və həmçinin dövlətin tarixinin öyrənilməsində mühüm rolu göstərilmişdir. Bundan başqa Naxçıvanın tarixində mühüm rolu olmuş görkəmli Kəngərli tayfasından, onlara məxsus olmuş bayraqdan, Naxçıvanda müxtəlif vaxtlarda və müxtəlif şəraitdə qəbul olunmuş dövlət bayraqlarından söhbət açılır. Həmçinin burada müxtəlif dövrlərə aid müxtəlif xəritələrin də saxlanılmasından söhbət açılır.



## РЕЗЮМЕ

**Санам Пашаева**

## НАХЧИВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ФЛАГ МУЗЕЙ И ГОСУДАРСТВЕННАЯ ФЛАГОВАЯ ПЛОЩАДЬ

В статье рассказывается об истории Государственного Музея Флага и Площади Флага в Нахчыване. Государственный флаг и другие государственные атрибуты играют важную роль в существовании любого государства и также в изучении истории государства. Кроме того, они говорят о знаменитой племени Кенгерли, который играет важную роль в истории Нахчывана, флаги, принадлежащие им и государственные флаги принятые в Нахчыване в разных временах и при разных обстоятельствах. Тут также существует разные карты разных периодов.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ЛЯМАН МАМЕДОВА**
*Нахчыванский Государственный Университет*
*gunelmamadova@yahoo.com*

**УДК 75**

# РЕАЛИЗМ В ИСКУССТВЕ

**Açar sözlər:** *rəssam, incəsənət, realizm, kolorit, portret, rəssamlığın janrları, təsviri incəsənət, bədii cərəyan, realistik tendensiyalar, mənzərə, XIX əsr incəsənəti, novator, rəng, kompozisiya*

**Keywords:** *artist, art, realism, color, portrait, genres, painting, fine art, art for, realistic trends, landscape, the art of XIX century, innovator, colour, composition*

**Ключевые слова:** *художник, искусство, реализм, колорит, портрет, жанры живописи, изобразительное искусство, художественное течение, реалистические тенденции, пейзаж, искусство XIX века, новатор, цвет, композиция*

В ходе развития искусства реализм приобрел конкретно-исторические формы и творческие методы. Методы эти, связанные между собой преемственностью, обладают своими характерными особенностями. Различны проявления реалистических тенденций и в разных видах и жанрах искусства. Реалистическое искусство располагает необычайным многообразием способов познания, обобщения, художественной интерпретации действительности, проявляющимся в характере стилистических форм и приемов. Реализм Мазаччо и Пьера делла Франческа, Дюрера и Рембрандта, Домье и Репина, Бехруза Кенгерли и Таира Салахова существенно отличаются друг от друга и свидетельствует о широчайших творческих возможностях объективного освоения исторически изменяющегося мира средствами искусства.

Формы и приемы отражения действительности в реалистическом искусстве различны в разных видах и жанрах. Глубокое проникновение в сущность жизненных явлений, которое присуще реалистическим тенденциям и составляет определяющую особенность всякого реалистического метода, по-разному выражается в исторической картине, пейзаже и т.д. Не всякое внешне достоверное изображение действительности является реалистическим. Эмпирическая достоверность художественного образа обретает смысл лишь в единстве с правдивым отражением сторон реального мира. В этом состоит различие между реализмом и натурализмом, создающим лишь видимую, внешнюю, а не подлинную сущностную правдивость изображений. Не следует забывать и о присущих каждому из искусств специфических условностях воспроизведений действительности, обусловленных характером технических средств, не являющихся полностью материально адекватными формами самой жизни (холст, краска и т.п. в живописи, камень, дерево в скульптуре и т.п.).

В изобразительном искусстве, специфика художественных средств которого дает возможность создать картину реально зримых форм предметного мира, реализм в широком смысле является издавна присущим этому виду искусства объективным художественным свойством. Однако реализм в различные исторические эпохи приобретает конкретно-исторические специфические черты, обусловленные уровнем развития общественного и художественного сознания, а порой и облекается в различные стилистические формы. Отличительной особенностью реализма XIX века является обращение искусства к непосредственному изображению повседневной жизни людей. Первой трети XIX века, в период сложения романтизма, развитие изобразительного искусства отмечено повсеместно укреплением реалистических тенденций в портрете, бытовом жанре, пейзаже. Во Франции Т. Жерико, Э. Делакруа непосредственно обращались к натуре, к живой действительности.

Произведения Жерико отличаются эмоциональностью образов, динамичностью композиционного построения и колорита, в котором преобладают темные тона, оживленные цветовыми акцентами. Складывавшаяся живописная система Делакруа была отмечена смелой новизной приемов, насыщенностью колорита, экспрессивностью мазка, яркими контрастами света и тени. Острым социально-критическим и реалистическим началом проникнуто творчество Д. Домье. К. Коро и живописцы Барбизонской школы непосредственно наблюдая и постигая природу в ее многообразных и изменчивых обычных состояниях, своими завоеваниями в области пленэра во многом определили дальнейшее развитие реалистического пейзажа во многих европейских странах.

**Отец реализма.** В середине XIX века реализм заявил о себе как влиятельное течение в изобразительном искусстве и литературе. Своим появлением этот термин обязан жарким дискуссиям, разгоревшимся вокруг новаторских произведений живописи в середине 1850-х гг., и не в последнюю очередь – французскому художнику Гюставу Курбе, демонстративно назвавший свою программную выставку 1855 г. «Павильон реализма».

Работать в Париже Курбе начал в 1839 году, а спустя 16 лет открыл персональную выставку под названием «Реализм, Г. Курбе». Овладев основами живописи под началом провинциального художника, Курбе дерзко заявил, что желает учиться только у природы, но предметом творческих исканий избрал не «идеальные красоты», а правду жизни.

К числу самых известных полотен Курбе принадлежат «Похороны в Орнане» (1849), «Деревенские барышни» (1851) и «Дробильщики камня» (1849). Отметим, что погибшая в 1945 году картина «Дробильщики камня» поражает мрачной безысходностью. По словам автора, «в этом ремесле начинаешь как первый, а заканчиваешь как второй». Их каторжный труд – дорога в никуда. Написанные на «низкие» сюжеты картины шокировали публику и критиков смелым показом бедности, простотой и скупой достоверностью. Выставив в Париже «Купальщиц» (1853) с далекими от идеала фигурами в классическом антураже, Курбе спровоцировал громкий скандал. Яркий композиционный контраст подчеркнул приземленный реализм образов.

Известное влияние на творчество Курбе оказали эстетические взгляды пейзажистов Барбизонской школы. Живя и работая в деревушке Барбизон близ леса Фонтенбло, они утверждали органическую связь реальной природы с повседневной жизнью простых людей. Самым известным из них был Жан-Франсуа Милле, всецело посвятивший себя реалистическому изображению жизни крестьян. На его знаменитом полотне «Сборщицы колосьев» (1875) три простые крестьянки трудятся в поле, согнув спину, но кисть Милле наполнила их образцы тем торжественным величием, которое живописцы обычно приберегали для более возвышенных сюжетов.

Творчество художников-реалистов было в какой-то мере бунтом против двух диаметрально противоположных течений, господствовавших в тогдашнем искусстве – классицизма и романтизма. Оба – каждое по-своему – идеализировали жизнь. Если классицизм являл взору зрителя идеально упорядоченный и рациональный мир, то романтизм создавал новую прекрасную реальность, облекая ее в мятежно-страстные формы и подчеркивая мощь природных стихий.

В эстетике отсутствует окончательно установившееся определение как хронологических границ реализма, так и объема и содержания этого понятия. В многообразии развиваемых точек зрения можно наметить 2 основных концепции. Согласно одной из них, реализм представляет собой одну из главных особенностей художественного познания, основную тенденцию поступательного развития художественной культуры человечества, в которой обнаруживается глубинная сущность искусства как способа духовно-практического освоения действительности. Мера проникновения в жизнь, художественного познания ее важных сторон и качеств, и в первую очередь социальной действительности, определяет и меруц реалистичности того или иного художественного явления. В каждый новый исторический период реализм приобретает новый облик, то

обнаруживаясь в более или менее отчетливо выраженной тенденции, то кристаллизуясь в законченный метод, определяющий особенности художественной культуры своего времени.

Представленные другие точки зрения на реализм ограничивают его историю определенными хронологическими рамками, видя в нем исторически и типологически конкретную форму художественного сознания. В этом случае начало реализма относится либо к эпохе Возрождения, либо к XVIII веку, к эпохе Просвещения. Наиболее полное раскрытие черт реализм усматривается в критическом реализме XIX века, а его следующий этап представляется уже в XX веке.

Реализму свойственна убежденность в познаваемости существующих черт объективного реального мира средствами искусства. Художественная правда включает в себя 2 стороны, нерасторжимо связанные между собой: объективное отражение существующих сторон жизни и истинность эстетической оценки, т.е. соответствие присущего данному произведению искусства общественно-эстетического идеала таящимся в действительности объективным возможностями поступательного развития. Это то, что можно назвать правдой идеала или эстетической оценкой. Наиболее глубоких и художественно-гармонических результатов реалистическое искусство достигает тогда, когда обе эти стороны эстетической истины находятся в органическом единстве. Например, в портретах Тициана и Рембрандта, исторической живописи Д. Веласкеса.

Как бы ни были широки и многообразны возможности и варианты реалистических методов в искусстве, они отнюдь не беспредельны. Там, где художественное творчество отрывается от реальной действительности, уходит в своеобразный эстетический агностицизм, отдается крайнему субъективизму, как, например, в современном модернизме, там уже нет места реализму. Отметим, что реалистическое искусство, обретающее на протяжении XX−XXI веков яркие национальные черты и многообразие форм, как правило, развивается в процессе борьбы с модернистскими тенденциями.

## ЛИТЕРАТУРА


1. Калитина Н. Г. Курбе. Очерк жизни и творчества. Москва, 1981
2. Мотылева Т. Достояние современного реализма. Москва, 1983
3. ПХЭ. Архитектура, живопись, скульптура, графика, декоративное искусство. Кн. I, II. Современная энциклопедия. Москва, 1986
4. Azərbaycan Sovet Ensiklopediyası. VIII cild, Bakı, 1984
5. Azərbaycan Sovet Ensiklopediyası. VI cild, Bakı, 1982
6. Яворская Н.В. Пейзаж барбизонской школы. Москва, 1962
7. Finocchio R. Nineteenth century French realism. New York, 2000
8. Калитина Н. О. Домье. Москва, 1955
9. Дьяков Л.А. Э. Делакруа. Москва, 1973
10. Fermigier A. J.-F. Millet. P. – Gen., 1977


## XÜLASƏ


**Ləman Məmmədova**


## REALİZM İNCƏSƏNƏTDƏ


Məqalədə realizmin incəsənətdə meydana gəlməsi, inkişafı və əsas tendensiyaları göstərilmişdir. Realizm incəsənətdə həyat həqiqətinin bədii yaradıcılığın bu və ya digər növünə məxsus spesifik təsvir vasitələri ilə əks etdirilməsidir. XIX əsrin birinci rübündə təsviri sənətin inkişafı portret, məişət və mənzərə janrlarında realist meylləri daha da güclənməsi ilə səciyyələnir. Fransada Jeriko, Delakrua və Domye öz əsərlərindəö müasir həyatın dramatik cəhətlərini açırdılar. Millenin kəndli həyatını tərənnüm edən məişət tablolarında realizm prinsipləri əks etdirilmişdir. Koro və Barbizon məktəbinin nümayəndələri plener sahəsindəki nailiyyətləri ilə realist mənzərə janrının sonrakı inkişafını müəyyənləşdirdilər. Barbizon məktəbinin yaranması demokratik

hərəkatın genişlənməsi və realist incəsənətin formalaşması ilə bağlı olmuşdur. Realist rəssamlar bədii yaradıcılığın əsl mənbəyini təbiətdə axtarır, naturanı ideallaşdırmaqdan imtina edirdilər.

Həmçinin məqalədə XIX əsrin ortalarında realizmin ən görkəmli nümayəndəsi olmuş, özünün proqram sərgisini nümayişkaranə "Realizm pavilyonu" adlandıran Qustav Kurbenin əsas əsərləri təhlil olunmuşdur. Məhv olmuş "Daşyonanlar" tablosunda əmək adamlarının ləyaqəti, əməyin dərin ictimai mənası ifadə olunmuşdur. "Ornanda dəfn mərasimi", "Çimən qadınlar", "Rəssamın emalatxanası" əsərlərində Kurbenin mütərəqqi-demokratik düşüncə tərzi aydın görünür.

Realist rəssamları yaradıcılığı o dövrün incəsənətində hakim olan, bir-birinə tamamilə zidd – klassisizm və romantizm cərəyanlarına qarşı bir növ üsyan olmuşdur.


## ABSTRACT

**Leman Mammadova**

## REALISM IN THE ART

The article considers the emergence of realism in art, appearance, developmend and main trends. Realism was an artistic movement that began in France in the XIX century. Realists rejected romanticism, which had dominated French literature and art. Realist Works depicted people of all classes in situations that arise in ordinary life. The realist movement began in the mid 19th century as a reaction to romanticism and history painting. In favor of depictions of real life, the realist painters used common laborers, and ordinary people in ordinary surroundings engaged in real activities as subjects for their works. The chief exponents of realism were Corot, Millet, Daumier.

Realism as an art movement was led by Gustave Courbet in France. It spread across Europe and was influential for the rest of the century and beyond, but as it became adopted into the mainstream of painting it become less common and useful as a term to define artistic style. Courbet' s work belonged neither to the predominant romantic nor neoclassical schools. Courbet painted figurative compositions, landscapes, seascapes, and still lifes. He courted controversy by addressing social issues in his work. His famous works – "A burial at Ornans", "The stone breakers", "The bather", "The artist' s studio". Hius work, along with that of Daumier and Millet, became know as realism. For Courbet realism dealt not with the perfection of line and form, but entailed spontaneous and rough handling of paint, suggesting direct observation by the artist while portraying the irregularities in nature. He depicted the harshness in life, and in so doing challenged contemporary academic ideas of art.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**FATMA ŞAHBAZOVA**
*AMEA Naxçıvan Bölməsi.*
*fatma_sahbazova@hotmail.com*

**UOT:77.04**

# HÜSEYNQULU ƏLİYEVİN YARADICILIQ FƏALİYYƏTİ

**Açar sözlər:** *Monumental abidə, Portret, Büst, Baralyef, Rəssamlıqda məişət portreti, Mənzərə, Natürmort janrlarında monumental rəngkarlıq, İllüstrasiya və teatr rəssamlığı*

**Key words:** *Monumental monument, portrait, bust, baralyef, portrait of painting, landscape, monumental painting in the genres of genres, painting and theater painting*

**Ключевые слова**: *Монументальный памятник, Портрет, Бюст, Баралеф, Портрет живописи, Пейзаж, Монументальные картины в живописи, иллюстрации и театральное искусство*

Azərbaycan Respublikasının xalq rəssamı, Azərbaycan Rəssamlar Birliyi və Teatr Xadimləri İttifaqının üzvü, tanınmış fırça və tişə ustası, istedadlı rəssam-heykəltəraş Hüseynqulu Əliyev 1949-cu ilin soyuq fevral günlərinin birində, Azərbaycanın dilbər guşəsi Ordubad rayonunun ucqar dağ kəndi Bistdə dünyaya göz açmışdır.

Hüseynqulu Əliyevin həmkarları, yaxın tanışları, sənət sevərləri, onun hesabatlarında rəssamın həyatın çətinlikləri ilə mübarizə edə, fəlsəfəsini, romantik şəxsiyyətini "lirik" üslubla birləşdirəbildilər. Sənətçinin ilk ilham qaynağı, dünyaya gözünü açdığı Ordubad rayonunun Bist kəndinin mənzərələri olmuş, sənətə daha kiçik yaşlarda dünyanın ən gözəl yerlərindən biri olan Ordubad rayonunun şirin kəndini təsvir etməklə başlamışdır. Hüseynqulu Əliyevin ilk əsərləri həqiqi görülsə də, gerçək mənada qismindi olsa "empresyonist" axının təsiriylə təsvir edilmişdir. Tuvallerinin detallarından sıralanan rənglərin də, bir orkestr senfonisinin ritmindiki kimi duyğulu və hərəkətli olduğu şahidliyi görülməkdədir. Bu mənalı hiss edildiyi zaman istifadə etdiyi rəng tonlarıdır.

Hüseynqulu Əliyev özünü dərk edəndən doğulub boya-başa çatdığı kəndin lirik-poetik duyğular oyadan əsrarəngiz mənzərələrinə, təbiətin canlı tarixi abidəsi olan meşələrə, qartallı yalçın qayalara, kəndi əhatə edən, bəzən başı dumanlı, çənə bürünən, bəzən də gün işığında qızılı rəngə çalan dağlara heyranlıqla tamaşa edər, salxım budaqlar arasında atılıb düşən, cəh-cəh vuran gözəl quşların şən səsini, diş göynədən şəfa bulaqlarının zümzüməsini, Əyriçayın, Nəsrivaz çayının şaqraq nəğmələrini dinləyər, bu çayların mavi sularında qayğısız-qayğısız üzən rəngarəng balıqları seyr etməkdən doymaz, gözlərini heyranlıqla qayalara zilləyər, Gəmiqayanın qayaüstü rəsmlərini, Göygölün rənglərini - hislərini, ehtiraslarını kətana köçürmək arzusu ilə yaşayardı. Günəş qürub edəndə onun qızılı rəngi hopub qalardı yanağında. Məhz bu gözəllikləri gördükdə, duyduqda illər ötdükcə onda rəssamlığa həvəs daha da artardı. Elə bu həvəslə də o, orta məktəbi qurtardıqdan sonra Bakıya gəlib sənədlərini Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə verir və 1971-ci ildə məktəbin Tərtibat şöbəsinə qəbul olur, ilk professional rəsm sənətləri biliyinə yiyələnir. 1975-ci ildə məktəbi fərqlənmə diplomu ilə bitirən Hüseynqulu Əliyev göndərişlə 1977-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitunun rəssamlıq şöbəsinə daxil olur**(4).** O, burada Azərbaycan Respublikasının xalq rəssamı, Dövlət mükafatı laureatı Toğrul Nərimanbəyovdan, Azərbaycan Respublikasının xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, professor, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, heykəltəraş Tokay Məmmədovdan, Azərbaycan Respublikasının xalq rəssamı, sənətşünaslıq doktoru, SSRİ dövlət mükafatı laureantı Lətif Kərimov kimi sənətkarlardan sənətin incəliklərini öyrənir, biliyini və dünyagörüşünü artırır.

Hələ tələbə ikən Moskvada, Xarkovda, Tbilisidə açılan Ümumittifaq və respublika sərgilərində əsərləri ilə çıxış edərək, sənətsevərlərin diqqətini cəlb edir. Beləliklə, o, öz üslubu, dəsti-xətti ilə Azərbaycan rəssamlığı tarixində özünəməxsus bir rəssam kimi adını yazdı.

Hüseynqulu Əliyev gördüklərini və müşahidə etdiklərini öz təxəyyülünün süzgəcindən keçirərək, öz fırçası ilə kətan üzərində təsvir edirdi.

1982-ci ildə İncəsənət İnstitutunu fərqlənmə diplomu ilə bitirən H.Əliyev İnstitutda qalıb işləmək və aspiranturada təhsilini davam etdirmək təklifini alsa da, o doğma Naxçıvana qayıdır. Bir müddət burada işlədikdən sonra 1988-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam kimi yaradıcılıq fəaliyyətini davam etdirir. Bu illərdə onun əsərləri qonşu İran İslam və Türkiyə respublikalarında nümayiş etdirilir.

Rəssam heykəltaraş H.Əliyev geniş yaradıcılıq diapozonuna malikdir. O, heykəltaraşlığın monumental abidə, portret, büst, baralyef, rəssamlıqda məişət portret, mənzərə, natürmort janrlarında monumental rəngkarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində geniş fəaliyyət göstərir.

Realist təsvir metoduna əsaslanan Hüseynqulu Əliyev yaradıcılığında rənglərin təzadına şərtilik və dekorativlik əlamətinə üstünlük verir. O, heykəltaraşlığın və rəngkarlığın müxtəlif janrlarında uğurlu axtarışlar aparır, xalqımızın tarixi keçmişini müasir həyatını əks etdirən əsərlər yaradır və muxtar respublikamızın muzey ekspozisiyalarında uğurlar nümayiş etdirərək, tamaşaçıların rəğbətini qazanır.

Naxçıvan Tarix Muzeyində nümayiş etdirilən yağlı boya ilə işlənmiş “İmamzadə kompleksi”, “Möminə Xatun məqbərəsi”, “Yusif İbn Küseyr məqbərəsi”, “Kırna məscidi”, “Gülüstan məqbərəsi”, “Xaraba Gilan qapısı”, “Əlincəçay-Xanağa kompleksi”, “Yezidabad məqbərəsi”, Hüseyn Cavidin ev muzeyində nümayiş etdirilən “Köhnə Naxçıvan” tablolarında rəssam Naxçıvanın tarixi yerləri, maddi və mənəvi mədəniyyət inciləri ilə görüşdən doğan poetik təəssüratlarını, gördüyünü-duyduğunu, qəlbini titrədən məqamla bağlı düşüncələrini kətana köçürüb. Bu tablolar rəssamın zəngin folklor motivlərindən, etnoqrafik elementlərdən yaradıcılıqla istifadə etməsindən, improvizasiya qabiliyyətindən xəbər verir.

Rəssam-heykəltəraşın çoxsaylı əsərləri Naxçıvan Ədəbiyyat Muzeyində  nümayiş etdirilir. Onun yağlı boya ilə işlənmiş “C.Məmmədquluzadə və oğlu Midhəd”, “C.Məmmədquluzadə”, “C.Məmmədquluzadə və oğlu Ənvər Məmmədquluzadə ailə üzvləri ilə”, ”Salman Mümtaz”, “Əhməd Cavad”, “Əzim Əzimzadə”, “Y.V.Çəmənzəminli” əsərləri yaradıcılıq axtarışlarının gözəl bəhrəsi kimi diqqəti cəlb edir. Bu portretlərdə rəssam obrazların daxili aləmini göstərmək üçün təsvir etdiyi şəxsiyyətləri səciyyələndirən bir sıra cəhətləri xüsusi ilə vurğulamışdır.Bu əsərlərdə obrazların psixoloji dərinliyi, sadəliyi, zahiri cizgilərin daxili aləmin güclü şərhi ilə üzvü bağlılığı aydın hiss olunur. Muzeydə nümayiş etdirilən professorlardan Abbas Zamanovun, Əziz Şərifin, M.C.Cəfərovun, şairlərdən M.Arazın, X.Rzanın qrafiq üslubda işlənmiş portretləri və “Şair Almaz İldırımın dünyası” qrafiq illüstrasiyasında məlum olur ki, rəssam bu janrın mürəkkəb texniki tələblərinə, cizgi qanunauyğunluqlarına dərindən bələd olmuşdur.

Muzey ekspozisiyasında onun müxtəlif formalı heykəltəraşlıq nümunələri də özünəməxsus yer tutur. C.Məmmədquluzadənin “Quzu”, “Saqqallı uşaq”, “Konsulun arvadı”, “Qurbanəli bəy” hekayələri mövzusunda işlənmiş baralyef illüstrasiyaları onun yumoristik qəhrəmanlar yaratmaq və orijinal tapıntılara meyil etmək xarakterini aşkar edir. Onun C.Məmmədquluzadənin gipsdən hazırlanmış bararalyefi, C.Məmmədquluzadənin “Ölülər” əsərinə illüstrasiya, “Ölülər” əsərində İskəndər surəti, “Molla Nəsrəddin” kimi əsərləri uğurlu heykəltəraşlıq nümunələridir.

Heykəltaraş olaraq monumental, dəzgah (bust-portretlər, bararelyef-pannolar), monumental-dekorativ heykəltaraşlıq (kiçik ölçülü plastika) növlərinə müraciət  edərək dəyərli sənət nümunələri ərsəyə gətirib.

H.Əliyevin heykəltəraşlıq nümunələri Naxçıvan şəhərinin və muxtar respublikanın bir neçə rayonlarının mənzərəli yerlərini bəzəyir, yerləşdiyi məkanın mahiyyətini açıqlayır.

Naxçıvanın Koroğlu meydanındakı “Koroğlu” heykəli dinamik kompozisiyası ilə maraq doğurur. Tuncdan tökülmüş monumental abidə xalq qəhrəmanının əzəmətini nümayiş etdirir. Sənətkar Koroğlunu şahə qalxan Qıratın üstündə, döyüş zamanı, qələbə anında təsvir edib.

Şəhidlər xiyabanındakı “Ana abidəsi” professional işləmə tərzi ilə diqqəti cəlb  edir. Əsərdə şəhid övladının məzarını ziyarətə gəlmiş ana təsvir olunub. Onun üzündəki dərin hüznü, kədəri intibah dövrünün məşhur heykəltəraş və rəssamı Mikelancelo Buonarottinin “Pyeta” əsərindəki

Məryəm ana obrazının psixoloji durumu ilə müqayisə etmək olar. Heykələ baxarkən tamaşaçının gözü qarşısında şəhid analarının ümumiləşdirilmiş obrazı canlanır.

Sənətkar həmçinin monumental – dekorativ heykəllərlə (" Fərhad süd arxı çəkərkən, "Bulaq başında qızlar" ) yanaşı, bir çox bust –portretlər, barelyef, dekorativ barelyef – pannolar, qorelyeflərin, Molla Nəsrəddinlə bağlı hekayələrdən götürülmüş süjetli dekorativ heykəllərin müəllifidir.

Rəssamlıqda üstünlük verdiyi janrlar portret, mənzərə, natürmort, tematik tablolar, süjetli kompozisiyalardır. Bir çox rəssamların yaradıcılığında müəyyən rəngə aludəlik hiss olunur və onun palitrası həmin rənglə müəyyən olunur. Hüseynqulu müəllimin əlvan palitiralı əsərlərində belə bir xüsusi aludəlik sezilməsə də, özü ağ rəngi daha çox sevdiyini etiraf edir. Rəssamın fikrincə, ağ rəng işıq, əbədilik, xoş ovqat təmizlik, sülh rəmzi və bütün rənglərin açarıdır.

Çox vaxt rəssamların yaradıcılığında sevimli motiv olur ki, buda əsərlərin ideyasını açmağa kömək edir. H.Əliyev əsərlərində sevimli element at və almadır. Rəssam atı murad, insanın sadiq dostu, məğrurluq rəmzi kimi, almanı isə sərvət və məhsuldarlıq simvolu kimi əsərlərində istifadə edib.

Rəssamın mənzərə janrında çəkdiyi əsərlərindən "Mənim Naxçıvanım" triptixi, "İlanlı dağ", "Meşə", və başqaları realistliyi ilə tamaşaçını heyran edir". "İlanlı dağ" ideya baxımından rəssamın dərin məna aşılayan əsərlərindən biridir. Yağlı boya texnikasında realist üslubda işlənmiş əsərin koloriti parlaq rənglərdən ibarətdir. İnsan və onun məişətinin ön planda verilməsinə baxmayaraq, kompozisiyanın mərkəzində dağ durur.Burada resssam əbədi olan ilə müvəqqəti olanı qarşı-qarşıya qoyaraq maraqlı kontrast yaradıb. Əsərin ideyasına görə əbədi və dəyişilməz qalan təbiət və onun komponetləridir.

Rəssamın portret janrında maraqlı əsərləri var.Böyük ədib Hüseyn Cavidin portretinin koloriti obrazın əhval-ruhiyyəsinə uyğun seçilib. Əsərdə Cavidin çatılmış qaşları, üzünün ifadəsi, stolun söykənəcəyinə qoyulmuş əlin gərgin vəziyyəti dövrün ictimai-siyasi ədalətsizliyindən yaranan daxili narahatlığını ifadə edir.

Hüseynqulu Əliyevin rəngkarlıq əsərləri içərisində onun müxtəlif mövzularda işlədiyi natürmortları da diqqəti cəlb edir. Rəssam öz əsərləri ilə bu janrın imkanlarının genişliyini sübut etmişdir. O, müasir ruhlu natürmortlarında real gördüklərini xəyalında canlandırdığı duyğularla tamamlayaraq, cansız əşyalarla tamaşaçılar arasında emosional əlaqə yaratmağa nail olmuşdur. Onun yaradıcılığında yurdun şöhrətini işıqlı əməlləri ilə yaşadan şəxsiyyətlərin obrazları da geniş yer tutur.Azərbaycan Elmi-Tədqiqat Oftalmalogiya İnstitutunun rəhbəri, oftalmalogiyanın müasir problemlərinə aid bir sıra elmi məqalələrin müəllifi, dünya şöhrətli alim Paşa Musayevin kompozisiyalı baralyefində müəllif obrazın daxili aləmini, xarakterik xüsusiyyətlərini, zənginliyini mənalı çalarlarla zənginləşdirib.

Azərbaycan rəngkarlığında realist rəssamlığın banisi Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki qəbirüstü abidəsində də heykəltaraşın tamaşaçıya dediyi fikir sadə və yığcamdır. O, xarakterik cizgilərlə rəssamın surətini yarada bilmişdir.

Dünya şöhrətli dövlət və siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin nurlu siması rəssam-heykəltəraşın yaradıcılığından qırmızı xətt kimi gəlib keçir. O, istər rəssamlıq əsərlərində, istərsə də müxtəlif materiallardan hazırladığı baralyef və büstlərdə təkcə portret oxşarlığına nail olmamış, eyni zamanda Ulu Öndərin mənəvi aləmini də verə bilmişdir. 1988-ci ildə Naxçıvan şəhərində ucaldılmış Koroğlunun monumental abidəsi isə şübhəsiz ki onun ən uğurlu işlərindəndir. Koroğlu misri qılınc əlində şahə qalxmış əfsanəvi qır atın belində dəli nərəsi ilə sanki Çənlibelin qoç igidlərini yağı düşmən üzərinə hücuma səsləyir.

Sənətkar həmçinin "Həyat", "Bağda" və s. tematik tabloların, "Yasəmənlər", "Heykəllə natürmort", "Dolça və almalar" və s. natürmortların müəllifidir. H.Əliyev teatr-dekor rəssamı, geyim eskizləri tərtibatçısı kimi də fəaliyyət göstərir. 1989-cu ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamıdır.Teatrda "Xeyir və Şər", "Arşın mal alan", "Afət", "Hacı Qara", " Özümüz bilərik" və bir çox başqa tamaşalara səhnə tərtibatı verib(6).

1988-ci ildə Naxçıvan Muxtar Respublikası əməkdar incəsənət xadimi, 1999-cu ildə Azərbaycan Respublikasının əməkdar rəssamı, 2002-ci ildə Azərbaycan Respublikasının xalq rəssamı fəxri adlarına layiq görülmüşdür.

Hüseynqulu Əliyev yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olur.Naxçıvan Dövlət Universiteti "Təsviri incəsənət" kafedrasının müdiri, dosent və müəllimdir. O, gələcək rəssamlara bu

sənətin sirlərini öyrədir. Ümummilli lider Heydər Əliyev müəllimlik sənəti, peşəsi haqqında demişdir: “Müəllim sənəti, peşəsi cəmiyyətdə yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki müəllim xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardandır”.

Məhşur rəssam Leonardo da Vinçi deyirdi: ”Rəsm çox geniş köklü mədəniyyət və metod üzərində inkişaf etməlidir. Elmsiz və praktika üsulu ilə rəsm çəkəcəklərini zənn edənlər kompassız, sükansız gəminin sakinlərinə bənzəyirlər ki, onlar hara getdiklərini qəti olaraq bilməzlər”. Bəli rəssamlıq dərin sənətdir, bu isə ciddi təxəyyül, istedad, əmək, səbr və mütaliə tələb edir(5).

## ƏDƏBİYYAT

1. Əliyev Hüseynqulu -https://az.wikipedia.org/wiki/Hüseynqulu_Əliyev
2. http://medeniyyet.az/page/news/34660/Elvan-rengler-dunyasi.html
3. Yurda bağlı sənətkar-Bağır Qədimov-Təhsil Problemləri | 16 Fevral 2017
4. http://az.wikipedia.org
5. http://www.serqqapisi.az
6. http://anl.az/down/meqale/medeniyyet/2011/may/177589.htm
7. Məmmədova L.Azərbaycan rəssamlıq sənətində portret janrının rolu və əhəmiyyəti. NDU Elmi əsərlər. Humanitar elmlər seriyası. Naxçıvan, “Qeyrət”, 2014, səh.169-173

## ABSTRACT

**Fatma Mammadova**

**HUSEYNGULU ALIYEV'S CREATIVE ACTIVITY**

The article discusses the role of portraiture in painting Huseyngulu Aliyev, as well as the portrait masters. In this genre the artists revealed as more master of the psychological painting, as if they are immersed into the inner world of their models, empathize with them and create a deeply personal and at the same time, the typical images of our contemporaries .The portraits of artists person"s appearance is almost always revealed through the display of his inner world.Portraits of artists stand out originality and artistic characteristics of psychological depth images.Each portrait is a part of himsels, his genorosity and kindness attitude.

## РЕЗЮМЕ

**Фатма Мамедова**

**ТВОРЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ГУСЕЙНГУЛУ АЛИЕВА**

В статье говорится о роли портретного жанра в живописи Гусейнгулу Алиева, а также о мастерах портрета В этом жанре художники раскрываются как большие мастера психологической живописи, они словно погружаются во внутренний мир своих моделей, сопереживают им и создают глубоко индивидуальные и в то же время типические образы наших современников. В портретах художников внешность человека почти всегда раскрывается через показ его духовного мира. Портреы художников выделяются своеобразием художественной характеристики и психологической глубиной образов. В каждый портрет художник привносит самого себя – своей дущевной шедрости доброты своего мироошущения .

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**AKAY MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*memmedliakay@gmail.com*

**UOT 75**

# REMBRANDT VAN REYN YARADICILIĞINDA PORTRET JANRI

**Açar sözlər:** *Rembrandt van Reyn, rəssam, incəsənət, kolorit, portret, ”Gecə gözətçisi”, rəng, kətan, “Doktor Tulpun anatomiya dərsi”, Holland incəsənəti*

**Key words:** *Rembrandt van Rijn, artist, art, colour, color, canvas, portrait, “Match Watch”, “Anatomy lesson of Dr.Tulp”, Dutch art*

**Ключевые слова:** *Рембрандт ван Рейн, художник, искусство, колорит, портрет, «Ночной дозор», цвет, полотно, «Урок анатомии доктора Тюльпа», искусство Голландии*

Rembrant Harmens van Reyn məşhur Holland rəssamı və qrafiki, dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biridir. O, dünya rəngkarlığının zirvələrindəndir. Rəssamın yaradıcılığı daha çox psixologizmi ilə fərqlənir. O, işıq-kölgə effektlərinə üstünlük verən rəssam idi. Rembrandt 60-a yaxın avtoportret, 300 ofort və 1000-dən artıq rəsmlər yaratmışdır. O, yaratdığı portretlərdə obrazların səciyyəvi cizgillərini məharətlə verə bilmişdir.Buna missal olaraq, “Danaya”, “Doktor Tulpun anatomiya dərsi”, “Saskiyanın portreti”, “Samsonun gözlərinin çıxarılması” və s. əsərlərini göstərə bilərik.

Rembrant van Reynin “Gecə gözətçiləri” adlı əsərinə baxdıqda onun bir qrup portreti olduğunu görürük. Yəni toplu halda insanlar təsvir olunub. Əsərdə 28 fiqurdan istifadə edilmişdir vəXVII əsr almanları üçün çox böyük əhəmiyyətə malik idi. Bu əsərdə XVII əsrdə Amsterdamda olan böyük bir ordunun, bir qrup sivil əsgəri təsvir olunmuşdur. O dövrdə ordu paradlarda iştirak edir, mühim tədbirlərə qatılaraq öz xalqının qürurunu təmsil edirdilər. Hətta sadə xalq tədbirlərə qatıla bilmək üçün, biletlərə görə elit təbəqəyə pul da ödəməli idi.(4) Rembrant van Reyn də “Gecə gözətçiləri” əsərində belə tədbirlərdən birini təsvir etmişdir. Əsəri təhlil etsək görərik ki, tabloda işıq bərabər paylanmışdır. Əsgərlər əmr olunan istiqamətə hərəkət etməyə hazır vəziyyətdədirlər və öz yerlərində hazırlaşaraq komandirin əmrini diqqətlə gözətləyirlər.(8) General sol əli ilə polk komandirinə hərəkətə keçmək üçün göstəriş verir. İşıq- kölgə keçidləri isə çox böyük ustalıqla verilib. Normal olaraq portretlərdə işıq hər bir obrazın üzərinə bərabər paylanır. Lakin bu əsərdə iki xarakter daha işıqlı və ön planda, digərləri isə nisbətən kölgədə və arxa planda təsvir olunmuşdur.(1) Bu da ön planda təsvir olunan xarakterlərin çox önəmli xarakterlər olduğunu açıq şəkildə göstərir. Barokko işığıyla dolub daşan bu qrup portret tablosu hərəkətlər baxımından da dəqiq və böyük ustalıqla işlənmişdir. Sanki əsərlə böyük rəssam bizlərə bir hekayə danışır. Hər bir obraz öz yerini tutmuş, gələcək əmrəhazırlaşır. Məsələn, tabloda sol tərəfdə dayanmış əskər silahını sazlamaqla məşğuldur. Ortada yalnız bədəninin az bir hissəsini hətta sadəcə ayaqlarını görə bildiyimiz digər bir əsgər isə topun lüləsindən çıxan barıt tüstüsünü üfürür. Bu tüstü fikirləri qarışdıra bilər, çünki komandirin şapkasında olan lələyin tükü ilə qarışır. Lakin arxada duran əsgərin barıt tüstüsünü üfürməsi hər şeyi aydınlaşdırır.(2) Yəni şapka tüklü olsa da rəssam arxadan görünən tüstünü də əks etdirmişdir. Əsərdə iki qız uşağıda da təsvir edilmişdir. Lakin onlardan biri arxada qaldığından görünmür və onun varlığı yalnız paltarının cüzi bir hissəninin görünməyi ilə özünü birüzə verir. O biri qız isə çox açıq və qabarıq təsvir olunaraq sanki qalibiyyəti, sülhü, bu ordunun uğurunu öz sevinci ilə göstərməyə çalışır. Tabloda yer alan asılmış qalxanın üzərində isə ordudakı əsgərlərin adları həkk olunaraq onları ölümsüzləşdir.(2)

Onu da qeyd etmək lazımdır ki, əsər Kloveniersdolendən Amsderdamdakı muzeylərdən birisinə daşınarkən asıldığı yerə yerləşsin deyə dörd bir tərəfdən kəsilmişdir. Elə bu səbəbdən də

sol və sağ tərəfdəki obrazlar yarımçıq görünür. Əsərin keşmiş adı da "Gecə gözətçiləri" olmamış, təsvir olunan ordunun, polkun adı ilə adlandırılmışdır. Sonradan bir neçə dəfə olunan restovrasiya nəticəsilə qaralma getmiş və gecənin qaranlığında təsvir olunmuş kimi efekt vermişdi. Lakin sonradan araşdırılaraq məlum olur ki, əsər günəş işığıyla təsvir olunmuş sonradan boyaları qaralmışdır.(3) Əsər o qədər canlı təsvir olunub ki, onun yaxınlığında duranlara hər an tablodakı xarakterlərin hərəkətə gələrək olduğumuz dövrə addimlayacaqları təsirini bağışlayır. Silahlar da çox gözəl dəqiqliklə və aydın görünürlər. Orduda hər kəs öz işinin ustasıdır və hərə öz işi ilə ciddi şəkildə məşğuldur.(1)

İndi isə digər bir qrup portretinə baxaq. Rembrantın ən möhtəşəm tablolarından birisi olan "Doktor Tulpun anatomiya dərsi" əsəridir. XVII əsr flamand mədəniyyətində belə portretlər çox sifariş olunurdu və böyük əhəmiyyətə malik idi.(1) Belə tablolar çox vaxt xalqa tamaşa edə bilməsi üçün açıq sərgilərdə qoyulurdu, hər kəsin asanlıqla gəlib bu tablolara baxmasına şərait yaradılırdı. İnsan bədəni haqda heç bir təsəvvür yox idi deyə bilmərik, Renessans dövrü rəssamlarının tablolarında insan anatomiyası çox gözəl təsvir olunurdu və bu da o demək idi ki, insan anatomiyası haqqında təsəvvür var idi. Lakin XVII əsrdən başlayaraq daha geniş şəkildə araşdırılaraq artıq müasir tibbə doğru addımlamağa başlandı.Bu tabloda Doktor Tulp bir qrup insana, insan anatomiyası haqda geniş məlumat verir. Bu tabloda gördüyümüz obrazların hər biri önəmli insanlardır, çünki geyimləri səliqəli, ütülənmiş və o dövr qraf, zadəgan ailələrinə mənsub olduqlarının sübutudur. Yəni hansısa mötəbər ailələrdən gələn şəxslər təsvir olunur.(9)

Rəssam bu tabloda Doktor Tulpu daha qabarıq təsvir edərək, işığı ən çox cəsədin və onun üzərinə salmışdır. Digər obrazlara gəldikdə isə onların sadəcə üzlərinə, yaxalıqlarına işıq düşür və kənarlara çıxdıqca işıq itir. Tablonun kənarları kölgədə get gedə yox olur. Əsərdə Tulpun əlində olan dərslik də anatomiyaya olan marağı əks etdirir.(1)A Ətrafdakılar cərrahTulpu çox diqqətlə dinləyirlər. Tabloda asılaraq öldürülən bir günahkarın cəsədi tədqiq edilir. Rəssam cəsədin anatomik ölçülərini dəqiqliklə tamaşaçıya çatdıra bilir.

Barokko dövrü portretlərində artıq əvvəlki dövr qanunlarından kənara çıxaraq əsərə bir hekayə formasında təsvir edilirdi. Əvvəllər portretlər sənədli material əhəmiyyəti kəsb edirdi və donuq təsvir olunurdu. Lakin barokko dövrü rəssamları bu qanundan çıxırdılar. Həkim cəsədin əzələ sistemini izah edərkən, digər əli ilə də bir insanın qolunun, əlinin necə hərəkətə gələ bildiyini, sol əlindəki jest ilə göstərir.(3) Əsərdə heç kimin üzü gizli qalmır, hər kəs biri birinin arxasından aydın şəkildə görünür. Əsərdə rəssamın əl izlərində özünü biruzə verir. Bunu da zamanla quruyub çatlamış boyaların, kətanın üzərində diqqətlə baxdıqda görmək olur.(8) Əsərdə maraqlı bir məqama toxunaq. Obrazlar, fiqurlar ümumi şəkildə qıraqdan baxıldığında azacıq sola əyilmiş assimetrik bir piramidanı xatırladır. Tulp isə aralıda yalnız qalmış kimi görünür. Cəsəd adi insanın ölçüsündə işlənib və sanki bizim olduğumuz yerdə durubmuş kimi insanda təsəvvür yaradır. Bizim alışdığımız bir mövzu olmaya bilər, lakin o dövr Avropada ən çox cansız insan bədəni təsvir olunurdu. Eynilə "Gecə gözətçiləri" əsərində olduğu kimi, bu əsərdə də diqqət mərkəzə yönəlir.(2) Bu əsər gerçəkliyi əks etdirən tablolardan birisidir. Rembrant van Reyn bu əsəri işləyərkən 25 yaşında idi. Bir çoxları o dövrlərdə hələ rəssamlığı yeni-yeni öyrənərkən Rembrant artıq dəqiq və gerçəkçi əsərlərin müəllifi idi. Portret janrında işləyən ən böyük rəssamlardan biri idi.

Rəssam 1645-ci ildə "Pəncərədəki qız" adlı portret janrında olan əsərini işləyir.(3) Digər portretlərdə olduğu kimi, əsər insanı özünə çəkir. Gözlərini uzaq bir nöqtəyə tikən əynində isə gecə libasına oxşayan naməlum geyimli bir qız uşağı təsvir olunub. Əslində onun yaşını da təyin etmək çox çətindir. Qız ecazkar görünür. Daha diqqətli və dərindən baxsaq onun ağıllı və gözəl zəka sahibi olduğunu görmək olur. Paltarının hansı biçimdə olduğunu təsəvvür etmək də çətindir.(4) O, bir xidmətçidirmi, ya sadəcə gecə geyimindədirmi, gülümsəyirmi, ya baxışları donuqdurmu, gözlərini harayasa zilləyirmi - deyə tamaşaçını düşündürür. Ya Renessans dövrü tablosu olan "Cokonda" gülüşüdürmü? (8)

Əsərdə pəncərə olmadığı halda adı "Pəncərədəki qız"dır. Yanağının qırmızımtıl rəngi onun soyuqdanmı qızardığını, ya da bu rəngin onun original rəngininmi olduğuna dair bizə məlumat vermir və fikirləri qarışdırır.(4) Ətrafdakı mənzərə solmuş təsəvvür olunub və bu da soyuq bir mövsümün olduğunu göstərir. Demək qızın yanaqları soyuqdan donaraq qızarmışdır.(4)

Tabloya diqqətli baxsaq görərik ki, əslində qızın üzündəki qırışlarda, yanağının incə yerləri də, dərisinin yumuşaqlığı da hiss olunur. Pəncərə olmasa da bir parçaya söykənərək boylanır. Bu tablo divarda o qədər gerçək görünür ki, insanlar onun həqiqi həyatda da haradansa boylandığını düşünürdülər. Buna görə də bu tabloya "Pəncərədəki qız" adı veriləbilərdi.

Rəssamın digər əsərləri də gerçək və təbii təsvir olunur, və hər bir tabloda ayrı-ayrı hekayələrdən danışılır.(3)

## ƏDƏBİYYAT


1. Nəcəfov H. Rəssamlıqdan söhbət. B. 1974.
2. Каптерева Т. Рембрандт Харменс ван Рейн. Европейское искусство. Энциклопедия. Моссква, 2006.
3. Истомина Н. Рембрандт. Моссква, 2015
4. Геташвили Н. Атлас мировой жиописи, 2006
8. https://www.youtube.com/watch?v=RHMX8eDG_pQ
9. http://www.dailymotion.com/video/xvv974


## ABSTRACT


**Akay Mammadova**


**THE ROLE OF PORTRAIT GENRE IN THE REMBRANDT VAN REIN'S WORKS**


The article refers to a Dutch artist, draftsman anf printmaker, annovative and prolific master in three media, he is generally considered one of art and the most important in Dutch. Golden age, the article olso analyzes the famous works of the artist : " Danae ", "Match Watch", " Anatomy lesson of dr. Tulp ", " Tovit and Anna", "Artist in his workshoop", " Abdction of Europe" etc.

Rembrandt managed to bring in his works the whole ipectrum of human experiencs with such emotional richness, which before him didn't know the fine art. The works artist extremely different genre belonging. Having archived youthful success as a portrait painter, Rembrandt' s later years were market by personal tragedy and financial hartships.


## РЕЗЮМЕ


**Акай Мамедова**


**РОЛЬ ПОРТРЕТНОГО ЖАНРА В ТВОРЧЕСТВЕ РЕМБРАНДТА**


В статье говорится о голландском художнике, рисовальщике и гравёре, великом мастере светотени, крупнейшем представителе золотого века голландской живописи Рембрандте ван Рейне.

В статье также проанализированы знаменитые работы художника: «Даная», «Ночной дозор», «Урок анатомии доктора Тюльпа» «Товит и Анна», «Художник в своей мастерской», «Похищение Европы» и т.д.

Рембрандт сумел воплотить в своих произведениях весь спектр человеческих переживаний с такой эмоциональной насыщенностью, которой до него не знало изобразительное искусство. Работы художника чрезвычайно разнообразны по жанровой принадлежности. Для его творчества характерно стремление к философскому осмыслению жизни, честность к себе и людям, интерес к духовному миру человека.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**VİDADİ HEYDƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:785**

# ALƏTLƏRİN ŞAHI

**Açar sözlər:** *orqan, musiqi, alət, boru, bəstəkar.*
**Key words:** *organ, misic, instrument, pipe, composer*
**Ключевые слова:** *орган, музыка, инструмент, труба, композитор*

Bəşəriyyət tarixində yaradılan musiqi alətlərindən ən möhtəşəmi, mükəmməli və mürəkkəbi orqan musiqi alətidir. Orqan yunanca "orqanon" sözü olub, mənası "alət" deməkdir. Almanca "orqel", İngiliscə "orqan", Fransızca "orqiye", İtalyanca və İspanca "orqano", Azərbaycanca "orqan" adlanır. Nəfəsli Orqan da adlandırırlar ki, bu termin vasitəsilə elektron orqanlardan fərqlənsin.

Orqan musiqi alətlərinin ən böyüyü, ən möhtəşəmi, quruluşuna görə ən mürəkkəbidir. Dahi Alman bəstəkarı V.A. Motsart orqanı "alətlərin şahı" adlandırmışdır, doğrudan da heç bir alət orqan qədər qeyri-adi dərəcədə çoxsahəli, rəngarəng səslənməyə malik deyildir. Bununla yanaşı öz həcmi, diapazon böyüklüyü, imkanları və tembr rəngarənliyinə görə musiqi alətlərinin şahı sayılır. Ümumiyyətlə orqan 20-dən çox musiqi alətinin səsini çıxarda bilir. Bu alətdə istər klassik, istərsə də rok və caz musiqisi ifa etmək mümkündür.

Bu musiqi alətində klavişlərlə çalırlar, lakin fortepianodan fərqli olaraq orqan simli alət deyil, klavişli-nəfəsli alətdir. O, əzəmətli royalın deyil, balaca tütəyin qohumudur.

Orqançı - orqan musiqi alətində ifa edən şəxs, kilsədə rütbədir.

Orqanın təsvirinə hələ Talmudda (III-V yüzilliklərdəndə qabaq mövcud olan yəhudi mədəni qanunları, mərasim qaydaları və əfsanələrini əhatə edən dini mətinlərdir. İbranicə lamad-öyrənmək kökündən gəlir.) rast gəlinir.

Avropada Pan fleytası və qədim Çin aləti olan şen ilə yaxınlığı diqqəti çəkmişdir.

E.ə. III əsrdə Yunanistanın İsgəndəriyyə (Aleksandriya) şəhərindən olan ixtiraçı Ktesebiya ilk dəfə suyun gücü ilə işləyən, fleytaya bənzər üç sıralı borulardan ibarət su orqanını, yəni hidravlik orqanını yaradır. Hər bir sıradakı borularınözünə məxsus tembri olmaqla 1-ci sıra boğuq fleyta səsinə bənzər idi, 2-ci sıra (1 oktava yuxarı fortepianonun 4-cü oktavasına bənzər) daha kəskin və 3-cü sıra 2 oktava yuxarı (təxminən süperoktava 2) daha yüksək səslənməyə malik idi.

Ktesebiyanın bu ixtirası ilk klavişli alət idi. Lakin bu klavişlər ifa zamanı basılmır, hərəkət etdirilirdi, bu da ifaçı üçün rahatsızlıq yaradırdı. Böyük ölçülü orqanlar IV əsrdə meydana gəldi.

Orqanın daha təkmilləşmiş forması VII-VIII əsrlərə aiddir. İlk dəfə orqanı 660-cı ildə Roma papası Vitalian kilsəyə gətirdi və bu alət dini mərasimlərin əvəzedilməz xidmətçisinə çevrildi. Bununlada Avropada daha mürəkkəb orqanların yaradılması prosesinə təkan verildi. Bunun üçün orqan ustalarından xüsusi bilik və bacarıq tələb olunurdu.

980-ci ildə İngiltərənin Uincestr kilsəsində 400 borudan ibarət 2 nəfər ifaçı üçün nəzərdə tutulmuş orqan yaradıldı, lakin tarixə nəzər salarkən aydın olur ki, kilsə aləti kimi tanınan orqan daha əvvəllər ərəblərdə toy aləti kimi istifadə olunmuşdur.

Orta əsrlər dövründə orqanın Avropada məşhurlaşması onun təkmilləşməsi uğrunda rəqabət yaradır. İlk dövrlər orqan ustaları İtaliyada, IX əsrdə Fransada, daha sonralar isə Almaniyada şöhrət qazanırlar.

1054-cü ildə Xristian kilsələri Qərbi-katolikvə Şərqi-provoslav (hansı ki, orqan onlara məxsus kilsələrə buraxılmırdı) deyilən 2 hissəyə bölünür.

Katolik dini orqanı zəruri, labud hesab edirdi, belə ki, orqan ifaçılığı kütləvi dini mərasimlərə çox təntənəli xarakter verirdi.

XIV əsrdə L.Van Balbeke tərəfindən ayaqla çalınan pedal klaviaturası kəşv edildi ki, bu da orqanın təkmilləşməsində böyük bir sıçrayışa səbəb oldu. Halbuki o vaxta qədər yalnız əl klavişlərindən istifadə olunurdu.

Konstruksiyanın dəyişilməsi ilə 2-3 manualı olan orqanlar meydana gəldi və klavişlərin həcmi kiçildi, boruların sayı artırıldı, orqan daha müasir görkəm aldı. Bu da Qərbi Avropanın bütün milli məktəblərində polifoniyanın çox yüksək sürətlə inkişafına səbəb oldu.

Orta əsrlərdə və ilkin dirçəliş dövründə orqan barokko tipli alət xüsusiyyətlərindən uzaq idi. Ölçüsünün böyüklüyünə və borularının çox olmasına baxmayaraq bu orqanda ifa etmək olduqca çətin idi. Birincisi bu orqan 2 hissəyə bölünmüşdü və hər hissə bir orqançının xidmətindəydi. İkincisi klavişlərin ölçüləri çox böyük idi, (uzunluğu 30-35 sm, eni 8-9 sm.) hər ifaçı 20 klavişə malik idi və ifa etmək üçün yumruqla, yaxud dirsəklə vurmaq lazım gəlirdi. Üçüncüsü çoxlu sayda mexin (körük) olması ifa zamanı çox səs küy yaradırdı.

Orqan uzun illər kiçik həcmli olub, müasir fortepiano kimi evlərdə kübar aləti olaraq istifadə edilmiş, bu alətdə xalq mahnılarına əsaslanan variasiyalar və rəqslər ifa olunmuşdur. Bununla da orqan instrumental musiqidə böyük əhəmiyyətə malik olmuş və bir çox bəstəkarlar orqan üçün əsərlər yaratmağa başlamışlar.

XVI-XVIII əsrlərdə kilsə orqanları ilə yanaşı otaq şəraitində ifa etmək üçün kiçik orqanlar inşa edilirdi ki, bu da orqan ifaçılığına kübar-məişət xarakterini vermək məqsədini daşıyırdı. Bunların içəsirisində pozitiv, portativ və reqal orqanlar daha geniş yayılmışdır.

Orqan musiqisi sahəsində İtalyanın Roma şəhərində Müqəddəs Pyetr kilsəsində orqançı Ciraloma Fresqobaldi (1583-1643) böyük bəstəkar və orqançı kimi bütün Avropada çox hörmət qazanmışdı. Müxtəlif ölkələrindən onun yanına tələbələr gəlir və təkmilləşib vətənlərinə qayıdır, öz milliməktəblərini yaradırdılar. Heç də təsadüfi deyil ki, onu "İtalyanın Baxı" adlandırırdılar.

XVII əsrdə yaxşı temperasiyalı quruluşun meydana gəlməsi ilə orqan musiqisində qızıl əsr dövrü başlayır. XVIII əsrin əvvəllərində böyük polifoniya ustalarının İ.Paxelbel, İ.S.Bax, H.Hendel, S.Şeydt, İ.Y. Froberqer, İ.Reynken, V.Lyubek, D.Bukstexude və bir sıra bəstəkar-orqançıların yaradıcılığı özünün çiçəklənmə dövrünü yaşayır. XVI-XVIII əsrlərdə Avropada müasir tipli orqan geniş yayılmışdı.

Müasir orqanda bir-birinin üzərində yerləşən bir neçə klaviaturadan ibarət (1-7 manual) ifaçı pultu, aşağıda isə ayaqlar üçün nəhəng klavişlər, habelə ən aşağı səsləri canlandıran pedallar vardır. Orqanın boruları metaldandır, sayı bir neçə minə çatır. Böyük orqanlarda 30 mindən artıq boru olur. Orqanın klaviaturası son dərəcə mürəkkəbdir, hər bir klaviş onlarla, bəzən yüzlərlə borunu hərəkətə gətirir. Klaviaturanın üzərində yerləşən registr dəstəkləri və düymələri ilə bu və ya digər borunu açıb-bağlamaq olar. Hər regstrin özünəməxsus xarakterik tembri vardır.

Hərəkət ötürmə sisteminə görə (traktura) orqanın mexaniki, pnevmatik və elektrik tipləri vardır.

Orqan üçün yazılmış bütün əsərləri kilsə musiqisi saymaq olmaz. Müxtəlif bəstəkarlar İ, S, Bax ilə yanaşı Vyana klassikləri Y.Haydn, V.A.Motsart və L.V. Bethoven kimi dahi bəstəkarlar da bu musiqi aləti üçün çoxlu sayda gözəl əsərlər yaratmışlar. Orqanın sədaları başqa musiqi alətləri ilə, orkestr ilə, habelə oratoriya, kantata kimi əsərlərin, zəbur ayələrinin oxunması ilə çox gözəl uzlaşır. Beləliklə orqan təkcə solo aləti kimi deyil, həm də ansambl aləti kimi istifadə edilir. Amma operada orqandan nadir hallarda istifadə olunur.

IX-X əsrlərdə Ərəb mədəni həyatında hidravlos (su ilə işləyən) və pnevmatik (nəfəsli) orqanlarının adı çəkilir.

1668-ci ildə rus carı Aleksey Mixayloviç şah Abbasa böyük bir orqan hədiyyə etmişdir.

1675-ci ildə İngiltərə kraliçası birinci Elizaveta Türk sultanına orqan hədiyyə etmişdir.

XIX əsrdə Fransa orqan ustası Aristida Kavalye-Koplya elə bir orqan yaratdı ki, səslənmə gücünə görə bütöv bir simfonik orkestrlə rəqabət apara bilirdi. Bu orqanı bəzən simfonik orqan da adlandırırlar.

Borduok konsert zalında quraşdırılmış orqan (Atlantik-Siti, ABŞ) dünyanın ən böyük və ən güclü səsə malik orqanıdır. 7 manual, 455 registr və 33112 borusu, geniş tembr dəsti, ən böyük və ən ağır boruları olmaqla hava ötürmə sistemində daha işlək təzyiqə malikdir. Orqanın əsas pultu 7

manuallıdır, ikinci hərəkət edən pultun 5 manualı var ki, bu da məsafədən bu böyük aləti idarə etməyə imkan yaradır. Ən uzun borusunun uzunluğu 64 fut (18 metrə yaxın) ölçüsündədir. Ağac bu borunun yükünə tab gətirmədiyi üçün belə uzun ölçülü borular dəmir-betondan düzəldilmişdir. Bu orqan çox az hallarda istifadə olunur.

Yunameyker orqanı – hal-hazırda istifadə olunan bu orqanın 6 manualı, 461 registri və 30067 borusu vardır. Bu orqan Los-Ancelesdə qurularaq 1904-cü ildən gücünün artması üçün dəfələrlə yenidən qurulmuşdur. Hal-hazırda bu alət Filadelfiyada "Macy's" ticarət mərkəzinin böyük zalındadır.

Passauda müqəddəs Stefan kafedral baş kilsəsində Alman firması "Stenmayer co"(1993) Avropanın ən böyük orqanını inşa etdi. 5 manualı, 229 registri, 17774 borusu olan bu orqan böyüklüyünə görə dünyada ön sıradadır.

Kalininqrad şəhərində kafedral kilsədə (4 manual, 90 registr, 5, 6 minə yaxın boru) yerləşdirilən orqan Rusiyada ən böyük orqandır.

Orqan üçün əsərlər yazan məşhur bəstəkarlar:

İohan Sebastyan Bax
İohannes Brams
Anton Brukner
Andrea Qabriyeli
Yeorq Fridrix Hendel
Marsel Dyupre
Antonio de Kabeson
Ferenç List
Feliks Mendelson-Bartoldi
Volfanq Amadey Motsart
İohan Paxelbel
Henri Pörsel
İohan Adam Reynken
Kamil Sen-Sans
Qabriyel Fore
Cirolamo Fresqobaldi
Domeniko Çipoli
Mikalayus Konstantinas Çyurlyonis
Oleq Yancenko və başqaları...

Azərbaycanda orqan XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakı və Yelendorfda (indiki Göy-göl) lyuteran (lyuter tərəfindən təsis edilmiş xristianlığın bir qolu olan protestant məzhəbi) və katolik (xristian dininin başqa bir qolu) kilsələrində orqan musiqi aləti quraşdırılmışdır.

Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Azərbaycan ərazisində xarici kompaniyalar fəaliyyət göstərirdi. Bakıya Avropalıların böyük insan axını təbii ki, bu şəhərin mədəni həyatında özünü göstərməyə bilməzdi. Yuxarıda adı çəkilən kilsələrdə orqan konsert aləti kimi istifadə olunurdu. 1910-cu ildə Alman orqançısı, Leypsiq ali misiqi məktəbinin məzunu E.Qorşaqen konsert vermək üçün Bakıya dəvət olundu. Lyuteran kilsəsində (kirxada) "Valker" firmasına məxsus olan orqanla verilən konsert Azərbaycanın musiqi həyatında əhəmiyyətli dərəcədə canlanma yaratdı. Bununla yanaşı E.Qorşaqen Bakıda orqan, fortepiano və nəzəriyyə dərsləri verməyə başladı, ancaq o, Bakıda milli professional məktəbini yaratmadı.

Sovetləşmə və məlum Stalinizm qərarları ilə lyuteran kilsəsi (kirxa) və bir çox dini məbədlər öz fəaliyyətini dayandırdı, bir çoxları isə dağıdıldı. Ancaq böyük Vətən müharibəsindən az əvvəl Kirxanın binası salamat qalmışdı.

1939-cu ildı dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun təşəbbüsü ilə orqan konservatoriyanın binasına gətirildi. Ü.Hacıbəyov orqan musiqisinə çox böyük əhəmiyyət verirdi və o zamanlar tez-tez kirxada E.Qorşaqenin ifasında keçirilən konsertlərdə iştirak edirdi.

Paytaxtımızda cəmi iki orqan var – biri Alman kirxasında, digəri isə Azərbaycan Dövlət Musiqi Akademiyasındadır.

Azərbaycanda orqan mədəniyyətinin formalaşması haqlı olaraq ilk Azərbaycan orqan ifaçısı, professor, Respublikanın əməkdar incəsənət xadimi Z.Cəfərovanın adı ilə əlaqələndirilir. Məşhur orqançılar İ.Braudo (San Peterburq) və L.Royzmandan (Moskva) dərs almış Z.Cəfərovanın təşəbbüsü ilə 1961-ci ildə Azərbaycan Milli Konservatoriyasında orqan sinfi açıldı. Həmin il kiçik sinif orqanı və 1964-cü ildə isə Konservatoriyanın böyük zalında böyük konsert orqanının quraşdırılması ilə orqan musiqisi çoxsahəli musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi Azərbaycanın musiqi həyatına daxil oldu.

Müxtəlif ölkələri (Fransa, Almaniya, İtaliya, Avstriya, İsveçrə, Norveç, Finlandiya, ABŞ və s.) təmsil edən çoxsaylı orqançılar Bakıda qastrol səfərində olub konsert proqramı ilə çıxışlar etmələrilə orqan musiqisinə və ifaçılığına marağı daha da artırdılar.

Sinifdə təhsil alan azərbaycanlı orqançılar, sonralar yaranan orqan və klavesin kafedrasının özəyini təşkil etdilər. Bu kafedra 1993-cü ildə professor Tahirə Yaqubovanın təşəbüssü ilə Bülbül adına ixtisaslaşdırılmış musiqi məktəbində və Bakı Musiqi Akademiyasının bazasında olan studiyada həm xüsusi, həm də fakültativ fənn kimi müstəqil orqan və klavesin sinfinin açılışından sonra yarandı. 1995-ci ildə orqan və klavesin təlim kursu xüsusi status alır və müstəqil kafedra kimi fəaliyyət göstərməyə başlayır.

Azərbaycanda ilk dəfə bəstəkar Q.Qarayev "İnsan məskən salır" kinofilmində və F.Qarayevlə birlikdə "Qoyya" kinofilmində orqan musiqisindən istifadə etmişdir.

Arif Mirzəyevin "Yanvar passionları" (20 yanvar şəhidlərinin xatirəsinə), "Üzeyir Hacıbəyli" ikinci orqan simfoniyası, "Dahi prezidentdə xatirə duaları", "Siciliana- Dambleyin uşaqlarına laylay" poeması, "Sarabanda" (Şahzadə Diananın xatirəsinə), "Nyu York Passionları" (Nyu Yorkda 2001-ci il, 11 sentyabr qurbanlarının xatirəsinə), bəstəkarın məşhur əsərləridir. Azərbaycanın və Rusiyanın görkəmli bəstəkarı və orqan ifaçısı A.Mirzəyev "İohan Sebastyan Baxın varisləri" beynəlxalq mükafatına layiq görülmüşdür.

-Qərbi Avropa mətbuatında Arif Mirzəyevi Şərqin Baxı adlandırırdılar;

-Aqşin Əlizadə - "Muğam sədaları", "Qoca xanəndə" orqan pyesi;

-Cəlal Abbasov – Qara Qarayevin xatirəsinə "Postlyudiya";

-Eldar Mansurov – orqan üçün "Muğam dəstgahı";

-Elnarə Dadaşova - "Süsən sünbül"xalq mahnısının 4 variasiyaları, orqan üçün "variasiyalar" (1998), "Segah üstündə", orqan üçün "fantaziya" (1998), "Xocalı laylası" (1999), "Etiraz" pyesi (2000);

- Firəngiz Əlizadə - orqan üçün "Fantaziya";

- Fərhəng Hüseynov - "Mərasimlər";

- İlyas Mirzəyev - "Sonata";

-Nazim Əliverdibəyov – "Bayatı Şiraz", "İçərişəhər lövhələri";

-Nazim Mirişli - "İki ofortu";

-Rəhilə Həsənəva - "Qəsidə" simfoniyası, "Səhra" fantaziyası;

- Rüfət Ramazanov - orqan və xanəndə üçün "And" (1999), "Avtoportret" poeması (1998);

-Sevda İbrahimova - poema "İthaf";

-Sərdar Fərəcov - N.Gəncəvinin xatirəsinə "Qəsidə";

-Vasif Adıgözəlov - "Muğam sonata";

-Zakir Bağırov - orqan üçün" improvizasiya və fuqa "(1973);

Azərbaycan bəstəkarlarının orqan üçün yazdıqları əsərlərdir. Orqan musiqisi dünya musiqi mədəniyyətində hələ də öz layiqli yerini tutmaqdadır.

## ƏDƏBİYYAT


1. Алексеев А.Д. История фортепианного искуства, москва "музыка" 1988
2. Azərbaycan sovet ensiklopediyası VII c. Bakı, 1983
3. Якубова Таира "король инструментов" Баку, 2005
4. https/ru vikipedia. orq. Орган (музыкальный инструменть)

**ABSTRACT**

**Vidadi Haydarov**

**KING OF INSTRUMENTS**

Organ as a musical instrument plays major role in the development of world music culture. The organ as a first instrument with a keyboard gave a great boost to the development of polyphonic music and many composers who were able to benefit from this tool were able to create geniuses. Organ music keeps its valuable place today.

**РЕЗЮМЕ**

**Видади Гейдаров**

**КОРОЛЬ ИНСТРУМЕНТОВ**

Рассматривается роль музыкального инструмента орган в развитии мировой музыкальной культуру. Будучи первым клавишным музыкальным инструментом, орган дал сильный толчок развитию полифонической музыки и многие композиторы, воспользуясь возможностями этого инструмента смогли создать гениальные произведения. Обосновывается мысль что органная музыка и сегодня сохраняет свое ценное значение и место.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ŞƏBNƏM ŞİRİNOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:785**

# SİMLİ ALƏTLƏRİN YARANMASI VƏ ORKESTRDƏ ROLU

**Açar sözlər:** *orkestr, musiqi, skripka, alt, violonçel, kontrabas*
**Key word:** *orchestra, music, violin, viola, violoncello, contrabass*
**Ключевые слово:** *оркестр, музыка, алт, скрипка, виолончель, контрабас*

Müasir simfonik orkestrdə və opera musiqisində aşağıdakı simli alətlər qrupundan istifadə olunur, skripka, alt, violonçel və kontrabas. Hansı ki, bu alətlər uzun təkmilləşmədən sonra meydana gəlmişlər. Simli alətlər qrupunun yaranma tarixi hələ dəqiqliklə öyrənilməyib. Belə ehtimal var ki, bu alətlərin vətəni Şərq olmuşdur.

Orkestr alətləri içərisində ən mühüm yeri simli alətlər tutur. Simli alətlər qrupu bütün orkestrin səslənməsi üçün əsas bünövrədir. Bu alətlərdə çalanlar orkestrin ön sırasında, tamaşaçıların gözü qarşısında, bilavasitə dirijorun qabağında yerləşirlər. Dirijorun sol tərəfində 1-ci skripkalar, sağ tərəfində 2-ci skripkalar, ortada violonçellər, bunların sağında altlar, solunda kontrabaslar yerləşir. Simli çalğı alətlər qrupu beş səsdən ibarətdir. Buna görə də simli qrupuna çox vaxt kvintet (beşlik) də deyilir. Simli çalğı alətlərinin hamısı formaca bir-birinə bənzəyirsə də, bir boyda olmur. Bu alətlər səsin tembrinə (xüsusiyyətinə) görə də bir-birinə oxşayır: onların çıxardığı bütün səslər bir-birinə yaxşı uyuşur və bəzən bütün simli alətlər qrupu böyük bir çalğı aləti kimi səslənir. Simli alətlər iki üsulla-kamanla və ya barmaqla (bəzən mizrabla) səsləndirilir və müvafiq olaraq kamanlı və mizrablı qruplara bölünürlər. Kamanlı-simli musiqi alətləri ailəsinin ən parlaq təmsilçisi skripkadır. Skripka növlü alətlər ailəsinə alt, violonçel və kontrabas daxildir.

**Skripka**- italyanca-violina, fransızca-viola, almanca-violini adlanır. Simli alətlərin ən kiçiyi skripkadır. Simli musiqi alətləri-simlərin səsləndirilməsi üsullarına görə növlərə bölünür. Skripka XVI əsrdə meydana gəlmiş, XVII əsrdə geniş yayılmışdır (https://az.wikpedia.org/wiki/skripka). Alətin gövdəsi taxtadan, simləri metaldan hazırlanır. Simçoku isə taxtadan, trosdan və at tükündən ibarətdir. Skripka simçok vasitəsilə çalınır. Bundan başqa bu alətlər simçoksuz, barmaq vasitəsilə də çalınır. Skripkanın 4 simi var:

I-mi
II-lya
III-re
IV-sol
Bu kvinta quruluşuna əsaslanır.
Mi simi-cingiltili
Lya simi-yumşaq, zərif
Re simi-gərgin
Sol simi-qalın gərgindir.

Skripka üçün not skripka açarında yazılır. Skripkada çalmaq üçün əsasən 4 barmaqdan istifadə olunur. Skripkada barmaqlar simlər üzərində yuxarı-aşağı hərəkət etməklə çalınır. Skripkada əsər ifasında 7 pozisiyadan istufadə olunur. Pozisiya sol əl barmaqlarının qrif üzərində dayanmasına deyilir. 8-ci pozisiyada məşhur skripka çalanlar əsərlər ifa edir. (1-ci simdə).

Skripka haqlı olaraq "çalğı alətlərinin padşahı" adlanır. Skripkanın səsi bütün çalğı alətlərinin səsinə nisbətən insan səsinə daha yaxındır. Bu gözəl çalğı alətinin ürəyəyatan xoş səsi insanın ən incə və səmimi duyğularına təsir göstərir. Skripkanın səsi ifadəli, zərif, melodikdir. Skripka dolğun və axıcı səslənən alətdir. Hərəkətinin itiliyinə və səlisliyinə görə ən çətin əsərləri

skripkada çalmaq olar. İnstrumental ansamblların və orkestrlərin əsas tərkib hissəsi və solo aləti kimi yayılmışdır. Orkestr üçün yazılmış əsərlərdə skripka çox vaxt solo partiyalarını ifa edir.

Onu da qeyd edək ki, alətin ümumi konstruksiyasının və bədii tərtibatının təkmilləşdirilməsində, onun ifa imkanlarının genişlənməsində məşhur İtaliya ustaları Andrea Amati, Cüzeppe Qvarneri və Antonio Stradivari mühüm rol oynamışlar. Tarixin ən məşhur skripka ustası Antonio Stradivari olmuşdur. Onun skripkaları hələ də ən məşhur skripkalardır və onların qiyməti milyonlarla ölçülür. Antonio Stradivarinin və onun ailəsi tərəfindən hazırlanmış skripka və mikro skripkalar dünyanın ən məşhur müzeylərində saxlanılır. Stradivarinin düzəltdiyi skripkalardan biri 1990-cı ildə auksiyonda 902.000 dollora satılmışdır. Bu, tarix boyu musiqi alətinin satıldığı ən böyük məbləğdir. Bu, məşhur ustalardan biri də Maqinini ailəsidir. Bundan başqa dünyada hal-hazırda məşhur olan "Amati" firması vaxtı ilə dünyada məşhur olan skripka ustası Amatinin şərəfinə qoyulmuşdur.

Skripka ifaçılığının dahi nümayəndələrindən biri də İtaliyada yaşamış Nikkolo Paqaninidir. Bir dəfə Paqaninin düşmənləri konsert ərəfəsində onun skripkasının simlərini zədələyir. Nəticədə çıxış zamanı alətin üç simi qırılır. Lakin buna baxmayaraq Paqanini salamat qalmış bircə simlə konsert proqramını həmişəki kimi qüsursuz ifa etmiş, hətta dinləyicilər bu hadisədən heç xəbər də tutmamışlar.

**Alt** – italyanca-viola, fransızca-alt deməkdir. Alt skripkadan azca iri olub, skripkaya nisbətən bəm səs çıxarır. Altı da skripka kimi ifaçı çiynində yerləşdirir. Altın səsi skripkanın səsi qədər zil olmayıb, bir qədər qalın çıxır. Alt öz səsinə görə skripka ilə violonçel arasında orta yer tutaraq, kvintetin zil və bəm səsləri arasındakı boşluğu doldurur. Alt alt açarında yazılır. Dörd simdən ibarətdir.



I-sim lya
II-sim re
III-sim sol
IV-sim do

Bu 4 sim kvinta üzərində köklənir. Altda çalma üsulları və ştrixləri skripkada olduğu kimi eyndir. Hər iki alətdə natura səsdən başqa eyni səs yaratmaq olur. Buna da flojeletto deyilir. Alta solo aləti kimi az rast gəlinir. Alt simli kvartetin vacib üzvüdür, kamera ansambllarında və simfonik orkestrdə istifadə olunur. Partiturada alt partiyası skripkanın partiyasından aşağıda yazılır. Yuri Başmet (Rusiya) dünyanın ən parlaq alt ifaçılarındandır. Alt, violonçel və kontrabas zahirən skripkadan o qədər də fəqlənmir. Sadəcə olaraq ölçüləri daha iri, simləri daha uzun və bunun nəticəsi kimi səsləri daha bəm olur.

**Violonçel** – italyanca-rello, fransızca-violonçello adlanır. Violonçel simli alətlərin bir növüdür. Skripka şəkilli alətlər ailəsinin böyük ölçüyə malik bir üzvüdür. Skripkadan sonra ən məşhur və ən çox sevilən simli çalğı aləti violonçeldir. Violonçelin də səsi skripkanın səsi qədər lətif və qüvvətlidir, lakin bu səs öz tembrinə görə skripkanın səsindən fərqlənir. Bu alətin atası viola da Gamba adı verilən 7 ədəd teli olan pərdəli bir alətdir. XVI əsrdə ilk nümunələri Fransada ortaya çıxan bu çalğının şəkli qadın bədənini xatırladır (https://az.wikpedia.org/wiki/violonçel). Violonçel aləti dizlər arasında saxlanılır və xüsusi "mil"in üstündə döşəməyə qoyulur. Violonçel simçokla çalınan simli musiqi alətidir. Başlanğıcda 5 teli olarq tərtib edilən bu alət əvvəllər orkestrdə bas səsləri dəstəkləmək üçün istifadə edilirdi. Tək başına diqqətə çarpan bir çalğı aləti olaraq ortaya çıxması isə XVIII əsrdə olmuşdur (https://az.wikipedia.org/wiki/violonçel). Violonçel dolğun, qalın səsə malik alətdir. 4 simdən



ibarətdir. Alt kimi köklənir. Volonçel əsasən əsərlərdə piççikato istifadə olunur. Bu ştrix violonçeldə olduqca gözəl səslənir. Violonçel solo aləti kimi ansambl və orkestrlərin tərkibində geniş istifadə olunur. Violonçel ümumiyyətlə, akustik olaraq istifadə edilən bir alətdir. Hər məkanda ifa oluna bilər. (açıq alan, konsert salonu və s). Orkestrdə violonçellə çox vaxt lirik və ya lirik-dramatik xarakterli melodiyalar ifa oluna bilər. Violonçelçalan sənətkarlar arasında dünya şöhrətli Mstislav Rostropoviçi xüsusi qeyd etmək lazımdır. Onu da qeyd edək ki, həmyerlimiz Mstislav Rostropoviçin atası Leopold Rostropoviç Azərbaycanda violonçel ifaçılıq məktəbinin təməlini qoymuş sənətkarlardandır.



**Kontrabas** – italyanca-basso, fransızca-vasso adlanır. Həcmcə ən böyük kamanlı-simli alət olan kontrabas ifaçıdan ayaq üstə dayanmış, ya da uca kürsü üstündə oturmuş halda çalmağı tələb edir. Kontrabas yayla çalınan müasir simli çalğı alətləri arasında ölçülərinə görə ən böyüyüdür, səslənmə dərəcəsinə görə isə ən aşağı registrə malikdir. Kontrabas tembrinə görə də ən qalın səsli simli kamanlı alətdir. Diapozonu kiçik oktavanın mi səsindən birinci oktavanın sol səsinə kimidir. 4 simdən ibarətdir.

I-sim sol
II-sim re
III-sim lya
IV-sim mi (kvarta dairəsi)

Musiqidə kontrabasın çox böyük rolu var. Kontrabas simfonik orkestrin fundamentini təşkil edir. Bas səsli partiyalar ifa edilərkən bu alət həmişə musiqi melodiyasının bünövrəsini yaradır. Orkestrdə dayaq nöqtəsi sayılan bas tonu yaratmaqdan ibarət olan əsas funksiyasından əlavə, kontrabasdan həm solo, həm də ansambl aləti kimi istifadə edirlər. Kontrabasda da violonçeldə olduğu kimi piççikato ştrixi gözəl səslənir. Alt və skripkanın partiyalarına baxmayaraq violonçel və kontrabasın partiyası çətin deyil, asan yazılır. Simfonik əsərlərdə isə musiqi əsərinin parçaları olur ki. I və II skripkalar arko çaldığı halda, violonşel və kontrabas piççikato çalır. Bu alətdə cəld və oynaq melodiyalar çalmaq çox çətindir: həm də kontrabasın uzun və yoğun simlərinin səsi skripka və violonçel simlərinin səsi qədər lətif və xoş deyildir. Buna görə də kontrabaslarla solo partiyaları çox nadir hallarda ifa edilir. Kontrabasın əsas vəzifəsi harmoniyaları növbələşdirməkdir. Kontrabaslar öz bəm səsi ilə bütün simli çalğı alətləri qrupunun bir növ bünörəsini təşkil edir. Caz janrında kontrabas geniş yayılmışdır.



Ümumiyyətlə, simli alətlər müasir dövrdə yüksək formalaşıbdır və bunun nəticəsidir ki, dünyada məşhurlaşmış simli alətlərdən ibarət orkestrlər mövcuddur.

## ƏDƏBİYYAT


1. В.Григорьев Методика обучения игре на скрипке. Классика XXI. 2006
2. Məktəblinin musiqi aləmi. Tərtib edən Rəşid Şəfəq. İşıq, 1986
3. Musiqi cəmiyyət məbədi. Bakı, Ayna mətbuat evi, 2004
4. https://az.wikpedia.org/wiki/skripka
5. https://az.wikpedia.org/wiki/alt
6. https://az.wikpedia.org/wiki/violonçel

7. https://az.wikpedia.org/wiki/kontrabas

**ABSTRACT**

**Shirinova Shebnem**

**CREATING OF STRINGED MUSICAL INSTRUMENTS**

According to voriety and viole spreding range stringed instruments have an exclusive place in the music culture of Azerbaijan. A number of stringed musical instruments had unexampled historical importance in the development of Azerbaijan music culture have comtributed to the creation of modern musical instruments from time to time and have reached these days. Stringed instruments hold the best important place among the orchestral instruments the band of stringed instruments are the basic foundation for the whole orchestra following stringed instruments are used in the modern symphonic orchestra and in opera music violin, alto, violinchel and in opera contrabas, which these instruments have appeared after a long improvement. Though all stringed music instruments are similiar to each after, their sizes are different. These instruments are similiar to each after in the sound characteristics, their all sounds harmonize withe each after and sometimes group of stringed instruments sounds like a big instruments. History of creation stringed instruments has not been yet accurately, studied. It is supposed that home country of these instruments were The East.

Generally in modern life stringed instruments hove been highly formed and as a result of it. There are famous orchestes consist of stringed instruments in the world.

**РЕЗЮМЕ**

**Шабнам Ширинова**

**СОЗДАНИЕ СТРУННЫХ ИНСТРУМЕНТОВ**

Струнные инструменты по своему распространенному ареалу и по виду имеют значительное место в Азербайджанской музыкальной культуре.

В развитет Азербайджанской музыкальной культуры занимает особое историческое незаменимое место множество струнных инструментов, которые на протяжении времени сказали свое впияние на возникновение современных музыкальных инструментов, дошеднии до наших дней.

Среди оркестровых инструментов самое важное место занимают струнные инструменты. Для звучания оркестра, группа струнных инструменты составляет важную основу. В современном симфоническом оркестре и в оперной музыке используются следующие струнные инструменты: скрипка, алт, виоленчел, контрабас которые возыикли в результате продолжительныо совершенствования.

Несмотря на то, что струнные инструменты похожи друг на друга, но по размеру они различны. Эти инструменты и по тембре похожи друг на друга. Иногда группа струнных инструментов звучат как один инструмент. История возникновения струнных инструментов еще точности не изучены. Предпологается что, место создания этих инструментов является Восток.

Вообще струнные инструменты в современном этот очень высоко формировались. В результате этого во всем мире существует усовершенствуюшиеся оркестры состаящих из струнных инструментов.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**SEVDA HÜSEYNOVA**
*Naxçıvan Dövlət Universiteti*
*gunelmamadova@yahoo.com*

**UOT 782/785**

# SOLFECİO TƏDRİSİNDƏ MUSİQİNİ EŞİTMƏ QABİLİYYƏTİ

**Açar sözlər:** *solfecio, musiqi, tədris, musiqi eşitmə qabiliyyəti, musiqili fəaliyyət, dinləyici refleksi, melodiya, ifaçı, musiqi təfəkkürü, tonallıq, lad.*

**Keywords:** *solfeggio, music, teaching, music training, musical activity, listening reflex, melody, performer, musical thinking, tonality, harmony.*

**Ключевые слова:** *сольфеджио, музыка, обучение, способность музыкального слушания, музыкальная деятельность, рефлекс слушателя, мелодия, исполнитель, музыкальное мышление, тональность, лад.*

Solfecio ilk növbədə bir sıra vərdişlərin inkişaf etdirilməsini nəzərdə tutan təcrübi fəndir. Əgər bu fənnin formalaşdığı ilk mərhələlərdə solfecio üzrə məşğələlər notdan oxumaya əsaslanırdısa, daha sonralar kursun məzmununa başqa formalı işlər, yəni eşitmə qabiliyyətini tərbiyə və inkişaf etdirməkdə mühüm rol oynayan eşitmə yolu ilə təhlil, imla, intonasiya məşğələləri, not üzündən oxuma kimi məşğələlər də daxil edilmişdir. Eşitmə qabiliyyətinin inkişaf problemi elmi cəhətdən hələ tamamilə işlənilib hazırlanmamışdır. Bu sahədə çox sayda musiqiçi-pedaqoqların cəmlənmiş təcrübəsi, metodika üzrə bir sıra elmi araşdırmalar mövcuddur. Musiqi qabiliyyəti və eşitmənin inkişafının qanunauyğunluqlarını aydınlaşdırmaq üçün akustika, psixologiya, fiziologiya, pedaqogika və estetikanın bu qabiliyyətlərin daha geniş və tam inkişafını təmin edən sahələrini müəyyənləşdirmək lazımdır. İnsan qabiliyyətini və fəaliyyətini, sinir sistemini öyrənən fiziologiyanın əsasları hər bir müəllim üçün əsas silah olmalıdır.

Musiqili yaradıcılıq prosesində, musiqi qabiliyyətinin inkişafında və musiqiyə məhəbbətin tərbiyə olunmasında musiqini eşitmə qabiliyyətinin rolu olduqca böyükdür. Musiqini eşitmə qabiliyyəti ifaçılıq aparatını hərəkət etdirərək, onu idarə edir, səsin keyfiyyətinə nəzarət edir və əsərin bədii obrazının canlandırılmasına şərait yaradır.

Musiqiçinin ən başlıca silahı eşitmə qabiliyyəti olduğundan solfecio fənninin əhəmiyyəti də olduqca böyükdür. Lakin belə düşünmək doğru deyil ki, eşitmə qabiliyyətini yalnız bu məşğələlərlə inkişaf etdirmək mümkündür. Tamamilə aydındır ki, istənilən formada musiqili fəaliyyət-musiqiyə qulaq asmaq və oxumaq, ayrı-ayrı alətlərdə ifa ümumilikdə musiqi qabiliyyətini və eşitməni inkişaf etdirir. Həqiqətən də solfecio məşğələləri zamanı eşitmə qabiliyyəti yeni ifaçılıq və texniki imkanlar sayəsində yüksək səviyyədə inkişaf edir. İş prosesində eşitmə qabiliyyətinin funksiyası əsasında bir çox üsullar tətbiq olunur və işlənilir. Bununla da eşitmə qabiliyyəti çoxtərəfli olaraq inkişaf etdirilir [1-5].

Musiqini eşitmə qabiliyyəti olduqca mürəkkəb və çoxşaxəli bir təzahür formasıdır. Belə ki, bəzi təhsil alanlarda melodik eşitmə qabiliyyəti yüksək olur, metroritm duyğusu zəif olur. Digərlərində harmonik eşitmə çox inkişaf edir, melodik eşitmə zəif olur və s. Musiqini eşitmə qabiliyyətinin keyfiyyəti onun bütün tərəflərinin inkişaf səviyyəsi ilə müəyyən olunur. Bu tərəfləri aydınlaşdırmaq çox çətindir, belə ki, onlardan biri digərini tamamlayır. Əgər melodik eşitmə qabiliyyətinə melodiyanı qavramaq və qəbul etməyin özünəməxsus qavrama qabiliyyəti kimi baxsaq, o zaman aydın olar ki, bu ritm duyğusu, lad əlaqəsi, verilən melodiyanın məntiqi inkişafını qavramaq qabiliyyəti olmadan mümkün olmayan bir təzahürdür. Lakin pedaqoji təcrübədə ümumilikdə eşitmə qabiliyyətini inkişaf etdirmək məqsədi güdən iş prosesində bu tərəflərə ayrı-ayrılıqda diqqət yetirmək şagirdlərin eşitmə qabiliyyətinin fərdi yönlərini aydınlaşdırır və keyfiyyəti artırır. Bu eşitmə qabiliyyətinin inkişafını düzgün istiqamətə yönəldir.

Musiqini eşitmə qabiliyyəti bir çox komponenti özündə birləşdirən mürəkkəb təzahürdür. Bu komponentlərdən əsas olanları aşağıdakılardır:

1. Səsyüksəkliyinə görə eşitmə, lad və metroritm duyğusu-onlar birlikdə melodik eşitmənin əsasını təşkil edir;

2. Akkordların fon rənglərini hiss etmək, çoxluq təşkil edən səslər bir vəhdətdə qəbul etmək, sistem, ansambl və funksional əlaqəni qavramaq bütün bunlar harmonik eşitmənin əsasını təşkil edir.

Nisbi eşitmə verilmiş lad və ya səsə görə intervalları və onların lad əlaqəsini hiss etmək, səsi qəbul edib ifa etməyi bacarmaqdır.

Kamil eşitmə isə hər hansı bir çıxış səsi ilə müqayisə etmədən səsin yüksəkliyini qavramaq və ifa etməkdir. Kamil eşitmə qabiliyyəti passiv, yəni tembr kriteriyalarına əsaslanaraq yüksəkliyi qavramaq qabiliyyəti formasında ola bilər. Belə bir qabiliyyətə malik olan insan müxtəlif alətlərdə ifa olunan səsləri tanıyır, lakin bu zaman o səsləri və ya tonallıqları sərbəst ifa edə bilmir. Aktiv kamil eşitmə qabiliyyəti olan insan sadəcə səsləri tanımır, eyni zamanda istənilən verilmiş və ya yazılmış yüksəkliyi ifa edə bilir.

Təcrübədə daha çox nisbi eşitmə qabiliyyəti ilə rastlaşmaq mümkündür. Təhsil öz qarşısında belə bir məqsədi əsas olaraq qoyur ki, kamil eşitmə qabiliyyətini inkişaf etdirmək musiqinin ayrı-ayrı elementlərinə deyil, onun özünə bir vəhdət olaraq yaradıcı münasibət bəsləməyi vacib şərt olaraq qəbul etməlidir. Buna görə də solfecio fənninin metodikasının əsasını nisbi eşitmə qabiliyyətini inkişaf etdirmək təşkil edir.

Musiqini eşitmə qabiliyyətinin çoxtərəfli və müxtəlif təzahürlərinin əsasını fizioloji istedadın üzə çıxarılması musiqiçinin psixikasının istiqaməti və aktivliyi, zəngin yaddaş və məntiqi düşüncə tərzi təşkil edir. Musiqini eşitmə qabiliyyəti musiqili fəaliyyət və xüsusi məşğələlər nəticəsində inkişaf edir. Şagirdin musiqini eşitmə qabiliyyətini inkişaf etdirmək üçün müəllim eşitmə qabiliyyətinin psixofiziologiyası haqqında ən az elementar biliklərə malik olmalıdır.

Musiqili fəaliyyətdə başlıca refleks münasibətə olan refleksdir. Pavlov belə düşünürdü ki, münasibətə refleks düşüncə elementlərini özündə birləşdirən fizioloji anlayışdır [6, 7]. Məlumdur ki, səsyüksəkliyi və bu kimi başqa münasibətlər musiqini eşitmə qabiliyyətinin formalaşmasında xüsusi çəkiyə malikdir. Eşitmə qabiliyyətinə münasibətdə reflekslərin əlaqəsinin təşkili eşitmə orqanına daxil olan səslərə münasibətdə bu səslərin kamil yüksəkliyi və gücündən asılı olmayaraq melodiyanı tanımaq imkanı yaradır. Musiqili fəaliyyətdə münasibətə reflekslərlə yanaşı spesifik musiqili reflekslər də mühüm əhəmiyyətə malikdir. Onlardan ən başlıcası dinləyici və ifaçılıq refleksləridir.

Dinləyici refleksi özünü bu kimi nümayiş etdirir. Dinləyici musiqi səsinin müxtəlif komponentlərini-yüksəkliyini, gücünü, tembrini, ölçüsünü və s. anlayır. Meydana gələn qıcıqlanmalar sadəcə eşitmə deyil, tamaşaçı və s. kimi müxtəlif analizatorlar tərəfindən paylanaraq, yaddaşda keçmiş izləri canlandırır, assosiasiya yaradır. Sonra ikinci həlqədə yenə alınmış qıcıqlanmaların analizi və sintezi baş verir. Bu beyin qabığında daha əvvəldən toplanmış qıcıqlanmalarla işin bərpası ilə uzlaşır. Və nəhayət üçüncü həlqədə çoxşaxəli reaksiya baş verir. Bu emosiya, jest, mimika, xəyalda nəğmə oxuma və bu kimi reaksiya olaraq qəbul edilir. Bu əsasda reaksiyanın daha fərqli sistemləri meydana gəlir.

İfaçı refleksi özünü səs aparatının və ya ifaçılıq prosesində iştirak edən başqa əzələlərin hərəkətverici reaksiyasının müxtəlif qıcıqlanmalara uzlaşdırılmış cavab sistemi olaraq büruzə verir. Bu ilk başda digər ifaçını təlqin etmədə üzə çıxır. Təlqin etmə prosesində qeyri-iradi qıcıqlanmanın dərəcəsindən asılı olmayaraq birinci və ikinci siqnal sistemi böyük və ya kiçik ölçüdə iştirak edir. Daha dolğun qıcıqlanma melodiyanı notsuz, eşitmə vasitəsilə oxumağa çalışıldığıdan üzə çıxır. Not ilə oxuma və ya ifa zamanı, qavranılma və qəbul mexanizmi fərqli olur. Belə ki, ilkin qıcıq ilk olaraq eşitmə deyil, görmə analizatorunda baş verir. Sonra o səslənmənin xəyalən təsəvvürünə keçir. Görüntü obrazları səslənməyə uyğun olan işarələrin çox sayda təkrarı prosesi ilə stimullaşır. Bu cür təkrarlanma beyin qabığında təmizlənmiş aydın yol açır. Daha sonra görmə və eşitmənin qarşılıqlı əlaqəsi nəticəsində not oxumanın başqa vərdişləri formalaşır.

Ümumi şərtlər əsasında musiqini eşitmə qabiliyyətinin üç əsas təzahürünü qeyd etmək olar. Qavrama, ifa və daxili təsəvvür. Burada biz yaradıcı fəaliyyətə musiqini eşitmə qabiliyyətinin işlədilməsinin təzahürü kimi baxırıq. Bu müasir dövrdə çox az öyrənilən olduqca əhəmiyyətli aspektdir.

Dərketmə və ya qavrama dinləyici refleksinə əsaslanır. Burada beyin qabığında reflekslərin əlaqəsi ilə daha əvvəlcədən toplanmış təcrübə xüsusi rol oynayır. Qavrama zamanı ikinci siqnal sistemi aktiv fəaliyyətə başlayır. O özünü musiqili səslənmənin elementlərinin anlaşılmasında və qavrama prosesində büruzə verir. Qavrama zamanı eyni zamanda münasibətə olan reflekslərdə aktiv olur. Beləliklə intervalların hiss edilməsi səs duyğusunun sintezi və onlar arasında müəyyən münasibətdə ortaya çıxır. Harmonik intervalları qavramaq prosesində yüzlərlə sintez ani olaraq baş verir. Bu artıq ilk mərhələdə qıcıqlanmanın iki mənbəyini yaradır. Bu ilk əvvəl qonşu xanalara yayılır. Daha sonra çıxış nöqtəsinə yönəlir. Bu zaman xanalar yeni aktiv fazaya keçir, bu da intervallılığın dərk olunması kimi qəbul edilir. Melodik intervalları qavrama zamanı yüksəklik sintezi aydın şəkildə zamanla əlaqəli genişlənir və ikinci səsdən yaranan qıcıqlanma artıq birinci səsin sönmüş qıcıqlanması ilə üst-üstə düşür. Məhz qıcıqlanmalara əsaslanan səs sintezi musiqi əsərini orqanik vəhdətdə qavramağı şərtləndirir. Əgər bu olmasaydı o zaman musiqi zamanla genişlənərək, qavramada minlərlə səs hissəciyinə parçalanardı.

M. Blinovanın qeyd etdiyi kimi səs vəhdətinin yaranması işində eyni zamanda metr və ritmin əsaslandığı səsin güc və uzunluq kimi xassələri də mühüm rol oynayır [1, 3]. Metrin fizioloji əsasını beyin tərəfindən qəbul edilən qıcıqlanmaların intensiv münasibəti təşkil edir. Ritmin fizioloji əsasında isə müxtəlif intensivliyə görə qıcıqlanmanın ayrı-ayrı uzunluqlarının sönmüş izləri yatır. Ayrı-ayrı səslərin uzunluqlarının anlaşılması hələ ritm duyğusu yaratmır. O qıcıqlanmanın ardıcıl sintezinə əsaslanan müvəqqəti səs nisbətlərinin mövcudluğu sayəsində təşkil olunur. Qavramaq üzərində işləyən müəllim diqqətə almalıdır ki, təqdimatın aydınlıq, ifadəliliyi və optimal həyəcan mənbəyi möhkəm mənimsəməyə səbəb olur. Buna görə də məqsədyönlü diqqət, problemin aydın qoyuluşu daha böyük əhəmiyyətə malikdir.

Dinləyici və ifaçı refleksi demək olar ki, bütün musiqi vərdişlərinin əsasında yatır. Vərdiş ifa prosesi zamanı meydana gələn şüurlu fəaliyyətin avtomatlaşdırılmış komponentidir. Müxtəlif vərdişlərə yiyələnmək üçün müəllim və şagird üçün məqsədyönlü iş mütləqdir. Başqa sözlə bu vərdişlərin formalaşması üçün nə etmək lazım olduğunu bilmək lazımdır. Eyni zamanda öz əməyinin nəticəsini qiymətləndirməyi də bacarmaq lazımdır. Hər zaman xatırlamaq lazımdır ki, bir deyil bir çox vərdişə yiyələnmək, onlardan səmərəli istifadə etməklə müəyyən sahədə müvəffəqiyyət qazanmaq və ustadlaşmaq olar.

Musiqini eşitmə qabiliyyətinin daha yüksək inkişaf pilləsi zamanı eşitmə haqqında təsəvvürlər daha aydın və sabit xarakter alır. Onlardan istifadə edərək musiqiçi notlarla sadəcə ayrı-ayrı elementlərin deyil, ona daha əvvəldən tanış olmayan bir əsərin belə bütövlükdə səslənməsini təsəvvür edə bilər. Musiqini eşitmə qabiliyyətinin bu cəhəti mövcud anda heç bir səs eşitmədən səslənməni təsəvvür etmək musiqili fəaliyyətin bütün sahələrində geniş şəkildə istifadə olunur.

İfaçılıq sahəsində daxili eşitmənin əhəmiyyəti olduqca böyükdür. Onun sayəsində ifaçı xəyalən musiqi əsərinin səslənməsini ifadan əvvəl və ifa zamanı təsəvvür edir. Bunun nəticəsində o real səslənməyə nəzarət edir. Musiqi əsərini bəstələmə prosesində, hətta musiqini eşitmə qabiliyyətinin bu xüsusiyyətinə ehtiyac olmadığını düşünüldüyü üçün dinləmə zamanı belə daxili eşitmə daha böyük mahiyyət kəsb edir. Daxili eşitmə olmadan heç bir musiqisevər ötüşə bilməz. Belə ki, o gah yeni eşitdiyi əsəri daha əvvəl eşitdiyi bir əsərlə müqayisə edir, gah da melodiyanın sonrakı inkişafını müəyyən etməyə çalışır.

Musiqili təfəkkürün mahiyyəti yeni musiqi informasiyasının işlənməsi, qiymətləndirilməsi və yaradılmasına əsaslanır. Musiqi təfəkkürünə aşağıdakı qabiliyyətləri aid etmək olar:

1. Başa düşmək və eşidiləni təhlil edərək adlandırmaq;

2. Xəyalən təsəvvür etmək, musiqi dilinin müxtəlif elementlərini daxilən eşitmək və bu təsəvvürlərlə işləmək;

3. Dinlənilən musiqini və səslənmənin keyfiyyətini qiymətləndirmək.

İntonasiyalı eşitmə musiqi qabiliyyətinin mühüm komponentlərindən biridir. Onun xüsusiyyəti müxtəlif yüksəklikli səsləri qəbul etmək, yadda saxlamaq və ifa etmək qabiliyyətidir. Solfecio probleminə kamil eşitmənin inkişafı, yəni ayrı-ayrı səslərin yüksəkliyini yadda saxlamaq daxil deyil. Solfecioda əsas diqqət səslər və melodiyaların əlaqələrinin öyrənilməsinə yönəlir. Buna görə də eşitmə qabiliyyətinin bu xüsusiyyətini yaxşı olar ki, intonasiyalı deyil, melodik eşitmə, məhz melodiyanı qəbul etmək, yadda saxlamaq, ifa etmək qabiliyyəti adlandıraq. Dinləyicinin dərk etməsi və müğənni ifaçılığında da münasibətə görə reflekslərin təşkili melodik eşitmə qabiliyyətinin psixofizioloji əsasıdır. Musiqiliyin ilk təzahürü məhz melodik eşitmə qabiliyyətidir. İntonasiya tərəfi melodik eşitmə qabiliyyətində böyük əhəmiyyətə malikdir. Melodik intonasiyanın inkişafında intonasiya melodik dövriyyə və səslənmənin təmizliyi və düzgünlüyü kimi qəbul edilir. İnterval, "do major sistemi" kimi köhnə sistemlərin səhvi məhz ondan ibarət idi ki, melodiyada səslərin lad əlaqəsini nəzərə almadan intonasiya dəqiqliyinə nail olmağa çalışılırdı [8-11].

Melodik eşitmə qabiliyyətinin səviyyəsi çox zaman melodiyanın ifasında dəqiq intonasiya ilə müəyyən olunur. Lad əsasına arxalanan intonasiya dəqiqliyi özünün spesifik tərəfinə malikdir. Musiqidə abstrakt təmiz səs yoxdur. Onun yüksəkliyi melodiyadakı başqa səslərə nisbətən yerindən, cümlədən, lad, harmonik, ritmik, struktur və dinamik əhatəsindən asılı olur.

İntonasiya ilə oxumağın təmizliyi üzərində iş solfecio kursunun ən çətin və vacib məsələlərindən biridir. Bu mürəkkəb proses musiqini eşitmə qabiliyyətinin və təfəkkürün müəyyən səviyyədə inkişafını tələb edir [12].

İntonasiyalı eşitmə qabiliyyətini inkişaf etdirməkdə istənilən intonasiyalı oxumanın əsası olan eşitmə qabiliyyəti təsəvvürlərini tərbiyə etmək böyük əhəmiyyət qazanır. Həqiqətən də əgər şagird yazılmış səssırasının necə səsləndiyini təsəvvür edə bilmirsə, o zaman səslənmənin düzgünlüyünü belə yoxlaya bilməz. Buna görə də solfecio dərslərində eşidiləni eşitmək, tanımaq və qiymətləndirmək oxumaq ilə bərabər böyük yer tutmalıdır. Bütün izah, anlayışlar, bütün yeni intonasiyalar ilk əvvəl eşidilməlidir sonra mənimsənilmənin çox sayda təkrarı ilə nəhayət sərbəst səslə oxumağa nail olunmalıdır. Bunun üçün öz oxuduğunu eşitmək və ona nəzarət etməyi bacarmaq xüsusilə vacibdir. Eşitmək və nəzarət etmək duyğusunu tərbiyə etmədən nə intonasiya ilə oxuma təmizliyində, nə də not ilə oxumada lazımi nəticələr əldə etmək mümkün deyil. Buna görə də səs obrazlarının yaddaşda toplanması olaraq dinləmə refleksinin inkişafı üzərində işləmək lazımdır. Təcrübədə tez-tez qarşılaşırıq ki, ifa eşitmə qabiliyyəti təsəvvürlərinin möhkəm bazasına malik olmadığına görə dəqiq ola bilmir. Bu onu göstərir ki, dərslərdə çox erkən oxumağa başlanılıb və bu zaman eşitmə qabiliyyəti haqqında təsəvvürlər möhkəmləndirilməyib. Təmiz oxuya bilmək üçün ilk növbədə düzgün eşitməyi bacarmalısan. Buradan belə bir nəticəyə gəlmək olar ki, melodik və intonasiyalı eşitmə qabiliyyətinin əsasında dinləmə və oxuma reflekslərinin tərbiyəsi durur.

Təcrübə göstərir ki, dəqiq və azad intonasiyalı oxuma üçün melodiyanın inkişaf xəttinin hiss etmək, əhəmiyyətli dərəcədə onun qrafik şəklini qavramaq-yuxarı və ya aşağı axıcı hərəkət, bir yerdən səsləri təkrar etmək, hərəkət istiqamətinin dəyişdirilməsini, sıçrayışın uzunluğunu, ayrı-ayrı quruluşların kulminasiya nöqtələrini müəyyən etmək böyük əhəmiyyətə malikdir. Buna görə də intonasiya eşitmə qabiliyyətini inkişafı üzərində işləyərkən hər vasitə ilə müşahidə və məkan təsəvvürləri arasındakını əlaqə və onların səs təcəssümünü möhkəmləndirmək lazımdır. Məlumdur ki, bir çox özfəaliyyət xorlarının rəhbərləri melodiyanı not savadı olmadan oxumağa cəhd göstərərək, "çubuq"la oxumağı təcrübədən keçirir. Bu əlaqə "bolqar sütunu"nda, manual və başqa sistemlərdə geniş tətbiq olunur [13-15]. Artıq qeyd edildiyi kimi relyativ sistemdə notların not sətrində öyrənilməsindən əvvəl melodiyanın qrafik təsviri təklif olunur. Bu melodiyanın tonal dəyişimi ilə oxuması zamanı daha sonra not sətrindəki vəziyyətindən asılı olmadan, məhz melodiya xəttinin müşahidə və məkan duyğusundan istifadə edərək səsləri relyativ sistemə görə söyləmək imkanı yaradır. Mətinlə not oxunuşu zamanı bu qabiliyyət oxumanın əsas prosesinə çevrilir.

Beləliklə intonasiyalı eşitmə qabiliyyətinin inkişafının metodik əsasları bunlardır.

1. Lad duyğusu və səslərin lad əlaqəsini tərbiyə etmək;

2. Musiqi dili elementlərinin eşitmə qabiliyyəti təsəvvürlərini öyrənmək və möhkəmləndirmək;

3. Düzgün oxuma vərdişlərini hazırlamaq;

4. Oxumada təcəssüm etdirə bilmək üçün eşitmə qabiliyyəti təsəvvürləri və biliklərini işlətmək bacarığı;

5. Eşitmək və nəğmənin keyfiyyətini qiymətləndirmək bacarığı.

**Nəticə:** Musiqini eşitmə qabiliyyətinin bəzi psixofizioloji xüsusiyyətlərindən nəticə çıxararaq, qeyd edə bilərik ki, uğurlu pedaqoji iş üçün istənilən inkişaf prosesini idarə edən müəyyən psixofizioloji qanunları bilmək vacibdir. Musiqili qabiliyyətin inkişafında Pavlovun şərti və qeyri-şərti reflekslər haqqındakı elmi nəzəriyyəsinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu elm müəllimə dərs prosesini ardıcıl və düzgün təşkil etməkdə kömək edir. Musiqini eşitmə qabiliyyətinin müxtəlif təzahürləri arasında sintez etmək, differenləşdirmə, yəni düşünmək imkanı qazandıran daxili təsəvvür, daxili eşitmə ən təqdirə layiq olanıdır. Musiqili təfəkkür daxili təsəvvürə, təcrübəyə, yaddaşda səs obrazlarının ehtiyatına, assosiasiyalar yaratmağa, ümumiləşdirməyə kömək edən biliklərə əsaslanır. Musiqili təfəkkür eşidiləni qiymətləndirmək və qavramaq, musiqi dili elementlərini xəyalən təsvir etmək və eşitmək, oxumaq, yəni yazılan musiqini eşidə bilmək imkanı yaradır. İnkişaf etmiş musiqini eşitmək qabiliyyəti bütün musiqili fəaliyyətlər üçün mühüm əhəmiyyətə malikdir. Yalnız səslənməni sezmək, musiqili eşitmə anlayışları ilə işləmək ifa olunana yaradıcı yanaşmağı təmin edərək, ifa keyfiyyətinə nəzarət etməni mümkün edə bilər.

## ƏDƏBİYYAT


1. Blinova M. "Şagirdlərin musiqi tərbiyəsinin bəzi sualları". M-L., 1964
2. Qlinka M . "Səsi mükəmməlləşdirmək üçün məşğələlər, ona aid metodiki tövsiyələr və solfecio vokalizləri". M-L., 1951, s. 8
3. Rəcəbov O. "Orta məktəblərdə musiqi fənninin tədrisi haqqında"- məqalə. Azərbaycan, 2010
4. Алексеев А. Д. Работа над музыкальным произведением с учениками школы и училища. М., 1957
5. Амрахова А. А. Шенберг и мировая культура XX века // Мир музыки, № 2
6. Павлов И. П. Двадцатилетний опыт объективного изучения высшей нервной деятельности (поведения) животных. М., 1951
7. Брейтбург А. Значение физиологического учения академика И.П. Павлова для музыкальной педагогики и музыкального исполнительства. В кн. Вопросы музыкознания, вып. 1, Москва, 1954
8. Агажанов А., Блюм Д. Сольфеджио. Москва, 1972
9. Агажанов А. Курс сольфеджио. Москва, 1965
10. Алексеев Б. Гармоничное сольфеджио. Москва, 1966
11. Антошина М., Артамонова Е. Сольфеджио. Москва, 1964
12. Виноградов Н. Интонационные трудности. Киев, 1977
13. Дмитревская К. О преподавании четырехголосного гармоничного сольфеджио. Москва – Ленинград, 1964
14. Драгомиров П. Учебник сольфеджио. Москва, 1965
15. Дубовский И. Методический курс одноголосного сольфеджио для музыкальных училищ. Москва, 1939


## ABSTRACT

**Sevda Huseynova**

## MUSIC TRAINING IN SOLFEGGIO EDUCATION

The article talks about the ability of musical ear in the teaching of solfeggio. Currently, the practice of teaching solfeggio is a heterogeneous picture. Within the framework of vocational education, a considerable number of different traditions and directions are working and developing, new methods are being formed, new ideas are being discussed. The musical ear is the main instrument of the musician, the value of the solfeggio object is very great. A well-developed

musical ear allows a person to perceive and realize music, to experience it, to creatively create it in performance. These tasks are the ultimate goal of music education. The article talks about the absolute rumor that is the ability to recognize and reproduce the pitch of sounds without comparison with any original sound. The most important reflexes for musical activity are reflexes to relationships. In musical activity, alongside with reflexes to relations, specific musical reflexes are also developed, the most important of which are listening and performing. The listener's reflex is manifested by the trapping, perception of various components of the musical sound. The executive reflex manifests itself as a coordination system of motor reactions of the vocal apparatus in response to various stimuli. The essence of musical thinking is in the processing, evaluation and creation of new musical information. From the various manifestations of musical ear the most important is the process of internal representations, which makes it possible to differentiate, synthesize, or think differently.

**РЕЗЮМЕ**

**Севда Гусейнова**

**СПОСОБНОСТЬ МУЗЫКАЛЬНОГО СЛУХА
В ОБУЧЕНИИ СОЛЬФЕДЖИО**

В статье говорится о способности музыкального слуха в обучении сольфеджио. В настоящее время практика преподавания сольфеджио представляет собой неоднородную картину. В рамках профессионального образования действует и развивается немалое число различных традиций и направлений, формируются новые методики, обсуждаются новые идеи. Музыкальный слух – главное орудие музыканта, постольку значение предмета сольфеджио очень велико. Развитый музыкальный слух дает возможность человеку воспринимать и осознавать музыку, переживать ее, творчески как бы создавать при исполнении. Эти задачи и являются конечной целью музыкального образования. В статье говорится об абсолютном слухе, что является способностью узнавать и воспроизводить высоту звуков без сравнения с каким-нибудь исходным звуком. Важнейшие для музыкальной деятельности рефлексы это рефлексы на отношения. В музыкальной деятельности наряду с рефлексами на отношения вырабатываются также специфические музыкальные рефлексы, важнейшие из них – слушательский и исполнительский. Слушательский рефлекс проявляется улавливанием, восприятием различных компонентов музыкального звука. Исполнительский рефлекс проявляет себя как координационная система двигательных реакций голосового аппарата в ответ на разные раздражители. Сущность музыкального мышления состоит в переработке, оценке и создании новой музыкальной информации. Из различных проявлений музыкального слуха самым существенным оказывается процесс внутренних представлений, дающий возможность дифференцировать, синтезировать, иначе мыслить.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ZEMFİRA BABAYEVA**
*Naxçıva Dövlət Universiteti*

**UOT:785**

# BƏSTƏKAR ÖMRÜ

**Açar sözləri**: *bəstəkar, musiqi, yaradıcılıq, pedoqoq, mədəni həyat*
**Key words**: *Composer, music, creativity, teacher, cultural life*
**Ключевые слова:** *композитор, музыка, творчества, педагог, культурная жизнь*

Əgər, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Asəf Zeynallı olmuşdursa, Azərbaycan musiqisinin sonrakı inkişafına Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Niyazi kimi sənətkarlar yeni vüsət vermişlər. Bu inkişaf ictimai – siyasi həyatın, məişətin, mədəniyyətin yaxın günümüzə kimi gəlib çatmasında mühüm rol oynamışdır.Beləliklə, onlar öz əsərlərində tarixi hadisələri, qəhrəmanları, onların göstərdikləri igidlikləri, yasadıqları dövrün gözəl və mənfi xüsusiyyətlərini vəsf etmişlər .Bu gün onlar musiqi dilini tətqiq etməkdə, müxtəlif dövrlər haqda məlumat almaqda bizə kömək edir. Onların sayəsində musiqinin gözə görünməyən sehrli qüvvəsi isə hamiya bəllidir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bəstəkarlıq məktəbi də bu inkişafdan geri qalmamışdır.

Naxçıvan diyarı musiqi sənətinə Ramiz Mirişli, Nəriman Məmmədov, Məmməd Məmmədov, Rəsid Məmmədov, Məmməd Ələkbərov, Səidə Məmmədova kimi bəstəkarlar bəxş etmişdir. Bu mənada Naxçıvan bəstəkarlarının böyük və zəngin təməli vardır.

Sizə söhbət açacağımız - Naxçıvanda yaşayıb yaradan bəstəkarlardan biri də Kamal Əhmədovdur.

Musiqi təhsilini Naxçıvanın ilk musiqi məktəbi olan 1 saylı musiqi məktəbində alan Kamal Əhmədovun ilk ixtisas müəllimi, tanınmış bəstəkar Rəşid Məmmədov olmuşdur.Onun dərs aldığı müəllimlər sırasına nəzər saldıqda görürük ki, onlar dövrünün tanınımış ifaçıları və bəstəkarları olmuşlar.Muğam dərsini Yusif Əliyev, Vahid Axundov, nəzəriyyə üzrə isə Məmməd Ələkbərovdan dərs almışdır.

Gözəl musiqi duyumuna malik olan bəstəkar 1967-ci ildə Asəf Zeynallı adına Musiqi Texnikumunun tar sinfinədaxil olur.Muğamin sirlərini Əhməd Bakıxanovdan alan Kamal Əhmadovun bəstəkarlıq sənətinə marağı artır. O illərdə fortepiano üçün yazdığı kiçik prelüdlər və pyeslərlə yaddaşlarda qalmışdır.

Qetd etmək yerinə düşər ki, K.Əhmədov yaradıcılığında fortepiano mühüm yerlərdən birini tutmuşdur.

Təhsil illərində yaradıcılığı səmərəli olmuşdur.Fortepiano üçün ``Prelüdlər``, ``Prelüd və fuqalar``, ``Mövzu və fuqalar``, ``A capella`` və ``Fuqa`` əsərləri bunun bariz nümunəsidir.

Tar üçün Sonata, truba üçün Mövzu və variasiyalar, simli ansambl üçün üçsəsli Kvartet və başqa əsərləri onun professional yaradıcılğının ilk dövrünü əhatə edir.

1973-cü ildə Asəf Zeynallı adına Musiqi Texnikumunu başa vuran bəstəkar ilk pedoqoji fəaliyyətinə Ordubad şəhər Uşaq Musiqi məktəbində başlayır .Yüksək yaradıcılıq xüsusiyyətinə malik olan Kamal müəllim, məktəbdə uşaqlardan ibarət Xalq çalğı alətləri orkestri təşkil edir.Eyni zamanda bəstəkarlıq fəaliyyətini davam etdirərək xalq mahnı və rəqslərinin orkestr işləmələrini ərsəyə gətirir. Pedoqoji fəalijjətini həm Ordubad, həm də Naxçıvan musiqi məktəblərində davam etdirdikdən sonra 1976- cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şöbəsinə daxil olur.Həm ifaçılıq, həm də yaradıcılıq xüsusiyyətinə malik olan bəstəkar fakultetiv olaraq, professor Afaq Cəfərovadan dərs almağa başlayır. Konservatoriyada təhsil illəri onun yaradıcılığına müsbət təsir göstərir. Bu illərdə fortepiano üçün “Prelüdlər”,

”Sonata ” yazır.Bəstəkar yaradıcılığına olan həvəs və istedad onu 1979-cu ildə fərq imtahanı verərək Bəstəkarlıq fakültəsinə gətirib çıxarır. Xoşbəxtlikdən Xəyyam Mirzəzadənin sinfinə düşməsi K.Əhmədov həm həyatında, həm də yaradıcılğında böyük dönüş yaradır.X.Mirzəzadə həm klassiklərin, həm Azərbaycan bəstəkarlarının, həm də fərdi üslubunu yaratmaqla ona kömək edir.

Konservatoriya təhsil illəri onun yaradıcılığını hərtərfli inkişafına təsir göstərir. Vaxtaşırı keçirilən konsertlərdə, bəstəkar əsərlərindən ibarət proqramlarda onun da əsərlərinin ifası bəstəkara müəllim və tələbələrin rəğbətini qazandırmışdır. Bu illəri onun yaradıcılığının zirvəsi hesab etmək olar. Diplom işi olaraq simfonik orkestr üçün yazdığl “Cavid” simfonik poeması ona böyük uğur gətirir. Bu nailiyyət ona ikiqat uğur, ikiqat müvəffəqiyyət gətirir. 1988-ci ilin oktyabr ayında Krım vilayətinin Soçi şəhərində “Cavid ” simfonik poemasının premyerası olur.Əsər Ukrayna SSRİ- nin xalq artisti AQ.F. Qulyanskinin idarəsi ilə Krım Dövlət Orkestrinin ifasında səslənmişdir. Əsərin premyerası üçün müəllif Yalta şəhərinə dəvət olunmuşdur.( C.Vəzirov.J .Əliyeva.``Sözlü nəğməli Naxçıvan`` səh.132)

“Sovetski Krım” qəzetinin 4 oktyabr l988 – ci ildəki nömrəsində Krım Dövlət Filarmoniyasının musiqi redaktoru “Cavid ” simfonik poemasının uğurlu ifasından bəhs edərək, K.Əhmədovun yaradıcılığını qısaca təhlil etmişdir. Həmyerlimizin bu nailiyyəti bizə qürur hissi yaşadır.

1985-ci ildə Azərbaycan Konservatoriyasının bəstəkarlıq fakültəsini bitİrən Kamal Əhmədov Naxçlvana gələrək, burada yeni yaranmış Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində çalışır.Beləliklə bəstəka yaradıcılığının əsas hissəsini Xalq Çalğı Alətlərin Orkestri ilə bağlamış, orkestr üçün müxtəlif səpgili əsərlər yazmış, transkripsiyalar və işləmələr etmişdir.

1985-ci ildən 1997-ci ilədək Naxçıvan Dövlət Filarmoniyasının Xalq Calğı Orkestrinin yaranmasında və formalaşmasında böyük əməyi olan Kamal Əhmədovun idarəsilə bu orkestr Bakı və Sumqayıt şəhələrində dəfələrlə müvəffəqiyyətli konsertlər vermişdir. Xalq Çalğı Alətləri Orkestrinə dərindən bələd olan Kamal Əhmədov bir sıra orkestr əsərləri yazmışdır . Bu baximdan ``Cəngi``, ``Süita``, ``Naxçıvan eskizləri``, ``Rekviyem`` kimi əsərləri özünəməxsusluğu ilə fərqlənir.

Xalqimizin 20 yanvar müsibəti- Azərbaycanın azadlığı uğrunda həlak olmuş vətən övladlarının xatirəsinə həsr olmuş ``Rekviyem `` Xalq Çalğı Alətlərinin janr xüsusiyyətini aşaraq simfonikliyi ilə diqqəti cəlb edir. Qeyd edək ki, bu əsər ``Şəhidlər `` simfoniyası adı ilə televiziya və radio dalğalarında səslənmişdir.

Bəstəkarın yaradıcılığı orkestr üçün yazdığı əsərlərlə məhdudlaşmır.O, eyni zamanda vokal, instumental və simfonik əsərlərin də müəllifidir.Müxtəlif səpgili pyeslər, priüdlər, variasiyalar, sonatalar və başqa əsərlərin müəllifidir. Bu mənada fortepiano üçün ``Prelüdl``, ``Fuqalar``, ``Variasiya``, tar üçün ``Sonata``, simli alətlər üçün ``Kvartet`` və başqa əsərləri təsirli və orijinaldır. Kamal Əhmədovun vokal musiqisinə müraciəti, gözəl nəğmələrin və xor əsərlərinin yaranmasına bir vəsilə olmuşdur.Belə ki, onun qarışıq xor üçün yazdığı ``Fuqa``və bir birini təkrar etməyən dəyərli melodiyaya malik olan mahnilarında doğma vətən, onun füsunkar təbiəti, xalqin mənəviyyatı və duyğuları tərənnüm olunur. Bir şeyi qeyd etmək yerinə düşər ki, K.Əhmədovun mahnı yaradıcılığı demək olar ki, Naxçıvanlı şairlərin şeirlərinə yazılmışdır.M.Nəsirlinin sözlərinə ``Qoşa çinar``, Y.Şirinoğlunun sözlərinə ``Saçlarıma qar da yağdı``, ``Gözlərinə baxan zaman``, Q.Maqsudovun sözlərinə ``Zəfər mahnısı``, ``Anacan``, Rövşən Əhmədin sözlərinə ``Milli ordumuz``, Tərifə Şükür qızının sözlərinə ``Bənövşə`` digər şairlərin sözlərinə ``Unutdun məni``, ``Kaman səsi``, ``Bu yolu seçdim``, ``Keşmə`` və başqa mahnılar bəstələmişdir. ``Azadlıq türküsü``, ``Sevdam``, mahnılarının sözləri isə bəstəkarın özünə məxsusdur.

Kamal Əhmədovun simfonik janrda yazılmış maraqlı əsərlərindən olan ``Simfoniya `` musiqisevərlər tərəfindən çox böyük maraqlq qarşılanmışdır. Keçmiş SSRİ Bəstəkarlar İttifaqının üzvü olan Kamal Əhmədov uzun illər Azərbaycan bəstəkarlar İttifaqı, Naxçıvan Bəstəkarlar Təşkilatının məsul katibi olmaqla yanaşı, Naxçıvan Dövlət Universitetində pedoqoji fəaliyyətini də davam etdirir. Kamal Əhmədovun musiqi irsi geniş və çoxşaxəlidir. Özünəməxsus yaradıcılıq üslubu olan bəstəkar, müxtəlif yaradıcılıq mərhələlərindən keçərək, daha da inkişaf

etmiş və özünəməxsus bəstəkar üslubu yaratmışdır. Bu isə onun istər mahnı, istər vokal, itərsə də simfonik yaradıcılığında özünü əyani surətdə nəzərə çarpdırır.

Kamal müəllim bu gün Naxçıvan Dövlət Universitetinin bəstəkarlıq fakültəsində gənc bəstəkarların yetişməsində, onların özünü təsdiq etməsində, yeni musiqi yaranmasında əlindən gələni əsirgəmir. Bu işdə ona yeni yeni yaradıcılıq uğurları diləyirik.

## ƏDƏBİYYAT


1. Ələkbərova Ə. Musiqi türkologiyasının zəfər yürüşü Naxçıvandan başladı //Musiqi dünyası - 2003, N 4.
2. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası - 90: Quruculuq salnaməsi. – Naxçıvan, "Əcəmi" nəşriyyatı, 2014. – 184 s. - 127 - 7. Qulamova J. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarında musiqisinin rolu və əhəmiyyəti.– B.: Mars-print, 2011. – 200 s.
3. Qulamova J. Naxçıvan Muxtar Respublikası bəstəkarlar təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu. – B.: Mars-print, 2010. – 134 s.
4. Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən. – B., Elm, 1999, 140 s.
5. Quliyeva A.A. Türk aləmində Naxçıvan musiqi mədəniyyəti: Sənətşünaslıq üzrə f.d....dissertasiya. – Naxçıvan, 2011, 169 s.
6. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı – 30 (1978-2008): buklet. – Naxçıvan, 2008.
7. Vəzirov C., Qulamova J. Sözlü, nəğməli Naxçıvan: məqalələr toplusu. – B.. Sabah, 2003.


## РЕЗЮМЕ


**Земфира Бабаева**

**СТРАНИЦЫ ИЗ МИРА МУЗЫКИ КОМПОЗИТОРОВ НАХИЧЕВАНА**

В стате представленной Земфирой Бабаевой, реч идет о культурной жизни Нахичеванской Автономной Республики .Статья представляет собой основные направления композитора Камала Ахмедова .Автор рассматривает сущность проделанной им работы, композиторский и научно –педагогической деятельности, в развитии, нашей музыкальной культуры, вокальные и инструментальные произведения написанные в разное время композитора .


## ABSTRACT


**Zemfira Babayeva**

**PAGES FROM THE MUSIC WORLD OF NAKHICHEVAN COMPOSERS**

In the paper prezented Zemfira Babayeva the author talks about the cultural life of the Nakhicevan Autonomous Republic, as the work of its compozers. That includes, a detailed analysis of composer Khamal Ahmadov which is reflected here. Standinq on his compozinq and scientifiq-pedoqoical work, on thi nature activitu in development of our musical culture, vocal and instrumental compozers compozed by his in a different times.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**FİZZƏ QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*fizze25@mail.ru*

**UOT:7.04**

# ŞAMİL QAZIYEVİN ƏSƏRLƏRİNDƏ KÖHNƏ NAXÇIVANIN TƏSVİRİ

**Açar sözlər:** *qədim Naxçıvan, Şamil Qazıyev, rəssam, teatr, rəsm əsəri*
**Key words:** *old Nakhchivan, Shamil Gazyev, artist, theater, work of art*
**Ключевые слова:** *старый Нахчыван, Шамиль Газыев, художник, театр, художественное произведение*

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üçün əlamətdar olan 2018-ci il, sənətsevərlər, xüsusilə Şamil Qazıyev yaradıcılığının vurğunu olanlar üçün də uğurlu illərdən biri oldu.

Ş.Qazıyevin albom-kataloqunun nəşr olunması, sərgisinin təşkil edilməsi, "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 1 fevral tarixli Sərəncamı (3, s. 1) görkəmli sənətkarın yaradıcılıq ənənələrinin yaşadılması, təbliği, gələcək nəsillərə çatdırılması yolunda ən qiymətli töhfədir. Bu sərəncam muxtar respublikamızda sənət adamlarına göstərilən yüksək dövlət qayğısının ifadəsidir. Nəcib insani xüsusiyyətlərə malik olan Şamil Həsən oğlu Qazıyevin taleyi, qisməti elə gətirir ki, onun ömür yolu üç şəhərlə bağlı olur. 1908-ci ildə qədim İrəvan şəhərində dünyaya göz açan, saf uşaqlıq illərini dədə-baba torpaqlarımızda keçirən Şamil on iki yaşında ikən ailəsilə Naxçıvana köçür. Bu diyarda o, heç özü də bilmədən, planlaşdırmadan böyük ustadı Bəhruz Kəngərli ilə qarşılaşır. O, Naxçıvan Dövlət Dram Teatrında çalışdığı 14 il ərzində "Şeyx Sənan", "Leyli və Məcnun", "Qaçaq Nəbi", "Həyat", "Otello", "Hamlet" və s. onlarla tamaşanın rəssamı olur (2, s. 646). Bugün muzeylərdə, şəxsi kolleksiyalarda qorunan "Köhnə Naxçıvan" silsiləsini yaradır. 1929-cu ildə Naxçıvan Pedoqoji Texnikumunda rəsm müəllimi işləyərkən ürəyində olan arzusunu reallaşdırmağa nail olur. Belə ki, 1939-cu ildə onun şəxsi təşəbbüsü ilə Naxçıvanda rəssamlıq məktəbi açılır. Lakin bu məktəb müharibənin başlanması səbəbindən cəmi iki il fəaliyyət göstərdikdən sonra bağlanır. Elə həmin illərdə, daha dəqiq desək 1944-cü ildə Şamil Qazıyev hərtərəfli yaradıcılıq fəaliyyətinə görə muxtar respublikada ilk dəfə olaraq yenicə təsis olunmuş "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür. Ömrünü, ən gözəl gənclik illərini sənətə həsr etmiş fədakar rəssam yaradıcılığının zirvəsində olmasına baxmayaraq övladlarının təhsili ilə əlaqədar 1948-ci ildə Bakıya köçmək məcburiyyətində qalır. Ömrünün sonunadək "Azərbaycan gəncləri" qəzetində işləyir. Yaradıcılıq salnaməsində dərin iz buraxmış Naxçıvan mühiti, doğma teatr, sənət qayğısı ilə dolu gənclik illəri rəssam üçün çox müqəddəs olmuşdur. Məhz elə bu səbəbdən Bakıda yaşamasına və işləməsinə baxmayaraq, ömrünün sonuna bir il qalmış – 1978-ci ildə Naxçıvanda fərdi sərgisini təşkil etmişdir.

Azərbaycanın görkəmli rəssamı, "Naxçıvan rəssamlıq məktəbi"nin yetirməsi, Şamil Qazıyev Bəhruz Kəngərli irsinin davamçısıdır. "Qaçqınlar", "Şəlalə", "Kəndə gedən yol", "İmamzadə", "Qızlar bulağı", "İlanlı dağ" və s. rəsm əsərləri Bəhruz Kəngərli yaradıcılığından bizə məlumdur. Şamil Qazıyevin də rəsm əsərlərində bu mövzulara rast gəlmək mümkündür. Onun "Köhnə İmamzadə", "Qaçqınlar", "Qızlar bulağı", "Şəlalə" və s. əsərləri bu qəbildəndir. Bəhruz Kəngərlinin istər teatr, istərsə də rəngkarlıq sahəsində, yolunu davam etdirən Şamil Qazıyev ustadının irsinə sadiq şəkildə fəaliyyət göstərmişdir. Hər zaman çalışmışdır ki, müəlliminin adını uca tutsun.

Şamil Qazıyevin ustadı, müəllimi Bəhruz Kəngərli ilə qarşılaşması da olduqca maraqlıdır. Bu haqda görkəmli ədəbiyyatşünas alim M.Cəfərov yazır: "Bəhruz bir dəfə (1919-cu ildə) Naxçıvanda Puşkin küçəsində, yol kənarında balaca bir otaqda əsərlərinin sərgisini düzəltmişdi. O, qapının ağzında dayanıb, yoldan ötənləri çağırırdı ki, gedib onun sərgisinə baxsınlar. Ancaq o gün böyüklərdən, yaşlılardan heç biri sərgiyə baxmaq istəmirdi. Bu arada bir neçə uşaq küçədə oynaya-oynaya rəssama yaxınlaşdılar.

Bəhruz onları mülayim baxışları ilə qarşıladı. Həmişə azca titrəyən səsilə uşaqları dilə tutub sərgiyə apardı. O, bir-bir əsərlərini göstərib həvəslə uşaqlara izah verirdi və ara bir gülümsəyib deyirdi: "Əl vurmaq olmaz, olmaz əl vurmaq". Mən həmişə üzü tutqun, qaşları çatılmış rəssamı birinci dəfə burada gülümsəyən gördüm" (4, s. 1).

Şamil Qazıyevin Bəhruz Kəngərlinin layiqli yetirməsi olduğunu sənətşünaslıq doktoru Kərim Kərimov da qeyd etmişdir.

Bu gün köhnə Naxçıvanımızı yalnız foto-şəkillər, kino-kadrlar vasitəsilə deyil Şamil Qazıyevin tablolarında da görür, onların bədii təcəssümünü fəxrlə seyr edirik. Bu cəhətdən onun əsrarəngiz tabloları olduqca diqqətəlayiqdir. Rəssamın hər bir tablosu Naxçıvan tarixindən bir səhifədir desək, yanılmarıq. Tabloları seyr etdikcə XIX-XX əsr Naxçıvan şəhərindəki küçələrin, evlərin görünüşü, insanların geyimləri, məişəti, adət-ənənələri kino-kadr kimi gözümüzün önündə canlanır. Əsərlərindən birində Naxçıvan hamamlarının daxili quruluşu, köhnə Naxçıvan sakinlərinin geyimi, hamamda çimmək adət-ənənəsini canlandıran rəssam sanki bizə tarixdən bir parça yadigar qoymuşdur.

Saf Naxçıvan təbiəti, doğma diyarın leytmotivləri Şamil Qazıyev yaradıcılığının ana xəttini təşkil edir. Naxçıvan diyarının, təbiətinin vurğunu olan rəssam doğma yurdunu sonsuz məhəbbətlə sevmiş, Vətənini boyalarla, əlvan rənglərlə vəsf etməkdən doymamışdır. Rəssamın Naxçıvanın tarixi, təbiəti, adət-ənənələri, həyat və məişətilə bağlı çəkdiyi "Çoban", "Xırmanda", "Qalayçılar", "Dəyirman", "Lavaşyapanlar", "Qaçqınlar", "Çarıqçılar", "Öküzlərin nallanması", "Örtülü bazar", "Naxçıvan hamamı", "İnqilabaqədərki Naxçıvan", "Naxçıvanda köhnə həyət" kimi əsərlər keçmiş tariximizin və mədəniyyətimizin öyrənilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Etnoqrafik xüsusiyyətləri əks etdirmək baxımından dəyərli olan əsərlərindən "Lavaşyapanlar", "Çarıqçılar", "Qalayçılar", "Öküzlərin nallanması" bizi bir anlıq köhnə Naxçıvan küçələrinə aparır. Atların ayaq səsləri, insanlarla dolu, səs-küylü küçələrin kənarında oturub öz işini görən sənətkarlar və sair epizodlar rəssamın insan əməyinə duyduğu heyranlığının təcəssümüdür. Adət-ənənəyə bağlılıq, Vətəni sevmək, ailəsinə bağlılıq ona atasından bir miras idi. Ziyalı ailədə doğulan rəssamın dünyagörüşünün formalaşmasında atasının əvəzsiz rolu olub. Rəssamın atası Həsən Xəlil oğlu Qazıyev İrəvan quberniyası və Naxçıvan qəzasında maarif və mədəniyyətin inkişafında böyük xidmətlər göstərmişdir. Uzun illər Naxçıvan qəzasının şəhər və kəndlərində müəllimlik edən, məktəblərdə müxtəlif vəzifələrdə işləyən Həsən Qazıyev İrəvanda ermənilərin təzyiqilə üzləşərək işdən azad olmuş, işsiz qalmışdır (4, s. 3). Elə onların Naxçıvana köçmə səbəbləri də bu idi. Həsən müəllim muxtar respublikamızda maarif sahəsində həyata keçirilən mühüm tədbirlərin fəal iştirakçılarından biri kimi tanınmış və pedoqoji kadrların hazırlanmasında böyük əmək sərf etmişdir (4, s. 3) Ziyalı ailədə böyüyən Şamil gələcəkdə atasının ona bəslədiyi ümidləri doğruldur və özünü ziyalı kimi formalaşdıra bilir. Şamil Qazıyev özündə formalaşdırdığı bu ali, nəcib keyfiyyətləri gələcəkdə övladlarının tərbiyəsində də formalaşdıra bilir. Heç də əbəs yerə demirlər ki, övladlarımzın tərbiyəsi gendən gəlir, amma digər tərəfdən də həyatın enişli, yoxuşlu yollarında da insan iradəsi mühüm rol oynayır. Şamil Qazıyevin həm həyat yolunda, həm yaradıcılıq fəaliyyətində həm onun yaşadığı mühit, həm də aldığı tərbiyə mühüm rol oynamış, onda ali insanı keyfiyyətlərin aşılanmasına, onun layiqli vətəndaş kimi yetişməsinə səbəb kimi olmuşdur. Bugün rəssamın yaradıcılığının hərtərəfli öyrənilməsinin, tədqiqinin gənclərimiz üçün, gələcək nəsillər üçün böyük əhəmiyyəti var.

Şamil Qazıyevin köhnə Naxçıvanı, onun təbiətini, abidələrini, adət-ənənəsini, köhnə Naxçıvan sakinlərini tərənnüm edən tablolarına bütünlükdə "Köhnə Naxçıvan" silsiləsi desək yanılmarıq. Bugün Naxçıvan Dövlət Tarix Muzeyində qorunan "Köhnə Naxçıvan" silsiləsinə daxil olan əsərlər keçmiş tariximizi yaşatmaq baxımından böyük əhəmiyyətə malikdir. Rəssam Bakıda

yaşadığı illərdə də “Köhnə Naxçıvan” silsiləsinə həsr etdiyi tablolarında köhnə Naxçıvanın hər bir detalını xüsusi qayğı və dəqiqliklə kətana sığdırmağa çalışmışdır. Heç şübhəsiz ki, bu tablolar gələcək nəsilləri düşünən rəssamın uzaqgörənliyinin nəticəsi idi. 1976-cı ildə rəssam Bakıda yaşamasına baxmayaraq, Naxçıvan təbiəti onun qəlbində, ruhunda heyranlıq yaratdığı üçün növbəti tablolarından birini köhnə Naxçıvana, gəzdiyi dolandığı tarixi məkana həsr etmək qərarına gəlir. Yağlı boya ilə təsvir etdiyi “İnqilabaqədərki Naxçıvan” (4, s. 43) və yaxud “XIX əsrin əvvəllərində Naxçıvan” tablosunda doğma yurduna olan sonsuz sevgisini görməmək mümkün deyil (1, s. 4) (şək. 1). Rəssamın tabloda canlandırdığı “Xan diki”, onun ərazisində olan Möminə xatın türbəsi, şəhərin mərkəzilə axıb gedən və indiki “Qızlar bulağı”nda gözəl bir şəlaləyə çevrilən Bazar çayı və təsvir etdiyi neçə-neçə tarixi məkan bu gün nə qədər də dəyişilib, yeni don geyinib. Sadə, köndələn evlər, zəmətkeş insanlar, tağlı körpü, tarixi abidələr, məscid, qızılı-sarı torpaq, kələ-kötür yollar... Bu mənzərələr günümüzdə tamamilə fərqlidir. Müstəqillik illərində günü-gündən müasirləşən, özünün intibahını yaşayan bugünkü Naxçıvandan köhnə Naxçıvana bir anlıq səyahət, insanı keçmişi, tarixilə görüşdürür, onun mənəviyyatını zənginləşdirir. Mübaliğəsiz deyə bilərik ki, rəssama baş ucalığı gətirən, yaradıcılığını xalqına sevdirən, onun yurduna bəslədiyi sonsuz məhəbbət olub.



Şəkil 1. XIX əsrin əvvəllərində Naxçıvan

Bütün dünya rəssamlarının, o cümlədən Azərbaycan rəssamlarının yaradıcılığına nəzər yetirsək görərik ki, onların şedevr əsərləri ömürlərinin sonlarında yaratdığı tablolarıdır. Yetkin və püxtələşmiş yaş dövrünün abu-havası başqa olur desək yanılmarıq. Məhz bu incə məqam Şamil Qazıyev yaradıcılığında da duyulmaqdadır. Qeyd etdiyimiz kimi ömrünün 40 ilini Bakıda yaşayan görkəmli sənətkarın Naxçıvanı tərənnüm etmək istəyi dərin düşüncənin, rəssam ürəyinin səsi ola bilərdi. Sanki rəssam bu ahıl yaşında gəzib doya bimədiyi torpaqları, həmin o gənclik xatirələrini müdrik fırçasının köməyilə bir daha canlandırmaq istəmiş, hər tablosunda vəsf etmişdir. Bu hərarət, məhəbbət, gənclik baxışları, yaddaşın izləri tablolardakı rənglərdə də özünü gizlədə bilmir. 1977-ci ildə bu təmiz, ilahi hislərin simfoniyasında növbəti tablolarından birini – “Köhnə qala” əsərini yaradır (4, s. 62). Tablonun mərkəz hissəsində yağlı boyaların solğun və isti çalarları ilə vəsf etdiyi Köhnə qalanın istinad divarları rəssamın tərənnüm etdiyi vaxtlardan sonra təbii aşınmaya məruz qalsa da son illərdə muxtar respublika rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə bərpa olunmuş və xalqın istifadəsinə verilmişdir. Əvvəllər yalnız Şamil Qazıyevin tablosunda gördüyümüz, tarixi mənbələrdə eşitdiyimiz bu tarixi məkan bərpadan sonra bizə şərait yaratmışdır ki, tarixin bir parçası ilə qovuşa bilək. Tarixi abidələrimizin bərpasında, onların əvvəlki görkəminin qaytarılmasında vasitəçi olan rəssamlarımızdan biri də Şamil Qazıyevdir.

Şamil Qazıyevin "Köhnə qala" tablosunda təpənin üzərində salınmış əzəmətli qalanın tikildiyi təpənin ətəyi, türk-islam mədənyyəti tarixini yaşadan İmamzadə türbəsinin arxa hissəsindən uzanan yolda sürətlə çapan atlı, zəncirvari dəvə karvanı görünür. İmamzadə türbəsindən bir qədər aşağı hissədə qəbiristanlıq təsvir olunub. Günümüzdə bu mənzərədən qalan yeni bərpa olunmuş Köhnə qalanın divarları və İmamzadə türbə kompleksidir. Yeni şose yolu, müasir yaşayış binaları, yol kənarı yaşıllıqlar, insanları istirahəti üçün nəzərdə tutulmuş məkanlar, bərpa olunmuş Nuhun türbəsi və digər tikintilər Naxçıvanımızın nə qədər də inkişaf etdiyini göstərir.

Naxçıvan Dövlət Tarix Muzeyində qorunan "Köhnə Naxçıvan" silsiləsindən olan tabloların böyük tərbiyəvi əhəmiyyəti var. Xalq yaddaşının əks olunduğu tablolardan "Küçə dəlləyi", "Dəyirman", "Naxçıvan hamamı", "Lavaşyapanlar" əsərləri olduqca dəyərlidir. "Küçə dəlləyi" əsərində insanların özlərinə baxım adəti nümayiş olunub. Müstəqillik illərində yüksək inkişaf edən mədəniyyətimizin tarixi yaddaşı bu tablolarda qorunmuşdur. Babalarımızın evlərdə nağıl etdiklərini, xalqımızın yaddaşını muzeydə qorunan bu tablodan görə bilirik. Naxçıvanda o vaxtın kişiləri üzlərini təmizlərkən küçə dəlləklərinə üz tutardılar. Ustalar açıq havada, küçələrdəki sadə tkililərin kölgəsinə daldalanıb piştaxtasız bir balaca yeşik, su parçı və ülgüc qoyub öz müştərilərini gözləyərlərmiş. Bu adət köhnə Naxçıvan üçün xarakterik olan etnoqrafik ənənələrdəndir. Bu gün köhnə Naxçıvan etnoqrafiyasını tədqiq edənlər, kino, sənədli film çəkənlər üçün bu tablo əvəzsiz maddi mənbədir.

Şamil Qazıyevin etnoqrafik zənginliyi ilə seçilən tablolarından biri də "Lavaşyapanlar" tablosudur. "Lavaşyapanlar" tablosunda nənələrimizin çörək bişirmə adətini canlandırmağa çalışan rəssam ulu keçmişimizdən bizə bir miras qoymuşdur. Köhnə Naxçıvanda indiki kimi çörək sexləri, çörək dükanları çox da yox idi. İnsanlar çörəklərini kustar üsulla özləri hazırlayırdılar. Bunun üçün hər həyətdə təndir üçün ayrıca yer tikilərdi. Təndirlərin inşa edilməsi bizə Naxçıvanın Neolit dövrünə aid I Kültəpə abidəsindən məlumdur. Naxçıvanın qədim tayfaları hələ Neolit dövründə təndirdən istifadə edilməsini mənimsəmiş və bu ənənə günümüzə qədər də yaşadılmışdır. "Lavaşayapanlar" əsərində nümayiş olunan adət-ənənəyə görə o zamanlar qadınlar həftə sonları və yaxud ayda iki dəfə lavaş yapardılar. Elə tablodan da məlum olduğu kimi lavaş yapma adətlərində kişilər iştirak etməzdi. Bu prosesdə iştirak edən qadınlar adətən bu işlərdə oturuşmuş, usta xanımlar idilər. Əl cəldliyi və məharət işin sürətinə təkan verirdi. Adətən gənc gəlinlər bişirilən çörəyi daşıyar, böyüklərin qulluğunda durardılar. Naxçıvan sürətlə inkişaf etdiyindən indi bu adət-ənənənin izlərinə çətin rast gəlmək mümkündür. Dövlətimizin yüksək qayğısı ilə təmin olunmuş hər bir ailə çörəyi rahatlıqla hazır vəziyyətdə əldə edə bilir. Xalqımızın etnoqrafik xüsusiyyətlərini dərindən bilən rəssam gördüyü, şahidi olduğu lavaş yapma adət-ənənəsini tərənnüm etmişdir. Şamil Qazıyev yaradıcılığının ən böyük dəyəri ondadır ki, o, hər bir hadisəni öz gözlərilə görmüş, hər bir prosesi izləmiş, bu adət-ənənələrlə böyümüşdür.

Təmiz, aydın, şux, al-əlvan rənglərin sehrində seyirçinin gözləri önündə canlanan köhnə Naxçıvan tabloları bizləri ötən günlərə qaytarır, ən başlıcası isə düşünməyə sövq edir, bizləri özünəməxsus şəkildə dindirir, zövqümüzü bəzəyir. Bu və digər əsərlərin əhəmiyyətli cəhəti haqqında o dövrün mətbuatı belə yazırdı: "Bu təsvirlərdə Azərbaycanın ən qədim guşəsi olan Naxçıvanın keçmiş tarixinə, etnoqrafiyasına, adətlərinə aid təsəvvürlər öz əksini tapmışdır".

Bu gün dünyanın ən böyük və məşhur sərgi salonlarından biri olan Moskvanın "Tretyakov qalereyası"nda sərgilənən "Çoban" adlı əsəri nümayiş olunur (2, s. 646). Böyük sənətkarın bizə miras qoyduğu, tərbiyəvi əhəmiyyətə malik, vətənpərvərlik hisslərilə dolu, Vətənin tərənnümünə həsr olunmuş zəngin bədii irsi illər, qərinələr keçməsinə baxmayaraq həmişə yaşayacaq, seviləcəkdir. Onun əsərləri Naxçıvanın zəngin təbiətinin, tarixinin və etnoqrafiyasının öyrənilməsi üçün dəyərli mənbədir.

## ƏDƏBİYYAT


1. Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 63 s.
2. Naxçıvan Teatrının Salnaməsi (1883-2008). Naxçıvan, Əcəmi, 2010, 734 s.
3. Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. Naxçıvan şəhəri, 1 fevral 2018-ci il. "Şərq qapısı"qəz., 2018, 3 mart

4. Şamil Qazıyev. Naxçıvan, Əcəmi, 2010, 63 s.

## ABSTRACT

**Fizze Guliyeva**

## DESCRIPTION OF OLD NAKHCHIVAN IN SHAMIL GAZIYEV`S PAİNTİNGS

In the works of the famous artist of Azerbaijan, the follower of realistic school Bekhruza Kengerli of Shamil Hasan oglu Gazyev occupies the main place pictures and theatrical painting. During the 14th year of his activity in Nakhchivan State Drama Theatre the artist has given decorating to more than 100 performances. Shamil Gazyev was an artist of performances such as "Fugitives", "Bloody fortress", "The destroyed shelter", "Honour", "Strange child", "Ashug Gerib" which have seemed on the scene of Nakhchivan Theater. On the works "Old Nakhchivan", "Footwear sewer ", "Lavaş cookers", "Bread cookers", "Khunjov Quarter", "Old Fortress" and others he represented old Nakhchivan. His works with similar story are stored in the State Historical Museum of Nakhchivan and personal collections now. The work "Shepherd" is top of creativity of Shamil Gazyev and are stored in "Gallery Tretyakov" the city of Moscow. As the realistic artist in his creativity the special place occupies works under the name of "Old Nakhchivan" which matter for the image of the nature, ethnography and customs of settlers of old Nakhchivan.

## РЕЗЮМЕ

**Физза Гулиева**

## ОПИСАНИЕ СТАРОГО НАХЧЫВАНА В КАРТИНАХ ШАМИЛЯ ГАЗЫЕВА

В творчестве знаменитого художника Азербайджана, последователя реалистической школы Бехруза Кенгерли Шамиля Гасан оглы Газыева основное место занимает картины и театральная живопись. Во время 14 года его деятельности в Нахчывнском Государственном Драматическом Театре художник придал художествнное оформление более чем 100 спектаклям. Шамил Газыев был художником спектаклей таких как «Беженцы», «Кроваый крепость», «Разрушенный приют», «Честь», «Чужой ребёнок», «Ашуг Гариб» которые показались на сцене Нахчыванского театра. На произведениях «Старый Нахчыван», «Башмашники», «Пекари», «Хынджовский квартал», «Старая крепость» и других он изображал старую Нахчыван. Его призведения с подобными сужетами в настоящее время хранятся в Государственном Историческом Музее Нахчывана и личных коллекциях. Произведение «Пастух» является вершиной творчества Шамиля Газыева и хранятся в «Третяковском галерее» города Москвы. Как реалистический художник в его творчестве особое место занимает произведения из цикла «Старый Нахчыван», которые имеют значение для изображения природы, этнографии, обычаи и населения стараго Нахчывана.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafı fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF KETPL-2-2015-1(25)-56/47/5.**

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**AYNUR SƏFƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:78**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ FORTEPİANO VƏ ORKESTR ÜÇÜN KONSERTLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *fortepiano, janr, üslub, konsert, əsər*
**Key words:** *piano, genre, style, consert, work*
**Ключевые слова:** *фортепиано, жанр, стиль, концерт, произведение*

Keçən əsrin 40-cı illərindən etibarən Azərbaycan bəstəkarlarının yaradıcılığında instrumental konsertlərə, o cümlədən fortepino konsertlərinə böyük maraq yaranmışdı. Məlumdur ki, konsert müsbət emosiyalar daşıyıcısıdır və bu, müharibədən sonrakı qələbə əhval-ruhiyyəsinə bir növ cavab verirdi. Konsert, demək olar ki, həmişə müsbət emosiyalar yaradır.

Azərbaycanda instrumental konsert janrının yaranmasına, eyni zamanda milli bəstəkarlarımızın simfoniya sahəsində müharibə illərindəki professionallıq səviyyəsinin yüksəlməsi də böyük təkan vermişdir. Bununla birlikdə, qeyd etmək lazımdır ki, Azərbaycanda ifa mədəniyyəti də xeyli artmışdır. Çoxlu istedadlı pianistlər meydana gəlmişdir.

Azərbaycan instrumental konsertinin inkişafında Fikrət Əmirov böyük rol oynamışdır. 1946-cı ildə o simfonik orkestrlə skripka və fortepiano üçün birhissəli ikili konsertini yazır. 1947-ci ildə S.Ələsgərov da bu janra müraciət edərək, orkestrlə violençel və fortepiano üçün ikili konsert yazır. Bu konsertlərdə fortepiano soloedici ansambl tərkibində skripka və ya violonçel ilə birlikdə çıxış edirdi.

F.Əmirovun əvvəlki konsertlərindən fərqli olaraq, bu əsərdə müşayiətedici partiya Azərbaycan xalq çalğı alətləri orkestrinə tapşırılır. Konsert fortepiano ilə xalq çalğı alətləri orkestri üçün həmin mövzuda ilk nümunə olmuşdur. Əsərdə, eyni zamanda, müəllif fortepianonu solo aləti kimi orkestrin ümumi tərkibindən ayırmışdır.

Konsert ilk dəfə 1948-ci ildə Sovet bəstəkarlar ittifaqının üçüncü plenumu günlərində ifa olunaraq, böyük müvəffəqiyyət qazanmışdır. Bununla əlaqədar “Sovet musiqisi” jurnalında yazılırdı: “Konsert rus xalq orkestrləri də daxil olmaqla xalq alətləri orkestri üçün fövqəladə şəkildə mütərəqqi sevindirici və layiqli bir nümunə kimi qiymətləndirilməlidir”. Qeyd olunanlar Azərbaycan fortepiano musiqisinin, ümumiyyətlə Azərbaycan musiqisinin Ümumittifaq miqyasında tutduğu mövqedən xəbər verir. Onu də göstərmək yerinə düşərdi ki, Konsert bu janrda Qərbi Avropa, rus klassik və Sovet musiqi yaradıcılıqları ilə Azərbaycan xalq yaradıcılığının xarakterik xüsusiyyətlərini özündə bariz şəkildə birləşdirir.

Bu əsərlə demək olar ki, eyni vaxtda Ə.Abbasov fortepiano ilə simfonik orkestr üçün konsertini yazır. Bu əsərin əsas xüsusiyyəti onun təntənəli təmkinli giriş və variasiya formalı finaldan ibarət sonata Alleqrosu olmasıdır. Silsilənin belə kompozisiyasına, konsert janrında olmasa da, Qərbi Avropa musiqisində (L.Bethovenin 32 nömrəli sonatası) və rus musiqi klassikasında (P.Çaykovskinin triosu) rast gəlinir. Konsert respublikamızda fortepiano ilə simfonik orkestr üçün ilk əsərdir.

Bu əsərin yaradılmasından on ilə yaxın bir vaxt ötdükdən sonra konsert janrında özünəməxsusluğu ilə seçilən daha bir əsər – F.Əmirov və E.Nəzirovanın ərəb mövzusunda yazdıqları Konsert həyata vəsiqə alır və ilk dəfə oktyabrın 40 illiyi ərəfəsində E.Nəzirovanın solosu və Niyazinin dirijorluğu ilə ifa olunur. Əsər böyük şöhrət qazanır və ümumittifaq səviyyəsində çox yüksək qiymət alır.

Məşhur musiqi tənqidçisi D.Danilovun yazdığı kimi, E.Nəzirova və F.Əmirovun Konsertində Ərəb musiqi mövzusundakı ayrı-ayrı intonasiyalar Azərbaycan musiqisi ruhunda işlənilməklə istifadə olunmuşdur.

Konsert musiqi həyatına çox möhkəm daxil olmuşdur. Uzun illərdir ki, F.Əmirovun və

E.Nəzirovanın bu əsəri istər ölkəmizdə və istərsə də onun xaricində müvəffəqiyyətlə ifa olunur.

V. Adıgözəlov fortepiano ilə orkestr üçün üç konsertin müəllifidir. Bir neçə dəfə çap olunmuş bu əsərlər həm konsert proqramı, həm də tədris repertuarı kimi dəyərlidir. Bu sahədə səmərəli fəaliyyət göstərən V. Adıgözəlovun "Fortepiano ilə orkestr üçün üç nömrəli Konsert"inin Respublika Bəstəkarlar İttifaqı tərəfindən Azərbaycan SSR Dövlət mükafatına təqdim edilməsi bu baxımdan təsadüfi deyil.

Haqqında danışdığımız əsər ilk dəfə Respublika Bəstəkarlarının VI Qurultayında səslənmiş və musiqi ictimaiyyəti arasında təqdiredici rəy doğurmuşdur. Sonra isə Kemerovo şəhərində keçirilmiş SSRİ Bəstəkarlar İttifaqının plenumunda "Konsert" yeni redaktə ilə ifa olunmuşdur. Həmin əsər Moskva filarmoniyasının abonementli simfonik konsertlərinin proqramına da daxil edilmişdir.

"Fortepiano ilə orkestr üçün üç nömrəli Konsert"i dinlərkən, belə qənaətə gəlmək olur ki, müəllif instrumental konsertin simfonikləşdirilməsi məsələsini qarşısına əsas məqsəd qoymuşdur. Bundan əlavə, bəstəkar fortepiano alətinin texniki imkanlarını təfəkkür süzgəcindən keçirmiş, onun orkestrlə, necə deyərlər, "yarışı"nı bədii ustalıqla vermişdir.

"Konsert" klassik üçhissəli formada yazılmışdır. Birinci hissə variasiya formasındadır. Yeri gəlmişkən deyək ki, variasiya bir musiqi mövzusu əsasında qurulur; mövzunun melodiyası və müşayiət fakturası hər dəfə variasiyaya (dəyişikliyə) uğrayır, yeni variantlarla səslənir. Avropa musiqi ədəbiyyatında XVI-XVIII əsrlərdə daha çox inkişaf tapmışdır. Azərbaycanda isə variasiya prinsipi daha əvvəllərdə – orta əsrlərdə muğam sənətində əmələ gəlmişdir. Məhz muğam formasının əsas xüsusiyyətlərindən biri ondakı musiqi mövzularının variantlı inkişaf prinsipidir. "Konsert"in birinci hissəsində bəstəkar muğamlardan irəli gələn variasiya prinsipindən istifadə etmişdir. Əvvəlcə bu gözəl, məlahətli mövzu qaboy alətinin ifasında səslənir. Sonra hər variasiya yeni obrazın yaranması ilə nəticələnir. Buradakı hər obraz müxtəlif yozuma verilmiş, variasiyalar arasında təzadlılıq yaradılmışdır.

Birinci hissədə dramaturji zirvə son variasiyaların –altıncı və yeddinci variasiyaların üzərinə düşür. Bəstəkar hissəni əzəmətli, təntənəli ruhlu musiqi ilə tamamlamışdır.

"Konsert"in ikinci hissəsi əsərin lirik mərkəzidir. Bu hissə üç bölmədən ibarətdir. Əvvəl poetik səciyyəvi, bahar nəfəsli lirik bir mövzu eşidilir. Bu mövzunun inkişafı orta bölməyə-dramatizm ilə dolğun bölməyə gətirib çıxarır. Nəhayət, əvvəlki mövzu yenidən, lakin dinamikləşdirilmiş şəkildə səslənir. Üçüncü hıssə isə öz musiqisi etibarilə ikinci hissə ilə təzadlıdır. Bütün hissə özünün parlaq, virtuoz səciyyəli musiqi mövzuları ilə diqqəti cəlb edir. Ayrı-ayrı bölmələrin bir-biri ilə təzadlılığı bu hissənin musiqi inkişafının əsas qayəsidir. Üçüncü hissəni dinləyərkən gözlərimiz önündə, bir növ, bayram lövhələri canlanır. Hər bir lövhə isə rəngarəng şənlik səhnəsini xatırladır. Ümumiyyətlə, təntənəli bayram şənliyi obrazı "Konsert"in bütün musiqi materialı üçün xarakterik keyfiyyətdir.

1961-cı il noyabrın 16-da Azərbaycan gənc bəstəkarlarının yaradıcılıq baxışında Vasif Adıgözəlovun fortepiano ilə orkestr üçün do major konserti göstərildi. Əsər böyük müvəffəqiyyət qazandı və bir il sonra ümumittifaq müsabiqəsində birinci dərəcəli diploma layiq görüldü.

Əsərin forması adidir: sonata Alleqrettosu, oynaq orta epizodlu lirik təsviri Andante sosdenuto və qızğın final. Konsert şən əhval ruhiyyəli rəqs musiqili bir qədər də zarafat yönümlü əsas partiya ilə başlayır.

Əlavə partiya nəinki ciddi şəkildə əsas partiyaya qarşı qoyulmur, hətta mahnının rəqsi tamamladığı kimi onu janr cəhətdən tamamlayır. Əlavə partiyanın əsasını səlis, geniş axımlı olan ahəngdar, lirik oxunaqlı mövzu təşkil edir. Bir səsdən başqa səsə keçməklə, mövzu getdikcə daha çox hiss olunan gərginliyə çatır. İnkişafının ən yüksək mərhələsində isə o, böyük daxili güc əldə etməklə, qəhrəmanlıq zirvəsinə qədər yüksəlir.

İşləmə fortepiano kadensiyasına keçir ki, bu da Konsertin birinci hissəsinin quruluşunun əsas xüsusiyyəti hesab olunur. İkinci hissə orkestrin uzun və harmonik cəhətdən çox gərgin olan çıxışı ilə başlanır sonradan solist orkestrin köməyi olmadan təsirli və nağıl formalı temanı davam etdirir. Daha sonra isə bu mövzu orkestrdə fortepiano fiqurasiyası fonunda əvvəlcə kvarta yüksək olmaqla, getdikcə bir kvinta aşağı enərək səslənir. Final əvvəlki hissələrdən özünün qəhrəmanlıq-

dramatik patetikası ilə fərqlənir. Bu xarakterin əsas daşıyıcısı özünün qeyri-bərabər ritmi, tək ölçüləri qammaşəkilli və sıçrayışlı hərəkətlərin sərbəst müqayisəsi, eləcə də, gərgin döyünməsi (pulsasiya etməsi) və hərdənbir kəskin dissonant akkomponomenti ilə meydana çıxan əsas partiyanın mövzusudur.

V.Adıgözəlovun bu konsertini başqalarından fərqləndirən əsas cəhət odur ki, müəllif burada əsərin məzmununun "ağırlıq mərkəzini" finala keçirir ki, bununla da onun əhəmiyyətini və orijinallığını qabarıq şəkildə nəzərə çarpdırır.

1964-cü ildə Nəriman Məmmədov da Konsert yazır. Konsert elə ilk xanələrindən orkestrin və solo verən instrumentin özünəməxsus parlaq səslənməsi ilə diqqəti cəlb edir. Bu, bəstəkarın harmoniya və orkestrovkasının xüsusiyyətləri ilə əlaqədardır. Belə ki, ənənəvi "aşıq" akkordları əsasında müəllif "çoxpilləli" sekunda kompleksi qurur, eyni zamanda qısaldılmış (kiçildilmiş) oktava intervalından da geniş istifadə edir.

Birinci hissə iradəli, cəsarətli və bununla birlikdə dramatik münaqişə ilə dolğun olan obrazın geniş girişi ilə başlanır. Ekspozisiyanın kontrastı isə bir qədər başqadır. Solo instrumentinin partiyasında tokkata xarakterli musiqi meydana çıxır ki, bu da saz səsinin bir növ imitasiyası kimi verilir.

İkinci hissə özünə məxsus noktürndür. Burada müxtəlif vasitələrlə təmsil olunmuş təsviri səsyazmaları üstünlük təşkil edir. Birinci hissədə olduğu kimi, burada da tempin dəyişilməsi diqqətə layiqdir.

Finalda enerji və hərəkət hökmranlıq edir. Solo instrumenti ilə bütün registrlərdə təkrar olunan orkestrin giriş akkordlarından sonra finalın fəal, hərəkətli və çevik baş mövzusu başlayır. Mövzu final üçün xas olan xarakterdə qəbul olunur.

Konsertin son səhifələri təntənəli apofeoz, cəsarətli həyat mənbəyinin inamlı təsdiqi kimi xarakterizə edilir.

1963-cü ildə Azər Rzayev tərəfindən də bir Konsert yazılmışdır. Bu, Azər Rzayevin do major Konsertidir ki, Azərbaycanın gənc ifaçılarına ünvanlanmış ilk fortepiano Konsertidir.

Birinci hissənin əsas partiyası üçhissəli formadadır. Əsas partiyanın hamısı qırx xanədən artıq davam edir. Əlaqələndirici partiya isə cəmi səkkiz xanədir. Bu isə bəstəkarın tematik materialın ifadəsinin məhz ilk plana çıxarmaq cəhdini sübut edir.

İkinci hissə dərin düşüncə xarakteri daşıyır. Musiqi özünün melodikliyi, səmimiliyi və daxili mərhəməti ilə özünü göstərir.

Konsertin finalı bir növ birinci və ikinci hissələrə qarşı qoyulur. Bütövlükdə isə final gülməli karnaval şənliyi təsiri bağışlayır.

Zakir Bağırovun 1965-ci ildə yazdığı Konsert üç hissədən ibarətdir: başlanğıc sonata Sostenuto, nisbətən böyük olmayan Andante cantabile və final Andante assai. Konsertin bütün tematizmi bilavasitə xalq-mahnı və xalq-rəqs mənşəi ilə əlaqəsinə görə fərqlənir. Bəstəkar, hər şeydən əvvəl Azərbaycan xalq musiqisinin lad, melodik, metroritmik xüsusiyyətlərini onların ilkin vəziyyətində çatdırmağa çalışır.

Birinci hissə mahnı xarakterli iki temanın müqayisəsi əsasında qurulmuşdur. Hadisələrin inkişafı janr və formanın qəbul olunmuş normaları əsasında baş verir. Birinci hissənin sonunda, reprizada köməkçi partiyadan əvvəl kadensiya verilmişdir ki, burada da demək olar ki, əsas partiyanın teması inkişaf etdirilir.

Mahnı melodiyası ikinci hissədə verilmişdir. Onun müxtəlif ifadələrlə dəfələrlə işlənməsi bütün hissənin ümumi dalğavari formasını yaradır və bunun da zirvəsi fa diyez minor variasiyası ilə başa çatır.

Əvvəlki iki "mahnı" hissələrindən fərqli olaraq finalın janr əsasını rəqs təşkil edir. Musiqinin sərbəst şərh olunmuş rondo forması da onun janrına tamamilə uyğun şəkildə verilmişdir. Bu parlaq, bayramsayağı musiqi bütün Konsertin böyük kodasının birinci bölməsi rolunu oynayır. Onun ikinci bölməsi yönəldilən yüksəliş (piu mosso), üçüncüsü isə finalın son refren (Presto) variantıdır.

Z.Bağırovun Konserti, müəyyən çatışmazlıqlarına baxmayaraq, Azərbaycan pianistlərinin repertuarında öz lazımi yerini tutmağa layiqdir.

Ötən əsrin baxdığımız dövrünün 60-80-cı illərinin fortepiano musiqisi əsasən iki istiqamətdə inkişaf etmişdir. Onlardan birincisində lad-intonasiya və ritmik, eləcə də forma yaradan olmaqla, xalq musiqisinin yaradıcı şəkildə işlənməsi xətti davam etdirilir. İkincisində isə müəlliflərin,

xüsusilə də gənc müəlliflərin müasir dil və faktura stilistik priyomlarına açıq şəkildə üstünlük vermələri müşahidə olunur.

## ƏDƏBİYYAT


1. Məhərrəmova İ. Vasif Adıgözəlovun fortepiano ilə simfonik orkestr üçün bir nömrəli konserti, NDU, Qeyrət, Naxçıvan-2007.
2. Адигезалов В. Концерт – 136-139, 144; Концерт с оркестром азербайджанских народных инструментов – 139, 144, Пьесы для детей –120, 121, Соната – 33, 64, 67, 85, 1992
3. Назирова Е. Вариации – 25, 121; Концерт – 33, 84, Концерт на арабские темы (соавтор Ф.Амиров)–33, 77-83, 84, 85, Пять детских пьес – 25, Пять прелюдий – 10, 23-25, Сонатина-71; Сюита на албанские народные темы для двух фортепиано (соавтор Ф.Амиров) – 33, 46-51, 78, Четыре етюда – 25, 1980.
4. Сеидов Т. Азербайджанская советская фортепианная музыка, Язычы, Баку 1980.


## ABSTRACT


**Aynur Safarova**



Composing of large size musical compositions for piano, using of folk music, mugham (eastern melody), songs, rhythmic music, tasnifs have been studied in this article. Honorable places of these compositions in Azerbaijan and abroad have been studied and notified the remarks and opinions of the world famous composers. Have been studied of the stylistically reflection of the piano compositions of the Azerbaijan composers in XX century world music.


## РЕЗЮМЕ


**Айнур Сафарова**



Предлагаемая статья посвящена произведениям крупных форм в азербайджанской фортепианной музыке. В статье анализированы жанровые и стилистические особенности этих произведений, выявлены пути использования примеров народного творчества – мугамов, песен, рянг и тэснифов.

В статье освещены своеобразные различия этих произведений в творчестве наших композиторов, одновременно были исследованы взгляды не только специалистов нашей республики, но и зарубежных композиторов мирового уровня. Подчеркнуто применение всесторонних стилистических тенденций музыкального искусства фортепианной музыки Азербайджана XX века в этих произведениях.


---


NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2018, № 1 (90)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2018, № 1 (90)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2018, № 1 (90)**

**CƏLALƏDDİN ƏLİYEV**

*Naxçıvan Dövlət Universiteti*

*djelal63@ mail.ru*

**UOT:78**

# TƏRBİYƏ PROSESİNDƏ XALQ MUSİQİSİNDƏN İSTİFADƏ ETMƏKLƏ YENİYETMƏLƏRİN ƏMƏYƏ VƏ VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSİNİN BİRGƏ İMKANLARI

**Açar sözlər**: Azərbaycan xalq musiqisi, muğam, xanəndə, mədəniyyət, bəstəkar

**Key words:** Azerbaijan folk music, mugam, singer, culture, komproser

**Ключевые слова:** Азербайджанския народная музыка, мугам, певец культура, композитор

Azərbaycan xalqı öz tarixi etibarilə çox qədim bir xalqdır və həm də zəngin bir musiqi irsinə malikdir. Musiqi sənəti hər bir xalqın, hər bir ölkənin mədəniyyət tarixinin tərkib hissəsini təşkil edir. Kökləri uzun keçmişlərə gedib çıxan çoxjanrlı Azərbaycan xalq musiqisi ölkəmizin ictimai siyasi quruluşu ilə sıx əlaqədə yaranmışdır. Qədim bir tarixə malik olan Azərbaycan xalqı öz zəngin incəsənəti, musiqi mədəniyyəti ilə dünya xalqlarının diqqətini daim cəlb etmiş və bu gün də etməkdədir.

Xalqımıza məxsusu olan muğamlar, mahnılar, musiqi alətləri və sazəndələr haqqında məlumatlar bizə musiqimizin kökünü yüz- yüz illərin deyil, min – min illərin arxasında axtarmağa ixtiyar verir.

Təkcə ölkəmizdə deyil ölkəmizin hüdudlarından kənarda belə Nizaminin "Xəmsəsi", Məhsəti xanımın "Rübailəri", Nəsiminin, Füzulinin "Qəzəlləri" tanınmış, Seyfəddin Urmavi, Əbdülqadir Maraği, Mir Mövsün Nəvvab kimi alimlərin xəbəri geniş yayılmışdır.

Azərbaycan xalq musiqisi məzmunca janr etibarı ilə rəngarəngdir. XIX əsrin axırları XX əsrin əvvəllərində Azərbaycan musiqi mədəniyyəti, sözün əsl mənasında çiçəklənmiş, misilsiz nailiyyətlər qazanmışdır. Yeni azad dövran musiqi folklorumuzda onu yaradanlara, xalq bəstəkarlarına geniş yaradıcılıq imkanları vermişdir.

İnsanlarda xoş - əhval ruhiyyə, həyata sevgi aşılayan bir çox amillər vardır. Burada başlıca yeri istirahət tutur. İstirahətin isə müxtəlif formaları var. Boş vaxtlarda idmanla məşğul olmaq, məzuniyyət zamanı ölkə daxilində və ölkə xaricində istirahət etməyə, səyahət etməyə üstünlük verənlər çoxdur. Amma istirahətin bir növü də vardır ki, ondan aldığımız mədəni qidanı başqa heç nədən almaq mümkün deyildir. Bu, musiqidir. Ürəyinizə yatan, könlünüzü oxşayan musiqidən aldığın qida itirilən enerjini bərpa edən ən böyük vasitədir. Bu mənada xalq musiqisinin əvəzi yoxdur. Yaşı bəlli olmayan, müəllifi tanınmayan xalq mahnılarımız mənəvi sirlər xəzinəsidir. Xalq mahnıları yeri gəldikdə könül həmdəmimiz, yeri gəldikdə isə mənəvi sirdaşımızdır. Xalq mahnılarımızı dinləyib könül rahatlığı tapırıq. Bəzən ürəyimizdəki qəm – qüssəni bu mahnılara qulaq asmaqla özümüzdən uzaqlaşırıq. Bir sözlə, bu mahnılardan zövq alırıq. Onlar bizə mənəvi güc verir. Xalq mahnıları hər zaman bizim həyatımıza daxil olan, həyatımızın hər anında maraqla dinlədiyimiz bir janrdır. Hər bir xalq mahnısının özünün yaranma tarixi var. Bunlar isə mühitlə, məkanla, tariximizlə bağlıdır. Xalq mahnılarıyla onun digər peşəkar qolu sayılan muğamat arasında qarşılıqlı əlaqə təsiri də maraqlıdır. Muğamatları məclislərdə məşhur peşəkar xanəndələr oxuyardılar. Muğamatın da öz siridarları öz nəzəriyyəçiləri var idi. Orta əsrlərdə muğamatı dərindən öyrənən təhlil edən nəzəriyyəçilər də onu hətta yazıya köçürməyə təşəbbüz göstərmişlər, xüsusi not işarələri yaratmışlar. Buna görə də muğamat bir növ şifahi xalq yaradıcılıq çərçivəsindən kənara çıxmışdır. Amma bütün bunlar muğamatın xalqımızın ürəyində kök salmasına mane olmamasıdır. Axı muğamatın da yaradıcısı, ifaçısı, xanəndələr, bunları müşayət edən, kamança, kanon çalanlar xalqın içərisindən çıxanlardır. Bunlar xalq ritmlərinin, intonasiyaları muğamata

gətirir, muğam dəstgahlarında mahnılar onun havaları ilə bağlı güşələrin, təsniflərin, rənglərin meydana gəlməsinə səbəb olurdular. Beləliklə də muğamat, xalq mahnıları və onun havaları ilə birləşdirən əlaqələndirici körpü yaradırlar.

XX əsrin əvvəllərində Azərbaycanın musiqi həyatını təsvir edən yazılardan və yaxud qocaların söhbətlərindən öyrənirik ki, hələ onda aşıqlarla birgə, xanəndələrin də iştirak etdikləri toylarda muğamatlarda çox oxunardı. Muğamatlarla aşıq musiqisi arasında tamam uzaq olan fərq məhz bu yolla tədricən aradan götürülürdü. Xalqın zehnində köks salmış aşıq havaları kimi təsniflər rənglərdə ürəklərə yol tapır, dərhal yayılırdı. Üstəlik əminik ki, lirik mahnıların çoxlarını elə xanəndələr özləri bəstələyirdi. Belə bəstəkar xanəndələrdən məşhur Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Mahir Tarzan, Qurban Primovu və s. göstərmək olar.

Əsrimizin əvvəllərində ilk Azərbaycan şərq operası "Leyli və Məcnun"u yaradan Üzeyir Hacıbəyov məhz muğamata əsaslanmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində muğamat Azərbaycan xalqının vokal və instrumental mədəniyyətindəki ən gözəl keyfiyyətləri özündə əks etdirirdi. Eyni zamanda, Üzeyir bəy muğamata əsl yaradıcı kimi yanaşmış, musiqimizin bu ayrı formasında dərin drammatizmi görüb onu səhnə əsərində açmış, bu drammatizmini operanı əsasına çevirmiş, bu yolla da muğamatın tarixi mövqeyini xeyli genişləndirmişdir. Üzeyir bəy "Leyli və Məcnun" operasında muğamatlardan savayı xalq mahnılarından və instrumental havalardan da geniş istifadə etmişdir.

Beləliklə, xalq mahnılarımız Azərbaycanda peşəkar – bəstəkarlıq sənətinin lap başlanğıcından onun əsasına çevrilib. Xalqımızın ilk klassiki Üzeyir Hacıbəyovun bəstəkarlıq tərcümeyi halında adətən yazılışı kimi deyil, xalq mahnılarımıza uşaqlıqdan doğma Şuşa şəhərində maraq yaranıb. Müasirlərinin dediklərinə görə, elə bu şəhərdə də ilk yaradıcılıq uğurlarını qazanıb. Muğamatı və Azərbaycan xalq musiqisinin digər formalarına məhəbbət getdikcə atırmış, nəhayət onun nadir yaradıcılıq üslubuna çevrilmişdir. Üzeyir bəyin xor üçün istədiyi xalq mahnıları onun bu sahədə neçə ustad sənətkar olduğunu, necə həssaslıqla çalışdığını əyani surətdə göstərir. Bəstəkarlarımızdan Sultan Hacıbəyov, C.Hacıyev, Q. Qarayev, F.Əmirov, S. Rüstəmov, F. Quliyev, C.Cahangirov, Q.Hüseynli, A.Məlikov və A.Əlizadə, bir sözlə bütün yaşlı nəsil bəstəkarlar özlərinin yaradıcılığından böyük ustalıqla istifadə etmişlər.

Başqa sözlə desək, Azərbaycan xalq musiqi mədəniyyəti xəzinəsinə əsaslanmaq milli bəstəkarlıq məktəbinin başlıca xüsusiyyətlərindəndir. Xalq ənənələrini bəstəkarların əsərlərində işlənməsi isə həmin müəlliflərin yaradıcılıq üslubunu müəyyənləşdirən amilə çevrilir. Əlbəttə, məsələ yalnız xalq mahnılarını işləməkdə deyil, Azərbaycan bəstəkarları xalq ladlarına ritmik, melodik, lirik xüsusiyyətlərə əsaslanan xalq mahnılarının "ətrini" canına toplayan operalar və simfoniyalar, xor əsərləri və kamera instrumental mahnılarını bəstələmişlər. Onlar xalq sənətkarlarının təcrübəsindən istifadə edərək, ruhən üslubca xalq mahnılarına yaxın olan vokal əsərlərini də bəstələyiblər. Belə əsərlərdən bəziləri öz müəllifini itirərək xalq mahnıları kimi dillərdə əzbərə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Karaoke. Azərbaycan xalq mahnıları və klassik romansları, "Apostrof" çap evi, Bakı 2011
2. Səfərova Z.Nəvvab və onun "Vüzühül - əzqam" risaləsi, Azərbaycan SSR.E.A. Xəbərlər (ədəbiyyat, dil və incəsənət seriyası)
3. Şuşinski F.Azərbaycan xalq musiqiçiləri, Bakı, 1985
4. Hacıbəyov Ü. əsərləri, cild 2.Bakı, 1965
5. Hacıbəyov Ü. əsərləri, Bakı, Yazıçı, 1985.
6. İsmayılova Q. Müslüm Maqomayev, Bakı,1975

## ABSTRACT

**Jalaleddin Aliyev**

## AZERBAIJAN FOLK MUSIC AND ITS SPHERE OF INFLUENCE

The article dealt with Azerbaijan folk music. The role and influence of mugam in folk life being the main structural part of this music. The Azerbaijani people are very old and have a rich musical heritage. Music art is an integral part of the culture of every country, every country. The multinational Azeri folk music, which has long gone to the roots, was closely linked to the social-political structure of our country. The people of Azerbaijan, having an ancient history, have rich art, music culture and attracted the attention of the world's nations today.

## РЕЗЮМЕ

**Джалаледдин Алиев**

## АЗЕРБАЙДЖАНСКАЯ НАРОДНАЯ МУЗЫКА И ЕЁ ВЛИЯНИЕ НАРОДУ

Лучшие музыки Азербайджанских народных статьи, самая част музыки и эффектов, чья роль в жизни людей магамы выделены. Азербайджанский народ очень стар и имеет богатое музыкальное наследие. Музыка - неотъемлемая часть культуры каждой страны, каждой страны. Многонациональная азербайджанская народная музыка, которая давно ушла в прошлое, тесно связана с общественно-политической структурой нашей страны. Народ Азербайджана, имеющий древнюю историю, имеет богатое искусство, музыкальную культуру и сегодня привлекает внимание народов мира.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**NİSƏ ƏLİYAROVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:78**

# NAXÇIVANDA MUSİQİ- İFAÇILIQ SƏNƏTİNİN SİSTEMLƏŞDİRİLMƏSİ VƏ TƏSNİFATI

**Açar sözlər**: *Azərbaycan musiqi tarixi, Naxçıvan musiqi mədəniyyəti, musiqi ifaçılığının tədqiqi, sistemləşdirmə və təsnifat*
**Key words:** *Azerbaijan music history, Nakhchivan music culture, investigation of musical performance, systematization and classification*
**Ключевые слова:** *история азербайджанской музыки, музыкальная культура Нахчывана, исследование музыкальных представлений, систематизация и классификация*

Azərbaycan tarixinin və mədəniyyətinin ayrılmaz hissəsi olan Naxçıvan musiqi mədəniyyəti zəngin təkamül və inkişaf yolu keçmişdir. Naxçıvan musiqi mədəniyyətinin keçmiş və müasir tarixi bilavasitə bu qədim diyarın ifaçılıq sənəti ilə bağlıdır. Bir sözlə, Naxçıvanın musiqi ifaçılığı, onun sahələri, növləri, ənənələri, görkəmli nümayəndələri Azərbaycan musiqi incəsənəti və mədəniyyətinin ayrılmaz və mühüm tərkibini təşkil edirlər.

Naxçıvan ifaçılıq ənənələrinin daha bir vacib xüsusiyyəti, onun orta əsrlərdə müsəlman Şərq ölkələri ilə sıx mədəniyyəti və yaradıcılıq əlaqələrində olmasıdır. Ü.Hacıbəyli hələ 1930- cu illərdə yazdığı məqalələrinin birində qeyd edirdi ki, biz azərbaycanlılar Şərq xalqı olduğumuz üçün Şərq musiqisinin öyrənilməsinə biganə qala bilmərik. Dahi bəstəkarın bu qiymətli fikrinin Naxçıvan musiqi-ifaçılıq sənətinin tədqiqində maraqlı örnək kimi nəzərə alınmasını məqsədyönlü hesab edirik.

Naxçıvan əsrlər boyu geniş bir şəkildə təşəkkül tapmış və bütün regionları əhatə etmiş folklor musiqisi, mərasim musiqisi, aşıq və muğam sənəti növ və janr baxımından olduqca rəngarəng və zəngindir. Naxçıvan ənənəvi musiqi mədəniyyətinin və musiqi yaradıcılığının belə zəngin janr və növlərə malik olması bilavasitə musiqi ifaçılığının da istiqamətlərini müəyyən etmişdir.

Müasir dövrlərdə isə Naxçıvanda musiqi təhsilinin və musiqi ifaçılığının inkişafı yeni ifaçılıq sahələrinə yaranmasına səbəb olmuşdur. Belə ki, Naxçıvanın bölgələrində bir çox musiqi-ifaçılıq kollektivləri - mahnı və rəqs kollektivlərini, kamera, simfonik orkestrlər, xor estrada və musiqili teatr kollektivləri yaranmış, diyarın musiqi mədəniyyətinin inkişafında yeni nailiyyətlər qazanmışlar.

Bu baxımdan Naxçıvan musiqi-ifaçılıq mədəniyyətinin tarixi keçmişi ilə bu günü arasında varislik əlaqəsi mövcuddur. Tarixindən irs qalan ənənələrlə yanaşı, Naxçıvan ifaçılığının yeni sahələr və ənənələr də yaranır və yaşayır.

Naxçıvanın musiqi-ifaçılıq sənətinin tədqiqində mühüm bir prinsipial metodoloji yanaşmanı qeyd etmək istəyirik. Biz tədqiqatlarımızda "Naxçıvanın musiqi-ifaçılıq sənəti" dedikdə, bu mədəniyyəti ilk növbədə məhz Azərbaycan musiqi mədəniyyətinin ayrılmaz tərkibi kimi nəzərdə tuturuq. Çünki Azərbaycan musiqi mədəniyyəti özündə Naxçıvan musiqi-ifaçılıq sənətini də ehtiva edir. Azərbaycanın və Naxçıvanın haqqında musiqişünaslıq, sənətşünaslıq, tarix, arxeologiya, etnoqrafiya, kulturologiya tədqiqatları belə vahid nəticəyə gətirir ki, Naxçıvan diyarının musiqi incəsənəti və mədəniyyəti öz tarixi, etnoloji və mədəni tipologiyasına, etnogenetik və inkişaf xarakterinə görə yalnız Azərbaycan musiqi incəsənətinə və mədəniyyətinə məxsusdur.

Azərbaycanın orta əsrlər musiqi tarixinə və musiqi-ifaçılıq incəsənətinə aid mənbələr və tədqiqatlar, eləcədə, Naxçıvan musiqi incəsənətinə və tarixinə aid aparılan müxtəlif

araşdırmalar müasir musiqişünaslığa diyarın ifaçılıq sənətini təsnifatlaşdırmaq üçün əsas verir.

Digər tərəfdən, Naxçıvanın zəngin musiqi tarixi, yerli musiqi-ifaçılıq ənənələri, musiqi ifaçılığının inkişaf istiqamətləri də bu təsnifatın aparılmasını aktuallaşdırır.

Naxçıvanın musiqi ifaçılığına sistemli yanaşılması tədqiqatımızın əsas metodoloji prinsiplərindən biridir. Musiqi ifaçılıq sistem kimi yaşayır, mövcud olur və inkişaf edir. Bu prosesdə sistemi təşkil edən bütün tərəflər, tərkib hissələri qarşılıqlı əlaqədə və təsirdə olurlar. Məhz sistemli yanaşma klassifikasiyanı da zəruri edir. Buna görə də, musiqi ifaçılığının sistemli şəkildə dərk olunması yalnız təsnifləşdirmə əsasında mümkündür.

Bu təsnifatın aparılması Naxçıvan musiqi mədəniyyətinin elmi tədqiqində mühüm əhəmiyyət kəsb edir. Belə ki, Naxçıvanın musiqi mədəniyyətinin geniş tərkib hissəsi ifaçılıq sənətidir. İfaçılıq sənəti hərtərəfli öyrənilmədən, eləcə də, onun təsnifatı tam şəkildə aparılmadan Naxçıvan musiqi mədəniyyəti haqqında elmi informasiyalar da tam və əhatəli ola bilməz.

Elmi tədqiqatlarda təsnifatların aparılması elmi- metodoloji əhəmiyyətə malikdir. Belə ki, təsnifat aparılmadan öyrənilən predmet və obyekt də ətraflı təqdim və tədqiq oluna bilməz, onun bütün əlamət və xassələri ətraflı dərk olunmaz, onun sistemliliyi aşkarlanmaz. Bu xüsusda qeyd edək ki, müasir rus filosofu F.Anikin elmdə təsnifatın ümummetodoloji əhəmiyyətini nəzəri cəhətdən əsaslandırmışdır.

Yeri gəlmişkən, Azərbaycan musiqişünaslığında xalq musiqisi, aşıq sənəti və şifahi ənənəli professional musiqi üzrə maraqlı təsnifatlar aparılmışdır. Biz bu təsnifatlara da müraciət etmiş, Naxçıvan musiqi-ifaçılıq sənətinin təsnifatını apararkən onlardan bəhrələnmişik.

Beləliklə, Naxçıvanın musiqi-ifaçılıq sənətinin elmi tədqiqində təsnifatların aparılmasını qarşımıza məqsəd və vəzifə qoymuşuq, təsnifatlarda ifaçılığın sahəvi, növ, subyekt aspektlərini nəzərə almışıq.

Naxçıvanın musiqi-ifaçılıq sənətinin sahəvi təsnifatını aşağıdakı kimi təklif edirik:

I. Naxçıvanın musiqi-folklor ifaçılığı
II. Naxçıvanın muğam ifaçılığı
III. Naxçıvanın aşıq ifaçılığı
IV. Naxçıvanda dini-mərasim ifaçılığı
V. Naxçıvanda bayram-mərasim ifaçılığı
VI. Naxçıvanın müasir musiqi-ifaçılıq sənəti.

İfaçılıq sənətinin aşağıdakı ictimai-sosial sahələrini də təsnifata daxil edirik:

I. Naxçıvanda kənd-musiqi ifaçılığı
II. Naxçıvanda şəhər musiqi ifaçılığı Naxçıvanda musiqi-ifaçılıq sənətinin daha bir təsnifatını ifaçılığın subyekti baxımından aparmışıq:
I. Naxçıvanda instrumental ifaçılıq
II. Naxçıvanda vokal ifaçılıq
III. Naxçıvanda vokal-instrumental ifaçılıq

Bu təsnifatların elmi araşdırılması göstərir ki, sahələrin hər biri də öz-özlüyündə növlərə bölünürlər. Məsələn, Naxçıvanın folklor ifaçılığı aşağıdakı əsas növlərə, janrlara bölünür:

I. Naxçıvanın folklor ifaçılığı:
1.1. Xalq-mahnı ifaçılığı
1.2. Xalq-rəqs ifaçılığı
1.3. Xalq-mərasim ifaçılığı

Yaxud təsnifatdakı muğam-ifaçılıq sənətini müvafiq olaraq, Azərbaycan muğam sənətkarlığı baxımından da, ifaçılığın subyekti baxımından da belə qruplaşdıra bilərik:

II. Naxçıvanda muğam ifaçılığı:
2.1. İnstrumental ifaçılıq
2.2. Vokal ifaçılığı
2.3. Vokal-instrumental ifaçılığı

Burada instrumental ifaçılıq muğamların peşəkarlar tərəfindən bir alətdə solo (fərdi) ifasını nəzərdə tutur. Rənglərin, dəramədlərin və muğama aid digər instrumental janrların fərdi ifası da bu sahəyə aid edilə bilər. Vacib məsələlərdən biri də odur ki, instrumental ifaçılıq solo (fərdi) və ansambl formalarında özünü göstərir.

Vokal ifaçılıq isə muğamın, yaxud ayrı-ayrı muğam şöbələrinin orta əsrlərdə dərvişlər, sufilər, rövzəxanlar tərəfindən solo-vokal ifasını nəzərdə tutur. Təəssüf ki, tərəfindən solo-vokal ifasını nəzərdə tutur. Təəssüf ki, hazırda muğamların solo-vokal ifası bir sahə və növ kimi Naxçıvanda, demək olar, istisna halda müşahidə edilə bilər.

Vokal-insturmental ifaçılıq isə muğamın dəsgah formasının, zərbi-muğamların və təsniflərin ifasını ehtiva edir. Bu ifaçılıq sahəsinə ansabml ifaçılığı kimi yanaşırıq. Belə ki, vokal-insturmental ifada bir (və ya bir neçə) oxuyan və bir (və ya bir neçə) instrumentalçı birlikdə iştirak edirlər. İstər bir oxuyan və çalğıçının, istərsə də bir neçə oxuyan və çalğının iştirak etdiyi ifa ansambl ifası deməkdir.

Naxçıvanda ifaçılıq sənətinin təsnifatında musiqimədəniyyətinin zəngin və mühüm sahəsi olan vokal ifaçılığı, bu ifaçılığın hansı istiqamətləri, janrları əhatə etməsi, hansı səciyyəvi xüsusiyyətlərə malik olması mütləq araşdırılmalıdır. Əks-təqdirdə Naxçıvanın musiqi-ifaçılıq sənəti tam öyrənilməz. Məsələn, fikirimizin təsdiqi kimi vokal ifaçılığının da bölgüsünü aparaq. Vokal ifaçılığı eyni zamanda həm musiqi folkloruna, həm mərasimlərə, həm də muğam ifaçılığına aiddir. Bütün bu istiqamətlərdə isə vokal ifaçılığı özünü üç növdə göstərir:

1. Solo-vokal ifa
2. Xorla ifa
3. Solo-xor ifası

Maraqlı sahəvi təsnifatlardan biri də Naxçıvanın müasir ifaçılıq sənətidir. Biz müasir ifaçılığı sahəvi adlandırarkən, bu sənətin heç də ayrıca bir sahə olduğunu nəzərdə tutmuruq. Çünki bir tərəfdən Naxçıvanın müasir ifaçılıq sənəti özündə həm folklor ifaçılığını, həm aşıq və muğam ifaçılığını, həm instrumental, həm də vokal ifaçılığını ehtiva edir. Deməli, müasir ifaçılıq sənəti orta əsrlərin ifaçılıq sahələrini davam etdirir. Lakin biz "Naxçıvanın müasir musiqi-ifaçılıq sənəti" dedikdə, həm də XX əsrdə musiqi ifaçılığının yeni inkişaf istiqamətlərini, yeni ifaçılıq kollektivlərinin yaranmasını, yeni ifaçılıq müsabiqələrinin keçirilməsini, yeni mədəniyyət evlərini və klublarını və burada fəaliyyət göstərən müxtəlif ifaçılıq ansambllarını nəzərdə tuturuq. Digər tərəfdən, artıq Naxçıvanda estrada, pop musiqisi, kamera, xor, simfonik musiqi ifaçılığı da geniş yayılmışdır ki, bu sahələr də müasir ifaçılığın ayrılmaz tərkibi hesab olunmalıdır. Deməli, həm də qədim ifaçılıq növlərinin bu gün davam etməsi, digər tərəfdən isə bütün müasir yeniliklər, yeni ifaçılıq ansamblları, sahələri və kadrları Naxçıvanın müasir musiqi-ifaçılıq sənətinə təsnifatda yer verilməsini aktual və zəruri edir.

Beləliklə, yuxarıda apardığımız təsnifatlarda ifaçılığın bütün sahələrini, növlərini və subyektlərini bir-biri ilə əlaqəli şəkildə nəzərə almışıq. Təsnifatın belə aparılması, musiqi-ifaçılıq sənətinin hərtərəfli öyrənilməsinə və onun sistemli şəkildə qavranılmasına xidmət edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan xalq musiqisi, Oçerklər. B., Elm, 1981.
2. Hüseynli B.X. Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası, //Azərbaycan incəsənəti. XII c. B., Elm, 1968. S.67-93.
3. Quliyev N. Naxçıvanın musiqi mədəniyyəti tarixindən, B., Elm, 1999, 140 s.
4. Məmmədov T. Azərbaycan aşıq sənəti, Dərslik, B., Apostrof, 2011, 648 s.

**ABSTRACT**

**N.Aliyarova**

**THE SYSTEMATIZATION AND CLASSIFICATION OF NAKHCHIVAN MUSIC PERFORMANCE**

The article by is about Nakhchivan music culture. Object of this investigation is Nakhchivan music performance. Music-mastery art of Nakhchivan is inseparable of Azerbaijan music history. Author investigates musicperformance kinds of Nakhchivan region. This article implementes scientific systematization and classification of Nakhchivan music performance.

**РЕЗЮМЕ**

**Н. Алиярова**

**СИСТЕМАТИЗАЦИЯ И КЛАССИФИКАЦИЯ ПРОИЗВОДИТЕЛЬНОСТИ НАХЧИВАНСКОЙ МУЗЫКИ**

В статье рассказывается о музыкальной культуре Нахчывана. Объектом этого исследования является музыкальное представление Нахчывана. Музыкальное искусство Нахчывана неотделимо от истории азербайджанской музыки. Автор исследует виды музыкальной деятельности Нахчыванской области. В этой статье представлена научная систематизация и классификация музыкальной работы Нахчывана.

---

NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

**ELFANƏ QASIMOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

**UOT:78**

# DİZAYN VƏ İNSANIN PREDMET-MƏKAN MÜHİTİ

**Açar sözlər:** *dizayn, predmet-məkan mühiti, emosional dizayn, dizayn məhsulu, sosiomədəni hadisə, estetik fenomen*
**Key words**: *design, spatial environment, emotional design, design products, socio-cultural event, esthetic phenomena*
**Ключевые слова:** *дизайн, предметно-пространственная среда, эмоциональный дизайн, дизайнерская продукция, социокультурное событие, эстетический феномен*

Dizaynda başlıca problem məkandan effektli və rasional istifadə bacarığıdır. Dizayn mühiti insanın məişət, ictimai və istehsalat fəaliyyəti üçün məqsədəuyğun, komfort və estetik şəraitinin daha da yaxşılaşdırılmasıdır.

Müasir dizaynerin fəaliyyəti ayrıca predmetlərin, yaxud ayrı-ayrı kommunikasiya obyektlərinin yaradılması ilə məhdudlaşmır. Onun diqqət mərkəzində duran bütövlükdə mühit problemidir – fərqi yoxdur, ictimai, yaxud yaşayış məkanı, ya da xarici mühit olsun. Dizayner bu məkanı müəyyən funksional proseslərə uyğun "qurur", buna insan üçün psixoloji baxımdan komfort mühitin formalaşdırılması prosesi kimi yanaşır. Ona görə də bu gün predmet-məkan mühitinin elementlərini ağıllı layihələndirmək məqsədilə insan və onun məkan əhatəsilə tələbatlarını öyrənmək və düzgün həyata keçirmək mühüm məsələdir. Başqa sözlə, mühit dizaynı insanın rahatlığı üçün istənilən ərazinin yaradıcı inkişafı deməkdir.

Doğrudur, dizaynın bütün növləri bütöv estetik məkanın formalaşdırılmasında iştirak edir, mühit dizaynını isə müasir mədəniyyətin miqyaslı hadisəsi kimi qəbul etmək lazımdır. Bu gün geniş tələb obyekti olan mütərəqqi fəaliyyət növü kimi dizayner fəaliyyəti yeni sosial-iqtisadi və bazar münasibətlərinin yaradılmasına xidmət edərək müxtəlif istehsalların rəqabətə davamlı faktorlarından biri olmuşdur.

Dizaynın çoxaspektli fenomen olması məsələsini dəfələrlə qeyd etmişik. Həqiqətən də dizaynın maddi-bədii mədəniyyətin formalarından, texnika sahəsindən predmetli bədii yaradıcılıq növlərindən biri olması, insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş layihə bədii-texniki fəaliyyət olması onun insanı formalaşdırmaq potensialına malik olmasından xəbər verir. Bu isə öz növbəsində dizaynı sistem kimi nəzərdən keçirilməsini zəruri edir.(1) Bu gün həyat keyfiyyətinin yaxşılaşdırılmasına cəhd göstərən şəxslərin "mənə müasir dizayn lazımdır" devizini başa düşmək çətin deyildir.

Bəşəri təcrübə göstərir ki, bir çox əsrlər ərzində insanın predmet-məkan mühiti, onu əhatə edən bütün predmetlər yaradıcı insanların gərgin əməyinin nəticəsidir. XIX əsrin əvvəllərində hələ mədəniyyətdə kök salmamış yeni predmetlər istehsal olunurdu ki, bu da məhsulların istehlakçıların zövqünə uyğunlaşdırılması problemini aktuallaşdırırdı. Eyni zamanda, zövqlərin proqnozlaşdırılması məsələsi də estetik amil kimi aktuallaşmağa başlayır. Bu faktor Avropada dizayner peşəsinin formalaşmasına təkan vermiş və tezliklə məlum olmuşdur ki, dizayn mürəkkəb, çoxaspekti prosesdir, çünki onun təyinatı hələ mövcud olmayan hadisənin, obyektin əvvəlcədən xarakteristikaları verilən cihazların modelini yaratmaq, təsvir etməkdir. Bununla belə, olduqca geniş, çoxsahəli fəaliyyət növü olan dizayn yaradıcılığı elmi biliklər sistemi əsasında qurulur.

Dizayner peşəsinin mürəkkəbliyi, dizayner məhsulu nəticəsində meydana çıxan problemlərin müəyyən sistemə, qaydaya salınmasını, düzülüş və məntiqi nizamlanmasını tələb edir. Ümumiyyətlə, sistemli yanaşma əsasında obyekti qarşılıqlı əlaqədə olan bütöv kompleks sistemi kimi nəzərdən keçirən elmi idrak metodologiyasında istiqamətdir.(2) Sistemli yanaşmanın mühüm

xüsusiyyəti bundadır ki, o, layihələndirmə prosesini sadələşdirir, sürətləndirir, səhvetmə imkanlarını minimuma endirir, yəni bütün sistematik metodlar məntiqi düzülüş yaradır və nəzarət etmək imkanına malik olur. Bu metodun universallığı bundadır ki, o, həm sənaye dizaynına, həm də qrafik, ved-dizayna, mühit dizaynına və s. tətbiq oluna bilər.

Elm dizayn məktəbinin görkəmli nümayəndəsi Tomas Maldonado hesab edir ki, dizaynerin qarşıya qoyduğu başlıca məqsədi sənayedə istehsal olunan predmetlərin formal keyfiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Onun fikrincə belə fəaliyyət forması öz keyfiyyətləri ilə təkcə xarici görünüşə deyil, eləcə də sistemi bütöv vəhdətə çevirən struktur və funksional əlaqələrə də aid edilə bilər. T.Maldonadoya görə, dizayn sistem şəklində belə incəsənəti nə inkar, nə də əvəz edə bilər, çünki bu iki fəaliyyət növü müstəqil yaradıcılıq sahəsi kimi mövcuddurlar. (3) Bu məktəbin yaradıcılıq konsepsiyasına görə dizayn başlıca olaraq sənaye məhsullarının layihələndirilməsi ilə məşğul olan sahədir.

Lakin bu fəaliyyətin əsas istiqaməti predmetlərin mühüm xüsusiyyətlərini konstruksiya edərkən təbiətin elə materialının köməkliyi həll etməyə çalışır ki, bu eyni zamanda istehsalçının və istehlakçının zövqünü təmin edən məhsulun əldə edilməsinə nail olunsun. Bununla dizayn formaca bütöv olan, insanı əhatə edən predmet-məkan mühitini dəyişdirən və harmonik ab-hava yaradan kompleksləri layihələndirməyə çalışaraq mədəniyyətə özünün estetik töhvəsini vermiş olur.

Dizayn yaradıcılığı bir mədəniyyət fenomeni kimi dövrünün ideoloji çağırışına da reaksiya verir, çünki dizayner öz fəaliyyətində həmişə öz dünyagörüşünə və yaşadığı cəmiyyətin ideologiyasına söykənərək özünün bədii vəzifələrini həyata keçirir. Məhz belə mövqeyi sayəsində dizayner dövrün həyat tərzini təbliğ edə bilir. Digər tərəfdən, dizayn layihələndirmə metodikasının əsaslarını və inkişaf meyillərinin problematikasını, onun modelini mövcud ideoloji mövqe nəticəsində başa düşmək olar. Başqa sözlə, layihə şüurunun genezisini dizaynerin ideoloji mövqeyi sayəsində aydın görmək mümkündür.

Dizayn yaradıcılığı dünyanın yeni obrazını peşəkarlıqla yaradılması və dizaynerin estetik refleksiyası zəminində insan konsepsiyasının yaradılması, insanın yaradıcı potensialının təzahürü deməkdir. Yaradıcılıq prosesi göstərir ki, sosiomədəni aləmi obyektiv reallığın və insan dəyərlərinin subyektiv yaşantısının vəhdəti kimi modelləşdirmək qabiliyyəti yalnız insana xasdır.

Real gerçəklikdə dizaynın bir fenomen kimi mahiyyətinin dərk olunması prosesində dizaynın metodikasının təkamülü məsələsinin düzgün araşdırılması çox mühüm məqamdır. Problem bundadır ki, dizaynın əsl təbiətini, xüsusilə onun formalaşdırıcı potensialını bu sənət sahəsi barədə yazılmış ədəbiyyat vasitəsilə aydınlaşdırmaq cəhdi heç də həmişə uğurlu olmur. Çətinlik bundadır ki, dizayn təşəkkül prosesində olan bir fəaliyyət forması kimi fasiləsiz hərəkətdədir. (4, 5)

Dizayn yaradıcılığının mühüm cəhətlərindən biri insanlarla yaradıcı ünsiyyət bağlamaq potensialına malik olmasıdır. Dizaynın bu keyfiyyəti predmetin fərdlərin ünsiyyət prosesində həm sinxron, həm də diaxron baxımından vasitəsi olması imkanı ilə izah edilir. Bu prosesdə dizaynın dili mühüm rol oynayır. (6) Dil məlum olduğu kimi, insanların bir-biri ilə ünsiyyət vasitəsidir. Vizual dizayn vizual dil deməkdir. Vizual dizaynın öyrənilməsi isə yeni dilin öyrənilməsindən heç bir şeylə fərqlənmir. Hər bir dilin öz ifadə vasitələri vardır və bu potensial əşyadan istifadə prosesində predmetin mahiyyətinin açılmasına xidmət edir lakin burada informasiya birtərəfli həyata keçirilir. Əgər əşyadan istifadə edən şəxs bu və ya digər dildə danışa bilərsə proses praktiki-mənəvi və ikitərəfli qaydada gedə bilər. Belə halda dizaynerin yaradıcı təfəkkürünün predmetdə yerləşdirdiyi mənalar üzə çıxır, onların dəyər məzmunu başa düşülür. Belə bir ünsiyyət forması əşyanı yaradanla ona malik olan arasında dialoqa çevrilir, dərin, fərdi xarakter kəsb edir. Predmeti ərsəyə gətirən dizayner, təbii ki, kanonla, ənənələrlə, peşə normaları və qaydaları ilə sıx bağlı olur. Sənaye yolu ilə hazırlanmış əşyanın maksimum ifadəliliyi, fərdi xarakteri, təkrarsızlığı nəinki istehlakçının praktiki-estetik tələbatını ödəyir, həmçinin bədii yaradıcılıq nümunəsi kimi onun zövqünə təsir göstərir. Predmetdə dizayner tərəfindən yerləşdirilən mənalar və simvolika istehlakçıya mənəvi-intellektual həzz verir, istehlakçıda predmet mühitinin mənəvi dolğunluğu təsəvvürünü gücləndirir.

Dizayner çalışır ki, rəhbər tutduğu estetik prinsiplərlə istehlakçıda gözəllikdən həzz almaq hissini inkişaf etdirsin, həyatdan kifayət qədər qane olmamaq hissinin yerini doldursun. Müasir dizayn estetik ideyaların maddiləşməsi, onların insanın emosiyasına müsbət təsir göstərməsi üçün

öz potensialından geniş və yaradıcılıqla istifadə etməyə cəhd göstərir. Dizayn bir unikal hadisə kimi təbii insan qabiliyyətlərini, estetikanın, etikanın dəyərlərini, insan haqqında qayğı hissinin aşılandığı bir fenomendir.

Dizayn bir sosial hadisə kimi harmonik predmet mühiti yaratmaqla insan varlığına müsbət emosiyalar aşılayır, onu özgələşdirici mühitdən uzaqlaşdırır, bununla da fərdə humanistləşdirici təsir göstərir. Bu potensialı sayəsində dizayn bir tərəfdən insani dəyərlərin inkişafına səy göstərir, digər tərəfdən, bütövlükdə insanla sosium arasında ziddiyyətlərin yüngülləşdirilməyə çalışır. Memarlar müasir yaşayış binalarını yaradarkən, şəhərin ümumi mənzərəsinə yeni görkəm verməklə, torpaq yerlərindən səmərəli istifadə etməklə humanist, rahat mühit yaratmış olur, başqa sözlə, məkanı nizama salır, ona bir növ insani görkəm verir. Bu baxımdan hesab edirik ki, nəzəri bilikləri rəhbər tutan Azərbaycanın dizaynerləri qarşısında nəinki keyfiyyətli məhsul, hər şeydən əvvəl xarici görkəminə görə cəlbedici, potensial istehlakçıların rəğbətlə qarşılaya biləcəyi predmetlər yaratmaq durur. Predmetdəki ifadəlilik, gözəllik insana emosional və psixosomatik təsirinin gücü dizayn sənətini daha da nüfuzlu edir, istehsalçını razı salır. Bu kontekstdə peşəkar dizayna aparan yol çox çətindir, beləki, bu peşəyə olan tələblər sistemində fantaziya, yüksək estetik zövq başda olmaqla yaradıcılıq qabiliyyəti, təbii ki, istedad ən mühüm yerləri tutur. Lakin bütün bu keyfiyyətləri təkmilləşdirmək üçün, şübhəsiz ki, dizayn təhsili önəmli fenomendir.

Dizaynın təsir potensialı probleminə aydınlıq gətirmək məqsədilə belə bir məsələyə toxunmağı lazım bilirik. Mədəniyyətin müxtəlif növlərinə toxunarkən xalq sənəti, yaxud peşə sahələrini milli mədəniyyət anlayışını tətbiq edirik və bu, bizdə heç bir şübhə oyatmır. Hətta demək mümkündür ki, belə məsələdə kulturoloji təhlil müəyyən mənada sənətşünaslıq təhlil metodunu sıxışdırmışdır. Dizayna münasibət isə başqadır. O, maşın texnikası ilə sıx bağlı olduğundan, çox zaman belə bir fikir qabardılır ki, dizaynerin fəaliyyəti mədəniyyət ənənələrindən az asılıdır.

Problemə belə yanaşma heç də həqiqətə uyğun deyil. Dizayn yaradıcılığının potensialında yalnız predmetlərin kütləvi yayılmasını təmin edən mədəni dəyərlər yeganə üstünlük deyil, əksinə dizayn özü cəmiyyətin daxilində sosial hadisə kimi təkcə yalnız "universal texnika" ilə deyil, daha çox sosiumun unikal və sabit, davamlı dəyər və normalarının məcmusu ilə müəyyən edilir. (7)

Hər bir mədəniyyətdə dəyər və normaların məcmusu özününküdür və başqa mədəniyyətin fundamental dəyər və normalarına oxşamır. Hər hansı bir ənənəvi cəmiyyət texnika ilə birlikdə iqtisadi artım, dizaynı və s. qəbul etdikdə onda, şübhəsiz ki, mədəniyyətin bəzi dəyərləri və normaları – xüsusilə onların mənalarının predmet ifadəlik formaları – dəyişir, lakin bu dəyişiliklər, bir qayda olaraq, mədəniyyətin nüvəsinə təsir göstərmir: mədəniyyətin bütovlüyü pozulmur. Bundan əlavə, əksinə, nüvədən irəli gələn bağlanma qüvvələri mənimsənilən mədəni dəyərləri özünə, bütövə tabe etdirir və bu sonradan qəbul edilmiş dəyərlər kimi xüsusi məna kəsb edir. Məhz mədəniyyətlərin unikallığı, onların qarşılıqlı təsirinin şərti kimi çıxış edir. Belə mədəniyyətləri insan cəmiyyətinə və fərdin həyatına ona görə gərəklidirlər ki, bir-birlərinə bənzəmirlər. Burada təəccüblü bir şey yoxdur, çünki dəyişən xarici örtükdədir, dəyərlərin və normaların örtüyündə baş verir, dəyişiklik mədəniyyətin nüvəsinə və bütövlüyünə toxunmur.

Bunu da qeyd etmək vacibdir ki, müasir mədəni mübadilənin intensivliyi ilə şərtlənən sürətli mədəni dəyişiliklər konkret mədəniyyətə aid, mənsub olan insanların şüurunda, onların qarşılıqlı münasibətlərində təzahür edən mədəni ənənənin gücünü hiss etmək olur. Bunlar dizayn sənətinə, dizaynerin yaradıcılığına da aiddir. Lakin bununla belə etiraf edilməlidir ki, bu mədəni şərtiliyi müəyyən etmək o qədər də sadə iş deyil, çünki müasir mərhələdə onun zahirən görünən eyniliyi, oxşarlığı belə bir təsəvvür oyadır ki, dizayn sanki müəyyən mədəniyyətə neytral vəziyyətdədir.

Bir zamanlar maşın və onun istehsal etdiyi, yaratdığı predmet mühiti uzun müddət təbiətə qarşı daha radikal mövqedə olmuşdur, nəinki mədəniyyətin predmet aləmi. Bu kontekstdə maşın və onun məmulatları da sənaye dizaynın predmet aləmilə konfliktdə olmalı idi.

Təbiətlə mədəniyyət arasında maşınlar və onların yöndəmsiz məhsulları arasında uçurumu uzun müddət aradan qaldırmaq mümkün olmamışdır. Lakin fərdin təbii-yaradıcı qüvvələrini "azadlığa buraxan" həmin şəxsiyyət mədəniyyəti yenidən daxildən maşın-təbiət qüvvələrini yeni hakim və zərif libasda – sənaye dizaynını üzə çıxardı. 200 ildir ki, iri sənaye bəşəriyyətin həyatına hakim kəsilmişdir.

Müasir dizayn insan münasibətlərinin yeni əmtəə-şeylərin təsiri ilə, sosial təşkilin yeni vasitələrinin daxilində şəxsiyyət – mədəni yaradıcılıq subyekti təsiri ilə təşəkkül tapmışdır. İstehsal prosesinin bilavasitə təsirindən azad olaraq sənaye layihələndirilməsi elə bir kanal oldu ki, bunun vasitəsilə dizayn özünün bütün potensial ilə, plastik ifadəli mədəni mənaları ilə predmet aləminə nüfuz etmək imkanı əldə etmişdir. İstehsalın özü yenidən incəsənət olmadı. Lakin texniki sivilizasiyasının predmet aləmi, görünməmiş gözəlliyi üzə çıxardaraq özünəməsus bədii mədəniyyətlərin tarixi sırasında öz yerini tutdu, çünki dizayn-üslublar sırasında öz maşın texnikasının estetik prinsiplərini aşkarlayaraq dizayn bununla yanaşı predmet yaradıcılığının mədəni varisliyini bərpa etdi.

Adama elə gəlirdi ki, meydana gəldiyi vaxt texnika insanı həmişəlik olaraq artıq yaradılmış bütün dəyərlərdən asılılığını azaldacaqdır. İndi isə texnika dizaynerin əlində elə itaətkar alətə çevrilib ki, vaxtilə mövcud olmuş bədii cərəyanları, istiqamətləri, üslubları azad şəkildə geri qaytarmağa, unudulmuşları canlandırmağa kömək edir, tarixi mədəni sintezə nail olur.

Beləliklə, qeyd etmək mümkündür ki, dizayn cəmiyyətin mədəniyyətindən tam asılıdır. Elmi-texniki tərəqqinin yaratdığı mühitdə formalaşmış hər bir cəmiyyət həmin mühitə uyğun formaları özündə ehtiva etməlidir. Bu potensial ilə dizayn müasir insanın estetik dünyagörüşünü formalaşdırır.

Dizaynın formalaşdırıcı potensialının daha bir aspektini, bəlkə də daha maraqlı aspekti-emosional dizaynın təsir potensialı üzrəində dayanaq. Bir qayda olaraq, dizayner məhsulun istifadəsində ən müsbət tərəfləri göstərməyə çalışır. Bir qayda olaraq, bunun üçün neqativ elementlər, ya minimuma endirilir, ya da tamamilə aradan qaldırır ki, bunun da sayəsində istifadə yaxşılaşdırılır. Lakin istifadəçidə heç də həmişə müsbət təəssürat yaranmır. İnsana həzz vermək üçün dizayn məhsulları faydalı, praktiki, gözəl olmalıdır, insanlara həzz verməli, fiziki və mənəvi zövq aşılamalıdır. Deməli, məqsəd predmet mühitini, həmçinin rahatlığı və gözəlliyi duymaq qabiliyyətini formalaşdırmaqdır. Bu isə istifadəçinin emosiyalarına təsir bağışlamalı, onun emosional təbiətini oyatmalıdır. İnsana zövqü dərk etmək üçün emosional dizayn lazımdır.

Donald Norman özünün “Emosional dizayn” əsərində izah edir ki, nə üçün cəlbedicilik daha yaxşı işləyir. Müəllifin fikrincə, gözəl predmetlərə baxmaq insanda yaradıcı başlanğıcı oyadır və ətraf mühiti qavrama diapozonunu genişləndirir, bununla da həmin predmetlərdəki xırda qüsurların təsirini minimuma endirir. (8) Beləliklə, cəlbedici məhsullar problemlərin həllini sadələşdirir ki, bu da onalrın estetik cəlbediciliyini uğurun zəruri şərti edir. Bu elə bir dizayn növüdür ki, istehlakçıda müsbət emosiyalar, sevinc, razılıq hissi oyadır.

Aaron Uolter özünün “Emosiyanı layihələndirərək” kitabında emosiyaları “bəşəriyyətin ümumi dili” adlandırır, bu elə bir hissdir ki, hər bir kəsə dünyaya göz açdığı gündən məlumdur. Uolter emosional həyacanların istifadəçinin təcrübəsində niyə əhəmiyyətlidir məsələsini açıqlayır: emosiyalar yaddaşda uzunmüddətli dərin iz buraxır, məhz bunlar insana hiss etdirir ki, qlobal şəbəkədə interaksiyanın ikinci tərəfi maşın deyil, insanın özüdür. (9)

Norman və Uolter belə bir yekdil mövqedən çıxış edirlər ki, müasir veb-dizaynın potensialının tam reallaşması üçün açardır. Təsadüf deyildir ki, dizaynın emosional tərkib hissələri layihələndirmə üçün mühüm əhəmiyyət kəsb edir. Bu, indormasiya sistemlərinin daha çox kütləvi və kommersiya xarakteri alması ilə bağlıdır. Kütləvilik o deməkdir ki, istifadəçi daha çox sadəlövh, hazırlıqsızdır və predmet sahəsinin rasional başa düşmək onun üçün çətindir, emosional qavrama isə çox dərəcədə anadangəlmə keyfiyyətdir, onu o qədər də tərbiyə etmək olmur.

Araşdırmaların kommersiya xarakteri isə məhsulun cəlbediciliyinin əhəmiyyətini artırır (yenə də emosiya). Yaxşı dizayn potensial imkanlarını effektiv həyata keçirmək sayəsində istifadəçinin zövqünü oxşayır, onu yeni-yeni estetik zövqü oxşayan dizayn məhsullarını almağa həvəsləndirir. Dizayn biznesi o zaman komfort şəraitində fəaliyyət göstərir ki, burada işin nəticələri və effektliyini ölçmək mümkün olsun. Çətin ölçüləri və mürəkkəb idarə olunan predmetləri idarə edəndə ortaya problemlər çıxır, beləki, emosional faktorlar üstünlük təşkil etməyə başlayır.

Effektli dizayn praktik əməliyyat tələblərinə cavab verməli, həmçinin istifadəçilərin və auditoriyanın emosional tələbatlarını və istəklərini təmin etməlidir. Doğrudur, əgər praktiki meyarları ölçmək mümkündürsə, keyfiyyəti ölçmək o qədər də asan iş deyil. Qavrama həmşə

subyektvi mahiyyət daşıyır: biri üçün gözəl görünən məhsul başqasının xoşuna gəlmir. Brend obrazla və nüfuzla yaratmaq və idarə etməkdir, fərqi yoxdur, niyə rasional meyarlar niyə bir brendin digərindən üstündür məsələsində müəyyən edici qüvvələr olduğunu təsir etmək ehtiyacı üzə çıxanda istifadə olunur. Məsələn, məhsul vəd edilmiş baza funksiyasını yerinə yetirməlidir, lakin bəzi hallarda bu və ya digər məhsulun ilk növbədə seçiləcəyini məhz emosional qavrama müəyyən edir. Deməli, psixoloji faktorlar nəzərə alınmalıdır.

Bu sahədə emosional münasibət daha çox avtomobil seçilərkən üzə çıxır, başqa sözlə, istehlakçının düşüncəsində obyektin dizayn dəyəri əsas götürülür. Hamıya bəllidir ki, hər hansı brendin yüksək dəyəri, deməli onun bazar qiyməti, daha çox dərəcədə effektli dizaynın yaratdığı emosional dəyərə əsaslanır.

Bütün bu qəbildən olan nümunələrə baxmayaraq bir çox kampaniyaların menecerləri mühüm əhəmiyyət kəsb edən emosional faktorlara olduqca biganə yanaşırlar. Memarların məqsədi alıcılar və əməkdaşlar üçün onların təkcə zövqünü oxçamaq deyil, həm də onların gözlədiklərindən daha yaxşı məhsul təqdim etməkdir. "Forma funksiyadan sonra gəlir" devizinə inanmaq lazım gəlir. Əvvəllər bu bulavasitə öz funksiyasını göstərişlərin praktik istifadə olunması planında xalis dizayn qərarların həyata keçirilməsini bildirirdi.

Bu gün isə funksiyalar anlayışı altında rasional ölçülən faktorlar kompleksi (dəyər, fəaliyyət, istifadə, çeviklik, davamlılıq və s.) kimi, xüsusilə müstəsna emosional faktorlar (estetika, əhval-ruhiyyə və hisslər kimi) başa düşülür. Təcrübə göstərir ki, binanın iqtisadi effektinə baxmayaraq, ekoloji meyarlar daha ciddi şəkildə nəzərə  alınır, çünki çox zaman istifadəçilərin emosional tələbatını ödəyə bilmir. Belə vəziyyətdə insani, fiziki və funksional qarşılıqlı təsir vacibdir. Bu o deməkdir ki, təşkilatın hər bir üzvü məqsədli auditoriya üçün yaradılan pozitiv, emosional və rasional təcrübəyə qoşulmalıdır. Dizaynerin başlıca məqsədi buna nail olmaqdır.

Bizə elə gəlir ki, yaxşı, emosional dizayn insanların qəlbini sevinclə dolduran, onları samballı malların alınmasına həvəsini artırmağa çalışan dizayndır. Burada emosional intellekt məsələsi ilə də üzləşməli oluruq. Həyat belədir ki, insan nəsə bir cəlbedici, estetik cəhətdən xoş bir fenomenlə üzləşəndə o, yaradıcı düşünmə aləminə qatılır, neqativ hallara az diqqət yetirir. Vizual qavramanın üz səviyyəsi arasında harmonik balansa riayət etdikdə emosional dizayn adi istifadəçini brendin – "pərəstişkarına" çevirmək qabiliyyətini nümayiş etdirmiş olur, belə halda həmin istifadəçi özünün müsbət təcrübəsini hökmən başqaları ilə bölüşdürmək niyyətində bulunur. Bu kontekstdə emosional intellekt problemi öz aktuallığını nəzərə çarpdırır. Ədəbiyyatda göstərildiyi kimi intellekt yalnız informasiyanın işlənməsi mexanizmi deyil, o hər şeydən əvvəl, psixiki və davranış fəallığının mexanizmidir. Bu konseptual fikir ilk dəfə 1924-cü ildə L.L.Ferstoun tərəfindən  "İntellektin təbiəti" əsərində irəli sürülmüşdür. (10)

Emosional intellekt anlayışı isə ənənəvi intellekt testlərinin insanın karyerasında və həyatda uğurunu irəlicədən bildirə bilməməsi zəifliyinə reaksiya kimi yaranmışdır. Bunu onunla izah etmək olar ki, uğurlu insanlar başqa insanlarla effektli qarşılıqlı əlaqəyə yalnız effektli emosional əlaqələr, öz emosiyalarını effektiv idarə etmək qabiliyyətinə malik olduqları təqdirdə nail olurlar, ikinci bir-tərəfdən qəbul olunmuş intellekt anlayışı özündə bu testləri ehtiva etməmiş və intellektin testləri bu qabiliyyətləri dəyərləndirə bilməmişlər.

Psixoloqlar Stiven Stayn və Qovard Buk hesab edirlər ki, bizə məlum olan intellektdən fərqli olaraq emosional intellekt şəraiti düzgün şərh etmək və ona təsir göstərmək, başqalarının nə istədiyini və nəyə ehtiyacı olduğunu intuitiv tutmaq, onların güclü və zəif tərəflərini bilmək, stressə qapılmamaq və lətafətli olmaq bacarığıdır. (11) Beləliklə, emosional intellekt başqalarının emosiyalarını dərk etmək, niyyətlərini, motivasiyasını və istəklərini və öz istəklərini başa düşmək qabiliyyətidir. Və həmçinin praktiki məsələləri həll etmək üçün öz emosiyalarını və başqalarının emosiyalarını idarə etmək qabiliyyətidir. (12)

Dizayn yaradıcılığının formalaşdırıcı potensialının ən mühüm elementi geniş auditoriya ilə təmasda olmasıdır. Məqsədli auditoriya qarşısında canlı çıxış dizaynerin özü üçün çox maraqlı təcrübədir. Auditoriyaya daxil olan dizayner, bütün hallarda optimal ünsiyyət vasitəsini seçməli, öz yaradıcılıq kredosunun mahiyyətini, estetik idealının prinsiplərini çatdırmağı bacarmalıdır. Birincisi, o, ünsiyyətin əsas məqsədini və motivlərini bilməlidir. İkincisi, auditoriyanın spesifikası

barədə onda tam təsəvvür olmalıdır. (13) Canlı auditoriya ilə canlı iş görmək – dizaynerlə dinləyicilərin ikitərəfli əlaqəsi deməkdir.

Deyilənlərdən belə nəticəyə gəlmək mümkündür ki, dizayn cəmiyyətdə sosiomədəni hadisə və estetik fenomen kimi böyük formalaşdıra potensialına malik olmaqla insanlara, humanist ideallara xidmət edən bədii-estetik yaradıcılıq formasıdır.

## ƏDƏBİYYAT


1. Р.П.Валькова, Ю.Ф.Грабовенко. Дизайн: очерки теории системного проектирования. Л., ЛГУ, 1983, 183 с.
2. Блауберг И.В., Садовский В.Н., Юдин Э.Г. Системный подход в современной науке. //Проблемы методологии системных исследований. М., «Мысль», 1970, с.7-48.
3. Дижур А.Л. Ульмская школа художественного конструктирования. //Техническая эстетика, 1964, № с.14-17
4. Ибрагимова Н.И. Дизайн как средство гуманизации техногенной среды современного города. // Desigq-revirev, №1, 2011, с.27-31
5. Глухова Т.С. Архитектура как вид эстетической деятельности и особый способ проектного мышления. // www.tabu.27 ru
6. Вах: Двоскин И.Л. Художественный язык дизайна. Б., 2006, 152 с. Həmçinin, Бублик Н.В. Язык дизайна как организующий элемент проектной деятельности. (Электронный ресурс) //Архитетон: известия вузов. №42 (Приложение). – Режим доступа: http:// archvuz.ru/numbers/2013_22/75
7. Карл Канютр. Дизайн в противоречиях культуры и природы. http://rosdesign.com/design_materials3/design_k.htm
8. downloadfreetan.bitballoon.com/emocionaljnij-dizajn-donaljd-norman-pdf.html
9. zapstroy.ru/wp-content/uploads/.../Aaron-U.-Emotsionalnyj-veb-dizajn-2012-.pdf
10. М.А.Холодная. Психология интеллекта. СПБ, «Питер», 2001, с.68 (272 с.)
11. Стивен Дж Стейн, Говагд И.Бук. Преимущества Е.Г. Эмоциональный интеллект и ваши успехи. Баланс Бизнес Букс, 2007, 384 с. http://lib.ru/DPEOPLE/eq.txt
12. Андреева И.Н. Эмоциальный интеллект: исследование феномена. //Вопросы психологии, 2006, №3, с.78-86.
13. Захаров Г.В. Цели и мотивы общения. Samilib/ru/z/zaxarov-g-w-tech-pril.shtml


## ABSTRACT


**Elfana Gasimova**


## DESIGN AND HUMAN SPATIAL ENVIRONMENT


The given article investigates the result, process and art-engineering method, directed on a more full-fledged conformity of demand, and both utilitarian and esthetic human, environment and object possibilities created by complexes and systems of industrial design products from the point of view human taste development.

Influence of design on human from socio-cultural area is continuously rising. Thus, harmonic design stands as a condition of indisputable competitive advantage under condition of modern relations of market economy. The given phenomena forms picture of values in the world, enhances and artfully uses positive traditions. Designer work, in cooperation with design and preparation, does not only create comfort and convenience, but it also influences person’s emotional state, enhancing his/her esthetic outlook with products and professionalism.

## РЕЗЮМЕ

**Эльфана Гасымова**

## ДИЗАЙН И ПРЕДМЕТНО-ПРОСТРАНСТВЕННАЯ СРЕДА ЧЕЛОВЕКА

В статье исследуются результат, процесс и художественно-технический метод, направленный на более полноценное соответствие спроса и как утилитарных, так и эстетических возможностей человека, среды и объектов, созданных комплексами и системами промышленных продуктов дизайна с точки зрения развития вкуса у человека.

Влияние дизайна на человека из социокультурной области постоянно растет. Таким образом, гармонический дизайн, в условиях современных отношений рыночной экономики, выступает как условие неоспоримого конкурентного преимущества. Данный феномен формирует картину ценности в мире, обогащает, творчески пользуется позитивными традициями. Дизайнерский труд, активно участвовавший в разработке и подготовке новых тенденций, создает для людей не только комфорт и удобства, приносит в жизнь гармонию и стабильность, но в то же время влияет на эмоциональную природу человека, обогащая его эстетическое мировоззрение своей продукцией и профессионализмом.



NDU-nun Elmi Şurasının 27 fevral 2018-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 06).

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İ.Məhərrəmova

# MÜNDƏRİCAT

## PEDAQOGİKA


1. **Mehriban Cəfərova.** Musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı məktəblilərə mənəvi keyfiyyətlərin aşılanması işinin psixoloji əsasları............................... 3
2. **Lalə Allahverdiyeva**, **Günay Şirəliyeva.** Azuşaqlı və çoxuşaqlı ailələrin tərbiyə imkanları.. 7
3. **Şərəbanı Məmmədova.** Uşaq və gənclərin mütaliəsində kitabxana rəhbərliyinin vəzifələri……… 11
4. **Mehdi Səma**. Xarici dillərin tədrisi prosesində tələbələrin özünütəhsil hazırlığı............... 15
5. **Fuada Allahverdiyeva.** İnformasiya cəmiyyətində sosiallaşma prosesinin psixoloji aspektləri......................................................................................... 19
6. **Çapay Quliyev.** Yeniyetmələrin milli mənlik şüurunun formalaşmasında təlabat və maraqların nəzərə alınması imkanları..................................................................... 23
7. **Gülmira Hacıyeva**. Əliqulu Qəmküsarın yaradıcılığında ideya-siyasi tərbiyə məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti............................................................ 28
8. **Tükəzban Rüstəmova.** İmtahan stresinin təsiri altında tələbələrdə psixoloji göstəricilərin tədqiqi......................................................................................... 32
9. **Nigar Zeynalova.** Tələbələrdə kreativliyin inkişafinin əsas şərtləri............................... 36
10. **Aydın Şiriyev**, **Səyavuş Gözəlov.** Sülh və hərbi münaqişə dövründə yaranan fövqəladə hallar zamanı psixoloji davamlılığın formalaşması.......................................... 42
11. **Sevda Kərimova.** Pedaqoji prosesin qiymətləndirilməsi................................................. 46


## METODİKA


12. **İbrahim Rüstəmov.** İbtidai siniflərdə şagirdlərin ədəd anlayışı və hesab əməlləri ilə tanış edilməsi metodikasında əsas istiqamətlər............................................................ 50
13. **Shahla Shiraliyeva.** Innovative methods of students training…………………………… 55
14. **Elza Aşurova**. Ali məktəblərdə ingilis dilinin tədrisində gənc kadrların peşəkarlığının inkişaf etdirilməsi problemləri……………………………………………………… 59
15. **Fariz Əhmədov.** Naxçıvan Dövlət Universitetində distant təhsilin perspektivləri və elektron kitabxananın bu təhsil sisteminə inteqrasiyası..................................................... 63
16. **Vidadi Salmanov, Könül Salmanova.** Ekologiya və mənəviyyat.........................................66
17. **Əli Həsənov, Ülviyyə İsgəndərova, Həsən Həsənov, Röya Məmmədova.** Kurikulum islahatında motivasiyanın aparılmasının metodikası......................................................... 71
18. **Məmmədəli Rəhimov, Heyrat Qulamov.** Zorxanalardan güləş arenalarına ...................... 75
19. **Valeh Əlixanov.** İnsanın artıq çəkisinin aradan qaldırılmasının vasitə və metodları.......... 82
20. **Əvəz Tağıyev.** Məktəbdə bədən tərbiyəsi dərsi fiziki tərbiyə sisteminin əsasıdır......... 86
21. **Oktay Rzayev, Nərminə Həsənova.** Fövqəladə vəziyyət zamanı əhalinin xəbərdar edilməsi...... 89
22. **Aygün Rüstəmova.** Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə adaptasiyasında hafizənin rolu.............................................................................................. 93


## SƏNƏTŞÜNASLIQ


23. **İsmayıl Zeynalov.** XX əsrin birinci yarısında Naxçıvan bölməsində bəzi ənənəvi sənət və peşə növləri haqqında etnoqrafik araşdırmalar..................................................... 97
24. **Qadir Əliyev.** Ordubad rayonu köhnə Kotam kəndinin memarlıq nümunələrinin tədqiqi. 101
25. **Məmməd Əliyev, Nazəndə Məcidli.** Bəhruz Kəngərlinin bədii irsi xalqımızın milli sərvətidir......................................................................................... 107
26. **Səyyarə Sadıxova, Günay Həsənova.** Azərbaycanın müxtəlif sənət nümunələrinin dekor sistemində bəzi həndəsi ornamentlərin yaradılma prinsipləri və mənası ................. 114
27. **Amil Əsgərov**. Naxçıvan “Dədə Qorqud” qəhrəmanlarının əsas yaşayış məskənidir.......... 117

28. **Mahir Xəlilov.** Şamil Qazıyevin yaradıcılığında milli motivlər.............................................121
29. **Həbibə Allahverdiyeva, Gülbani Əliyeva.** Azərbaycanda VII -XIII əsrlərdə daş üzərində oyma sənəti.......................................................................................................... 124
30. **Bəsirət Zeynalov.** XX-əsrin birinci yarısında taxılçılıq təsərrüfatında biçim, döyüm və taxılın saxlanması qaydaları.......................................................................... 130
31. **Zenfira Seyidova.** Klassik Azərbaycan qadın şairləri muzey ekspozisiyasında................ 134
32. **Sanam Pashayeva**. Nakhchıvan State Flag museum and State Flag square………………. 138
33. **Ляман Мамедова.** Реализм в искусстве............................................................................ 141
34. **Fatma Şahbazova.** Hüseynqulu Əliyevin yaradıcılıq fəaliyyəti........................................ 145
35. **Akay Məmmədova**. Rembrandt Van Reyn yaradıcılığında portret janrı………………… 149
36. **Vidadi Heydərov**. Alətlərin şahı.........................................................................................152
37. **Şəbnəm Şirinova**. Simli alətlərin yaranması və orkestrdə rolu............................................ 157
38. **Sevda Hüseynova.** Solfecio tədrisində musiqini eşitmə qabiliyyəti.................................... 161
39. **Zemfira Babayeva**. Bəstəkar ömrü.......................................................................................167
40. **Fizzə Quliyeva.** Şamil Qazıyevin əsərlərində köhnə Naxçıvanın təsviri ............................. 170
41. **Aynur Səfərova.** Azərbaycan bəstəkarlarının fortepiano və orkestr üçün konsertlərinin səciyyəvi xüsusiyyətləri...........................................................................175
42. **Cəlaləddin Əliyev.** Tərbiyə prosesində xalq musiqisindən istifadə etməklə yeniyetmələrin əməyə və vətənə məhəbbət ruhunda tərbiyəsinin birgə imkanları.........................................179
43. **Nisə Əliyarova**. Naxçıvanda musiqi-ifaçılıq sənətinin sistemləşdirilməsi və təsnifatı...........182
44. **Elfanə Qasımova.** Dizayn və insanın predmet-məkan mühiti..............................................186